ADIŞ MƏMMƏDOV

# DİPLOMATİK LÜĞƏT

*Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyinə ithaf olunur*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

"QAPP-POLIQRAF"
БАКЫ - 2001

Az2
M 52

*Elmi məsləhətçi:* **Vilayət Muxtar oğlu Quliyev**
*Azərbaycan Respublikası Xarici İşlər Naziri, professor*

*Redaktor:* **Rüstəm Fəxrəddin oğlu Məmmədov**
*Hüquq elmləri namizədi, dosent*

*Rəyçilər:* **Elçin Tələt oğlu Bağırov**
*AR XİN, Dövlət Protokolu İdarəsinin rəisi*

**Turqay İmanqulu oğlu Bağırov**
*Hüquq elmləri namizədi*

*M52* **Məmmədov Adış Sakit oğlu, Diplomatik lüğət .** Bakı, "QAPP-POLIQRAF" Nəşriyyat-Poliqrafiya Korporasiyası, 2001, 366 s.

Kitabda beynəlxalq münasibətlər və diplomatiya sahəsində ən çox işlənən terminlərin geniş izahı, dünya ölkələri və bir çox beynəlxalq təşkilatlar haqqında qısa məlumat verilmişdir. Bunlarla yanaşı, həm orta əsrlər, həm də XX əsr Azərbaycan diplomatiyasının tarixi ilə bağlı reallıqlar kitabda əks olunmuşdur.

Kitab diplomatlar və beynəlxal münasibətlərlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

*Müəllif Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdir müavini Tariyel Həsənova kitabın hazırlanması haqda dəyərli fikirlərinə görə öz dərin təşəkkürünü bildirir.*

© "İRŞAD" MƏRKƏZİ, 2001

© "QAPP-POLIQRAF", 2001

M $\frac{4702060200-91}{107}$

## ÖN SÖZ

*Bu ilin payızında Azərbaycan Respublikasında dövlət müstəqilliyimizin bərpa olunmasının 10 illiyi qeyd ediləcək. On il ərzində bütün çətinliklərə, daxili və xarici ziddiyyətlərə, nəhayət, indiyə qədər öz həllini tapmayan və cəmiyyətimizin irəliyə doğru inkişafına maneə törədən Dağlıq Qarabağ münaqişəsinin mövcudluğuna baxmayaraq, Azərbaycan inkişaf edib, irəliləyib, yeni müstəqil dövlət kimi dünya birliyində öz layiqli yerini tutub.*

*Heç şübhəsiz, bu mürəkkəb və çətin prosesdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət kursunun mühüm yeri və rolu olmuşdur. Azərbaycan diplomatiyası tarix etibarilə orta əsrlərə gedib çıxsa da, o özünün hərtərəfli və geniş fəaliyyət dövrünü yalnız son on ildə yaşamışdır. Ən başlıcası isə bu illər ərzində bir tərəfdən formalaşma prosesi yaşayan, o biri tərəfdən isə, necə deyərlər, daim ön atəş xəttində olan Azərbaycan diplomatiyası müstəqil dövlətçiliyimizin maraq və mənafelərinə xidmət etmişdir. Aradan keçən müddət ərzində Azərbaycan dövləti ilə birlikdə onun diplomatiyası da inkişaf etmiş və xarici siyasət sahəsində bir sıra diqqətəlayiq uğurların qazanılmasına öz töhfəsini vermişdir.*

*İndi diplomat peşəsi gənc ölkəmizdə ən populyar peşələrdən birinə çevrilmişdir. Lakin bu peşənin yalnız romantikası, yaxud vətənpərvərlik hissi hələ əsl diplomat kimi yetişmək üçün kifayətləndirici deyil. Diplomatiya hər şeydən əvvəl yüksək intellekt, geniş və hərtərəfli bilik, yalnız öz xalqının mənəvi sərvətinə deyil, bəşər mədəniyyətinə dərin bələdlik, analitik ağıl və intizam tələb edir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məsul əməkdaşı Adış Məmmədovun hazırladığı "Diplomatik lüğət" bu çətin*

*peşənin sirlərinə yiyələnmək istəyənlər üçün xüsusilə faydalı olacaq. Müəllif beynəlxalq münasibətlər və diplomatiya sahəsində ən çox işlənən anlayış və termin lərin geniş izahını vermişdir. O, eyni zamanda istər orta əsrlər, istərsə də XX əsr Azərbaycan diplomatiyası ilə bağlı reallıqların da kitabda geniş əks olunmasına çalışmışdır. Nəticədə gənc diplomatların və beynəlxalq münasibətlərlə maraqlanan bütün oxucuların stolüstü kitabına çevrilə biləcək bir əsər meydana çıxmışdır.*

*Ümid edirəm ki, bu lazımlı soraq kitabının ilk nəşri maraqla qarşılanacaq, öz növbəsində mütəxəssislərin rəy və mülahizələri əsərin sonrakı nəşrinin daha da təkmilləşdirilməsinə və əhatə dairəsinin genişləndirilməsinə imkan yaradacaq.*

***Vilayət Quliyev***
***Azərbaycan Respublikasının***
***Xarici İşlər Naziri***

# A

**AÇIQ DƏNİZ** - Beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, bütün dövlətlərin bərabərhüquqlu və azad şəkildə istifadə edə bildiyi dəniz sularıdır (ərazi, arxipelaq və daxili sulardan kənar). Heç bir dövlətin açıq dənizin hansısa hissəsinin onun suverenliyi altında olmasını iddia etməyə və ya başqa dövlətlərə açıq dənizdən azad şəkildə istifadə etməsinə mane olmağa hüququ yoxdur.

Dəniz hüququ haqqında 1958-ci il Cenevrə Konvensiyasında qeyd olunan açıq dənizin hüquqi rejimi haqqındakı müddəalar BMT-nin dəniz hüququ haqqındakı 1982-ci il Konvensiyasında daha da təkmilləşdirilmişdir. Məsələn, açıq dənizin azad olması prinsipi 1982-ci il Konvensiyasında 1958-ci il Konvensiyasına nisbətən daha da genişləndirilmiş və aşağıdakıları özündə birləşdirmişdir: azad gəmiçilik, azad hava uçuşu; sualtı kabel və boruların azad çəkilişi; azad balıqçılıq; elmi araşdırmaların azad şəkildə aparılması və s. Açıq dənizin azad olması prinsipi praktik olaraq həm sahilyanı dövlət, həm də sahilyanı olmayan dövlət, o cümlədən dənizə çıxışı olmayan dövlətlər tərəfindən bərabərhüquqlu əsaslarla həyata keçirilir.

1982-ci il Konvensiyası açıq dənizin qorunması sahəsində, dənizin canlı ehtiyatlarından istifadə olunmasında dövlətlər arasında əməkdaşlığı nəzərdə tutur.

**AÇIQ ŞƏHƏR** - Döyüşən dövlətlərin biri tərəfindən hansısa şəhərin dağıdılmaması və əhalinin öldürülməməsi üçün həmin şəhərin müdafiəsiz şəhər elan edilməsidir. Açıq şəhərdə hərbi obyektlər, hərbi hissələr və müdafiə vasitələri olmur. Quru müharibənin qanun və qaydaları haqqında 1970-ci il Haaqa bəyannaməsinə əlavənin 25-ci maddəsində açıq şəhərin hansısa üsullarla hücuma məruz qoyulması və bombalanması qadağan edilir. Açıq şəhərin hüquqi vəziyyəti hərbi münaqişələr zamanı mədəni dəyərlərin müdafiəsi haqqında 1954-cü il Haaqa Konvensiyasında da əks olunmuşdur.

İkinci Dünya müharibəsi zamanı Paris və Roma şəhərləri açıq şəhər elan edilmişdir.

**AÇIQ VƏRƏQ (girişə, çıxışa icazə)** - Diplomatik immunitet və imtiyazlardan istifadə edən xarici vətəndaşa və ya qonağa Xarici İşlər İdarəsi və ya diplomatik nümayəndəlik tərəfindən ve-

rilən sənəddir. Sənədi verən qurum öz ölkəsinin gömrük və sərhəd xidmətindən Açıq vərəqin sahibinə sərhədi keçdikdə hər cür kömək göstərilməsini xahiş edir. Adətən, Açıq vərəq verilən şəxs gömrük baxışından azad edilir.

Açıq vərəqdə nəzərdə tutulan imtiyazlar diplomatik pasportda nəzərdə tutulduğundan hal-hazırda dünyanın əksər dövlətləri açıq vərəq verilməsini dayandırmışlar.

**AD NOK** (lat. müəyyən məqsəd üçün) - Diplomatiyada xüsusi missiyanın, xüsusi nümayəndəliklərin, xüsusi təşkilatların, komitələrin və işçi qruplarının fəaliyyətini tənzimləyən, müvəqqəti xarakter daşıyan, xüsusi qoyulmuş məsələlərin yerinə yetirilməsi üçün təyin olunmuş normalardır.

**AD REFERENDUM** (lat. sonrakı baxış üçün) - "Yuxarı instansiyaların razılığı şərti daxildir" ifadəsini əvəz edən termindir. Bu düzəliş hər hansı saziş, akt, layihə və yaxud təklifə imza etmək üçün danışıqlar aparan şəxs tərəfindən imzasının şərti xarakter daşıdığı və bu imzaya razılıq bildirilməsinə ehtiyac olması əlaməti olaraq edilir.

**AFRİKA İNKİŞAF BANKI (AfİB)** - *1964-cü ilin sentyabrında* BMT-nin iqtisadiyyat Komitəsinin qərarı ilə Afrika üçün təsis edilmişdir. 1967-ci ildən fəaliyyətə başlamışdır. AfİB-yə 50 Afrika dövləti, 17 Afrikadan olmayan dövlət daxildir. Bank aksioner cəmiyyət şəklində formalaşdırılıb və Nizamnamə fondu 5 mlrd. ABŞ dollarından çoxdur. 1967-83-cü illərdə 4,8 mlrd. ABŞ dolları həcmində kredit vermişdir.

AfİB-in rəsmi funksiyası aşağıdakılardır: üzv-dövlətlərin iqtisadi və sosial inkişafını maliyyələşdirmək, daxili və xarici mənbələrini səfərbər etmək, texniki kömək göstərmək.

AfİB-in ali orqanı Müdirlər Şurasıdır, belə ki, Şuranın üzvləri üzv dövlətlərin nümayəndələridir. İcraedici orqan isə Direktorlar Şurasıdır.

AfİB-in mənzil - qərargahı Abicandadır (Fil sümüyü sahili).

**AFRİKA BİRLİYİ TƏŞKİLATI (ABT) -** Beynəlxalq hökumətlərarası regional təşkilatdır. Afrikanın müstəqil ölkələrinin dövlət və hökumət başçılarının 1963-cü ildə Əddis-Əbəbə konfransında təşkil olunmuşdur. ABT-nın 50-dən çox üzvü vardır. ABT təsis edildiyi gün - 25 may tarixi hər il Afrikanın azadlığı günü kimi



qeyd edilir.

*ABT-nin Xartiyasına görə təşkilatın əsas məqsədi aşağı*dakılardır: Afrika ölkələri arasında hərtərəfli siyasi və iqtisadi əməkdaşlığın inkişafı və Afrika ölkələrinin yaxşı yaşamasının təmin edilməsi üçün beynəlxalq arenada bu ölkələrin həmrəyliyini möhkəmləndirmək, Afrika qitəsində müstəmləkəçiliyin bütün formalarını ləğv etmək, Afrika dövlətlərinin müstəqilliyini qorumaq. ABT-nin beynəlxalq arenada əsas siyasi xətti "qoşulmamaq siyasəti" və BMT Nizamnaməsinə uyğun olaraq əməkdaşlıqdır. ABT-nin Xartiyasında Afrika birliyinin uğurlu inkişafı ilə ümumi sülh və təhlükəsizliyin möhkəmlənməsi arasında sıx əlaqənin olması qeyd olunur.

ABT-nın ali orqanı hökumət başçılarının Assambleyasıdır və ildə bir dəfə toplaşır. Ali icraedici orqan ildə iki dəfə toplanan Nazirlər Şurasıdır, daimi inzibati orqan isə Baş Katiblikdir. ABT-nin orqanlarının qərarı məcburi xarakter daşımır.

ABT BMT-də və onun ixtisaslaşmış qurumlarında müşahidəçi statusuna malikdir. Onun Nyu-York və Cenevrədə xüsusi büroları vardır. ABT sistemində bir çox ixtisaslaşmış komitə və komissiyalar mövcuddur.

ABT-nin başçılığı altında 30-a yaxın ümumafrika və subregional təşkilatlar fəaliyyət göstərir. ABT öz fəaliyyətində regional əsasda iqtisadi və sosial sahələrdə əməkdaşlığa daha çox diqqət yetirir.

ABT-nin mənzil - qərargahı Əddis-Əbəbədir.

**AĞ EV** (ing. White House) - ABŞ prezidentinin Vaşinqtonun mərkəzində yerləşən iqamətgahı və dəftərxanasıdır (1800-cü ildən).

**AKKLAMASİYA** (lat.aclamatio-çığırmaq, qışqırmaq) - Beynəlxalq təşkilatların və konfransların praktikasında qərarların səsvermə yolu ilə deyil, iştirakçıların reaksiyaları, atmacaları və alqışları yolu ilə qəbul olunması metodu vardır. Buna Akklamasiya deyilir.

**AKKREDİTƏ OLUNMA** (lat. accredere - inanmaq) - Diplomatik nümayəndənin təyin olunması prosesidir. Akkreditə olunma dövlətin daxili işi olub, hər hansı bir şəxsin dövlətin diplo-

matik nümayəndəsi təyin olunması ilə ifadə olunur və qəbul edən dövlətin razılığını tələb edir. Akkreditə olunmanın sonu qəbul edən dövlətin başçısının diplomatik nümayəndəyə etimadnamə verməsi ilə başa çatır.

**AQREMAN** (fr. aqrement - razılıq) - Müəyyən bir şəxsin akkreditə olunmuş dövlətin nümayəndəsi kimi təyin olunmasına qəbul edən dövlətin hökumətinin razılığıdır. Aqreman təkcə diplomatik nümayəndəliyin rəhbəri üçün, adətən, xarici işlər idarəsi vasitəsilə soruşulur. Aqreman sorğusunda təyin olunmağa namizədliyi verilmiş şəxs haqqında bəzi avtobioqrafik məlumatlar bildirilir. Adətən, aqreman yazılı şəkildə soruşulur və verilir. Aqreman haqqında yazışmalar və ondan imtina edilməsi məsələsi açılmır (gizli saxlanılır). Aqreman alınandan sonra namizəd persona qrata hesab olunur, əks halda, yəni razılıq alınmırsa, bu halda həmin şəxs persona non qrata hesab olunur. Dövlət imtinanın motivlərini bildirməyə borclu deyildir.

**ALBANİYA** - Ölkə Avropanın cənubi-şərqində Balkan yarımadasının qərb hissəsində yerləşir. Ərazisi - 28.750 kv.km, əhalisi isə 3.413.904 (1995) nəfərdir. Əhalinin 70%-i müsəlmandır. Ölkənin paytaxtı Tirana şəhəridir.

Dövlətin adı Albaniya Respublikasıdır. Dövlət quruluşu demokratik respublikadır. Albaniya Osmanlı imperiyasının I Balkan müharibəsindəki məğlubiyyətindən sonra 28 noyabr 1912-ci ildə müstəqilliyini elan etmişdir. Milli bayram 28 noyabr Albaniyanın müstəqillik günüdür. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və baş nazirin əlindədir. Parlament bir palatalıdır və Xalq Məclisi adlanır.

**ALİ KOMİSSAR** - Qismən inzibati, qismən də diplomatik xarakterli funksiyalara malik yüksək vəzifəli şəxsə verilən rütbədir. Ali Komissar adətən, asılı, qəyyumluq altında olan və ya işğal olunmuş ölkələrdə təyin olunur. "Ali Komissar" termini BMT sistemində tətbiq olunur; məsələn, BMT-nin qaçqınların işi üzrə Ali Komissarı.

**ALMANİYA** - Mərkəzi Avropada yerləşən dövlətdir. Ərazisinin sahəsi 356.954 kv.km, əhalisinin sayı isə 81.337.541 nəfərdir (1995). Dövlət dili alman dilidir.



Ölkənin tam adı Almaniya Federativ Respublikasıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Berlin şəhəridir. Almaniya 18 yanvar 1871-ci ildə müstəqil dövlət olmuşdur. AFR-in əsas qanunu olan federasiya konstitusiyası 23 may 1949-cu ildə qəbul olunmuşdur. Milli bayram 3 oktyabr Almaniya birliyi günüdür (3 oktyabr 1990-cı il tarixi ADR və AFR dövlətlərinin birləşdiyi gündür). Dövlət başçısı prezidentdir, lakin real icra hakimiyyəti federal kanslerin başçılıq etdiyi hökumətin əlindədir. Qanunverici hakimiyyət birpalatalı parlamentə (Bundestaq) məxsusdur.

**ALTERNAT** (lat. -alternus) - Bir qaydadır, belə ki, bu qaydaya görə razılığa gəlmiş tərəflərin imzalaması üçün çıxarılmış müqavilənin nümunəsində tərəflərin adları, səlahiyyətli şəxslərin imzaları, möhürləri, həmçinin razılığa gəlmiş tərəflərin dilində yazılmış müqavilənin mətni birinci yerdə yerləşdirilir. İmzalar üçün müqavilə mətninin altında sol tərəf daha münasib yer hesab olunur. Alternatın tətbiqi razılaşdırılmış tərəflərin bərabərhüquqlu olduğunu göstərir. Alternat adətən, ikitərəfli müqavilələrdə tətbiq olunduğu üçün ciddi əməl olunur. Çoxtərəfli müqavilələrdə alternat nadir hallarda tətbiq olunur.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI** - Şimali Amerikada yerləşir. Ərazisinin sahəsi 9.363.200 kv.km, əhalisinin sayı isə 262.000.000. nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Vaşinqton şəhəridir. Ölkə müstəqilliyini 4 iyul 1776-cı ildə İngiltərədən almışdır. Milli bayramlar: 4 iyul Müstəqillik günü, 22 fevral Corc Vaşinqtonun anadan olduğu gün və 11 noyabr Veteranlar günüdür. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Dövlətin və hökumətin başçısı prezidentdir, icra hakimiyyəti isə vitse-prezidentə və Nazirlər Kabinetinə məxsusdur. Qanunverici orqan ikipalatalı (Senat-yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) parlament olan Konqresdir.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ** - Xarici İşlər Naziri vəzifəsini yerinə yetirən vəzifəli şəxsdir. Dövlət Katibi prezidentin qarşısında ABŞ-ın xarici siyasətinin işlənilməsinə və həyata keçirilməsinə görə cavabdehlik daşıyır.

rəsmi olaraq prezidentin xarici siyasət məsələləri üzrə baş müşaviri hesab olunur. Dövlət Departamentinə və xaricdəki nümayəndəliklərin fəaliyyətinə birbaşa rəhbərlik edir, ən nəhayət, ABŞ-ın Təhlükəsizlik Şurasının üzvüdür.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASI (MTŞ)** - ABŞ prezidentinin yanında xarici və hərbi siyasət məsələləri üzrə konsultativ və əlaqələndirici orqandır. 1947-ci ildə yaradılıb.

MTŞ-nin sədri ABŞ-ın prezidentidir, üzvləri isə - ABŞ-ın vitse-prezidenti, dövlət katibi və müdafiə naziridir. MKİ-nin direktoru və ştab rəisləri MTŞ-yə "rəsmi müşavir" kimi daxildirlər. MTŞ-nin aparatına 100-dən çox adam daxildir. Aparata prezidentin təhlükəsizlik məsələləri üzrə köməkçisi rəhbərlik edir.

1980-ci ilin əvvəlindən başlayaraq MTŞ təkcə ABŞ-ın xarici siyasət idarəsinin, hərbi və kəşfiyyat idarələrinin fəaliyyətinə nəzarət etmək və əlaqələndirməklə məşğul olmur, həmçinin milli məsələlərlə bağlı bütün mühüm qərarların işlənilməsi və qəbul edilməsinə cavab verir.

MTŞ-in nəzdində 3 əsas idarələrarası qruplar yaradılmışdır: xarici siyasət məsələləri üzrə, müdafiə sahəsində siyasət məsələləri üzrə və kəşfiyyat məsələləri üzrə. Onların fəaliyyətini idarələrarası ərazi və funksional qruplar nizamlayır, bütün bu qrupların üzvləri Dövlət Departamentinin, Müdafiə Nazirliyinin, MKİ-nin və ABŞ-ın başqa idarələrinin nümayəndələridir.

**AMERİKA DÖVLƏTLƏRARASI INKİŞAF BANKI (ADİB)** - Amerika dövlətləri təşkilatının üzv dövlətləri arasındakı razılığa əsasən 08.04.1959-cu ildə yaradılmışdır. Əməliyyata 01.10.1960-cı ildə başlamışdır. ABŞ, Latın Amerikasının və Karib hövzəsinin 25 dövləti, Böyük Britaniya, İtaliya, Kanada. Fransa, AFR, Yaponiya və b. dövlətlər ADİB-in üzvüdürlər.

Bankın əsas məqsədi Latın Amerikasında inkişaf layihələrinin maliyyələşdirilməsi, iştirakçı dövlətlərin xüsusi və dövlət kapitallarının region ölkələrinin iqtisadiyyatına və xarici ticarətinə cəlb edilməsidir.

ADİB-in rəhbər orqanı Müdirlər Şurasıdır. Bu Şurada səslər banka qoyulan pula mütənasib olaraq paylanır. Məsələn, ABŞ Müdirlər Şurasında 34,6% səsə malikdir, bu isə Şurada 2/3 səs çoxluğunu tələb edən mühüm məsələlərdə ABŞ-a veto qoymaq hüququ verir.

ADİB-in mənzil-qərargahı Vaşinqtondadır.



**AMERİKA DÖVLƏTLƏRARASI KONFRANS** - ABŞ-ın və Latın Amerikası dövlətləri nümayəndələrinin konfransıdır. 1889-1954-cü illərdə çağırılmışdır, 1948-ci ilə qədər Amerika dövlətlərinin beynəlxalq konfransı, ya da Panamerikan konfransı adlanmışdır.

Latın Amerikası ölkələrini öz təsir dairəsinə almaq məqsədilə XIX əsrin 80-ci illərində ABŞ bütün Amerika dövlətlərinin konfransını çağırmaq məqsədilə aktiv fəaliyyətə başlamışdır. 1-ci konfrans 1889-90-cı illərdə keçirilən Vaşinqton konfransı, 2-ci konfrans (22.10.1901-31.01.1902) Mexiko konfransı, 3-cü konfrans (23.07.-27.08.1906) Rio-de-Janeyro, 4-cü konfrans (12.07.-30.08.1910) Buenos-Ayres konfransları olmuşdur. 4-cü konfrans Panamerikan ittifaqının formalaşmasını bitirdi.

İkinci dünya müharibəsinə qədər 5-8-ci konfranslar keçirilmişdir. Müharibə başladıqdan sonra konfransın funksiyaları üzv dövlətlərin Xarici İşlər Nazirlərinin məsləhət toplantısına çevrildi. 1945-ci ildə konfrans "müharibə və sülh" mövzusu altında toplanmışdır. Bu konfransın qərarı ilə 1947-ci ildə "kontinentdə sülhün və təhlükəsizliyin müdafiə olunması" adı altında növbəti konfrans çağırılmışdır. 1948-ci ildə çağırılan ADK Amerika dövlətlərinin hərbi-siyasi qrupu olan Amerika Dövlətlərinin Təşkilatını (ADT) yaratdı.

ADT-in Nizamnaməsinə görə, ADT ADK-nın ali orqanı olmalı idi. 1971-ci ildə ADT Nizamnaməsində dəyişikliklər etmək üçün xüsusi sessiyalara toplaşmış və bu sessiyalarda Baş Məclis elan edilmişdi. Amerika dövlətlərarası sistemi çərçəvisində Xarici İşlər Nazirliyinin məsləhət toplantısı, həmçinin iqtisadi, elmi, texniki, mədəni və s. məsələlərlə bağlı konfranslar keçirilir.

**AMERİKA DÖVLƏTLƏRİ TƏŞKİLATI (ADT)** - ABŞ və Latın Amerikası ölkələri və Karib hövzəsi ölkələrinin daxil olduğu regional hərbi-siyasi təşkilatdır. 30.06.1948-ci ildə təsis edilmişdir.

ADT-nin konstitusion statusu aşağıdakılardır: qarşılıqlı yardım haqqında dövlətlərarası 1947-ci il müqaviləsi (Rio-de-Janeyro), ADT-nin Nizamnaməsi (30.04.1948-ci ildə imzalanmış, 13.12.1951-ci ildə qüvvəyə minib), həmçinin ADT-nin Nizamnaməsinin islahatlar Protokolu (27.02.1967-ci ildə Buenos-Ayresdə imzalanmış, 27.02.1970-ci ildə qüvvəyə minmişdir.)

ADT-nin məqsədləri aşağıdakılardır: qərb yarımkürəsində sülhün və təhlükəsizliyin qorunması; üzv dövlətlərin arasında mübahisələrin yoluna qoyulması; təcavüzə qarşı birgə fəaliyyət; siyasi, iqtisadi, sosial, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığın inkişafı.

ADT-nin ali orqanı ildə bir dəfə toplaşan *Baş Assambleyadır*. Təxirəsalınmaz məsələlərə baxılması üçün, xüsusilə də ADT üzvlərinə silahlı basqın olduğu halda üzvlərin xarici işlər nazirlərinin məsləhət toplantısı çağırılır.

Amerika Dövlətləri Təşkilatının daimi mərkəzi orqanı Katiblikdir. ADT-nin Daimi Şurası Amerika dövlətlərarası müdafiə şurasıdır.

Amerika Dövlətləri Təşkilatının mənzil-qərargahı Vaşinqtondadır.

**ANDORRA** - Avropanın cənubi-qərbində yerləşən (Şərqi Piriney) dövlətdir. Ərazisi 450 kv.km, əhalisi isə 65.780 (1995) nəfərdir. Paytaxtı Andorra - La-Vyexa şəhəridir.

Ölkənin tam adı Andorra Knyazlığıdır. Dövlətin quruluşu parlamentli knyazlıqdır. Ölkə müstəqilliyini 1278-ci ildə əldə etmişdir. 1993-cü ildə yeni konstitusiya qəbul edilmişdir. Andorra formal olaraq knyazlıq adlanır, iki knyaz - Fransa prezidenti və İspaniya yepiskopu vasitəsilə idarə olunur. İcra hakimiyyəti 5 nazirdən ibarət olan icra şurasına məxsusdur. Məhkəmə hakimiyyəti aşağıdakı kimi paylanmışdır: mülki işlərə Perpinyandakı (Fransa) Andorra Ali Məhkəməsi və ya Urnel (İspaniya) yepiskopunun Kilsə Məhkəməsi, cinayət işlərinə isə Məhkəmələr Tribunalında baxılır. Parlament bir palatalıdır və "domin"lərin Baş Şurası adlanır.

**ANKLAV** - Bir dövlətin ərazisinin hamısı başqa bir dövlətin quru sahəsi ilə əhatəyə alınmışdırsa və yaxud dövlətin ərazisinin bir hissəsi başqa bir və ya bir neçə dövlətin quru ərazisi ilə əhatə olunmuşsa, onda dövlətin bu əhatə olunmuş ərazisi anklav adlanır. Məsələn, Azərbaycan Respublikasının bir hissəsi olan Naxçıvan Türkiyə, İran və Ermənistan dövlətlərinin əraziləri ilə əhatə olunduğundan anklavdır. Əgər dövlətin ərazisinin bir hissəsi *başqa bir dövlətin quru ərazisi ilə tam əhatə olunmamışsa*, başqa sözlə, dənizə çıxışı varsa, həmin ərazi yarımanklav adlanır.

**ANQOLA** - Ölkə Afrikanın cənubi-qərbində yerləşir. Ərazisi 1.246.700 kv.km·, əhalisi isə 10.069.501 (1995) nəfərdir. Paytaxtı Luanda şəhəridir. Ölkənin tam adı Anqola Respublikasıdır. Dövlət quruluşu respublikadır.

Anqola 11 noyabr 1975-ci ildə müstəqilliyini elan edərək Portuqaliya müstəmləkəsindən azad olmuşdur. Milli bayram - 11 noyabr Müstəqilliyin elan edildiyi gündür. Qanunvericilik mülki hüququ Portuqaliya sisteminə və ənənəvi qanunlara əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə məxsusdur. Parlament birpalatalıdır və Milli Assambleya adlanır.

**ANNEKSİYA** (lat. anneks- birləşdirmə) - Başqa dövlətə məxsus *ərazini dövlətə qeyri-qanuni yolla (qəsb etməklə, zorla) birləşdirilməsidir*. Anneksiya müasir beynəlxalq hüquqda kobud qanun pozuntusudur. Anneksiya nəticəsində ərazilərin zəbt olunmasının qeyri-qanuniliyi Nürnberq hərbi tribunalının hökmündə, həmçinin beynəlxalq müqavilələr və beynəlxalq aktlarda, o cümlədən dövlətin daxili işinə qarışmaq, onun suverenliyinə və müstəqilliyinə sədd çəkməyin yolverilməzliyi haqqında BMT-nin 1965-ci il bəyannaməsində, dövlətlərarası dostluq münasibətinə və əməkdaşlığa aid olan beynəlxalq hüququn prinsipləri haqqında BMT-nin 1970-ci il bəyannaməsində, ATƏT-in Yekun Aktında öz əksini tapmışdır.

**ANTİQUA VƏ BARBUDA** - Karib dənizinin şərq hissəsində ada dövlətidir. Ərazisinin sahəsi 442 kv.km, əhalisi isə 65.176 (1995) nəfərdir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Sent-Cons şəhəridir. 1 noyabr 1981-ci ildə Böyük Britaniyadan müstəqillik əldə etmişdir, həm də Britaniya Birliyinin üzvüdür. Milli bayram 1 noyabr Müstəqillik günüdür. Dövlət başçısı baş qubernatorla təmsil olunan Britaniya monarxıdır, icra-

edici hakimiyyət baş nazirə məxsusdur. Parlament ikipalatalıdır: yuxarı palata (Senat) və aşağı palata (Nümayəndələr palatası).

**AOMIN** - Şərqi Asiyada Portuqaliyaya məxsus muxtariyyat hüququ olan dövlətdir. Ərazisinin sahəsi 16 kv.km, əhalisinin sayı 473.333 nəfərdir (1995). Dövlətin rəsmi dili Portuqaliya dilidir.

İnzibati mərkəzi Aomındır. Qanunvericilik Portuqaliya mülki hüquq sisteminə əsaslanır. Milli bayram 10 iyun Portuqaliya günüdür. Dövlət başçısı Portuqaliya prezidentidir. Prezidentin yerdəki nümayəndəsi qubernatordur. 1987-ci ildə Portuqaliya ilə Çin arasında bağlanmış müqaviləyə görə 20 dekabr 1999-cu ildə Aomın Çinə verilmişdir.

**APARTEİD** (afrikans dilində arartheid ayrı-ayrılıqda yaşama) - İrqi ayrı-seçkiliyin və seqreqasiyanın ifrat forması; bu halda bir irqi qrupun digər qrup üzərində hökmranlığını müəyyən etmək, yaxud saxlamaq və ya müntəzəm istismar etmək məqsədilə ölkənin bütöv əhali qrupları ilə müqayisədə kəskin qeyri-bərabər vəziyyətə qoyulur, siyasi, mülki və sosial-iqtisadi hüquqlardan məhrum edilir, yaxud onların hüquqları mühüm dərəcədə məhdudlaşdırılır (hətta xüsusi ərazidə - rezervasiyalarda təcrid edilir).

Beynəlxalq hüquqda aparteid beynəlxalq sülhə və təhlükəsizliyə ciddi təhlükə yaratdığı üçün bəşəriyyətə qarşı cinayət sayılır. BMT Baş Məclisinin 1973-cü ildə qəbul etdiyi "aparteid cinayəti və bu cinayətə görə cəza" haqqında Beynəlxalq konvensiyada cinayət məsuliyyəti müəyyən edilmişdir.

Konvensiyaya (m. 11) uyğun olaraq aşağıdakılar aparteidə aid edilir: 1) öldürməklə, bədənə ağır xəsarət və yaxud əqli pozğunluq yetirməklə, şəxsin azadlığına və ləyaqətinə qəsd etməklə və yaxud ağır, insanlıqdan kənar işgəncə verməklə, ləyaqəti alçaldan davranış və yaxud cəza tətbiq etməklə, habelə özbaşına həbs etməklə və ya qanunsuz olaraq həbsxanada saxlamaqla irqi qrup üzvünü (üzvlərini), yaxud bütöv qrupu yaşamaq hüququndan və şəxsiyyət azadlığı hüququndan məhrumetmə; 2) irqi qrupu, yaxud qrupları tam və yaxud qismən fiziki məhvetməyə yönəldilmiş həyat şəraiti yaratma; 3) irqi qrupun, yaxud qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirak etməsinə maneələr törədən qanunvericilik xarakterli hər cür tədbirlər və digər tədbirlər görmə və bu qrupun, yaxud qrupların üzvlərini əsas insan hüquqlarından və azadlıqlarından (əmək hüququ, təhsil hüququ, sərbəst olaraq tərk etmək hüququ və oraya qayıtmaq hüququ, sərbəst olaraq yerini dəyişmək hüququ və yaşayış yerini dəyişmək hüququ, əqidə azadlığı və onu ifadə etmək hüququ, dinc yığıncaqlar və assosiasiyalar azadlığı hüququ) qəsdən məhrumetmə yolu ilə onun (qrupun) tam inkişafına mane olan şərait yaratma; 4) irqi qrupun, yaxud qrupların üzvləri üçün rezervasiyalar və gettolar yaratmaqla əhalini irqi mənsubiyyətə görə bölmə, müxtəlif irqlərdən olan qrup üzvləri arasında qarışıq nikahları qadağan etmə, irqi qrupa, yaxud qruplara və ya onların üzvlərinə mənsub olan torpaq mülkiyyətinin ekspropriasiyasına yönəldilmiş tədbirlər; 5) irqi qrupun, yaxud qrupların üzvlərinin əməyinin istismar edilməsi, o cümlədən onları məcburi əməyə cəlb etmə; 6) aparteidə qarşı çıxış etməsinə görə təşkilatları və şəxsləri (onları əsas insan hüquqlarından və azadlıqlarından məhrum etməklə) təqib etmə.

Bəzi aparteid aktları genosid sayıla bilər. Həmin Konvensiyaya uyğun olaraq həm aparteid özü, həm də aparteidə təhrikçilik və aparteid aktlarını həyata keçirmək niyyəti, habelə aparteidi həyata keçirməyə kömək göstərmə, həvəsləndirmə və yaxud aparteiddə iştirakçılıq cəzalandırılır.

Aparteidi həyata keçirməkdə təqsirləndirilən şəxslər Konvensiya iştirakçısı olan hər bir dövlətin məhkəməsinə, yaxud dövlətlərin razılığı ilə yaradılan beynəlxalq cinayət tribunalına verilə bilər.

Aparteiddə təqsirləndirilən şəxslər sığınacaq hüququndan istifadə edə bilməz və qaytarılmalıdır.

CAR-da aparteid irqçilər tərəfindən rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmış və qanunvericiliklə möhkəmləndirilmişdir. Orada afrikalı əhalini qrup şəklində bantustanlarda və rezervasiyalarda yerləşdirmə, afrikalıların şəhər. rayonlarında yerdəyişməsini məhdudlaşdırma və qadağanetmə siyasəti aparılmışdır.

BMT Baş Məclisi və Təhlükəsizlik Şurası dəfələrlə CAR-ın

aparteid siyasətini pisləmiş, onun sülh və təhlükəsizlik əleyhinə yönəldiyini qeyd etmişlər. Bu siyasət çoxluq təşkil edən afrikalıların kiçik rayonlarda cəmləşdirilməsi və sayca az olan ağların onların üzərində hökmranlığı üçün şərait yaradır.

**APATRİDLƏR** (yun. apatris - vətəni olmayan) - bax. Vətəndaşlığı olmayan şəxslər (bax. - Vətəndaşsızlıq).

**ARAZ BÖYÜKAĞA OĞLU ƏZİMOV** - 13.06.1962-ci ildə doğulmuşdur. 1984-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 1984-1989-cu illərdə Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində işləmişdir. 1989-1994-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində II katib vəzifəsindən Beynəlxalq təşkilatlar idarəsinin rəisi vəzifəsinə qədər müxtəlif vəzifələrdə işləmişdir. 1994-cü ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini vəzifəsində çalışır.

Fövqəladə və Səlahiyyətli səfir diplomatik ranqına malikdir.

**ARGENTİNA** - Cənubi Amerikanın cənub hissəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi 2.778.417 kv.km, əhalisinin sayı isə 34.292.742 nəfərdir (1995). Dövlətin rəsmi dili ispan dilidir.

Dövlətin tam adı - Argentina Respublikasıdır, respublika dövlət quruluşuna malikdir. Paytaxtı Buenos-Ayresdir. 9 iyul 1816-cı ildə İspaniyanın müstəmləkəsindən azad olaraq müstəqilliyini elan etmişdir. Konstitusiya 1 may 1953-cü ildə qəbul edilmişdir. Milli bayramlar: 25 may May inqilabının ildönümü və 9 iyul Müstəqillik günüdür. Dövlət və hökumət başçısı prezidentdir. Parlament iki palatadan təşkil olunmuşdur: yuxarı (Milli konqres) və aşağı (Deputatlar palatası) palata.

**ARXİPELAQ SULARI** - BMT-nin 1982-ci ildə qəbul edilmiş dəniz hüquqları konvensiyasına görə, Arxipelaq suları dedikdə, arxipelaq dövlətlərinin (yəni bir və daha çox arxipelaqları əhatə edən dövlət) suverenliyi altında olan dəniz suları nəzərdə tutulur. Arxipelaq bir-biri ilə su və başqa təbii vasitələrlə (sualtı qayalar və s.) bağlanan elə adalar qrupudur ki, vahid iqtisadi və siyasi birlik təşkil edir. Arxipelaq sularının coğrafi sərhədləri arxipelaq çıxış xətlərinin keçirilməsi ilə qurulur. Belə ki, bu xətlər dənizdə ən uzaq adanın ən mühüm nöqtəsini və arxipelaqın suyun üzünə



çıxmış yeraltı qayalarını birləşdirir. Bu çıxış xətlərinin sərhədləri daxilinə əsas adalar və mərcan adaları daxil olmaqla suyun səthinin sahəsinin suda olan quru hissəsinin sahəsinə nisbəti 1:1 nisbətindən 9:1 nisbətinə qədər təşkil edir. Bu halda hər bir çıxış xəttinin uzunluğu 100 dəniz milindən çox olmamalıdır. Belə çıxış xətləri sistemi ðarxipelaq dövlətlərinə elə tətbiq edilməlidir ki, başqa dövlətlərin ərazi suları açıq dənizdən və yaxud iqtisadi zonadan ayrılmış olsun. Arxipelaq dövlətlərinin ərazi sularının genişliyi hesabına bitişik zonalar, iqtisadi zonalar və kontinental şelf arxipelaq çıxış xətlərindən doğur.

Arxipelaq dövlətlərinin suverenliyi arxipelaq suları üzərindəki hava məkanını, suyun altındakı dəniz ərazisini və yeraltı sərvətləri əhatə edir. Xarici dövlətlərin gəmi və təyyarələrinin arxipelaq sularından keçən dəniz koridorlarının arxipelaq keçidindən və bu keçidin üzərindəki hava koridorlarından istifadə etmək hüququ vardır. Əgər arxipelaq dövlət dəniz və hava koridorlarını müəyyən etmirsə, arxipelaq keçidi hüququ beynəlxalq gəmiçilik üçün, adətən, istifadə olunan yollarla həyata keçirilir.

**ARUBA** - Karib dənizinin şərq hissəsində yerləşən ada dövlətidir. Ərazisinin sahəsi 193 kv.km, əhalisinin sayı isə 65.974 nəfərdir (1995). Dövlət dili holland dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Oranyestaddır. Niderland krallığının muxtar hissəsi olan Aruba 1996-cı ildə müstəqil dövlət olmuşdur. Qanunvericilik Niderland mülki hüquq sisteminə əsaslanır. Milli bayram 18 mart Arubanın bayrağı günüdür. Dövlətin başçısı Hollandiya monarxıdır, yerdə onu general-qubernator təmsil edir. İcra hakimiyyəti Nazirlər Şurasına rəhbərlik edən baş nazirə məxsusdur.

**ASİYA İNKİŞAF BANKI** (Asian Development Bank) - Asiya və Sakit okean ölkələri üçün BMT-nin iqtisadi və sosial komissiyasının 21-ci sessiyasının qərarı ilə 1966-cı ildə yaradılıb. Kredit fəaliyyətinə 1968-ci ildə başlayıb. Asiya İnkişaf Bankının üzvləri komissiyanın üzvü olan ölkələr və BMT-nin ixtisaslaşdırılmış qurumları ola bilərlər.

Asiya İnkişaf Bankı aksioner cəmiyyət kimi təşkil olunmuşdur. Onun maliyyə resursları nizamnamə kapitalından və zaym-

lardan yığılır. Resursların səfərbər edilməsi məqsədilə Bank istiqraz vərəqlərini Amerikanın və Qərbi Avropanın pul bazarlarına buraxır.

Bankın məqsədi Asiyanın inkişaf etməkdə olan ölkələrinə maliyyə, texniki və iqtisadi yardımlar göstərməklə bu ölkələrin xarici ticarətinə və iqtisadi inkişafına kömək etməkdir. Bank müxtəlif obyektlərin tikintisini birgə maliyyələşdirmə yolu ilə beynəlxalq və milli kredit təşkilatları ilə əməkdaşlıq edir. Bankın nəzdində iki xüsusi fond fəaliyyət göstərir: Asiya İnkişaf Fondu və Xüsusi Texniki Yardım Fondu.

Asiya İnkişaf Bankının ali orqanı İdarə heyətidir. Bankın fəaliyyətinə rəhbərliyi Direktorlar şurası həyata keçirir.

Bankın mənzil - qərargahı Maniladadır (Filippin).

**ASİYA - SAKİT OKEAN ŞURASI** (Asian and Pasific Souncil - ASPAC) -Regional siyasi-iqtisadi təşkilatdır. Avstraliya, Yeni Zelandiya, Tayland, Malaziya, Filippin, Yaponiya, Cənubi Koreya, Cənubi Vyetnam və Tayvan tərəfindən 1966-cı ildə siyasi məsləhətləşmələr və regional əməkdaşlığı həyata keçirmək məqsədilə yaradılmışdır. 70-ci illərin əvvələrində Asiya-Sakit okean regionunda baş verən siyasi proseslər təşkilatın daxilində ziddiyyətlərə səbəb oldu. 1973-cü ildə Malaziya bu təşkilatdan çıxdı. Həmin il təşkilatın növbəti sessiyasının "qeyri-müəyyən müddətə" təxirə salınması, əslində bu təşkilatın fəaliyyətinin dayandırılması kimi qiymətləndirilir.

**ASİYA VƏ AFRİKA XALQLARININ HƏMRƏYLİK TƏŞKİLATI (AAXHT).** Beynəlxalq qeyri-hökumət təşkilatıdır. 26.12.1957-01.01.1958 tarixində Qahirədə keçirilmiş Afrika və Asiya xalqlarının həmrəylik Konfransında təsis edilmişdir. Afrika və Asiya ölkələrinin geniş ictimai-siyasi dairələrini özündə birləşdirir. Təşkilata 90-dan çox siyasi partiyalar, milli-azadlıq hərəkatları, ictimai təşkilatlar daxildir.

AAXHT-nin təşəbbüsü ilə xalqların azadlıq uğrunda mübarizəsinə, sosial və iqtisadi inkişafına, sülhə, təhlükəsizliyə və tərkisilaha böyük təsir göstərə biləcək beynəlxalq konfranslar və görüşlər keçirilir. Müstəmləkəçiliyə və irqçiliyə qarşı mübarizə aparan xalqlara yardım göstərilməsi üçün Afrika-Asiya həmrəylik Fondu yaradılmışdır.

AAXHT Qoşulmayanlar hərəkatı yanında müşahidəçi, UNESKO yanında məsləhətçi statusuna malikdir. Afrika Birliyi Təşkilatı və Ərəb Ölkələrinin Liqası ilə əlaqə saxlayır.

AAXHT-nın ali orqanı Konqress, Rəyasət Şurasının sessiyası və Daimi katiblikdir.

Təşkilatın mənzil - qərargahı Qahirədədir.

**ATƏM-in YEKUN AKTI** (Helsinki) - 01.08.1975-ci ildə Helsinkidə 33 Avropa ölkəsinin, ABŞ və Kanadanın rəhbər xadimlərinin iştirakı ilə imzalanmışdır. Dövlətlər arasındakı əməkdaşlığın inkişafında və beynəlxalq gərginliyin aradan qaldırılmasında razılaşma ATƏM-in Yekun aktında qeyd olunmuşdur.

Yekun Aktında Avropanın təhlükəsizliyinə toxunan geniş əhatəli məsələlər üzrə razılaşma, həmçinin dövlətlərin müxtəlif sahələrdə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Dövlətlərarası qarşılıqlı münasibətlərin prinsiplərinin bəyannaməsi Yekun aktının özəyidir. Toplantının iştirakçıları öz münasibətlərində suveren bərabərlik, güc tətbiq etməmək, sərhədlərin pozulmaması, dövlətlərin ərazi bütövlüyü, mübahisələrin sülh yolu ilə nizamlanması, başqalarının daxili işlərinə qarışmamaq, insan haqlarına hörmət, dövlətlərlə əməkdaşlıq və beynəlxalq hüquqdan irəli gələn vəzifələri vicdanla yerinə yetirmək kimi prinsiplərə riayət edəcəklərini öhdəlik kimi götürürlər.

Yekun aktı iqtisadiyyat, elm, texnika və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığın sonrakı inkişafını nəzərdə tutur. Bu isə Avropada və bütün dünyada nəinki sülhün və təhlükəsizliyin, həmçinin iqtisadiyyatın və sosial inkişafın da möhkəmləndirilməsinə imkan yaradır. Yekun aktındakı müddəalar iştirakçı dövlətlər arasında mədəniyyət, təhsil, informasiya kimi humanitar sahələrdə əməkdaşlıq üçün qabaqcadan şərtlər qoyur. Əməkdaşlığın bu formasının inkişafı hər bir ölkənin qanun və qaydalarına riayət olunmasını nəzərdə tutur.

Yekun aktının son bölməsində toplantı ilə başlanan çoxtərəfli prosesin davamının, xüsusi halda, iştirakçı dövlətlərin nümayəndələrinin görüşü yolu ilə davamının zəruriliyi qeyd olunur.

**ATƏŞFƏŞANLIQ** (lat. salus - salam) - Salamlamağın tən-



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

tənəli formasıdır (yaylım atəşlə, bayraqlarla və s.).

Atəşfəşanlığın tətbiqi bir çox beynəlxalq müqavilələrdə (məs: 21. 11.1918-ci il Aaxen konqresində qəbul olunmuş protokolda), beynəlxalq adətlərdə, həmçinin bir çox dövlətlərin (məs., Böyük Britaniya) milli qaydalarında nəzərdə tutulmuşdur. "Milli atəşfəşanlıq" (21 yaylım artileriya atəşi) dövlət başçısının rəsmi səfəri ilə bağlı və b. hallarda tətbiq olunur. Müasir zamanda "milli atəşfəşanlıq" az-az hallarda istifadə olunur.

**ATTAŞE** (fr. attaçe) - Diplomatik ranqdır. Beynəlxalq diplomatiya praktikasında attaşenin aşağıdakı kateqoriyaları mövcuddur:

1. *Hərbi, hərbi-dəniz, hərbi-hava attaşesi* - onları təyin edən ölkənin hərbi idarəsinin başqa ölkənin hərbi idarəsində nümayəndəsidir. Onlar eyni zamanda diplomatik nümayəndələrin hərbi məsələlər üzrə müşaviri vəzifəsini daşıyırlar.

*2. Xüsusi attaşe* - öz ölkələrinin sənaye, kənd təsərrüfatı, əmək, maliyyə, ticarət, mədəniyyət, texnika, elm və s. kimi müxtəlif müəssisələrinin nümayəndələridir. Bunlar adətən ixtisaslaşmış mütəxəssislərdirlər, belə ki, gəldikləri ölkədə öz ixtisaslarına aid məsələləri öyrənməyi, öz ölkəsi ilə gəldiyi ölkənin uyğun təşkilatları arasındakı əlaqələri qurmaq və inkişaf etdirmək tapşırığı alırlar.

3. *Mətbuat məsələləri üzrə attaşe* - diplomatik nümayəndəlikdə mətbuat və informasiya məsələlərinə cavabdeh şəxsdir.

4. *Diplomatik attaşe* - Xarici işlər idarəsinin mərkəzi aparatında və ya diplomatik nümayəndəlikdə çalışan kiçik diplomatik işçidir.

5. *Fəxri attaşe* - (xarici ölkələrin praktikasında) diplomatik karyeranı seçən, lakin hələ ştata daxil edilməyən və əmək haqqı almayan şəxsdir. Bəzi ölkələrdə fəxri attaşe diplomatik nümayəndəlikdə təcrübə keçmək hüququna malikdir, təcrübədən sonra isə ştata daxil edilir.

Attaşenin bütün kateqoriyaları diplomatik korpusun tərkibinə daxildir, diplomatik immunitetlərə və imtiyazlara malikdir.

**AUTENİK MƏTN** - Hansısa bir sənədin orijinal mətnidir. Beynəlxalq hüquqda beynəlxalq müqavilənin mətninin qəbul olunması prosesi autenik mətnin müəyyən edilməsi adlanır. Qaydaya görə, əgər müqavilə iki və ya daha çox dildə tərtib olunursa, onun son maddəsində göstərilir ki, bütün mətnlər "eyni gücə malikdirlər", başqa sözlə, autenik hesab olunurlar.

**AVROPA İTTİFAQI (Aİ)** - 1997-ci ilin məlumatına görə Aİ-yə aşağıdakı dövlətlər daxildir: Avstriya, Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksenburq, Niderland, Portuqaliya, Fransa, Finlandiya və İsveçrə. Aİ-də 11 rəsmi dildən istifadə olunur.

Aİ-nin əsas təsis sənədləri aşağıdakılardır:

- Avropanın Kömür və Polad Birliyinin yaradılması haqqında müqavilə (1951-ci il).
- Avropanın Atom Enerjisi Birliyinin yaradılması haqqında müqavilə (1957-ci il).
- Avropanın İqtisadi Birliyinin yaradılması haqqında Roma müqaviləsi (1957-ci il).
- Yuxarıdakı 3 təşkilatın vahid şəkildə birləşməsi haqqında Brüssel müqaviləsi (1965-ci il).
- Vahid daxili bazarın yaradılması və siyasi əməkdaşlıq haqqında vahid Avropa aktı (1986-cı il).
- Şöngen müqaviləsi (1990-cı il).
- Maastrixt müqaviləsi (1992-ci il).
- Amsterdam müqaviləsi (1997-ci il)

Gömrük, iqtisadi həmçinin siyasi ittifaqın yaradılması üçün inteqrasiya proseslərinin ardıcıl inkişafı Avropa İttifaqının əsas məqsədidir.

Şura, Komissiya, Avropa Parlamenti və Avropa Məhkəməsi Aİ-nin əsas orqanlarıdır. Şura Aİ-nin ali orqanıdır. Müzakirə olunan məsələlərin xarakterindən asılı olaraq Şuranın iclasları dövlət və hökumət başçıları səviyyəsində və ya nazirlər səviyyəsində keçirilir. Şurada qərarlar ya yekdilliklə, ya da sadə səs çoxluğu ilə qəbul olunur. Səslər aşağıdakı şəkildə bölünür: Böyük Britaniya, İtaliya, Fransa və AFR - hərəsi 10 səs; İspaniya 8 səs; Belçika, Yunanıstan, Niderland və Portuqaliya - hərəsi 5 səs; Avstriya və İsveçrə - hərəsi 4 səs; Danimarka, İrlandiya və Finlandiya - hərəsi 3 səs; Lüksemburq - 2 səs.

Mənzil - qərargahı Brüsseldə yerləşir.

**Avropa Birliyi Komissiyası (ABK)** - Avropa Birliyinin icraedici orqanıdır. Aşağıdakılar ABK-nın fəaliyyətinə aiddir:

Avropa Şurasının qərar layihəsinin işlənilməsi, Avropa İqtisadi Birliyinin, Avropa Kömür və Polad Birliyinin, Avropa Atom Birliyinin müqavilələrinin və Avropa Şurasının qərarlarının icra edilməsinə nəzarət və s. ABK-in üzvlərindən təşkil olunmuş daimi qrup (xarici münasibətlərin, iqtisadi və maliyyə məsələləri üzrə və s.), həmçinin köməkçi orqanlar - katiblik, ümumi xidmət və informasiya bürosu yaradılmışdır.

ABK-nın qərarları səs çoxluğu ilə qəbul olunur.

ABK-nın yerləşdiyi yer Brüsseldir.

**Avropa İqtisadi Birliyi (AİB)** - Qərbi Avropa ölkələrinin təşkilatıdır. AİB-in təsisi haqqında müqavilə 25.03.57-ci ildə Romada imzalanmış, 01.01.58-ci ildə qüvvəyə minmişdir. Belçika, İtaliya, Lüksemburq, Hollandiya, Fransa, AFR, Böyük Britaniya, Danimarka, İrlandiya, Yunanıstan, İspaniya, Portuqaliya kimi ölkələr AİB-in üzvüdürlər.

Üzv dövlətlərdə gömrük rusumlarının, ölkəyə gətirilən və ölkədən aparılan malların sayının məhdudlaşdırılmasının tədricən ləğv edilməsi yolu ilə ümumi bazar formalaşdırmaq; üçüncü ölkələrə münasibətdə ümumi gömrük tariflərinin müəyyən edilməsi və bunlara münasibətdə razılaşdırılmış ticarət siyasəti aparmaq, işçi qüvvəsinin, kapitalın və xidmətlərin azad şəkildə bir yerdən başqa yerə keçməsinə şərait yaratmaq; kənd təsərrüfatı və nəqliyyat sahəsində vahid siyasət yeritmək və s. AİB-in əsas məqsədidir.

AİB-in əsas orqanları olan Avropa Birliyinin Nazirlər Şurası, Avropa Birliyinin Komissiyası, Avropa Parlamenti 1967-ci ildən başlayaraq Avropa Birliyinə vahid rəhbərliyi həyata keçirən orqanlardır. AİB Birləşmiş Millətlər Təşkilatında (BMT), BMT-nin ticarət və inkişaf üzrə Konfransında, həmçinin BMT-nin bir sıra ixtisaslaşmış qurumlarında müşahidəçi statusuna malikdir.

Hal-hazırda AİB Avropa Birliyi kimi adlanır.

**AVROPA ŞURASI** - Avropa Birliyinin əsas siyasi orqanıdır. Avropa Şurasının Nizamnaməsi 5 may 1949-cu ildə Londonda imzalanmış, 3 avqust 1949-cu ildə qüvvəyə minmişdir. Hal-hazırda Avropanın 43 dövləti - Albaniya, Andorra, Avstriya, Belçika, Bolqariya, Xorvatiya, Kıprız, Çexoslovakiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Latviya, Lixteynşteyn,



Litva, Lüksemburq, Malta, Moldova, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Ruminiya, Rusiya, San-Marino, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Yuqoslaviya, Makedoniya, Türkiyə, Ukrayna, Böyük Britaniya, Azərbaycan, Ermənistan Avropa Şurasının üzvləridirlər.

Avropa Şurasına üzvlüyə qəbul 1993-cu il Vyana bəyannaməsində müəyyən olunan, Avropa Şurasının üzv dövlətlərinin konfransında qəbul olunan şərtlərin yerinə yetirilməsi yolu ilə həyata keçir. Bu şərtlər aşağıdakılardır: demokratik prinsiplərin qorunması, insan hüquqlarına riayət olunması, azad, bərabər, ümumi seçkilər yolu ilə xalq nümayəndələrinin seçilməsi, insan hüquqları üzrə Avropa konvensiyasını imzalamaq və ona nəzarət mexanizmlərinin hamısını qəbul etmək öhdəliyi.

Avropa Şurasının məqsədi aşağıdakılardır: insan hüquqlarının qorunması və demokratiyanın inkişafı; hüquq, mədəniyyət, təhsil, informasiya, ətraf mühitin qorunması, səhiyyə kimi sahələrin əsas məsələlərində əməkdaşlıq; bütün Avropa ölkələrinin yaxınlaşması.

Avropa Şurasının ali orqanı üzv dövlətlərin xarici işlər nazirlərindən təşkil olunmuş Nazirlər Komitəsidir. Komitə nazirlər səviyyəsində ildə iki dəfədən az olmayaraq sessiyasını keçirir, üzv dövlətlərin daimi nümayəndələri səviyyəsində isə müntəzəm olaraq işləyir. Komitə əməkdaşlığın siyasi aspektlərini müzakirə edir, Avropa Şurasının fəaliyyət proqramını təkmilləşdirir, büdcəni təsdiq edir, Avropa Birliyinin Parlament Assambleyasının göndərdiyi tövsiyələri, müxtəlif hökumətlərarası ixtisaslaşmış komitələrin təkliflərini nəzərdən keçirir, insan hüquqları üzrə Avropa Komissiyasının üzvlərini təyin edir, həmçinin üzv ölkələrin hökumətlərinin təkliflərini yekdilliklə ðqəbul edir.

Avropa Şurasının strukturuna 5 il müddətində seçilən Baş Katibin rəhbərlik etdiyi inzibati-texniki Katiblik daxildir. Avropa Şurası çərçivəsində insan hüquqları üzrə Avropa Komissiyası, İnsan hüquqları üzrə Avropa məhkəməsi, gənclərin Avropa mərkəzi, Avropa hakimiyyət orqanlarının regional və yerli daimi konfransları, Sosial inkişaf Fondu fəaliyyət göstərir.

Avropa Şurası tərəfindən əməkdaşlığın müxtəlif sahələri üzrə ümumi Avropa konsepsiyası işlənir və qəbul edilir. Artıq

145-dən çox belə konvensiya qəbul olunmuşdur.

Azərbaycan Respublikası Avropa Şurasına 17 yanvar 2001-ci ildə qəbul olunmuşdur.

Avropa Şurasının əsas orqanları Strasburqda (Fransa) yerləşir.

**AVROPA ŞURASININ PARLAMENT ASSAMBLEYASI** - Avropa Şurasının orqanlarından biridir. O konsultativ orqandır və qanunvericilik səlahiyyətlərinə malik deyildir. Parlament Assambleyası Avropa Şurasına daxil olan dövlətlərin parlament nümayəndələrindən təşkil olunmuşdur. Bu milli nümayəndələr öz ölkələrinin müxalifət də daxil olmaqla müxtəlif siyasi partiyalarını təmsil etməlidirlər.

Hər bir ölkənin nümayəndələrinin sayı (2-dən 18-ə qədər) həmin ölkənin əhalisinin sayından asılıdır. Parlament Assambleyasının Şurası sədrdən və 17 müavindən ibarətdir. Assambleyanın sədri bir il müddətinə seçilir. Parlament Assambleyası özünün plenar iclaslarını ildə üç dəfə keçirir. İclas üzv dövlətlərin nazirlərinin və hökumətlərinin təkliflərini böyük səs çoxluğu ilə qəbul edir. Assambleya konfranslar, kollokviumlar, açıq parlament iclasları keçirir, Avropa Şurasının hakimlərini seçir. Parlament Assambleyasının iclaslarında siyasi əməkdaşlıq problemlərinin, o cümlədən hərbi-siyasi interqrasiya, beynəlxalq həyatın aktual problemlərinin müzakirəsinə geniş yer verilir.

Parlament Assambleyasının sessiyası Strasburqda (Fransa) və Lüksemburqda keçirilir. Katibliyi isə Lüksemburqda yerləşir.

**AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (ATƏT)** - ATƏT 1975-ci il Helsinki Yekun Aktı ilə Avropada təhlükəsizliyi qorumaq və Avropanın dövlətləri arasında sülhə söykənən əməkdaşlığı təmin etmək məqsədi ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) adı ilə yaradılmışdır. 1975-ci ildə Helsinki Yekun Aktı, 1990-cı ildə qəbul edilmiş Yeni Avropa Xartiyası və ona Əlavə sənədlər, 1992-ci ildə Helsinkidə qəbul olunmuş "dəyişən zamanın çağırışı" bəyannaməsi və ATƏM-in strukturu və fəaliyyətinin əsas istiqamətləri haqqında qərar paketi, həmçinin 1994-cü il Budapeşt Sammitinin, 1996-cı il Lissabon Sammitinin, 1999-cu il İstanbul Sammitinin qərarları təşkilatın fəaliyyətini əks etdirən sənədlərdir.



ATƏM 1994-cü ildən ATƏT adlanır. Hal-hazırda ATƏT beynəlxalq regional təşkilat kimi fəaliyyət göstərir. ATƏT-in əsas məqsədi uzunmüddətli sülhü, təhlükəsizlik sahəsində əməkdaşlığı, tərki-silahı, münaqişəli vəziyyətləri aradan qaldırmağı, iqtisadiyyatı, mədəniyyəti, insanların hüquq və azadlığını təmin etmək üçün şərait yaratmaqdır.

ATƏT-in ali orqanı ildə iki dəfə çağırılan dövlət və hökumət başçılarının toplantısıdır. ATƏT-in mərkəzi rəhbəredici orqanı isə qəbul olunan qərarlara görə cavabdehlik daşıyan Nazirlər Şurasıdır. Xarici işlər nazirlərindən təşkil olunmuş Nazirlər Şurası ildə iki dəfə toplanır.

Daimi Şura ATƏT-in siyasi məsləhətləşmələr aparan və cari qərarları qəbul edən orqanıdır. Şura üzv dövlətlərin daimi nümayəndələrindən təşkil olunmuşdur və Vyanada yerləşir. Demokratik institutlar və insan hüquqları üzrə Büro ATƏT-in orqanlarından biridir və Vyanada yerləşir. Bundan başqa ATƏT-in milli azlıqlar üzrə Ali Komissarlığı və təhlükəsizlik sahəsindəki əməkdaşlıq üzrə forum kimi orqanları da fəaliyyət göstərir.

ATƏT-in Parlament Assambleyası üzv dövlətlərin parlament nümayəndələrindən təşkil olunur. Nümayəndəliyin sayı hər dövlətdən əhalinin sayına görə 2-dən 17-yə qədər ola bilər. ATƏT-in Katibliyi Vyanada yerləşir. ATƏT-in Baş Katibi fəaliyyətdə olan sədrin və İdarəedici Şuranın zəmanəti ilə Nazirlər Şurası tərəfindən 3 il müddətinə seçilir.

ATƏT-in sədri Nazirlər Şurasının axırıncı iclasının keçirildiyi ölkənin xarici işlər naziri seçilir və onun səlahiyyət müddəti bir təqvim ilidir. Hal-Hazırda dünyanın 55 dövləti ATƏT-in üzvüdür. Azərbaycan Respublikası 1992-ci ilin fevralında ATƏT-ə qəbul olunmuşdur.

**AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ ÜZRƏ BEYNƏLXALQ KOMİTƏ** - Beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1972-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə ictimai qüvvələrin I Assambleyasında əksər Avropa ölkələrinin ictimai və siyasi dairələrinin nümayəndələrinin dialoqu və əməkdaş-

lığına kömək üçün yaradılmışdır. Komitə Avropada Təhlükəsizlik və Əməkdaşlığın Yekun Aktının həyata keçirilməsi ilə bağlı aktual problemlər üzrə toplantılar, konfranslar və başqa forumlar keçirir. 1979-cu ildə Komitənin təşəbbüsü ilə Belçikada tərki-silah və təhlükəsizlik üzrə Avropa ictimaiyyətinin forumu, noyabr 1980-ci ildə isə Madrid görüşünün işinə həsr olunmuş Avropa ictimaiyyətinin dialoqunu keçirmişdir. 1982-ci ilin martında Komitə ATƏM-in iştirakçısı olan dövlətlərin hökumət başçılarına sürətlə silahlanmaya son qoymağa çağırışla müraciət etmişdir; 1984-cü ildə "Avropada insanların tərki-silahı və təhlükəsizliyin möhkəmləndirməsi tədbirləri üzrə Stokholm konfransı" iştirakçılarına Avropa ərazisində kütləvi qırğın silahlarının bütün növünün ləğv edilməsinə kömək etməyə, adi silahların azaldılmasına nail olmağa və Avropa dövlətləri arasında inamın möhkəmləndirilməsinə, nüvəsiz zona yaratmağa müraciət etmişdir. Komitə 1984-cü ildə Vyanada ictimaiyyətin geniş nümayəndə heyətini təmsil edən "Avropada müharibə təhlükəsini necə aradan qaldırmalı" adlı konfrans keçirmişdir.

Komitə EKOSOS və UNESKO yanında məsləhətçi statusuna malikdir.

Komitənin mənzil - qərargahı Brüsseldədir.

**AVROPA MƏHKƏMƏSİ** - Avropa Birliyinə üzv olan dövlətlərin hökumətləri tərəfindən 6 il müddətinə təyin olunmuş 15 hakimdən və 9 baş vəkildən ibarətdir. Məhkəmənin əsas işi birliyin orqanlarının və üzv dövlətlərin hökumətlərinin fəaliyyətinin hüquqlarını təmin etməkdir.

Mənzil - qərargahı Lüksemburqdadır

**AVSTRALİYA** - Ölkə Avstraliya materikindən və yaxınlığındakı adalardan ibarətdir. Ərazisi 7.682.300 kv.km, əhalisinin sayı isə 18.322.231 (1995) nəfərdir. Dövlət dili ingilis dilidir.

Paytaxtı Kamberradır. Dövlətin adı Avstraliya Birliyidir. Dövlət quruluşu parlamentli federal dövlətdir.

Avstraliya müstəqilliyini 1 yanvar 1901-ci ildə qazanmışdır, həmin dövrdən də ölkə Britaniya Birliyinin üzvü olaraq qalır. Milli bayram 26 yanvar Avstraliya günüdür. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. İcra hakimiyyəti Britaniya monarxının, general-qubernatorun və Nazirlər kabinetinə rəhbərlik



edən baş nazirin əlində cəmləşmişdir. İkipalatalı federal parlament Senatdan və Nümayəndələr palatasından ibarətdir.

**AVSTRİYA** - Mərkəzi Avropada yerləşir. Ərazisi 83849 kv.km, əhalisi isə 7.986.664 nəfərdir. Paytaxtı Vyanadır. Dövlət dili alman dilidir.

Dövlətin adı Avstriya Respublikasıdır, dövlət quruluşu federativ respublikadır. Ölkə müstəqilliyini Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra 12 noyabr 1918-ci ildə elan etmişdir. Qanunvericilik Roma mülki icra hüquq sisteminə əsaslanır. Milli bayram 26 oktyabrda neytrallıq siyasətinin dəyişilməzliyinin ildönümü kimi qeyd olunur (1955-ci ildən başlayaraq). Dövlətin başçısı prezidentdir, lakin real hakimiyyət Nazirlər Şurasına rəhbərlik edən kanslerin əlindədir. İkipalatalı parlament (Federal Məclis) yuxarı palatadan və ya Federal Şuradan (Bundesrat) və aşağı palatadan (Milli Şura) ibarətdir.

**AZƏRBAYCAN** - Asiyanın qərbində yerləşir (Zaqafqaziyada). Ərazisi 86.600 kv.km, əhalisi 8 milyondur. Paytaxtı Bakı şəhəridir.

Dövlətin adı Azərbaycan Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Azərbaycan İran və Rusiya arasında gedən müharibələr nəticəsində 10 fevral 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi ilə iki yerə parçalanmışdır: Cənubi Azərbaycan İranın, Şimali Azərbaycan isə Rusiyanın tərkibində qalmışdır. Çar Rusiyası dağıldıqdan sonra 28 may 1918-ci ildə Azərbaycan müstəqilliyini elan etdi. 20 aprel 1920-ci ildə Sovet Rusiyasının təzyiqi ilə qanuni hakimiyyət devrilmiş, Azərbaycanda sovet hakimiyyəti qurulmuşdur.

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan yenidən müstəqilliyini elan etmişdir. Konstitusiyanı 12 noyabr 1995-ci ildə qəbul etmişdir. Milli bayram 28 may Respublika günü və 18 noyabr Müstəqillik günüdür. Dövlətin başçısı prezidentdir. Prezident Baş naziri və kabineti təyin edir, həm də Ali Baş komandandır. Qanunverici hakimiyyət birpalatalı parlamentə - Milli Məclisə məxsusdur.

**AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ VƏ DİPLOMATİK ƏLAQƏLƏRİ** - Oğuz tayfasından

olan Ağqoyunlu ulusunun başçıları Diyarbəkir vilayətində irsi hakim idilər. 1453-cü ildə Uzun Həsən ulusun başçısı seçilmiş və Ağqoyunlu dövlətini yaratmışdır. Ağqoyunlu dövləti yarandıqdan sonra həm Şərqin, həm də Qərbin inkişaf etmiş dövlətləri ilə geniş ticarət əlaqələri yaratmışdır. Bu əlaqələr həm də siyasi xarakter daşıyırdı. Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə əlaqələrinin siyasi xarakter almasının mühüm səbəblərindən biri 15-ci əsrin ortalarından etibarən Osmanlı türk dövlətinin öz ərazilərini genişləndirmək siyasəti idi. Sultan II Mehmed 1453-cü ildə Konstantinopolu (İstanbul) fəth etdikdən sonra dərhal Avropada geniş miqyaslı müharibələrə başladı. Bu isə Avropa dövlətlərini Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmağa məcbur edirdi. Roma Papası Konstantinopolun fəthindən dərhal sonra 1453-cü il sentyabrın 30-da xüsusi fərmanla bütün Avropa xalqlarını türklərə qarşı səlib yürüşünə çağırdı. Vatikan bir-birilə müharibə aparan İtaliya dövlətləri arasında sülh müqavilələri bağlamağa nail oldu. Avropa dövlətləri, xüsusilə də Venesiya Yaxın və Orta Şərqdə gedən prosesləri diqqətlə izləyir və Osmanlı imperiyasına qarşı Şərq dövlətlərindən istifadə etmək qərarına gəldi. Şərqdə isə Osmanlı dövlətinə qarşı dura biləcək dövlət Uzun Həsənin hökmdar olduğu Ağqoyunlu dövləti idi. Ağqoyunlu dövlətini Qərblə - xristian dünyası ilə bağlayan amillərdən biri də onun qohumluq əlaqəsi idi (Uzun Həsənin arvadı Dəspinə Xatun-Teodora Trabzon Yunan dövlətinin başçısının qızı idi).

II Mehmed Kiçik Asiya ilə bağlı hərbi siyasi planlarını həyata keçirmək üçün bu ərazidəki xırda dövlətləri, o cümlədən Trabzon dövlətini aradan qaldırmaq qərarına gəldi. Uzun Həsən bunun qarşısını almaq üçün 1459-cu ildə Ağqoyunlu diplomatı Murad bəyin başçılığı ilə İstanbula bir elçi heyəti göndərdi. Lakin Trabzona qarşı Osmanlı təcavüzünün qarşısını almaq mümkün olmadı. Sultan II Mehmed Trabzona hücum zamanı arxadan təhlükəsizliyini təmin etmək məqsədilə Ağqoyunlu dövlətini aradan götürmək qərarına gəldi. Mərkəzi Diyarbəkir olan kiçik Ağqoyunlu dövlətinin bu zaman xarici-siyasi vəziyyəti son dərəcə gərgin idi. Bir tərəfdə ənənəvi düşmən olan Qaraqoyunlular, o biri tərəfdən Teymuri Əbu Səid, digər tərəfdən isə Osmanlılar



Ağqoyunluları təqib edirdilər.

Uzun Həsən dövlətin taleyi üçün yaranmış son dərəcə böhranlı vəziyyətdə yeganə düzgün qərar qəbul etdi: Anası Sara Xatunun başçılığı ilə II Mehmedin Ərzincan yaxınlığında yerləşən döyüş düşərgəsinə elçi heyəti göndərdi. O zaman bütün Şərqdə, o cümlədən Avropada istedadlı bir diplomat kimi tanınan Sara Xatun oğlunun diplomatik tapşırığını məharətlə yerinə yetirdi. Osmanlı Sultanı tərəfindən yaxşı qarşılanan Sara Xatun II Mehmedi Ağqoyunlulara qarşı hərbi əməliyyatları davam etdirmək fikrindən daşındırdı. İki ölkə arasında sülh müqaviləsi (Yassıçəmən sülhü) bağlandı. Müqavilənin şərtlərinə görə Ağqoyunlular Osmanlı dövlətinə, habelə onun himayəsində olan yerlərə hücum etməməli və Osmanlı qoşunlarının Trabzona yürüşü zamanı bitərəf qalmalı idilər.

Bundan sonra Sultan II Mehmed Trabzon üzərinə yeridi. Arxadan Ağqoyunlulardan özünü sığortalamaq üçün Sara Xatunu və onun başçılıq etdiyi diplomatik heyəti də özü ilə apardı. 1461-ci ilin oktyabrın 26-da Trabzon süqut etdi. Trabzonun əldən getdiyini görən Sara Xatun gəlini Dəspinə Xatunun varislik hüququndan istifadə edərək, Trabzon xəzinəsini sultanla bölüşdürməyə nail oldu.

Trabzon yunan dövlətinin aradan qaldırılması, əslində Ağqoyunlu dövlətinə qarşı atılmış ilk hərbi-siyasi addım idi. Trabzonun fəthi ilə Ağqoyunlu dövləti təkcə öz müttəfiqini deyil, Qara dənizə yeganə çıxış yolunu itirdi. Ağqoyunlu-Osmanlı münasibətləri daha da kəskinləşdi.

1463-cü ilin dekabrın 2-də Venesiya senatında Ağqoyunluları antiosmanlı koalisiyasına cəlb etmək haqqında xüsusi məsələ müzakirə olundu. Senat osmanlılara qarşı Ağqoyunlu dövləti ilə hərbi ittifaq bağlamağı qərara aldı. Həmin qərara əsasən Venesiya diplomatı Lazaro Kvarino Ağqoyunlularla müqavilə bağlamaq üçün Uzun Həsənin sarayına yola salındı. Bu zaman Qaraqoyunlu Cahan şaha qarşı mübarizəni başa çatdırmaq üçün onun müttəfiqi Osmanlı dövlətinin başçısı Sultan II Mehmedin başını daim Qərb dövlətləri ilə müharibələrə qarışdırmaq siyasəti yeridən Uzun Həsən hələ Lazaro Kvarino Ağqoyunlu sarayına

çatmamış öz elçilərini İtaliyaya göndərdi. 1464-cü ilin martın 13-də dörd nəfərdən ibarət Ağqoyunlu diplomatları Venesiya sarayına gəldilər və Ağqoyunlu ilə Venesiya arasında Osmanlı dövlətinə qarşı ittifaq bağlandı. Müqaviləyə görə Uzun Həsənin fəth edəcəyi bütün Osmanlı torpaqları ona vəd edilirdi.

1465-ci ildə Venesiyaya Həsən Əzən adlı daha bir Ağqoyunlu diplomatı gəldi. O, Uzun Həsən və arvadı Dəspinə Xatunun - Teodoranın məktublarını Venesiya hökumətinə təqdim etdi. Bu məktublarda Ağqoyunluların tezliklə Osmanlılarla müharibəyə başlayacağı bildirilir və Avropa dövlətlərinin də Osmanlılara qarşı müharibəyə başlaması tövsiyə olunurdu. 1468-ci ildə Ağqoyunlular Qaraqoyunluları və Teymuri Əbu Səidi məğlub etdikdən sonra artıq Şərqdə Osmanlılarla üz-üzə dayana biləcək qüdrətli bir dövlətə çevrildi.

1468-ci ildə Sultan II Mehmed Ağqoyunluların müttəfiqi olan Qaraman əmirliyini də işğal etdi. Qaraman Əmirliyinin Türkiyəyə ilhaqı ilə Ağqoyunlu dövləti daha bir müttəfiqini itirdi və Qara dəniz kimi Aralıq dənizinə də çıxış yolundan məhrum oldu.

Osmanlıların hərbi uğurları Ağqoyunlu dövlətini Avropaya daha da yaxınlaşdırdı. Ağqoyunlu dövləti ilə Venesiya respublikası, Böyük Moskva knyazlığı, Böyük Orda, Polşa Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burgindiya, Neapol krallığı, Rodos, Kipr, Misir, Hindistan və bir çox başqa dövlətlər arasında diplomatik əlaqələr daha da genişləndi.

Uzun Həsən hərbi gücünü möhkəmləndirmək üçün odlu silah almaq məqsədilə 1471-ci ildə Venesiyanın Təbrizdəki səfiri Lazaro Kvarinonu və öz elçisi Murad bəyi Avropaya yola saldı. Bir müddət keçdikdən sonra Murad bəyin ləngidiyini görən Uzun Həsən Avropaya başqa bir diplomat göndərdi. Bu Azərbaycan diplomatı Qara dənizdən və Ukrayna ərazisindən keçib Polşaya çatmış sonra isə İtaliyaya yollanmışdır. Diplomat Roma Papası ilə danışıqlar apardıqdan sonra Papanın Azərbaycana göndərilən elçisi ilə birlikdə Təbrizə qayıtmışdı.

1471-ci ildə Venesiya hökuməti diplomat Katerino Zenonu Təbrizə səfir göndərdi. Onun vəzifəsi Ağqoyunlu dövlətini Osmanlılara qarşı müharibəyə çəkmək idi və diplomat öz məqsədi-



nə nail ola bildi. 1472-ci ilin baharında Ağqoyunlu qoşunları Osmanlıların sərhədlərini keçərək ərazilərinə basqın etdilər. Bir neçə mühüm yaşayış məntəqələrini tutmaqlarına baxmayaraq, Osmanlı qoşunları tərəfindən məğlubiyyətə uğradılar.

1472-ci ilin avqustunda İshaq adlı Ağqoyunlu diplomatı Venesiyaya gəldi və Uzun Həsənin məktubunu Venesiya hökumətinə təqdim etdi. Məktubda Uzun Həsən gizli planlar haqqında məlumat verir və öz adından diplomat İshaqa danışıqları aparmaq səlahiyyəti verirdi. İshaq danışıqları başa çatdırmamış, 1472-ci ilin avqustunda Venesiyaya Azərbaycanın yeni bir diplomatik heyəti gəldi. Bu heyətə Hacı Məhəmməd başçılıq edirdi. O, Venesiya hökuməti ilə danışıqları davam etdirdi, İshaq isə Roma Papası IV Skist, Neapol kralı və digər Avropa dövlət başçıları ilə danışıqlar aparmaq üçün Venesiyanı tərk etdi. Hacı Məhəmməd Venesiya hökuməti ilə danışıqlar zamanı Ağqoyunlu-Venesiya hərbi müqaviləsinin şərtlərinin yerinə yetirilməsini tələb etdi. Hacı Məhəmmədin səyləri nəticəsində 1472-ci ilin sentyabrın 25-də Venesiya senatı xüsusi yığıncağında odlu silahların Ağqoyunlu dövlətinə təcili yola salınması haqqında qərar qəbul etdi. 1473-cü ilin yanvar ayının 11-də Venesiya hökuməti çoxlu silahsursatla birlikdə özünün diplomatı İosafat Barbaronu Təbrizə yola saldı. İosafat Barbaroya Ağqoyunlu- Osmanlı müharibəsini tezləşdirmək haqqında gizli təlimat da verilmişdi. O, bu tapşırığı yerinə yetirərkən dövrün məşhur diplomatı hesab olunan Uzun Həsənin anası Sara Xatundan və arvadı Dəspinə Xatundan istifadə etməli idi.

Qərb dövlətləri ilə diplomatik danışıqlar zamanı göstərdiyi bütün səylərər baxmayaraq, Ağqoyunlu hökmdarı yalqız qaldı. Uzun Həsən Osmanlı imperiyasının bütün hərbi qüvvəsi ilə təkbətək qarşılaşmalı oldu. 11 avqust 1473-cü ildə Osmanlılar Ağqoyunluları Otluqbeli döyüşündə məğlub etdilər. Sultan II Mehmed əldə etdiyi mühüm qələbədən sonra müharibəni davam etdirmədi. O, Ağqoyunlularla sülh bağlayaraq İstanbula döndü.

Müharibədə məğlub olmasına baxmayaraq, Uzun Həsən Avropa dövlətlərinin yardımından istifadə etməklə Osmanlılarla müharibə etmək qərarına gəldi. 1474-cü il aprel ayının sonunda

Katerina Zeno Uzun Həsənin adından danışıqlar aparmaq üçün Polşa və Macarıstana getdi sonra isə bir neçə İtaliya dövlət başçıları ilə danışıqlar apardı. Lakin bu danışıqların heç bir nəticəsi olmadı.

Otluqbeli döyüşündən sonra Ağqoyunlu-Venesiya əlaqələrində fəallıq daha da artmışdı. Venesiya senatının qərarına əsasən mənşəcə alban olan Paolo Onyebene xüsusi tapşırıqla Təbrizə yola salındı. Ağqoyunlu sarayında işlərin gedişindən narahat olan Venesiya hökuməti Paolo Onyebene yola düşəndən az müddət sonra 10 dekabr 1473-cü ildə Ambrocco Kontarinini Təbrizə səfir göndərdi. 28 iyul 1475-ci ildə Kontarini Uzun Həsənin elçisi ilə birlikdə yenidən Venesiyaya qayıtdı. İosofat Barbaro isə 1478-ci ilə qədər Venesiyanın Təbriz sarayında səfir kimi fəaliyyət göstərmişdi.

1478-ci ildə Uzun Həsən öldükdən sonra Ağqoyunlu dövlətinin tənəzzül dövrü başlandı. Hökmdarın oğullarının taxt-tac uğrunda apardıqları qanlı çarpışmalar dövlətin hərbi qüvvəsini getdikcə zəiflətdi. Sultan Yaqubun (1478-1490) dövründə yaranmış müvəqqəti sakitlikdən sonra bu dövlət dərin tənəzzül dövrünə qədəm qoydu. Artıq Ağqoyunlular dövləti Avropa üçün də öz əhəmiyyətini itirdi.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ VƏ DİPLOMATİK ƏLAQƏLƏRİ (1918-1920)** - 1917-ci il fevral inqilabından sonra Nikolay taxt-tacından imtina etdi. İmperiyanın idarəsini öz əlinə almış Dövlət Dumasının İcraiyyə Komitəsi yeni hökumət təşkil etdi. Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Zaqafqaziyanın idarəsi üçün xüsusi komitə yarandı və Müvəqqəti hökumət tərəfindən komitəyə geniş hüquqlar verildi.

1917-ci ilin noyabrın 7-də Peterburqda bolşeviklər hakimiyyəti qeyri-qanuni zəbt etdilər. Noyabrın 24-də Zaqafqaziyanın idarə komitəsinin Zaqafqaziyadan olan bütün siyasi qüvvələrinin iştirakı ilə Tiflisdə çağırılmış müşavirədə qərara alındı ki, Ümumrusiya Müəssislər Məclisi toplanana qədər Zaqafqaziya özünü müstəqil idarə etməli, seçkilər keçirib öz nümayəndələrini bu ali qanunverici orqana göndərməlidir. Bir neçə gündən sonra yerli



müvəqqəti hökumət - Zaqafqaziya komissarlığı yarandı.

Bu zaman Cənubi Qafqazın beynəlxalq vəziyyətində əsaslı dəyişikliklər baş verdi. Noyabr ayında Sovet hökuməti almanlara barışıq haqqında müraciət etmiş, dekabrda Brest-Litovsk şəhərində barışıq imzalanmış, sülh danışıqları başlamışdı. Dekabr ayının 18-də Qafqaz ordusunun nümayəndəsi ilə Osmanlı ordusunun nümayəndəsi arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş imzalandı.

Ümumrusiya Müəssislər Məclisinin ilk iclasından sonra Lenin Məclisi dağıtdı. Leninin bu qərarı Cənubi Qafqazda yeni siyasi böhran yaratdı. Bununla da Qafqaz öz ümidinə buraxılmış oldu. Uzun müzakirələrdən sonra fevralın 25-də Tiflisdə Müəssislər Məclisinə seçilmiş nümayəndələrdən ibarət Zaqafqaziya Seymi toplandı. Seym hər şeydən əvvəl Osmanlı imperiyası ilə müharibə problemini həll etməli idi. Bu azmış kimi, üç gündən sonra bolşevik hökumətinin imzaladığı müqaviləyə əsasən Ərdəhan, Qars və Batum Türkiyəyə verildi. Lakin Seym hökuməti sülh müqaviləsinin bu bəndini tanımadığını bildirib, martın 14-də Osmanlı nümayəndələri ilə Trabzonda rəsmi danışıqlara başladı. Lakin sülh danışıqları heç bir nəticə vermədi.

Qafqazın Rusiyanın tərkibində hüquqi cəhətdən birdəfəlik qopmaqda olduğunu görən Sovet Rusiyası özünün Bakıdakı qüvvələri vasitəsilə bu işin qarşısını almağa cəhd etdi. Bolşeviklərin və erməni daşnaklarının üst-üstə düşən məqsədləri martın 30-dan aprelin 1-nə qədər Bakıda baş vermiş "Mart qırğını"na səbəb oldu. Lenin tərəfindən Qafqazda fövqəladə komissar təyin edilmiş Şaumyan "mart qırğını"na rəhbərlik etdi. "Mart qırğını" nəticəsində Bakıda 10 mindən çox dinc əhali qırıldı, şəhər duması, milli şuralar ləğv edildi. Daha sonra qırğın dalğası Lənkəran, Şamaxı, Quba mahallarını bürüdü. Cəmi 30 mindən çox adam öldürüldü. Qırğını yüksək qiymətləndirən Şaumyan Azərbaycanın şərqində Sovet Rusiyasının yerli hökumətini qurmuş oldu və bütün Cənubi Qafqazı sovetləşdirmək üçün hazırlığa başladı.

Seymin bütün müsəlman fraksiyalarının aprelin 7-də birgə fövqəladə iclasında Azərbaycanda yaranmış dramatik vəziyyət

geniş müzakirə edildi. Müzakirə nəticəsində qərara alındı ki, müsəlman nazirlərin istefası bildirilsin, Qafqazın müstəqilliyinin elan edilməsi məsələsində müsəlman fraksiyalarının qəti fikri Seymdə təmsil olunan bütün partiyaların nəzərinə çatdırılsın, bu tələb qəbul edilməzsə, Şərqi Qafqazın müstəqilliyinin elan edilməsi imkanları müzakirə edilsin. Azərbaycan nümayəndələrinin ultimativ tələbləri Seymə çaxnaşma saldı. Üstəlik həmin günlərdə Osmanlı nümayəndə heyətinin başçısı ultimativ səciyyəli bir yazı göndərərək həm Brest-Litovsk barışığının tanınması, həm də Türkiyə ilə qəti müzakirələr aparmaq üçün Seymin müstəqil dövlət kimi Rusiyadan ayrıldığını qəti şəkildə elan etməsini tələb etdi. Eyni zamanda Osmanlı ordusu Qafqazın içərilərinə doğru sürətlə irəliləyirdi.

Aprel ayının 22-də müstəqil Zaqafqaziya Federativ Demokratik Respublikasının yarandığı elan edildi. Osmanlılarla münasibətləri yoluna qoymaq üçün hökumətin başçısı Çxengelinin rəhbərliyi ilə nümayəndə heyəti Batuma yola düşdü. Heyətin tərkibində həlledici səslə M.Ə.Rəsulzadə və M.H.Hacınski də vardı. Lakin Batum danışıqları heç bir nəticə vermədi. Cənubi Qafqazı təşkil edən üç əsas millət arasındakı daxili ziddiyyətlər, xüsusilə də xarici oriyentasiya məsələsindəki antoqonizm müstəqil vahid dövlətdə birləşmək imkanını aradan qaldırdı. Seymə daha sonra sülh heyətinə daxil olan nümayəndələr Cənubi Qafqazın ümumi mənafeyindən çox öz milli mənafelərini təmsil edirdilər.

26 may 1918-ci ildə gürcü nümayəndələri Seymdən çıxdıqlarını bildirdilər və Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 28-də Seymin Azərbaycanlı nümayəndələri Azərbaycan Milli Şurasının yaranması haqqında bəyannamə - İstiqlal bəyannaməsini qəbul etdi. Daha sonra Milli Şura Fətəli xan Xoyskiyə müvəqqəti hökuməti təşkil etməyi tapşırdı. Mayın 30-da isə Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında radioteleqrafla dünyanın əsas siyasi mərkəzlərinə məlumat verildi. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sahəsində ilk müstəqil addımlarını atmağa başladı.

Dünya dövlətləri ilə, o cümlədən qonşu dövlətlərlə münasi-



bətlərin beynəlxalq normalara uyğun qurulması AXC-nin xarici siyasətinin ana xəttini təşkil edirdi. Azərbaycanın dünya dövlətləri ilə əlaqələrinə ayrı-ayrılıqda nəzər salaq:

*1.* ***Azərbaycan-Osmanlı münasibətləri*** - Azərbaycan müstəqilliyini elan etdiyi vaxt Batumda danışıqlar davam edirdi. Müstəqil Azərbaycan dövləti adından Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski, Osmanlı dövləti tərəfindən ədliyyə naziri Xəlil bəy və şərq cəbhəsi komandanı Vəhib paşanın iyunun 4-də imzaladıqları dostluq müqaviləsinə görə, iki ölkə arasında daimi sülh və möhkəm dostluq münasibətləri bərqərar edildi.

Azərbaycan Milli Şurası və Müvəqqəti hökuməti iyun ayının 16-da Gəncəyə köçən kimi imtahan qarşısında qalmalı oldu. Milli Şuradan kənarda qalmış bəzi qüvvələr real qüvvəyə malik olan Nuru paşa (Azərbaycandakı osmanlı qoşunlarının başçısı) vasitəsilə Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa çalışdılar. Nuru paşanın təzyiqi ilə Milli Şuranın 17 iyun tarixli iclasında F.Xoyski hökuməti istefasını elan etdi. Yeni hökumətin tərkibini təsdiq etdikdən sonra Milli Şura öz işini müvəqqəti dayandırdı. Milli Şura yeni müvəqqəti hökumətin hüquq və vəzifələrini, eləcə də Azərbaycan Milli Şurasının buraxılması haqqında qərar qəbul etdi. İyunun 24-də M.Ə.Rəsulzadənin başçılıq etdiyi yeddi nəfərdən ibarət nümayəndə heyəti İstanbula getdi. Nümayəndə heyəti Dördlər İttifaqı dövlətləri və Qafqazda yeni yaranmış dövlətlərin nümayəndələrindən ibarət konfransda iştirak etməyə, eyni zamanda osmanlı hökuməti ilə bağlı bəzi məsələləri müzakirə etmək üçün göndərilmişdi. Azərbaycan nümayəndə heyəti burada çoxlu görüşlər keçirmiş, İstiqlal bəyannaməsini bu ölkələrin nümayəndələrinə təqdim etmişdi. Müharibə gedişində Dördlər İttifaqı dövlətlərinin vəziyyəti ağırlaşdığından konfrans baş tutmadı.

Bununla belə Azərbaycan nümayəndə heyətinin Osmanlı hökumətinin başçısı və digər rəsmi şəxslərlə görüşləri çox faydalı olmuşdur. Osmanlı hökuməti nümayəndə heyətinin xahişini nəzərə alaraq on il müddətinə Azərbaycana 2 milyon lirə həcmində borc verməyi qərara aldı. Azərbaycan pullarının çapı da İstanbulda başlandı. Bundan başqa Ənvər paşa Azərbaycana kifayət

qədər hərbi qüvvə göndərməyə söz verdi. Beləliklə, müstəqil Azərbaycan dövlətinin ilk diplomatik addımları İstanbul görüşlərində atıldı.

Osmanlıların Qafqazda irəliləməsi müttəfiqi almanları çox narahat edirdi. Qafqazda almanların öz mənafelərinə uyğun məqsədləri vardı, bunlardan ən mühümü Bakı neftindən istədikləri miqdarda faydalanmaq imkanlarını təmin etmək idi. Ona görə də Almaniya Bakının Türkiyənin hərbi yardımı ilə azad olunmasını arzu etmirdi. Almanlar osmanlılardan gizlin olaraq Bakı nefti və Azərbaycan məsələsində ruslarla anlaşa bildilər. Avqust ayının 27-də Sovet Rusiyası ilə Brest-Litovsk müqaviləsinə əlavə imzalandı. Sənədin 14-cü maddəsi Azərbaycan haqqında idi. Bu maddəyə görə, Almaniya üçüncü dövlətin, yəni Türkiyənin hərbi qüvvələrinin Bakı, Şamaxı və Quba mahallarının müəyyən olunmuş sərhədlərini keçməməsinə kömək etməli idi. Əvəzində Rusiya imkan daxilində Bakı əyalətində neft və neft məhsulları çıxarılmasına şərait yaradacaq və çıxarılan neftin dörddə biri Almaniyaya veriləcəkdi.

Hələ iyun ayının əvvəlində F. Xoyski Osmanlı dövlətindən Azərbaycana hərbi yardım göstərmək haqqında xahiş etmişdi. Osmanlılar belə bir yardıma görə müttəfiqi Almaniyanın əks reaksiyasından ehtiyat edirdilər. Ona görə də üzdə bu qüvvənin Osmanlı dövlətinə bağlı olmadığı təsəvvürü yaratmaq üçün yeni bir qoşun birləşməsi Qafqaz İslam Ordusu adlandırıldı. Onun başına Nuru paşa gətirildi. Ordunun Gəncəyə gəlməsi almanların müqaviməti ucbatından xeyli ləngidi. Almanlar Brest-Litovsk müqaviləsi ilə bağlı olduqları Soveti Rusiyasının tələbləri və Bakı neftinə xüsusi maraqları olduğundan Bakının tutulmasına mane olmaq məqsədi ilə bu diviziyanın Gürcüstan dəmiryolu ilə Gəncəyə gəlməsini qadağan etdilər. Diviziya böyük çətinliklərlə Gəncəyə gəlib çatdı və Bakı Sovetinin hərbi qüvvələrinə qarşı vuruşmağa başladı. Artıq iyulun sonunda Azərbaycan və Osmanlı hərbi hissələri Bakı ətrafına gəlib çatdılar. İyulun sonunda Stepan Şaumyanın dəstəsi istefa verdi və Bakıda "Sentrokaspi və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət heyətinin Diktaturası" adlı yeni bir yad rejim quruldu. Bu rejim Ənzəlidən general Denstervilin başçılığı ilə 1500 əsgər və zabitdən ibarət qüvvə dəvət etdi. Lakin bunlar Qafqaz İslam Ordusunun qarşısını ala bilmədi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri Bakıya daxil oldu. Bakı fəth edildi.

Sentyabrın axırlarında Berlində Osmanlı dövlətinin baş naziri Tələt paşa ilə Almaniya dövlət başçısı arasındakı danışıqlarda Azərbaycan məsələsi də müzakirə olunmuş və danışıqların nəticəsində sentyabrın 28-də gizli bir protokol imzalanmışdır. Almanlar əvvəlki etirazlarından imtina etdilər, hətta Azərbaycanı tanımaq barədə Sovetlərin razılığını təmin etmək vəzifəsini öz üzərinə götürdülər. Əvəzində osmanlılar hərbi hissələrini Azərbaycandan çıxarmağı vəd etdilər.

Lakin osmanlı dövlətinin müharibədə məğlub olması hər şeyi alt-üst etdi. Mudros müqaviləsinin şərtlərinə görə, Osmanlı dövləti öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqazdan geri çəkməli, Tiflis-Bakı dəmiryolu xəttinin Antantanın nəzarəti altına keçməsinə mane olmamalı və Müttəfiq qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı idi.

***2. Azərbaycan-Antanta ölkələrinin münasibətləri*** - Noyabrın 10-da baş nazir F.Xoyski və xarici işlər naziri vəzifəsinin icraçısı Adil xan Ziyadxan xalqların öz müqəddəratını təyin etmək hüququnu tələb edən ABŞ-ın prezidenti Vudro Vilsona müraciət edərək, Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınmasında köməklik göstərilməsini xahiş etdilər. Digər tərəfdən Ənzəlidə olan ingilis qüvvələrinin komandanlığı ilə danışıqlar aparmaq üçün oraya nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin tərkibinə Ə.Ağaoğlu, N.Yusifbəyli və M.Rəfiyev daxil idilər.

Azərbaycan nümayəndə heyəti ingilis hərbi hissələrinin komandanı general Tomsondan Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməsini təklif etdi. Lakin Tomson bu təklifi rədd edərək, qəti qərarını bildirmişdir ki, noyabrın 17-si saat 10-a kimi Bakı Osmanlı və Azərbaycan qoşunlarından təmizlənməlidir; Bakı neft mədənləri işğal altında olacaq, lakin qalan hissələri isə Azərbaycan hökuməti və onun qoşunlarının nəzarəti altında qalacaq; Azərbaycan rəsmən tanınmır, lakin İn-

giltərə, Fransa və Amerika nümayəndələri onun hökuməti ilə de-fakto əlaqələr yaradırlar; bütün təşkilat və müəssisələr adi qaydada işləyir, lakin general Tomson Bakının general-qubernatoru olacaq, şəhər dumasına yenidən fəaliyyət azadlığı veriləcək; Paris Sülh konfransında milli müqəddəratın təyini prinsipi əsasında müzakirələrdən Azərbaycan xaric edilməyəcək, Lazar və Biçeraxov və onun hissələri Britaniya qoşunları ilə Bakıya daxil olacaq, silahlı ermənilər Bakıya buraxılmayacaqlar.

Noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən toplanıb vəziyyəti müzakirə etdi. Şura üzvlərinin əksəriyyəti istiqlal məsələsində güzəştə getməməyi qərara aldı. Noyabrın 17-dəTomsonun hərbi dəstələri Bakıya girdi. Tomsonun 2 gün sonra yaydığı bəyannamədə Qafqazı Rusiyanın bir parçası hesab etdiyi. Rusiyanın 1914-cü il hüdudlarının bərpa etməkdə müttəfiqinə yardım göstərəcəyini bildirdi. Biçeraxov isə daha irəli gedərək "Qafqaz-Xəzər hökuməti" deyilən təşkilat yaratdı və o, Bakıda çevriliş təşkil etmək üçün geniş fəaliyyətə başladı.

General Tomson Bakıya gələr-gəlməz Azərbaycan dövlət başçılarına ölkədə olan əsas millətlərin nümayəndələrindən ibarət yeni hökumət yaradılmasını təklif etdi. Eyni zamanda müvəqqəti qanunverici orqan - Azərbaycan parlamenti yarandı. Parlament dekabr ayının 7-də açıldı. F.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Qəbul olunmuş qərara əsasən yeni hökumətin təşkili yenə də Fətəli xana tapşırıldı. Hökumətin təşkilindən az sonra Tomson elan etdi ki, Fətəli xanın başçılıq etdiyi Azərbaycan hökumətini ölkə daxilində yeganə qanuni hakimiyyət orqanı kimi tanıyır. 1919-cu ilin yanvarında Bakıya gələn Müttəfiqlərin səlahiyyətli nümayəndəsi Jorj Miln ingilis hökumətinin ölkədəki mövcud hökuməti yeganə qanuni hakimiyyət kimi tanıdığını təsdiq etdi və Azərbaycan hökumətinin Müttəfiq komandanlığı tərəfindən tamamilə müdafiə ediləcəyini bildirdi.

Biçeraxov dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin qəti tələbi ilə ingilislər "Qafqaz-Xəzər hökuməti"ni qanundankənar elan edib qiyam rəhbərlərini 48 saat müddətində Bakıdan uzaqlaşdırdı, daha sonra erməni hərbi hissələri tərki-silah edilib buraxıldılar. 1918-ci ilin dekabrından etibarən ingilis komandanlığı Bakıda qoyduğu məhdudiyyətləri tədricən götürməyə başladı: Bakı polisi, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət ləğv olundu.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğunun ləğvi ilə Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxta daxil oldu və Azərbaycan hökumətinə N.Yusifbəyli başçılıq etməyə başladı.

1919-cu ilin may ayının 10-da Paris konfransı adından general Tomson Azərbaycan hökumətinə Britaniya qoşunlarının İtaliya qoşunları ilə əvəz ediləcəyi, bu dəyişmənin hərbi xarakter daşıdığı və səlahiyyətlərlə təsir etməyəcəyi haqqında teleqram göndərdi. Mayın 16-da Savoya şahzadəsinin başçılığı altında ilk İtaliya heyəti Bakıya gəldi. Mayın 22-də isə polkovnik Milxior Qabbanın rəhbərlik etdiyi hərbi hissə Bakıya gəldi.

Bakıda İtaliya heyəti öz işlərini sahmana salmamış İtaliyada hökumət dəyişikliyi baş verdi. Yeni baş nazir Françesko Nitti Qafqaz üzərində İtaliya mandatı məsələsini baha başa gələ biləcək avantüra adlandırdı və Qafqazda mandatdan və buraya hərbi hissələr göndərməkdən imtina etdi. Beləliklə, ingilis qoşunlarının getməsi ilə Azərbaycanda heç bir xarici hərbi qüvvə qalmadı.

3. ***Azərbaycan-Gürcüstan münasibətləri*** - Gürcüstan və Azərbaycan öz müstəqilliklərini elan etdikdən sonra ortaya "Borçalı" problemi çıxdı. Gürcüstanda yaşayan azərbaycanlılar bu torpaqların Azərbaycan torpaqları hesab edilməsini və Azərbaycan Xalq Cümhuriyyətinin öz hakimiyyətini Borçalıda təsbit etməsini tələb edirdilər. Azərbaycan Respublikası sərhəd məsələlərinin qarışıq komissiya vasitəsilə həll etmək təklifini irəli sürdü, lakin Gürcüstan hökuməti bu təklifi qəbul etmək istəmir, keçmiş Tiflis quberniyasının ərazisinin qeyd-şərtsiz Gürcüstan ərazisi olduğu fikrində israr edirdi. Diplomatik yazışmaların getdiyi bir şəraitdə Borçalı mahalına gürcü-alman hərbi hissələri yeridildi və məsələ yerli əhali ilə silahlı toqquşmalar həddinə gəlib çatdı.

Avqust ayının sonunda Gürcüstan hökuməti mübahisəli ərazi məsələləri üzrə arbitraj komissiyasının yaradılmasına razılıq verdi. Lakin daha sonra qarşılıqlı razılığa əsasən iki ölkə arasın-

dakı ərazi məsələlərinin həlli təşkili İstanbulda nəzərdə tutulmuş beynəlxalq konqresə keçirildi.

Sentyabr-oktyabr aylarında Gürcüstan və Ermənistan respublikaları arasında silahlı toqquşmalar müharibə vəziyyətinə gəlib çatdı. Oktyabrın 27-də Gürcüstan Respublikası azərbaycan, Ermənistan və Dağlılar Respublikalarının səlahiyyətli nümayəndələrini Tiflisə konfransa dəvət etdi. Konfransda bu respublikalar arasındakı mübahisəli sərhəd məsələləri müzakirə olunmalı idi. Konfrans Ermənistan iştirak etmədən noyabrın 14-də öz işinə başladı. Konfransda Azərbaycanı M.Y.Cəfərov təmsil edirdi. Lakin Ermənistan -Gürcüstan münaqişəsi konfransın işini təxirə saldı.

1919-cu ilin yanvarın 19-da müttəfiqlərin təkidi ilə Ermənistan-Gürcüstan danışıqları başlandı. Azərbaycanın iştirak etmədiyi bu danışıqların nəticəsinə görə, Borçalı qəzası üç hissəyə bölündü: şimal hissə Gürcüstana, cənub hissə Ermənistana verildi, Loru nahiyəsi isə neytral zona elan edildi.

1919-ci ilin aprelin 25-də yeni yaranmış dörd Qafqaz dövlətinin yüksək səlahiyyətli nümayəndələrinin iştirak etdiyi konfrans Tiflisdə öz işinə başladı. Azərbaycan Respublikası nümayəndə heyətinə baş nazir və xarici işlər naziri əvəzi F.Xoyski özü başçılıq edirdi. Uzun mübahisələrdən sonra konfrans ərazi-sərhəd məsələsi üzrə aşağıdakı formulu qəbul etdi: yalnız respublikalar arasındakı qarışıq əhaliyə malik rayonlar haqqındakı mübahisəli məsələlər müzakirə edilə bilər; bu mübahisələrlə əlaqədar respublikalar arasında sazişlərin əldə edilməsi, sazişlərdə razılığa gəlmək mümkün olmadıqda isə bu mübahisələr arbitraj yolu ilə həll olunur.

1919-cu il iyunun 16-da Tiflisdə Azərbaycanla Gürcüstan arasında hərbi-müdafiə müqaviləsi imzalandı və iyunun 27-də hər iki ölkənin parlamentində təsdiq edildi. Hərbi-müdafiə müqaviləsinə görə, Qafqaz dövlətlərinin istiqlalı və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olunduğu halda müqavilə iştirakçısı olan dövlətlər bir-birinə hərbi yardım göstərməli idi (maddə 1). Razılığa gəlmiş tərəflər hər iki dövlətin müstəqilliyinin və suveren hüquqlarının qorunmasına yönəlmiş diplomatik



danışıqlarda birgə hərəkət etməli idilər (maddə 6). Tərəflər separat sülh danışıqlarından çəkinməli idilər (maddə 7). Tərəflər müttəfiqləri ilə ilkin razılığa gəlmədən başqa dövlətlərlə hərbi konvensiyalar bağlamamalı idilər.

Müqavilənin 10-cu maddəsi Ermənistanla bağlı idi. Müqavilənin rəsmən elanından sonra 2 həftə ərzində Ermənistan bu müqaviləyə qoşula bilərdi. Lakin Ermənistan müqaviləyə qoşulmadı, hətta Denikinlə gizli sazişə girib Azərbaycan və Gürcüstana qarşı onunla ittifaq yaratdı.

***4. Azərbaycan-Ermənistan münasibətləri*** - Bu dövrdə Azərbaycanın Ermənistanla münasibətləri gərgin idi. Andronikin başçılığı ilə Zəngəzurda, Naxçıvanda və Qarabağda ermənilərin törətdikləri qətllər və talanlar gənc Azərbaycan dövləti üçün böyük problemə çevrilmişdi. 1918-ci ilin iyunundan başlayaraq 1919-cu ilin noyabrına qədər bu regionda yüzlərlə Azərbaycan kəndləri viran qoyulmuş, minlərlə günahsız insanlar qətlə yetirilmiş, öz yurd-yuvalarından didərgin salınmışdı. Məqsəd daşnak partiyasının "Böyük Ermənistan" yaratmaq planlarını həyata keçirmək idi. Bu planın reallaşdırılması üçün isə ermənilər İrəvan quberniyasında, Qarabağda, Zəngəzur mahalında, azərbaycanlıların ermənilərə nisbətən qat-qat çox olduqları başqa yerlərdə azərbaycanlıları zorla ata-baba yurdlarından qovub çıxartmaq, azərbaycanlılarla bağlı olan nə varsa hamısını yox etmək siyasətini həyata keçirməyə başladılar.

1918-ci ildə İstanbul konfransına ermənilər özlərinin hazırladıqları statistik materiallar, xəritələr və layihələrlə getdilər. Erməni layihəsinə Sürməli, Naxçıvan, Axalkələk, Eçmiədzin, İrəvan, Qazax, Qarabağ, Zəngəzur, Ordubad və Borçalı mahalları daxil idi.

Artıq iyun ayının axırlarında general Andronik bütün Zəngəzur mahalını ələ keçirmiş, buradakı türk kəndlərini dağıtmış, əhalinin isə çox hissəsini məhv etmişdi. Yaranmış şəraitdən istifadə edərək ermənilər Qarabağın müxtəlif məntəqələrindən yığdıqları nümayəndələrin qurultaylarını keçirmiş, Azərbaycan hökumətinin dəfələrlə etdiyi xəbərdarlıqlara əhəmiyyət vermədən sentyabrın axırlarında Qarabağı Ermənistana birləşdirdiklərini bildirmişlər.

Sentyabrın axır günlərində Azərbaycan hökuməti Qarabağa qoşun göndərdi. Andronikin dəstələri darmadağın edilərək Qarabağdan çıxarıldı. Andronik özü isə əvvəlcə Gorusa, sonra isə İrəvana qaçdı. Sonralar Andronik öz quldur fəaliyyətini Zəngəzurda və Naxçıvanda davam etdirdi. 1919-cu ilin əvvəllərində general Tomsonun tələbi ilə Andronik qeyri-qanuni silahlı dəstələrini buraxıb İrəvana, sonra isə xarici ölkələrin birinə qaçdı.

Mudros sülhündən sonra Osmanlı-Alman qoşunlarının Qafqazdan çəkilməsi və onun yerini Müttəfiqlərin tutması ermənilərin məqsədə çatmaları üçün münasib şərait yaratdı. "Böyük Ermənistan" yaratmaq siyasəti Ermənistan Respublikasının rəsmi dövlət siyasətinə çevrildi. Ermənilər "Böyük Ermənistan" xəritə-layihəsini rəsmi sənəd kimi Paris Sülh konfransına da təqdim etdilər.

Ermənistanla Azərbaycan arasında yaranmış qarşıdurmanı həll etmək üçün 1919-cu il dekabr ayının 23-də Müttəfiq qoşunları komissarlığının nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan hökumət başçılarının danışıqları saziş imzalanması ilə nəticələndi. Bu sazişə görə, iki ölkənin hökumətləri davam edən toqquşmaları dayandırmaq və bundan sonra silaha əl atmamağı öz öhdəsinə götürürdü (maddə 1); hər iki hökumət Zəngəzura gedən yolların açılması üçün təsirli tədbirlər görməli idi (maddə 2); sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli problemlər Paris Sülh konfransının qərarına qədər yalnız sülh yolu ilə həll edilir. Barışıq əldə edilmədiyi təqdirdə üçüncü şəxs neytral hakim kimi danışıqlarda iştirak edir, onun qərarı hər iki tərəf üçün məcburidir və bu dövrdə ABŞ polkovniki Ceyms neytral şəxs qəbul edilir (maddə 3); Azərbaycan və Ermənistan hökumətləri arasında danışıqlarda iki ölkə arasındakı mübahisə və anlaşılmazlığa səbəb olan məsələlər müzakirə ediləcək (maddə 4); Ermənistan və Azərbaycan hökumətlərinin sədrləri bu sazişdən irəli gələn müddəalara vicdanla əməl edəcəklərini bildirirlər (maddə 6).

Sazişin imzalanmasından bir neçə gün sonra Ermənistan tərəfi atəşkəsi pozdu. Azərbaycan hökumətinin diplomatik təzyiqləri şəraitində dekabrın 14-də Bakıda Azrbaycan və Ermənistan danışıqları başlandı. Azərbaycan tərəfindən F.Xoyski, M.H.Hacınski və doktor M.Vəkilov iştirak edirdi. Danışıqların gündəliyində ərazi-torpaq məsələləri, qaçqınlar məsələsi, ticarət və dəmiryol nəqliyyatı üzrə müqavilələr, məhkəmə-hüquq münasibətləri, Azərbaycan və Ermənistanın müxtəlif şəhərlərində konsul agentlərinin təsisi məsələləri daxil edildi. F.Xoyski çıxışında Azərbaycan və Ermənistan arasında dostluq münasibətlərinin yaranması naminə Zaqafqaziya respublikalarının konfederasiyasının yaradılması məsələsini gündəliyə daxil edilməsini təklif etdi. Erməni tərəfi bu məsələyə prinsip etibarilə etiraz etmədilər və məsələnin Qafqaz dövlətlərinin hökumətlər və parlamentlər səviyyəsində müzakirə edilməsinin vacibliyini söylədilər.

1919-cu ilin dekabrında Müttəfiqlərin ali komissarı Haskel Sülh konfransına məlumat verdi ki, Azərbaycan və Ermənistan aralarındakı problemləri danışıqlar yolu ilə həll etmək barədə razılığa gəliblər, danışıqlar nəticə vermədiyi halda ali komissarlığın arbitrajlığı qəbul edilib. 1920-ci ilin əvvəllərində Paris Sülh konfransı Azərbaycanın Qarabağ üzərindəki hakimiyyətini tanıdı.

Erməni tərəfi bu vəziyyətlə barışmayaraq 1920-ci ilin Novruz bayramı ərəfəsində Qarabağda silahlı qiyam qaldırdılar. Yenə də neçə-neçə kəndləri yandırdılar, əhaliyə divan tutdular. Lakin Azərbaycan ordusu erməni qiyamını böyük çətinliklə də olsa aprel ayının əvvəllərində yatırtdı. Aprelin 5-də xarici işlər naziri F.Xoyski Fransa, İngiltərə və İtaliya nümayəndələrinə göndərdiyi geniş teleqramda son iki ildə erməni siyasətini səciyyələndirib bir daha onların diqqətini erməni hökumətinin imzaladığı sənədlərə hörmət etmədiyinə cəlb etdi. Azərbaycan hökuməti Antanta ölkələrinin əsas təhlükənin şimaldan gəlməsi haqqındakı notasına əhəmiyyət verməyərək, Samur çayı istiqamətindəki qalan qoşun hissələrini də ölkənin qərbinə yeritdi.

***5. Azərbaycan-Dağlılar münasibətləri və Denikin problemi*** - Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən ölkələrdən biri də Dağlılar Respublikası idi. Dağlılar Respublikası öz müstəqilliyini 1918-ci ilin may ayının 11-də elan etmişdi. Onun müstəqilliyini Azərbaycan, Gürcüstan və Osmanlı imperiyası tanıdı.

Dağlılar Respublikasının yaranması Azərbaycanın təhlükəsizliyi üçün çox əhəmiyyətli amil hesab olunduğundan, ilk günlərdən Azərbaycan hökuməti Dağlılar Respublikası ilə əlaqələrin genişləndirilməsi xəttini tutdu. 1918-ci ilin oktyabr ayında Azərbaycan və Dağlılar Respublikasının hökumət nümayəndələri vacib siyasi məsələlər haqqında ilkin saziş imzalayıblar. Azərbaycan hökumətinin başçısı F.Xoyski və maliyyə naziri M.H.Hacınski, digər tərəfdən Dağlılar Respublikası hökumətinin sədri Ö.M.Çermayev və maliyyə naziri Həsən-Girey Cabakiyev tərəfindən imzalanacaq müqavilə layihəsinə görə, iki dövlət arasında xarici işlər və xaricdən müdafiə məsələləri ümumi işlər hesab edilirdi.

1918-ci ilin noyabr ayının 28-də Azərbaycan hökuməti ilə Dağlılar Respublikası hökuməti nümayəndələri tərəfindən imzalanmış müqaviləyə əsasən, Azərbaycan Respublikası Dağlılar Respublikasına 10 mln. manat həcmində kredit ayırdı. Bu kredit iki il ərzində taxılla ödənilməli idi.

General Denikinin başçılıq etdiyi Könüllü Ordu 1919-cu ilin yazında Dağlılar Respublikası üzərinə yeridi. General Denikinin "vahid və bölünməz Rusiyanı" bərpa etmək istəyində Dağlılar Respublikası bir mərhələ idi.

Dağlılar Respublikası hökuməti ilk növbədə Müttəfiqlərə müraciət etdi. Müttəfiqlər müraciətə cavab olaraq mayın 5-də bildirdilər ki, Denikin Dağıstan üzərinə getməyəcək. Dağlılar Respublikası hökuməti kömək üçün eyni zamanda Azərbaycan və Gürcüstan hökumətlərinə müraciət etdilər. Aprel ayında Azərbaycan Respublikasının diplomatik nümayəndəsi Haqverdiyev Teymurxan Şuradan xəbər verirdi ki, Dağıstanda Azərbaycana birləşmək hərəkatı genişlənir. Azərbaycan hökuməti bilirdi ki. Denikin Dağlılar Respublikasının məhv etdikdən sonra növbəti hədəf Azərbaycandır. Azərbaycan Respublikasının baş naziri F.Xoyski Denikinin hərəkətləri barədə general Tomsona etiraz notası göndərdi. Bu etiraz notası yalnız diplomatik demarş deyildi. Ölkə Dağıstana kömək üçün qüvvələrini birləşdirir. Denikin təhlükəsinin qarşısını almaq üçün səfərbər olunurdu. 1919-cu ilin aprel ayında Azərbaycan parlamentində Şimali Qafqaz hadisələri müzakirə olundu. Dağlılar Respublikasına kömək məqsədilə xüsusi komissiya yaradıldı. İyunun 11-də parlamentin qərarı ilə Nazirlər Şurasının sədrinin başçılığı altında Dövlət Müdafiə Komitəsi yarandı. Ona ümumi səfərbərlik həyata keçirmək, ölkədə hərbi müharibə vəziyyəti elan etmək, digər fövqəladə müdafiə tədbirləri görmək səlahiyyəti verildi. Elə həmin gün Dövlət Müdafiə Komitəsi Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan etdi.

Azərbaycan ordu hissələri şimal sərhədi boyu cəmləndirildi. Denikinlə gizli əlaqə saxlayan silahlı qüvvələrə ləğv edildi. Azərbaycan Respublikası hökuməti diplomatik fəaliyyətini Denikin təhlükəsinə yönəltdi. Paris Sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti gürcü nümayəndə heyəti ilə birlikdə Denikinin Dağlılar Respublikası üzərində hücumunu pisləyən etiraz hazırladı və bu sənəd Antanta ölkələri başçılarına təqdim edildi. İyunun 25-də Denikinin qoşunları Dərbənd şəhərinə daxil oldular və Dağlılar Respublikasının ərazisini Könüllü Ordunun nəzarətində elan etdilər.

İngilis qoşunlarının avqust ayında Qafqazı tam tərk etmələrindən sonra, 1919-ci ilin payızında Denikin Azərbaycana təzyiqləri davam etdirməkdə idi. Bu dəfə Denikin diplomatiyası Xəzər Donanması məsələsini qaldırdı. İngilislərdən alınmış hərbi gəmilər hesabına yaradılmış Azərbaycan Hərbi Donanması və ticarət gəmiləri milli bayraq altında üzürdü. 1828-ci il Türkmənçay müqaviləsinə əsaslanaraq Denikin buna etirazını bildirdi və tələb etdi ki, Azərbaycan ticarət gəmiləri rus bayrağı altında üzməli, hərbi gəmiləri isə heç dənizə çıxmamalıdır. Azərbaycan hökuməti bu etiraza müvafiq etirazla cavab verdi və İranla Rusiya arasında nə vaxtsa bağlanmış müqavilənin ona dəxli olmadığını bildirdi.

Bu məsələ bitməmiş Könüllü Ordu yeni təzyiqlərə əl atdı. Petrovskda yerləşmiş Azərbaycan Respublikasının konsul agentinə Azərbaycana daxil olmaq üçün əcnəbilərə icazə (viza) vermək qadağan edildi. Sonra isə o, Petrovskdan çıxarıldı. Nəhayət. 19 noyabr 1919-cu ildə Denikin hökuməti Azərbaycana və Gürcüstana iqtisadi blokada elan etdi.

İngilis diplomatiyası Denikinin bu təzyiqlərini kifayət qədər

yumşaltmağa, generalın diqqətini şimala - bolşeviklərə qarşı cəmləşdirməyə çalışırdı. İngilislər Azərbaycan və Gürcüstan hökumətinə bolşeviklərlə mübarizə aparmaq üçün Denikinə canlı qüvvə ilə kömək təklif etdi, bu isə Azərbaycan tərəfindən tamamilə rədd edildi.

1920-ci ilin yanvarından Denikinin ordusu məğlubiyyətlərə düçar oldu. Bolşeviklərin hücumları qarşısında sarsılmış Denikin Azərbaycanın və Gürcüstanın müstəqilliyini tanımağa məcbur oldu. Aprelin 4-də general Denikin Könüllü Ordunun baş komandanlığından istefa verdi. Denikinin məğlubiyyəti isə Azərbaycanı sevindirmədi. Çünki ölkənin şimal sərhədlərində qələbə ardınca qələbə əldə edən bolşevik dəstələri yığılmaqda davam edirdi.

**6. *Azərbaycan-İran münasibətləri*** - İstiqlal bəyannaməsindəki qonşu dövlətlərlə qarşılıqlı dostluq münasibətlərinin qurulması zərurəti prinsipləri Azərbaycanın cənub qonşusu İranla da münasibətlərin yaranmasını tələb edirdi. Azərbaycan müstəqilliyini elan etdikdən sonra İran dövlətinin müxtəlif səviyyəli dövlət nümayəndələri "Azərbaycan" adlı dövlət tanımadıqlarını bildirmiş, "Azərbaycan" adlı dövlətin yaranması ilə İranın daxilində vəziyyətin dəyişəcəyindən təşvişə düşmüşdülər.

Bir qədər sonra İranın Azərbaycana münasibətində kəskin dönüş yarandı. İran rəsmi nümayəndələri İranla Azərbaycanın vahid dövlət təşkil etməsini hər iki ölkə üçün məqsədəuyğun olduğu tezisini ortaya atdılar. Lakin bu təklif Azərbaycanın dövlət nümayəndələri tərəfindən birmənalı olaraq rədd edildi.

İranla ilk diplomatik münasibətlər 1919-cu ilin yazında İsmayıl xan Ziyadxanın başçılığı ilə Tehrana fövqəladə missiyanın göndərilməsi ilə quruldu. Bu missiya İran hökuməti ilə bir sıra əhəmiyyətli məsələlər üzrə ilkin danışıqlar aparmış, Azərbaycan Respublikasının Tehranda diplomatik nümayəndəliyinin, Təbrizdə, İranın sərhəd və mərkəzi məntəqələrində konsulluqlarının yaranması məsələlərini müzakirə etmişdi.

1919-cu ilin iyulun 16-da Azərbaycan Respublikasının Nazirlər Şurası İran hökuməti yanında diplomatik nümayəndəliyin təsis olunması haqqında qərar qəbul etdi. 4 oktyabr tarixli qərarı ilə hökumət nümayəndəliyin ştatını təsdiq etdi. Adil xan Ziyadxan



Tehrandakı nümayəndəliyin başçısı təyin edildi. Diplomatik nümayəndəlik Azərbaycanla İran arasında ticarət əlaqələri, iqtisadi və hüquqi sahələrdə müqavilələr işləyib hazırlamaq məqsədi ilə ilkin danışıqlara başladı.

Sovet Rusiyasının İranla qeyri-bərabər müqavilələri ləğv etməsindən istifadə edərək İran 1919-cu ilin əvvəllərində Paris Sülh konfransına böyük iddialı rəsmi memorandum verdi. Bu memorandumda Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvan tələb edilirdi. İranın torpaq iddiaları ciddi qarşılanmamış və 1919-cu il 9 avqust tarixli ingilis-İran müqaviləsinin imzalanmasından sonra onun nümayəndələri konfransın işinə buraxılmamışdır.

Sentyabr ayında yeni xarici işlər naziri Firuz Mirzənin nümayəndə heyətinin başçısı kimi Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti tamamilə dəyişdi. Bu əsasda Azərbaycan və İran heyətlərinin görüşündə iki ölkə arasında ittifaq yaranması haqqında sənəd qəbul olundu.

Paris və Londonda başlamış Azərbaycan-İran danışıqlarını davam etdirmək üçün 1919-cu il dekabrın əvvəllərində Seyid Ziyaəddin Təbatəbaninin başçılığı ilə Bakıya İran fövqəladə nümayəndə heyəti gəldi. Geniş tərkibli İran-Azərbaycan konfransı dekabrın 5-də öz işinə başladı və danışıqlar siyasi-hüquqi, gömrük-ticarət-tranzit və poçt-teleqraf komissiyasında davam etdi.

Azərbaycan Respublikası ilə İran arasında diplomatik danışıqlar 1920-ci il mart ayının 20-də bir sıra sazişlərin - teleqraf, ticarət, gömrük, poçt sazişlərinin və konsul konvensiyasının qəbulu ilə başa çatdı. Həmin gün Azərbaycan Respublikası ilə İran Şahənşahlığı arasında dostluq müqaviləsi də imzalandı.

1920-ci ilin əvəllərindən etibarən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi İranın bir sıra şəhərlərində rəsmi nümayəndəliklər şəbəkəsi yaratmağa başladı. Fevral ayının 4-də Məmməd bəy Xəlilov Ənzəlidə vitse-konsul təyin edildi. Bir qədər sonra Azərbaycanın o zamankı xarici işlər naziri F.Xoyski 1920-ci ilin aprel ayının 1-dən etibarən Azərbaycan Respublikasının Təbrizdə baş konsulluğunun, Rəştdə konsulluğunun, Məşhəd şəhərində vitse-konsulluğunun, Əhər və Xoy şəhərlərində konsul

agentliklərinin təsis edilməsi haqqında parlamentə məlumatla müraciət etdi.

7. ***Azərbaycan Paris Sülh Konfransında*** - 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Bu məqsədin həyata keçməsində isə Qərb ölkələrinin himayəsinin əldə edilməsinə birinci dərəcəli əhəmiyyət verilirdi.

1918-ci ilin yayında İstanbul konfransı təxirə salındıqdan sonra Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov İstanbul, Vyana və Berlinə, eləcə də Yerevan və Tiflisə səlahiyyətli səfir təyin edildi. Sentyabr ayının sonlarında İstanbula gələn Topçubaşov Ukrayna, Rusiya, ABŞ, İran, İtaliya, İsveç, Hollandiya və s. kimi ölkələrin burada olan rəsmi nümayəndələri ilə görüşmüş, müxtəlif siyasi məsələlər ətrafında onlarla fikir mübadiləsi aparmış, ölkələri ilə diplomatik əlaqələr yaratmaq arzusu məzmununda memorandum təqdim etmişdi.

I Dünya müharibəsi qurtardıqdan sonra qalib dövlətlər dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə beynəlxalq sülh konfransı çağırdılar. Konfrans öz işinə 18 yanvar 1919-cu ildə başladı. Ə.M.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti konfransa böyük çətinliklərlə may ayının ortalarında gəlib çata bildi. Müttəfiqlər tərəfindən nümayəndə heyətinin üzvlərindən yalnız M.H.Hacınskiyə (Müsavat), Ə. Şeyxülislamzadəyə (Hümmət), M.Məhərrəmova (Sosialist), M.Y.Mehdiyevə (İttihad) viza verilmişdi.

Keçmiş Rusiya imperiyasının xarabalıqları üzərində yaranmış yeni dövlətlərin tanınması məsələsi "ümumrus məsələsi"nin həllinə qədər təxirə salındı. Kolçak, Denikin və başqa çar generallarının Sovet Rusiyasına qarşı uğurlu mübarizə apardığı bu dövrdə Avropa ölkələri (xüsusilə də Fransa və İtaliya) "vahid və bölünməz Rusiya" şüarını müdafiə edir, onlara hər cür yardım edilməsi lehinə çıxış edirdilər. Avropa dövlətlərinin Rusiyaya münasibətindən narahat olan yeni dövlətlərin nümayəndə heyətləri adından konfransın rəhbərlərinə etiraz məktubları göndərildi.

Mayın 28-də İstiqlal günü ABŞ-ın prezidenti Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi, onun bir illik inkişaf yolu və istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Daha sonra Vilsondan Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul edilməsi, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində kömək etməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə köməklik göstərilməsi xahiş edilirdi.

Prezident Vilson Azərbaycan nümayəndə heyətinə ümidverici bir şey demədi. O, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını vurğulayaraq, Azərbaycan nümayəndələrinə federasiya (konfederasiya) ideyasını müdafiə etməyi məsləhət görmüş, Millətlər Liqasının mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərində qəyyumluğunun real çıxış yolu olduğunu demişdi. Vilson onu da əlavə etmişdi ki, Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz.

Qafqaz konfederasiyası ideyasının gerçəkləşməsinin çətinliyi, Müttəfiq qoşunlarının Azərbaycandan çəkilməsi, milli münasibətlərin kəskin olduğu Zaqafqaziya üzərində İtaliyanın müvəqqəti mandatlıq hüququndan imtina etməsi, Denikin təhlükəsinin Azərbaycanı təhdidində davam etməsi, yeni yaranmış dövlətlərin müstəqilliyinin tanınması sahəsindəki qeyri-müəyyənlik Azərbaycan nümayəndə heyətini ölkənin xaricdən təhlükəsizliyinin təmin etmək məsələsində İran amilindən istifadəyə sövq edirdi. Parisdəki İran-Azərbaycan danışıqları iki ölkə arasında sıx birliyə səbəb ola biləcək müqavilənin meydana çıxmasına gətirib çıxartdı.

1919-cu ilin sonlarında beynəlxalq vəziyyətin dəyişməsi Azərbaycanın siyasi durumunda müvafiq dəyişikliklər yaratdı. Qızıl Ordunun ilk ciddi hərbi uğurlarından sonra Antanta siyasətini dəyişərək Sovet Rusiyası ilə dil tapmağa cəhd etdi.

Bu arada Sovet Rusiyası Azərbaycana qarşı diplomatik təzyiqlərə başladı. Bu təzyiqlər Azərbaycanın istiqlalı məsələsinə Paris Sülh konfransının öz münasibətini bildirməsini sürətləndir-

di. 1920-ci ilin yanvarın 11-də nəhayət, Lord Kerzonun təklifi ilə Paris konfransının ali şurası Azərbaycan və Gürcüstanın istiqlalının de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Yanvarın 19-da Azərbaycan və Gürcüstanın rəsmi nümayəndələri Paris konfransı ali şurasının iclasına dəvət edildilər. İclasda müzakirə edilən məsələlərin əksəriyyəti Cənubi Qafqazın müdafiəsi ilə bağlı idi. Cənubi Qafqazın yeni dövlətlərini tanımaqla Antanta müvafiq olaraq onların xarici təcavüzdən qorunması haqda da üzərinə öhdəliklər götürür, yeni yaranmış dövlətlərin rəsmi nümayəndələrinə hərbi sahədə ehtiyaclarını bildirmələri təklif olunurdu.

Lakin Batum şəhəri uğrunda yeni erməni-gürcü konfliktinin qızışması və Qarabağda erməni fitnəkarlığı nəticəsində başlanmış müharibə Qafqazda millətlərin sülh şəraitində yaşamağa qadir olmasına Qərb ölkələrində şübhə yaradır və hərbi yardım məsələsində onların soyuqqanlı hərəkətini şərtləndirdi. Bu və ya digər məsələlər Paris Sülh konfransının ali şurasının fevral ayının sonlarında Londonda başlamış xüsusi sessiyasında üzə çıxdı. London konfransı fevral ayının 24-də "Rusiyada Müttəfiqlərin siyasəti" adlı memorandum qəbul etdi. Memorandumda müstəqilliyi Müttəfiqlər tərəfindən tanınmış yeni dövlətlərə tövsiyə edilirdi ki, Sovet Rusiyası ilə dinc münasibətlər yaratsınlar, bununla belə bolşeviklər yeni dövlətlərin sərhədlərini pozduqları təqdirdə Antanta bütün vasitələrlə onlara yardım göstərəcəyini vəd edirdi.

1920-ci ilin mart ayının 5-də hökumətin qərarı ilə Paris Sülh konfransında öz missiyasını uğurla başa vurmuş Azərbaycan nümayəndə heyətinin ləğvi, aprel ayının 1-dən etibarən Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin yaranması haqqında parlamentə qanun layihəsi təqdim edildi. Polşada yaradılacaq diplomatik nümayəndəlik eyni zamanda Latviya, Litva, Estoniya, Finlandiya və Ukrayna ilə də rəsmi əlaqələr yaratmalı, bu ölkələrin hökumətləri ilə diplomatik münasibətlərdə Azərbaycan hökumətini təmsil etməli idi.

Müstəqil Azərbaycan Respublikası hələ 1919-cu ilin sonlarında Gürcüstan (diplomatik nümayəndə M.Y.Cəfərov, sonra



F.Vəkilov), Ermənistan (M.U.Təkinski, sonra Ə.Haqverdiyev), İran (A.Ziyadxan), Türkiyə (Y.V.Çəmənzəminli) ilə rəsmi diplomatik əlaqə saxlayırdı. Bundan başqa Azərbaycanın Təbriz, Xoy, Ənzəli, Rəşt, Əhər, Məşhəd, Batum, Kiyev, Krım, Aşqabad və başqa yerlərdə baş konsulluq, konsulluq və konsul agentləri var idi, ya yaradılmaq üzrə idi.

Bakıda isə aşağıdakı ölkələrin müxtəlif səviyyədə rəsmi nümayəndəlikləri yerləşirdi: Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İsveç, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya. 1920-ci il fevral ayının əvvəllərində Yaponiya hökuməti Azərbaycan diplomatik əlaqələr yaratmaq istədiyini bildirdi. Roma papası da öz nümayəndəsini Bakıya göndərmişdi.

Avropa ölkələrinə hələ diplomatik heyətlər göndərilməmişdi. Ona görə də Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan heyəti London konfrasından sonra Müttəfiqlərin yarımçıq qalmış məsələləri müzakirə etmək üçün aprel ayının 19-26-da İtaliyanın San-Remo şəhərində çağırdıqları konfransda iştirak etdi. Burada Azərbaycan tərəfini maraqlandıran bir sıra məsələlər - Batum məsələsi, Türkiyə ilə sülh müqaviləsinin ilkin layihəsi və Türkiyə-Ermənistan sərhədləri, Qafqaz respublikalarının daxili sərhədləri, Qafqaz dövlətlərinə yardım məsələləri müzakirə edilməli idi.

**8. *Azərbaycan-Sovet Rusiyası münasibətləri*** - Azərbaycan istiqlal bəyannaməsini elan etdikdən sonra bütün qonşuları kimi Sovet Rusiyası ilə də mehriban qonşuluq münasibətləri qurmağa çalışdı. Lakin bu dövrdə Bakıda ağalıq edən Bakı quberniyası Xalq Komissarları Sovetinin timsalında Sovet hakimiyyəti nəinki Azərbaycanın istiqlalının əleyhinə idi, hətta Azərbaycanın muxtariyyatı prinsipini belə qəbul edə bilmirdi. Bakıda bütün Qafqaz bolşeviklərinin başçısı təyin edilmiş Şaumyanın dəstəsinin hakimiyyəti devrildikdən sonra belə, bolşevik Moskvası Bakını "Sovet Rusiyasının ayrılmaz hissəsi" hesab edirdi. Sovet Rusiyası hökuməti sentyabrın 15-də Bakının azad edilməsi və Azərbaycan hökumətinin paytaxta köçməsindən narahat olduğunu gizlətmirdi. RSFSR-in xarici işlər komissarı Çiçerin sentyabrın 21-də Almaniya baş konsuluna göndərdiyi

notada Rusiya Respublikasının çox əhəmiyyətli şəhərlərindən birinin, yəni Bakının tutulmasına etirazını bildirib, bu işə müqavimət göstərmədiyi üçün Almaniyanı məzəmmət edirdi.

1919-cu ilin yazında Nazirlər Şurasının yeni sədri seçilmiş N.Yusifbəyli təşkil etdiyi hökumətin proqramında Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpası vəzifəsini irəli sürürdü.

1919-cu ilin yayında yerli əhalidən başqa xeyli rus kəndli köçkününün yaşadığı Lənkəran və Muğanda baş verən hadisələr Rusiyanın (həm Denikin, həm də Lenin Rusiyasının) bu bölgədə açıq təxribatı nəticəsində böhran səviyyəsinə çatdı. Hələ ilin əvvəlində rus kəndlilərinə arxalanan polkovnik İlyaşeviç burada "Lənkəran Diyar İdarəsi" deyilən qurum yaratmış, Azərbaycan hökumətini tanımadığını elan etmişdi. O, Muğanı Könüllü Ordunun hərbi-strateji bazasına çevirib, bununla da Denikinin Azərbaycanı işğal etməsinə əlverişli şərait yaratmaq istəyirdi. Lənkəran-Muğan bölgəsi bolşeviklərin də diqqətini cəlb edirdi, onlar da Qızıl Ordunun Bakıya gələcək hücumu üçün buradan strateji plasdarm kimi istifadə etmək istəyirdilər. Hər iki tərəf sürətlə rus əhalisini silahlandırır, onlardan hərbiləşdirilmiş dəstələr təşkil edirdilər. Aprel ayında bolşeviklər yerli ağqvardiyaçılara qarşı hücuma başladılar, Diyar İdarəsini, ordu qərargahını, poçt, mayak, radiostansiya, dəniz limanını tutub denikinçi zabitləri həbs etdilər. May ayının 15-də burada Sovet Respublikası elan edildi. May-iyun aylarında Sovet Rusiyasından Lənkəran-Muğana iki minə yaxın əsgər və zabit, çoxlu döyüş sursatı gətirildi. Bütün bunlara baxmayaraq, Azərbaycan hökuməti böyük çətinliklə iyulun 25-də qiyamı yatırtdı və bolşeviklərin dəstələrini darmadağın etdi.

1920-ci ilin yanvar ayının 2-də Çiçerin radioteleqrafla Azərbaycan xalqına və hökumətinə müraciət edərək Denikinlə mübarizədə Sovet Rusiyası ilə ittifaq yaratmağı tələb etdi. Bu müraciət yanvarın 6-da Dövlət Müdafiə Komitəsində müzakirə olundu. Azərbaycan hökuməti müzakirənin nəticəsi olaraq Rusiya hökumətinə rəsmi cavab verdi. Eyni zamanda Sovet Rusiyasının notası barədə Paris Sülh konfransına təcili məlumat verildi. Sülh konfransı Rusiyanın bu notasını ciddi təzyiq kimi qiymətləndirdi



və 1920-ci ilin yanvar ayının 11-də Azərbaycanı və Gürcüstanı de-fakto tanıdı.

Bundan sonra Çiçerin Azərbaycana təzyiq vasitəsi kimi bir-birinin ardınca notalar göndərdi. Qızıl Ordunun cənuba doğru irəliləməsi Azərbaycanın narahatçılığını artırırdı. Digər tərəfdən Qərbin söz verdiyi hərbi yardım da gəlib çıxmırdı. Daxili işlər naziri M.H.Hacınski başda olmaqda bir qrup belə hesab edirdi ki, Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlalını tanıtdırmaq olar, başqa sözlə, o, xarici orientasiyanı Rusiya istiqamətinə dəyişdirməyi təklif edirdi. Bu qrupdan fərqli olaraq, Fətəli xan Xoyski və məsləkdaşları çıxış yolunu ölkədə güclü rejim yaratmaq və təcavüzə qarşı əldə silah müqavimətdə görürdü.

Mart ayının 6-da Azərbaycan nümayəndə heyəti gürcü nümayəndələri ilə birlikdə Böyük Britaniyanın baş naziri Lloyd Corca nota ilə müraciət edərək, Azərbaycanın və Gürcüstanın tam istiqlalının Moskva hökuməti tərəfindən tanınmasına yardım etmək, bir tərəfdən Azərbaycan və Gürcüstan, digər tərəfdən Sovet Rusiyası arasında danışıqlar təşəbbüsünü öz üzərinə götürməyi xahiş edirdilər.

Hələ 1919-cu ilin əvvəllərində Bakıda bolşeviklər təşkilatlanmağa başlamışdılar. Bu iş RK(b)P tərəfindən Mikoyana həvalə edilmişdi. 2-9 dekabr 1919-cu il tarixində olmuş VIII Ümumrusiya konfransının qərarına əsasən milli təşkilatlar buraxılmalı, RK(b)P-nın yerli təşkilatları ilə ərazi şöbələri hüququnda bir təşkilat şəklində birləşməli idilər. Azərbaycanlı kommunistlərin bir hissəsinin təşkilatlarının adında "türk", ya "müsəlman" sözləri ilə ona milli xarakter vermək cəhdləri boşa çıxdı, yalnız ərazi mənasında "Azərbaycan" sözündən istifadə etmək olardı.

RK(b)P Qafqaz Diyar Komitəsinin 2-ci plenumunda qərara alındı ki, Azərbaycan, Gürcüstan və Ermənistanda sovet respublikaları yaradılacaq, onlar əvvəlcə Qafqaz Federasiyasına birləşəcək, daha sonra Ümumrusiya Federasiyasına daxil olacaqlar. Beləliklə, Moskvanın məqsədi aydın idi: sözdə müstəqil sayılacaq Azərbaycan Rusiyaya bağlı Sovet Respublikasına çevrilməli, Azərbaycan kommunist təşkilatı da RK(b)P-nin yerli təşkilatı

statusuna malik olmalı idi.

1920-ci ilin fevralın 11-də Bakıda Azərbaycan Kommunist (bolşeviklər) partiyasının birinci qurultayı işə başladı. Qurultay kommunist yönümlü partiyaların vahid təşkilat halında birləşməsi haqqında qərar qəbul etdi. Qurultay Bakıda dövlət çevrilişinə hazırlıq xətti götürdü. Ən təcrübəli kadrlar, ilk növbədə məşhur Mikoyan bu işə cəlb edildi. Mart ayında yerli və gəlmə kommunistlər Bakıda çevriliş etmək istədilər. Lakin müvəffəq olmadılar. Neft qıtlığı üzündən Rusiya təsərrüfatının iflic vəziyyətə düşdüyündən martın 17-də Lenin Bakının işğalı haqqında əmr verdi.

Xaricdən və daxildən təzyiqlərin artdığı şəraitdə Bakıda hökumət böhranı baş verdi. Mart ayında olmuş konfransda Xoyski və tərəfdaşlarının müxalifətinə baxmayaraq, Hacınski qrupunun siyasi xətti, yəni Rusiyaya orientasiya cəhdi qalib gəldi. Konfransın qərarları ilə razılaşmayan N.Yusifbəyli istefa verdi, yeni hökumətin təşkili isə Hacınskiyə tapşırıldı. Lakin o, aprel ayının əvvəlində yeni hökumətin təşkilini süni olaraq ləngitdi. Hacınski bolşeviklərlə danışığa girib onları öz hökumətində iştiraka dəvət etdi. Bolşeviklər isə bundan imtina etdikdə, Hacınski özü Kommunist Partiyasına daxil oldu.

Böhranı gərginləşdirən şərtlərdən biri də bu idi ki, Azərbaycanda, xüsusən Bakıda olan Türkiyə kommunistləri və ittihadçıları xalq arasındakı populyarlıqdan istifadə edərək Qızıl Ordunun gələcək yürüşünün xeyrinə təbliğat aparırdılar. Guya Qızıl Ordunun Kamal hərəkatına köməyə tələsməsinə baxmayaraq, ingilispərəst Azərbaycan hökuməti onu öz ərazisindən buraxmadığından onlar yerli və xarici bolşeviklərlə birlikdə Azərbaycan hökumətini devirməyə çağırırdılar.

1920-ci ilin əvvəllərində erməni nümayəndələri Pirumov və Zaxaryan Moskvaya gedib ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək işində öz hökumətlərinin təkliflərini bildirdilər: Qarabağda erməni əhalisinin qiyamı və Ermənistanla Azərbaycan arasında müharibə. 72 minlik Qızıl Ordu Samur çayının kənarında cəmləşdiyi vaxt Qarabağda qiyam başladı. Azərbaycan ordusu hissələrinin demək olar ki, hamısı Qarabağa yeridildi, şimal sərhəd isə təcavüzə açıq qaldı.



Aprelin 26-dan 27-nə keçən gecə XI Qızıl Ordu Azərbaycan silahlı qüvvələrinin ciddi müqavimətinə rast gəlmədən sərhədi keçərək Azərbaycanın içərilərinə doğru irəliləməyə başladı. Bakıda parlament və digər mühüm dövlət orqanlarını qorumalı olan "Yardım alayı"da türkiyəli komandirlərin təhriki ilə bolşeviklər tərəfinə keçdi. Artıq hərbi gəmilərin topları parlament binasına tuşlanmışdı.

Saat 4-də Azərbaycan K(b)P MK, PK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvil verilməsi haqqında ultimatum verildi. Hakimiyyəti ələ alacaq bolşeviklər aşağıdakı şərtlərə riayət edəcəklərini bildirdilər:

1. Rus ordusu Bakıya girmədən dəmiryolu ilə birbaşa Anadolunun imdadına gedəcək;
2. Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüzdən və ilhaqdan qorunacaq;
3. Azərbaycan Ordusu olduğu kimi qalıb buraxılmayacaq;
4. Azərbaycanın siyasi partiyaları azadlıq və sərbəstliyini mühafizə edəcək;
5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç kəs siyasi cinayətdə ittiham edilməyəcək;
6. Azad şəkildə toplanacaq Azərbaycan şuraları hökumətin idarə şəklini təyin edəcək.

1920-ci il aprel ayının 27-də axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin sonu, Azərbaycanın Rusiya tərəfindən yenidən müstəmləkəyə çevrilməsi demək idi.

**AZƏRBAYCAN XANLIQLARININ RUSİYA TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİ (1803-1826)** - Nadir şahın imperiyası dağıldıqdan sonra (1747-ci il) Azərbaycanın həm quzeyində, həm də güneyində müstəqil xanlıqlar yarandı. Azərbaycan torpaqlarının bir dövlət içərisində birləşməməsi vahid xarici siyasət yeridilməsinə imkan vermirdi. Buna görə Azərbaycan xanlıqları özlərini qoruyub saxlamaq, xanlıqlar arasındakı münasibətləri tənzim etmək üçün ölkəyə göz dikmiş müxtəlif xarici qüvvələr ilə hesablaşmalı olurdular.

1797-ci ilin mayın 5-də Rusiya çarı I Pavelin Qafqaz qoşunları komandanı general Qudoviçə verdiyi fərmanda Azərbaycan və Dağıstan hakimlərini bir federativ dövlət halında birləşdirmək təklifini edirdi. Federasiya yaratmaq yolu ilə bu xanlıqların İranın nüfuzu altına keçməsinə yol verməmək, yumşaq davranışla onları Rusiyaya daha sıx bağlamaq nəzərdə tutulurdu. Hakimiyyətə yenicə gəlmiş I Aleksandr 1801-ci ildə Şərqi Gürcüstanı zorla Rusiyanın tərkibinə qatdı. Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Qazax və Şəmşəddil sultanlıqları da Rusiyaya qatıldı. 1802-ci ilin dekabrında Qafqaza baş komandan təyin olunmuş general Sisianovun rəhbərliyi ilə Quba, Talış xanları, Dağıstan hakimlərindən Tarku şamxalı, Qaraqaytaq ismisi, Tabasaranın başçısı bir yerə toplandılar. Bakı xanı görüşə gəlmədi. Hakimlər arasında müqavilə imzalandı (Georgiyevsk müqaviləsi). Müqaviləyə imza atan xanlar və hakimlər söz verirdilər ki, bundan sonra bir-birləri ilə savaş aparmayacaqlar, İranın hücumu olduqda mübarizəyə birgə qalxacaqlar, qarşılıqlı ticarət və dənizçiliyi yoluna qoyacaqlar və s. Bakı xanlığı Rusiya üçün mühüm əhəmiyyət kəsb etdiyindən 1803-cü ildə Bakı xanlığı ilə də müqavilə bağlandı.

Şərqi Gürcüstan çarı İraklinin oğlunun Car-Balakən zonasına sığınmasına bəhanə gətirən Sisianov 1803-cü ilin martında Cara soxuldu və iyul ayında bütün Car-Balakən işğal olundu.

Sisianovun hərbi-strateji planında Gəncənin işğalı mühüm yer tuturdu. Sisianov Gəncə hakimi Cavad xana bir-birinin ardınca ultimativ məktublar göndərərək Gəncəni dinc yolla Rusiyaya qatmaq istəyirdi. Məqsədinə nail ola bilməyən Sisianov böyük qoşun hissələri ilə Gəncənin üzərinə yeridi və 2 yanvar 1804-cü ildə Rus qoşunlarına Gəncəni almaq əmri verildi. Qanlı döyüşdə Cavad xan və oğlu öldürüldü, şəhərin 1500-dən çox sakini qılıncdan keçirilərək öldürüldü, minlərlə insan yaralandı. Gəncə süqut etdi.

Rusiyanın getdikcə Azərbaycanın içərilərinə doğru irəliləməsi İranı qəti tədbirlər görməyə məcbur etdi. 1804-cü ilin mayında İran rus qoşunlarının Transqafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdikdə 10 iyun 1804-cü ildə iki dövlət arasındakı diplomatik əlaqələr kəsildi və Rus-İran müharibəsi başlandı.

Rus ordusu Gəncəni tutduqdan sonra Qarabağ xanlığının üzərinə yeridi. Lakin İbrahim xan Gəncə hadisələrinin təkrar olunacağından qorxaraq müqavilə imzalamağa üstünlük verdi. 1805-ci il may ayının 14-də Sisianovla İbrahim xanın imzaladıqları "Andı öhdəlik" adlanan müqavilə ilə Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçdi. Qeyd edək ki, bu müqaviləyə İbrahim xanın qaynı olan Şəki xanı Səlim xan da imza atmışdı.

1805-ci ilin noyabr ayının əvvəllərində Sisianov Şirvanın üzərində yeridi. Şirvan hakimi əvvəlcə müqavimət göstərmək məqsədi ilə Lahıc yaxınlığındakı Fit dağına çəkildi. Sonra isə müqavimətin mənasız olduğunu başa düşüb Rusiya ilə müqavilə imzalamaq qərarına gəldi. Müqavilə 1805-ci il dekabrın 27-də Fit dağında imzalandı və Şirvan da Rusiyaya tabe edildi.

1805-ci il avqust ayının 15-də Rus donanması Bakını top atəşinə tutdu. Sonra isə desant hissəsi qala divarlarını mühasirəyə aldı. Lakin Bakılıların igidliklə vuruşması və Qubalı Şeyxəli xanın göndərdiyi kömək ruslara Bakını tutmağa imkan vermədi. 1806-cı ilin yanvarında Sisianov Şirvandan Bakının üzərinə yeridi. Özünün hazırladığı şərtləri Bakı hakimi Hüseynqulu xana göndərdi. Hüseynqulu xan şərtlərin ağır olmasına baxmayaraq, qəbul edəcəyini bildirdi. Görüş qoşa qala qapısının yanında fevralın 8-də oldu. Qala açarları Sisianova verilərkən o xanın xalası oğlu İbrahim bəy tərəfindən tapança atəşi ilə öldürüldü. Bundan sonra ruslar gəmilərlə Bakını tərk etdilər. Sisianovun ölümündən sonra Qafqaz komandanı general İ.V.Qudoviç təyin edildi.

1806-cı ilin yazında Qarabağ xanı İbrahim xan ruslara xəyanətdə günahlandırılaraq rus əsgərləri tərəfindən öldürüldü. Hakimiyyətə xanın oğlu Mehdiqulu ağa gətirildi.

Rus-İran müharibəsinin döyüşləri Şimali Azərbaycan ərazisində cərəyan edirdi. Azərbaycan xanlıqları gah rusların, gah da iranlıların əlinə keçirdi. Ruslar iranlıların Şimali Azərbaycanda əl-qol açmasına imkan verməmək üçün qəti tədbirlər görmək məcburiyyətində qaldılar. 1806-cı ilin iyul ayında Dərbəndin üzərinə yeriyən ruslar 22 iyulda Dərbəndi ələ keçirdilər. Bakının İran

qoşunları tərəfindən tutulması qorxusu yarandığı üçün ruslar Dərbənddə çox qalmadılar və Bakının üzərinə yeridilər. Hüseynqulu xanın İrana qaçması 1806-cı ilin sentyabrında Bakının müqavimətsiz ələ keçməsi ilə qurtardı. General Bulqakov Bakıdan Qubaya üz tutdu. Şeyxəli xanın dağlara qaçması üzündən buranı da savaşsız alıb Rusiyaya qatdı.

İbrahim xanın öldürülməsindən sonra onun qohumu olan Səlim xan Şəkidə ruslara qarşı qiyam qaldıraraq rus qoşunlarını Şəkidən qovub çıxartdı. Oktyabrın 22-də rus qoşunları böyük qüvvə ilə Şəkini tutdu, Səlim xan isə İrana qaçdı. Rusiya üçün İrəvan xanlığının tutulması başlıca vəzifə olaraq qalırdı. 1808-ci ilin sentyabrında Qudoviç general Nebelsona Naxçıvanı tutmaq əmri verdi. Oktyabrın sonunda Naxçıvan tutuldu. Lakin İrəvan mühasirəsi uğursuz olduğundan rus qoşunları Naxçıvanı tərk etməli oldular. Uğursuz 1808-ci il döyüşlərindən sonra Qudoviç istefaya çıxdı, yerinə general Tormasov baş komandan təyin olundu.

1810-cu ildə Türkiyə ilə İran arasında hərbi ittifaqın yaranması və Azərbaycan xanlıqlarında ruslara qarşı qiyamların qalxması Rusiyanın İranı təkləməsinə imkan vermədi. Şərqdə marağı olan Avropa dövlətləri Rus-İran müharibəsinin uzadılmasına cəhd göstərirdilər. 1810-1811-ci illərdə Türkiyə ilə savaşda Rusiyanın bəzi uğurları sülh bağlanmasını tezləşdirdi. 1812-ci il mayın 16-da Buxarest barışı imzalandı. Türkiyənin Qafqaz sərhədləri dəyişməz qaldı və bununla Türkiyə Transqafqaz torpaqlarının çoxunun Rusiyaya qatılmasını tanımalı oldu.

Rusiyanın Napaleona qarşı müharibədə qələbə qazanması İranın bütün ümidlərini alt-üst etdi. Beynəlxalq münasibətlərdəki şəraitdən istifadə edən İngiltərə Rusiya-İran danışıqlarına vasitəçilik etməyə nail oldu. 1813-cü ilin oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi - "**Gülüstan**" müqaviləsi imzalandı (bax. Gülüstan müqaviləsi).

"Müttəfiqlər ordusu" 1814-cü ilin martında Napaleonu məğlub etdikdən sonra şərq məsələsi Avropa siyasətində yenidən ortaya çıxdı. "Gülüstan" sülh müqaviləsinin bağlanmasına baxmayaraq, Rusiya-İran münasibətləri gərgin olaraq qalırdı. İran öz



uğursuzluqları ilə barışmır, Rusiya isə yeni torpaqlar ələ keçirmək üçün savaş olmasını istəyirdi. 1819-cu ildən başlayaraq Rusiyanın Qafqazdakı rus qoşunlarının komandanı Yermolov Azərbaycan xanlıqlarının ləğv edilməsi prosesinə başladı. 1819-cu ildə Şəki xanlığı, Qazax və Şəmşəddil sultanlığı, 1820-ci ildə isə Şirvan xanlığı ləğv edildi və xanlıqların bütün var-dövləti Rusiya xəzinəsinə daşındı. Bir müddət sonra Qarabağ xanlığına, 1826-cı ildə isə Talış xanlığının vassal varlığına son qoyuldu. Onu da qeyd edək ki, bu prosesdə milliyyətcə erməni olan general Madatovun (Transqafqaz müsəlman əyalətlərinin hərbi rəisi) böyük "xidmətləri" olmuşdu.

1826-cı ilin iyul ayında ikinci Rus-İran müharibəsi başlandı. Artıq iyul ayının axırlarında Talış və Şirvan xanlıqları, avqustun axırında isə Gəncə xanlığı ruslardan təmizlənmişdi. Vəziyyətin gərginliyini görən çar Nikolay Qafqaza baş komandan İ.F.Paşkeviçi təyin etdi. Paşkeviçin təyinatı cəbhədə vəziyyəti dəyişdi. 1827-ci ilin oktyabr ayına qədər ruslar Şimali Azərbaycanın bütün torpaqlarını, o cümlədən Naxçıvan və İrəvan xanlıqlarını da İran qoşunlarından təmizlədilər və oktyabrın 2-də Mərəndi tutub Təbrizə doğru irəlilədilər. Oktyabrın 13-də ruslar Təbrizi işğal etdilər. 1828-ci ilin yanvarın 28-də Urmiya, fevralın 8-də isə Ərdəbil ruslar tərəfindən tutuldu.

1828-ci ilin fevralın 10-da Təbrizdən bir qədər cənubda olan Türkmənçay kəndində İranla Rusiya arasında sülh müqaviləsi - "**Türkmənçay**" müqaviləsi imzalandı. (bax. Türkmənçay müqaviləsi).

Beləliklə, Rus-İran müharibələri nəticəsində Azərbaycanın torpaqları iki hissəyə parçalandı və bu hissələr Rusiyanın və İranın əsarəti altına keçdilər.

**AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ VƏ DİPLOMATİK ƏLAQƏLƏRİ** - Ağqoyunlu dövlətinin zəifləməsi Azərbaycanda Səfəvilər dövlətinin hakimiyyətə doğru irəliləməsinə şərait yaratdı. Dini ideologiyaya (şiəlik) söykənən səfəvilər Ağqoyunlu dövlətinin daxili və xarici siyasətində olan narazılıqdan istifadə edərək Azərbaycanda mərkəzləşmiş dövlət quruculuğuna başladılar.

Avropa dövlətləri, o cümlədən Venesiya hökuməti özünün düşməni olan Osmanlı imperiyasına qarşı ənənəvi müttəfiqi olan Ağqoyunlu dövlətinin yerində yeni, daha qüvvətli səfəvi monarxiyasının meydana gəlməsini sevinclə qarşıladı. Venesiya hökuməti öz elçisi Konstantino Laskarini Səfəvilərlə əlaqə yaratmaq üçün Azərbaycana yola saldı. Beləliklə, Səfəvi dövlətinin Qərbi Avropa ilə ilk diplomatik əlaqəsi Səfəvilərin hələ Ağqoyunlu taxtını ələ keçirməsindən əvvəl, yəni 1499-1502-ci illərdə yarandı.

Lakin səfəvilərin Venesiya ilə bu ilk diplomatik təması hər iki tərəfin Osmanlı imperiyasına qarşı eyni zamanda hərbi əməliyyata başlaması ilə nəticələnmədi. Çünki həmin dövrdə Səfəvilər hələ Şirvanşahlar və Ağqoyunlu dövlətlərini aradan qaldırıb Azərbaycanda möhkəmlənməmişdi. Şah İsmayıl (1501-1524) Azərbaycanda hakimiyyəti ələ keçirməkdən ötrü bir tərəfdən osmanlıların başını Avropa cəbhəsində qarışdırmağa çalışır, digər tərəfdən, yaranmış ictimai-siyasi ziddiyyətlərdən istifadə edib Türkiyə ərazisində, xüsusilə də Anadoluda şiəliyin yayılmasına xüsusi diqqət yetirirdi.

1502-ci ildə Venesiya respublikasını məğlub edən Osmanlı Sultan II Bəyazid əsas diqqəti şərqə - Səfəvilərə yönəltdi. Lakin bu zaman Şah İsmayıl artıq Ağqoyunlu dövlətini aradan qaldıra bilmiş və Şirvanşahlar dövlətinə sarsıdıcı zərbə vuraraq geniş ərazili dövlət yarada bilmişdi, daha doğrusu Uzun Həsənin tarixçəsi yenidən təkrar olunmuşdu. Bununla da Osmanlı imperiyası özünün şərq qonşuluğunda olan Ağqoyunlu dövlətindən sonra ondan daha qüvvətli Səfəvi monarxiyasının yaranması kimi ciddi hərbi-siyasi fakt qarşısında qaldı.

Venesiya diplomatları - Konstantino Laskari 1502-ci ildə. Moriati di Erzurum isə 1503-ci ildə Azərbaycandan qayıdıb Venesiya senatında Səfəvilərin xarici siyasəti haqqında geniş hesabatla çıxış etdilər.

1503-cü ildə yenicə hakimiyyətə gəlmiş Roma Papası IIYuli Avropa dövlətlərini osmanlılara qarşı birləşməyə çağırdı və Səfəvilər dövlətinin meydana gəlməsini, Şah İsmayılın hərbi müvəfəqqiyyətlərini Allahın xristian dünyası üçün yaratdığı bir fürsət kimi qiymətləndirdi.



Qeyd edək ki, Şah İsmayılın Qərblə diplomatik əlaqələr yaratmaqda babası Uzun Həsən kimi iki məqsədi vardı: Avropa ölkələri ilə ticarət əlaqələrini genişləndirmək və səfəvi ordusu üçün qərbdən odlu silahlar almaq.

1508-ci ildə Venesiyaya iki nəfər Səfəvi elçisi gəldi. Elçilər Venesiyaya Şah İsmayılın məktublarını gətirmişdilər. Onlar Venesiya hökumətinin qarşısında çıxış edərək iki mühüm məsələni irəli çəkmişdilər. Birincisi, Venesiyadan odlu silahların alınması və artilleriya mütəxəssislərinin Təbrizə aparılması, ikincisi isə Venesiyanın Osmanlılara dəniz müharibəsinə başlaması və bundan istifadə edən Səfəvilərin Kiçik Asiyada müharibələrə başlaması. Lakin danışıqlar heç bir nəticə vermədi.

1510-cu ildə Şah İsmayıl osmanlıların müttəfiqi şeybaniləri darmadağın etdi və bununla da osmanlılara qarşı müharibə Səfəvilərin xarici siyasətinin əsas məsələsinə çevrildi. Şah İsmayıl hər şeydən əvvəl, Osmanlı dövlətinin daxildən sabitliyini pozaraq zəiflətmək qərarına gəldi. Bu məqsədlə də Anadoluda şiələrin kütləvi iğtişaşları, üsyanları (qızılbaş hərəkatları) başlandı. Eyni zamanda Şah İsmayıl Avropa dövlətləri ilə diplomatik əlaqələrini genişləndirdi. 1510-cu ildə Venesiyaya əslən kiprli olan Nikolo Soror adlı elçi göndərildi. Lakin Suriya ərazisində həmin elçi Şah İsmayılın göndərdiyi məktubla tutuldu və həbs edildi. Elə həmin il Şah İsmayıl Venesiyaya məşhur həkim olan Əli bəy adlı 35 yaşlı daha bir diplomat yola saldı. Lakin əvvəlki dövrlərdə olduğu kimi yenə də Venesiya respublikasını Osmanlı imperiyasına qarşı qaldırmaq planı baş tutmadı. O, Osmanlı imperiyasına qarşı Portuqaliya ilə ittifaq bağlamağa və İran körfəzi vasitəsilə bu dövlətdən odlu silahlar, artilleriya mütəxəssisləri almağa cəhd göstərdi.

Şah İsmayıl 1513-cü ildə o zamanlar Hindistanda Portuqaliyanın vitse-kralı olan Albikerke ilə danışıqlar aparmaq üçün Qoaya öz elçisini yola saldı. Portuqaliya admiralı ilə səfəvi diplomatı arasında rəsmi razılıq əldə olundu. Lakin bütün cəhdlərə baxmayaraq, odlu silahların alınması baş tutmadı.

Sultan II Bəyaziddən sonra 1512-ci ildə hakimiyyətə gəlmiş Bəyazidin kiçik oğlu Sultan Səlim bütün hərbi-iqtisadi qüvvəsini

əvvəlcə səfəvilər dövlətinə qarşı çevirdi. Səfəvilərə qarşı yürüş zamanı Avropadan təhlükəsizliyini təmin etmək məqsədilə qərb dövlətlərinin əksəriyyəti ilə sülh müqavilələrini yeniləşdirdi. Bununla da Osmanlı sultanı Şah İsmayılın osmanlılara qarşı Avropa ölkələri ilə ittifaqa girmək planını diplomatik yolla puça çıxartdı və Misiri də bitərəfləşdirdi.

Nəhayət, 1514-cü ilin avqust ayının 23-də şah İsmayıl bu vaxta qədər qazandığı hərbi uğurlara və apardığı diplomatiyaya baxmayaraq, Çaldıran döyüşündə Osmanlılarla qarşılaşmalı oldu və Osmanlılara məğlub oldu.

Səfəvilərin Çaldıran döyüşündəki məğlubiyyətindən sonra Avropa dövlətlərinin osmanlılara qarşı mübarizəsi daha da intensivləşdi. Qərb diplomatiyası yenidən başlıca diqqəti Səfəvi dövlətinə yönəltdi.

Çaldıran döyüşündən sonra Şah İsmayıl Osmanlılara qarşı Rodos səlibçi dövləti ilə də əlaqələrini genişləndirdi. O, 1515-ci ilin oktyabrın 1-də Rodos ioançıları (hospitalyerlər) ordeninin başçısına xüsusi məktubla müraciət etdi. Məktubdan aydın olur ki, o, bundan əvvəl Rodosa Əli bəy adlı bir elçi göndərmiş, osmanlılar əleyhinə danışıqlar aparmışdı. Səfəvi diplomatı həmin səfər zamanı Şah İsmayılın ünvanına yazılmış bir məktubla qayıdıbmış.

Şah İsmayılın Avropa ölkələri ilə fəal əlaqələrini görən Sultan Səlim Səfəvilərə qarşı yenidən müharibə aparmaq qərarına gəldi. Vəziyyətin ciddi olduğunu görən Şah İsmayıl Osmanlı dövlətinə qarşı müharibəyə hazırlığını başa çatdırmaq üçün vaxt qazanmaq məqsədi ilə Misir səfərindən qayıdan Sultan Səlimlə danışıqlar aparmaq üçün 1518-ci il fevral ayının 15-də Dəməşqə Sarı Şeyxin başçılığı ilə bir diplomatik heyət göndərdi. Lakin Sultan Səlim Şah İsmayılın elçilərini zindana atdırdı. 1518-ci ilin mayında isə Səfəvi tacirləri ilə ipək ticarətini qadağan edən qanun imzaladı. Səfəvi dövlətinə strateji məhsulların ixracı dayandırıldı. Beləliklə, Səfəvi və Osmanlı dövlətləri arasındakı münasibətlər yenidən müharibə həddinə yaxınlaşdı. Lakin 1520-ci ildə Sultan Səlimin ölümü müharibəni təxirə saldı.

Hakimiyyətə gəlmiş Sultan Süleyman (1520-1566) atasının



ölümündən az keçmiş Avropada bir-birinin ardınca qələbələr əldə edərək Macarıstanı, Belqradı və Rodosu zəbt etdi. Şah İsmayıl bu dəfə bilvasitə osmanlı hücumu təhlükəsinə məruz qalan və osmanlı imperiyası ilə hərbi-siyasi toqquşmalar dövrünə qədəm qoyan Almaniya imperatoruna müraciət etdi. Şah İsmayıl əslən Maroni keşişi olan və Səfəvi sarayına göndərilən Macarıstan elçisi Frater Petruz de Monte ilə 1523-cü ilin avqustunda imperator V Karla məktub göndərdi. O, Almaniya imperatorundan Osmanlılara qarşı birgə müharibəyə başlamağı və müharibəni qələbəyə qədər aparmağı təklif edirdi. Almaniya imperatorunun cavab məktubu Təbrizə çatanda Şah İsmayıl artıq ölmüşdü (1524-cü il).

Çaldıran döyüşündə ağır zərbə alan Səfəvi dövləti Şah İsmayılın ölümündən sonra daha da zəiflədi. Hakimiyyətə gələn azyaşlı Təhmasib Mirzənin (1524-1576) təcrübəsizliyindən istifadə edən tayfa başçıları mərkəzi hakimiyyətdə möhkəmlənmək üstündə silahlı mübarizəyə qalxmışdılar. Bu proses on ilə qədər davam etdi. Bu dövrdə Avropa və Asiyada yaranmış əlverişli beynəlxalq şəraitdən istifadə edən Osmanlı imperiyası XVI əsrin 20-ci illərində yeni, daha geniş əməliyyatlar dövrünə qədəm qoydu.

Qeyd edək ki, XVI əsrin 30-cu illərində Osmanlı imperiyasının Şərq siyasəti daha artıq qlobal xarakter almağa başlamışdı. Bu hər şeydən əvvəl onunla əlaqədar idi ki, Avropadan Hindistana dəniz yolunun kəşfi və Portuqaliyanın Hind okeanı hövzəsində möhkəmlənməsi Osmanlı imperiyasının da iqtisadi mənafeyinə ağır zərbə vururdu. Beləliklə, Osmanlı imperiyasının Asiya ilə əlaqədar hərbi planları Səfəvi dövlətinə qarşı deyil, həm də Portuqaliya imperiyasının Hind okeanı hövzəsində möhkəmlənməsinə qarşı yönəlmişdi. Məqsəd Portuqaliyanı Hind okeanı hövzəsindən sıxışdırıb çıxarmaq və Səfəvi dövlətini aradan qaldırmaqla yenidən Hind okeanı hövzəsi ölkələrinin, Cənubi Qafqazın, İranın, Orta Asiyanın Aralıq dənizi və Qara dəniz sahilləri ilə ticarət əlaqələrini canlandırmaq idi.

Osmanlı dövləti 1533-cü ilin oktyabr ayının 21-də Səfəvi dövlətinə qarşı hərbi əməliyyatlar kompaniyasına başladı. İki il davam edən müharibə nəticəsində Osmanlı imperiyası Bağdad

da daxil olmaqla ərəb İraqını ələ keçirtdi, İran körfəzi rayonunda Osmanlı-Portuqaliya ziddiyyətləri daha da kəskinləşdi. Lakin bu müharibə Osmanlılar üçün Səfəvilərin dövlət müstəqilliyini aradan qaldıra bilmədiyi üçün uğursuz idi. Sultanın başının 1538-1540-cı illərdə Venesiya ilə, 1540-1547-ci illərdə Avstriya-Almaniya bloku ilə müharibələrə qarışmasından istifadə edən Səfəvilər nəinki öz qüvvələrini yenidən bərpa edə bilmiş, hətta Şirvanşahlar dövlətinin varlığına son qoyaraq öz ərazilərini daha da genişləndirmişdilər. 1548-ci ilin martın 29-da Sultan Süleyman ikinci dəfə Səfəvi dövlətinin üzərinə yeridi. 1549-cu ilin baharına qədər uzanan bu müharibə yenə də heç bir nəticə vermədi. İran körfəzi rayonunda Osmanlı-Portuqaliya hərbi əməliyyatlarının genişləndiyi bir dövrdə Sultan Süleyman Səfəvi dövlətinə qarşı ikinci dəfə hərbi səfərə başladı (1553-cü il, avqust).

1554-cü ilin avqust ayının 2-də Osmanlı qoşunları Səfəvi qoşunlarını Təxti-Süleyman vuruşmasında ağır məğlubiyyətə uğratdı. Avqustun 6-da Səfəvi elçisi Osmanlı Sultanına sülh danışıqlarına başlamağı təklif etdi. Sentyabrın 26-da Qorçu Qacarın başçılıq etdiyi Səfəvi elçiləri ilə osmanlılar arasında barışıq müqaviləsi imzalandı. 1555-ci ilin mayın 29-da Amasiyada Səfəvi-Osmanlı sülh müqaviləsi imzalandı.

Qeyd edək ki, bu dövrdə formalaşmaqda olan Qərbi Avropa burjuaziyası ucuz xammal mənbələri və sərfəli satış bazarları ələ keçirmək üçün müstəmləkə işğallarına başlamışdı. Səfəvi dövləti özünün xarici-siyasi mənafeyini tənzim etmək niyyəti ilə Qərb dövlətlərinə müraciət edərkən bəzi Avropa dövlətləri bundan istifadə edib özlərinin Şərqlə əlaqədar müstəmləkəçilik planlarını həyata keçirməyə çalışırdılar. XVI əsrin 60-70-ci illərində Səfəvi-İngiltərə əlaqələrinə məhz bu baxımdan yanaşmaq lazımdır. İspaniya, Portuqaliya və Osmanlı imperiyası ilə hərbi-siyasi rəqabətə girə bilməyən İngiltərə Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu, Azərbaycan və İran vasitəsilə Hindistanla birbaşa əlaqə yaratmaq qərarına gəldi. Beləliklə, İngiltərənin "Moskva" kompaniyası Rusiyadan keçməklə Səfəvi dövlətinə 6 ekspedisiya göndərdi. Bununla da orta əsrlərdə ilk dəfə olaraq Azərbaycan Səfəvi dövləti ilə İngiltərə arasında əlaqə yarandı. Səfəvilərlə əlaqə yaradarkən "Moskva" kompaniyasının qarşısında qoyduğu mühüm məqsədlərdən biri də Azərbaycan ipəyini ələ keçirmək, ümumiyyətlə, Səfəvi dövlətinin ərazisində ipək ticarətini inhisara alıb başqa Avropa ölkələrinin tacirlərini, xüsusən venesiyalıları, habelə türk tacirlərini buradan sıxışdırmaq, beləliklə, Səfəvi dövləti ilə Avropa ölkələri arasında ipək ticarətində vasitəçiliyi ələ keçirmək idi. İngiltərə ilə ticarət əlaqələrinin genişləndirilməsi Səfəvilər üçün də əlverişli idi. Çünki həmin dövrdə Osmanlı imperiyası tərəfindən Aralıq dənizi ticarətindən məhrum edilən və Portuqaliyanın Hörmüzü ələ keçirməsi nəticəsində Hind okeanına çıxış yolunu itirən Səfəvi dövlətinin xarici ticarət əlaqələrində Xəzər-Volqa yolunun əhəmiyyəti artmışdı.

"Moskva" kompaniyasının nümayəndələri ilə danışıqlar nəticəsində Şah Təhmasib xüsusi fərmanla ingilis tacirlərinə geniş imtiyazlar verdi.

Qeyd edək ki, iki ölkə arasındakı qarşılıqlı əlaqələrdə ingilis kapitalı Səfəvi dövlətinə ancaq sərfəli satış bazarı və ucuz xammal mənbəyi kimi baxırdısa, Səfəvi dövlətini siyasi problemlər, daha doğrusu, Qərbdə Osmanlı imperiyasına qarşı beynəlxalq münasibətlər problemi də maraqlandırdı. 1562-ci il noyabrın 20-də İngiltərə elçisi Antoni Cenkinsonla aparılan danışıqlar zamanı Şah Təhmasib beynəlxalq münasibətlərə toxunmuş, Almaniya imperiyası, İspaniya və Osmanlı dövlətlərinin hərbi qüdrətləri ilə maraqlanmışdı. Bundan başqa, Şah Təhmasib 1566-cı il mayın 29-da İngiltərə elçisi Artur Eduardsla danışıqlar zamanı da Avropadakı vəziyyətlə, xüsusilə İspaniya-Türkiyə və İngiltərə-Rusiya münasibətləri ilə ətraflı maraqlanmışdı.

Lakin XVI əsrin 60-cı illərində başlamış Səfəvi-İngiltərə əlaqələri iki dövlət arasında fasiləsiz davam edən iqtisadi və siyasi münasibətlərə çevrilmədi. Livoniya müharibəsində (1558-1583) İngiltərəni öz tərəfinə çəkə bilməyən IV İvan ingilis tacirlərinə verdiyi ticarət imtiyazlarını ləğv etdi; onlara Rusiya ərazisindən keçib Volqa - Xəzər yolu ilə Şərqə ticarətə getmək qadağan olundu.

Amasiya müqaviləsindən sonra təqribən 20 il ərzində Osmanlı -Səfəvi sərhədlərində sülh münasibətləri pozulmadı. Şah

Təhmasib 1568-ci il fevralın 16-da öz elçisi Şahqulu xan Ustaclını Ədirnəyə göndərib Amasiya müqaviləsinin qüvvədə qalması barədə yeni osmanlı Sultanı II Səlimdən də təminat almışdı. Səfəvi hökmdarı ölümündən bir az əvvəl, 1575-ci ilin mayın 13-də Toxmaq xan Ustaclını İstanbula göndərib Amasiya müqaviləsinin şərtlərini II Səlimdən sonra hakimiyyətə gələn Sultan III Murada (1574-1595) qəbul etdirmişdi.

Şah Təhmasibin ölümündən (1576) sonra Səfəvi sarayında sabitlik pozuldu. Qızılbaş qrupları arasında qanlı çarpışmalar gedirdi. Bundan istifadə edən Osmanlı imperiyası Amasiya müqaviləsini pozaraq Səfəvi dövlətinə qarşı yeni müharibəyə başladı. 1578-ci ildə Cıdır düzündə səfəviləri məğlub edən osmanlılar Tiflisi, Şəkini, Ərəşi, Qəbələni, Şamaxını, Bakını, Şabranı, Dərbəndi, Salyanı və s. yaşayış məntəqələrini tutdular. Beləliklə, Səfəvilərlə Osmanlılar arasında 12 ilə qədər davam edən yeni müharibə başladı. Osmanlı imperiyasına qarşı təkbətək müharibə aparmağa qadir olmayan Səfəvi dövləti onun hərbi qüvvələrini iki cəbhəyə parçalamaq məqsədi ilə yenidən qərb dövlətlərinə müraciət etdi. 1579-cu ilin sonunda Venesiyaya tanınmış diplomat Xoca Məhəmmədin rəhbərliyi ilə yeddi nəfərdən ibarət diplomatik nümayəndə heyəti göndərildi. Venesiya ilə danışıqlar aparan Xoca Məhəmməd Səfəvi hökmdarı Məhəmməd Xudabəndənin təklifini müzakirə etdilər. Lakin danışıqlar heç bir nəticə vermədi. Venesiya hökuməti Osmanlılarla münasibətlərini üstün tutmağı qərara aldı. Bundan başqa 1580-ci ilin mayın 1-də Xoca Məhəmməd Portuqaliya hökuməti ilə danışıqlar aparmışdır. 1582-ci ildə Avqustinlər ordenin üzvü Simon Şah Məhəmməd Xudabəndənin sarayına gəlib İspaniya kralı II Filipp və Roma papası XIII Qriqorinin elçisi sifəti ilə danışıqlar apardı. 1585-1586-cı illərdə İspaniya kralı və Roma papasının daha bir elçisi - Yan Batist Vekyetti Səfəvi sarayına göndərildi. Bununla belə, bütün bu danışıqlar heç bir nəticə vermədi. Çünki Avropa dövlətlərinin məqsədi Səfəvi-Osmanlı münasibətlərini gərgin saxlamaq idi.

Şah Məhəmməd Xudabəndənin ölümündən (1587) sonra yenicə hakimiyyətə gəlmiş I Şah Abbas (1587-1629) Osmanlı hökmdarı Sultan III Murada sülh təklifi ilə müraciət etmək məcburiyyətində qaldı. İki dövlət arasında 1590-cı il martın 21-də bağlanmış İstanbul müqaviləsinə əsasən Gürcüstan, Ermənistan, Kürdüstan, Kirmanşah, Luristan, Xuzistan və başqa ərazilərlə yanaşı, Azərbaycan (Ərdəbil və Talış mahalları istisna edilməklə) da Osmanlı imperiyasına qatıldı.

I Şah Abbas orduda və hakimiyyət strukturunda reformalar apararaq birbaşa mərkəzi hakimiyyətdən asılı olan qüvvətli nizami ordu yaratdı. Bundan sonra isə fəal xarici siyasət yeritməyə başladı. Səfəvi dövlətinin qarşısında xarici siyasətlə bağlı üç mühüm məsələ dururdu: 1) Şeybani sərhədlərinin təhlükəsizliyini təmin etmək; 2) son müharibədə osmanlılar tərəfindən işğal olunmuş torpaqları geri qaytarmaq; 3) İran körfəzində Portuqaliyanın hegemonluğuna son qoyub Hind okeanına çıxış yolu əldə etmək.

Səfəvilər bu məqsədlərindən birincisini müvəffəqiyyətlə yerinə yetirdilər. İkinci məqsədi həyata keçirmək üçün Səfəvilər yenə də qərb dövlətlərindən istifadə etməyə üstünlük verdilər. 1600-cü ilin mayında İffət bəyin başçılıq etdiyi, 1603-cü ildə isə Fəthi bəyin başçılıq etdiyi 11 nəfərlik nümayəndə heyəti Venesiyaya gəldi və Venesiya ilə ticarət əlaqələri haqqında danışıqlar apardı. Bir müddət sonra Şah Abbas Venesiyanı Osmanlılara qarşı mübarizəyə qaldırmaq üçün Xoca Kieos adlı başqa bir diplomatı, daha sonra isə Xoca Səfər adlı diplomatı Venesiyaya yola saldı. Venesiya ilə danışıqlar aparan Xoca Səfər Venesiya hökumətinə bildirdi ki, onun hökmdarı Venesiya respublikası ilə "səmimi dostluq və möhkəm müttəfiqlik münasibətlərini davam etdirmək" niyyətindədir.

Qeyd edək ki, Şah Abbas Hind okeanı yolu ilə ticarətin gələcəyinin olmadığını hiss edir və Suriya vasitəsilə Qərb ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. Şah Suriyadakı Venesiya konsulu, görkəmli dövlət xadimi və alim Covanni Françesko Saqredoya məktub göndərib Suriyadakı Səfəvi təbəələrinə himayə göstərməyi ona etibar etmişdi. 1611-ci ildə onu bütün Venesiya torpaqlarında Səfəvi dövlətinin konsulu təyin etmişdi.

1602-1612-ci illər müharibəsi ərəfəsində Şah Abbas Osmanlı imperiyasına qarşı vahid hərbi ittifaq yaratmaq məqsədilə Ro-

ma papası, Venesiya respublikası, Almaniya, İngiltərə, Fransa, İspaniya, Toskana hersoqu, Şotlandiya kralı, Polşa və Skandinaviya ölkələrinin hökmdarları ilə danışıqlar aparmaq üçün Hüseynəli bəy Bayatın başçılığı ilə Avropaya böyük bir elçi yola saldı. Şahın göstərişinə əsasən bu zaman Səfəvi sarayında İngiltərə elçisi olan Antonio Şerli, Səfəvi elçilərinin Osmanlılara qarşı hərbi ittifaq təkliflərini öz hökmdarlarına - İspaniya kralı və Roma papasına yetirmək üçün, müvafiq olaraq fransiskiançı və dominikiançı rahiblər - Alfonsu Kordero və Nikolo de Malo da həmin elçilərlə birlikdə Avropaya yola salındı. Şah Abbas Hüseynəli Bayatla göndərdiyi məktublarda bu dövlətləri qərbdən vahid cəbhədə Osmanlı imperiyasına qarşı hücuma keçməyə çağırırdı. Almaniya imperatoru II Rudolf Hüseynəli bəy Bayatın səfirliyinə cavab olaraq öz elçisi Stefan Kakaşı Şah Abbasla danışıqlar aparmaq üçün Səfəvi sarayına yola saldı. Müharibə ərəfəsində Şah Abbasla danışıqlar aparmaq üçün Məşhəd şəhərinə Antoni de Qouvenin başçılıq etdiyi üç nəfərdən ibarət İspaniya elçiləri də gəldi. 1604-cü ildə Luis Pereyra de Lazerdanın rəhbərliyi ilə böyük tərkibdə İspaniya və Portuqaliya elçiləri Şah Abbasın sarayına gəldilər. Lakin bu danışıqların heç biri Avropa dövlətlərinin Osmanlılara qarşı vahid cəbhədə müharibəyə qalxmasına kömək etmədi. Beləliklə, Səfəvi dövləti Osmanlılara qarşı təkbətək müharibə aparmaq məcburiyyətində qaldı.

1605-1607-ci illərdə Səfəvilər uğurlu qələbələr əldə edərək əslində Amasiya müqaviləsindəki sərhədlərini bərpa etmişdilər. Şah Abbas Osmanlılar əleyhinə Qərb dövlətləri ilə əlaqələri daha da genişləndirməklə yanaşı, eyni zamanda Osmanlı imperiyası ilə sülh danışıqlarına da girməyə çalışırdı. Şahın bu məqsədi haqqında Avropa diplomatı Antonio de Qouven öz hökumətinə məlumat verərək yazırdı: "Nə qədər ki, bu iki dövlət bir-birilə vuruşur, xristian dünyası sülh və əmin-amanlıq içərisində yaşayacaqdır".

Beləliklə, Avropa dövlətlərini Qərbdə Türkiyə üzərinə qaldırmaq niyyəti nəticə vermədikdə, Şah Abbas Amasiya müqaviləsi əsasında müəyyən edilmiş sərhədlərin bərpa edilməsi şərti



ilə Osmanlı imperiyası ilə sülh müqaviləsi bağlamağı üstün tutdu. Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında 1612-ci il noyabr ayının 26-da İstanbulda sülh müqaviləsi imzaladı.

Sülh müqaviləsi bağlanmasına baxmayaraq, Səfəvi dövləti Osmanlı imperiyasını tamamilə hərbi iqtidardan salmaq və özünün Aralıq dənizi vasitəsilə, həmçinin Qara dəniz yolu ilə Avropa ölkələri ilə ənənəvi əlaqələrini bərpa etmək siyasətini davam etdirməkdə idi. Obyektiv olaraq böyük Azərbaycan imperiyası - Səfəvi dövləti iki yol ayrıcında qalmışdı: ya xarici aləmə bütün çıxış yollarının bağlanması (şimaldan Rusiya, cənubdan-Portuqaliya, qərbdən-Osmanlı imperiyası) ilə razılaşıb qüdrətli qonşuların yaratdığı dar məngənə içərisində sıxılaraq tənəzzülə uğramalı, ya da öz siyasi varlığını qoruyub saxlamalı idi.

1613-cü ildə iki dəfə Səfəvi elçiləri Venesiyaya göndərildi. Bu elçilərin apardıqları məktublarda Şah Abbas osmanlılarla yaranmış sülh münasibətlərindən istifadə edərək Venesiya ilə ticarət əlaqələrini genişləndirməyə çalışdığını bildirirdi. Venesiya hökuməti Səfəvi dövləti ilə ipək ticarətini genişləndirmək məqsədi ilə 1615-ci ilin iyulun 10-da Venesiya bazarlarından başqa Avropa ölkələrinə aparılan Azərbaycan və İran ipəyindən alınan gömrüyü də ləğv etdi.

1621-ci ildə Venesiyaya Xoca Eyvazın rəhbərliyi ilə diplomatik heyət gəldi. Bu danışıqlarda istifadə olunan məxfi hesabat (Səfəvilərin ərazisində fəaliyyət göstərən dominikiançı rahiblər tərəfindən hazırlanmış) diqqəti cəlb edir: "Gənc və şöhrətli müstəbid (Şah Abbas) Venesiya sinyoriyası, Moskva monarxı və Polşa kralı ilə ittifaqda osmanlılara qarşı müharibəyə qalxmaq üçün ilk fürsəti gözləyir. O əmindir ki, birdəfəlik Osmanlı imperiyasının axırına çıxmaq üçün belə bir ittifaq kifayət edərdi".

Göründüyü kimi, qərb siyasətçiləri Şərqdə hökmdarlığı ələ keçirmək üçün səfəvilərlə osmanlılar arasındakı çəkişmələrə böyük ümid bəsləyirlər. Şərqin iki böyük imperiyası isə Qərb diplomatiyasına uyaraq öz aralarında yeni-yeni qanlı toqquşmalar barədə planlar cızırdılar.

# B

**BAHAM ADALARI** - Floridanın cənub-şərq sahillərində, Kubanın şərq hissəsində irili-xırdalı adalardan ibarət dövlətdir. Ölkənin ərazisi 30 böyük adadan, 660 kiçik adalardan və 2400 böyük sualtı daşlardan ibarətdir. Ərazisinin sahəsi 13.940 kv.km, əhalisinin sayı isə 256.616 nəfərdir (1995). Rəsmi dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Baham adalarının Birliyidir. Dövlətin idarəçilik forması millətlərin müstəqillik birliyidir. Ölkə 10 iyul 1973-cü ildə Britaniya Birliyi daxilində müstəqilliyini əldə etmişdir. Qanunvericiliyi ingilis ümumi hüququna əsaslanmışdır. Milli bayram 10 iyul Müstəqillik günüdür. Dövlət başçısı general-qubernatorla təmsil olunan Britaniya monarxıdır. İkipalatalı parlament Senatdan və Məclis Palatasından ibarətdir.

**BANQLADEŞ** - Cənubi Asiyada dövlətdir. Ərazisinin sahəsi 144.000 kv.km, əhalisinin sayı isə 128.094.949 nəfərdir (1995). Rəsmi dövlət dili benqal dilidir.

Dövlətin tam adı Banqladeş Xalq Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Dakka şəhəridir. Ölkə müstəqilliyini 16 dekabr 1971-ci ildə elan etmişdir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Milli bayram 26 mart müstəqillik günüdür. Dövlət başçısı prezidentdir. icraedici hakimiyyət *Nazirlər Kabinetinə başçılıq edən baş nazirə məxsusdur*. Parlament birpalatalıdır və Milli Assambleya adlanır.

**BARBADOS** - Karib dənizinin şərq hissəsində ada dövlətidir. Ərazisinin sahəsi 430 kv.km. əhalisinin sayı 256.395 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Brictaun şəhəridir. Barbados 30 noyabr 1966-cı ildə Britaniya Birliyi daxilində öz müstəqilliyini əldə etmişdir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanmışdır. Milli bayram 30 noyabr müstəqillik günüdür. Dövlət başçısı general-qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. Parlament ikipalatalıdır: yuxarı palata (Senat) və aşağı palata (Toplantılar palatası).

**BARIŞIQ** - Döyüşən tərəflərin razılığı ilə hərbi əməliyyatların kəsilməsidir. BMT-nin *Təhlükəsizlik Şurasının döyüşən tə*rəflərdən barışmağı tələb etmək səlahiyyəti vardır.

Barışığa aid beynəlxalq-hüquqi normalar bir sıra ümumqəbulolunmuş sənədlərdə, xüsusilə 1907-ci il Haaqa konvensiyasında əks olunmuşdur. Bu sənədlərə görə barışıq hərbi əməliyyatları müəyyən müddət dayandırır. Əgər müddət müəyyən olunmamışsa, döyüşən tərəflər əks tərəfi qabaqcadan xəbərdar etməklə istənilən vaxt hərbi əməliyyatlara başlaya bilər. Barışığın bir tərəfdən istənilən formada pozulması, o biri tərəfə barışıqdan istifadə etmək və hərbi əməliyyatların başlanmasına qədər cavab tədbirləri görmək hüququ verir.

Barışıq ümumi və xüsusi olmaq etibarilə 2 yerə bölünür. Ümumi barışıqda sülh müqaviləsi bağlanaraq bütün müharibə zonasında hərbi əməliyyatlar dayandırılır. Döyüşən tərəflərdən birinin ümumi barışığı istənilən qaydada pozması təcavüz aktı kimi qiymətləndirilir.

**BAŞ KONSUL** - bax. Konsulluq ranqları.

**BAŞSAĞLIĞI** (diplomatik praktikada) - Dövlət, hökumət başçılarının, dövlətin başqa tanınmış vəzifəli şəxslərinin ölümü ilə bağlı böyük dağıntıya və insan ölümünə səbəb olmuş təbii fəlakətlərlə, qəzalarla bağlı ölkədəki kədərə şərik çıxmağın rəsmi olaraq bildirilməsidir. Bu məsələ ilə bağlı başsağlığı göndərilir (məktubla, teleqramla, rəsmi nümayəndələrlə).

Dövlət başçılarının ölümü ilə əlaqədar yazılı başsağlığı ilə yanaşı dəfn mərasimində xarici dövlətlərdən gəlmiş xüsusi nümayəndələr də iştirak edir. Onlar ölkə başçısına şifahi şəkildə başsağlığı verirlər.

Matəm elan edilmiş ölkədəki diplomatik korpus da başsağlığı verir. Diplomatik nümayəndəliklərin başsağlığı (hər biri ayrıca və diplomatik korpusun adından duayen) Xarici İşlər Nazirliyinə uyğun notalar (şəxsi, verbal) və aşağı sağ küncündə "p.c." (poir condoleance) yazılmış vizit vərəqələrini göndərirlər.

Nümayəndələr və diplomatik korpus mərhumun qəbri üzərinə əklil qoyurlar. Matəm günləri səfirliyin üzərindəki dövlət bayrağı bayraq ağacının yarısına qədər endirilir.

Matəm elan etmiş ölkənin diplomatik *nümayəndəliyi nota*

(şəxsi, verbal) vasitəsilə fəaliyyət göstərdiyi ölkənin hökumətinə, diplomatik korpusa baş vermiş hadisə ilə bağlı, başsağlığı kitabının açılacağı yeri və vaxtı haqqında məlumat verir, səfirliyin binası üzərindəki bayraq bir az aşağı endirilir, ölkə nümayəndələrinin və diplomatların başsağlığı vermək üçün qəbulunu təşkil edir.

**BELARUS** - Şərqi Avropa dövlətidir. Ərazisinin sahəsi 207.600 kv.km, əhalisinin sayı isə 10.200.000 nəfərdir (1995). Dövlət dili belarus və rus dilləridir.

Dövlətin adı Belarus Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Ölkənin paytaxtı Minsk şəhəridir. Belarus müstəqilliyi ilk dəfə 25 mart 1918-ci ildə əldə etmiş, lakin tez bir zamanda 1 yanvar 1919-cu ildə yenidən itirmişdir. SSRİ dağıldıqdan sonra 1991-ci ildə Belarus yenidən müstəqillik əldə etmişdir. Konstitusiya 15 mart 1994-cü ildə qəbul edilmişdir. Ölkənin qanunvericiliyi keçmiş SSRİ-nin Mülki Məclisinə əsaslanır. Milli bayram 3 iyul Müstəqillik günüdür. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və baş nazirə məxsusdur. Parlament birpalatalıdır və Milli Məclis adlanır.

**BELÇİKA** - Avropanın şimali-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 30.507 kv.km, əhalisinin sayı isə 10.081.880 nəfərdir (1995). Ölkənin 3 rəsmi dili vardır: holland, fransız və alman dilləri.

Ölkənin tam adı Belçika Krallığıdır. Dövlət idarəçilik forması konstitusiyalı monarxiyadır. Belçika müstəqilliyini 4 oktyabr 1830-cu ildə qazanmışdır (konstitusiya 7 fevral 1831-ci ildə qəbul edilmişdir). Paytaxtı Brüsseldir. Qanunvericilikdə ingilis ümumi hüququna əsaslanan mülki hüquq sistemi fəaliyyət göstərir. Milli bayram 21 iyul, Kral I Leopold tərəfindən Belçika parlamentinə konstitusiyaya sadiqlik andının gətirildiyi gündür (1831). İcraedici hakimiyyət monarxın (dövlət başçısı) və Nazirlər Kabinetini formalaşdıran baş nazirin əlində cəmləşir. Qanunverici hakimiyyət yuxarı palata (Senat) və nümayəndələr palatasından təşkil olunmuş ikipalatalı parlamentlə təmsil olunur.

**BELİZ** - Mərkəzi Amerikanın şimali-şərqində yerləşən dövlətdir. Ərazisinin sahəsi 22.963 kv.km, əhalisinin sayı isə 214.061 (1995) nəfərdir.

Dövlət quruluşu parlamentli respublikadır. Ölkənin paytaxtı Belmopan şəhəridir. Beliz 1981-ci ilə qədər Britaniyanın müstəmləkəsi olmuş və Britaniya Hondurası adlandırılırdı. 21 sentyabr 1981-ci ildə ölkə müstəqilliyini əldə etmişdir. Qanunvericilik ingilis hüququna əsaslanır. Milli bayram 2 sentyabr Müstəqillik günü həm də konstitusiya qəbul olunduğu gündür. İcraedici hakimiyyət Britaniya monarxına məxsusdur və monarxın yerdəki nümayəndəsi general-qubernatordur. Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı palata) ibarət olan Məclis qanunvericilik hakimiyyətinə məxsusdur.

**BENİN** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 112.622 kv.km, əhalisinin sayı isə 5.522.677 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Benin respublikasıdır. Dövlət quruluşu çoxpartiyalı demokratik üsul-idarəli respublikadır. Paytaxtı Porto-Novodur. Benin əvvəllər Fransanın müstəmləkəsi olmuş və Daqomeya adlanmışdır. 1 avqust 1960-cı ildə ölkə müstəqilliyini əldə etmişdir. Qanunvericilik Fransa mülki və ümumi hüququna əsaslanır. Milli bayram 1 avqust müstəqillik günüdür. Dövlət başçısı prezidentdir. Qanunverici hakimiyyət Milli Məclis adlanan birpalatalı parlamentlə təmsil olunur.

**BEYNƏLXALQ ARBİTRAJ** - Mübahisə edən tərəflərin könüllü razılığı ilə beynəlxalq səviyyəli mübahisələrin bir və ya bir neçə hakimlər tərəfindən araşdırılmasıdır. Beynəlxalq hakimlərin xarakterik xüsusiyyəti aşağıdakılardır: onun qərarının mübahisə edən tərəflər üçün vacib hüquqi gücə malik olması; hakimin və ya hakimlərin mübahisə edən tərəflərin özləri tərəfindən seçilməsi.

**BEYNƏLXALQ ÇAYLAR** - Bir neçə dövlətin ərazisindən axan və beynəlxalq gəmiçilik üçün istifadə olunan beynəlxalq xarakterli su yollarıdır.

Beynəlxalq çaylara dünyanın 200-dən çox böyük çayları və çay qolları daxildir, belə ki, bunların 52-dən çoxu 2 və 3 dövlətin ərazisindən keçir. Bunlar - Dunay, Reyn, Elba, Amazonka, Volqa, Zambezi, Konqo, Niger, Nil, Qanq, Mekonq və başqa çaylardır.

Qaydaya görə, beynəlxalq çayların hüquqi rejimi sahilyanı dövlətlər arasında, bəzi hallarda marağı olan dövlətlər arasında bağlanan müqavilələrlə tənzimlənir. Beynəlxalq suların qalan hissəsi uyğun olaraq sahilyanı dövlətlərin ərazisinin tərkib hissəsinə daxildir və onun suverenliyi altındadır.

Beynəlxalq suların təsərrüfat məqsədi ilə istifadə olunması məsələsi qonşu ölkələr və ya su hövzəsinə daxil olan dövlətlər arasında müqavilələrlə tənzimlənir. İki dövlətin sərhədlərindən keçən çayların rejimi isə bu dövlətlərin arasındakı müqavilələrlə müəyyən olunur.

**BEYNƏLXALQ DƏNİZ HÜQUQU** - Dəniz rejimi hüququnu müəyyən edən və dünya okeanından istifadə olunması ilə əlaqədar dövlətlər arasındakı münasibətləri müəyyən edən beynəlxalq hüququn norma və prinsiplərinin sistemidir. Açıq dənizin azad olması prinsipinin və ərazi sularından dinc məqsədlə keçmək hüququ kimi ümumqəbulolunmuş normalarının öz əksini tapdığı dəniz hüququ haqqındakı 1958-ci il Cenevrə konvensiyası beynəlxalq dəniz hüququnun kodifikasiyasında mühüm pillə olmuşdur. Dəniz və okeanların dibinə nüvə silahı və başqa kütləvi qırğın silahlarının yayılmasının qadağan edilməsi haqqındakı 1971-ci il müqaviləsi dənizdən silahlanma üçün istifadə edilməsinə son qoydu.

BMT-nin dəniz hüququ üzrə 3-cü konfransı (1973-82) Dünya okeanından istifadə edilməsinin praktiki olaraq bütün məsələsinə vahid kompleks halında baxdı.

BMT-nin dəniz hüququ haqqındakı 1982-ci il konvensiyasında əks olunan Beynəlxalq dəniz hüququnun norma və prinsipləri dövlətlərin, beynəlxalq təşkilatların, xüsusi kompaniyaların və s. dəniz fəaliyyətinin bütün formalarını müəyyən etdi.

**BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATI (BDT)** - beynəlxalq hökumətlərarası təşkilatdır. 1948-ci ildə BMT-nin Dəniz konfransında işlənib hazırlanmış hökumətlərarası dəniz məsləhət təşkilatı haqqında Konvensiyasına uyğun olaraq 1958-ci ildə yaradılmışdır. 130-dan çox dövlət BDT-nin üzvüdür. BDT-nin məqsədi aşağıdakılardır: beynəlxalq dəniz ticarəti ilə əlaqədar olan müxtəlif texniki məsələlərin həllində dövlətlər arasındakı əməkdaşlığı, dənizdə təhlükəsizliyin və gəmiçiliyin effektiv fəaliyyətini təmin etmək, gəmiçilik kompaniyaları tərəfindən ticarət gəmilərinə qarşı diskriminasiya formalarını aradan qaldırmaq, dənizlərin gəmilər tərəfindən çirkləndirilməsinin qarşısını almaq və buna nəzarəti həyata keçirmək.

BDT-nin ali orqanı 2 ildə bir dəfə çağırılan Məclisdir. Məclis BDT-nin rəhbəredici orqanı olan Şuranı seçir, onun mərkəzlərinə baxır, büdcəni təsdiq edir, dəniz təhlükəsizliyinə aid qaydaları BDT-nin üzvlərinə təklif edir.

BDT-nin çərçivəsi daxilində 4 komitə fəaliyyət göstərir: dənizin təhlükəsizliyi üzrə, hüquqi məsələlər üzrə, dəniz ehtiyatlarının müdafiəsi üzrə və texniki əməkdaşlıq üzrə.

BDT-nin mənzil-qərargahı Londondadır.

**BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI (BƏT)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. 1919-cu ildə Millətlər Liqası yanında avtonom təşkilat kimi yaradılmışdır, 1946-cı ildən isə BMT-nin ixtisaslaşdırılmış qurumudur. 150-dən çox dövlət BƏT-in üzvüdür.

BƏT-in fəaliyyət sferasına məşğulluq, əmək şəraitinin yaxşılaşdırılması, həmkarlar ittifaqının fəaliyyəti, professional təhsil, əməyi müdafiə və texniki təhlükəsizlik, xəstəliklərlə mübarizə, ayrıca qrup zəhmətkeşlərinin vəziyyəti, sosial təminat və s. kimi geniş əhatəli sosial və əmək problemləri üzrə beynəlxalq əməkdaşlığın inkişafı daxildir. Təşkilat bu sahələrdə beynəlxalq normaları üzv dövlətlər tərəfindən ratifikasiya olunmuş konvensiyalar şəklində qəbul edir və bu təklifləri təkmilləşdirir.

Baş konfrans, İnzibati Şura (icra orqanı) və Beynəlxalq Əmək Bürosu (BƏM-daimi katiblik) BƏT-in əsas orqanlarıdır. BƏT-in ali orqanı Baş konfransdır (və yaxud Beynəlxalq Əmək Konfransıdır): onun hər il çağırılan sessiyasında BƏT üzvü olan hər bir dövlətin 4 nümayəndəsi (2 hökumət nümayəndəsi, zəhmətkeşlərdən və sahibkarlardan isə hərəsindən 1 nümayəndə) və onların məsləhətçiləri (nümayəndələr bərabərhüquqludur) iştirak edir.

BƏT fəaliyyətini üç əsas istiqamətdə həyata keçirir: əmək haqqı sahəsində konvensiya və tövsiyələr işləyib hazırlayır, inki-

şaf edən ölkələrə texniki yardım göstərir, fəaliyyət dairəsinə aid məsələlər barəsində təlimatlar və s.

BƏT-in konvensiyaları onları ratifikasiya etmiş BƏT üzvləri üçün məcburidir.

**BEYNƏLXALQ HESABLAR BANKI (BHB)** - Mərkəzi banklar üçün kommersiya əməliyyatları keçirən və beynəlxalq valyuta əməkdaşlığı təşkilatında iştirak edən dövlətlərarası bankdır. 30-dan çox Avropa ölkəsinin, həmçinin ABŞ, Kanada, Yaponiya, Avstraliya və CAR ölkələrinin mərkəzi bankları BHB-nin üzvləridir.

BHB-nin funksiyaları 1930-cu ildə Haaqa konfransında Birinci Dünya müharibəsindən sonra dövlətlərarası borcların nizamlanması haqqında qəbul edilən sazişdə ifadə olunmuşdur. Faktiki olaraq, bank Avropanın nəhəng banklarının fəaliyyət koordinasiyası üzrə daha geniş bir işi həll etmiş və İkinci Dünya müharibəsi ərəfəsində Almaniyanın hərbi sənayesini maliyyələşdirmişdir.

60-70-ci illərdə BHB beynəlxalq valyuta sisteminin reforma məsələləri üzrə Beynəlxalq Valyuta Fondunun, həmçinin Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Cəmiyyətləri çərçivəsi daxilində maliyyə məsələləri üzrə müxtəlif komissiyalarının işində iştirak etmişdir.

BHB-nin ali orqanı üzv - bank rəhbərlərinin ümumi yığıncağıdır. Bankın cari məsələlərinə 13 nəfərdən ibarət Direktorlar Şurası rəhbərlik edir.

BHB-nin mənzil - qərargahı Bazeldədir (İsveçrə).

**BEYNƏLXALQ HESABLAŞMALAR** - Dövlətlərin beynəlxalq əməkdaşlığı prosesində əmələ gələn pul öhdəlikləri üzrə müxtəlif ödəmələrin həyata keçirilməsilə əlaqədar hesablaşmalardır. Beynəlxalq hesablaşmalar əsasən xarici ticarətlə, texniki yardım göstərilməsilə, dövlət bank kreditlərinin və borclarının verilməsilə, yüklərin və sərnişinlərin daşınması ilə, sığorta ilə, *habelə qeyri-ticarət xarakterli ödəmələrin (ölkələrin diplomatik və* digər rəsmi nümayəndələrinin saxlanılması üzrə, xarici turizm üzrə ödəmələr və s.) həyata keçirilməsi ilə əlaqədardır. Dövlətlər, habelə idarələr, təşkilatlar, firmalar və ayrı-ayrı vətəndaşlar tərəfindən beynəlxalq hesablaşmalar, adətən, dövlətlərin bağladıqları ikitərəfli və çoxtərəfli ticarət, ödəmə, kredit sazişləri və digər sazişlər əsasında həyata keçirilir ki, bu sazişlərdə onların həyata keçirilməsi qaydası müəyyən edilir.

Ödəmələr, bir qayda olaraq, nağdsız hesablaşmalar qaydasında valyuta əməliyyatlarını aparmağa səlahiyyəti olan bankların vasitəsilə həyata keçirilir. Müxtəlif ölkələrin bankları beynəlxalq hesablaşmaların aparılması üçün nümayəndəlik münasibətləri müəyyən edir: bir-biri üçün hesablar açır, həmin hesablarda pul vəsaitlərini saxlayır, qarşılıqlı əsaslarla ödəmə tapşırıqlarını və digər tapşırıqları icra edir.

Praktikada ödəmələrin həyata keçirilməsi üçün müxtəlif formada beynəlxalq hesablaşmalardan və müxtəlif pul sənədlərindən (məs., akkreditiv, inkassa, ödəmə haqqında əmr və yaxud köçürmə tapşırığı) istifadə edilməklə həyata keçirilir; ***veksel*** və ***çek*** geniş tətbiq edilir.

**BEYNƏLXALQ DİPLOMATİYA AKADEMİYASI** - 1926-cı ildə Parisdə təsis edilən qeyri-hökumət təşkilatıdır. Akademiyanın məqsədi müxtəlif dövlətlərin diplomatik xidmətlərinin əməkdaşları və dövlət xadimləri ilə birlikdə beynəlxalq problemlərin araşdırılması üçün şərait yaratmaqdır. Akademiyaya üzv olmaq hökumət işçiləri, xarici işlər nazirləri, səfirlər və elçilər üçün nəzərdə tutulur. Hal-hazırda Akademiyanın dünyanın 90-dan çox ölkəsinin 600-dən çox üzvü vardır. Akademiyaya baş katib və icraiyə komitəsi rəhbərlik edir. Akademiyanın büdcəsi üzv dövlətlərinin illik üzvlük haqqı hesabına yığılır.

Akademiyada aylıq plenar sessiyalar keçirilir. Bu sessiyalarda diplomatik lüğətlərin nəşri, plenar iclaslar haqqında məlumatlar, beynəlxalq problemlərin araşdırılması və s. problemlər müzakirə olunur.

**BEYNƏLXALQ HÖKUMƏTLƏRARASI TƏŞKİLATLAR (BHT)** - Konkret məqsədləri həyata keçirmək üçün çoxtərəfli beynəlxalq müqavilələrin əsasında yaranan dövlətlərin birliyidir. Beynəlxalq hökumətlərarası təşkilatlar müasir beynəlxalq münasibətlərdə mühüm rol oynayır. Beynəlxalq əlaqələrin intensivləşdirilməsi BHT-nin funksiya və səlahiyyətlərinin genişlənməsinə imkan yaradır. BHT-nin üzvlərinin müstəqil dövlətlərdən təşkil

olunmasına baxmayaraq, belə təşkilatların funksiya və səlahiyyətləri milli xarakter daşıya bilməz. Müasir BHT-nin çoxu öz nizamnamələrində nəzərdə tutulan müəyyən həcmdə beynəlxalq hüquqi subyektə malikdirlər, həm BHT-lər, həm də onların heyətləri beynəlxalq təşkilatların imtiyaz və immunitetlərindən istifadə edirlər. BHT-nin fəaliyyət istiqamətinə görə (sülh və təhlükəsizlik məsələləri, iqtisadi, mədəni, səhiyyə, nəqliyyat və s. Məsələlər), iştirakçıların tərkibinə görə (universal, regional - məsələn, Afrika Birliyi Təşkilatı, subregional - Ərəb Dövlətləri Liqası), səlahiyyətlərin həcminə görə və s. fərqləndirilir.

Beynəlxalq sülhün və təhlükəsizliyin müdafiəsi üzrə regional təşkilatlar BMT-nin Nizamnaməsinə uyğun olaraq, onun məqsəd və prinsipləri ilə yaradılır və fəaliyyət göstərilir; belə təşkilatlar BMT-nin Təhlükəsizlik Şurası işə qarışmayana qədər yerli mübahisələrin dinc yolla həll edilməsinə bütün güclərini sər etməlidirlər. Əgər məsələ dinc yolla həll olunmursa, onda regional təşkilatlar Təhlükəsizlik Şurasına müraciət edə bilərlər.

İqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə və s. kimi sahələrdə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə yaradılan və BMT-nin İqtisadiyyat və Sosial Şurası vasitəsilə Birləşmiş Millətlər Təşkilatı ilə uzlaşan BHT-lər BMT-nin ixtisaslaşmış qurumları adlanır. 01.07.1985-ci il tarixinə qədər belə təşkilatların sayı 16 dənə olub: Ümumdünya Meterologiya Təşkilatı (ÜMT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya İtellektual Mülkiyyət Təşkilatı (ÜİMT), Ümumdünya Poçt İttifaqı, Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Elektrorabitə İttifaqı, Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu, Təhsil, Elm və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNESKO), sənayenin inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNİDO), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO).

Atom enerjisinin dinc vasitələrlə istifadə olunması sahəsində beynəlxalq əməkdaşlığın inkişafında Beynəlxalq Atom Enerjisi Agentliyi əsas rol oynayır. Konkret, daha dar məsələlərlə məşğul



olan beynəlxalq təşkilatlar da var, məsələn; Beynəlxalq Soyuq İnstitutu, Gömrük Tariflərinin Nəşrinin Beynəlxalq İtttifaqı və b. fəaliyyət göstərirlər.

**BEYNƏLXALQ HÜQUQ** (beynəlxalq ümumi hüquq) - Dövlətlər arasındakı münasibətləri nizamlayan və dövlətlərin qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən hüquqi norma və prinsiplər sistemidir.

Beynəlxalq hüquq dövlətlərin yaranması ilə meydana gəlmişdir. Elm kimi orta əsrlərdə yaranmışdır. XVI əsrdə ispan hüquqşünası F. de Vitoriya "xalq arasında hüquq" termini daxil etmişdir, belə ki, bu termin Roma hüququnda mövcud olan "insanların hüququ" anlayışından yaranmışdı. Beynəlxalq hüquq normaları bir-birindən asılı olmayaraq, beynəlxalq hüququn bərabər subyekti olan suveren dövlətlər arasındakı saziş nəticəsində yaranır. Bu normalar ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə əks olunur, həmçinin beynəlxalq qaydalar şəklində formalaşır. Müqavilələr və qaydalar beynəlxalq hüququn əsas mənbələri hesab olunur. Beynəlxalq hüququn formalaşmasında birinci dərəcəli rolu diplomatiya oynayır. Öz növbəsində beynəlxalq hüquq diplomatiyanın əsas alətlərindən biridir.

Beynəlxalq hüququn əsas funksiyası beynəlxalq münasibətlərin siyasi, iqtisadi, hərbi, mədəni və başqa bu kimi müxtəlif sferalarda dövlətlərin fəaliyyəti üçün ümumi *meyarları müəyyən* etməkdir. Beynəlxalq hüququn nizamlayıcı funksiyası dövlətin beynəlxalq münasibətlərinin konkret məsələləri üzrə qarşılıqlı hüquq və vəzifələri qeyd etməklə tamamlanır. Beynəlxalq hüququn qoruyucu funksiyası hər bir dövlətin və beynəlxalq ictimaiyyətin bütövlükdə maraqlarının müdafiəsini təmin etməyə xidmət edir.

Beynəlxalq hüququn norma və prinsiplərinin məzmunu inkişafın müxtəlif pillələrində beynəlxalq münasibətlərin vəziyyətini əks etdirir. Belə ki, beynəlxalq hüquq öz növbəsində beynəlxalq münasibətlərə aktiv təsir göstərir, dövlətlər arasında təkcə əməkdaşlıq deyil, həm də beynəlxalq hüququn bu və ya digər norma və prinsiplərinin qəbulu məsələsi ilə bağlı mübarizə aparır.

Beynəlxalq hüquq vahid hüquqi sistem yaradaraq böyük və

kiçikliyindən asılı olmayaraq bütün dövlətlərə və ya bütün ictimai-siyasi formasiyalara eyni şəkildə xidmət edir. Özünün proqressiv inkişafında müasir beynəlxalq hüquq xalqlar arasındakı münasibətləri daha dolğun əks etdirir, müxtəlif sosial-iqtisadi quruluşa malik dövlətlərin dinc-yanaşı mövcudluğunun hüququna çevrilir. Beynəlxalq hüquq sisteminin əsasında bir çox ümumqəbulolunmuş prinsiplər dayanır ki, onlara riayət etməmək yolverilməz hesab olunur.

Müasir dövrdə beynəlxalq hüququn proqressiv inkişafında üstünlük təşkil edən meyl, onun xalqların bərabərhüquqlu əməkdaşlığı hüququ və sülh hüququ olması, millətlərin yaxınlaşmasına, onların qarşılıqlı anlaşmasına, sivilizasiyanın ümumi inkişafına xidmət etməsidir.

**BEYNƏLXALQ HÜQUQ AKADEMİYASI (BHA)** - 1914-cü ildə Avropanın beynəlxalq hüquqla məşğul olan hüquqşünaslarının təşəbbüsü ilə beynəlxalq ictimai və xüsusi hüququn öyrənilməsinə kömək məqsədilə yaradılmış beynəlxalq qeyri-hökumət təşkilatıdır. BHA-nın mənzil qərargahı Haaqadadır. BHA-nın fəaliyyəti əsas etibarilə özəl təşkilatlar tərəfindən maliyyələşdirilmişdir. BHA çərçivəsində keçirilən illik seminar və kurslara beynəlxalq hüquq üzrə mütəxəssislərdən ibarət 12 nəfərlik kuratorluq rəhbərlik edir. 1957-ci ildən BHA nəzdində beynəlxalq hüquq və beynəlxalq münasibətlər elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir.

**BEYNƏLXALQ HÜQUQ ASSOSİASİYASI (BHA)** - 1873-cü ildə Brüsseldə yaradılmış qeyri-hökumət təşkilatıdır. BHA YUNESKO yanında məsləhətçi statusuna malikdir. BHA-nın Nizamnaməsində beynəlxalq hüququn proqressiv inkişafına kömək etmək, hüququn vicdanlı tətbiqi, hüquqların unifikasiyası (vahid sistemə salınması), ziddiyət təşkil edən qanunların aradan qaldırılması, beynəlxalq anlaşma və xoş məramların möhkəmləndirilməsi öz əksini tapmışdır. BHA-nın individual üzvlərinin sayı 4500 nəfərdən çoxdur. Onlar arasında beynəlxalq hüquq sahəsi üzrə tanınmış mütəxəssislər, siyasi xadimlər, müxtəlif ölkələrin diplomatları vardır. Dünyanın 50-dən çox ölkəsində BHA-nın assosiasiyaları fəaliyyət göstərir.



BHA-nın ali orqanı iki ildə bir dəfə toplanan konfransdır. Konfranslar arası müddətdə rəhbəredici orqan olaraq növbəti iki ildə konfransın keçiriləcəyi ölkənin prezidentinin başçılıq etdiyi İcraiyə Şurası fəaliyyət göstərir. Cari məsələlərə baş katib nəzarət edir. BHA-nın nəzdində 10-dan çox komitə fəaliyyət göstərir.

BHA-nın mənzil - qərargahı Londonda yerləşir.

**BEYNƏLXALQ HÜQUQİ CAVABDEHLİK** - Beynəlxalq hüquqi subyektin ona beynəlxalq hüququn başqa subyekti tərəfindən dəymiş ziyanı ləğv etmək vəzifəsini, həmçinin ziyanı çəkən tərəfin dəymiş ziyanı ziyan vuran tərəfə ödətmək hüququnu nəzərdə tutan xüsusi beynəlxalq-hüquqi institutdur. Cavabdehlik, qaydaya görə, beynəlxalq hüququn norma və prinsiplərinin nəticəsində meydana çıxır. Cavabdehliyin 2 forması vardır: siyasi cavabdehlik və maddi cavabdehlik.

Siyasi cavabdehlik hüquq pozuntusunun dərəcə və xarakterindən asılı olaraq, ziyan çəkən tərəfin bağışlanması ilə nəticələnə bilər (üzr istədikdə, bağışlanması xahiş edildikdə, günahkar vəzifəli şəxslərin və vətəndaşların cəzalandırılması ilə), bəzən də hüquq pozuntusu törətmiş dövlətə qarşı lazımi ölçü götürülməsi ilə də nəticələnə bilər. Belə ki, təcavüz haqqında siyasi cavabdehlik təcavüzkar dövlətin suverenliyinin müvəqqəti məhdudlaşdırılmasını, onun ərazisinin işğal edilməsini, onun siyasi pozuntularının hökumət və hərbi idarələrinin cinayəti kimi qəbul edilməsini nəzərdə tutur. Beynəlxalq sanksiyalar BMT-nin Nizamnaməsində nəzərdə tutulur.

Maddi cavabdehlik beynəlxalq hüququn subyektlərinin maddi ziyana səbəb olan, hüquqa zidd olan hərəkətlərinin baş verməsi nəticəsində meydana çıxır. Maddi ziyanın növləri aşağıdakılardır: 1) mütləq cavabdehlik - müqavilə öhdəliyinə əsasən günahından asılı olmayaraq maddi ziyan çəkən tərəfə dəymiş ziyanın ödənilməsi; 2) məhdud cavabdehlik - günaha əsasən cavabdehlik.

Cavabdehlik həm adi, həm də müqavilə normalarına görə yerinə yetirilir. Cavabdehliyi nizama salan xüsusi müqavilə məsələn, 1972-ci ildə qəbul olunmuş kosmik obyektlərə dəyən ziyana görə onun cavabdehlik haqqında Konvensiyasını göstərmək olar.

Dövlətlərin cavabdehliyi haqqında normalar Beynəlxalq Hüquq Komissiyasında sistemləşdirilir.

**BEYNƏLXALQ HÜQUQİ İCARƏ** - Bir dövlətin öz ərazisinin bir hissəsini istifadə üçün başqa bir dövlətə müqavilə əsasında müəyyən müddətə, müəyyən məqsədlərlə, müəyyən şərtlər daxilində verməsidir. İcarəyə verən dövlət icarə edilən torpaq üzərində öz suverenliyini saxlayır, lakin icarədar dövlətin xeyrinə özünün həmin ərazi üzərindəki bəzi hüquqlarını müqavilədə göstərməklə məhdudlaşdırır.

İcarə haqqında müqavilələrdə nəqliyyat yollarının tikilməsi və istismarı, elmi stansiyaların yerləşdirilməsi, limanlardan azad şəkildə istifadənin yaradılması və b. işlər görülmüşdür. Xarici ölkələrin nümayəndələrinin torpaq sahələrini, binaları, mülkləri icarəyə götürməsi, beynəlxalq təşkilatlar tərəfindən hansısa bir ölkədə torpaq sahəsi icarəyə götürülməsi beynəlxalq-hüquqi icarə ilə həyata keçirilir.

**BEYNƏLXALQ HÜQUQİ TANINMA** - Dövlətlər tərəfindən dövlət və ya hökumətin rəsmi və ya qeyri-rəsmi, tam və ya natamam, daimi və ya müvəqqəti münasibətləri qurmaq məqsədi ilə tanınmasıdır. Beynəlxalq hüquqi tanınmanın müxtəlif forması mövcuddur: dövlətin tanınması, hökumətin tanınması, döyüşən tərəfin tanınması, milli azadlıq hərəkatının tanınması, müqavimət orqanlarının tanınması və s.

Rəsmi tanınmanın ən çox yayılmış forması dövlətlərin yeni yaranmış dövlətlərlə diplomatik əlaqələrinin qurulmasıdır. Tanınma ənənəvi olaraq de-yure tanınmaya və de-fakto tanınmaya bölünür. De-yure tanınma dedikdə, dövlətlərin yeni yaranmış dövlətə tam şəkilli diplomatik əlaqələrin qurulması başa düşülür. De-fakto tanınma dedikdə, de-yure tanınmadan fərqli olaraq məhdud səviyyədə siyasi və iqtisadi əlaqələr nəzərdə tutulur.

**BEYNƏLXALQ HÜQUQUN ƏSAS PRİNSİPLƏRİ** - Müəyyən tarixi dövrdə beynəlxalq həyatın mühüm məsələlərində beynəlxalq münasibətlərin subyektləri arasındakı əlaqələrin ümumqəbulolunmuş normalarının ümumiləşməsidir. Əsas prinsiplər beynəlxalq münasibətlərin əsas problemlərinin həlli üçün və hər şeydən əvvəl dövlətlər arasındakı sülhün və əməkdaşlığın təmin edilməsi üçün mühüm əhəmiyyətə malikdir.



Əsas prinsiplərin əksəriyyəti BMT-nin Nizamnaməsində qeyd olunub, BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasındakı əməkdaşlıq və dostluq münasibətlərinə toxunan beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində, ATƏT-in Yekun Aktında əks olunub. Əsas prinsiplərə aşağıdakılar daxildir: beynəlxalq münasibətlərdə gücün tətbiq edilməməsi, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi, istənilən başqa dövlətlərin daxili işinə qarışmamaq, beynəlxalq müqavilədən çıxan öhdəlikləri vicdanla yerinə yetirmək və s.

**BEYNƏLXALQ HÜQUQUN SUBYEKTLƏRİ** - Beynəlxalq münasibətlərin iştirakçılarıdırlar, belə ki, onlar beynəlxalq hüquq sahəsində hüquq və vəzifələrin daşıyıcılarıdırlar. Beynəlxalq hüququn suveren subyekti dedikdə, dövlət, öz müstəqilliyi uğrunda mübarizə aparan xalqlar, millətlər nəzərdə tutulur. Suverenlik dövlətin siyasi-hüquqi xassəsidir. Dövlət suverenliyinə hörmət prinsipi beynəlxalq hüququn inkaredilməz prinsipidir. Öz müstəqillikləri uğrunda mübarizə aparan xalqların və millətlərin beynəlxalq hüquqi-subyektliyinin hüquqi-siyasi əsasını milli suverenlik təşkil edir.

Beynəlxalq hüququn suveren olmayan subyektləri kateqoriyasına beynəlxalq hökumətlərarası təşkilatlar, həmçinin xüsusi siyasi ərazi vahidləri daxildir. Belə subyektlər spesifik hüquqi təbiətə malikdirlər; onların beynəlxalq hüquqi statusu suverenliyə deyil, suveren dövlətlərin müqavilələrinə əsaslanır. Fiziki şəxslər beynəlxalq hüququn subyektləri hesab olunmurlar.

**BEYNƏLXALQ XÜSUSİ HÜQUQ** - Mülki-hüquqi münasibətləri nizamlayan normaların toplusudur. Mülki-hüquqi münasibətlər dedikdə, mülki və onunla bağlı qeyri-mülki münasibətlər, həmçinin ailə və əmək hüququ normaları ilə nizamlanan münasibətlər başa düşülür. Xarici element, yəni hüquqi münasibətlərin beynəlxalq xarakteri aşağıdakı hallarda meydana çıxır: bu münasibətlərdə xarici fiziki və hüquqi şəxs, bəzən də dövlət iştirak etdikdə iki və daha çox dövlətin ərazisi ilə əlaqəli olduqda; belə hüquqi münasibətlərin obyekti sərhəddə yerləşən əşya olarsa. Xarici vətəndaşların, xarici hüquqi şəxslərin və qarışıq cəmiyyətlərin mülki-hüquqi vəziyyətlə bağlı məsələlər, mülkiyyət hüququ, öhdəçilik hüququ, müəlliflik və ixtiraçılıq hüququ, ailə və varislik hüququ, əmək münasibətləri və s. məsələlər beynəlxalq xüsusi

hüquq sahəsinə aiddir.

Beynəlxalq xüsusi hüququn münasibətlər dedikdə, beynəlxalq müqavilələr, daxili qanunvericilik, məhkəmə və arbitraj praktikası, beynəlxalq qaydalar nəzərdə tutulur.

Beynəlxalq xüsusi hüquqa bir çox normalar daxildir. Bir halda dövlətlər tərəfindən müqavilə qaydası ilə qəbul olunmuş norma özündə hüquq və vəzifələrini müəyyən edən qaydaları cəmləşdirir, başqa halda isə beynəlxalq xüsusi hüquq norması müəyyən bir məsələni müstəqil deyil, bu normaya istinad edən milli qanunvericilik normaları ilə birgə həll edir.

Beynəlxalq xüsusi hüquq məsələləri üzrə çoxtərəfli beynəlxalq müqavilələrin işlənməsində BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası, Beynəlxalq Xüsusi Huquq üzrə Haaqa Konfransı, Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı kimi beynəlxalq təşkilatların və orqanların mühüm rolu vardır.

**BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI (BİA)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşdırılmış qurumudur. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) filialı kimi 1960-cı ildə yaradılmışdır. BİA-nın 130-dan çox üzvü vardır. BİA-nın məqsədi güzəştli kredit verməklə inkişafda olan dövlətlərin iqtisadi inkişafına və həyat şəraitinin yüksəlməsinə kömək etməkdir. BİA-nın maliyyə resursları üzv dövlətlərin ödənişləri və başqa mənbələrlə formalaşır. Krediti alan hər bir dövlət BİA-nın təkliflərini yerinə yetirməli və onun qarşısında hesabat verməlidir. Təkcə 1983/84-cü illərdə BİA üzv ölkələrə 3 mlr. 575 mln ABŞ dolları həcmində 106 kredit vermişdir. BİA-nın rəhbəredici orqanı yoxdur. Bu funksiyanı BYİB-nin uyğun orqanları yerinə yetirir. BİA-nın mənzil - qərargahı Vaşinqtondadır.

**BEYNƏLXALQ KANALLAR** - Beynəlxalq gəmiçilik üçün süni yaradılmış su yollarıdır. Süveyş, Panama, Kil və Korinf kanalları beynəlxalq kanallar statusuna malikdirlər.

1. ***Süveyş kanalı*** - Gəmiçilik üçün 1854-69-cu illərdə tikilmişdir, Aralıq dənizi ilə Qırmızı dənizi birləşdirir. Atlantik və Hind okeanlarının dəniz limanları arasında ən qısa yoldur və böyük ticarət-nəqliyyat və strateji əhəmiyyətə malikdir. Kanalın ümumi uzunluğu 161 km, eni 120 m, dərinliyi isə 16,2 m-dir. 1956-cı ilə qədər Süveyş kanalını Böyük Britaniyanın və İngiltərənin maliyyə dairələrinin nəzarət altından olan Süveyş Dəniz Kanalı



şirkəti idarə edirdi. Süveyş kanalı haqqındakı 1888-ci il İstanbul konvensiyası kanalın həm sülh dövründə, həm də müharibə dövründə bütün gəmilərin üzməsi üçün azad zona olduğunu bildirirdi. 26.07.1956-cı ildə Misir prezidentinin Dekreti ilə kanal milliləşdirildi. Az sonra BMT-nin Təhlükəsizlik Şurası Misirin kanal üzərində suverenliyini qəbul etdi. 1956-cı ilin oktyabr ayında İsrail Misirə qarşı hərbi aktlara başladı. Bunun nəticəsində kanalın fəaliyyəti 1957-ci ilin aprelinə qədər dayandırıldı. 1967-ci ildə ərəb-İsrail müharibəsi nəticəsində kanaldan gəmiçilik üçün istifadə etmə dayandırıldı. 1980-ci ildə yenidənqurma işləri qurtardıqdan sonra kanal istifadəyə verildi. 1979-cu ildə Misir və İsrail arasında bağlanan sülh müqaviləsinə görə, İsrail hərbi və ticarət gəmiləri kanaldan istifadə etmək imkanı qazandı.

2. ***Panama kanalı*** - Şimali Amerika ilə Cənubi Amerikanın birləşdiyi yerdədir, Sakit okeanla Atlantik okeanı birləşdirir. 1914-cü ildə gəmiçilik üçün istifadəyə verilmişdir. Kanalın uzunluğu 65,2 km, eni - 91,5 m, minimal dərinliyi 12,6 m-dir. Kanaldan gəmiçilik üçün istifadə etmə rejimi uzun illər faktiki olaraq ABŞ tərəfindən nizamlanıb. 1977-ci ildən ABŞ ilə Panama dövləti arasında Kanalın status məsələsini nizamlayan 2 müqavilə imzalanmışdır. Müqaviləyə görə 31.12.1999-cu ilə qədər kanal mərhələ-mərhələ Panama dövlətinə veriləcəkdir. 31.12.1999-cu il tarixindən artıq kanal Panama dövlətinin suverenliyi altındadır.

3. ***Kil kanalı*** - Baltik və Şimal dənizlərini birləşdirən kanaldır. 1887-95-ci illərdə Almaniya tərəfindən tikilib, 1896-cı ildə gəmiçilik üçün istifadəyə verilib. Uzunluğu 98,7 km, eni 102 m, dərinliyi isə 11,3 m-dir.

Birinci Dünya müharibəsinə qədər Almaniya kanala öz daxili suları kimi baxırdı. 1919-cu il Versal sülh müqaviləsi kanalı Almaniya ilə sülh münasibətində olan bütün dövlətlərin hərbi və ticarət gəmiləri üçün açıq elan edərək, kanalın beynəlxalq-hüquqi rejimini müəyyən etdi. Lakin İkinci Dünya müharibəsinin başlanması ilə Almaniya kanaldan istifadə etməyi qadağan etdi. hal-hazırda kanal AFR hökumətinin qəbul etdiyi qərarla nizamlanır. belə ki, kanal bütün dövlətlərin ticarət gəmiləri üçün açıqdır. hərbi gəmilərin keçməsi üçün xüsusi qaydalar müəyyənləş-

dirilmişdir.

4. ***Korinf kanalı*** - Egey və Adriatik dənizlərini birləşdirən kanaldır. 1881-93-cü illərdə Korinf boğazından keçməklə qazılmışdır. 1893-cü ildən gəmiçilik üçün açıqdır. Uzunluğu - 6,3 km, dərinliyi 8 m, eni isə 24,6 m-dir. Kanalın hüquqi rejimi Yunanıstanın milli qanunvericiliyi ilə müəyyən olunur, belə ki, dünyanın bütün ticarət gəmiləri kanaldan sərbəst şəkildə istifadə edə bilərlər, hərbi gəmilər üçün isə xüsusi icazə qaydaları müəyyən olunmuşdur.

**BEYNƏLXALQ KONFRANSLAR** - Bu və ya digər məsələləri müzakirə etmək və qərarlar qəbul etmək üçün dövlət, beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin qurultayıdır. Beynəlxalq konfranslar müxtəlif cür adlanır (konfranslar, konqreslər, toplantılar, kollokviumlar, forumlar və s.).

Beynəlxalq konfranslar bir neçə dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən çağırılmaqla şərti olaraq hökumətlərarası və qeyri-hökumət, universal və regional kimi növlərə bölünürlər. Beynəlxalq konfransları adətən, konfransın keçirildiyi dövlətin nümayəndəsi və ya konfransı çağıran təşkilatın nümayəndəsi açır.

Konfransın keçirilmə qaydası, maliyyə məsələləri, işçi və rəsmi dillərin təyini, katibliyin işi və s. təşkilati məsələlər beynəlxalq konfransların özü tərəfindən həll olunur. Beynəlxalq konfransların qərarları ya səs çoxluğu ilə, ya da konsensus, akklamasiya və b. şəkildə qəbul olunur. Birləşmiş Millətlər Təşkilatı sistemi çərçivəsində çağırılan beynəlxalq konfranslar, adətən, BMT Baş Məclisinin prosedura qaydaları ilə keçirilir.

**BEYNƏLXALQ KONSESSİYA** - Dövlətin öz ərazisindən xarici şəxslərə konkret istehsal fəaliyyətini həyata keçirmək üçün verdiyi icazədir. Qeyd edək ki, konsessiya xüsusi (konsessional) müqaviləyə uyğun olaraq verilir.

Xarici hüquqi şəxsə konsessiyanın verilməsi onu verən dövlətlərin daxili qanunvericiliyi ilə nizamlanır.

**BEYNƏLXALQ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI** - BMT-nin İqtisadi və Sosial Şurasının 27.02.1950-ci il tarixli 288 (x) saylı qətnaməsinə görə "hökumətlərarası sazişlər əsasında yaranmayan istənilən beynəlxalq təşkilatlar" beynəlxalq qeyri-hökumət təşkilatı hesab olunur. Beynəlxalq Assosiasiyalar İttifaqı tərəfindən hazırlanmış qeyri-hökumət təşkilatları haqqında müqavilənin layihəsi beynəlxalq qeyri-hökumət təşkilatları anlayışını konkretləşdirir. Bu anlayışın əsas əlamətləri aşağıdakılardır: qazanc götürmək məqsədinin olmaması, heç olmasa bir dövlət tərəfindən tanınması və yaxud beynəlxalq hökumətlərarası təşkilatların yanında məsləhət statusuna malik olması; birdən çox ölkədən pul vəsaiti alması.

Beynəlxalq qeyri-hökumət təşkilatlarının üzvləri milli ictimai təşkilatlar (məsələn, Ümumdünya Həmkarlar İttifaqı Təşkilatı), ayrıca şəxslər (Paquoş hərəkatı Şurası), həmçinin şəhərlər (Ümumdünya Qardaşlaşmış şəhərlər Federasiyası), elmi müəssisələr (məs; Elmi İttifaqlarının Beynəlxalq Şurası) ola bilər. Hər hansı gizli cəmiyyətlər, qapalı klublar və s. beynəlxalq qeyri-hökumət təşkilatının üzvü ola bilməz.

Beynəlxalq qeyri-hökumət təşkilatları yarandıqda onun nizamnaməsi qəbul olunur. Belə ki, bu nizamnamə özünün hüquqi təbiəti etibarilə beynəlxalq müqavilələr hesab olunmur. Beynəlxalq qeyri-hökumət təşkilatı beynəlxalq hüququn subyekti deyildir, onlar milli hüququn subyektləridir. Bəzi dövlətlərdə (məs, Belçikada) beynəlxalq qeyri-hökumət təşkilatının fəaliyyət göstərdiyi ölkədə onun hüquqi vəziyyətini müəyyən edən xüsusi qanunlar mövcuddur. Başqa ölkələrdə isə bu məsələlər milli qeyri-hökumət təşkilatlarının hüquqi vəziyyəti haqqında ümumi qanunlarla nizamlanır.

Beynəlxalq qeyri-hökumət təşkilatlarının çox hissəsi beynəlxalq hökumətlərarası təşkilatlarla sıx əlaqə saxlayır. EKOSOS-da və BMT-nin bir çox ixtisaslaşmış qurumlarında beynəlxalq qeyri-hökumət təşkilatları məsləhətçi statusuna malik ola bilər. EKOSOS tərəfindən qəbul olunmuş, məsləhətləşmələr münasibətinin hüquqi qaydaya salınmasını özündə əks etdirən "qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr üzrə tədbirlər" adlı sənədlərə uyğun olaraq məsləhət statusunun iki kateqoriyası müəyyən olunmuşdur:

I kateqoriyaya ümumi *məsləhət* statusu; *II* kateqoriyaya xüsusi məsləhət statusu daxildir. I kateqoriyalı məsləhət statusu elə qeyri-hökumət təşkilatlarına verilir ki, bu təşkilatlar EKOSOS-un fəaliyyətinin müxtəlif formaları ilə əlaqədardır. II kateqoriyalı

məsləhət statusu o qeyri-hökumət təşkilatlarına verilir ki, bu təşkilatlar EKOSOS-un fəaliyyətinin yalnız ayrıca bir sahəsi ilə əlaqədardır.

Konstitusiya statusu olan qeyri-hökumət təşkilatları bir çox hüquq və vəzifələrə malikdirlər. Onlar EKOSOS-un gündəlikdə duran məsələləri ilə bağlı təkliflər verə bilər, yazılı bəyanat verə bilər, EKOSOS-un Şurasında şifahi bəyanatla çıxış edə bilər və s. I və ya II kateqoriya konstitusiya statusuna malik olan qeyri-hökumət təşkilatının vəzifəsi özünün fəaliyyəti haqqında məsləhət təşkilatı üzrə komitəyə qısa məlumat verməkdir. Məlumatda bu təşkilatın BMT-nin fəaliyyətini müdafiə etmək məqsədi ilə apardığı tədbirlər haqqında informasiyalar öz əksini tapmalıdır.

Məsləhət statusu BMT-nin 6 ixtisaslaşmış qurumuna verilir. (YUNESKO, MOT, VOZ, FAO, İKAO, İMO). Bu status özü də bir neçə kateqoriyaya bölünür. Bu statusu almaq şərtləri EKOSOS-da müəyyən olunan şərtlərlə analojidir.

**BEYNƏLXALQ QIRMIZI XAÇ (International Red Croze)** - Milli Qırmızı Xaç Təşkilatlarının (müsəlman ölkələrində Qırmızı Aypara, Qırmızı Aslan və Günəş), Beynəlxalq Qırmızı Xaç Komitəsinin və Qırmızı Xaç Cəmiyyətləri Liqasının birliyidir.

MQX-yə daxil olan təşkilatların əsas vəzifəsi hərbi münaqişələr zamanı yaralananlara, xəstələrə və hərbi əsirlərə yardım etmək, *təbii fəlakət qurbanlarına kömək etməkdir.*

Beynəlxalq Qırmızı Xaç Komitəsi 1863-cü ildə İsveçrənin ictimai xadimi A.Dyunanın təşəbbüsü ilə yaradılmışdır və 25 İsveçrə vətəndaşından ibarətdir. Komitə hərbi münaqişələr zamanı neytral vasitəçi rolunu oynayır.

Qırmızı Xaç Cəmiyyəti Liqası 1919-cu ildə yaradılmışdır. 135-dən çox milli cəmiyyəti birləşdirir və 250 milyondan çox insanı əhatə edir.

Nizamnaməyə *görə*, BQX-*nın ali orqanı* 4 *ildə bir dəfə* çağırılan konfransdır. Bu konfransda Milli Qırmızı Xaçın milli cəmiyyətləri, BQXK və QXCL, həmçinin müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu ildə Cenevrə Konvensiyasının iştirakçısı olan dövlətlərin hökumət nümayəndələri iştirak edirlər. Konfranslar arasındakı vaxtda BQX-nın fəaliyyətinə 9 nəfərdən (5 nəfəri konfrans seçir, 2 nəfər QXCL, 2 nəfəri isə BQXK təyin



edir) ibarət olan Daimi Komissiya rəhbərlik edir.

**BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASI (BMK)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşdırılmış qurumudur. 1956-cı ildə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) müdirlər Şurasının qərarı ilə yaradılmışdır. BMK-nın üzvü yalnız BYİB-in üzvləri ola bilər. BMK-nın rəsmi məqsədi inkişafda olan ölkələrin iqtisadi inkişafına dövlət təminatı olmadan xüsusi mülkiyyətin maliyyələşdirilməsi ilə nail olmaq, həmçinin istehsal sferasına xüsusi kapitalın axınına şərait yaratmaqdır. BMK-nın idarə edilməsi və səsvermə sistemi eynilə BYİB-nin sistemi kimidir. BMK-nın prezidenti və direktorları bankın uyğun vəzifəli şəxsləridir, BMK-nın müdirlər Şurasının üzvləri isə BYİB-nin müdirlər Şurasının o üzvləridir ki, onlar həmçinin BMK-ya daxildirlər. BMK-nın mənzil qərargahı - Vaşinqtondadır.

**BEYNƏLXALQ MƏHKƏMƏ** - Birləşmiş Millətlər Təşkilatının əsas orqanlarından biridir. Beynəlxalq məhkəmənin fəaliyyəti BMT-nin Nizamnaməsi, Beynəlxalq məhkəmənin statutu və reqlamenti ilə müəyyən olunur. Beynəlxalq məhkəmənin statutu BMT-nin Nizamnaməsinin ayrılmaz hissəsi olduğundan BMT-nin bütün üzvləri eyni zamanda Statutun iştirakçılarıdırlar. BMT-nin üzvü olmayan dövlətlər BMT Təhlükəsizlik Şurasının təqdimatı ilə BMT Baş Məclisində ayrıca halda müəyyən olunan şərtlər daxilində Beynəlxalq məhkəmənin statutunun üzvü ola bilərlər. İsveçrə, Lixteynşteyn və San-Marino statutun belə üzvlərindəndir.

Beynəlxalq məhkəmə 15 hakimdən ibarətdir. Bu hakimlər vətəndaşlıqlarından asılı olmayaraq şəxsi keyfiyyətlərinə görə seçilirlər, belə ki, məhkəmənin tərkibində eyni bir dövlətdən 2 vətəndaş seçilə bilməz.

Beynəlxalq məhkəmənin üzvləri beynəlxalq münaqişələrin sülh yolu ilə həlli haqqındakı Haaqa konvensiyasının iştirakçısı olan dövlətlərin namizədləri içərisindən 9 il müddətinə BMT Təhlükəsizlik Şurası və Baş Məclisi tərəfindən seçilirlər. Beynəlxalq məhkəmənin üzvlərinin 1/3-i hər üç ildən bir yeniləşir, Beynəlxalq məhkəmənin üzvləri ikinci müddətə seçilə bilərlər. Beynəlxalq məhkəmənin sədri və sədrin müavinləri 3 il müd-

dətinə seçilirlər (yenidən seçilmək hüququ ilə).

Beynəlxalq məhkəmənin əsas məsələsi dövlətlər arasındakı mübahisəli məsələləri beynəlxalq hüquq normaları əsasında həll etməkdir. Məhkəmə mübahisəyə yalnız mübahisə edən dövlətlərin razılığı ilə baxa bilər.

Beynəlxalq məhkəmədə iş mübahisə edən dövlətlər arasındakı razılığa uyğun olaraq notifikasiya ilə, yaxud tərəflərdən birinin yazılı müraciəti ilə qaldırılır. Beynəlxalq məhkəmənin qərarı iştirak edən hakimlərin səs çoxluğu ilə qəbul olunur. Qərar yalnız işdə iştirak edən tərəflər üçün məcburidir. Beynəlxalq məhkəmənin qərarı son qərardır və şikayət qəbul olunmur.

Dövlətlər arasındakı mübahisələrin həllindən başqa BMT Baş Məclisinin, Təhlükəsizlik Şurasının və BMT-nin başqa orqanlarının hüquqi məsələlərlə bağlı sorğularına məsləhət vermək səlahiyyətini BMT-nin Nizamnaməsi Beynəlxalq məhkəmənin üzərinə qoyur.

Beynəlxalq məhkəmənin rəsmi dili fransız və ingilis dilləridir, yerləşdiyi yer isə Haaqadır.

**BEYNƏLXALQ MÜBAHİSƏLƏR** - BMT Nizamnaməsində aşağıdakı beynəlxalq mübahisələr fərqləndirilir: beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına təhlükə yaradan beynəlxalq mübahisələr, hüquqi xarakterli beynəlxalq mübahisələr və qalan mübahisələr. Birinci növ mübahisələrə dair BMT-nin Təhlükəsizlik Şurasına xüsusi hüquqlar verilmişdir: o, bu cür mübahisənin hər birini həll etməyə (BMT Nizamnaməsi, m. 34), lazımi proseduranı və yaxud nizamlama metodlarını tövsiyə etməyə, mübahisənin həll edilməsi şərtlərini tövsiyə etməyə (BMT Nizamnaməsi, m. 37) haqlıdır. Hüquqi xarakterli beynəlxalq mübahisələr bir qayda olaraq, BMT-nin beynəlxalq məhkəməsinə verilməlidir (BMT Nizamnaməsi, m. 36).

BMT-nin beynəlxalq məhkəməsinin Statutuna əsasən (m. 36) hüquqi mübahisələrə ilk növbədə aşağıdakılar aiddir: müqavilənin təfsirinə dair beynəlxalq mübahisələr, hər hansı beynəlxalq hüquq məsələsinə dair öhdəliyin pozulması faktına dair beynəlxalq mübahisələr; beynəlxalq öhdəliyin pozulması faktına dair beynəlxalq mübahisələr; beynəlxalq öhdəliyin pozulmasına görə



ödəmələrə dair beynəlxalq mübahisələr.

BMT Nizamnaməsi habelə "yerli mübahisələrin" (m. 52), yəni müvafiq coğrafi regionda yerləşən dövlətlər arasındakı mübahisələrin həll edilməsini nəzərdə tutur. Bu mübahisələr onların bilavasitə iştirakçıları tərəfindən, yaxud məhəlli sazişlər və orqanlar vasitəsilə həll olunmalıdır.

Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi beynəlxalq münasibətlərin əsas prinsiplərindəndir və bir çox beynəlxalq aktda möhkəmləndirilmişdir. BMT Nizamnaməsində (m. 33) Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi vasitələrinin siyahısı göstərilmişdir: danışıqlar, vasitəçilik, barışıq, arbitraj, məhkəmə baxışı, məhəlli orqanlara, yaxud məhəlli sazişlərə və ya tərəflərin seçdiyi dinc vasitələrə müraciət.

**BEYNƏLXALQ MÜBAHİSƏLƏRİN SÜLH YOLU İLƏ HƏLLİ** - Beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Bu prinsiplərə görə dövlətlər arasındakı mübahisələr istənilən formalı sülh yolu ilə həll olunmalıdır.

Sülh yolu ilə həlli prinsipinin öz əksini tapdığı ilk çoxtərəfli müqavilələrdən biri də 1928-ci il Paris Paktıdır (milli siyasət vasitəsi olan müharibədən imtina haqqında müqavilə). Bu pakta görə dövlətlər arasındakı mübahisələr və münaqişələr yalnız dinc vasitələrlə həll olunmalıdır və yaxud nizama salınmalıdır.

İkinci Dünya müharibəsindən sonra Sülh yolu ilə həll prinsipi bir çox əsas beynəlxalq sənədlərdə - BMT-nin Nizamnaməsində, BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasındakı əməkdaşlığa və dostluq münasibətlərinə aid olan beynəlxalq hüquq prinsipləri haqqındakı 1970-ci il Bəyannaməsində, ATƏM-in Yekun Aktında (1975-ci il) və s. möhkəmləndi.

Sülh yolu ilə həll prinsipi BMT BM-in 37-ci sessiyasında qəbul olunmuş "BMT-nin beynəlxalq mübahisələrin sülh yolu ilə həlli haqqında 1982-ci il bəyannaməsi"ndə daha da inkişaf etdirilmiş və konkretləşdirilmişdir.

**BEYNƏLXALQ MÜQAVİLƏLƏR** - Beynəlxalq hüququn iki və ya daha çox subyekti arasında bağlanan, onların arasındakı siyasi, iqtisadi, elmi-texniki, mədəni və başqa sahələrdəki münasibətləri nizamlayan müqavilədir. Beynəlxalq müqavilələr beynəlxalq hüququn mənbələri hesab olunur və onlar müxtəlif adlara

malikdirlər (saziş, bəyannamə, pakt, protokol, konvensiya və s.). Beynəlxalq müqavilələrin əksəriyyəti dövlətlər arasında bağlanır. Beynəlxalq praktikada beynəlxalq müqavilənin başqa formasına da rast gəlinir (məs., dövlətlə beynəlxalq hökumətlərarası təşkilatların arasında bağlanan müqavilə).

İştirakçıların sayından asılı olaraq ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr olur. Sonunculara ümumi və yaxud universal müqavilələr aiddir. Həmin müqavilələrdə bütün ictimai və siyasi sistemləri müxtəlif olan bütün dövlətlər iştirak edə bilər (məs., nüvə silahı sınağının qadağan edilməsi haqqında müqavilələr, dəniz konvensiyaları, diplomatik konvensiyalar, konsul konvensiyaları və s.).

Məzmununa görə siyasi beynəlxalq müqavilələr (dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında, hücum etməmək haqqında, bitərəflik haqqında, dövlət sərhədləri haqqında, sülh müqavilələri və s.), iqtisadi beynəlxalq müqavilələr (ticarət haqqında, iqtisadi və texniki yardım haqqında, borc-kredit haqqında müqavilələr və s.) və xüsusi məsələlər üzrə beynəlxalq müqavilələr (rabitə, nəqliyyat, səhiyyə, maarif, elm və mədəniyyət, hüquqi yardım, konsul məsələləri sahəsində müqavilələr və s.) olur.

Beynəlxalq müqavilələrin adı və forması müxtəlif ola bilər: müqavilə, saziş, konvensiya, pakt, nizamnamə, statut, protokol, məktublarla və ya notalarla mübadilə və s.

Beynəlxalq müqavilələrin etibarlı olması şərtləri bunlardır: müqavilənin beynəlxalq hüquq subyektləri arasında bağlanması və həmin sazişin könüllülük və hüquq bərabərliyinə əsaslanması, beynəlxalq müqavilələrin məzmununun beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olması (zorakılıqla bağlanmış, təcavüzkar, qeyri-bərabər beynəlxalq müqavilələr etibarsızdır).

Beynəlxalq müqavilə əgər beynəlxalq hüququ inkar edirsə, məsələn, dövlətin suveren bərabərliyi prinsipini pozursa, müqavilə dövlət nümayəndəsinin aldadılması və yaxud ələ alınması nəticəsində bağlanırsa və s. onda müqavilə etibarsız hesab olunur.

Müəyyən müddətə bağlanan beynəlxalq müqavilələr (məs., dostluq, əməkdaşlıq, qarşılıqlı yardım, bitərəflik haqqında müqavilələr) və müddətsiz beynəlxalq müqavilələr (məs., sülh müqavilələri, beynəlxalq təşkilatların nizamnamələri) olur. Müqavilə müddəti bitdikdən sonra tərəflərin razılığı ilə uzadılmamışsa, xitam edilir, yəni məcburi qüvvəsini itirir. Beynəlxalq müqavilələr müddət bitmədikdə də tərəflərin razılığı ilə, habelə denonsasiya yolu ilə, müstəsna hallarda müqavilədən birtərəfli qaydada imtina etməklə (ləğvetmə yolu ilə) xitam edilə bilər.

Beynəlxalq müqavilənin bağlanması qaydası, tətbiqi və denonsasiyası, beynəlxalq müqavilə hüququ ilə nizamlanır. Beynəlxalq müqavilə hüququ haqqında 1969-cu il Vyana konvensiyası və müqavilələrə münasibətdə dövlətin hüquqi varisliyi haqqında 1978-ci il Vyana konvensiyası beynəlxalq müqavilələrə həsr olunmuşdur.

**BEYNƏLXALQ MÜQAVİLƏLƏR HÜQUQU** - Beynəlxalq müqavilələrin bağlanması, işlənməsi və fəaliyyətinin dayandırılmasına aid olan beynəlxalq - hüquqi norma və prinsiplərin sistemidir. Beynəlxalq müqavilələr hüququna həmçinin dövlətlərin və beynəlxalq hüququn başqa subyektlərinin beynəlxalq müqavilələrə münasibətdə hüquqi varisliyinin nizama salınması məsələsi də aiddir.

Beynəlxalq müqavilələr hüququnun mənbəsi beynəlxalq adətlərdir. Beynəlxalq müqavilələr hüququ normalarının çoxu beynəlxalq müqavilələr hüququ haqqındakı 1969-cu il Vyana konvensiyasında, həmçinin müqavilələrə münasibətdə dövlətlərin hüquqi varisliyi haqqında 1978-ci il Vyana Konvensiyasında əks olunmuşdur.

**BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATI (BMAT)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. BMT-nin ixtisaslaşmış qurumudur. BMAT 1944-cü ildə Beynəlxalq mülki aviasiya haqqında Çikaqo konfransında yaradılmışdır. Çikaqo konvensiyasının iştirakçısı olan 150-dən çox dövlət eyni zamanda BMAT-ın da üzvüdür.

BMAT-ın məqsədi beynəlxalq mülki aviasiyanın inkişafına imkan yaratmaqdır, yəni hava nəqliyyatının təhlükəsizliyi, requlyar və qənaətli istismarını təmin etməkdir.

BMAT-ın ali orqanı 3 ildə bir dəfə çağırılan Məclisdir. Daimi

xalq məsələlərin həllində beynəlxalq əməkdaşlığı və s. Nəzərdə tutur. BMT-nin Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülhü və təhlükəsizliyi müdafiə etmək üçün BMT-nin Təhlükəsizlik Şurası yaradılmışdır. 1970-ci ildə BMT-nin Baş Məclisinin 25-ci sessiyasında beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Deklarasiya qəbul olunmuşdur. Həmin dövrün başlanğıcında BMT-nin hər sessiyasında deklarasiyanın yerinə yetirilməsi məsələsinə baxılır. Beynəlxalq təhlükəsizliyin qorunması və möhkəmləndirilməsini bunlara qoşulmuş dövlətlər və bir çox regional təşkilatlar özlərinin mühüm məsələsi hesab edirlər. Regional və ya dünya miqyasındakı dövlətlərin birgə səyi ilə təmin olunan beynəlxalq təhlükəsizliyin kollektiv təhlükəsizlik adlandırılması qəbul olunmuşdur.

**BEYNƏLXALQ TƏMİNAT** - Beynəlxalq huquq normalarına riayət edilməsini və beynəlxalq vəzifələrin həll edilməsini təmin edən üsullardan biridir. Beynəlxalq təminatın geniş yayılmış forması təminat müqavilələridir.

Beynəlxalq təminat kollektiv (bir çox dövlətlərin tərəfindən) və ya birtərəfli olur. Sadə səs çoxluğu ilə qəbul olunur.

**BEYNƏLXALQ TƏŞKİLATLARIN İMMUNİTET VƏ İMTİYAZLARI** - Beynəlxalq hökumətlərarası təşkilata, onların heyətinə, həmçinin bu təşkilatdakı üzv dövlətlərin nümayəndəliklərinə və onların əməkdaşlarına fəaliyyət göstərdikləri ölkələr tərəfindən verilmiş xüsusi hüquq və imtiyazlardır.

Beynəlxalq təşkilatı təsis edən müqavilədə (nizamnamədə, konvensiyada, statutda və s), qaydaya görə, bu təşkilatın immunitet və imtiyaza malik olması haqqında müddəalar əks olunur. Bu müddəalar əsasında üzv dövlətlər birlikdə immunitet və imtiyazları müəyyən edən çoxtərəfli müqaviləni hazırlayırlar. Belə ki, BMT-nin Nizamnaməsinin 104 və 105-ci maddələrində göstərilir ki, BMT özünün üzvü olan hər bir dövlətin ərazisində öz funksiyalarını yerinə yetirmək və məqsədinə çatmaq üçün zəruri olan səlahiyyətdən istifadə edir. 1946-cı ildə Birləşmiş Millətlər Təşkilatının immuniteti və imtiyazları haqqında konvensiya qəbul olunmuşdur. Bu konvensiyada üzv dövlətlərin təşkilatdakı nümayəndəliklərinin, BMT-nin vəzifəli şəxslərinin, həmçinin BMT-nin

tapşırıqlarını yerinə yetirən ekspertlərin immunitet və imtiyazları müəyyən edilmişdir.

1975-ci ildə universal xarakterli beynəlxalq təşkilatlarla münasibətdə dövlətlərin nümayəndəliyi haqqında Vyana konvensiyası qəbul olunmuşdur.

İmmunitetlər və imtiyazlar beynəlxalq təşkilatlarla onun fəaliyyət göstərdiyi ölkə arasında ikitərəfli müqavilələrlə də müəyyən oluna bilər. Məsələn, BMT-nin mərkəzi orqanlarının yerləşdirilməsi ilə bağlı ABŞ hökuməti ilə BMT arasında bağlanmış 1947-ci il müqaviləsi, BMT-nin Baş Katibi ilə İsveçrə Federal Şurası arasında BMT-nin immunitet və imtiyazları haqqında 1946-cı il müvəqqəti sazişinin, Beynəlxalq Mülki Aviasiya Təşkilatının mənzil-qərargahı haqqında bu təşkilatla Kanada dövləti arasında bağlanmış 1951-ci il müqaviləsi və s.

Qəbul edilən dövlətin ərazisindəki ikitərəfli müqavilə ilə müəyyən olunmuş immunitet və imtiyazların həcmi bəzən təşkilatın üzv dövlətlərinin ərazisindəki malik olduğu immunitet və imtiyazlardan fərqlənir. Məsələn, BMT və ABŞ arasındakı 1947-ci il müqaviləsində nəzərdə tutulan imunitetlər və imtiyazlar BMT-nin immunitet və imtiyazları haqqındakı 1946-cı il Konvensiyasında nəzərdə tutulandan azdır.

İmmunitetlər və imtiyazlar ikitərəfli və çoxtərəfli müqavilələrdə beynəlxalq təşkilata hüquqi şəxs statusu verir; onların mənzilləri, əmlakı, arxivləri və sənədləri və s. toxunulmazlıq hüququna malikdir. Bu təşkilatların əməkdaşları funksional immunitet və imtiyazlardan istifadə edirlər (yəni xidməti vəzifələrini yerinə yetirərkən). Funksional immunitet və imtiyazlar xüsusi halda həbs edilmə və saxlanmadan, məhkəmə cavabdehliyindən, maaşdan vergi verilməsindən azad edilməsi, şəxsi sənədlərin toxunulmazlığı, gömrük xidməti, fəaliyyət göstərdiyi ölkədə dövlət mükəlləfiyyətindən azad olunma və s. immunitetləri nəzərdə tutur.

Beynəlxalq təşkilatların rəhbər işçiləri, adətən, böyük həcmdə immunitet və imtiyazlardan (yəni diplomatik immunitet və imtiyazlara yaxın) istifədə edirlər.

**BEYNƏLXALQ TİCARƏT MƏRKƏZLƏRİ ASSOSİASIYASI (BTMA)** - 1968-ci ildə dövlətlərarası ticarət-iqtisadi əlaqələrin inkişıfına kömək məqsədilə yaradılmış qeyri-hökumət təşkilatıdır. Təşkilatın 44 ölkədən 100-dən çox üzvü vardır.

**BEYNƏLXALQ TİCARƏT PALATASI (BTP)** - Beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1919-cu ildə keçirilmiş Beynəlxalq Ticarət Konfransının qərarı ilə 1920-ci ildə Parisdə yaradılmışdır. 100-dən artıq ölkənin işgüzar dairələrinin nümayəndələrini özündə birləşdirir. BTP-nin rəhbər orqanı Şura və 2 ildə bir dəfə toplaşan Konqresdir. BTP-nin mənzil-qərargahı Parisdə, şöbələri isə Nyu-York, Cenevrə və Banqkokdadır.

BTP bir çox iqtisadi təşkilatlarla daim əlaqə saxlayır.

BTP-nin fəaliyyəti inkişafda olan ölkələrin xarici kapital qoyuluşu üçün münbit şərait yaratmaqdan ibarətdir.

**BEYNƏLXALQ VALYUTA FONDU (BVF)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşmış qurumudur. BMT-nin 1944-cü il Bretton-Vud konfransının qərarı ilə 1945-ci ildə yaradılmışdır. BVF-nin 150-dən çox üzvü vardır.

BVF-nin əsas məqsədi beynəlxalq valyuta əməkdaşlığına və beynəlxalq ticarətə kömək etməkdir. Fondun fəaliyyəti bu sahədə bağlanmış müqavilələrə riayət edilməsinə nəzarətlə həyata keçirilir. BVF-nin vəsaiti üzv dövlətlərin ödəmələri hesabına formalaşır və 100 milyarda yaxın ABŞ dolları qədərdir. Üzv dövlətlərin BVF-nin kapitalında kvotası əhalinin istifadəsi üçün milli ərzaq, xarici ticarətin həcmi və başqa iqtisadi göstəricilərlə hesablanır və hər bir iştirakçının səsinin sayını müəyyən edir.

BVF-nin ali orqanı olan Müdirlər Şurası ildə bir dəfə toplanır. BVF-nin daimi orqanı İcraedici direktorlar Şurasıdır. BVF-də qərarlar müəyyən olunmuş (hər bir dövlətin qoyduğu maliyyə kapitalına uyğun səs malikdir) qaydada səsvermə ilə qəbul olunur.

BVF-nin mənzil-qərargahı Vaşinqtondadır.

**BEYNƏLXALQ YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI (BYİB)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşmış qurumudur. Birləşmiş Millətlərin 1944-cü il Bretton-Vud konfransının qərarı ilə 1945-ci ildə yaradılmışdır. BYİB, Beynəlxalq İnkişaf Assosiasiyası və Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə birlikdə Dünya Bankı adlanan qrup əmələ

gətirirlər.

BYİB-in üzvləri yalnız Beynəlxalq Valyuta Fondunun iştirakçıları ola bilərlər. Hal-hazırda BYİB-in 150-dən çox üzvü vardır. Bankın məqsədi iqtisadiyyatın yenidənqurulması və inkişafında iştirakçı dövlətlərə maliyyə yardımı və texniki kömək göstərməkdir. Bankın maliyyə vəsaiti (nizamnamə kapitalı) 60 mlrd. ABŞ dollarından çoxdur. BYİB-in ali orqanı olan Müdirlər Şurasının ildə bir dəfə beynəlxalq Valyuta Fondunun Müdirlər Şurası ilə birgə toplantısı keçirilir. Operativ fəaliyyəti isə başda BYİB-in prezidenti olan direktorluq həyata keçirir.

BYİB-dəki səslərin sayı banka qoyulan vəsaitə uyğun olaraq mütənasib şəkildə müəyyən olunur.

Bankın mənzil-qərargahı Vaşinqtondadır, 37 ölkədə isə şöbələri vardır.

**BEYNƏLXALQ ZONA** - Ərazidir, belə ki, bu ərazidə maraqlı olan tərəflər ona münasibətdə xüsusi beynəlxalq idarəçilik (demilitarizasiya və ya neytralizasiya) rejimi müəyyən etmişlər.

**BƏHREYN** - İran körfəzində yerləşən ada dövlətidir. Ərazisinin ümumi sahəsi 676 kv.km, əhalisinin sayı 575 925 nəfərdir (1995). Rəsmi dövlət dili ərəb dilidir.

Dövlətin tam adı Bəhreyn dövlətidir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Manamadır. Bəhreyn 15 avqust 1971-ci ildə Böyük Britaniyadan müstəqilliyini almışdır. Konstitusiya 6 dekabr 1973-cü ildən fəaliyyət göstərir. Qanunvericilik islam qanunlarına, həmçinin ingilis mülki hüquq sisteminə əsaslanır. Milli bayram 6 dekabr müstəqillik günüdür. Dövlət başçısı Əmirdir, hakimiyyət nəsildən-nəslə verilmək hüququ ilə keçir. İcraedici orqan Nazirlər Kabinetinə rəhbərlik edən baş nazirə məxsusdur. Parlament 26 avqust 1975-ci ildə buraxılmışdır, qanunvericilik səlahiyyətləri isə Nazirlər Kabinetinə verilmişdir. Siyasi partiyaların fəaliyyəti ölkədə qadağan edilmişdir.

**BƏYANNAMƏ** (lat. declaratio) - Dövlətlərin özünün daxili və xarici siyasətinin prinsiplərini və yaxud konkret məsələdə özünün mövqeyini bildirmək üçün verdikləri birtərəfli, ikitərəfli və çoxtərəfli bəyanatdır. İkitərəfli və çoxtərəfli bəyannamələr cox hallarda imzalanır, lakin iştirakçıların razılığı ilə imzalanmamış



da qəbul oluna bilər.

Praktikada dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin, başqa rəsmi dövlət xadimlərinin beynəlxalq təşkilatlar çərçivəsində birgə bəyannamə ilə çıxış etmək təcrübəsi vardır. Dövlət və hökumətin tanınması bəyannamə formasında həyata keçirilə bilər. Praktikada bəyannamə formasında beynəlxalq müqavilələrin bağlanmasına da rast gəlinir.

**BİNATRİD** - (bax. İkili vətəndaşlıq).

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ** - Ərəbistan yarımadasında yerləşən yeddi ərəb dövlətinin federasiyasıdır. Ərazisinin sahəsi 83.600 kv.km, əhalisinin sayı 2.500.000 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). Dövlət quruluşu xüsusi mərkəzi hökumət səlahiyyətləri olan əmirliklərin federasiyasıdır. Federasiyaya 7 ərəb əmirliyi daxildir: Abu-Dabi, Əcman, Dubay, Ras-əl Xeymə, Um-əl-Kayvayn, Şarcə, əl-Fuceyrə. Ölkənin paytaxtı Abu-Dabi şəhəridir. BƏƏ müstəqilliyini 2 dekabr 1971-ci ildə Böyük Britaniyadan əldə etmişdir. Həmin gün Federasiyanın təşkil olunduğu gün kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı, şeyx Zaid ibn Sultan ən-Nuhəyyan 2 dekabr 1971-ci ildən hakimiyyətdədir) və Ali Hökmdarlar Şurasına məxsusdur. Qanunverici orqan birpalatalı Federal Milli Şuradır.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI** - *Beynəlxalq təşkilatdır*, başlıca vəzifəsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və möhkəmləndirilməsi, dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsidir. BMT-nin fəaliyyətinin əsas prinsipləri hələ 2-ci dünya müharibəsi (1939-45-ci illər) zamanı antihitler koalisiyasının əsas iştirakçıları tərəfindən işlənib hazırlanmışdı. Möhkəm və ədalətli sülhün təmin edilməsi üçün demokratik qüvvələrin birliyinə əsaslanan yeni beynəlxalq təşkilatın yaradılması məsələlərinə ABŞ və Böyük Britaniyanın xarici işlər nazirlərinin Moskva müşavirəsində (1943-cü il) baxılmışdı. BMT Nizamnaməsinin layihəsi ilk dəfə Dumbarton-Oks konfransında (ABŞ) 1944-cü ildə (avq.-okt.) işlənib hazırlanmışdı. 1945-ci il Krım konfransında Dumbarton-Oks konfransında işlənib hazırlanmış

təkliflər hamılıqla bəyənilmiş, habelə San-Fransisko (1945-ci il 26 iyun) konfransında işlənib hazırlanmış və imzalanmış BMT Nizamnaməsinin mühüm məsələləri həll edilmişdi. San-Fransisko konfransının işində 50 dövlət iştirak etmişdi ki, onlar da BMT-nin təsisatçı üzvləri (ilk üzvləri) sayılır. BMT Nizamnaməsinin qüvvəyə minməsi günü - 1945-ci il oktyabrın 24-ü hər il Birləşmiş Millətlər Təşkilatı günü kimi qeyd edilir.

BMT-yə üzvləri BMT Təhlükəsizlik Şurasının tövsiyəsilə Baş Məclis qəbul edir. 1 yanvar 1998-ci ilin məlumatına görə, artıq BMT-nin 185-üzvü vardır. Bir sıra dövlətlər, beynəlxalq milli azadlıq təşkilatları BMT-də müşahidəçi statusuna malikdir. İngilis, ispan, çin, rus və fransız dilləri BMT-nin rəsmi dilləridir.

BMT-nin mərkəzi idarələri Nyu-Yorkdadır, Cenevrədə və Vyanada şöbələri vardır. Onun baş orqanları bunlardır: Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Beynəlxalq məhkəmə, Qəyyumluq Şurası, Katiblik. Köməkçi orqanlar Baş Məclisin, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın qərarı ilə yaradılır.

BMT-nin üzvləri aşağıdakı prinsiplərə uyğun olaraq fəaliyyət göstərməlidir: dövlətlərin suveren bərabərliyi, Nizamnaməyə görə qəbul olunmuş vəzifələrin vicdanla yerinə yetirilməsi, beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükədə qoymamaq üçün beynəlxalq mübahisələri dinc vasitələrlə həll etmək, beynəlxalq münasibətlərdə istənilən dövlətlərin siyasi müstəqilliyinə və ya ərazi toxunulmazlığına qarşı güc tətbiq edilməsindən imtina etmək; BMT hansısa dövlətə qarşı qabaqcadan tədbir görmək və icbari xarakterli fəaliyyət göstərərsə, həmin dövlətə hansısa kömək göstərilməsindən imtina etmək, BMT-nin üzvü olmayan dövlətlərin beynəlxalq sülhün və təhlükəsizliyin müdafiəsi üçün zəruri olan bu prinsiplərə uyğun fəaliyyət göstərmələri üçün BMT-ni şəraitlə təmin olunmasına çağırılır. BMT heç bir dövlətin daxili işlərinə qarışmır.

Azərbaycan Respublikası 1992-ci ilin martın 2-də BMT-yə qəbul olunmuşdur.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ** - Birləşmiş Millətlər Təşkilatına rəhbərlik edən şəxsdir. O, BMT-nin Nizamnaməsinə uyğun olaraq, BMT-nin katibliyinin bölmələrinə ümumi göstərişlər verir, Təşkilatın fəaliyyətini nizamlayır və BMT-nin əsas orqanlarına daxil olan funksiyaları yerinə yetirir. Baş Katib özünün fikrincə beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada biləcək istənilən məsələ barəsində Təhlükəsizlik Şurasının qarşısında məsələ qaldırmaq hüququna malikdir. O, BMT-nin gördüyü işlər barədə Baş Məclisdə illik hesabatla çıxış edir. Baş katib Təhlükəsizlik Şurasının təqdimatı ilə Baş Məclis tərəfindən təkrar seçilmək hüququ ilə 5 il müddətinə seçilir.

Baş katib vəzifələrini tutan şəxslər:

Truqve Li (İsveç) - fevral 1946 - aprel 1953;
D. Hamerşald (İsveç) - aprel -1953 - sentyabr 1961;
U. Tan (Birma) - noyabr 1961 - noyabr 1971;
K. Vahhayt (Avstriya) - dekabr 1971- dekabr 1981;
X. Pres de Kuelyar (Peru) - dekabr 1981 - dekabr 1991;
Butros Butros Qali (Misir) - dekabr 1991 - dekabr 1996;
Kofi Annan (Qana) - 1996-cı ilin dekabrında seçilmişdir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ MƏCLİSİ** - BMT Baş məclisi BMT-nin funksiyalarının və səlahiyyətinin mühüm hissəsini həyata keçirir, o, BMT-nin digər baş orqanlarının yaranmasında iştirak edir.

Baş Məclis BMT-nin bütün üzvlərindən ibarətdir. O, BMT-nin yeganə orqanıdır ki, orada bütün üzv dövlətlər təmsil olunmuşdur. Həm də onlardan hər birinin nümayəndəsi (beşdən çox olmamaqla), nümayəndələrin müavinləri (beşdən çox olmamaqla), zəruri sayda müşavirləri və ekspertləri var. BMT üzvü olan bütün dövlətlər hüquq bərabərliyinə malikdir, onların hər birinin bir səsi var. İclas salonunda nümayəndələr əlifba qaydasında (dövlətlərin ingilis dilində rəsmi adlarına müvafiq) yerləşir. Baş Məclisin BMT Nizamnaməsi çərçivəsində istənilən məsələləri və işləri müzakirə etmək səlahiyyəti var. Hər bir dövlət Təhlükəsizlik Şurası tərəfindən qarşıya qoyulmuş məsələləri müzakirə etmək və BMT üzvlərinə və Təhlükəsizlik Şurasına müvafiq tövsiyələr vermək səlahiyyətinə malikdir.

Baş Məclis Təhlükəsizlik Şurasında baxılan mübahisə, yaxud vəziyyət barəsində tövsiyələr verə bilməz (sonuncu ona

müraciət etməsə). Hərbi, yaxud, qeyri-hərbi xarakterli hərəkətlər görülməsinə ehtiyac olarsa, Baş Məclis bu məsələni Təhlükəsizlik Şurasına verir ki, o da Nizamnaməyə görə Beynəlxalq sülhü pozanlar barəsində qeyri-hərbi və hərbi sanksiyalar tətbiq etmək səlahiyyətinə malik olan yeganə orqandır.

Baş Məclis Təhlükəsizlik Şurasının daimi olmayan üzvlərini (daim üzvlər Nizamnamənin 23-cü maddəsində göstərilmişdir) İqtisadi və Sosial Şuranın üzvlərini seçir. Beynəlxalq məhkəmənin seçilməsində (Təhlükəsizlik Şurası ilə birlikdə) iştirak edir. Təhlükəsizlik Şurasının tövsiyəsi ilə BMT Baş katibini təyin edir: Təhlükəsizlik Şurasının, habelə BMT-nin digər orqanlarının illik və xüsusi mə'ruzələrini nəzərdən keçirir, BMT büdcəsini nəzərdən keçirir və təsdiq edir.

Baş Məclisin mühüm məsələlər üzrə qərarları iştirakçıların və səsvermədə iştirak edən Baş Məclis üzvlərinin üçdə ikisinin səs çoxluğu ilə qəbul edilir (bu məsələlərin siyahısı Nizamnamənin 18-ci maddəsində göstərilmişdir). Digər məsələlər üzrə, xüsusilə prosedura məsələləri üzrə qərarlar adi səs çoxluğu ilə qəbul edilir. Qərarlar BMT üzvlərinin heç olmasa yarısının Baş Məclisdə iştirakı ilə qəbul edilir. Baş Məclis növbəti illik sessiyalarına (bir qayda olaraq sentyabrın üçüncü çərşənbə axşamı açılır). habelə xüsusi və fövqəladə (1950 ildən) sessiyalarına toplaşır. Baş Məclisin yeddi baş komitəsi var: Birinci komitə (siyasi məsələlər və təhlükəsizlik məsələsi, tərki-silah daxil olmaqla). Xüsusi siyasi komitə (birinci komitədə olan məsələlər). İkinci komitə (iqtisadiyyat və maliyyə məsələləri). Üçüncü komitə (sosial. humanitar və mədəniyyət məsələləri). Dördüncü komitə qəyyumluq və özü idarə olunmayan ərazilər məsələləri). Beşinci komitə (inzibati məsələlər və büdcə məsələləri). Altıncı komitə (hüquqi məsələlər). BMT-nin hər üzvü baş komitələrin hər birində bir şəxslə təmsil oluna bilər.

Baş məclisin iki daimi komitəsi vardır: inzibati və büdcə məsələləri üzrə Məşvərət komitəsi və üzvlük haqları üzrə Komitə. Onları Baş Məclis üç il müddətinə seçir. Baş Məclisin digər köməkçi orqanları da (daimi və müvəqqəti komitələr) var. Bas Məclis tövsiyə xarakterli qətnamələr qəbul edir.



**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ MƏCLİSİNİN XÜSUSİ VƏ FÖVQƏLADƏ XÜSUSİ SESSİYASI** - BMT Baş Məclisinin fəaliyyət formalarından biridir. BMT Nizamnaməsinin 20-ci maddəsində göstərilir ki, BMT-nin Baş Məclisi illik növbəti sessiyalara və zərurət yaranarsa, xüsusi sessiyalara yığışa bilər.

Xüsusi sessiyalar və fövqəladə xüsusi sessiyalar Baş Məclis tərəfindən, həmçinin BMT-nin Təhlükəsizlik Şurasının və ya Təşkilatın üzvlərinin tələbi ilə çağırıla bilər. Fövqəladə xüsusi sessiyalar Baş Katib tərəfindən Təhlükəsizlik Şurasından tələb alındıqdan sonra (Şuranın istənilən 9 üzvünün səs verdiyi halda) 24 saat ərzində və ya BMT-nin üzvlərinin çoxluğunun tələbi ilə çağırılır. Təşkilatın istənilən üzvü Baş Katibdən xüsusi sessiyanın və ya fövqəladə xüsusi sessiyanın çağırılmasını tələb edə bilər. Qeyd edək ki, Baş Məclisin ilk xüsusi sessiyası 1947-ci ildə Fələstin problemi ilə bağlı çağırılmışdır.

1990-cı ilin sentyabrın 1-dək BMT BM-nin 3 növbəti, 12 xüsusi və 9 fövqəladə sessiyası olmuşdur.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ DƏNİZ HÜQUQU KONVENSİYASI** - BMT-nin dəniz hüquqlarına aid 3-cü konfransında işlənib hazırlanmış, 10.12.82-ci ildə Monteqo-Beydə (Yamayka) 150-dən çox dövlətlər tərəfindən imzalanmışdır.

Konvensiya xüsusi halda, ərazi sularının və kontinental şelfin rejimini və xarici sərhədlərini müəyyən edir, beynəlxalq gəmiçilik üçün istifadə edilən gəmilərin körfəzlərdən maneəsiz keçməsi qaydalarını müəyyən edir, arxipelaq sularında dənizçiliyin rejim və qaydalarını nəzərdə tutur.

Konvensiya mübahisələrin sülh şəratində yoluna qoyulmasını, dəniz hüququ üzrə Beynəlxalq tribunalın yaradılmasını nəzərdə tutur.

**BİRLƏŞMİŞ MİLLƏTLƏRİN ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATI (UNESCO)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşmış qurumudur. 1945-ci ilin noyabr ayında Londonda 44 ölkənin nümayəndəliyinin konfransında təsis edilib. Təşkilatın nizamnaməsi 04.11.1946-cı ildə qüvvəyə minib. 1946-cı ilin dekabr ayından UNESCO BMT-nin ixtisaslaşmış qurumudur. UNESCO-nun hal-hazırda 180-dən çox üzvü var.

Mənzil - qərargahı Parisdə (Fransada) yerləşir.

UNESCO-nun qarşısına qoyduğu əsas məsələ elm, təhsil, mədəniyyət və informasiya sahəsində xalqlar arasındakı əməkdaşlığı inkişaf etdirməklə beynəlxalq sülhü və təhlükəsizliyi möhkəmləndirməkdir.

UNESCO-nun orqanı sessiyalarını üzv dövlətlərin nümayəndələrin iştirakı ilə 2 ildə bir dəfə keçirən Baş Konfransdır. Baş Konfrans tərəfindən qəbul olunmuş proqram və planların həyata keçməsinə tərkibi 51 nəfərdən ibarət olub (10 yer - Qərbi Avropa ölkəsi, Şimali Amerika və İsrail; 4 yer - Şərqi Avropa ölkələri; 9 yer - Latın Amerikası və Karib hövzəsi; 8 yer Asiya ölkələrinin və Sakit okean hövzəsi; 20 yer - Afrika ölkələrinin və ərəb ölkələri) 4 illiyə seçilən İcraiyə Komitəsi cavabdehlik daşıyır. UNESCO-nun daimi işçi orqanı Baş Direktordan və xidməti heyətindən ibarət olan Katiblikdir. Baş Direktor Baş Konfrans tərəfindən icraiyyə şurasının təqdimatı ilə 6 il müddətinə seçilir.

UNESCO öz işini 2 illik proqram və 6-illik planlar əsasında qurur. Təşkilatın fəaliyyətində əsas yeri sülhün qorunması və xalqlar arasındakı qarşılıqlı anlaşmanın inkişafına kömək edən tədbirlərin keçirilməsi, tərki-silahın xeyrinə, müstəmləkəçiliyin, rasizmin, aparteidin əleyhinə dünya ictimaiyyətinin fikirlərinin formalaşdırılmasıdır. UNESCO tərəfindən aşağıdakı mühüm sənədlər qəbul olunmuşdur: Təhsil sahəsində diskriminasiya ilə mübarizə haqqında Konvensiya (1960), beynəlxalq qarşılıqlı anlaşma, əməkdaşlıq və sülh ruhunda və insan hüquqlarına və əsas azadlıqlara hörmət ruhunda tərbiyə haqqında tövsiyələr (1974), beynəlxalq sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində, insan hüquqlarının inkişafında rasizmə, aparteidə qarşı mübarizədə kütləvi informasiya vasitələrinin əsas prinsipləri haqqında bəyannamə (1978).

UNESCO-nun proqramlarında qlobal problemlərin mühüm əhəmiyyət kəsb etməsi öz əksini tapmışdır. UNESCO çərçivəsində biosferanın, okeanorqrafiyanın, geologiyanın, hidrologiyanın, energetikanın, biotexnologiyanın və b. mühafizəsi ilə bağlı problemlər üzrə elmi proqramlar həyata keçirilir.

Azərbaycan Respublikasının UNESCO ilə sıx əlaqələri vardır. Azərbaycanın böyük şairi Məhəmməd Füzulinin 500 illik yubileyi və Azərbaycan xalqının ilk yazılı ədəbiyyatı olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi UNESCO xətti ilə dünya səviyyəsində qeyd olunmuşdur.



**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI (FAO)** - Beynəlxalq hökumətlərarası təşkilatdır, BMT-nin ixtisaslaşmış qurumudur. 16. 10. 1945-ci ildə Kvebek konfransında yaradılmışdır. Dünyanın 160-dan çox ölkəsi FAO-nun üzvüdür.

FAO - nun məqsədi üzv dövlətlərin əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması, istehsalat effektivliyinin, ərzaq və başa kənd təssərrüfatı məhsullarının paylanmasının artırılması, kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılması, yeyinti, ərzaq və kənd təsərrüfatı məhsulları üzrə elmi, texniki, sosial və iqtisadi tədiqatların milli və beynəlxalq miqyasda aparılmasına kömək, həmçinin inkişafda olan ölkələrin kənd təsərrüfatına, meşə və biçinçilik təsərrüfatı sahələrinə kömək göstərməkdir.

FAO ali orqanı ildə bir dəfə çağırılan Baş Konfransdır. Konfransarası dövrdə FAO-nun fəaliyyətinə 49 üzv dövlətlərin nümayəndəliyindən ibarət Şura rəhbərlik edir.

Təşkilatın mənzil - qərargahı Romadadır.

FAO-nun regional büroları vardır: Asiya və Uzaq Şərq Bürosu (Banqkok), Afrika (Akkra), Yaxın Şərq (Qahirə), Latın Amerikası (Saitzato, Çin), Avropa (Cenevrə), Şim. Amerika missiyası (Vaşinqton) və BMT-nin mənzil - qərargahı ilə bağlı missiyası (Nyu-York).

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ƏTRAF MÜHİT PROQRAMI** (UNER) - BMT BM-nin qurumudur. 1972-ci ildə Stokholmda keçirilmiş ətraf mühit problemi üzrə BMT Konfransının təklifi ilə BMT BM-nin ( XXVII ) saylı qətnaməsi ilə 1972-ci ildə yaradılmışdır.

UNER-in məqsədi ətraf mühitin vəziyyətinin dəyişikliyini müşahidə etmək və ətraf mühit sahəsindəki beynəlxalq əməkdaşlığın genişləndirilməsidir. UNER proqramının layihələşdirilməsi BMT-nin üzv dövlətlərinin könüllülük əsasında ödənməsi ilə formalaşır. Qurumun icraçı orqanı olan Müdirlər Şurasının

tərkibi 58 dövlətin nümayəndəliyindən ibarətdir. Belə ki, bunların 1/3-i hər il BMT BM tərəfindən 3 il müddətinə seçilir. UNER-in mənzil-qərargahı Nayrobidə (Keniya) yerləşir.

UNER-in fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır: ətraf mühitin qorunması ilə bağlı məsələlər üzrə informasiyanın toplanması və beynəlxalq mübadilənin təşkili, torpağın və suyun qorunması, səhranın genişlənməsi ilə mübarizə, dəniz mühitinin müdafiəsi və qorunması, bitki və heyvanat aləminin müdafiəsi, yerin genetik fondunun qorunması, alternativ enerji mənbələrinin işlənməsi, yaşayış massivi problemi kimi ekoloji problemlərin həlli proqramının işlənməsi və həyata keçirilməsi, ətraf mühit sahəsində mütəxəssislərin hazırlanması.

Ətraf mühitin qorunmasının beynəlxalq-hüquqi aspekti (konvensiyanın və başqa hüquqi aktların işlənilməsi, inkişafda olan ölkələrin birinin milli qanunvericiliyinin formalaşmasında kömək və s.) üzrə fəaliyyət UNER - in işində mühüm əhəmiyyət kəsb edir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İXTİSASLAŞDIRILMIŞ QURUMLARI -** Beynəlxalq hökumətlərarası təşkilatlardır. İqtisadi, sosial-mədəni, təhsil, səhiyyə və s. kimi müəyyən sahələrdə fəaliyyət göstərirlər:

BMT Nizamnaməsinə (m. 63) uyğun olaraq, BMT-nin ixtisaslaşdirilmış qurumları BMT ilə bağlıdır ki, bu əlaqə praktikada BMT-nin ixtisaslaşmış idarələri arasında müvafiq sazişlərin bağlanmasında, habelə onların BMT-nin digər orqanları ilə müxtəlif əlaqələrə girməsində ifadə olunur. BMT-nin ixtisaslaşdırılmış qurumlarının BMT ilə sıx əlaqədə fəaliyyət göstərməsi həmin idarələrin fəaliyyətini BMT-nin əsas məqsəd və prinsiplərinə uyğun istiqamətləndirməyə kömək edir.

BMT-nin ixtisaslaşdırılmış qurumlarının strukturu (quruluşu), səlahiyyəti və təşkilinin digər məsələləri beynəlxalq hüquqi qaydada müqavilələrlə, sazişlərlə, yaxud təsisat aktları, onların orqanlarının reqlamentləri ilə müəyyən edilmişdir. BMT-nin ixtisaslaşdirilmış qurumları bu idarələrin imtiyazları və immunitetləri haqqında qəbul olunmuş Konvensiyaya (BMT Baş Məclisi onu 1974-cü il noyabrın 21-də təsdiq edib) uyğun fəaliyyət göstərir.



BMT üzvü olan dövlətlərin suveren bərabərliyi, onların hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyin etməsi prinsipinə əməl etməklə millətlər arasında əməkdaşlığı inkişaf etdirmək (BMT Nizamnaməsi, m.1 b. 2) haqqında BMT Nizamnaməsinin müddəaları bütünlüklə BMT-nin ixtisaslaşdirilmış idarələrinə tətbiq oluna bilər.

BMT-nin 16 ixtisaslaşdirilmış qurumu var: Ümümdünya poçt ittifaqı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, BMT-nin Maarif, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya Meteorologiya Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı, Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı, Sənaye İnkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı təşkilatı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq İnkişaf Assosiasiyası.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNKİŞAF PROQRAMI** (United Nations Development Proqramme - UNDP) - BMT BM-nin qurumudur, İqtisadiyyat və Sosial Şuranın rəhbərliyi altında fəaliyyət göstərir. 1965-ci ildə BMT BM-nin 2029 (XX) saylı qətnaməsi ilə xüsusi fond və texniki yardımın genişləndirilmiş proqramının birləşdirilməsi ilə yaradılmışdır.

UNDP-nin BMT-nin BM-nin 2688 (XXV) saylı 11.12.1970-ci il tarixli qətnaməsində müəyyən olunmuş məqsəd və məramları aşağıdakılardır: təbii ehtiyatların araşdırılmasında texniki kömək göstərməklə inkişafda olan ölkələrin iqtisadi və sosial inkişafını sürətləndirmək, yeni texniki metodların sənayeyə və kənd təsərrüfatına tətbiqi, yeni-təhsil müəssisəsi və tədqiqat mərkəzlərinin yaradılması və s. UNDP dünyanın 140-dan çox ölkəsində 5 mindən çox proqram layihəsini həyata keçirmişdir. UNDP-nin maliyyə vəsaiti BMT-nin üzv dövlətlərinin könüllü ödəmələri nəticəsində formalaşır. Təşkilatın rəhbər orqanı Müdirlər Şurasıdır. Şuraya 48 ölkənin nümayəndəsi daxildir. Bu nümayəndələr İqtisadi və Sosial Şura tərəfindən 3 il müddətinə BMT-nin üzv dövlətlərindən, onun ixtisaslaşdırılmış qurumlarından seçilir. İcraedici orqan rolunu isə UNDP -nin Katibliyi yerinə yetirir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏRİN KÖMƏK VƏ BƏRPA ADMİNİSTRASİYASI (UNRRA)** - 09.11.1943-cü ildə Vaşinqtonda 14 ölkənin nümayəndəsi tərəfindən imzalanmış müqaviləyə əsasən yaradılıb. UNRRA-nın işi *İkinci Dünya müharibəsində* zərər çəkmiş ölkələrin iqtisadiyyatının bərpasına kömək göstərmək idi. 1947-ci ildə BMT-nin Baş Məclisi ABŞ-ın və *Böyük Britaniyanın* təklifi ilə UNRRA-nın ləğv edilməsi haqqında qərar qəbul etmişdir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ QAÇQINLARIN İŞLƏRİ ÜZRƏ ALİ KOMİSSARLIĞI** - 01 01. 1951-ci ildə BMT-nin BM-i 319 (IV) saylı 3.12. 1949-cu il tarixli qətnaməsinə uyğun olaraq qaçqın və köçkünlərin beynəlxalq hüquqi müdafiəsini həyata keçirmək və qaçqınların problemini daimi olaraq tənzimləmək məqsədi ilə yaradılmışdır. Komissarlıq yaranana qədər bu məsələ ilə qaçqınlar üzrə beynəlxalq təşkilatlar məşğul olurdular.

BMT-nin Baş Katibinin təqdimatı ilə BMT BM tərəfindən 3 il *müddətə seçilən* Ali Komissarlıq qaçqınların işləri üzrə komissarlığa rəhbərlik edir. Qaçqınları qəbul edən ölkələrin razılığı ilə *Ali Komissarlıq həmin* ölkədə özünün nümayəndəsini təyin edə bilər. Komissarlığın yaranması haqqında BMT qətnaməsində və *Komissarlığın nizamnaməsində göstərilir ki, Ali Komissarlığın* fəaliyyəti siyasi xarakter daşımamalıdır. Hər il Ali Komissarlıq BMT-nin BM-yə özünün fəaliyyəti haqqında məruzə təqdim edir.

Ali Komissarlıq proqramı üzrə İcraiyyə komitəsinə 42 inkişaf etmiş ölkələrin, o cümlədən Asiya, Afrika və Latın Amerikasının bəzi ölkələrinin nümayəndələri daxildir. Hər 5 ildən sonra BMT-nin BM-i komissarlığın fəaliyyət müddətinin artırılmasının məqsədəuyğunluğu məsələsinə baxır.

Komissiyanın inzibati xərcləri BMT-nin büdcəsindən maliyyələşdirilir. Ali Komissiyanın fəaliyyəti ilə bağlı olan qalan xərclər könüllü ödənişlər yolu ilə həll edilir.

Komissarlığın məşğuliyyət qərargahı Cenevrədə yerləşir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ QƏYYUMLUQ ŞURASI** - BMT-nin 6 əsas orqanlarından biridir. Şuranın əsas məqsədi qəyyumluq ərazilərinin idarə olunmasına BMT-nin Baş Məclisinin rəhbərliyi altında nəzarət etməkdir.



Şuranın hal-hazırda 5 üzvü vardır: Rusiya, ABŞ, İngiltərə, Fransa və ÇXR. Şura sessiyalarını ildə bir dəfə Nyu-Yorkda keçirir.

Şuranın fəaliyyəti dövründə 11 qəyyumluq ərazisinin hamısı müstəqillik əldə etmişdir. Onlar Qana, Somali, Kamerun, Toqo, Ruanda, Burundi, Birləşmiş Tanzaniya Respublikası, Samoa, Nauru, Papua-Yeni Qvineyadır. 1994-cü ildə Şura öz funksiyasını *tamamilə yerinə yetirdikdən sonra* əsasnaməsində dəyişikliklər etdi. Əsasnaməyə görə Şura yalnız və yalnız zərurət yarandıqda fəaliyyət göstərəcək.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ NİZAMNAMƏSİ** - BMT Nizamnaməsi dinc yanaşı yaşamaq xartiyası, beynəlxalq davranışın ümumtanınmış, hamı tərəfindən qəbul edilmiş məcəlləsi sayılır. Nizamnamə Preambula və 111 maddədən ibarətdir; BMT-nin Beynəlxalq Məhkəməsinin Statutu onun ayrılmaz hissəsidir.

Preambulada BMT-yə üzv olan dövlətlərin gələcək nəsillərini müharibə fəlakətindən xilas etmək, insanın əsas hüquqlarına, şəxsiyyətin ləyaqətinə, qadınlarla kişilərin hüquq bərabərliyinə, iri və xırda millətlərin bərabərhüquqlu olmasına inamı möhkəmlətmək, ədalət və beynəlxalq öhdəliklərə hörmət, *sosial* tərəqqiyə kömək etmək qətiyyəti əks olunur. Nizamnamənin 1-ci maddəsində *BMT-nin məqsədləri elan edilmişdir:* beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, sülh üçün təhlükənin qarşısının alınması və aradan götürülməsi üzrə səmərəli kollektiv tədbirlərin görülməsi, təcavüz aktlarının və digər aktların dəf edilməsi, sülhün pozulmasına gətirib çıxara biləcək mübahisələrin və vəziyyətlərin ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq dinc vasitələrlə həll edilməsi. BMT məqsədlərinə nail olmaq üçün Nizamnamədə demokratik prinsiplər nəzərdə tutmuşdur ki, onlar da müasir beynəlxalq hüququn imperativ normaları sayılır. Bu normalar sonradan BMT Baş Məclisinin 1970-ci ildə qəbul etdiyi beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə, iştirakçı dövlətlərin qarşılıqlı münasibətlərdə rəhbər tutmalı olduğu prinsiplər haqqında Bəyannamədə inkişaf etdirilmişdir; həmin Bəyannamə Avropada təhlükəsizliyə və əməkdaşlığa dair Helsinki Müşavirəsinin Yekun Aktının (1975) tərkib hissəsidir. Bu prin-

siplər aşağıdakılardır: zor işlətmə və zor işlədəcəyi ilə hədələmə, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi, başqa dövlətlərin daxili işlərinə qarışmama, dövlətlər arasında əməkdaşlıq, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin suveren bərabərliyi, üzərinə götürdüyü öhdəliklərin vicdanla yerinə yetirilməsi. Bəyannamədə göstərilmiş prinsiplərlə yanaşı sərhədlərin toxunulmazlığı, dövlətin ərazi bütövlüyü, insan hüquqlarına hörmət prinsipləri təsbit edilmişdir. BMT Nizamnaməsi adi müqavilə deyildir, o, ümumi beynəlxalq təşkilatların hüquqi əsasıdır ki, bu təşkilatların məqsədi sülh və təhlükəsizlikdir. Hər bir sülhsevər dövlət BMT üzvü ola bilər, bu şərtlə ki, BMT Nizamnaməsində göstərilmiş öhdəlikləri qəbul etsin və onları icra etmək arzusunda olsun.

**BİRLƏŞMİŞ MİLLƏTLƏRİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATI (UNIDO)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. BMT-nin Baş Məclisinin qətnaməsi ilə 1967-ci ildə yaradılmışdır. 1979-cu ilin aprelində UNIDO-nun ixtisaslaşdirilmış quruma çevrilməsi üzrə konfrans təşkilatın Nizamnaməsini qəbul etdi. Bu Nizamnamə 21.06.1985-ci ildə qüvvəyə mindi.

UNIDO-nun məqsədi sənayenin inkişafı sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək və inkişafda olan ölkələrin sənayeləşdirilməsini sürətləndirməkdir.

UNIDO-nun ali orqanı ildə iki dəfə toplaşan konfransdır. Konfrans UNIDO-nun rəhbər prinsipini və ümumi siyasətini müəyyən edir, təşkilatın fəaliyyətinin müxtəlif istiqamətlər üzrə proqramını işləyir və qəbul edir. Təşkilatın daimi işçi orqanı 53 nəfərdən ibarət olan (33 inkişafda olan ölkə, 15 Qərbin inkişaf etmiş ölkəsi, 5 Şərqi Avropa ölkəsi) Sənayenin İnkişaf Şurasıdır. Şuranın üzvləri dörd il müddətinə seçilirlər.

UNIDO-nun mənzil-qərargahı Vyanadadır.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI** - BMT-nin əsas siyasi orqanıdır və BMT-nin orqanları sistemində xüsusi yer tutur, çünki Nizamnaməyə (m. 24) əsasən beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üzrə əsas məsuliyyət onun üzərinə qoyulmuşdur. Təhlükəsizlik Şurası daimi fəaliyyət göstərən orqandır, BMT üzvü olan 15 dövlətdən



beş daimi və on daimi olmayan üzvdən ibarətdir. Təhlükəsizlik Şurasının daimi üzvləri bunlardır (Nizamnamə, m. 29): Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin. Təhlükəsizlik Şurasının daimi olmayan üzvləri Baş Məclis tərəfindən iki il müddətinə seçilir, həm də hər bir növbəti sessiyada daimi olmayan üzvlərin beşi yenidən seçilməlidir. Təhlükəsizlik Şurasının daimi olmayan üzvləri aşağıdakı qaydada yerləşdirilir: Afrika və Asiya dövlətlərindən beş üzv, Şərqi Avropa dövlətlərindən bir üzv, Latın Amerikası dövlətlərindən iki üzv, Qərbi Avropa dövlətlərindən və digər dövlətlərdən (Kanada, Avstraliya, Yeni Zelandiya) iki üzv. Təhlükəsizlik Şurasının üzvü olan hər bir dövlətin Şurada bir nümayəndəsi var.

Təhlükəsizlik Şurasının hər bir üzvü 1 səsə malikdir. Prosedur məsələlərin həllində Şuranın üzvləri 9 səs verərsə, qərar qəbul olunur. Bütün qalan məsələlərdə isə 9 səsdən əlavə, hökmən Təhlükəsizlik Şurasının daimi üzvləri' in səsvermələri vacibdir (bax. Yekdillik prinsipi).

Təhlükəsizlik Şurası fasiləsiz fəaliyyət göstərir (Şuranın iclasları arasında fasilə iki həftədən çox olmamalıdır). Bu səbəbdən də Şuranın hər bir üzvü BMT yerləşdiyi yerdə daim olmalıdır. Təhlükəsizlik Şurasının iclasında onun üzvləri növbə ilə (ingilis dilində dövlətlərin rəsmi adlarına görə) bir ay müddətində sədrlik edirlər. Təhlükəsizlik Şurasının iclasları açıqdır (bəzi istisnalarla). BMT üzvü olan, lakin Təhlükəsizlik Şurasının üzvü olmayan hər bir dövlət Təhlükəsizlik Şurasında baxılan hər hansı məsələnin həllində iştirak edə bilər (səsvermə hüququ olmadan). Nizamnamədə (M. 32) Şuraya daxil olmayan BMT üzvlərinin və hətta mübahisədə tərəflər kimi çıxış edən, lakin BMT üzvü olmayan hər bir dövlətin Təhlükəsizlik Şurasının iclasına çağırılması da nəzərdə tutulmuşdur.

Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirmək üçün zəruri hesab etdiyi köməkçi orqanlar təsis edə bilər. Zəruri halda o xüsusi komitələr, yaxud komissiyalar təsis edir. Şura iki daimi komitəsini yaradır - ekspertlər Komitəsi və yeni üzvləri seçmək üçün Komitə. Təhlükəsizlik Şurasının tabeliyində hərbi qərargah komitəsi var (Təhlükəsizlik Şurasının daimi üzvləri qərargah rəis-

lərindən, yaxud onların nümayəndələrindən ibarətdir). Komitə Təhlükəsizlik Şurasına beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq üçün Şuranın sərəncamına verilmiş silahlı qüvvələrin tətbiqi ilə əlaqədar bütün məsələlər üzrə məşvərət verməlidir. Təhlükəsizlik Şurasının səlahiyyəti BMT Nizamnaməsində dəqiq müəyyən edilib. Təhlükəsizlik Şurasının beynəlxalq sülhü qorumaq sahəsində başlıca məsuliyyətini nəzərə alaraq BMT Nizamnaməsi ilə ona dövlətlər arasında mübahisələri dinc yolla həll etmək sahəsində geniş səlahiyyət verilir. Təhlükəsizlik Şurasına sülh üçün təhlükə yaradan hər bir halı, təcavüz hallarını, sülhü qorumaq və ya bərpa etmək üçün hansı tədbirlərin görülməsini müəyyən etmək hüququ verilmişdir. Təhlükəsizlik Şurası zəruri halda hava, dəniz, yaxud quru qüvvələrlə lazımi hərəkətlər (nümayiş, blokada və s.) etməyə haqlıdır. Bu məqsədlə Təhlükəsizlik Şurasına BMT-nin xüsusi silahlı qüvvələrini yaratmaq və onlardan istifadə etmək hüququ verilmişdir. Təhlükəsizlik Şurasının səlahiyyəti silahlı hücum edildikdə dövlətlərin fərdi və kollektiv özünümüdafiə hüququna zidd deyildir. (BMT üzvləri gördükləri özünümüdafiə tədbirləri haqqında dərhal Şuraya xəbər verməlidir).

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏRKİ-SİLAH KOMİSSİYASI** - BMT-nin BM-nə tabe olan məşvərətçi orqanıdır. BM-in qərarı ilə 1952-ci ildə yaradılmışdır, 1978-ci ilə qədər Təhlükəsizlik Şurasına tabe olmuşdur. Əvvəlcə 12 dövlətdən təşkil olunub, 1959-cu ildən isə BMT-nin bütün üzv dövlətləri Komissiyaya daxildir. 1959-78-ci illərdə faktiki olaraq fəaliyyət göstərməyib. 1978-ci ildə BMT-nin BM-in tərki-silah haqqında keçirdiyi I xüsusi sessiyasında Komissiyanın statusu və mandatı müəyyən edildi.

Komissiyanın əsas fəaliyyət istiqaməti aşağıdakılardır: müxtəlif tərki-silah problemləri ilə bağlı təkliflərin hazırlanması və BMT-nin tərki-silah üzrə xüsusi sessiyanın qərarlarının həyata keçirilməsinə nəzarət etmək, adi silahlar və nüvə silahları sahəsində tərki-silah üzrə danışıqlara ümumi yanaşmanın işlənib hazırlanması və s.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ UŞAQ FONDU (UNİSEF - United Nations Childrens Fund)** - BMT-nin



orqanıdır.

BMT-nin baş Məclisinin 11.12.1946-cı il tarixli 57 (1) saylı qətnaməsi ilə BMT-nin müvəqqəti təşkilatı kimi Avropa ölkələrində müharibədən əziyyət çəkən uşaqlara kömək məqsədilə təsis edilmişdir. İlk adı Beynəlxalq Uşaqlara Fövqəladə Yardım Fondu olmuşdur. 1950-ci ildən başlayaraq UNİSEF-in fəaliyyəti inkişafda olan ölkələrdə uşaqların və gənclərin həyatının maddi və sosial şəraitlərinin yaxşılaşdırılmasına yönəlmişdir. UNİSEF-in maddi ehtiyatları üzv ölkələrin hökumətlərinin, BMT-nin təşkilatlarının, ictimai təşkilatların, fərdi şəxslərin və başqa mənbələrin könüllü ödənişlərindən toplanır.

UNİSEF inkişafda olan ölkələrdə uşaqların qeydinə qalmaq üçün yerli əhalidən olan kadrların hazırlanmasına kömək edir. Təşkilat uşaq əməyinin qadağan edilməsi, uşaqları gələcəkdə əmək fəaliyyətinə hazırlamaq istiqamətinə yönəlmiş layihələrinin həyata keçirilməsində Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq edir. 1978-ci ildə UNİSEF Beynəlxalq Səhiyyə Təşkilatı ilə birlikdə Alma-Atada ilk tibbi-sanitar kömək üzrə konfrans keçirmişdir. UNİSEF 1979-cu ili Beynəlxalq Uşaq ili elan edilməsinin hazırlanması və keçirilməsi məsələlərində BMT sistemində əsas koordinator rolunu oynamışdır. UNİSEF-in 30-dan çox ölkədə milli komitələri fəaliyyət göstərir.

UNİSEF-in katibliyi Nyu-Yorkda yerləşir. Regional şöbələri Cenevrədə, Nayrobidə, Laosda, Əlcəzairdə, Abicanda, Xorarada, Boqotada, Banqkokda, Beyrutda, Dehlidə, Pekində, Sidneydə və Tokioda fəaliyyət göstərir.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ YAXIN ŞƏRQDƏ FƏLƏSTİN QAÇQINLARINA KÖMƏK İŞİNİN TƏŞKİLİ AGENTLİYİ** - 08.12.1949-cu ildə BMT Baş Məclisinin 302 (v) saylı qətnaməsinə uyğun olaraq təsis edilib. Könüllü pul ödəmələrinə əsasən maliyyələşdirilir. Fələstindən olan ərəb qaçqınlarına tibb, təhsil, professional hazırlıq sahələrində kömək və müxtəlif növ yardımlar göstərilir. Agentliyin rəhbəri olan Baş Komissar BMT-nin Baş Katibi tərəfindən agentliyin məsləhət komissiyasının üzvü olan dövlətlərlə məsləhətləşəndən sonra təyin olunur. Agentliyin məsləhət komissiyası BMT Baş Məclisi tərəfindən Baş Komissara kömək proqramını həyata keçirməyə kömək məqsədilə yaradılmışdır. Komissiyanın tərkibinə Belçika,

Böyük Britaniya, Misir, İordaniya, Livan, Suriya, ABŞ, Türkiyə, Fransa və Yaponiya kimi ölkələr daxildir.

Agentliyin mənzil-qərargahı Vyanada və Əmmanda yerləşir.

**BİRTƏRƏFLİ AKT** - Ayrıca bir dövlətin beynəlxalq planda müəyyən hüquqi nəticənin əldə edilməsinə yönəlmiş iradəsini bildirməsidir. Birtərəfli akt vasitəsilə dövlət başqa dövlətlərin nəzər diqqətini hansısa fakta, vəziyyətə, fəaliyyət növünə və s. yönəldir. Birtərəfli aktın əsas formaları aşağıdakılardır: hansısa tələbin, faktın və ya halın qanunauyğunluğunu qəbul etmək, dövlətin hüquq və maraqlarının təhlükədə olması ilə bağlı və yaxud onların pozulması ilə bağlı protest və s. (notifikasiya da Birtərəfli akta aid edilir). Ümumi qaydaya görə dövlət tərəfindən beynəlxalq aktların həyata keçirilməsi başqa dövlətlərin razılığından asılı deyildir və o dövlətlərin üzərinə beynəlxalq məsuliyyət qoymur.

**BİTƏRƏFLİK (BEYNƏLXALQ HÜQUQDA)**

1) *Müharibə zamanı bitərəflik.* Vuruşan dövlətlərin heç birinin tərəfində iştirak etməmək, onların heç birinə kömək göstərməmək, öz ərazisini onların istifadəsinə verməmək və s. Haqqında üzərinə öhdəlik götürmüş (birtərəfli qaydada, yaxud müqaviləyə əsasən) dövlətin hüquqi vəziyyətidir. Bitərəf dövlətlərin hüquq və vəzifələri quruda müharibə aparıldıqda 5-ci Haaqa Konvensiyası ilə, suda müharibə aparıldıqda isə 13-cü Haaqa Konvensiyası (1907) ilə nizamlanır.

2) *Daimi bitərəflik.* Heç zaman müharibədə iştirak etməmək (özünümüdafiə və təcavüz halları istisna olmaqla), heç bir hərbi (o cümlədən müdafiə xarakterli) ittifaqa daxil olmamaq, ərazisindən hərbi bazaların yaradılması və digər hərbi məqsədlərlə istifadə edilməsinə icazə verməmək haqqında üzərinə öhdəlik götürmüş dövlətin hüquqi vəziyyəti, bitərəf dövlət hərbi bloklarla əlaqədar siyasi və iqtisadi qruplara daxil olmağa, nüvə silahı və digər kütləvi qırğın silahı saxlamağa haqlı deyildir. Müharibə zamanı bitərəflikdən fərqli olaraq, daimi bitərəflik sülh dövründə də qüvvədə olur. Tanınmış daimi bitərəflik və təminatlı daimi bitərəflik fərqləndirilir. Tanınmış daimi bitərəfliyə misal olaraq Avstriyanın bitərəfliyini, təminatlı daimi bitərəfliyə misal olaraq İsveçrəni göstərmək olar. Daimi bitərəflik və ona əməl edilməsi



dövlətlərin dinc yanaşı yaşaması prinsipinin, kollektiv təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynayır.

**BOLİVİYA** - Cənubi Amerikanın mərkəzi hissəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi -1.098.580 kv.km, əhalisinin sayı isə 7.896.254 nəfərdir (1995). Rəsmi dövlət dili ispan dilidir.

Dövlət quruluşu unitar respublikadır. Rəsmi paytaxtı Sukre olmasına baxmayaraq, hökumət La-Pasedə yerləşir. Ölkə İspaniyanın müstəmləkəsi olmuş, lakin 6 avqust 1825-ci ildə müstəqilliyini əldə etmişdir. Müstəqilliyin əldə olduğu gün milli bayram günü kimi qeyd olunur. Qanunvericilik İspaniya mülki hüququna və Napaleon fransız məcəlləsinə əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və Nazirlər Kabinetinə məxsusdur. Qanunverici hakimiyyət senatorlar palatasından və deputatlar palatasından ibarət olan ikipalatalı parlamentə (Milli konqress) məxsusdur.

**BOLQARISTAN** - Cənubi-şərqi Asiyada - Balkan yarımadasında yerləşir. Ərazisinin sahəsi 110.912 kv.km, əhalisinin sayı isə 8.775.198 nəfərdir (1995). Dövlət dili bolqar dilidir.

Ölkənin tam adı Bolqarıstan Respublikasıdır. Dövlət idarəçilik forması prezidentli respublikadır. Ölkə vaxtilə Osmanlı imperiyasının müstəmləkəsi olub. 22 sentyabr 1908-ci ildə müstəqilliyini elan edib. Milli bayram 3 mart Bolqarıstanın türk əsarətindən azad olduğu gündür (1878). Dövlət başçısı prezidentdir. İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Məclisə məxsusdur.

**BOSNİYA VƏ HERSOQOVİNA** - Cənubi-şərqi Avropada - Balkan yarımadasında yerləşir. Ərazisinin sahəsi 51.233 kv.km, əhalisinin sayı isə 3.210.823 nəfərdir (1995). Dövlət dili serb və xorvat dilləridir.

Ölkənin adı Bosniya və Herseqovina Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Sarayevo şəhəridir. Bosniya müstəqilliyini 1990-cı ildə Yuqoslaviyadan almışdır. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti isə 7 nəfərdən ibarət (müsəlman, serb və xorvat cəmiyyətlərinin hərəsinin 2 nümayəndəsi, başqa millətlərdən 1 nəfər) Bosniya və Hersoqovina rəyasət heyətinə aiddir. Serb icmasının nümayəndələri 1992-ci ildə Rə-

yasət heyətinin tərkibindən çıxmışlar. Qanunverici hakimiyyət Milli Assambleya adlanan ikipalatı parlamentə məxsusdur.

**BOTSVANA** - Afrikanın cənubunda dövlətdir. Ərazisinin sahəsi 600.370 kv.km, əhalisinin sayı isə 1.392.414 nəfərdir. Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Botsvana Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Qaborone şəhəridir. Əvvəllər İngiltərənin müstəmləkəsi olub və Beçuanalequ adlanıb. 30 sentyabr 1966-cı ildə müstəqilliyini elan edib və həmin gün milli bayram kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə, vitse-prezidentə və hökumətə məxsusdur. Qanunverici hakimiyyət prezident və Milli Məclis adlanan birpalatalı parlamentə məxsusdur.

**BÖYÜK BRİTANİYA** - Avropanın şimal-qərbində yerləşir. Ərazisinin sahəsi 244.111 kv.km, əhalisinin sayı isə 58.295.119 (1995) nəfərdir. Dövlət dili ingilis dilidir.

Ölkənin adı Böyük Britaniya və Şimali İrlandiya Krallığıdır. Dövlət quruluşu Konstitusiyalı monarxiyadır. Paytaxtı London şəhəridir. Krallığın əsası 1 yanvar 1801-ci ildə qoyulmuşdur. Milli bayram (kraliçanın doğum günü) iyun ayının 2-ci şənbə günü qeyd olunur. Dövlət başçısı kraliçadır, real icra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici hakimiyyət ikipalatalı (icma palatası - aşağı palata və Lordlar palatası - yuxarı palata) parlamentdir. Ölkənin konstitusiyası yoxdur.

**"BÖYÜK YEDDİLƏR" TOPLANTISI** - Dünyanın inkişaf etmiş 7 ölkəsinin (ABŞ, AFR, Fransa, Böyük Britaniya, Yaponiya, İtaliya və Kanada) dövlət və hökumət başçılarının mühüm iqtisadi və xarici siyasət məsələləri üzrə toplantısıdır. Toplantı hər il keçirilir. İlk toplantı 1975-ci ildə keçirilmişdir. 1998-ci ildən etibarən Rusiya Federasiyası da toplantıya qəbul olunmuşdur (7+1).

**BRAZİLİYA** - Cənubi Amerika dövlətidir. Ərazisinin sahəsi 8.511.965 kv.km, əhalisinin sayı isə 160.737.489 (1995) nəfərdir. Dövlət dili Portuqaliya dilidir.

Ölkənin tam adı Braziliya Federativ Respublikasıdır. Dövlət quruluşu prezidentli federativ respublikadır. Paytaxtı Braziliya şəhəridir. Ölkə müstəqilliyini Portuqaliyadan 7 sentyabr 1822-ci ildə almışdır. Axırıncı konstitusiya 5 oktyabr 1988-ci ildə qəbul olunmuşdur. Dövlət başçısı prezidentdir və o, hökuməti təyin



edir. Qanunverici hakimiyyət Senatdan və Deputatlar palatasından ibarət olan ikipalatalı parlamentə məxsusdur. Milli bayram 7 sentyabr müstəqillik günüdür.

**BRİFİNQ** - xarici siyasət idarəsinin və başqa dövlət orqanlarının, xarici təşkilatların və başqa təşkilatların nümayəndələrinin mühüm hadisələr haqqında, beynəlxalq danışıqların, konfransların, simpoziumların, iclasların gedişi haqqında iştirakçıların fikirləri, mövqeyi və əldə etdikləri nəticələr haqqında informasiya vermək məqsədilə, onların mətbuat, radio, televiziya nümayəndələri ilə görüşləri, söhbətləridir.

Brifinq mətbuat konfransından özünün daha qısalığı, daha da rəsmiliyi və yalnız informasiya xarakteri daşıması ilə fərqlənir.

**BRİTANİYA BİRLİYİ** (Common wealth) - Böyük Britaniyanı və onun dominionu, müstəmləkəsi və ondan asılı olan əraziləri əhatə edən dövlətlərarası birlikdir. Birliyə 49 dövlət daxildir (1985). Birliyə daxil olan dövlətlərin statusu və onların qarşılıqlı münasibətləri 1926 və 1930-cu illərdə keçirilən konfranslarda müəyyən olunmuşdur. Britaniya parlamentində qəbul olunmuş qanun 6 özünüidarə edən dominionların (Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika İttifaqı, Kanada, Nyufeninule və İrlandiya) Böyük Britaniyaya münasibətdə bərabərhüquqlu olduğunu təsdiq etdi. Britaniya millətlər birliyinə daxil olan bu dövlətlər Britaniya monarxını təkcə Birliyin başçısı kimi deyil, həm də dominion dövlətinin də başçısı kimi qəbul edirlər.

Hindistan, Pakistan (1947), Seylon (1948) və bir neçə dövlət müstəqillik əldə edib respublika idarə formasını qəbul etdikdən sonra Birliyin konstitusion əsasında dəyişikliklər oldu. Birlik sıralarında, əsasən "ağ dominionlar" adlanan Avstraliya, Yeni Zelandiya və Kanadanın ali hakimiyyəti formal olaraq Britaniya monarxına məxsusdur. II Dünya müharibəsindən sonra Birliyin sıralarından Birma (1948), İrlandiya (1949), Sudan (1956), Cənubi Afrika Respublikası (1961), Pakistan (1972) dövlətləri çıxdılar.

Birlik dövlətlərinin 1971-ci ildə qəbul olunmuş bəyannaməsində Birlik özünün apardığı siyasətə görə öz xalqının ümumi marağı naminə və beynəlxalq qarşılıqlı anlaşma və ümumi sülh naminə cavabdehlik daşıyan "müstəqil suveren dövlətlərin könüllü assosiasiyası" kimi müəyyən olunmuşdur.

Birliyin ali orqanı 2 ildə bir dəfə çağırılan hökumət başçılarının konfransıdır. Maliyyə, ticarət, təhsil və başqa nazirlərin də toplantıları keçirilir. Böyük Britaniyanın Birliyə daxil olan partnyorlarına münasibəti xarici işlər nazirliyi və Birlik işləri üzrə nazirlikləri vasitəsilə həyata keçirilir. Birlik dövlətlərinin paytaxtında Birliyin komissarları fəaliyyət göstərir. 1965-ci ildə Birliyin Daimi Katibliyi (Londonda), 1979-cu ildə isə inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərilməsi üçün Birlik Fondu yaradılmışdır.

Birlikdə həm siyasi, həm də maliyyə-iqtisadi cəhətdən üstünlüyü olan Böyük Britaniyanın üzv dövlətlər ilə hərbi-siyasi və maliyyə-ticarət sahəsində geniş əlaqələri vardır. 1973-cü ildə Böyük Britaniyanın Avropa İqtisadi Birliyinə qəbul olunması birlikdə mərkəzəqaçma tendensiyasını gücləndirdi.

Xarici-siyasi məsələlərlə bağlı Birlik daxilində böyük fikir ayrılıqları mövcuddur. Birlik dövlətlərinin bir hissəsi hərbi-siyasi bloklarda fəal iştirak edir, başqa qrup isə hərəkatlara qoşulmamaq siyasətini üstün tutur, dünyanın bütün dövlətləri ilə iqtisadi münasibətlərin qurulmasına böyük əhəmiyyət verirlər.

**BRUNEY** - Cənubi-Şərqi Asiyadakı Kalimantan adasının şimal-şərq hissəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi 5.765 kv.km, əhalisinin sayı ilə 292.266 (1955) nəfərdir. Dövlət dili malaziya dilidir.

Ölkənin tam adı Bruney Darussalal dövlətidir. Dövlət quruluşu konstitusiyalı sultanlıqdır. Bruney 1 yanvar 1984-cü ildə Böyük Britaniyadan müstəqilliyini əldə etmişdir. Qanunvericilik islam qanunlarına əsaslanır. Milli bayram 23 fevral müstəqillik günüdür. Dövlətin başçısı olan sultan həm də hökumətin başçısıdır.

**BURAXILIŞ FƏRMANI** - Bir çox dövlətlərin praktikasında öz ölkəsinin hökumətinin təşəbbüsü ilə diplomatik nümayəndə geri çağırılaraq fəaliyyət göstərdiyi ölkədən çıxıb getdikdən sonra diplomatın fəaliyyət göstərdiyi dövlətin başçısı diplomatı təyin edən dövlətin başçısına buraxılış fərmanı göndərir. Adətən, bu fərmanda iki ölkə arasındakı münasibətlərin inkişafında diplomatik nümayəndənin müsbət rolu qeyd olunur. Buraxılış fərmanı diplomatik kanallarla göndərilir, ona cavab göndərmək isə qəbul olunmamışdır.



Hal-hazırda buraxılış fərmanının göndərilməsinə nadir hallarda rast gəlinir.

**BURKİNA-FASO** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 274.200 kv.km, əhalisinin sayı isə 10.422.800 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Burkina-Faso Xalq Demokratik Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Uaqaduqu şəhəridir. Ölkə əvvəllər Fransanın müstəmləkəsi olaraq Yuxarı Volta adlanmışdı. 1960-cı ilin avqustun 5-də müstəqillik əldə etmişdir. Qanunvericilik Fransa mülki hüququna əsaslanır. Milli bayram 4 avuqst İnqilab günüdür (1983). Dövlət başçısı prezidentdir, icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Parlament birpalatalıdır və Xalq deputatları Assambleyası adlanır.

**BURUNDİ** - Şərqi Afrika dövlətidir. Ərazisinin sahəsi 27.834 kv.km, əhalisinin sayı isə 6.262.429 nəfərdir (1995). Rəsmi dövlət dili fransız dilidir.

Ölkənin tam adı Burundi Respublikasıdır. Dövlət quruluşu respublikadır. Ölkənin paytaxtı Bujumburadır. Burundi müstəqilliyini 1 iyul 1962-ci ildə Belçikadan almışdır. Milli bayram - 1 iyul müstəqillik günüdür. 1992-ci ilin martında ölkə özünün yeni konstitusiyasını qəbul etmişdir. Dövlət başçısı prezidentdir. O, baş naziri və hökuməti təyin edir. Qanunvericilik hakimiyyəti birpalatalı parlament olan Milli Məclislə təmsil olunur.

**BUTAN** - Cənubi Asiyanın şimalında yerləşən dövlətdir. Ərazisinin sahəsi 47.000 kv.km, əhalisinin sayı isə 1.780.638 nəfərdir (1995). Dövlət dili dzonq-ke dilidir.

Ölkənin tam adı Butan Krallığıdır. Dövlət quruluşu monarxiyadır. Ölkənin paytaxtı Tximpxu şəhəridir. Butan müstəqilliyini 8 avqust 1949-cu ildə Hindistandan almışdır. Milli bayram 17 dekabr - Millət günüdür (1907). Dövlət başçısı kraldır. O, qanunverici hakimiyyətə də rəhbərlik edir, eyni zamanda, Nazirlər Şurası vasitəsilə icra hakimiyyətini də həyata keçirir.

# C

**CƏNUBİ AFRİKA RESPUBLİKASI** - Afrikanın cənubunda yerləşir. Ərazisinin sahəsi 1.225.815 kv.km, əhalisinin sayı isə 45.095.459 nəfərdir (1995). Dövlət dilləri afrikans və ingilis dilləridir.

Dövlət quruluşu respublikadır. Paytaxtı Pretoriya şəhəridir. Cənubi Afrika Respublikası müstəqilliyini Böyük Britaniyadan 31 may 1910-cu ildə əldə etmişdir. Milli bayram 31 may Respublikanın elan olunduğu gündür. Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan olan parlament üç palatadan ibarətdir: ağlar palatası, rəngli dərililərin nümayəndələr palatası və hindu nümayəndələrinin palatası.

**CƏNUBİ KOREYA** - Koreya yarımadasının cənubunda yerləşir. Ərazisinin sahəsi 98.480 kv.km, əhalisinin sayı isə 45.552.882 nəfərdir (1995). Dövlət dili koreya dilidir.

Ölkənin tam adı Koreya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Seul şəhəridir. Koreya Respublikası müstəqilliyini 15 avqust 1948-ci ildə əldə etmişdir. Milli bayram 15 avqust Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi Dövlət Şurasına məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**CƏNUB-QƏRBİ AFRİKA XALQ TƏŞKİLATI (CQAXT)** - Namibiya probleminin ədalətli həlli naminə mübarizə aparan demokratik vətənpərvər qüvvələrə rəhbərlik edən inqilabi-demokratik partiyadır. Ölkənin afrikalı əhalisinin ilk ümummilli siyasi təşkilatıdır. 1958-ci ildə yaranmış və Namibiya xalqının həqiqi nümayəndəsi kimi BMT və başqa beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır.

CQAXT-ın Namibiyada fəaliyyət göstərən orqanları (gənclər təşkilatı, qadınların liqası və s.) rəsmi olaraq qadağan edilməmişdi, lakin onların fəaliyyəti CAR-ın inzibati orqanlarının qəddar nəzarəti altında idi. CQAXT-ın döyüş dəstələri olan Namibiya Xalq Azadlıq ordusu CAR tərəfindən qeyri-qanuni elan edilmişdi.

CQAXT fəaliyyətinin birinci dövründə mübarizənin siyasi formasından istifadə etdi; 1966-cı ildən isə o silahlı mübarizəyə keçdi. Eyni zamanda partiya BMT-nin Təhlükəsizlik Şurasının Namibiyada BMT-nin nəzarəti altında azad seçkilərin keçirilməsi haqqındakı 435 saylı qətnaməni müdafiə edərək Namibiya probleminin sülh yolu ilə həllini rədd etmirdi.

CQAXT geniş beynəlxalq dəstəyə malik olmuşdur. Təşkilat Afrika və Asiya xalqlarının həmrəylik təşkilatının və bir çox beynəlxalq təşkilatların üzvü olmuşdur. BMT-də müşahidəçi statusuna malik olmuş, bir çox ölkələrdə daimi nümayəndəliyi fəaliyyət göstərmişdir.

CQAXT-ın ali orqanı 5 ildə bir dəfə toplaşan qurultaydır. Qurultaylar arasında təşkilata Mərkəzi Komitə və Milli İcraiyə komitəsi rəhbərlik edir. CQAXT-ın mənzil-qərargahı Lyandada yerləşmişdi (Anqola). Namibiya problemi həll olunduqdan sonra CQAXT öz fəaliyyətini dayandırmışdır.

**CƏNUBİ-ŞƏRQİ ASİYA DÖVLƏTLƏRİN ASSOSİASİYASI - (Association of South East Asian Nations - ASE AN)** - Bruney, İndoneziya, Malaziya, Sinqapur, Tayland və Filippinin daxil olduğu siyasi-iqtisadi təşkilatdır. 1967-ci ildə xarici işlər nazirlərinin konfransında yaradılıb. (Banqkok, 7-8. VII). Təşkilatın məqsədi təşkilata daxil olan ölkələrin iqtisadi, sosial, mədəni və b. əlaqələrinin inkişafına, Cənubi-Şərqi Asiyada sülhə və sabitliyə kömək etməkdir. Bu məqsəd və məramlar 1976-cı ildə Bali adasında imzalanan sənədlərdə - Cənubi-Şərqi Asiyada dostluq və əməkdaşlıq haqqında müqavilədə və ASEAN-ın razılıq bəyannaməsində öz əksini tapmışdır.

Rəhbər orqan növbə ilə iştirakçı ölkələrin birində keçirilən xarici işlər idarəsinin toplantısıdır. Sessiyalar arasındakı müddətdə sessiyanın keçiriləcəyi növbəti ölkənin xarici işlər nazirinin sədrliyi altında Daimi Komitə fəaliyyət göstərir. 1976-cı ildən periodik olaraq iştirakçı dövlətlərin dövlət və hökumət başçılarının toplantısı keçirilir. İştirakçı dövlətlərin nazirlərilə də (iqtisadiyyat, əmək, sosial təminat, təhsil, informasiya) görüşlər təşkil olunur. Təşkilatın işçi orqanları katiblik (Cakarta) və 11 sahə üzrə (ticarət, sənaye, kənd təsərüffatı, nəqliyyat, maliyyə və b.) komitələrdir.

**CƏNUB-ŞƏRQİ ASİYA MÜQAVİLƏSİ TƏŞKİLATI** - Hərbi siyasi blokdur. ABŞ, Böyük Britaniya, Fransa, Avstraliya, Yeni Zelandiya, Tayland, Pakistan və Filippin arasında bağlanmış, 08.09.54-cü ildə Manila konfransında imzalanmış, 19.02.55-ci ildə qüvvəyə minmiş müqaviləyə əsasən, Cənubi-Şərqi Asiyada milli-azadlıq hərəkatına qarşı yaradılmışdır.

1977-ci ildə təşkilat fəaliyyətini dayandırmışdır.

**CİBUTİ** - Şimal-şərqi Afrikada yerləşən dövlətdir. Ölkənin ərazisinin sahəsi 23.000 kv.km, əhalisinin sayı isə 421.320 nəfərdir. Dövlət dili fransız və ərəb dilləridir.

Ölkənin tam adı Cibuti Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Cibuti şəhəridir. Cibuti müstəqilliyini 27 iyun 1977-ci ildə Fransadan almışdır (əvvəlki adı Affrlərin və İssaların Fransız ərazisi). Qanunvericilik yerli milli adətlərlə və islam qanunları ilə əlaqələndirilmiş Fransız mülki hüququna əsaslanır. Milli bayram 27 iyun Müstəqillik günüdür. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunvericilik hakimiyyətini birpalatalı parlament olan Milli Məclis həyata keçirir.

**CİNAYƏTKARIN VERİLMƏSİ** - Cinayətkarın ərazisində yerləşdiyi dövlət tərəfindən başqa dövlətin tələbi ilə cinayət məsuliyyətinə cəlb etmək üçün verilməsidir. Müasir beynəlxalq hüquq cinayətkarın verilməsini hər bir dövlətin suveren huququ olduğunu qəbul edir. Cinayətkarların verilməsi yalnız dövlətlərin arasında bağlanan xüsusi sazişdən sonra ola bilər. Əgər belə bir saziş yoxdursa, onda bir cinayətkarın verilməsi tələbi yalnız qarşılıqlılıq əsasında təmin edilə bilər.

Praktikaya uyğun olaraq, cinayətkarın verilməsi tələbi diplomatik kanallarla elan olunur (əgər bağlanan müqavilədə başqa yollar göstərilməmişdirsə). Cinayətkarın vətəndaşı olduğu dövlət, ərazisində cinayət törədilən və yaxud cinayət nəticəsində ziyan çəkən dövlət cinayətkarı tələb edə bilər. Tələb haqqında məsələ cinayətkarın verilməsi tələb olunan dövlətin başçısı nəzərdən keçirtdikdən sonra həll oluna bilər.

Aşağıdakı hallarda dövlət cinayətkarı verməyə də bilər: cinayət dövlətin ərazisində baş verərsə; dövlətin qanunvericiliyinə



uyğun olaraq vaxtın bitməsi ilə və yaxud başqa qanuni əsaslarla əlaqədar olaraq cinayətkarın axtarılması və cinayətkara oxunan hökm icra olunması məsələsi qaldırıla bilməz; eyni bir cinayət əməlinə görə dövlətin ərazisində də cinayət işi qaldırılmışsa; dövlətin ərazisində cinayətkara eyni cinayətə görə hökm oxunmuşsa. Əksər ölkələr öz vətəndaşı olan cinayətkarı başqa ölkəyə vermirlər.

# Ç

**ÇAD** - Mərkəzi Afrikada yerləşir. Ərazisinin sahəsi 1.284.00 kv.km, əhalisinin sayı isə 6.400.000 ənfərdir. Dövlət dili fransız və ərəb dilləridir.

Ölkənin tam adı Çad Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Ncamena şəhəridir. Çad müstəqilliyini 11 avqust 1960-cı ildə Fransadan almışdır. Milli bayram 11 avqust Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan Milli Konfederasiyadır.

**ÇANTASIZ NAZİR** - Dövlətin heç bir nazirlik və heç bir mərkəzi dövlət idarəetmə orqanlarına rəhbərlik etməyən, lakin hökumət üzvü olan şəxsdir. Bir çox ölkələrdə çantasız nazir postunu, qaydaya görə, parlamentdə öz partiyasından olan deputatlar tərəfindən hökumətin müdafiəsini təmin edən siyasi xadimlər seçilirlər. Bəzən çantasız nazir siyasi müşavir kimi hökumət tərkibinə daxil olunur.

**ÇEXİYA** - Mərkəzi Avropada yerləşir. Ərazisinin sahəsi 78.865 kv.km, əhalisinin sayı isə 10.432.000 nəfərdir. Dövlət dili çex dilidir.

Ölkənin tam adı Çexiya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Praqa şəhəridir. Ölkə müstəqilliyini Çexoslovakiya dağıldıqdan sonra 1 yanvar 1993-cü ildə əldə etmişdir. Milli bayramlar: 5 iyul slavyan vaizləri Kiril və Mefodiya günü, 6 iyul Yan Qusun yandırılması günü, 28 oktyabr Çexoslovakiyanın azad edilməsi günüdür. Dövlət başçısı prezidentdir. icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət Senatdan (yuxarı palata) və Deputatlar Palatasından ibarət olan ikipalatalı parlamentdir.

**ÇİLİ** - Cənubi Amerikada yerləşir. Ərazisinin sahəsi 756.626 kv.km, əhalisinin sayı isə 14.161.200 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Çili Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Santyaqo şəhəridir. Çili müstəqilliyini 18 sentyabr 1810-cu ildə İspaniyadan əldə etmişdir. Milli bayramı 18 sentyabr Müstəqillik günüdür. Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan Senatdan (yuxarı palata) və Deputatlar palatasından (aşağı palata) ibarət olan Milli Konqresdir.

**ÇİN** - Asiyanın şərqində yerləşir. Ərazisinin sahəsi 9.560.000. kv.km, əhalisinin sayı isə 1.203.097.268 nəfərdir (1995). Dövlət dili çin dilidir.

Ölkənin tam adı Çin Xalq Respublikasıdır (ÇXR). Konstitusiyaya görə, ÇXR sosialist dövlətdir. Ölkənin paytaxtı Pekin şəhəridir. Çin Xalq Respublikası 1 oktyabr 1949-cu ildə yaradılmışdır və həmin gün milli bayram kimi qeyd olunur. İcra hakimiyyəti ÇXR-in Sədrinə (dövlət başçısı), Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin Sədrinə və ÇXR-in Dövlət Şurasının Sədrinə (hökumət başçısı) məxsusdur. Qanunverici orqan Ümumçin Xalq Nümayəndələri Məclisidir.

**ÇOXDƏRƏCƏLİ SEÇKİLƏR** - Birbaşa olmayan seçki formasıdır; bu halda müvafiq orqan və yaxud vəzifəli şəxs bilavasitə seçicilər tərəfindən deyil, daimi fəaliyyət göstərən nümayəndəli idarə tərəfindən seçilir. İkidərəcəli və yaxud üçdərəcəli seçkilər ola bilər. Məs., İtaliyada, AFR-də və bir sıra digər dövlətlərdə prezident parlament tərəfindən, yəni ikidərəcəli seçkilər yolu ilə seçilir. Fransa parlamentinin yuxarı palatası - Senat ikidərəcəli seçkilər (Milli Məclisin deputatları və departamentlərin baş şuralarının üzvləri tərəfindən), həm də üçdərəcəli seçkilər (bələdiyyə şuralarının üzvləri tərəfindən) yolu ilə seçilir.

Çoxdərəcəli seçkiləri dolayı seçkilərdən fərqləndirmək lazımdır; bu halda bilavasitə seçkiləri əhalinin seçdiyi xüsusi seçkilər kollegiyası həyata keçirir. Həmin kollegiya yalnız konkret vəzifəli şəxsləri seçmək üçün yaradılır və seçkilər keçirildikdən sonra buraxılır.

**ÇOXTƏRƏFLİ DİPLOMATİYA** - Beynəlxalq hökumətlərarası təşkilatların və konfransların işi ilə əlaqədar olaraq bir çox dövlətlərin nümayəndəliklərinin iştirakı ilə diplomatiyanın, məsləhətləşmələrin və s. aparılması ilə bağlı diplomatik fəaliyyətdir.

İkinci Dünya müharibəsindən sonra BMT-nin təşkil olunma-

sı, onun ixtisaslaşdırılmış orqanlarının, bir sıra regional təşkilatların və hökumətlərarası institutların yaranması ilə əlaqədar çoxtərəfli diplomatiyanın əhəmiyyəti artdı.

Çoxtərəfli diplomatiyanın genişlənməsi dövlətlərarası ünsiyyətin intensivləşməsi ilə əlaqədardır. Müharibədən sonrakı dövrdə dünyada baş verən böyük siyasi və sosial-iqtisadi irəliləyiş elmi-texniki inqilabın sürətlənməsinə təkan verdi, bu isə getdikcə artan qlobal problemlərin həlli üçün bütün dövlətlərin gücünü birləşdirməyi zəruri etdi.

İkitərəfli diplomatiyadan fərqli olaraq, çoxtərəfli diplomatiyanın bir çox xüsusiyyətləri vardır: çoxtərəfli diplomatiya qeyri-rəsmi görüşlər və fikir mübadiləsi şəklində, ümumi müzakirələr yolu ilə həyata keçirilə bilər; onun forumlarının işi, qaydaya görə prosedura ilə nizamlanır, qəbul edilən qərarları, qətnaməsi isə bəyannamə, yekun aktı, konvensiya, protokol və s. kimi qanuniləşdirilir.



# D

**DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ** - Münaqişə öz mənbəyini ekspansionizmdən və ərazi təcavüzü siyasətindən almışdır. Münaqişəyə səbəb isə Ermənistanın öz ərazisini hərbi təcavüz yolu ilə qonşu suveren Azərbaycan Respublikasının tarixi torpaqlarının hesabına genişləndirmək arzusudur.

1988-ci ilin fevral ayında Azərbaycan Sovet Sosialist Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) separatist qüvvələri Azərbaycandan ayrılmaq haqqında qərar qəbul etdilər. (1989-cu ilin statistikasına görə DQMV-in əhalisi 186.100 nəfər olmuş, bunların 138.600 nəfəri (73,5%) erməni, 47.500 nəfəri isə (25,3%) azərbaycanlılar olmuşlar). 1989-cu ilin dekabrında Ermənistan parlamenti beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq, qonşu Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi.

Ermənistan Azərbaycanın torpaqları olan Dağlıq Qarabağda qeyri-konstitusion hakimiyyət strukturlarını yaratmağa başladı. Azərbaycan ərazisində hərbi birləşmələr yerləşdirərək böyük miqdarda silah, hərbi sursat göndərməklə Azərbaycana qarşı silahlı təcavüzü həyata keçirmək üçün hərbi platsdarm yaratmışdır.

İrimiqyaslı hərbi əməliyyatalar erməni-azərbaycan münaqişə zonasında 1991-1992-ci illər geniş vüsət almağa başladı. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ bölgəsində ən müasir silahlardan istifadə edərək fevral ayında Azərbaycanın Xocalı şəhərini işğal etdilər, qadınlar, uşaqlar, qocalar da daxil olmaqla 800 nəfərdən çox dinc xocalı sakinini vəhşicəsinə öldürdülər. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın süqutu ilə nəticələndi. Bunun ardından silahlı münaqişə bölgə hüdudlarından kənara çıxmış və Azərbaycanın içərilərinə, Naxçıvan bölgəsi də daxil olmaqla Ermənistan-Azərbaycan sərhəddinə doğru irəliləmişdir. 1992-ci ilin mayından 1994-cü ilin may ayına qədər Azər-

baycanın DQMV-yə daxil olmayan daha 6 rayonu işğal olunmuşdur.

Beləliklə, Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində ölkənin 20% ərazisi - 17.000 kv.km torpaq sahəsi işğal altında qalmış, 18.000 nəfərə qədər insan həlak olmuş, 50.000 nəfər yaralanaraq əlil olmuş, 900 yaşayış məntəqələri, 100 min yaşayış tikililəri, 1 min iqtisadi obyektlər, 600-dən çox məktəb və təhsil ocaqları, 250 tibb mərkəzləri dağıdılmışdır. Ölkə daxilində köçkünlərin sayı 800 min nəfərə, Ermənistandan olan qaçqınlar isə 200 min nəfərə çatmışdır. Bu gün dünyanın elə bir ölkəsi yoxdur ki, əhalisinin sayı ilə qaçqınlarının sayının nisbəti Azərbaycandakı kimi olsun.

BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın Kəlbəcər rayonunun işğalı ilə (6 aprel, 1993) bağlı qəbul etdiyi 30 aprel 1993-cü il tarixli, 822 saylı qətnamədən sonra erməni hərbi birləşmələri Azərbaycanın Ağdərə və Ağdam rayonlarını işğal etdilər (uyğun olaraq 26-28 iyun 1993 və 23-24 iyul 1993), Təhlükəsizlik Şurasının Ağdamın işğalı ilə bağlı qəbul etdiyi 29 iyul 1993-cü il tarixli 853 saylı qətnaməsindən sonra Füzuli işğal olundu ( 23 avqust 1993-cü il), Təhlükəsiz Şurasının qəbul etdiyi 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnamədən sonra Cəbrail və Qubadlı rayonları işğal olundu, Təhlükəsizlik Şurasının 11 noyabr 1993-cü il tarixli, 884 saylı qətnaməsindən sonra isə Zəngilan rayonu və Horadiz qəsəbəsi işğal olundu.

Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş qətnamələrdə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi tələb edilir və hərbi güc vasitəsilə ərazilərin birləşdirilməsinin yolverilməzliyi vurğulanırdı. Bu qətnamələrdə həmçinin tə'cili olaraq hərbi əməliyyatların dayandırılması və təcavüzkar silahlı birləşmələrin qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və qaçqınların öz doğma yurdlarına qaytarılması tələb olunurdu. Təhlükəsizlik Şurasının tələblərinə əhəmiyyət verməyərək Ermənistan respublikası Azərbaycan torpaqlarını işğal etməkdə davam etdi.

Erməni işğallarının başlandığı ilk dövrlərdən başlayaraq. Rusiya tərəfi Ermənistana hərbi texnika və hərbi sursatla kömək



etmişdir. Rusiya Federasiyası ilə Ermənistan arasındakı əməkdaşlıq 27 avqust 1997-ci ildə iki dövlət arasında hərbi əməkdaşlıq müqaviləsi imzalanması ilə nəticələndi. Bu müddət ərzində Rusiya Ermənistana qeyri-qanuni yolla 1 mlrd. ABŞ dolları həcmində müxtəlif çeşidli yüngül və ağır silahlar vermişdir. Bütün bunlar Qarabağ münaşiqəsinin tənzimlənməsində vasitəçi rolunu oynayan ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya Federasiyasının bitərəflik mövqeyini şübhə altına qoyur. Azərbaycan tərəfi hesab edir ki, Rusiya və Ermənistan arasındakı hərbi ittifaq və Rusiyanın Ermənistanı qeyri-qanuni olaraq silahlandırması nəinki Azərbaycan-Ermənistan münaqişəsini, ümumiyyətlə sülhü və təhlükəsizliyi ciddi zərbə altına qoyur.

Bütün bunlara baxmayaraq, 1994-cü ilin mayın 12-də Azərbaycan və Ermənistan arasında atəşkəs rejiminin tətbiq edilməsi elan edildi.

Münaqişənin tənzimlənməsi ilə bağlı modelin beynəlxalq vasitəçilik öz başlanğıcını 1992-ci ilin fevralından erməni-Azərbaycan münaqişəsinin tənzimlənməsi ilə bağlı hazırlanmasında yeganə forum olan ATƏT-in Minsk konfransı çərçivəsindən götürür.

Qeyd etmək lazımdır ki, danışıq prosesinin əsas istiqamətləri ATƏT-in 1992-ci ilin martında Helsinkidə keçirilmiş əlavə görüşü, ATƏT-in Budapeşt və Lissabon sammitləri oldu. 1994-cü il ATƏT-in Budapeşt sammitinə əsasən Minsk konfransı həmsədrlərinin institutu yaradıldı. Onların öhdəsinə düşən vəzifə silahlı münaqişənin sona yetməsi ilə bağlı siyasi razılaşmanın imzalanması üçün operativ olaraq danışıqlar aparılmasından və sonrakı mərhələdə Minsk konfransının çağırılması üçün şəratin yaradılmasından ibarətdir. Beləliklə, Budapeşt sammitinin işi zamanı münaqişənin tənzimlənməsi prosesinin iki mərhələdə strukturunun müəyyən edilməsi başa çatdı:

1. Razılaşmanın həyata keçirilməsi yolu ilə silahlı münaqişənin nəticələrinin aradan qaldırılması. Bu o deməkdir ki, zəbt olunmuş bütün ərazilər boşaldılır və köçkünlərin öz daimi torpaqlarına qayıtması təmin olunur.

2. Minsk konfransının işi nəticəsində münaqişənin tam əha-

təli sülh yolu ilə tənzimlənməsi razılığı əldə olunur.

Budapeşt sammitindən sonra münaqişə tərəfləri ilə danışıqların 17 raundu və çoxsaylı məsləhətləşmələr aparılmışdır. Bu müddət ərzində sazişin mətninin 75% layihəsi hazırlanmışdır. Fəqət Şuşa və Laçın rayonları daxil olmaqla bütün ərazilərin boşaldılması, münaqişə iştirakçılarının təhlükəsizliyi və Ermənistanın silahlı qüvvələri bölmələrinin Azərbaycan ərazilərindən çıxarılması prinsipial məsələlər ucbatından razılaşdırılmamışdır.

1996-cı ilin Lissabon sammitində ATƏT-in icraçı sədrinin bəyanatında münaqişənin üç prinsip əsasında tənzimlənməsi öz əksini tapmışdır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Razılaşmada müəyyən edilmiş öz müqəddəratını təyin etməyə əsaslanan, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə dərəcəsi verən Dağlıq Qarabağın hüquqi statusu;
- Qarşılıqlı öhdəliklər daxil olmaqla tənzimləmə müddəalarına bütün tərəflərin riayət etməsi və Dağlıq Qarabağın, eləcə də onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Bu prinsiplər Ermənistandan başqa ATƏT-in 53 iştirakçı dövlətləri tərəfindən dəstəklənmişdir.

1996-cı ilin noyabr ayından Ermənistan iki dövlət arasındakı məsləhətləşmə xarakteri daşıyan əlaqələri kəsmişdir. Lissabon sammitindən və üçlü həmsədr institutunun təsisindən sonra (Rusiya, Fransa, ABŞ) 1997-ci ilin yayında heç bir nəticə verməyən danışıqların cəmi bir raundu keçirilmişdir.

1997-ci ilin iyun və sentyabr aylarında tərəflərə yeni sənəd hazırlanıb təqdim edilmişdir ki, bu da münaqişənin tənzimlənməsini iki mərhələdə nəzərdə tuturdu:

- Laçın rayonunu çıxmaq şərtilə keçmiş DQMV-nin hüdudlarından kənarda zəbt edilmiş 6 rayonun boşaldılması, mülki əhalinin yerlərinə qayıtması və münaqişə bölgəsində əsas kommunikasiyaların bərpası.
- Laçın və Şuşa ətrafında vəziyyətin tənzimlənməsi və Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsiplərinin qəbul edilməsi.



1997-ci ilin oktyabrında Azərbaycan rəsmi olaraq həmsədrliyi sonrakı danışıqlarda əsas kimi sənədi qəbul etməsi barədə məlumatlandırdı.

1997-ci ilin 10 oktyabr tarixində Azərbaycan və Ermənistan prezidentləri danışıqların həmsədrlərin təklifləri əsasında başlanması üçün Starsburqda birgə bəyanat verdilər.

1997-ci ilin oktyabr və dekabrında Kopenhagendə ATƏT-in XİN-in məsləhətləşmələri keçirildi. İcraçı sədr Minsk qrupu həmsədrlərinə müraciət edərək münaqişənin həlli ilə bağlı görülən işi davam etdirməyi xahiş etdi və tərəfləri danışıqları həmsədrlərin təklifləri əsasında bərpa etməyə çağırdı. Elə həmin görüşdə görüş iştirakçılarına həmsədrlərin məruzəsi paylandı və orada qeyd edildi ki, münaqişənin həlli ilə bağlı bütün səylər Lissabon prinsiplərinə və həmsədrlərin son təkliflərinə əsaslanmalıdır.

1998-ci ilin may ayının 13-17-də həmsədrlərin bölgəyə səfəri zamanı Ermənistanın yeni prezidenti Robert Köçəryan Ermənistanın keçmiş prezidenti (L.Ter-Petrosyan) münaqişənin mərhələli həlli ilə bağlı mövqeyini geri çağırdı və ilkin şərtlərsiz münaqişənin paket həllinə üstünlük verdi.

1998-ci ilin noyabr ayının 9-da həmsədrlər yenidən paket formulu kəsb edən "ümumi dövlət" konsepsiyası əsasında münaqişənin tənzimlənməsinin yeni planını təqdim etdilər. Bununla bağlı Azərbaycan ilkin məsləhətləşmələr nəticəsində noyabr ayının 9-da bu təklifləri rədd etdi. Noyabr ayının 19-da vasitəçiləri təklifin qəbuledilməzliyi barədə rəsmi olaraq məlumatlandırdı.

Noyabr ayının 20-də Dağlıq Qarabağın Azərbaycan icması 9 noyabr təkliflərini rəsmi olaraq rədd etdi, noyabr ayının 25-də isə Ermənistan və Dağlıq Qarabağ erməniləri təqdim olunan təkliflərin məqbul sayıldığını bildirdilər.

Dekabr ayının 2-3-də ATƏT-in XİN-in Osloda keçirilən görüşündə icraçı sədrin qəbul etdiyi yekun sənəddə Minsk prosesi ilə bağlı bənd öz əksini tapmışdır. İcraçı sədr münaqişədə olan tərəfləri Minsk Qrupu çərçivəsində danışıqları bərpa etməyə, həmsədrləri isə münaqişənin həlli yollarında səylərini artırmağa çağırmışdır.

1999-cu ilin aprel ayının 2-də Azərbaycan və Ermənistan prezidentləri Moskvada keçirilmiş MDB sammitində görüşdülər. Görüşdə erməni-Azərbaycan münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məsələsi ilə bağlı bir sıra görüşlərin keçirilməsi razılığı əldə olunmuşdur. 1999-cu ilin 24 aprel tarixində Vaşinqtonda, 16-22 avqust tarixlərində Cenevrədə, sentyabr ayının 10-da Yaltada və oktyabr ayının 11-də isə Sədərəkdə (Naxçıvan) keçirilmiş iki ölkə prezidentləri arasındakı görüşdə fikir mübadiləsi aparmaq təklifi irəli sürülmüşdür.

Sentyabr ayının 18-də ATƏT-in İcraçı sədri, Norveçin xarici işlər naziri cənab K.Vollebek Azərbaycana səfəri zamanı bildirmişdir ki, Azərbaycan və Ermənistan prezidentlərinin görüşləri və məsləhətləşmələri ATƏT-in Minsk prosesini dəyişdirmir. Görüşdə ATƏT-in Minsk qrupu həmsədrlərini öz səylərini artırmağa və hər iki tərəf üçün məqbul sayılan yeni təkliflərin irəli sürülməsinə çağırmışdır.

Bundan sonrakı müddətdə MDB çərçivəsində keçirilən toplantılarda və müxtəlif beynəlxalq toplantılarda Azərbaycan və Ermənistan Respublikalarının dövlət başçılarının görüşləri keçirilmiş, münaqişənin həlli yolları araşdırılmışdır.

Azərbaycan tərəfi hesab edir ki, münaqişənin həlli üçün tapılacaq kompromis variant yalnız və yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır.

**DAXİLİ SULAR** - Dövlətin ərazi sularını çıxmaqla bütün su ərazisinə deyilir (bax. Dövlət ərazisi). Başqa sözlə, dövlətin ərazisi daxilində yerləşən çaylar, göllər, boğazlar, kanallar, daxili dənizlər, habelə limanlar, daxili körfəzlər və buxtalar dövlətin daxili suları hesab olunur.

BMT-nin 1982-ci ildə qəbul olunmuş dəniz hüququ konvensiyasına görə, ərazi sularının enini ölçmək üçün qəbul olunmuş çıxış xətti adlanan xətdən sahilə doğru yerləşən sular daxili suların tərkibinə daxildir. Dövlət arxipelaqının daxili sularının arxipelaq suları sərhədində delimitasiyası 1982-ci il Konvensiyasının 9-11-ci maddələrinin müddəaları ilə həyata keçir. Ərazi sularının enini ölçmək üçün çıxış xəttinin müəyyən edilməsi elə su ərazilərini daxili sulara aid edə bilər ki, həmin ərazi bu vaxta qədər daxili sulara daxil olmamış olsun. Bu halda belə sulara



sülh keçidi hüququ tətbiq olunur.

Dövlətin daxili sularındakı gəmiçilik və başqa istənilən fəaliyyəti (həmçinin xarici hərbi və qeyri-hərbi gəmilərin buraxılması məsələsi) bu dövlətin milli qanunvericiliyi ilə nizamlanır.

**DAİMİ NÜMAYƏNDƏLİK** - Dövlətin xarici münasibətlər üzrə orqanıdır; həmin dövlət tərəfindən xaricdə üzv olduğu beynəlxalq təşkilatın nəzdində yaradılır. Daimi nümayəndəliyin hüquqi vəziyyəti universal xarakterli beynəlxalq təşkilatlarla, habelə digər çoxtərəfli və ikitərəfli müqavilələr əsasında yaranmış təşkilatlarla münasibətlərdə nümayəndəliyin hüquqi vəziyyəti haqqında Vyana konvensiyasında (1975) müəyyən edilmişdir. Daimi nümayəndəlik beynəlxalq təşkilatın fəaliyyətində dövlətin iştirakını və onun həmin təşkilatda mənafeyinin müdafiə olunmasını təmin edir. Olduğu ölkədə daimi nümayəndəliyə verilən immunitet və imtiyazlardan istifadə edir.

Azərbaycanın Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatında, Cenevrədə BMT-nin Avropa bölməsində və s. təşkilatlarda daimi nümayəndəliyi vardır.

**DANİMARKA** - Avropanın şimali-qərbində yerləşən dövlətdir. Ölkənin ərazisinin sahəsi 43.069 kv.km, əhalisinin sayı isə 5.199.437 nəfərdir. Dövlət dili Danimarka dilidir.

Ölkənin tam adı Danimarka Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkənin paytaxtı Kopenhagen şəhəridir. Danimarkaya məxsus olan Farer və Qrenlandiya adası daxili muxtariyyata malikdir. 1849-cu ildə Danimarka konstitusiyalı monarxiya elan olunmuşdur. Milli bayramlar: 16 aprel Kraliçanın doğum günü (1940) və 5 iyun Konstitusiya günüdür. Dövlət başçısı Danimarka kraliçasıdır (Kraliça II Marqarita 14 yanvar 1972-ci ildən hakimiyyətdədir), real icra hakimiyyəti isə baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyəti kraliça özü birpalatalı parlament olan Folkeniqlə birlikdə həyata keçirir.

**DE-FAKTO** - Faktiki tanınmadır. Bu barədə xüsusi rəsmi bəyanat vermədən ticarət müqaviləsi və ya başqa müqavilə bağlamaq, gediş-gəliş üçün icazə (viza) verib-almaq və s. bu kimi işgüzar münasibətlərə faktiki girmək yolu ilə mümkündür.

Faktiki tanınma hüquqi tanınmaya nisbətən məhdud, nata-

mam məzmunlu olmaqla yanaşı, huquqi tanınmadan əvvəl olur və onun üçün keçid forması hesab edilir.

**DEMARŞ** - Hökumətin, xarici işlər idarəsinin və yaxud diplomatik nümayəndəliyin başqa dövlətin hökuməti qarşısında başladığı diplomatik aksiyadır. Demarş müxtəlif formada (nota, memorandum, bəyanat və s.) və müxtəlif məzmunda (xahişdən başlayaraq qəti etiraza qədər) ola bilər.

Demarş ümumqəbulolunmuş beynəlxalq normalara riayət etməklə həyata keçirilməlidir.

**DEMİLİTARİZASİYA** (silahsızlaşdırma) - Müəyyən bir ərazidən dinc dövrdə müharibə məqsədləri üçün istifadə edilməsini qadağan edən beynəlxalq-hüquqi rejimdir. Demilitarizasiya iki cür olur: tam və qismən. Tam demilitarizasiya olan ərazidə hərbi qurğular ləğv edilir, yaxud tikilməsinə yol verilmir, istənilən növ silahların yerləşdirilməsi, hərbi qüvvə saxlanılması, yaxud manevrlər keçirmək, başqa hərbi fəaliyyətlə məşğul olmaq qadağan edilir. Qismən demilitarizasiyada isə ya müəyyən edilmiş növ hərbi əməliyyatların keçirilməsi qadağan edilir, ya da silahlanmaq üçün məhdud səviyyə müəyyən olunur ki, həmin səviyyəni keçmək olmaz.

Demilitarizasiya adətən, sərhədyanı zonalara, müvəqqəti demorkasiya xətti və ona yaxın olan rayonlara tətbiq olunur. Demilitarizasiya beynəlxalq gəmiçilik üçün istifadə olunan körfəzlərə, kanallara, adalara, regionlara, kontinentlərə tətbiq oluna bilər. Antarktika haqqındakı 1959-cu il müqaviləsi bu rayonun tam demilitarizasiyasını nəzərdə tutur, həmçinin Alan və Şpitsbergen arxipelaqları da demilitarizasiya olunmuş ərazilərdir.

**DEMOKRATİYA** (yun. demokratiya, hərfən xalq hakimiyyəti. demos-xalq və kratos-hakimiyyət) - Xalqı hakimiyyət mənbəyi sayan ictimai hakimiyyət, dövlət formasıdır.

Dövlət formalarından biri olan demokratiya dövlətin digər formalarından (istibdad, avtokratiya, totalitarizm və s.) aşağıdakı prinsiplərə görə fərqlənir: azlığın çoxluğa tabeliyi prinsipinin rəsmən qəbul edilməsi, bütün vətəndaşların formal və yaxud faktiki bərabərliyi, qanunvericilikdə təsbit olunmuş siyasi və sosial hüquqlar və azadlıqlar, habelə bütün vətəndaşların cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etməyə bərabər hüququnun



olması. Demokratiyanın əsas əlamətlərindən digər əlamətlər də törəyir: əsas dövlət orqanlarının və vəzifəli şəxslərin seçkili olması və onların seçicilər qarşısında hesabat verməsi, təyin edilməklə yaradılan dövlət orqanlarının (və qulluqçuların) seçkili təsisatların nəzarəti altında olması və onların qarşısında məsuliyyət daşıması, dövlət fəaliyyətində aşkarlıq və s. Nümayəndəli demokratiya institutları (əsas qərarların səlahiyyətli seçkili idarələr tərəfindən qəbul olunması) və bilavasitə demokratiya institutları (əsas qərarların bilavasitə vətəndaşlar tərəfindən, məs. Referendum qaydasında qəbul olunması) fərqləndirilir.

Qeyri-dövlət ictimai-siyasi həyat sahəsində də demokratiya prinsiplərindən istifadə edilir, müxtəlif ictimai təşkilatlar (partiyalar, həmkarlar ittifaqları və s.) həmin prinsiplərlə qurulur və fəaliyyət göstərir.

**DENONSASİYA** - Bağlanmış müqavilədən dövlətin imtina etməsidir, beynəlxalq müqavilələrin dayandırılmasının ən çox yayılan hüquqi formasıdır. Beynəlxalq müqavilələrin pozulmasının başqa üsullarından fərqli olaraq denonsasiyanın qanunları aşağıdakı əlamətlərlə xarakterizə olunur: denonsasiya hüququ müqavilənin özündə nəzərdə tutulmalıdır, denonsasiya ciddi müəyyən olunmuş müqavilə ilə elə qaydada baş verir ki, bu qaydaya riayət etməmək, denonsasiyanın həqiqiliyinə etiraz yaradır.

Denonsasiya ilə yanaşı beynəlxalq müqavilələrin dayandırılmasının başqa üsulları da vardır, lakin onların hamısı qanuni olmalıdır, yəni beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olmalıdır. İkitərəfli müqavilədəki fəaliyyətin dayandırılması üsullarından biri müqavilənin ləğv edilməsi - dövlətin bağlanmış müqavilədən imtina etməsidir, belə ki, müqavilənin ləğvi onun şərtlərinə riayət edilməməsi ilə baş verir və birtərəfli xarakter daşıyır. Çoxtərəfli müqavilələr yalnız onu denonsasiya etmiş dövlət üçün qüvvədən düşür, digər iştirakçılar arasında müqavilə qüvvədə qalır.

Müqavilənin ləğvinin qanuniliyi ciddi siyasi-hüquqi əsaslarla şərtlənməlidir (məs; müqavilənin hüquqa zidd olması və s).

**DEPOZİTOR** (lat. depositum - saxlanma yeri) - Beynəlxalq çoxtərəfli müqavilənin özünü və ona aid olan bütün sənədlərin

orijinalını özündə saxlayan bir və ya bir neçə dövlət, beynəlxalq hökumətlərarası təşkilat və ya belə təşkilatın əsas rəsmi şəxsidir.

Depozitor çoxtərəfli müqavilənin normal fəaliyyətində mühüm rol oynayır. Depozitorun rolu həmçinin ona verilmiş səlahiyyətin qorunmasından da ibarətdir; orijinal mətnin surətinin çıxarılması, müqavilənin mətninin lazım olan dillərə tərcümə edilərək müqavilənin iştirakçısı olan dövlətlərə paylanması; müqavilənin imzalanması, sənədlər haqqında iştirakçıları məlumatlandırmaq; imzaların sayı, müqavilənin ratifikasiya olunması, müqavilənin qüvvəyə minməsi haqqında dövləti məlumatlandırmaq; müqavilənin BMT-nin katibliyində qeydiyyata alınması və s.

**DEPOZİTƏ QOYMA** - Beynəlxalq müqavilənin ratifikasiya sənədini, müqavilənin təsdiqi sənədlərini və bunlara aid başqa sənədlərin depozitora saxlamaq üçün verilməsidir. Diplomatik və ya başqa səlahiyyətli nümayəndə tərəfindən hazırlanan sənədlərin depozitə qoyulması, adətən, depozitor dövlətin xarici işlər idarəsində və ya depozitor beynəlxalq təşkilatın katibliyində sənədin saxlanmağa verilməsi haqqında tərtib edilmiş protokolda qeyd edilir.

**DE-YURE** - Hüquqi və ya diplomatik tanınmadır. Bəyannamə, nota, müqavilə və s. bu kimi müəyyən diplomatik aktla ifadə edilərək, müvafiq dövlətlər arasında qarşılıqlı iqtisadi, siyasi və s. münasibətlərin normal və daha yaxşı inkişafı üçün zəruri şərait yaradır. Hüquqi tanınma öz qüvvəsini yalnız tanınma aktı üçün əsas olan şəraitin ləğv olunması ilə itirir.

**DƏNİZ BLOKADASI** - Blokadaya alınmış dövlətin dəniz vasitəsilə xarici əlaqələrini kəsmək məqsədilə dövlətin limanlarının, körfəz zolaqlarının, ərazilərinin və yaxud bütöv dənizkənarı sahələrinin izolyasiya edilməsi və dövlətin hərbi-dəniz qüvvələrinin blokada rayonundan kənara çıxmasının qadağan edilməsidir.

Dəniz blokadasının qaydaları dəniz mühasirəsi hüququ haqqındakı 1909-cu il London bəyannaməsində əks olunmuşdur. Bu bəyannamə qüvvəyə minməmişdir, lakin buna baxmayaraq, dəniz müharibəsi qayda və qanunları sahəsində mühüm beynəlxalq-hüquqi sənəd hesab olunur. London bəyannaməsinə görə dəniz blokadası rəqib dövlətlərin yalnız liman və dənizkənarı sahillərinə tətbiq edilə bilər və neytral limanlara gedən yolları kəsməməlidir.



İstənilən blokadanın, o cümlədən dəniz blokadasının qanunlarının meyarı beynəlxalq hüququn ümumqəbulolunmuş norma və prinsiplərinə, ilk növbədə BMT-nin Nizamnaməsində və təcavüzün tərifində özünə yer tutmuş norma və prinsiplərə riayət olunmasıdır. BMT-nin Nizamnaməsinin 42 və 51-ci maddələrinə uyğun olaraq dəniz blokadası 2 halda qanunidir: BMT-nin Təhlükəsizlik Şurasının qərarı ilə beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş fəaliyyəti tətbiq etmək zərurəti yarandıqda və dövlətlərin ayrılmaz hüququ olan kollektiv və induvidual özünümüdafiəsini həyata keçirdikdə. Başqa istənilən halda blokada (müharibənin elan edilməsindən asılı olmayaraq) qeyri-qanunidir və təcavüz aktı kimi qəbul olunur.

**DƏNİZ HÜQUQU** - Dənizdən istifadə prosesində əmələ gələn ictimai münasibətləri nizamlayan hüquq normalarının məcmusudur. Ticarət və hərbi dənizçilik, balıqçılıq və digər canlıların ovlanmasını, mineral ehtiyatların çıxarılmasını, elmi tədqiqatların aparılmasını və s. fəaliyyət növlərini nizama salır. Beynəlxalq dəniz hüququ dünya okeanında həm dövlətlər arasında, həm də onların vətəndaşları və təşkilatları (hüquqi şəxslərin) arasında əməkdaşlığı nizamladığından buraya beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq normaları daxildir. Beynəlxalq ümumi dəniz hüququ dünya okeanından istifadə edilməsilə əlaqədar dövlətlərarası münasibətlərin hüquqi məsələlərini nizama salır. Bu prinsiplərin ən əsası açıq dənizin azadlığı prinsipidir. Bu prinsipə görə bütün dövlətlər və xalqlar dünya okeanından bərabər hüquqla istifadə edir.

Beynəlxalq dəniz hüququ sahəsində mühüm aktlar bunlardır: BMT Nizamnaməsi, 1958-ci il Cenevrə Konvensiyaları (məhəlli dənizi və bitişik zona haqqında, açıq dəniz haqqında, kontinental şelf haqqında, balıqçılıq və açıq dənizin canlı ehtiyatlarının qorunması haqqında), 1910-cu il Brüssel Konvensiyası, 1954-cü il London Konvensiyaları (1962, 1971, 1974-cü il düzəlişləri ilə), dənizdə insan həyatının mühafizəsi haqqında 1960-cı il Konvensiyası. Atmosferdə, Kosmik fəzada və su altında nüvə silahı sı-

nağının qadağan edilməsi haqqında 1963-cü il Moskva müqaviləsinin, dənizlərin və okeanların dibində nüvə silahının və digər növ kütləvi qırğın silahının yerləşdirilməsinin qadağan edilməsi haqqında 1971-ci il müqaviləsinin beynəlxalq dəniz hüququ üçün böyük əhəmiyyəti vardır. 1982-ci ildə BMT-nin dəniz hüququ sahəsində konvensiyası qəbul edilmişdir. 1982-ci il Konvensiyasını 150 dövlət imzalamış, 60 dövlət ratifikasiya etmişdir.

Beynəlxalq xüsusi dəniz hüququ dövlət orqanlarının, vətəndaşların və təşkilatların ticarət dənizçiliyi ilə əlaqədar xarici dövlət orqanları, vətəndaşları və təşkilatları arasında əmələ gələn münasibətləri (dənizlə yük, sərnişin daşıma müqavilələri, gəmilərin toqquşmasından əmələ gələn zərərin ödənilməsi, dəniz pretenziyalarına və iddialarına məhkəmədə və arbitrajda baxılması məsələsi və s.) nizama salır. Beynəlxalq xüsusi dəniz hüququnun normaları əsasən ikitərəfli beynəlxalq sazişlərlə (kontraktlarla) müəyyən edilir.

**DƏNİZ MÜHARİBƏSİ** - Hərbi münaqişə vəziyyətində olan tərəflərin həyata keçirdikləri hərbi-dəniz əməliyyatlarının bütün mümkün olan formalarıdır.

Dəniz müharibəsinin əksər qayda və qanunları aşağıdakı xüsusi müqavilə aktlarında təsbit edilmişdir: dəniz blokadası haqqında 1856-cı il Paris bəyannaməsi, 1899-cu il və 1907-ci il Haaqa konvensiyaları, dəniz müharibəsinin hüququ haqqında 1909-cu il London bəyannaməsi; 1936-cı il London protokoluna əlavə olunmuş müharibə zamanı sualtı qayıqların ticarət gəmilərinə qarşı fəaliyyəti haqqında qaydalar, müharibə qurbanları haqqında 1949-cu il Cenevrə konvensiyası və bu konvensiyaya əlavə olan 1977-ci il protokolları, dəniz və okeanların dibinə nüvə silahlarının, başqa kütləvi qırğın silahlarının yayılmasının qadağan edilməsi haqqında 1971-ci il müqaviləsi və başqa müqavilələr. Dəniz müharibəsinin aparılmasını tənzimləyən bir çox normaların texniki baxımdan köhnəlməsinə baxmayaraq, bu normaların vacibliyi bu gün də öz qüvvəsində qalır.

Dəniz müharibəsinin qayda və qanunlarına görə hərbi-dəniz əməliyyatları yalnız döyüşən tərəflərin hərbi-dəniz qüvvələri tərəfindən açıq dənizi, döyüşən tərəflərin ərazi sularını və bu suların üzərindəki hava məkanını əhatə edən sahədə aparılmalıdır. Bu sahəyə neytral dövlətlərin ərazi və daxili suları, həmçinin beynəxalq gəmiçilik üçün istifadə olunan körfəzlər, beynəlxalq kanallar və çaylar daxil deyildir. Bu sahələrə dəniz blokadası tətbiq oluna bilməz. Hərbi-dəniz qüvvələri tərəfindən müdafiə olunmayan limanların, şəhərlərin, yaşayış məntəqələrinin bombardman edilməsi qadağan olunur. Lakin bu akt əks tərəfin ordu və dəniz donanmasının istifadə edə biləcəyi hərbi anbarlara, hərbi bazalara aid edilmir. 1949-cu il Cenevrə konvensiyasının müddəalarına görə, dəniz müharibəsi zamanı yaralılar, xəstələr və qospital gəmiləri müdafiədən istifadə etmək hüququna malikdirlər.

Dəniz müharibəsi zamanı döyüşən tərəflərin ticarət və sərnişin gəmiləri üçün (əgər bu gəmilər hərbi məqsədlər üçün istifadə olunmursa) güzəşt rejimi nəzərdə tutulmuşdur. Xüsusi halda açıq dənizdə mühafizəsiz gəzən belə gəmilər xəbərdarlıq edilməmiş hücuma məruz qala bilməzlər. Neytral ticarət gəmiləri dəniz blokadasının qaydalarını pozduqda, hərbi kontrabanda daşıdıqda, əks tərəfə kömək etdikdə və yaxud gəmidə yoxlanma aparılmasına müqavimət göstərdikdə onlara qarşı tədbir görülə bilər.

**DƏNİZƏ ÇIXIŞI OLMAYAN DÖVLƏTLƏR** - Ərazisi bir və ya bir neçə başqa dövlətlərin ərazisi ilə dənizdən ayrılan dövlətlərə deyilir.

Açıq dəniz haqqında 1958-ci il Cenevrə Konvensiyasında və BMT-nin dəniz hüququ haqqında 1982-ci il konvensiyasında öz əksini tapmış beynəlxalq hüquq normalarına görə belə dövlətlər dənizə çıxmaq və dənizlərdə öz hüquqlarını həyata keçirmək, o cümlədən açıq dənizlərin azad olmasına münasibətdə başqa dövlətlərlə bərabər əsaslarla hüquqa malikdirlər. Bu məqsədlə belə dövlətlər onları əhatə edən ərazilərdən keçən bütün nəqliyyat vasitələrindən azad tranzit kimi istifadə edirlər. Azad tranzitin şərtləri və qaydaları ərazisindən tranzit keçən dövlətlərlə ikitərəfli, subregional və yaxud regional müqavilələrlə razılaşdırılır. Belə ki, tranzit dövlət elə qərarlar qəbul edir ki, onun qanuni maraqları məhdudlaşdırılmasın. Dənizə çıxışı olmayan dövlətlərin bayraqları altında üzən gəmilər dəniz limanlarında başqa xarici dövlətlərin istifadə etdiyi qaydalardan istifadə edirlər.

**DƏNİZİN DİBİ ÜZRƏ BEYNƏLXALQ ORQAN** - Beynəlxalq hökumətlərarası təşkilatdır. Təşkilatın yaradılması BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasında nəzərdə tutulmuşdur. Konvensiyanın iştirakçısı olan bütün dövlətlər avtomatik olaraq beynəlxalq orqanın üzvləridirlər.

Beynəlxalq orqanın əsas vəzifəsi beynəlxalq dəniz dibi rayonunun maddi ehtiyatlarının kəşfiyyatı və işlədilməsinin təşkili və nəzarətidir. 1982-ci il konvensiyasına görə, Beynəlxalq orqana təkcə dövlətlərin siyasi əməkdaşlığı sahəsində deyil, həmçinin təsərrüfat sahəsində də geniş səlahiyyətlər verilmişdir. 1982-ci il konvensiyasına görə Beynəlxalq orqana dövlətlərlə yanaşı dənizin dibinin resuslarından istismar etmək hüququ verilmişdir. Beynəlxalq orqanın əsas orqanı Məclis, Şura və Katiblikdir. Şura Beynəlxalq orqanın icraedici orqanıdır, 36 nəfərdən ibarətdir. Bunlardan 18-i xüsusi marağı olan dövlətləri təmsil edirlər, qalan 18-i isə coğrafi bölgü üzrə seçilmiş nümayəndələrdir. Norma, qayda və prosedur məsələlərlə bağlı qərarı Şura konsensus yolu ilə qəbul edir; qalan bütün məsələlər üzrə qərarı 3/4 səs çoxluğu ilə qəbul edir. 1983-cü ildən dəniz dibi üzrə Beynəlxalq orqan üçün və dəniz hüququ üzrə Beynəlxalq tribunal üçün Hazırlıq Komissiyası fəaliyyət göstərir.

**DİKTATURA** (lat. dictatura - qeyri-məhdud hakimiyyət) - Dövlət hakimiyyətinin həyata keçirilməsi sistemini xarakterizə edən formadır.

Diktatura siyasi rejimində hakimiyyət bir şəxsin - diktatorun yaxud bir neçə şəxsin əlində cəmlənir, siyasət isə zorakılıq və terror metodları ilə həyata keçirilir. Diktatora heç bir məhdudiyyət və nəzarət qoyulmadığı halda demokratik hüquq və azadlıqlara açıq şəkildə qəsd edilir, nümayəndəli orqanların hüquqları məhdudlaşdırılır.

**DİNC YANAŞI YAŞAMA** - Dövlətlər arasındakı münasibətlərin növüdür və o, müharibədən, zorakılıqdan imtina edilməsini; dövlətlər arasında mübahisələrin dinc yolla həllini; dövlətlər arasında hüquq bərabərliyinin, qarşılıqlı anlaşmanın və bir-birinin mənafeyinin nəzərə alınmasını, daxili işlərə qarışmamaq, hər bir xalqın öz daxili problemlərini müstəqil surətdə həll etmək hüququnun tanınmasını, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə ciddi hörmət edilməsini, tam bərabərlik və qarşılıqlı fayda əsasında iqtisadi və mədəni əməkdaşlığın təmin edilməsini, ümumtanınmış beynəlxalq hüquq normalarından, bağlanmış beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin vicdanla yerinə yetirilməsini nəzərdə tutur. Dinc yanaşı yaşama ictimai inkişafın obyektiv qanunauyğunluqlarını, müasir dövrün mürəkkəb xarakterini əks etdirir.

Beynəlxalq münasibətlərin aktual problemlərinin dinc yanaşı yaşama prinsipi əsasında həlli sahəsində aparılan fəal məqsədyönlü fəaliyyət beynəlxalq münasibətlərdə köklü dəyişikliklərin başlanğıcı oldu, bu münasibətlərdə mütərəqqi, demokratik, müstəmləkəçiliyə qarşı meyllərin formalaşmasına, dövlətlərarası münasibətlərin və beynəlxalq hüququn yeni prinsiplərinin işlənib hazırlanmasına kömək etdi.

Dinc yanaşı yaşama prinsipi mühüm beynəlxalq sənədlərlə təsbit edilmişdir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin qəbul edilməsi bu prinsipin beynəlxalq hüququn ümumtanınmış normalarına çevrilməsində həlledici mərhələ oldu. Nizamnamədə qeyd edilir ki, xalqlar bir-birilə yola getmək və birgə sülh şəraitində, xeyirxah qonşu kimi yaşamaq arzusundadır; orada millətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin və beynəlxalq problemlərin beynəlxalq əməkdaşlıq əsasında həll edilməsinin zəruriliyi göstərilmiş (m.7), təcavüz qadağan edilmişdir. BMT Nizamnaməsinin bu müddəaları beynəlxalq hüquq prinsipləri haqqında bəyannamədə və BMT-nin digər sənədlərində konkretləşdirilib. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa Dair Müşavirə (1975, Helsinki) dinc yanaşı yaşama prinsipinin hüquqi cəhətdən təsbit edilməsində mühüm mərhələ oldu.

**DİPLOMAT** - Dövlətin xarici dövlətlə rəsmi münasibətlərini həyata keçirən və bunun üçün zəruri xüsusi hazırlığa malik olan vəzifəli şəxsdir.

**DİPLOMATİK AGENTLİK** - Diplomatik nümayəndəliyin XVIII-XIX əsrlərin praktikası üçün xarakterik olan adlandırılmasıdır.

1815-ci il Vyana reqlamentinə görə diplomatik agent adı yalnız diplomatik nümayəndəliyin başçısına aid idi. Müasir bey-

nəlxalq praktikada "diplomatik agent" termini dövlətin diplomatik nümayəndəsinin (səfir, elçi, müvəqqəti işlər vəkili), səfirlik və missiyanın diplomatik heyətinin nümayəndələrinin ümumi adlandırılması kimi tətbiq olunur.

**DİPLOMATİK ARXİVLƏR** - Xarici işlər idarəsinin və onun xaricdəki nümayəndəliklərinin fəaliyyəti nəticəsində toplanmış sənədli materialların toplumuna deyilir. Beynəlxalq praktikada diplomatik arxivlər anlayışı əsas etibarilə diplomatik və konsulluq nümayəndəliklərinin arxivləri ilə əhatə olunur. Diplomatik əlaqələr haqqında *1961-ci il Vyana konvensiyasına görə* diplomatik nümayəndəliyin arxiv və sənədləri onların yerləşdiyi yerdən asılı olmayaraq həmişə toxunulmazdır.

**DİPLOMATİK AUDENSİYA** - Diplomatik nümayəndəliyin başçısının dövlət başçısı, hökumət başçısı, xarici işlər naziri və hökumətin başqa üzvləri tərəfindən qəbul edilməsidir. Yerli protokol qaydalarında diplomatik nümayəndəliyin vəzifəsindən və audensiyanın xarakterindən asılı olaraq qəbulu təntənəli şəraitdə, yaxud protokol qaydaları olmadan keçirilə bilər. Özünün etimadnaməsini dövlət başçısına təqdim edən xarici ölkənin diplomatik nümayəndəsi dövlət başçısı tərəfindən təntənəli şəkildə qəbul edilir.

**DİPLOMATİK BÖYÜKLÜK** - Diplomatik protokolda aşağıdakılara riayət olunan mühüm qaydalardan biridir: tədbirlərə dəvət olunmuş diplomatik korpusun kollektiv böyüklüyü, diplomatik nümayəndəliklərin başçıları arasında böyüklük, diplomatik nümayəndələrlə fəaliyyət göstərdikləri ölkənin hakimiyyət orqanları arasında böyüklük, hər hansı diplomatik nümayəndəliyin diplomatları arasında böyüklük və s.

Tədbirlərə, mərasimlərə dəvət olunmuş diplomatik korpusa bu tədbirdə iştirak edən dövlət başçısı və ya hökumət başçısının yanında ən yaxşı yerlər təklif olunmalıdır. Diplomatik korpusu səfir, elçi və müvəqqəti işçilər kimi qruplara bölüb müxtəlif yerlərdə otuzdurmaq olmaz.

Diplomatik nümayəndəliklərin başçılarının içərisində yerli praktikaya uyğun diplomatik böyüklük diplomatik nümayəndələrin fəaliyyət göstərdikləri ölkəyə gəldikləri vaxtdan və ya onlara etimadnamənin verilməsi *tarixi ilə müəyyən olunur*. Müvəqqəti işlər vəkillərinin diplomatik böyüklüyü isə onların vəzifəyə



başladığı tarixlə müəyyən olunur.

Bir sıra ölkələrdə nunsilərin (Vatikanın nümayəndəsi) ənənəyə görə ölkəyə gəlməsi tarixindən və ya etimadnaməsinin verilməsi tarixindən asılı olmayaraq qalan bütün səfirlərlə münasibətdə diplomatik böyüklüyə malikdirlər. Ona görə də onlar həmişə diplomatik korpusun duayeni adlanırlar.

Diplomatik nümayəndələrlə yerli hökumət *nümayəndələri* arasında böyüklük məsələsi beynəlxalq praktikaya uyğun olaraq əsas etibarı ilə aşağıdakı qaydada nizamlanır: xarici səfirlər öz dövlətlərinin rəsmi nümayəndələri olduğu üçün protokol tədbirlərində fəaliyyət göstərdikləri ölkənin dövlət *başçısının birbaşa* olaraq ardınca getməlidirlər. Lakin beynəlxalq nəzakət qaydalarına uyğun olaraq səfirlər könüllü olaraq öz yerlərini ölkənin baş nazirinə və xarici işlər nazirinə verirlər. Hər bir diplomatik nümayəndəlikdə diplomatik böyüklük məsələsi onların öz ölkələrinin qaydası ilə müəyyən olunur. Diplomatik ranqı nəzərə almaqla səfirlik və missiyaların işçilərinin diplomatik böyüklüyü aşağıdakı şəkildə nəzərdə tutulur: səfir, müşavir-elçi, müşavir (diplomatik), hərbi attaşe, xüsusi attaşe (mədəniyyət və s. məsələlər), 1-ci katib, 2-ci katib, 3-cü katib, attaşe (dip.)

**DİPLOMATİK DANIŞIQLAR** - Diplomatik danışıqlar dövlətlər arasında meydana çıxan mübahisə və münaqişələrin dinc yolla həll edilməsinin əsas vasitəsidir, beynəlxalq hüquq sahəsində dövlətlər arasındakı münasibətləri inkişaf etdirən metodların ən geniş yayılmış formasıdır.

Diplomatik danışıqların iştirakçılarının səviyyəsi (dövlət başçısı, hökumət başçısı, xarici işlər naziri və s.) müzakirə ediləcək məsələ ilə müəyyən olunur. Ümumqəbulolunmuş qaydalara görə dövlət başçısı, hökumət başçısı və xarici işlər naziri xüsusi səlahiyyəti olmadan diplomatik danışıqları apara bilər, beynəlxalq müqavilələri imzalaya bilər, başqa rəsmi şəxslərə isə xüsusi rəsmi səlahiyyət verildikdən sonra danışıqları apara bilər və müqavilələri imzalaya bilər.

Diplomatik danışıqlar iştirakçıların şəxsi görüşləri yolu ilə və yaxud diplomatik yazışmalar yolu ilə aparılır. Bu danışıqlar qaydaya görə, qabaqcadan hazırlıq işləri tələb edir. Hazırlıq işlərinə nümayəndələrin mövqelərinin qabaqcadan öyrənilməsi, yekun sənədlərin layihələrinin hazırlanması və s. daxildir.

**DİPLOMATİK DƏRƏCƏLƏR** - Dövlətlərin xarici diplomatik nümayəndəliklərinin (səfirliklərinin, missiyalarının) başçılarının rəsmi adları beynəlxalq hüquq normalarına uyğun olaraq ayrı-ayrı dövlətlərin qanunvericiliyi ilə müəyyən edilir. Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana konvensiyasında dövlətlərin diplomatik nümayəndəliklərinə başçılıq edən şəxslər üçün üç diplomatik dərəcə təsbit edilmişdir: səfir və nunsi (Vatikan səfiri), elçilər və internunslar (Vatikanın elçiləri), işlər vəkili. Bütün dərəcələrdən olan diplomatik nümayəndəliklərin başçıları arasında ağsaqqallıq və etiket münasibətlərindən əmələ gələn fərqdən başqa heç bir fərq olmamalıdır. Dövlətlər bir qayda olaraq bir-birinə səfir göndərir; elçi və daimi işlər vəkili nadir halda təyin edir.

**DİPLOMATİK DİL** - Rəsmi diplomatik münasibətlərin qurulduğunu və diplomatik sənədlərin tərtib edilməsini göstərmək üçün istifadə edilən ifadədir. Diplomatik dil dedikdə, həmçinin ümumqəbulolunmuş diplomatik lüğətə daxil olan ümumqəbulolunmuş terminlər və ifadələr toplusu, məsələn, aqreman, etimadnamə, modus-vivendi, status-kvo və s. başa düşülür.

Beynəlxalq konfransların və toplantıların keçirilməsi proseduası adətən, bütün diplomatik sənədlərin, protokolların və yekun aktların konfransın bütün rəsmi dillərinə redaktə olunmasını nəzərdə tutur. İşlək dildə müzakirələr aparılır, məruzələr, sənədlərin layihələri tərtib edilir. BMT-nin Beynəlxalq Məhkəmədən başqa bütün əsas orqanlarında, həmçinin bir çox ixtisaslaşmış qurumlarında ingilis, rus, fransız, ispan, ərəb və çin dilləri rəsmi dil kimi qəbul olunur. BMT-nin Təhlükəsizlik Şurasında və Baş Məclisində isə bu dillər həm də işlək dil kimi qəbul olunur. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında rəsmi və işlək dillər rus, ingilis, fransız, ispan, alman və italyan dilləridir.

**DİPLOMATİK GÖRÜŞLƏR** - Ölkənin rəsmi, ictimai və işgüzar dairələrinin nümayədələri ilə, həmçinin diplomatik korpusla əlaqələri qurmaq və inkişaf etdirmək üçün mühüm vasitələrdən biridir. Rəsmi diplomatik görüşlər diplomatik nümayəndənin etimadnaməsinin təqdim edilməsindən əvvəl də, sonra da keçirilir. Protokol idarəsinin rəisi ilə görüş zamanı diplomatik nümayəndə özünün akkreditə olunması qaydalarını və yerli protokolla bağlı



məsələləri aydınlaşdırır. Xarici işlər naziri ilə görüş zamanı diplomatik nümayəndə özünün etimadnaməsinin surətini, özündən əvvəlki sələfinin geri çağırılması haqqında sənədin surətini və etimadnaməsinin verilmə zamanı özünün çıxışının mətnini nazirə təqdim edir. Eyni zamanda dövlət başçısından etimadnaməni təqdim etmək üçün audensiya haqqında xahiş edir. Diplomatik korpusun duayeni ilə görüşdə diplomatik nümayəndə yerli protokol qaydalarını aydınlaşdırır.

Etimadnamənin təqdimindən və bu fakt haqqında diplomatik korpusa göndərilən notifikasiyadan sonra diplomatik nümayəndə yerli protokolun məsləhəti ilə ölkənin hakimiyyət nümayəndələri ilə, diplomatik nümayəndələrlə rəsmi görüşlər keçirir. Elçilər və işlər vəkilləri ilk olaraq səfirlə görüşə gəlirlər. Rəsmi şəxslərlə görüşdən sonra diplomatik nümayəndə ictimaiyyətin, işgüzar dairələrin, mətbuatın tanınmış nümayəndələri ilə, elm, mədəniyyət xadimləri ilə görüşlər keçirir.

Diplomatik nümayəndə özünün missiyasını bitirməmişdən əvvəl adətən, protokolun rəisi ilə görüşür, vida görüşlərinin keçirilməsi qaydalarını formalaşdırır və onun ölkədən getməsi ilə bağlı tədbirlərlə tanış olur, ölkənin hakimiyyət nümayəndələri ilə rəsmi vida görüşləri keçirir.

Diplomatik nümayəndənin tanışlıq xatirinə, yerli protokol qaydalarından kənar keçirdiyi görüşlər şəxsi görüşlər hesab olunur. Görüşlər dəqiq razılışdırılmış vaxtda keçirilir. Görüşün bitməsini bildirmək təşəbbüsü qonağa məxsusdur (bu qayda dövlət başçısı ilə olan görüşə aid deyil).

**DİPLOMATİK İMMUNİTETLƏR VƏ İMTİYAZLAR** - Diplomatik immunitetlər və imtiyazlar xaricdəki diplomatik nümayəndəliyə, xüsusi missiyalara, beynəlxalq hökumətlərarası təşkilatlardakı dövlət nümayəndəliklərinə, onların başçılarına və əməkdaşlarına verilən hüquq və imtiyazlardır. Diplomatik immunitetlər və imtiyazlar xaricdəki diplomatik nümayəndəliyə və yaxud beynəlxalq təşkilatların orqanlarına ona görə verilir ki, onlar fəaliyyət göstərdikləri ölkənin hakimiyyət orqanlarının nəzarəti olmadan beynəlxalq hüquqda nəzərdə tutulmuş funksiyaları effektiv həyata keçirməyə imkanları olsun.

Diplomatik immunitetlər və imtiyazlar məsələsini uzun müd-

dət 1815-ci ildə bağlanmış yeganə müqavilə olan Vyana reqlamenti nizamlamışdır. İkinci dünya müharibəsindən sonra diplomatik immunitetlər və imtiyazların əks olunduğu aşağıdakı konvensiyalar bağlanmışdır: diplomatik münasibətlər haqqında 1961-ci il Vyana konvensiyası; konsulluq münasibətləri haqqında 1963-cü il Vyana konvensiyası; universal xarakterli beynəlxalq təşkilatlarla dövlət nümayəndəliklərinin münasibətləri haqqında 1975-ci il Vyana konvensiyası.

Beynəlxalq təşkilatların nizamnamələrində, bir sıra çoxtərəfli konvensiyalarda və ikitərəfli müqavilələrdə beynəlxalq təşkilatların imtiyazları və immunitetləri müəyyən olunur, ikitərəfli konsulluq konvensiyasında isə adi konsulluq imtiyazları və immunitetləri müəyyən olunur.

1961-ci il Vyana konvensiyasında diplomatik immunitetlər və imtiyazlar iki qismə bölünür: 1) diplomatik nümayəndəliyin malik olduğu immunitetlər və imtiyazlar; 2) diplomatik heyətin üzvlərinin və onların ailə üzvlərinin malik olduqları şəxsi immunitetlər və imtiyazlar.

Diplomatik nümayəndəliklərin yerləşdiyi binaların toxunulmazlığı, əmlakının və nəqliyyat vasitələrinin toxunulmazlığı, arxiv sənədlərinin toxunulmazlığı, maliyyə (fiskal) toxunulmazlığı, yəni nümayəndəliyin bütün binaları, o cümlədən kirayə alınmış binalar da dövlət vergilərindən və yerli vergilərdən, hər cür rüsumlardan və xərclərdən azad olunur, nümayəndəliklərin öz ölkələri ilə əlaqə saxlamaq hüququ, gömrük imtiyazları, protokol imtiyazları birinci kateqoriyaya aid olan immunitet və imtiyazlardır.

Diplomatik nümayəndənin şəxsən özünün və şəxsi mənzilinin toxunulmazlığı, diplomatik nümayəndənin məhkəmə toxunulmazlığı, yəni diplomatik nümayəndənin fəaliyyət göstərdiyi ölkənin məhkəmə aidiyyatından kənarda olması, maliyyə toxunulmazlığı, yəni vergi, gömrük və digər rusumlar verməkdən azad edilməsi ikinci kateqoriyaya aid olan immunitet və imtiyazlardır.

İkinci kateqoriyada üç istisna halı mümkündür: diplomatın özünün və yaxud onun ailə üzvlərinin malik olduqları daşınmaz əmlakla bağlı məhkəmə iddiası qaldırıla bilər; hər hansı şəxs özünü vərəsə kimi təqdim etdikdə, vərəsəlik işi ilə bağlı məhkəmə



işi qaldırıla bilər; şəxsi mənfəət məqsədilə diplomatların məşğul olduqları kommersiya fəaliyyəti ilə bağlı məhkəmə iddiası qaldırıla bilər.

Diplomatik heyətin üzvləri fəaliyyət göstərdikləri ölkənin ərazisində sərbəst şəkildə gəzə bilərlər, bu isə yuxarıdakı sadalan qaydalara zidd deyil. Diplomatın şəxsi toxunulmazlığı prinsipinə əsasən, diplomatik nümayəndəliklərin başçılarının və onların üzvlərinin saxlanılmasına və ya həbsə alınmasına qəti olaraq yol verilmir. Onların şəxsiyyətinə və azadlıqlarına qarşı heç bir hərəkətə yol verilməməlidir.

Diplomatların fəaliyyət göstərdikləri ölkənin hökuməti xarici nümayəndələrin şəxsi toxunulmazlıqlarını təmin etməli, onların təhlükəsizliyini mümkün ola biləcək hər hansı bir zorakılıqdan, hədə və təhlükədən qorumalıdır. Diplomatik nümayəndələrin mənzillərinin toxunulmazlığı da diplomatların şəxsi toxunulmazlığı prinsiplərindən irəli gəlir. Buna görə də xüsusi icazə olmadan yerli hakimiyyət orqanlarının əməkdaşlarının diplomatik nümayəndələrin mənzillərinə girmək hüququ yoxdur. Onu da qeyd etmək lazımdır ki, diplomatların xidmət binasının, mənzillərinin toxunulmazlığı bundan sui-istifadəyə, məsələn, yerli hakimiyyət tərəfindən axtarışda olan şəxslərin, cinayət törətmiş şəxslərin diplomatik binalarda gizlədilməsinə yol vermir.

Diplomatik nümayəndənin məhkəmə toxunulmazlığı dedikdə, onun yerli cinayət və mülki mühakiməyə cəlb edilməməsi, habelə onun yerli inzibati hakimiyyətə tabe olmaması nəzərdə tutulur. Diplomatik nümayəndələrin belə hüquqi vəziyyəti öz məzmunu etibarı ilə hər hansı bir iş üstündə diplomatların saxlanılmasına, axtarılmasına və habelə həbsə alınmasına yol vermir. Özlərinin razılığı olmasa onlar şahid kimi məhkəməyə çağırıla bilməz, onlara qarşı mülki tələb irəli sürülə bilməz. Məhkəmə toxunulmazlığı diplomatın şəxsiyyəti üçün deyil, xarici dövlətin rəsmi bir nümayəndəsi olmaq etibarilə onun xidmət mənafeyi üçün müəyyən edilir. Məhz ona görə də diplomatik nümayəndənin şəxsən diplomatik toxunulmazlıqdan könüllü surətdə imtina etməsinə yol verilmir. Diplomatik toxunulmazlıqdan könüllü surətdə imtina etmək barədə bəyanat vermək yalnız diplomatı göndərən dövlət başçısına aiddir. Diplomatik nümayəndə cinayət

törətmişsə və yaxud qayda-qanunu pozmuşsa, bu halda yerli hüquq-mühafizə orqanları belə işlərə baxmamalıdır. Belə işlərə görə günahkar sayılan diplomatik nümayəndə diplomatik qaydada geri çağırılmalı və öz ölkəsinin qanunları əsasında mühakimə olunmalıdır.

Diplomatik nümayəndələrin nəqliyyat vasitələri həbs, axtarış, müsadirə və s. toxunulmazlıqlara malikdirlər. Lakin əgər hansısa cinayətkar diplomatik nümayəndəliyin nəqliyyat vasitələrində yerləşirsə, onda nəqliyyat vasitəsi saxlanıla bilər. Bu halda məcburi fəaliyyət nəqliyyat vasitəsinə deyil, cinayətkara qarşı tətbiq ediləcəkdir.

Diplomatik nümayəndəliyin öz ölkəsi ilə, öz ölkəsinin başqa nümayəndəlikləri ilə əlaqə formasının ən geniş yayılmış forması diplomatik poçtdur. Diplomatik kuryerlər vasitəsilə göndərilən poçt toxunulmazdır. Bu poçt yük və kuryerin daşınması üçün haqqın ödənilməsi şərtilə sərhədlərdən azad buraxılır.

Diplomatik yük gömrük imtiyazlarına malikdir və ona görə gömrük rüsumu alınmır. Lakin diplomatik yük anbar xidmətindən istifadə edirsə, onda bu xidmətə görə haqq ödənilməlidir.

Diplomatik işçinin və yaxud onun ailə üzvünün şəxsi yükü toxunulumazdır. 1961-ci il Vyana konvensiyası əgər baqajda gətirilib-aparılması qadağan edilən şeylərin olması şübhə doğurduğu halda maraqlı olan tərəfin özünün və yaxud nümayəndəsinin iştirakı ilə yükə baxılmasını nəzərdə tutur. Praktikada bu müddəa dəqiqləşdirilmişdir: əgər yükə baxmaq üçün qərar qəbul olunmuşdursa və yükün içindən qadağan olunmuş bir şey çıxmazsa onda şəxsi yükünün toxunulmazlığının pozulması ilə bağlı diplomatın rəsmi etiraz etmək hüququ vardır.

Hal-hazırda dünyanın əksər ölkələrinin aviaşirkətləri mükəllə aviasiyanın təhlükəsizliyinin təminatının zəruriliyinə əsaslanaraq, diplomatların və onların ailə üzvlərinin şəxsi yüklərinə baxış keçirir.

Qeyd edək ki, əgər diplomatların ailə üzvləri fəaliyyət göstərdikləri ölkənin vətəndaşlarıdırsa, onda onlar diplomatik imtiyazlardan və immunitetlərdən istifadə edə bilməzlər.

İnzibati-texniki heyətin üzvləri və onların ailə üzvləri (əgər ailə üzvləri fəaliyyət göstərdikləri ölkənin vətəndaşları deyilsə



diplomatik imtiyazlardan və immunitetlərdən öz xidməti vəzifələrini yerinə yetirdikdə istifadə edə bilərlər. Onların şəxsi yükləri isə fəaliyyətdə olduqları dövlətin gömrük orqanları tərəfindən yoxlanıla bilər.

Dövlətlər diplomatik imtiyazlar və immunitetlərin qarşılıqlı əsasda genişləndirilməsi ilə bağlı saziş imzalaya bilərlər.

Beynəlxalq hüquqa uyğun olaraq dövlət başçıları, hökumət başçıları, xarici işlər nazirləri və adətən, dövlətin başqa ali orqanlarının rəhbərləri xarici ölkənin ərazisində olarkən diplomatik imtiyazlar və immunitetlərdən tam şəkildə istifadə edə bilərlər. Diplomatik imtiyazlardan və immunitetlərdən istifadə edən şəxslər ərazisində olduğu dövlətin qanunlarına hörmət etməlidirlər, əks halda qanunları pozduqlarına görə onlar persona non qrata elan oluna bilər.

Diplomatik imtiyazların pozulması ilə bağlı BMT-nin Baş Məclisi 1973-cü ildə "beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı törədilən cinayətlərin qarşısının alınması və bu cinayətlərə görə cəza tətbiq edilməsi haqqında" konvensiya qəbul etmişdir.

**DİPLOMATİK KORPUS** - Ölkədə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin başçılarının məcmusudur. Diplomatik korpus dedikdə, geniş mənada diplomatik nümayəndəliklərin bütün diplomatik işçiləri və onların ailə üzvləri nəzərdə tutulur.

Diplomatik korpus hansısa beynəlxalq hüquq normalarına əsaslanan institut deyil, həmçinin, hüquqi şəxsin hüquqlarına malik olan siyasi birlik və yaxud təşkilat deyildir. Diplomatik korpus tərəfindən bu şəkildə olan hər bir hərəkət yolverilməzdir.

Beynəlxalq huquq diplomatik korpusun yalnız mərasim (protokol) məsələləri ilə bağlı kollektiv hərəkətlərini məqbul sayır: fəaliyyət göstərdikləri ölkənin hökumətini təbrik etmə, başsağlığı vermə və s. Adətən, diplomatik korpus adından onun duayeni çıxış edir.

**DİPLOMATİK KORPUSUN DUAYENİ (fr. doyen - böyük)** - Diplomatik nümayəndəliyin başçısı, fəaliyyət göstərdikəri ölkədə diplomatik korpusdakı həmkarları arasında birinci olaraq etimadnamə alan şəxsdir. Duayen həmişə yüksək rütbəli diplomatik

nümayəndə olur.

Duayenin funksiyası hər şeydən əvvəl protokol xarakteri daşıyır. Duayen diplomatik korpusun adından təbrik etmək və yaxud başsağlığı vermək üçün çıxış edir, müxtəlif mərasimlərdə diplomatik korpusa rəhbərlik edir və zərurət yarananda diplomatik korpus adından çıxış edir, xarici işlər idarəsi ilə həmişə əlaqə saxlayır, öz həmkarlarına fəaliyyət göstərdikləri ölkənin protokol qaydaları haqqında və yerli hökumət orqanları ilə qarşılıqlı münasibətlər haqqında məsləhət verir.

**DİPLOMATİK KURYER** - Diplomatik poçtun daşınması işi tapşırılan şəxsdir. Diplomatik əlaqələr haqqındakı 1961-ci il Vyana konvensiyasına görə diplomatik kuryerlər şəxsi toxunulmazlığa malikdirlər, saxlana və həbs edilə bilməzlər. Şəxsin diplomatik kuryer kimi qəbul edilməsi üçün diplomatik kuryeri göndərən idarə tərəfindən ona *verilən rəsmi sənəd və ərazisindən* keçəcəyi ölkənin diplomatik kuryerə verdiyi icazəsi əsas götürülür. Akkreditə olunmuş dövlət və ya diplomatik nümayəndəlik müəyyən bir diplomatik poçtu aparmaq üçün müvəqqəti diplo*matik kuryerin təyin edə* bilər, müvəqqəti diplomatik kuryerin malik olduğu toxunulmazlıq diplomatik poçtun nəzərdə tutulan yerə çatdırılması ilə dayandırılır.

Diplomatik poçt nəzərdə tutulan yerə çatdırılması üçün mülki təyyarənin ekipajına da verilə bilər. Bu halda komandirə diplomatik poçtun neçə yerlik olduğu haqqında rəsmi sənəd verilir. komandir özü isə diplomatik kuryer hesab olunmur.

Dövlətlər diplomatik poçtun heç bir xətər toxunulmadan maneəsiz olaraq göndərilən yerə çatdırmaq üçün diplomatik kuryerlərə bütün mümkün olan şəraiti yaratmalıdırlar.

**DİPLOMATİK QƏBULLAR** - Fəaliyyət göstərildiyi ölkənin rəhbər şəxslərinə, diplomatik nümayəndələrə və yaxud ölkəyə gəlmiş xarici nümayəndələrə qonqaqpərvərlik və hörmət göstərmək üçün həmçinin diplomatik nümayəndəliyin öz funksiyalarını yerinə yetirmək qaydası ilə mühüm hadisələrin ildönümü və yubiley tarixlərini qeyd etmək üçün keçirilən rəsmi tədbirlərdir.

Diplomatik qəbulların növləri aşağıdakılardır: "şampan qədəhi" - stol arxasında əyləşmədən saat 12-dən 13-dək təşkil olunur; səhər yeməyi (lanç) - saat 12.00-dan 15.00-dək stol arxa-



sında; çay - saat 16.00-dan 18.00-dək (qaydaya görə, yalnız qa*dınlar üçün təşkil olunur)*; "kokteyl" və ya "aya furşet" - stol arxasında əyləşmədən saat 17.00-dan 18.00-dək başlayır və 2 saata qədər davam edir; nahar - qəbulun bir az fəxri növüdür, adətən saat 19.00-dan 21.00-dək stol arxasında başlayır və əsas qonağın getməsinə qədər (2-2,5 saat) davam edir; nahar - bufet naharın bir növüdür, ayrı-ayrılıqda 4-5 nəfərlik stollar arxasında verilir; şam - saat 21.00-da stol arxasında başlanır və əsas qonaq gedənə qədər davam edir. Bəzən diplomatik qəbulda qarşılıqlı razılaşma əsasında nitq söylənilir, sağlıq deyilməsi nəzərdə tutulur.

**DİPLOMATİK MÜNASİBƏTLƏR** - Beynəlxalq hüquq normalarına uyğun olaraq dövlətlər arasında rəsmi münasibətlərin əsas saxlanma formasıdır. Diplomatik münasibətlər dövlətlər arasındakı dostluq münasibətlərinin inkişafına kömək etməyə, beynəlxalq sülhü və təhlükəsizliyi müdafiə etməyə çağırır.

Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyasına görə, dövlətlər arasındakı diplomatik münasibətlər *bir-birilə qarşılıqlı razılıq əsasında qurulur. Qaydaya görə bir döv*lətin və ya hökumətin başqa dövlətlər tərəfindən de-fakto və yaxud de-yure tanınması diplomatik münasibətlərin qurulması üçün ilk addımlar hesab olunur. Diplomatik münasibətlər nümayəndə heyətlərinin arasındakı birbaşa danışıqların və yaxud 3-cü ölkənin diplomatik nümayəndələrinin vasitəsilə qurulur, dövlət və hökumət başçıları arasında, xarici işlər nazirləri və xüsusi səlahiyyətli şəxslər arasında bir-birinə elçilərin göndərilməsi, theeleqram, məktub, poçt və s. göndərilməsi ilə rəsmiləşdirilir. Tərəflər diplomatik münasibətlərin qurulması faktının özü haqqında, diplomatik nümayəndəliyin forması (səfirlik və yaxud missiya) haqqında, sazişin qüvvəyə minəcəyi tarix, onun dərc olunma vaxtı və qaydaları haqqında razılığa gəlirlər.

**DİPLOMATİK MÜNASİBƏTLƏRİN KƏSİLMƏSİ** - Hər hansı bir dövlət tərəfindən başqa bir dövlətə münasibətdə diplomatik əlaqələrin kəsilməsi təşəbbüsünün qəbul edilməsi və həmin dövlətə diplomatik münasibətlərin dayandırılmasının rəsmi elan edilməsidir. Qeyd edək ki, bu proses diplomatik nümayəndəliyin geri çağırılması ilə müşayiət olunur. Diplomatik münasibətlərin

kəsilməsi bir dövlətin başqa bir dövlətə münasibətində düşmənçilik siyasətinin, müharibə vəziyyətinin, diplomatik protokolların normal işlənilməsinə əsasən olan hansısa fəaliyyətin və başqa səbəblərin nəticəsi ola bilər. Əgər geri çağırılan dövlətin bəyanatında diplomatik münasibətlərin kəsilməsi göstərilmirsə, diplomatik nümayəndələrin öz-özlüyündə geri çağırılması hələ diplomatik münasibətlərin kəsilməsi demək deyildir.

Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyasına görə diplomatik nümayəndəliyin fəaliyyət göstərdiyi dövlət diplomatik münasibətləri kəsdikdə diplomatik imtiyazlardan və immunitetlərdən istifadə edən diplomatik nümayəndəliyin əməkdaşlarının və onların ailə üzvlərinin çıxıb getməsinə, o cümlədən onlara məxsus olan şeylərin daşınmasına kömək etməlidir.

Geri çağıran dövlət diplomatik nümayəndəliyin fəaliyyət göstərdiyi dövlətə münasib olan hər hansı bir dövlətə özünün və vətəndaşlarının maraqlarının müdafiə edilməsini, həmçinin nümayəndəliyin bütün əmlakının və arxivinin qorunmasını etibar edə bilər.

**DİPLOMATİK NÜMAYƏNDƏNİN GERİ ÇAĞIRILMASI** - Bu məsələ aşağıdakı hallarda baş verir:

1. Diplomatik nümayəndənin öz hökumətinin təşəbbüsü ilə geri çağırılması onun yeni vəzifəyə təyin edilməsi, istefaya göndərilməsi, xəstəliyi və ya başqa səbəblərlə bağlı olur;

2. Diplomatik nümayəndənin fəaliyyət göstərdiyi ölkənin hökumətinin təşəbbüsü ilə geri çağırılması - diplomatik nümayəndəyə persona non qrata elan edildikdə, diplomatik münasibətlər kəsildikdə və ya dayandırıldıqda olur.

Birinci hal diplomatik nümayəndənin fəaliyyət göstərdiyi dövlətin başçısına nümayəndəni təyin edən dövlət başçısının geri çağırma haqqında imzaladığı sənəd təqdim edildikdən sonra rəsmiləşir. Geri çağırılma haqqında sənəd etimadnamə kimi rəsmiləşdirilir və yeni təyin olunan diplomatik nümayəndəyə verilir.

**DİPLOMATİK NOTA** - Diplomatik yazışma formasıdır. Nota verbal (şifahi, imzasız) və şəxsi olmaq etibarilə iki şəkildə olur.

Diplomatik praktikada adətən, müxtəlif xarakterli cari məsələlərin əks olunduğu verbal notadan istifadə olunur. Verbal nota 3-cü şəxsin adından tərtib olunur, nota blankında çap olunur və imzalanmır; ona xarici işlər idarəsinin və yaxud diplomatik nümayəndəliyin mastik möhürü vurulur və ünvan göstərilir.

Şəxsi notada adətən, mühüm və prinsipial əhəmiyyətli məsələlərə toxunulur və yaxud da hansısa bir hadisə haqqında rəsmi informasiya qaydasında, həmçinin fəaliyyət göstərilən ölkənin diplomatik protokolunun müəyyən olunmuş tələblərinə uyğun olaraq və yaxud şəxsi notaya cavab olaraq göndərilir. Belə nota imzalayan şəxsin adından birinci şəxsdə tərtib olunur, nota blankında çap edilir; blankda ünvan göstərilir, möhür isə vurulmur.

Beynəlxalq diplomatik praktikada notaların mübadiləsi beynəlxalq müqavilələrin bağlanan bir formasıdır.

**DİPLOMATİK POÇT** - Dövlətlə onun xarici ölkələrdə fəaliyyət göstərən diplomatik, konsulluq və başqa nümayəndəlikləri, həmçinin nümayəndəliklər arasındakı ən çox yayılmış əlaqə formasıdır. Diplomatik poçt vasitəsilə rəsmi sənədlər və xidməti işdə istifadə üçün nəzərdə tutulan əşyalar daşınır. Əşyalar diplomatik valizaya (fr. valize - çamadan) qablaşdırılır. Diplomatik valiza bağlanmış və surğuc möhürlə möhürlənmiş, ya da müəyyən olunmuş qaydada plomblanmış qablara (çanta, torba, paket, zərf və s.) yığılır, belə ki, bu qablar onların xarakterini göstərən xarici əlamətlərə malik olurlar. Hər bir valiza diplomatik poçtda ayrıca yer tutur və xüsusi səlahiyyətli şəxs tərəfindən müşaiyət olunmaqla, ya da müşaiyətsiz adi əlaqə vasitələri ilə aparılır.

**DİPLOMATİK NÜMAYƏNDƏLİK** - Dövlətin xarici ölkədəki xarici münasibətlərini həyata keçirən orqandır. Diplomatik nümayəndəliyə diplomatik nümayəndə rəhbərlik edir. Səfirin rəhbərlik etdiyi diplomatik nümayəndəlik səfirlik, elçinin və yaxud işlər vəkilinin rəhbərlik etdiyi nümayəndəlik isə missiya adlanır.

Diplomatik nümayəndəliyin hüquqi vəziyyəti diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyası ilə, ikitərəfli müqavilələrlə, həmçinin nümayəndəliyin fəaliyyət göstərdiyi ölkənin qanunvericiliyi ilə müəyyən olunur.

Diplomatik nümayəndəliyin başqa növü hüquqi vəziyyəti "dövlətin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlə-

rini quran nümayəndəliklər" haqqındakı 1975-ci il Vyana konvensiyası ilə müəyyənləşən beynəlxalq təşkilatlar yanındakı nümayəndəlikdir (müşahidəçilərin missiyası və s.).

Bir çox ölkələrin praktikasında fəaliyyəti hansısa vacib bir məsələnin müzakirələri ilə məhdudlaşdırılan yarımdaimi xarakterli diplomatik nümayəndəliklər də mövcuddur (məs. Silahların ləğv edilməsi Komitəsində diplomatik nümayəndəlik).

**DİPLOMATİK PROTOKOL** - Beynəlxalq ünsiyyətdə hökumətlər, xarici işlər idarəsi, diplomatik nümayəndəliklər və rəsmi şəxslərin riayət etdikləri ümumqəbulolunmuş qaydaların və ənənələrin məcmusudur.

Diplomatik protokolun ümumqəbulolunmuş müddəaları Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyasında öz əksini tapmışdır. Bununla yanaşı hər bir ölkənin diplomatik protokolunun həmin dövlətin milli adət və ənənələri ilə şərtlənən özünəməxsus xüsusiyyətləri vardır.

Diplomatik protokolun tətbiqi sahəsi kifayət qədər genişdir. Praktiki olaraq, o xarici siyasət fəaliyyətinin bütün sahələrini əhatə edir.

Diplomatik protokola riayət etmək məcburidir; diplomatik protokoldan kənara çıxmaq və ya onun normalarını pozmaq başqa dövlətlərin və ya onun rəsmi nümayəndəsinin şərəf və ləyaqətinin alçaldılması kimi qəbul oluna bilər və nəticə etibarilə dövlətlər arasındakı münasibətləri gərginləşdirə bilər, arzuolunmaz siyasi nəticələrə səbəb ola bilər. Hər hansı bir dövlətlə diplomatik əlaqələrin vəziyyətindən asılı olaraq diplomatik protokola müxtəlif çalarlar verilə bilər (təntənəliyin az və ya çox xarakteri, ayrı-ayrı tədbirlərin səviyyəsinin azaldılması və ya artırılması və s).

Diplomatik protokol diplomatiyanın mühüm siyasi vasitələrindən biridir, onun tətbiqinin nəticəsi dövlətlərarası münasibətlərə bu və ya digər dərəcədə təsir göstərir.

**DİPLOMATİK RÜTBƏLƏR** - Xarici İşlər İdarəsinin diplomatik işçilərinə və xaricdəki diplomatik nümayəndəliklərin işçilərinə verilən xidməti rütbədir. Hər bir dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunan diplomatik rütbələr sistemi vardır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi aparatının və xaricdəki diplomatik və konsul nümayəndəliklərindəki işçilərinin diplomatik rütbələri aşağıdakı kimidir: Fövqəladə və Səlahiyyətli Səfir, Fövqəladə və Səlahiyyətli Elçi (I və II dərəcəli), Müşavir (I və II dərəcəli), Birinci Katib (I və II dərəcəli), İkinci Katib (I və II dərəcəli), Üçüncü katib, Attaşe.



**DİPLOMATİK SIĞINACAQ** - Diplomatik və konsulluq nümayəndəliklərinin yerləşdiyi binadan sığınacaq kimi istifadə edilməsidir. Bu XVI-XVII əsrlərdə dövlətlərin praktikasında yayılmışdır. Müasir dövrdə əksər dövlətlər diplomatik sığınacağı qəbul etmir. Diplomatik sığınacaq haqqında müqavilə norması yalnız Latın Amerikası dövlətlərində mövcuddur, lakin tətbiq edilmə praktikası bir-birinə ziddir. Universal tipli müqavilələr diplomatik sığınacağın verilməsinə mənfi münasibət göstərir. Belə ki, diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyasında qeyd olunur ki, nümayəndəliklərin yerləşdiyi binadan nümayəndəliyin funksiyasına aid olmayan məqsədlər üçün istifadə etmək olmaz.

**DİPLOMATİK VİZA** - Xarici işlər idarəsinin, diplomatik nümayəndəliyin və yaxud konsulluğun yazdığı xüsusi qeyddir. Belə ki, bu qeyd yazıldığı pasportun sahibinin diplomatik statusunun təsdiq edilməsini ifadə edir. Diplomatik viza aşağıdakı şəxslərə verilir: hökumət üzvlərinə və dövlətin yüksək vəzifəli üzvlərinə, beynəlxalq konfransın nümayəndələrinə, fövqəladə diplomatik missiya ilə göndərilmiş şəxslərə, xarici işlər idarəsinin rəsmi məzuniyyətdə olan diplomatik əməkdaşına, diplomatik kuryerlərə və s. Beynəlxalq nəzakət qaydalarına görə diplomatik viza almağa hüququ olan şəxslərə öz şəxsi işləri ilə bağlı getdikdə də diplomatik viza verilə bilər.

**DİPLOMATİK YAZIŞMA** - Dövlətlər arasındakı münasibətləri həyata keçirən diplomatik xarakterli müxtəlif sənədlərin toplusudur, dövlətlərin xarici-siyasi və diplomatik fəaliyyətinin əsas formalarından biridir.

Dövlətlər arasındakı yazılı formada olan əlaqə dövlət, hökumət, xarici işlər idarəsinin başçıları adından, müxtəlif dövlətlər və ictimai müəssisələrin, təşkilatların və yaxud onların başçılarının adından, diplomatik nümayəndəliklərin və ayrı-ayrı diplomatların adından keçirilir. Müraciət, teleqram, məktub, nota yazışması,

həmçinin bəyannamə, bəyanat, informasiya agentliklərinin rəsmi məlumatı diplomatik yazışmaya aiddir.

Diplomatik yazışmada beynəlxalq həyat və xarici siyasət məsələləri, dövlətlərarası ikitərəfli və çoxtərəfli münasibətlər şərh olunur. Bu sənədlərin hazırlanması dövlətin diplomatik fəaliyyətinin mühüm sahəsindən biridir.

**DİPLOMATİYA** - Dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin, xaricdəki diplomatik nümayəndəliyin, beynəlxalq konfranslardakı nümayəndələrin dövlətin xarici məsələlərini həyata keçirən, onun hüquq və maraqlarını, xarici ölkələrdəki vətəndaşlarını müdafiə edən rəsmi fəaliyyətidir. Beynəlxalq konfliktlərin dayandırılması və ya nizama salınması, danışıqların aparılması bacarığı, kompromis variantların axtarılması, həmçinin beynəlxalq əməkdaşlığın genişləndirilməsi diplomatiya anlayışı ilə əlaqədardır.

Praktikada daha çox geniş yayılmış metodlar aşağıdakılardır: yüksək səviyyəli rəsmi və qeyri-rəsmi səfərlər və danışıqlar diplomatik konqreslər, konfranslar, toplantı və görüşlər, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrin və başqa diplomatik sənədlərin hazırlanması və imzalanması, beynəlxalq təşkilatların və onların orqanlarının işində iştirak etmək, xaricdə dövlətin nümayəndəliyinin fəaliyyəti, diplomatik yazışmalar, diplomatik sənədlərin nəşr olunması və s.

BMT-nin və başqa beynəlxalq təşkilatların yaranması ilə əlaqədar olaraq, çoxtərəfli diplomatiya böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Dövlətin diplomatik fəaliyyətinə rəhbərliyi hökumət həyata keçirir, birbaşa operativ rəhbərlik isə Xarici İşlər Nazirliyinə məxsusdur.

Diplomatiyanın əsas məqsədi dünyada təcavüzün əleyhinə, kütləvi qırğın silahlarının əleyhinə mübarizə, beynəlxalq gərginliyin aradan qaldırılması, dövlətlər arasındakı çoxtərəfli əlaqələrin inkişafı, xalqların azad və firavan yaşaması olmalıdır.

**DİPLOMATİYA HÜQUQU** - Beynəlxalq hüquq sahəsidir, onun normaları dövlətin xarici əlaqələr orqanlarının statusunu və funksiyalarını, yəni rəsmi dövlətlərarası əlaqələrin həyata keçirilməsini nizama salır. Diplomatiya hüququ sistemi diplomatiya formalarına müvafiqdir: bir dövlətin digər dövlətin ərazisində diplomatik nümayəndəlik vasitəsilə həyata keçirdiyi ikitərəfli diplomatiya; müəyyən ölkəyə, yaxud beynəlxalq görüşə (konfransa) komissiyalar göndərmək yolu ilə həyata keçirilən diplomatiya; beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli diplomatiya.

Diplomatiya hüququnun əsas mənbələri aşağıdakılardır: diplomatik əlaqələr haqqında 1961-ci il Vyana konvensiyası; xüsusi missiyalar haqqında 1969-cu il Konvensiyası və bir sıra digər konvensiyalar, habelə ayrı-ayrı dövlətlərin milli qanunvericilikləri.

**DİSKRİMİNASİYA** (lat. Discriminatio - ayrı-seçkilik) - Dövlətlərarası münasibətlərdə bir dövlətin bərabərhüquqluluq prinsipini pozmaqla başqa bir dövlətin huquqlarını məhdudlaşdırmasıdır.

İnsan hüquqlarının beynəlxalq müzakirəsi sahəsində diskriminasiya dedikdə, insanların müəyyən əlamətə görə bu və ya digər irqə, millətə, etnik qrupa, siyasi birliyə, dinə və s. mənsub olması ilə bağlı aparılan ayrı-seçkilik başa düşülür. Bərabərhüquqluluq prinsipinin pozulması sferasından asılı olaraq irqi, milli və etnik, dini, siyasi diskriminasiyalarla cinsi əlamətinə, dilə və başqalarına görə diskriminasiyalar bir-birindən fərqləndirilir.

Diskriminasiyanın hüquqa zidd olması müasir beynəlxalq hüququn ümumqəbulolunmuş prinsip və normalarından, xüsusilə BMT-nin Nizamnaməsi, BMT-nin 1970-ci il Nizamnaməsinə uyğun olaraq dövlətlər arasındakı əməkdaşlıq və dostluq münasibətlərinə toxunan beynəlxalq hüququn prinsipləri haqqındakı bəyannamə, irqi diskriminasiyanın bütün formalarının ləğvi haqqında 1966-cı il beynəlxalq konvensiyası, təhsil sahəsindəki diskriminasiyaya qarşı mübarizə haqqındakı 1960-cı il konvensiyası, mülki və siyasi hüquqlar haqqındakı 1966-cı il beynəlxalq paktı, iqtisadi, sosial və mədəni hüquqlar haqqındakı 1966-cı il beynəlxalq paktı, qadınlara münasibətdə bütün diskriminasiya formalarının ləğvi haqqında 1980-ci il konvensiyası və s. kimi sənədlərdən görünür.

**DOMİNİKA** - Karib hövzəsindəki Dominika adasında yerləşən dövlətdir. Ərazisinin sahəsi 751 kv.km, əhalisinin sayı isə 82.068 nəfərdir (1995). Rəsmi dili ingilis dilidir.

Ölkənin tam adı Dominika Birliyidir. Dövlət quruluşu parla-

mentli respublikadır. Paytaxtı Rozo şəhəridir. Dominika 3 noyabr 1978-ci ildə Böyük Britaniyadan müstəqilliyini almışdır və həmin gün Milli bayram kimi qeyd olunur. Qanunvericilik ingilis mülki hüququna əsaslanır. Icraedici hakimiyyət prezidentin və baş nazirin əlində cəmlənmişdir. Qanunverici hakimiyyət birpalatalı parlament olan Nümayəndələr palatası vasitəsilə təmsil olunur.

**DOMİNİKAN RESPUBLİKASI** - Karib dənizində Haiti adasının (Böyük Antil adası) şərq hissəsində yerləşən dövlətdir. Yeganə quru sərhəddi Haiti ilədir. Ərazisinin sahəsi 48.734 kv.km, əhalisinin sayı isə 7.511.263 nəfərdir. Dövlət dili ispan dilidir.

Dövlət quruluşu respublikadır. Paytaxtı Santo-Dominqo şəhəridir. Dominikan Respublikası müstəqilliyini 27 fevral 1844-cü ildə əldə etmişdir və həmin gün milli bayram kimi qeyd olunur. Qanunvericilik fransız hüquq sisteminə əsaslanır. İcra hakimiyyəti prezidentə, vitse-prezidentə və Nazirlər Kabinetinə məxsusdur. Qanunverici hakimiyyəti Senatdan və Deputatlar palatasından ibarət olan ikipalatalı parlament həyata keçirir.

**DÖVLƏT BAŞÇISI** - Ölkənin xarici nümayəndəliyinin və dövlət rəhbərliyinin ali konstitusiyalı orqanıdır. Dövlət başçısı ya bir nəfər şəxs, ya da kollegionaldır. Xarici münasibətlər sahəsində dövlət başçısının səlahiyyətləri dövlətin daxili qanunvericiliyi ilə, konstitusiya ilə müəyyən olunur.

Xarici siyasi aktlar və çıxışlar üçün dövlət başçısının xüsusi səlahiyyətə ehtiyacı yoxdur. Dövlət başçısı və yaxud kollegional orqanın dövlət başçısının səlahiyyətlərini yerinə yetirən sədri xarici ölkənin ərazisində olduqda ona xüsusi hörmət göstərilir və o, bütün diplomatik imtiyazlardan və immunitetlərdən istifadə edir.

Azərbaycan Respublikasının dövlət başçısı Azərbaycan Respublikasının Prezidentidir.

**DÖVLƏT BAYRAĞI** - Dövlət suverenliyinin simvoludur. Dövlət bayrağı dövlət başçısının xarici ölkəyə səfəri zamanı qəbul edən dövlət tərəfindən qaldırılır. Ölkənin bayrağı sağ tərəfdə, qəbul edən dövlətin bayrağı isə sol tərəfdə yerləşdirilir.

Bir neçə dövlətin bayraqları eyni zamanda qaldırılarsa, onların ölçüləri, bayraq ağaclarının hündürlükləri eyni olmalıdır. Dövlət bayraqları ölkənin adları ilə əlifba sırasına uyğun olaraq



sağdan sola doğru düzülür.

Dövlət bayrağı xarici ölkədəki diplomatik (konsulluq, ticarət nümayəndəliyi) nümayəndəliyin üzərində qaldırılır, nümayəndəliyin başçısının xidməti maşınına taxılır. Matəm günlərində dövlət bayrağı bayraq ağacı boyunca tam qaldırılır sonra isə yarıya qədər aşağı salınır.

Təntənəli mərasim zamanı dövlət bayrağı gətirilirsə, mərasimdə iştirak edən hərbçilər hərbi-salam verir, mülki şəxslər isə hörmət əlaməti olaraq baş geyimini çıxartmalıdırlar. Əgər mərasim qapalı yerdə keçirilirsə, onda iştirakçılar bayrağın gətirilməsini ayaq üstə salamlamalıdırlar.

Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycanın dövlət bayrağı haqqında deyilir (maddə 23): Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**DÖVLƏT ƏRAZİSİ** - Yer kürəsinin hansısa bir dövlətin suverenliyində olan hissədir. Dövlət ərazisinə quru sahələr, su sahələri, yeraltı sahələr və hava sahələri, habelə onlara bərabər tutulmuş obyektlər daxildir.

Quru dövlət ərazisinə dövlətin qitədə yerləşən hissəsi, adalar və anklavlar (dövlət ərazisinin başqa dövlətlərlə əhatə olunmuş və dənizə çıxışı olmayan hissəsi) daxildir. Dövlətin hüdudlarında yerləşən çayların, göllərin, süni su ambarlarının və su yollarının suları, habelə həmin dövlətin sahillərini əhatə edən daxili dənizlər və ərazi suları dövlətin ərazisinə aiddir. Dövlətin quru və su ərazisi altında yerləşən yerin təki dövlətin ərazisinə daxildir. *Dövlətin quru və su ərazisindəki hava sahəsi dövlətin hava ərazisidir.*

Dövlətin bayrağını və yaxud fərqlənmə nişanlarını gəzdirən dəniz və hava gəmiləri, kosmik gəmilər və stansiyalar, sualtı teleqraf kabelləri, boru kəmərləri, dövlətə məxsus olan və onun ərazisi hüdudlarından kənarda yerləşən (açıq dənizdə, kosmosda və s-də.) digər obyektlər dövlətin ərazisinə bərabər tutulan obyektlərdir. Açıq dəniz, Antarktika, onların üzərindəki hava sa-

həsi və kosmik fəza (Ay və digər göy cisimləri daxil olmaqla) dövlətin ərazisinə aid edilmir, onlar ayrı-ayrı dövlətlərin suverenliyində deyildir, onlardan birgə istifadə edilir. Kontinental şelfin xüsusi statusu müəyyən edilmişdir, burada sahilboyu dövlət öz suveren hüquqlarını müstəqil həyata keçirir.

Hər bir dövlət öz ərazisində tam suveren hakimiyyətə malikdir və bu hakimiyyət müstəsna xarakterlidir.

Dövlətin ərazisi dövlətin maddi bazasıdır, onsuz dövlət beynəlxalq hüququn suveren subyekti kimi mövcud ola bilməz. Bir dövlətin ərazisi digər dövlətin ərazisindən dövlət sərhədi ilə ayrılır. Müasir beynəlxalq hüquqda dövlətin ərazisinin toxunulmazlığı dedikdə, dövlətlərin başqa dövlətin ərazisinə silahlı müdaxilə etməkdən və yaxud ilhaqdan çəkinməsi başa düşülür. Dövlətin ərazisinin bütövlüyü dedikdə, dövlətin ərazisinin zorla parçalanmasının, yaxud onun tutulmasının və ya zorla alınmasının qadağan edilməsi başa düşülür; bu cür aktlar birbaşa təcavüz kimi qiymətləndirilir. Hər bir dövlət ərazisini mühafizə etmək üçün tədbirlər görməyə, təcavüz hallarında isə özünümüdafiəyə, yəni təcavüzkara qarşı silahlı müqavimət göstərməyə hüququ vardır.

**DÖVLƏT GERBİ** - Dövlətin simvollarından biridir. Dövlət gerbi rəsmi dövlət sənədlərində, xüsusi blanklarda, nazirlik və təşkilatların möhürlərində, dövlətin pul nişanlarında əks olunur.

**DÖVLƏT HİMNİ** - Dövlət suverenliyinin simvolu olan mahnıdır. Rəsmi dövlət tədbirlərində, bayram təntənələrində, xarici dövlət (hökumət) nümayəndələrinin qarşılanma və yolasalma mərasimlərində və b. hallarda ifa edilir. Xarici ölkəyə yüksək vəzifəli şəxs qonaq gələrsə, əvvəlcə orkestr qonağın ölkəsinin himnini, sonra isə qonağı qəbul edən ölkənin dövlət himnini ifa edir.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın dövlət himninin mətni şair Əhməd Cavad musiqisi isə məşhur bəstəkar Üzeyir Hacıbəyov tərəfindən yazılmışdı. 1920-1991-ci illərdə Azərbaycan Sovetlər Birliyinin tərkibində olduqda özünün dövlət himni olmuş (Azərbaycan Sovet Sosialist Respublikasının himni), lakin Sovetlər birliyi dağıldıqdan sonra Azərbaycan dövləti özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdiyi üçün dövlət himnini də yenidən bərpa



etmişdir.

**DÖVLƏT SƏFƏRLƏRİ** - Dövlətlərin beynəlxalq əlaqələrinin inkişafına kömək edən xarici siyasi fəaliyyətinin mühüm formalarından biridir. Dövlət səfərlərinə dövlət başçısının, yüksək səviyyəli rəsmi nümayəndələrin səfərləri daxildir. Diplomatik protokola uyğun olaraq, dövlət səfərlərinin yerinə yetirilməsinin təsnifatı (dərəcələrə ayırma), qaydaları və bunlara uyğun mərasimləri vardır.

**DÖVLƏT SƏRHƏDLƏRİ** - Dövlət ərazisinin (quru, su və hava məkanı) göstərmək üçün müəyyən nöqtələrdən keçərək bunları birləşdirən həqiqi və ya mülahizə edilən xətlərə dövlət sərhədləri deyilir. Bir dövlətin quru ərazisini başqa dövlətin quru ərazisindən ayıran xətlər dövlətin quru sərhədləri adlanır. Dövlətin ərazi sularını açıq dəniz sularından ayıran xətlərə, həmçinin iki qonşu dövlətin ərazi sularını ayıran xətlərə dövlətin dəniz sərhəddi deyilir. Yer müstəvisinə dövlətin sərhədindən perpendikulyar istiqamətdə keçən mülahizə olunan müstəviyə dövlətlərin hava sərhəddi deyilir.

Dövlətlər arasındakı quru və dəniz sərhədləri müqavilə və sazişlərlə nizamlanır (bax. delimitasiya, demorkasiya, redemarkasiya). Dövlətlərin ərazi sularının açıq dənizlərlə əlaqəsi olan yerlərdə dövlət beynəlxalq hüquq qaydalarına uyğun şəkildə dövlət sərhədlərini təyin edir.

Dövlət sərhədləri toxunulmazdır. Dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək və suverenliyini qorumaq məqsədilə dövlət sərhədlərini pozana qarşı hərbi qüvvənin tətbiq olunması da daxil olmaqla bütün zəruri tədbirləri görmək hüququna malikdir. Dövlət sərhədlərinin rejimi hər bir dövlətin daxili qanunvericiliyi və həmsərhəd ölkə ilə bağladığı müqavilələrlə müəyyən olunur.

**DÖVLƏT SUVERENLİYİ** - Dövlət hakimiyyətinin ölkə daxilində hökmranlığı və xarici siyasət sahəsində müstəqilliyidir. Dövlət suverenliyi dövlət hakimiyyətinin siyasi-hüquqi mahiyyətini əks etdirir və dövlətin daxili və xarici siyasətində müvafiq formalarda təzahür edir. Dövlət hakimiyyətinin mühüm xüsusiyyəti olmaqla suverenlik dövlətin keyfiyyət əlamətlərindəndir, onun siyasi-hüquqi mahiyyətini xarakterizə edir.

Hökmranlıq dedikdə, cəmiyyətdə vahid hüquq qaydasının

dövlət orqanlarının və ictimai təşkilatların hüquq qabiliyyətini müəyyən etmək, vəzifəli şəxslərə və vətəndaşlara hüquq və vəzifələr vermək sahəsində səlahiyyəti, yəni hakimiyyətin ölkə daxilində müstəqilliyi və onun heç bir dövlətin hakimiyyətindən asılı olmamasıdır.

Dövlətlərarası əlaqələr suveren dövlətlər arasındakı ünsiyyətdir. Dövlətlərin müəyyən münasibətlərdə öz hərəkətlərini razılaşdırılmış qaydalara uyğunlaşdırması nəticəsində beynəlxalq hüquq normaları əmələ gəlir. Müvafiq saziş bağlanan vaxtdan həmin dövlətlər bu qaydaları hökmən icra etməlidirlər. Dövlətin onun xarici müstəqilliyi arasında üzvi qarşılıqlı əlaqə və uyğunluq var; dövlət hakimiyyətinin xaricdə müstəqilliyi onun dövlət daxilində hökmranlığı faktı ilə şərtlənir. Dövlət suverenliyi olmadan müstəqillik ola bilməz.

**DÖVLƏTLƏRİN HÜQUQİ VARİSLİYİ** - Bir dövlətin hüquq və vəzifələrinin başqa dövlətə keçməsidir. Dövlətin hüquqi varisliyi haqqında məsələ dövlətlərin inqilab nəticəsində sosial quruluşunun dəyişildiyi halda, milli-azadlıq mübarizəsi nəticəsində yeni müstəqil dövlətlərin yarandığı halda, bir dövlətin ərazisində bir neçə dövlət yarandığı halda və yaxud bir neçə dövlətlərin birləşib bir dövlət əmələ gətirdiyi halda, həmçinin bir dövlətin ərazisinin bir hissəsinin başqa dövlətə verildiyi halda meydana çıxır.

Dövlətin hüquqi varisliyi xüsusi halda, beynəlxalq müqavilələrə münasibətdə, dövlət mülkiyyətində, arxivlər və borclarda, həmçinin beynəlxalq hökumətlərarası təşkilatlarda üzvlük münasibətində həyata keçirilə bilər.

**DÖVLƏTLƏRİN MƏDƏNİ ƏMƏKDAŞLIĞI** - Dövlətlər arasında əlaqə formalarından biridir, belə ki, bu forma mədəniyyətin və elmin müxtəlif sahələrinin nailiyyətləri ilə xalqların qarşılıqlı zənginləşməsinə xidmət edir. Təsviri sənət, kino, televiziya və radio, ədəbiyyat, kitab nəşriyyatı işi və müəlliflik hüququnun qorunması, idman, turizm sahələrində mübadilə, elm, təhsil, səhiyyə, sosial təminat, ictimai təşkilatlar arasında əlaqələr şəhərlərin qardaşlaşması və s. sahələrdəki əməkdaşlıq dövlətlərin mədəni əməkdaşlığına daxildir.

Azərbaycan Respublikası müstəqillik qazanandan sonra



dünyanın onlarla dövlətləri ilə mədəni əməkdaşlığını qurmuşdur. Bu gün dünyanı müxtəlif regionlarında Bakı şəhəri ilə qardaşlaşmış şəhərlər mövcuddur. Azərbaycanda vaxtaşırı beynəlxalq mədəni tədbirlər (vokalçıların beynəlxalq konqresi, beynəlxalq kino festivalları və s.) təşkil olunur. Elmin, mədəniyyətin, incəsənətin müxtəlif sahələri üzrə azərbaycanlı oğlan və qızlar bu gün dünyanın müxtəlif yerlərində keçirilən mədəni tədbirlərdə ölkəmizi tərənnüm edirlər.

**DÖVLƏTLƏRİN SUVEREN BƏRABƏRLİYİ** - Beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Bu prinsipə görə iqtisadi, sosial və siyasi sistemlərdən asılı olmayaraq bütün dövlətlər eyni hüquq və vəzifələrə malikdirlər və beynəlxalq birliyin bərabərhüquqlu üzvləridir. Dövlətlərin suveren bərabərliyi prinsipi BMT-nin Nizamnaməsində, BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasındakı əməkdaşlığa və dostluq münasibətlərinə toxunan beynəlxalq hüququn prinsipləri haqqındakı bəyannamədə, ATƏT-in Yekun Aktında (1975) və bir çox beynəlxalq sənədlərdə əks olunmuşdur. Dövlətlərin suveren bərabərliyi prinsipinə aşağıdakı elementlər daxildir: dövlətlər hüquqi olaraq bərabərdirlər, hər bir dövlət onun suverenliyinə məxsus hüquqlardan istifadə edir, hər bir dövlət başqa dövlətin hüquqi subyektlərinə hörmət etməyə borcludur, dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyi toxunulmazdır, hər bir dövlətin azad şəkildə özünün siyasi, sosial, iqtisadi və mədəni sistemini seçmək və inkişaf etdirmək hüququ vardır, hər bir dövlət özünün beynəlxalq öhdəliklərini tam və vicdanla yerinə yetirməyə və başqa dövlətlərlə dostluq münasibətində yaşamağa borcludur.

**DÖYÜŞƏN TƏRƏF** - Müharibə vəziyyətində olan, müharibənin qayda-qanunlarını təmin edən hüquq və vəzifələrin subyektidir.

Beynəlxalq və daxili konfliktlərdəki döyüşən tərəflər fərqlidirlər. Beynəlxalq konfliktlərdə döyüşən tərəf dedikdə, ya dövlət, ya da xalqın milli-azadlıq mübarizəsini aparanlar başa düşülür. Daxili konfliktlərdə döyüşən tərəflər dedikdə isə vətəndaş müharibəsini aparan tərəflər nəzərdə tutulur.

Beynəlxalq konfliktlərdə döyüşən tərəfin beynəlxalq hüquqi statusu müharibənin başlanmasıyla, daxili konfliktdə isə vətən-

daş müharibəsində döyüşən tərəflər beynəlxalq tanınmadan sonra meydana gəlir. Döyüşən tərəflər üçün və neytral dövlətlər üçün müharibənin qayda və qanunları məcburidir.

Vətəndaş müharibəsində tərəfin döyüşən tərəf kimi qəbul edilməsi ona beynəlxalq münasibətdə döyüşən tərəf üçün qəbul edilmiş bütün hüquqlardan, o cümlədən beynəlxalq hüququn subyekti ilə müqavilələr bağlamaq hüququndan istifadə etmək imkanı verir.

**DÜNYA ƏRZAQ PROQRAMI (DƏP)** - Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı təşkilatı və başqa beynəlxalq təşkilatlarla birlikdə 1962-ci ildə eksperimental əsaslarla, 1966-cı ildən isə daimi olaraq həyata keçirilən proqramdır.

DƏP-in ümumi qaydaları inkişafda olan ölkələrin əhalisinin ərzaqla təmin edilməsini yaxşılaşdırmaq məqsədi ilə ərzaqla, pul vəsaiti ilə yardımı və yaxud iqtisadi və sosial xarakterli layihələrin həyata keçirilməsi üçün lazım olan xidmətləri nəzərdə tutur. DƏP-in resursları ölkələrin kənd təsərrüfatı mallarının və yeyinti məhsullarının, pul vəsaitlərinin könüllü şəkildə verilməsi hesabına toplanır. BMT-nin Baş Məclisi tərəfindən yaradılan beynəlxalq fövqəladə ərzaq ehtiyatının istifadəsi də DƏP tərəfindən həyata keçirilir.

DƏP-in fəaliyyətinə siyasət və ərzaq proqramı üzrə Komitə rəhbərlik edir. Komitə 30 ölkənin nümayəndələrindən təşkil olunmuşdur və bu nümayəndələr DƏP-in konfransında seçilir. Komitə hər il 2 sessiya keçirir.

**DÜNYA OKEANI** - Dünya okeanı dedikdə, Yer kürəsinin bütün materiklərini və adalarını əhatə edən kəsilməz su sahəsi nəzərdə tutulur. Dünya okeanından istifadə edilməsi 20-ci əsrin 2-ci yarısında qlobal problemlərdən birinə çevrilmişdir, belə ki, bu problemin həlli ətrafında müxtəlif dövlətlər qrupu arasında gərginlik yaranmışdı. Elmi-texniki inqilab və dünya okeanında təsərrüfat fəaliyyətinin inkişafı, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində dünya okeanının rolu, dünya iqtisadiyyatında dənizin mineral və canlı resurslarının artması, dəniz nəqliyyatı və kommunikasiyanın inkişafının zəruriliyi, ekoloji problem və dənizlərin çirkləndirilməsinə qarşı zəruri mübarizə və s. bütün bu faktorlar dünya okeanından istifadə olunmasının beynəlxalq müqavilələr çərçivəsində (dəniz hüququ haqqında 1958-ci il Cenevrə konvensiyası, dəniz hüququ haqqında BMT-nin 1982-ci



il konvensiyası, dəniz hüququ üzrə BMT-nin konfransları) hüquqi nizama salınmasının zəruriliyini şərtləndirdi.

Dünya okeanı haqqında 1982-ci il konvensiyasında təsbit olunmuş hüquqi rejim dünya okeanından istifadə və okeanın qorunmasında dövlətlərin hüquq və fəaliyyətinin nizama salınmasının vahid sistemini göstərir, dövlətlərin arasında dünya okeanı ilə bağlı mübahisələrin nizama salınması məsələsini həll edir.

# E

**EFİOPİYA** - Afrikanın şərqində yerləşir. Ərazisinin sahəsi 1.221.894 kv.km, əhalisinin sayı isə 55.979.018 nəfərdir (1995). Dövlət dili amxar dilidir.

Dövlət quruluşu müvəqqəti hökumətdir. Paytaxtı Əddis-Əbəbə şəhəridir. 1889-cu ildə Efiopiya İtaliyanın protektoratı olmuş, lakin 1895-ci ildə yenidən müstəqillik əldə etmişdir. Milli bayramları: 2 mart Adua qələbə günü (1896) və 6 aprel Qələbə günü (1941). İcra hakimiyyəti Keçid hökumətinə, qanunverici hakimiyyət isə Keçid hökumətinə və Nümayəndələr Şurasına məxsusdur.

**EKVADOR** - Cənubi Amerikanın şimali-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 283.561 kv.km, əhalisinin sayı isə 11.000.000. nəfərdir (1995).

Ölkənin tam adı Ekvador Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Kito şəhəridir. Ekvador İspaniyadan müstəqilliyini 24 may 1822-ci ildə əldə etmişdir. Dövlət və hökumət başçısı prezidentdir. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Konqresdir.

**EKVATORİAL QVİNEYA** - Afrikanın qərbində yerləşir. Ərazisinin sahəsi 28.050 kv.km, əhalisinin sayı isə 420.293 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Ekvatorial Qvineya Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Malabo şəhəridir.

Ekvatorial Qvineya müstəqilliyini 12 oktyabr 1968-ci ildə İspaniyadan almışdır (əvvəllər İspaniya Qvineyası). Milli bayramı 12 oktyabr Müstəqilliyin elan olunduğu gündür. Dövlət başçısı prezidentdir, hökumətə isə baş nazir rəhbərlik edir. Qanunverici hakimiyyət prezidentlə birlikdə xalq nümayəndələri palatası adlanan parlament vasitəsilə həyata keçirilir.

**EKZEKVATURA** (lat. exsequare - müəyyən etmək) - Xarici ölkənin konsulunu qəbul edən dövlətin hökumətinin təsdiq etdiyini bildirən rəsmi sənəddir.

Ekzekvaturanın forması qəbul edən dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunur. Qaydaya görə, ekzekvatura dövlət başçısının (hökumət başçısı, xarici işlər nazirini) imzası və möhürü ilə təsdiq edilir.

Ekzekvatura verilənə qədər qəbul edən dövlət zəruri halda xarici konsula müvəqqəti icazə verə bilər. Ekzekvaturadan imtina edildikdə qəbul edən dövlət təyin edən dövlətə imtinanın motivləri haqqında məlumat verməyə də bilər.

Ekzekvatura diplomatik nümayəndəliyin konsulluq şöbəsinin müdirinə bu funksiyanı səfirliyin və diplomatik missiyanın diplomatik heyəti üzvlərindən biri yerinə yetirdiyi üçün tələb olunmur.

**ELÇİ** - Müasir beynəlxalq hüquqda qəbul olunmuş, diplomatik münasibətlər haqqında 1961-ci il Vyana konvensiyasında əks olunmuş təsnifata görə elçi 2-ci dərəcəli diplomatik nümayəndəliyin başçısıdır. Beynəlxalq aləmdə işlənən tam rəsmi adı Fövqəladə elçi və Səlahiyyətli Nazir (ing. Envoy Extraordinari and Minister Plenipontentari), qısa şəkildə isə Səlahiyyətli Nazirdir. Müvəqqəti işlər vəkilindən fərqli olaraq, elçi səfir kimi dövlət başçısı tərəfindən akkreditə olunur.

**EMBARQO** (isp. embarqo - qadağan) - Müəyyən malların və ya valyutanın ölkəyə gətirilməsinə və yaxud ölkədən aparılmasına, elmi-texniki informasiyaların ötürülməsinə və s. Qoyulmuş məhdudiyyət və ya qadağadır. Beynəlxalq praktikada iqtisadi və ya maliyyə təzyiqi kimi tətbiq olunur.

BMT-nin Nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik Şurası BMT-nin üzv dövlətlərindən fəaliyyəti beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə olan dövlətə qarşı embarqo tətbiq etməyi tələb edə bilər. Belə ki, 04.11.1977-ci ildə BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi 418-li qətnamə ilə CAR-a silah satışına embarqo qoymuşdu.

**EMİQRANT** (lat. emiqran's - köçürülmüş) - Özünün vətəndaşlığı olan ölkəni və yaxud daimi yaşadığı ölkəni tərk edən və daimi yaşamaq üçün başqa ölkəyə gedən şəxsdir.

**EMİSSAR** (lat. emissarius - elçi) - Dövlətin və ya hansısa təşkilatın başqa ölkədə müxtəlif tapşırıqları (məxfi) yerinə-yetirən xüsusi nümayəndəsidir (hansısa şəxsin şəxsi nümayəndəsi da ola bilər). Qaydaya görə, emissarın missiyası rəsmi xarakter

daşımır.

**ERİTREYA** - Şərqi Afrikada yerləşir. Ərazisinin sahəsi 93.700 kv.km, əhalisinin sayı isə 3.578.709 nəfərdir (1995). Dövlət dili ərəb və ingilis dilləridir.

Dövlət quruluşu keçid hökumətidir. Paytaxtı Asmera şəhəridir. Eritriya müstəqilliyini 24 may 1993-cü ildə əldə etmişdir (əvvəllər Efiopiyanın bir hissəsi olub). Milli bayramları 24 may Müstəqillik günü (1993) və 1 sentyabr Müstəqillik uğrunda silahlı mübarizənin başlandığı gündür (1961). Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan Eritreya Milli Assambleyasıdır.

**ERMƏNİSTAN** - Zaqafqaziyada yerləşən dövlətdir. Ərazinin sahəsi 29.800 kv.km, əhalinin sayı isə 3.557.284 nəfərdir (1995). Dövlət dili erməni dilidir.

Dövlətin tam adı Ermənistan Respublikasıdır. Dövlət quruluşu demokratik respublikadır. Paytaxtı Yerevan şəhəridir. Ermənistan respublikası 28 may 1918-ci ildə müstəqilliyini elan etmişdir. 20 noyabr 1920-ci ildə burada Sovet Ermənistanı respublikası qurulmuş, 30 dekabr 1922-ci ildə SSRİ-nin tərkibinə qatılmışdır. 1991-ci ildə Ermənistan Ali Soveti müstəqillik haqqında bəyanatını qəbul etmişdir. Milli bayram 28 may Müstəqillik günüdür. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Parlament birpalatalı Ali Sovetdir.

**ESTONİYA** - Şimal-qərbi Avropada yerləşir. Ərazisinin sahəsi 45.100.kv.km, əhalisinin sayı isə 1.625.399 nəfərdir (1995). Dövlət dili eston dilidir.

Ölkənin tam adı Estoniya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Tallin şəhəridir. Estoniya SSRİ dağıldıqdan sonra 20 avqust 1991-ci ildə müstəqilliyini əldə etmişdir. Milli bayram 24 fevral Müstəqillik günüdür (1918). İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Riyqikoqudur.

**ETİMADNAMƏ** - Beynəlxalq hüquqda diplomatik nümayəndənin təyin olunmasını həyata keçirməyə kömək edən sənəddir.



Etimadnamə diplomatik nümayəndənin missiyasının (vəzifəsinin) və şəxsiyyətinin səlahiyyətli (diplomatik) xarakterini təsdiq edir. Səfir və elçilər üçün etimadnamə müəyyən edilmiş bir formada dövlət başçısının adından yazılır, müvafiq şəxslər tərəfindən imzalanır və möhürlənir. Etimadnamə onu vermiş ölkədə qəbul edilmiş qaydalara uyğun olaraq tərtib edilir, lakin orada bir sıra məcburi rekvizitlər: nümayəndəliyin başçısını təyin etmiş ölkənin adı, onu göndərənin adı və titulu (rütbəsi), diplomatik nümayəndənin adı və rütbəsi, ona bütün əlaqələrdə məhz həmin dövlətin nümayəndəsi kimi "inanmaq" (etimad göstərmək) xahişi olmalıdır. Diplomatik nümayəndə etimadnaməni dövlət başçısı tərəfindən ilk dəfə qəbul edildikdə (audensiya zamanı) təqdim edir, onun təsdiq edilmiş surəti isə qabaqcadan xarici işlər idarəsinin başçısına göndərilir. Etimadnamə diplomatik nümayəndənin ümumi səlahiyyətini təsdiq edir.

# Ə

**ƏFQANISTAN** - Asiyanın cənub-qərbində yerləşən dövlətdir. Ərazisinin sahəsi 652.090 kv.km, əhalisinin sayı isə 21.251.821 nəfərdir (1995). Son on ildə ölkədəki müharibə və siyasi vəziyyətə dözməyən əhalinin 1/3-hissəsi ölkəni tərk etmişdir. Dövlət dili puştu və fars dilidir. Ölkənin tam adı Əfqanıstandır. Paytaxtı Kabul şəhəridir.

**ƏLCƏZAİR** - Şimali Afrikada yerləşir. Ərazisi 2.381.740 kv.km, əhalisi isə 28.539.321 (1995) nəfərdir.

Ölkənin tam adı - Əlcəzair Xalq Demokratik Respublikasıdır. Paytaxtı Əlcəzair şəhəridir. Dövlət quruluşu prezidentli respublikadır.

Əlcəzair 1830-cu ildən 1962-ci ilə qədər Fransanın müstəmləkəsi olmuşdur. Silahlı mübarizə nəticəsində 5 iyun 1962-ci ildə Əlcəzair özünün müstəqilliyini elan etdi. Qanunvericilik fransız və islam qanunlarına əsaslanır. Milli bayram 1 noyabr (1954) İnqilab günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlamentə - Milli Xalq Məclisinə məxsusdur.

**ƏN AZ İNKİŞAF ETMİŞ ÖLKƏLƏR** - BMT BM-nin 1971-ci ildə qəbul etdiyi meyara görə, (sənəd E /4990) ən az inkişaf etmiş ölkələrə o, ölkələr aid edilir ki, həmin ölkələrdə əhalinin hər birinə düşən ümumi milli ərzaq 100 dolları aşmır (1970-ci il qiyməti ilə), emaledici sənayenin ümumi milli ərzaqdakı payı 10%-dən çox deyildir, əhalinin savadlılıq dərəcəsi (15 yaşından yuxarı) 20% -dən çox olmasın. Ən az inkişaf etmiş ölkələrin sayı dəyişəndir. 1980-ci ilin ortalarında onların sayı 36 (Afrikada 26 Asiyada 9, Karib hövzəsində 1), bu ölkələrdəki əhalinin sayı isə 300 milyondan yuxarı idi.

BMT-nin ən az inkişaf etmiş ölkələr üzrə 1-ci konfransında (Paris, 1981) bu ölkələrin inkişafı üçün yeni proqram qəbul olunmuşdur. Bu proqramda həmin ölkələrin özlərinin çata biləcəyi göstəricilər müəyyən olunmuş, həmçinin beynəlxalq köməyin



həcmi müəyyən olunmuşdur.

**ƏRƏB DÖVLƏTLƏRI LİQASI** - Beynəlxalq hökumətlərarası təşkilatdır, 22.03.1945-ci ildə Qahirədə ərəb ölkələrinin konfransında yaradılmışdır. Liqaya bütün ərəb dövlətləri və Fələstin Azadlıq Təşkilatı (1985-ci ildən) daxildir.

Ərəb Dövlətləri Liqasının Nizamnaməsi üzv dövlətlərin arasındakı münasibətləri möhkəmləndirmək, onların müstəqilliyini, suverenliyini qorumaq məqsədi ilə siyasi fəaliyyətin koordinasiyasını, mədəniyyət, iqtisadiyyat, maliyyə və b. sahələrdə sıx əməkdaşlığı nəzərdə tutur, mübahisələrin yoluna qoyulması üçün güæcdən istifadə etməyi qadağan edir, başqa ölkələrdəki siyasi rejimlərin devrilməsinə hörmətlə yanaşmağı və bu rejimlərə cəhd göstərməkdən imtina etməyi tələb edir.

Ərəb Dövlətləri Liqasının ali orqanı üzv dövlətlərin nümayəndəliklərindən təşkil olunmuş və ildə 2 dəfə çağırılan Ərəb Dövlətləri Liqası Şurasıdır. Şuranın qəbul etdiyi hər bir qərar səs vermiş hər bir üzv dövlət üçün öhdəlikdir. İşçi orqanlar Daimi Komitələrdir (siyasi, iqtisadi, hərbi və b. məsələlər üzrə). İcraedici orqan 5 il müddətinə seçilən baş katibin rəhbərlik etdiyi Baş Katiblikdir.

Ərəb Dövlətləri Liqası Şurasının sessiyasında ərəb-İsrail münaqişəsinin nizama salınması, Fələstin problemi, siyasi, iqtisadi, mədəni və hərbi əməkdaşlıqlarla bağlı məsələlər müzakirə olunur. Ərəb Dövlətləri Liqası çərçivəsində ərəb ölkələrinin dövlət və hökumət başçılarının toplantısı çağırılır. Ərəb Dövlətləri Liqası regional təşkilatlarla, inkişafda olan ölkələrlə geniş əlaqələri müzakirə edir. BMT-də müşahidəçi statusuna malikdir.

1979-cü ildə Misir-İsrail sülh müqaviləsi imzalandıqdan sonra ərəb ölkələri Misirin üzvlüyünü dayandırdı və təşkilatın mənzil-qərargahını Qahirədən Tunisə köçürdülər. Ərəb dövlətlərinin əksəriyyəti Misirlə diplomatik əlaqələri kəsdilər. Qahirəyə maddi, maliyyə və hərbi köməyi də dayandırdılar, Misir banklarından pullarını geri götürdülər.

Ərəb Dövlətləri Liqası tərkibinin müxtəlifliyi və üzv dövlətlərinin bəziləri arasındakı fikir ayrılıqları Ərəb Dövlətləri Liqasının fəaliyyətində özünü büruzə verir. Lakin bütövlükdə Ərəb Döv-

lətləri Liqası Yaxın Şərq probleminin ədalətlə nizama salınması ilə bağlı mübarizədə ümumərəb mövqeyini müdafiə edir.

**ƏSAS ƏRAZİ REJİMLƏRİ** - Hansısa məhdud ərazidən istifadə olunmasının hüquqi statusunu və qaydalarını müəyyən edən beynəlxalq hüquqi rejimdir. Əsas ərazi rejimləri bir çox dövlətlərin və ya bütün dünya dövlətlərinin marağı ilə müəyyənləşdirilə bilər.

Beynəlxalq gəmiçiliyin istifadəsi üçün beynəlxalq çaylar, körfəzlər, kanallar üzrə gəmiçilik rejimləri, demilitarizasiyalaşmış və neytrallaşmış zonaların balıqçılıq, dəniz dibinin mineral ehtiyatlarının istismarı və s. kimi rejimlər məlumdur. Əsas ərazi rejimləri iqtisadi zonalarda və yaxud bitişik zonalarda müəyyən edilə bilər. Aland adaları və Şpisberq rejimini əsas ərazi rejimlərinə aid etmək olar. Gömrük münasibətlərində imtiyazlara malik olan azad zonalar rejimi əsas ərazi rejiminin xüsusi növüdür.

Özünün sabitliyinə görə əsas ərazi rejimləri dövlətlərin hüquqi varisliyinə toxunmur. Bu müddəa müqavilələrə münasibətdə dövlətin hüquqi varisliyi haqqında Vyana konvensiyasının 12-ci maddəsində öz əksini tapmışdır.

**ƏSRİN MÜQAVİLƏSİ** - Xəzər dənizinin Azərbaycan sektorunda neft ehtiyatlarının aşkar edilməsi və hasilatı məqsədilə ilə altı sərmayəçi ölkəni (ABŞ, Böyük Britaniya, Norveç, Səudiyyə Ərəbistanı, Rusiya və Türkiyə) təmsil edən 11 şirkətin və Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) daxil olduğu konsorsiumun 20 sentyabr 1994-cü ildə imzaladığı müqavilədir. Müqaviləyə görə ARDNŞ-nin payı 20%, AMOCO -17%, BP-17%, Unocal -11%, Lukoil-10%, Pennzoil -9,9%, Mc.Dermott - 2,45%, TPAO-1,75%, Statoil-8,5%, Ramco-2%-ə qədərdir.

**ƏRAZİ SULARI** - Dövlətin quru sərhədi boyunca materikdən müəyyən olunmuş məsafə daxilində dövlətin yuridikasiyası şamil olunan sulardır. Ərazi suları beynəlxalq hüququn prinsipləri rəhbər tutulmaqla sahil dövləti tərəfindən müəyyənləşdirilir. Dəniz hüququ üzrə BMT-nin 1982-ci il konvensiyasında bu məsafə 12 dəniz milinə qədər nəzərdə tutulur.



# F

**FEDERASİYA** (fr. federation, lat. foederatio - birləşmə, ittifaq) - Bir qayda olaraq çoxmillətli dövlətlərdə mövcud olan dövlət quruluşu formasıdır. Federasiya hüquqi cəhətdən müəyyən siyasi müstəqilliyi olan dövlət qurumlarından ibarət mürəkkəb (ittifaq) bir dövlətdir. Federasiya dövlətini təşkil edən dövlət qurumları (ştatlar, torpaqlar, əyalətlər, kantonlar və s.) federasiyanın subyektləridir və onların özlərinin inzibati-ərazi bölgüsü var. Unitar dövlətdən fərqli olaraq Federasiyada iki sistem - ali dövlət hakimiyyət orqanları var: federal orqanlar və federasiya üzvlərinin müvafiq orqanları. Federal orqanlar öz səlahiyyətlərini və funksiyalarını bütün dövlət ərazisində həyata keçirirlər.

Müasir dünyanın ABŞ, AFR, RF və b. dövlətləri federasiya qurumlarına malikdir.

İttifaq konstitusiyası, yaxud ittifaq qanunvericiliyi pozulduqda mərkəzi hakimiyyət federasiya subyekti barəsində məcburi tədbirlər görə bilər. İkipalatalı quruluşu olan federal parlament federasiyanın elementlərindən biridir (bax. İkipalatalı sistem). Bir qayda olaraq federasiya üzvlərinin öz konstitusiyası, qanunvericilik səlahiyyəti və s. var. İttifaq dövlətinin mərkəzi hakimiyyəti ilə federasiya subyektlərinin hakimiyyəti arasında qarşılıqlı münasibətlər mərkəziyyət prinsipinə əsaslanır ki, bu prinsip federasiya üzvlərinin dövlət müstəqilliyini istisna edir.

**FƏLƏSTİN** - Yaxın Şərq ölkəsidir. Ərazisini sahəsi 6.240 kv.km, əhalisinin sayı isə 2.133.313 nəfərdir (1995). İki rəsmi dili - ərəb və ivrit dilləri vardır.

Ölkənin tam adı Fələstin dövlətidir. 1947-ci ildə BMT Fələstinin ərazisində iki dövlət - ərəb və yəhudi (İsrail) dövlətlərinin yaradılmasını elan etmişdir. Lakin Fələstin torpaqlarının böyük hissəsi İsrail tərəfindən işğal edilmiş, kiçik bir hissə isə İordaniya tərəfindən tutulmuşdur. 1964-cü ildən mübarizə aparan Fələstin Azadlıq Təşkilatı (FAT) 1989-cu ildə Fələstin dövlətinin yaranmasını elan etdi. 1997-ci ildə İsrail FAT-la bağladığı müqavilə ilə Fələstinin muxtariyyat hüququnu tanıdı.

**FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI (FAT)** - 1964-cü ildə İsrail tərəfindən işğal olunmuş Fələstin ərazisinin azadlığı uğrunda mübarizə məqsədi ilə ərəb ölkələrinin dövlət və hökumət başçılarının qərarına uyğun olaraq Fələstin Milli Konqresində yaradılmışdır. 60-cı illərin sonunda FAT Fələstin müqavimət hərəkatının bütün dəstələrini birləşdirdi. FAT-a aşağıdakı təşkilatlar daxildir: Fələstin Milli Azadlıq Təşkilatı (FMAT), Fələstin Azadlığı Demokratik Cəbhəsi (FADC), Milli-Azadlıq Müharibəsinin Avanqardı (Saika), Ərəb Qurtuluş Cəbhəsi (ƏQC), Fələstin Azadlığı Xalq Cəbhəsi - Baş Komandanlığı (FAXC-BK), Fələstin Azadlıq Cəbhəsi (FAC), Fələstin Xalq Mübarizəsi Cəbhəsi (FXMC).

FAT-ın ali orqanı Fələstin Xalq Şurasıdır (FXŞ). Şurada Fələstin müqavimət hərəkatının əsas siyasi qüvvələrinin, həmkarlar ittifaqlarının, qadın təşkilatlarının, gənclər təşkilatlarının və b. təşkilatların nümayəndələri təmsil olunurlar.

FXŞ-nin sessiyası arasındakı müddətdə FAT-ın Mərkəzi Şurası fəaliyyət göstərir. FAT-ın rəhbər orqanı 15 nəfərdən ibarət İcraiyyə Komitəsidir. FAT Fələstin Azadlıq Ordusu adlı müntəzəm hərbi gücə malikdir. FAT Fələstin Milli Fondu və ərəb ölkələri tərəfindən maliyyələşdirilir.

Fələstin xalqının milli hüquqları uğrunda uzunmüddətli mübarizənin nəticəsi olaraq, FAT bütün ərəb dünyası və beynəlxalq aləm tərəfindən Fələstin xalqının vahid qanuni nümayəndəsi kimi tanındı. FAT-ın dünyanın 70-dən çox ölkəsində nümayəndəliyi fəaliyyət göstərir. BMT-nin Baş Məclisinin 1974-cü il tarixli 3237 (XXIX) saylı qətnaməsinə uyğun olaraq, FAT-a BMT-də müşahidəçi statusu verildi. Bundan başqa FAT Ərəb Dövlətləri Liqasının, Yenilməzlik və Müqavimət Milli Cəbhəsinin, İslam Konfransı Təşkilatının üzvüdür.

**FƏLƏSTİN XALQININ AYRILMAZ HÜQUQLARININ BƏRPASI ÜZRƏ BMT-nin KOMİTƏSİ** - BMT BM-in köməkçi orqanıdır. Komitənin tərkibi BMT-nin 23 dövlətindən ibarətdir. Fələstin Azadlıq Təşkilatı Komitənin işində müşahidəçi kimi iştirak edir. 1975-ci ildə BMT BM-nin 3376 (XXX) nömrəli qətnaməsi ilə Fələstin xalqının ayrılmaz hüquqlarının, o cümlədən xarici müdaxilə olmadan özünüidarəetmə hüququnun, milli müstəqillik və suverenlik hüququnun, öz ocaqlarına qayıtmaq hüququnun bərpası üzrə təkliflərinin işlənməsi üçün yaradılmışdır.

1976-cı ildə Komitə tərəfindən işlənmiş təkliflərdə qeyd olunur ki, Fələstin probleminin ədalətli həlli Yaxın Şərq probleminin nizamlanması üçün açar rolunu oynayır. Bu təkliflərə dəfələrlə BMT BM-də baxılıb və BMT-nin qətnamələrində müdafiə olunub. Lakin BMT Təhlükəsizlik Şurasında qəbul olunmayıb. 1982-ci ildə Komissiyanın təklifi ilə BMT BM-in XXXVII sessiyasında Fələstin məsələsi ilə bağlı beynəlxalq konfranslar keçirilməsi qərara alındı və bu konfrans 1983-cü ilin sentyabrında Cenevrədə keçirildi.

Komissiyanın təklifi ilə BMT BM-si 1979-cu ildə hər il 29 noyabr gününü Fələstin xalqı ilə beynəlxalq həmrəylik günü, 1982-ci ildən isə hər il 4 iyun gününü beynəlxalq günahsız uşaqlar - təcavüz qurbanları günü kimi elan etdi.

**FƏLƏSTİN PROBLEMİ** - Osmanlı imperiyasının dağılmasından sonra Fələstinin idarə edilməsi üçün Millətlər Liqasından mandat alan Böyük Britaniya yəhudilərin bu ölkəyə axınına şərait yaratdı. Əgər 1917-ci ildə Fələstində 57 min yəhudi, yəni əhalinin 9,7 faizi (90,3 faiz- fələstin ərəbləri) yaşayırdısa, 1937-ci ildən yəhudilərin sayı 460 min nəfərə (28 faiz), 1943-cü ildə 539 min nəfərə (32 faiz) çatdı.

Yəhudi emiqrantlarının yerləşdirilməsi fələstin ərəblərinin öz maraqlarının qorunması ilə paralel aparılırdı.

20-30-cu illərdə Fələstinin ərəb əhalisi Britaniya mandatının dayandırılması, Fələstinə müstəqillik verilməsi və yəhudilərin Fələstinə köçürülməsinə qarşı mübarizəyə qalxmışdılar. Böyük Britaniya cəhd göstərsə də Fələstin xalqının mübarizəsinin qarşısını ala bilmədi və Fələstin məsələsini BMT-nin müzakirəsinə çıxartmağa məcbur oldu.

29.11.1947-ci ildə BMT-nin Baş Məclisi Fələstinin 2 dövlətə - ərəb və yəhudi dövlətinə bölünməsi və Qüdsə isə özünüidarə vahidinin verilməsi haqqındakı 181/II qətnaməsini qəbul etdi. Yəhudi dövlətinə əhalisi 498 min yəhudi və 407 min ərəb olan 14,1 min kv.km.ərazi (Fələstinin ərazisinin 56 faizi), ərəb dövlətinə isə əhalisi 725 min ərəb və 10 min yəhudi olan 11,1 min kv.km. (Fələstin ərazisinin 43 faizi) ərazi verildi. Ərəb dövlətləri BMT-nin BA-nın bu qətnaməsinin əleyhinə səs verdilər.

14.05.1948-ci ildə yəhudilərin dövlətinin - İsrailin qurulması elan edildi. 15.05.1948-ci ildə Misir, İordaniya, Livan, Suriya,

Səudiyyə Ərəbistanı, Yəmən və İranın qoşunları Fələstinə daxil oldular və ərəb-İsrail müharibəsi başlandı.

İsrailin Ərəb torpaqlarını tutması və bu torpaqlardan əhalinin qovulması nəticəsində Fələstin qaçqınlarının problemi meydana çıxdı. 1948-49-cu illər Ərəb-İsrail müharibəsinin sonunda ərəb qaçqınlarının sayı 950 minə çatdı. Bu gün dünyanın müxtəlif ölkələrinin ərazisində 4 milyondan çox Fələstin qaçqını yaşayır. BMT Fələstin qaçqınları problemi ilə məşğul olmaq məcburiyyətində qaldı və bu məqsədlə Fələstin qaçqınlarına kömək üçün BMT-nin Yaxın Şərq Bürosu yaradıldı.

1964-cü ildə Fələstin Azadlıq Təşkilatı (FAT) yaradıldı. 1967-ci ildə qurtaran Ərəb-İsrail müharibəsindən sonra fələstin xalqı öz milli hüquqlarının müdafiəsi üçün silahlı mübarizəyə qalxdılar.

1974-cü ildə FAT İordan çayının qərb sahili və Qəzza bölgəsinin İsrailin işğalından azad edilən istənilən hissəsində Fələstin Milli dövlətinin elan edilməsinə nail olmaq haqqında qərar qəbul etdi. Bu isə 1974-cü ildə FAT-ı Fələstin xalqının vahid qanuni nümayəndəsi kimi qəbul edən bütün ərəb və müsəlman dövlətləri tərəfindən müdafiə olundu. 1974-cü ilin noyabrında BMT BM-in 29-cu sessiyasında 3236 saylı qətnamə qəbul etdi. Bu qətnamədə Fələstin xalqının özünütəyin, milli müstəqillik və suverenlik kimi ayrılmaz hüquqları təsdiq edilir və onların BMT-nin Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq öz hüquqlarının bərpası üçün bütün mümkün olan vasitələrdən istifadə etmək hüququna malik olmaları qəbul edilirdi. Bu müddəalar BMT BM-nin Fələstin məsələsi ilə bağlı sonrakı qətnamələrində də dəyişilmədən təsdiq edilir. Həmin sessiyada FAT-ın BMT BM-nin işlərində, həmçinin Yaxın Şərq probleminin müzakirələri üçün BMT-nin başçılığı ilə çağırılan beynəlxalq konfranslarda müşahidəçi kimi iştirak etmək üçün dəvət olunması haqqında 3237 saylı qətnamə qəbul olundu. 1975-ci ildə BMT çərçivəsində Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsi üzrə Komitə yaradıldı. 1980 və 1982-ci illərdə BMT BM-nin Fələstin məsələsi ilə bağlı 7-ci fövqəladə sessiyası çağırıldı. Bu sessiyada fələstinlilərin öz torpaqlarına qayıtmaları hüququ, xarici müdaxilə olmadan fələstin xalqının özünütəyinetmə, milli müstəqillik və suverenlik və müstəqil suveren dövlət qurmaq hüquqları yenidən təsdiq edildi.

Beynəlxalq hüquq normalarını və BMT-nin çoxsaylı qətnamələrini pozaraq İsrailin hökumət orqanları 1967-ci ildə işğal etdikləri Fələstin torpaqlarını İsrailə birləşdirmək üçün addım-addım İsrail tərəfindən işğal olunmuş Fələstin torpaqlarında yəhudi yaşayış məntəqələri salır, İordan çayının qərb sahili və Qəzza bölgəsinin iqtisadiyyatı İsrailin iqtisadiyyatına birləşdirirdi. Fələstinlilərin bu siyasətə qarşı çıxışları isə zorla yatızdırılırdı. 1982-ci ilin yazında İsrail Livan ərazisinə genişmiqyaslı hücuma keçərək FAT-ın hərbi və siyasi strukturunu ləğv etməyə cəhd göstərdi.

Fələstin problemini həll etmək məqsədi ilə İordan çayının Qərb hissəsində və Qəzza bölgəsində fələstinlilərə İsrailin nəzarəti altında muxtariyyət verilməsi ilə bağlı 1979-cu ildə Misir Respublikası, ABŞ və İsrail arasında "Fələstin muxtariyyatı" haqqında danışıqlar başlandı. Lakin bu quzey fələstinlilər tərəfindən qəzəblə qarşılandığından heç bir nəticə vermədi və danışıqlar 1982-ci ildə kəsildi.

1982-ci ildə ABŞ prezidenti R.Reyqan yeni bir plan irəli sürdü. Bu plan İordaniya çayının qərb sahilinin və Qəzza bölgəsinin İordaniya ilə assosiasiya formulunda işlənib hazırlanmasını nəzərdə tuturdu. Bu isə fələstinliləri suveren hüquqlarından, o cümlədən özünü müəyyən etmək hüququndan, müstəqil dövlət qurmaq hüququndan məhrum edir, FAT-ı isə siyasi arenadan çıxarırdı. 1982-ci ildə ərəb dövlət başçıları Yaxın Şərq probleminin nizama salınması haqqında öz platformalarını irəli sürdülər.

1983-cü ilin sentyabrında BMT BM özünün VII fövqəladə sessiyasının qərarına uyğun olaraq Cenevrədə Fələstin məsələsinə aid Cenevrə bəyannaməsini və Fəaliyyət Proqramını qəbul etdi. Fəaliyyət Proqramı Fələstin məsələsinin ədalətli həllinin əsas prinsiplərini və yollarını müəyyən etdi. Bütün bunlara baxmayaraq, Fələstin problemi bu gün də beynəlxalq, həyatın həll edilməsi mümkün olmayan probleminə çevrilmişdir.

**FİCİ** - Sakit okeanın cənub hissəsindəki Fici adalarında yerləşir. Ərazisinin sahəsi 18.333 kv.km, əhalisinin sayı isə 772.891 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Fici Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Suva şəhəridir. Fici müstəqilliyini Böyük Britaniyadan 10 oktyabr 1970-ci ildə əldə etmişdir. Milli bayram 10 oktyabr Müstəqillik günüdür. Qanunvericilik ingilis hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (dövlət başçısı) məxsusdur. Qanunverici orqan ikipalatalı

parlamentdir.

**FİLİPPİN** - Malay arxipelaqının Filippin adalarında yerləşir. Ərazisinin sahəsi 299.765 kv.km, əhalisinin sayı isə 70.000.000 nəfərdir (1995). Dövlət dilləri filippin və ingilis dilləridir.

Ölkənin tam adı Filippin Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Manila şəhəridir. Filippin müstəqilliyini 4 iyul 1946-cı ildə ABŞ-dan əldə etmişdir. Milli bayram 12 iyun Müstəqillik günüdür (1898-ci ildə İspaniyadan). Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) parlament olan Konqresdir.

**FİNLANDİYA** - Avropanın şimalında yerləşir. Ərazisinin sahəsi 338.145 kv.km, əhalisinin sayı isə 5.085.206 nəfərdir (1995). Dövlət dili fin və isveç dilləridir.

Ölkənin tam adı Fin Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Helsinki şəhəridir. Finlandiya müstəqilliyini Rusiyadan 6 dekabr 1917-ci ildə əldə etmişdir. Milli bayram 6 dekabr Müstəqillik günüdür. Qanunvericilik isveç hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (hökumətin başçısı) məxsusdur. Ali qanunverici orqan birpalatalı parlamentdir.

**FÖVQƏLADƏ SƏFİRLİK** - Hansısa bir dövlətin müstəqillik bayramında, milli bayramında, dövlət başçısının andiçmə mərasimində, dövlət başçısının və başqa rəsmi şəxslərin dəfn mərasimində iştirak etmək üçün başqa dövlətə göndərilmiş nümayəndə heyətidir.

Müasir beynəlxalq praktikada fövqəladə səfirlik funksiyasını çox vaxt xüsusi hökumət nümayəndə heyəti yerinə yetirir. Hərdən fövqəladə səfirlik funksiyaları həmin ölkədə daimi olan diplomatik nümayəndəliyə həvalə edilir.

**FRANSA** - Avropanın qərbində yerləşir. Ərazisinin sahəsi 511.000 kv.km, əhalisinin sayı isə 57. 109.160 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Fransa Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Paris şəhəridir. Ölkənin axırıncı konstitusiyası (V Respublika) 28 sentyabr 1958-ci ildə qəbul



olunmuşdur. Milli bayram 14 iyul Bastiliyanın alındığı gündür (1789). Dövlət başçısı prezidentdir və o baş naziri təyin edir. Qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Milli Məclis - aşağı palata) parlamentdir.

**Gülüstan müqaviləsi** - 1812-ci ildə başlayan Rusiya-İran müharibəsi İranın tam məğlubiyyəti ilə qurtardı. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Gülüstan sülhünün şərtlərinə görə Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyası tərkibinə qatıldı. Beləliklə, vahid Azərbaycan iki yerə bölündü. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Lakin İrəvan xanlıqları hələlik şahın hakimiyyəti altında qalırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi. Bu maddə Rusiya-İran ticarəti üçün əlverişli şərait yaradır, Rus tacirlərini daxili gömrük vergisindən azad edirdi.

Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu.

**GÜRCÜSTAN** - Ərazisinin sahəsi 69.700 kv.km, əhalisinin sayı isə 5.725.972 nəfərdir (1995). Dövlət dili gürcü dilidir.

Ölkənin tam adı Gürcüstan Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Gürcüstanın tərkibində 2 muxtar respublika - Abxaziya və Acariya vardır. Ölkənin paytaxtı Tibilisi şəhəridir. Gürcüstan müstəqilliyini 9 aprel 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir (əvvəlki adı Gürcüstan Sovet Sosialist Respublikası). Milli bayram 9 aprel Müstəqillik günüdür. Dövlət başçısı prezidentdir, o baş naziri təyin edir. Qanunverici hakimiyyət birpalatalı parlamentlə təmsil olunur.





**HAAQA KONVENSİYASI** (hərbi konfliktlər zamanı mədəni dəyərlərin mühafizəsi haqqında) - 1954-cü ildə Haaqa konfransında (21.IV.-14.V) qəbul edilmişdir və 7.VIII.1954-cü ildə qüvvəyə minmişdir. 60-dan çox ölkə bu konvensiyanın iştirakçısıdır.

Konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmayan mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısına vəzifə kimi qoyur.

Konvensiyanın iştirakçıları özlərinin qanunvericilik çərçivəsində zəruri olan elə qanunları qəbul etməlidirlər ki, bu qanunlar Konvensiyanın şərtlərini pozan və pozmağı əmr edən şəxslərə qarşı cinayət işi qaldırmağa imkan versin.

Haaqa konvensiyasında konvensiyanın tətbiq edilməsi qaydalarını müəyyən edən İcraedici reqlament və işğal edilmiş ərazilərdən mədəni dəyərlərin çıxarılmasını qadağan edən protokol qəbul edilmişdir.

**HAİTİ** - Karib hövzəsi dövlətlərindəndir, Haiti adasının tərkibində yerləşir. Yeganə quru sərhədi Dominikan Respublikası ilədir. Ərazisinin sahəsi 27.750 kv.km, əhalisinin sayı isə 6.539.983 nəfərdir (1995). Ölkənin iki rəsmi dili var - fransız və klebr dilləri.

Ölkənin tam adı Haiti Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Port-o-Perens şəhəridir. Haiti müstəqilliyini Fransadan 1 yanvar 1804-cü ildə almışdır. Milli bayram 22 may Milli suverenlik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur.

**HAVA GƏMİSİNİ QAÇIRMA** - Bir çox dövlətlərin qanunvericiliyində, habelə beynəlxalq sazişlərdə nəzərdə tutulmuş cinayətdir. Bəzən hava gəmisini qaçırma dedikdə, zorakılıqla, yaxud zor işlədəcəyi ilə hədələməklə hava gəmisini uçuş planında göstərilmiş coğrafi nöqtədən kənara göndərmə başa düşülür.

Hava gəmisini qaçırma hava gəmisi heyətinin gəmidən şəxsi məqsədlərlə istifadə etməsindən (planlaşdırılmış uçuşlar, şəxsi

qazanc məqsədilə icazə olmadan şəxsləri və ya yükləri daşıma) fərqləndirilir. Müəyyən hava gəmisini idarə etməyə qanuni hüququ olmayan şəxslərin qanunsuz olaraq hava gəmisini ələ keçirməsi də hava gəmisinin qaçırmadan fərqləndirilir.

Qanunsuz müdaxilə aktları ilə mübarizə üzrə beynəlxalq konvensiyalarda hava gəmisi ilə əlaqədar üç növ cinayət və hüquqpozma nəzərdə tutulmuşdur. Hava gəmisində cinayətlər və bəzi sair hərəkətlər haqqında 1963-cü il Tokio konvensiyasında uçuş zamanı gəmidə edilən oğurluq, narkotik maddələri aparma, adamöldürmə kimi cinayətlər, habelə uçuşun, şəxslərin və əmlakın təhlükəsizliyini qorxu altında qoyan hərəkətlər (bu hərəkətlərin cinayət hesab edilib-edilməməsindən asılı olmayaraq) kimi ümumi cinayətlər nəzərdə tutulur. Tokio konvensiyasında həmin hərəkətlərə görə cinayət məsuliyyəti müəyyən edilməsə də, bu konvensiya hava gəmisinin qaçırma və hava gəmilərini qanunsuz olaraq ələ keçirmə ilə mübarizədə mühüm əhəmiyyətə malikdir.

1970-ci il Haaqa Konvensiyasında qanunsuz olaraq Hava gəmisini, qaçırma dedikdə zorakılıqla və yaxud zor işlədəcəyi ilə hədələmə, yaxud digər formada qorxutma yolu ilə hava gəmisini qanunsuz olaraq ələ keçirmə və ya gəmini nəzarət altına alma, yaxud bu hərəkətləri etməyə cəhd göstərmə başa düşülür.

Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş aktlarla mübarizə haqqında 1971-ci il Monreal Konvensiyasında hava nəqliyyatında diversiya aktları nəzərdə tutulur: hava gəmisini xarab etmə, uçuş zamanı onun təhlükəsizliyini qorxu altına alan zədə yetirmə, hava gəmisində partlayıcı qurğular, yaxud zəhərli maddələr yerləşdirmə, aeronaviqasiya avadanlığını aradan çıxarma, zədələmə və s. Monreal Konvensiyasında hava gəmisində olan şəxslər barəsində zorakılığa görə məsuliyyət də müəyyən edilir (həmin hərəkətlər hava gəmisinin təhlükəsizliyini qorxu altına alarsa).

**HAVA MƏKANI REJİMİ** - Hava məkanına, onun istifadə olunmasına, hava yerdəyişmələrinin qaydalarına, hava gəmilərinin, onların ekipajı və sərnişinlərinin hüquqi vəziyyətinə münasibətdə dövlətin hüququnu müəyyən edən hüquqi normaların toplusudur.



Hər bir dövlətin quru və su ərazisinin üzərində olan hava məkanı beynəlxalq hüququn ümumqəbuledilmiş prinsiplərinə görə həmin dövlətin tam suvereniteti altındadır. Bu prinsip beynəlxalq mülki aviasiya haqqında Konvensiyanın (Çikaqo konvensiyası, 1944-cü il) I maddəsində qeyd olunmuşdur. Göstərilən prinsipə uyğun olaraq hər bir dövlətin ərazisinin üzərindəki hava məkanı həmin dövlətin qanun və qaydaları ilə nizamlanır. Bununla belə həmin dövlətlə bağlanmış uyğun beynəlxalq müqavilələr nəzərə alınır. Açıq dənizlər üzərindəki hava məkanı bütün dövlətlərin hava gəmiləri üçün azaddır.

**HAVA HÜQUQU** - Hava nəqliyyatından istifadə ilə əlaqədar əmələ gələn münasibətləri nizama salan hüquq normalarının məcmusudur. Hava hüququna milli hüquq (dövlətdaxili) və beynəlxalq hüquq normaları daxildir. Dövlətin öz ərazisində hava sahəsi (ərazi suları daxil olmaqla) üzərindəki tam və müstəsna suverenliyini tanıma hava hüququnun əsas müddəasıdır.

Beynəlxalq müqavilələr (birtərəfli və çoxtərəfli müqavilələr) beynəlxalq hava hüququnun əsas mənbəyidir. Beynəlxalq mülki aviasiya haqqında 1944-cü il Çikaqo konvensiyası onların arasında ən mühümüdür. Bunun əsasında beynəlxalq mülki aviasiya təşkilatları yaradılmışdır. Çoxtərəfli konvensiyalarda beynəlxalq hava daşımaları zamanı daşıyanın məsuliyyəti (1979-cu il Varşava konvensiyası, 1955-ci il Haaqa protokolu), istifadəçilərin üçüncü şəxslər qarşısında məsuliyyəti (1952-ci il Roma konvensiyası), mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktları ilə, o cümlədən mülki hava gəmilərini qanunsuz olaraq tutma ilə (1970-ci il Haaqa konvensiyası), mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz aktlarla (1963-cü il Tokio konvensiyası, 1971-ci il Monreal konvensiyası) mübarizə məsələləri və s. həll edilir.

**HAVA MÜHARİBƏSİ** - Döyüşən tərəflər tərəfindən istənilən tip uçan aparatlardan istifadə etməklə hərbi əməliyyatların aparılmasıdır. Hava müharibələrinə müharibənin bütün qayda və qanunları şamil edilir.

Uçan aparatların hərbi məqsədlər üçün tətbiqinin hüquqi ni-

zama salınması bir çox beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Belə ki, 1899-cu il və 1907-ci il Haaqa sülh konfranslarında hava şarlarından və başqa uçan aparatlardan bombaların atılmasını qadağan edən bəyannamə qəbul olunmuşdur. Müdafiə olunmayan şəhərlərin, nəqliyyatın, yaşayış məntəqələrinin bombardman edilməsinin 4-cü Haaqa konvensiyası (1907) tərəfindən qadağan edilməsi birbaşa olaraq hərbi aviasiyanın fəalliyyətinə də aiddir. Müharibə qurbanlarının müdafiəsi haqqında Cenevrə konvensiyasında (1949-cu il) və bu konvensiyaya əlavə olunmuş protokollarda (1977-ci il) sanitar aviasiya rejimini nizamlayan bir neçə xüsusi normalar vardır. Hərbi konfliktlər zamanı mədəni irsin qorunması haqqında Haaqa konvensiyası (1954-cü il) və 1949-cu il Cenevrə Konvensiyasının I əlavə protokolu abidələrə və başqa mədəni və tarixi obyektlərə, dini ayinlərin keçirildiyi yerlərə hücumu qadağan edir.

**HAYANA** - Cənubi Amerikanın şimal hissəsində yerləşir. Ərazisinin sahəsi 214.970 kv.km, əhalisinin sayı isə 723.774 nəfərdir (1995). Rəsmi dili ingilis dilidir.

Dövlətin tam adı Hayana Kooperativ Respublikasıdır. Respublika dövlət quruluşuna malikdir, Britaniya Birliyinə daxildir. Ölkənin paytaxtı Corctaun şəhəridir. Hayana müstəqilliyini 26 may 1966-cı ildə Böyük Britaniyadan almışdır. İki milli bayramı vardır: 23 fevral Respublika günü (1970) və 26 may Müstəqillik günü. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Parlament birpalatalıdır və Milli Məclis adlanır.

**HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV** - 10 may 1923-cü ildə Naxçıvan şəhərində fəhlə ailəsində doğulmuşdur. 1939-cü ildə Naxçıvan Pedaqoji texnikumunu bitirdikdən sonra Bakı şəhərində Azərbaycan Sənaye İnstitutunun arxitektura fakültəsinə daxil olmuşdur. Müharibənin başlanması təhsili yarımçıq qoymuşdur.

1941-1949-cu illərdə Heydər Əliyev Naxçıvan Muxtar Vilayətində bir sıra vəzifələrdə işləmişdir.

1941-ci ildən 1969-cu ilə qədər Heydər Əliyev Azərbaycan dövlət təhlükəsizlik orqanlarında*işləmişdir. Bu illərdə Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirərək ali təhsilini başa vurmuşdur. 1964-cü ildə Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini təyin olunmuş, 1967-1969-cu illərdə isə sədr vəzifəsində çalışmışdır. Heydər Əliyev general-mayor rütbəsinə layiq görülmüş və belə yüksək post tutmuş ilk azərbaycanlı olmuşdur.

1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci Katibi seçilərək respublikaya rəhbərlik etməyə başlamışdır. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Rəyasət heyətinə üzv seçilən Heydər Əliyev 1982-ci ilin dekabrında SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə təyin edilmişdir.

Heydər Əliyev 20 il müddətində SSRİ Ali Sovetinin deputatı, 5 il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

1987-ci ildə SSRİ-nin rəhbərliyi ilə olan fikir ayrılığı ilə əlaqədar olaraq Heydər Əliyev istefa vermiş və Sovet İKP MK-nın Siyasi Bürosunu və SSRİ Nazirlər Sovetini tərk etmişdir. 19 iyul 1991-ci ildə Heydər Əliyev Sov. İKP-nın sıralarından çıxmışdır.

1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra Heydər Əliyev Respublika Ali Sovetinin deputatı seçilmişdir. 1991-ci ildən 1993-cü ilə qədər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin sədrinin müavini vəzifələrində işləmişdir.

15 iyun 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş, Milli Məclisin 24 iyun tarixli qərarı ilə ona Azərbaycan Respublikası prezidentinin səlahiyyətləri verilmişdir. 1993-cü ildə Heydər Əliyev birinci dəfə, 10 oktyabr 1998-ci ildə isə ikinci dəfə seçkilər yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Hal-hazırda respublikaya rəhbərlik edir.

**HƏRBİ CİNAYƏTKARLAR** - Hərbi cinayətin törədilməsində iştirak etmiş, yəni sülh, bəşəriyyət, müharibənin adət və qanunlarının əleyhinə cinayət etmiş şəxslərdir. Müasir beynəlxalq hüquq hərbi cinayətkarların cinayət məsuliyyəti prinsipini qəbul edir. Bu Nürnberq və Tokio beynəlxalq hərbi tribunallarının nizamnamə və hökmlərində və başqa beynəlxalq aktlarda, o cümlədən BMT BM-nin 13.11.1946-cı il və 11.12.1946-cı il

qətnamələrində də öz əksini tapmışdır.

60-cı illərdən başlayaraq bir çox qərb ölkələri tərəfindən hərbi cinayətkarlara müddətin bitmə prinsipini aid etməyə cəhd olunmuşdur. Bununla əlaqədar olaraq BMT-nin BM-si hərbi cinayətlərə və insanlığa qarşı olan cinayətlərə müddətin bitməsi prinsipinin tətbiq edilməməsi haqqında 1968-ci il konvensiyasını qəbul etmişdir. Konvensiya iştirakçıların üzərinə elə qanunvericilik və başqa ölçülərin qəbul edilməsi məsələsini qoyur ki, milli qanunvericilikdə öz əksini tapmış müddətin bitməsi və başqa məhdudiyyətlərin konvensiyada sadalanan cinayətlərə görə axtarılma və cəzalandırma hallarına tətbiq edilməsin.

**HƏRBİ CİNAYƏTLƏR** - (bax. Hərbi cinayətkarlar).

**HƏRBİ ƏSİRLƏR** - Müharibə vaxtı düşmən tərəfindən tutulan və hərbi əsir rejiminin üzərində dayanan şəxsin hakimiyyəti altında olan şəxsdir. Hərbi əsir rejimi 1907-ci il 4-cü Haaqa konvensiyasının əlavəsi olan quru müharibənin qayda və qanunları haqqında müddəalarla, hərbi əsirlərlə davranış haqqında 1949-cu il "Cenevrə konvensiyası" və buna 1977-ci il tamamlayıcı protokol, həmçinin başqa beynəlxalq aktlarla nizamlanır. Muzdlular hərbi əsir statusuna malik deyillər.

Göstərilən sənədlərə uyğun olaraq hərbi əsirlər irqi, etnik, dini, milli, siyasi, sosial və yaxud başqa əlamətlərə görə diskriminasiyaya məruz qoyulmamalı, onlarla humanist davranmaq lazımdır.

Hərbi əsirlərə zorakılıq, qorxutmaq və yaxud təhqiredici aktlar tətbiq etmək olmaz, onların şərəf və ləyaqətlərinə hörmət edilməlidir. İşə yararlı hərbi əsirlər öz düşərgələrinin idarə edilməsi, avadanlıqla təchiz edilməsi və səliqə-səhman yaradılması ilə bağlı işlərə cəlb edilə bilərlər. Hərbi əsirlər əsirlikdə olduqları dövlətin ordusunda mövcud olan normalara tabe olmağa borcludurlar.

**HƏRBİ İŞĞAL** (lat. occupatio - işğal) - Bir dövlətin silahlı qüvvələri tərəfindən başqa dövlətin ərazisinin müvəqqəti olaraq tutulması və tutulmuş ərazidə hərbi idarə hökumətinin qurulmasıdır. Hərbi işğal qanunauyğun və yaxud qeyri-qanunauyğun ola bilər, lakin istənilən halda işğal olunmuş ərazi üzərində suverenlik işğalçı dövlətə verilir.



Beynəlxalq hüququn norma və prinsiplərinə görə, dövlət ərazisi BMT-nin Nizamnaməsini güc tətbiq etməklə pozan hərbi işğalın obyekti ola bilməz. Təcavüzün tərifinin 3-cü maddəsində göstərilir ki, bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə basqın etməsinin nəticəsi olan hərbi işğal təcavüz aktı kimi qiymətləndirilir.

Beynəlxalq hüquqda hərbi təcavüz rejiminə aid olan və 1907-ci il 4-cü Haaqa konvensiyasında və müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyasında müəyyən edilən xüsusi normalar mövcuddur. Bu normalara görə, işğalçı dövlət işğal etdiyi ərazidə ictimai qayda-qanunu və normal həyatı təmin etmək məqsədi ilə zəruri tədbirlər görməli, ölkənin, işğal etdiyi ərazinin qayda-qanunlarına hörmət etməlidir.

İşğal olunmuş ərazinin əhalisinin işğalçı dövlətin ərazisinə və ya başqa dövlətin ərazisinə köçürülməsi işğalçı dövlətə qadağan edilir. Həmçinin, işğalçı dövlətin əhalisinin işğal olunmuş əraziyə köçürülməsi və orada hansısa yaşayış məskəni salınması qadağan edilir. Təcavüzkar dövlətin müəyyən etdiyi hərbi işğalçı rejim işğal olunmuş ərazinin əhalisini təcavüzkara qarşı silahlı mübarizə aparmaq hüququndan məhrum etmir.

Hərbi işğal rejiminə aid beynəlxalq hüquq normalarının pozulması beynəlxalq cinayətdir, buna görə cavabdehlik daşıyan şəxs isə hərbi cinayətkar kimi qəbul edilir.

**HİNDİSTAN** - Cənubi Asiya dövlətidir. Ərazisinin sahəsi 3.287.732 kv.km, əhalisinin sayı isə 936.545.814 (1995) nəfərdir. Dövlət dili hind və ingilis dilləridir.

Ölkənin tam adı Hindistan Respublikasıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Dehli şəhəridir. Hindistan müstəqilliyini Böyük Britaniyadan 15 avqust 1947-ci ildə əldə etmişdir. 26 yanvar - Respublikanın elan olunduğu gün (1950) milli bayram kimi qeyd olunur. Dövlət qanunvericiliyi ingilis hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına rəhbərlik edən baş nazirə məxsusdur. Qanunverici hakimiyyət ikipalatalı (yuxarı palata - Xalq palatası, aşağı palata - Ştatlar Şurası) parlament olan Sansad vasitəsilə həyata

keçirilir.

**HONDURAS** - Mərkəzi Amerika dövlətidir. Ərazisinin sahəsi 112.088 kv.km, əhalisinin sayı isə 5.459.743 nəfərdir. Rəsmi dil ispan dilidir.

Ölkənin tam adı Honduras Respublikasıdır. Paytaxtı Tequsiqalpe şəhəridir. Dövlət quruluşu prezidentli respublikadır. Ölkə müstəqilliyini İspaniyadan 15 sentyabr 1821-ci ildə almışdır. Bu gün Müstəqillik günü kimi qeyd olunur. Dövlət başçısı prezidentdir və o, hökuməti təyin edir. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Konqres vasitəsilə həyata keçirilir.

**HONKONQ** - Çinə məxsus muxtariyyat hüququ olan ölkədir. Ölkənin ərazisi Honkonq adasından və bir sıra kiçik adalardan ibarətdir. Ölkə cənubi Çin dənizində yerləşir. Ərazisinin sahəsi 1068 kv.km, əhalisinin sayı isə 5.542.869 nəfərdir. Honkonq planetin ən sıx əhalisi olan regionlarındandır. Rəsmi dil çin dilidir.

Honkonq əvvəllər Böyük Britaniyaya məxsus olmuş, 1997-ci ildə isə Çin dövlətinin xüsusi ərazisi statusu alaraq Çinin tərkibinə keçmişdir. Çin və Böyük Britaniya arasında bağlanmış 1984-cü il müqaviləsinə görə, Çin Honkonqda mövcud olan sosial və iqtisadi sistemə, ənənəvi həyat tərzinə (Honkonq Çinin tərkibinə keçdikdən sonra 50 il müddətdə) hörmət etməyə borcludur. Ölkənin paytaxtı Honkonq şəhəridir. İcra hakimiyyəti qubernatora və katiblərə (hökumət) məxsusdur.

**HÖKUMƏT** - dövlətin ali icra orqanıdır. Dünyanın əksər ölkələrində nazirlər şurası, yaxud nazirlər kabineti adlanan hökumətə prezident (prezidentli respublikalarda), yaxud baş nazir (parlamentli respublikalarda və monarxiyalarda) başçılıq edir. Birpalatalı hökumət, yaxud koalisiyalı hökumət ola bilər. Hökumətin yaradılması qaydası idarəetmə formasından da asılıdır. Parlamentli ölkələrdə hökumət dövlət başçısının tapşırığı ilə birpalatalı parlamentdə, yaxud ikipalatalı parlamentin aşağı palatasında çoxluq təşkil edən partiyanın lideri tərəfindən (koalisiyalı hökumətdə partiya liderlərindən biri tərəfindən) təşkil edilir. Prezidentli respublikalarda hökuməti prezident təşkil edir ki, onun təyin etdiyi hökumət üzvünün hər birini parlament (adətən yuxarı palata) təsdiq etməlidir. Parlamentli ölkələrdə hökumət parlament (ikipalatalı parlamentdə aşağı palata) qarşısında kollegial məsuliyyət daşıyır. Bu o deməkdir ki, parlament çoxluğunu itirdikdə (məs., hökumət koalisiyasında ixtilaflar olduqda) hökumət istefa verməli (bu hökumət böhranının başlanması, yeni hökumətin təşkil edilməsi və parlamentdə onun etimad votumu alması deməkdir), ya da parlamenti buraxmalı və növbədənkənar seçkilər təyin etməlidir. Federativ dövlətlərdə mərkəzi (federal) hökumət və federasiya tərkibinə daxil olan dövlət qurumlarının (ştatların, əyalətlərin) hökumətləri mövcuddur.

Hökumət tam tərkibdə fəaliyyət göstərir, ya da öz tərkibindən kiçik kollegiya (kabinet, məs., Böyük Britaniyada, Hindistanda və b. ölkələrdə) yaradır. Hökumət öz tərkibində köməkçi hökumət komitələri də yarada bilər. Nəzəri baxımdan hökumət icra hakimiyyətini həyata keçirir, hüquqi cəhətdən parlament qarşısında məsuldur. Əslində bütün hakimiyyət hökumətin və onun başçısının əlindədir. Hökumət daxili və xarici siyasəti müəyyən edir və həyata keçirir, parlamentin qanunvericilik fəaliyyətinə təsir göstərir.

**HÖKUMƏT BAŞÇISI** - Hökumətin fəaliyyətinə rəhbərlik edən vəzifəli şəxsdir. Hökumət başçısı müxtəlif ölkələrdə müxtəlif cür adlanır. Məs; İtaliyada Nazirlər Şurasının sədri, İngiltərədə, Azərbaycanda və b. ölkələrdə baş nazir, Avstriyada və AFR-də federal kansler, İspaniyada hökumətin sədri, ABŞ və Meksikada və başqa prezidentli respublikalarda hökumət başçısı postu dövlət başçısı postu ilə birləşdirilmişdir. Ona görə də bu ölkələrdə respublikanın prezidenti həm də hökumət başçısıdır. Hökumət başçısı həm respublikanın daxili siyasətinə, həm də xarici siyasətinə rəhbərlik edir.

Hökumət başçısı xarici diplomatları və başqa rəsmi nümayəndələri qəbul etmək və onlarla danışıqları aparmaq, beynəlxalq konfranslarda iştirak etmək, xüsusi səlahiyyəti olmadan müqavilə və sazişlərə imza atmaq hüququna malikdir. Hökumət başçısı xarici ölkənin ərazisində diplomatik imtiyazlara və toxunulmazlığa malikdir.

**HÖKUMƏTİN HÜQUQİ VARİSLİYİ** - Dövlətlərin daxili dəyişikliyi ilə bir hökumətin hüquq və vəzifələrinin başqa hökumətə

keçməsidir. Məsələn, hökumətin qeyri-konstitusion yolla əvəz edilməsi, əvvəlki hökumətin xarici dövlətlərlə bağladığı müqavilələrə yeni hökumətin münasibəti məsələsini qoya bilər. Digər tərəfdən hökumətin əvəz edilməsi dövlətin hüquq və vəzifələrinə təsir edə bilməz.



# X

**XARİCİ ƏLAQƏLƏR ORQANLARI** - Beynəlxalq əlaqələrin həyata keçirilməsi prosesində dövlətin və onun vətəndaşlarının maraqlarını təmsil etmək səlahiyyətinə malik olan dövlət orqanlarının və dövlət nümayəndələrinin toplusudur.

Xarici əlaqələr orqanları ölkə daxilindəki və xaricindəki orqanlar olmaq etibarı ilə 2 qismə bölünür. Daxildəki orqanlara ümumi siyasi rəhbərlik orqanları daxildir: dövlət başçısı, hökumət başçısı, parlament, hökumət, xarici işlər idarəsi, həmçinin ayrı-ayrı sahələrdə dövlətin xarici münasibətlərinin həyata keçirən orqanlar.

Xaricdəki xarici əlaqələr orqanları daimi (diplomatik nümayəndəlik, konsulluq idarəsi, beynəlxalq hökumətlərarası təşkilatlarda daimi nümayəndəlik) və ya müvəqqəti (konfranslarda nümayəndəlik, ikitərəfli müqavilələrdə nümayəndələr, xüsusi missiyalar və s.) ola bilər.

Xarici əlaqələr orqanlarının fəaliyyəti həm milli qanunvericiliklə, həm də beynəlxalq hüquq normaları ilə tənzimlənir.

**XARİCİ IŞLƏR IDARƏSİ** - Dövlətlərin xarici siyasətinin həyata keçirilməsi ilə məşğul olan orqandır. Dünyanın bir çox ölkəsində bu orqan Xarici İşlər Nazirliyi, ABŞ-da Dövlət Katibinin rəhbərlik etdiyi Dövlət Departamenti, Fransada Xarici İşlər Münasibətləri Nazirliyi, İsveçrədə Siyasi Departament, Argentinada Xarici Münasibətlər Nazirliyi, Liviyada isə Xarici Əlaqələr üzrə Xalq Bürosu adlanır və s.

Dövlət idarəetmə mexanizmində mühüm həlqə olan Xarici İşlər İdarəsi beynəlxalq münasibətlərin sferasında dövlətin hüquq və maraqlarını ifadə və müdafiə edir, xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrini həyata keçirir, beynəlxalq hökumətlərarası təşkilatlarda iştirakını təmin edir. xarici ölkələrin diplomatik və konsulluq nümayəndələrinin fəaliyyətinə nəzarət edir, xarici diplomatik nümayəndəliklərlə əlaqələr saxlayır və danışıqlar aparır, müqavilələrin layihələrini hazırlayır və daxil olan informasiyaları analiz edir, ölkənin vətəndaşının xarici ölkədə hüquq və maraqlarını müdafiə edir, xarici siyasətin mühüm məsələlərini hökumətin baxması üçün təqdim edir.

Belə çoxtərəfli funksiyaları, ən başlıcası, xarici siyasət məsələlərini həyata keçirməsi Xarici İşlər İdarəsinin geniş struktura malik olmasını şərtləndirir. Adətən, onun tərkibində ərazi, funksional və inzibati şöbə və idarələr fəaliyyət göstərir. Ərazi şöbələri müəyyən bir regionun dövlətləri ilə münasibətlə bağlı operativ işləri həyata keçirir, bu ölkələrin səfirlikləri ilə əlaqə saxlayır. Funksional şöbə və idarələr (protokol, konsulluq, beynəlxalq təşkilatlarla iş, mətbuat, müqavilə hüququ, mədəni əlaqələr və s.) xarici əlaqələrin xüsusi sahələri üzrə işləri həyata keçirirlər. İnzibati şöbələr isə təsərrüfat, maliyyə və başqa məsələlərlə məşğul olur.

Xarici İşlər İdarəsinin rəhbəri hökumətin tərkibinə daxildir. Dövlət başçısı və hökumət başçısı kimi heç bir xüsusi səlahiyyət olmadan danışıqlar apara bilər və beynəlxalq müqavilələri imzalaya bilər. Xaricdə olarkən Xarici İşlər İdarəsinin başçısı diplomatik imtiyazlara və toxunulmazlığa malikdir.

**XARİCİ İŞLƏR ÜZRƏ PARLAMENT KOMİSSİYASI** - Parlamentin plenar iclaslarında və onun ayrı-ayrı palatalarının iclaslarında müzakirəyə çıxartmaq üçün xarici-siyasi məsələlərin hazırlanması ilə məşğul olur, parlamentin adından hökumətin xarici-siyasi fəaliyyətinə nəzarət edir.

Komissiya dünya dövlətlərinin parlamentlərinin çoxunda yaradılmışdır. Xüsusi hallarda, beynəlxalq müqavilələrin parlamentdə təsdiqindən əvvəl müzakirə olunması da komissiyanın vəzifəsinə daxildir.

ABŞ-ın senat və nümayəndələr palatasının xarici işlər üzrə daimi komissiyası ölkənin xarici-siyasi məsələləri üzrə qanunvericilik aktlarının hazırlanması və qəbul edilməsi prosesində mühüm rol oynayır, fəaliyyətdə olan qanunvericilikdə prezident, dövlət departamenti və başqa idarələr tərəfindən riayət olunmasına nəzarət edir.

Britaniya parlamentinin hər iki palatasında xarici işlər üzrə parlament komissiyası yoxdur. Böyük Britaniya hökumətinin xarici-siyasi fəaliyyəti üzərində nəzarət beynəlxalq məsələlər üzrə deputat sorğuları və parlament müzakirələri vasitəsilə həyata keçirilir.



**XARİCİ PASPORT** - Xaricə xidməti və ya şəxsi işi ilə bağlı gedən şəxsin şəxsiyyətini və vətəndaşlığını, lazım olarsa, xidməti vəzifəsini də təsdiq edən sənəddir. Xarici pasportlar diplomatik, xidməti, ümumi vətəndaşlıq və s. olmaqla növlərə bölünür. Bu pasportlar müvafiq olaraq, Xarici İşlər İdarəsi, Daxili İşlər Nazirliyi, xaricdə dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunmuş qaydalarla diplomatik nümayəndəlik və ya konsulluq idarələri tərəfindən verilir. Xaricə gedən şəxsin xarici pasportunda fəaliyyət vaxtının artırılması, zəruri dəyişiklik edilməsi diplomatik nümayəndəlik və konsulluq idarələri tərəfindən yerinə yetirilir.

Xarici pasportun həqiqiliyi şəxsin vətəndaşlığının və onun konsulluq xidmətinə və öz dövləti tərəfindən müdafiə olunmasına hüququ olduğunu sübut edir. Xarici pasport özbaşına xarici ölkəyə getmək hüququ vermir: bunun üçün uyğun olaraq icazə (viza) və ya vizasız gediş haqqında beynəlxalq razılıq tələb olunur.

**XARİCİ-SİYASİ İNFORMASİYA** - Dövlətin xaricdəki nümayəndəliyinin gündəlik əsas funksiyalarından biridir. Xarici-siyasi informasiya ikili funksiyaya malikdir: öz ölkəsinin hökumətini olduğu ölkədəki vəziyyət və hadisələr haqqında məlumatlandırmaq, təmsil etdiyi dövlətin siyasəti haqqında fəaliyyət göstərdiyi ölkəni məlumatlandırmaq. Xarici-siyasi informasiyanın əsas mənbəyini səfirin fəaliyyət göstərdiyi ölkənin baş naziri ilə, xarici işlər naziri ilə və hökumətin başqa üzvləri ilə olan söhbətləri, diplomatik əməkdaşların xarici diplomatlarla söhbətləri, ölkə boyunca səfərləri, mətbuat konfransları, dövlətin daxili və xarici siyasətini əks etdirən rəsmi sənədlərin və dövri nəşrlərin öyrənilməsi təşkil edir.

Səfirlik tərəfindən hazırlanan xarici-siyasi informasiya qanunauyğunluğu, inkişafın perspektivliyini meydana çıxartmaqla analitik olaraq ölçülüb-biçilmiş, siyasi qiymətə malik, icmal xarakterli olmalıdır.

**XARİCİ-SİYASİ PLANLAŞDIRMA** - Beynəlxalq sahədə dövlətin xarici-siyasi məqsədlərinin inkişafına yönəlmiş tədbirlərin hazırlanmasına deyilir.

Dövlətin xarici-siyasi fəaliyyəti planının formalaşdırılması prosesi aşağıdakı əsas mərhələləri özündə cəmləşdirir: beynəlxalq münasibətlər sisteminin və dövlətin başqa dövlətlə münasibətlərinin inkişaf proqnozlarının tam şəkildə tərtibi (bax. xarici siyasi proqnozlaşdırma), dövlətin xarici-siyasi məqsədinin inkişafı üçün istifadə oluna biləcək təbii sərvətlərinin müəyyən edilməsi, iqtisadi və siyasi maraqlardan çıxış edərək, dövlətin xarici siyasətinin müxtəlif istiqamətlərdəki məqsədlərinin müəyyən edilməsi, hökumət tərəfindən təsdiq olunmuş xarici-siyasi tədbirlər planının praktik olaraq həyata keçirilməsi planının işlənilməsi.

**XARİCİ-SİYASİ PROQNOZLAŞDIRMA** - Beynəlxalq münasibətlərin tam və yaxud ayrıca ərazilər üzrə mümkün olan inkişafının müəyyən olunması, beynəlxalq münasibətlər sisteminin bu və ya digər elementlərinin mümkün dəyişmə meyllərinin analizi, dövlətin xarici-siyasi fəaliyyətinin ehtimal olunan nəticələrinin qiymətləndirilməsi.

Beynəlxalq münasibətlər sahəsində proqnozlaşdırma sosial proqnozlaşdırmanın daha mürəkkəb növlərindən biridir.

**XARİCİ-TİCARƏT ARBİTRAJI** - Mübahisəli xarici-ticarət sövdələşmələrinin tərəflər arasında razılaşdırılmış və yaxud qanunlarla təsbit edilməsi qayda ilə təyin olunmuş hakimlər tərəfindən həll edilməsidir.

Xarici-ticarət arbitrajının iki şəkli var: daimi fəaliyyət göstərən və müvəqqəti.

**XARİCİ VƏTƏNDAŞ** - Dövlətin vətəndaşı olmayıb, başqa dövlətin vətəndaşı olduğunu sübut edən faktları olan şəxslərə deyilir. Xaricilərin hüquqi vəziyyəti məsələsi dövlətdaxili anunvericiliklə, həmçinin uyğun dövlətlər arasında bağlanan beynəlxalq müqavilələrlə nizamlanır.

Əksər dövlətlərin qanunvericiliyi daimi yaşayan və müvəqqəti gələn xariciləri ayırır. Müvəqqəti gələn xaricilərin hüquqlarının həcmi isə gəlmələrinin məqsədlərindən asılı olaraq müəyyən olunur.

Xarici vətəndaşların xüsusi kateqoriyasını diplomatik və konsulluq nümayəndəliklərinin başçıları, əməkdaşları, imtiyaz və immunitetlərdən istifadə edən şəxslər təşkil edir. Onların hüquqi



vəziyyəti beynəlxalq müqavilələrlə, həmçinin daxili xüsusi qanunvericilik aktları ilə nizamlanır.

**XƏLƏF ALI oğlu XƏLƏFOV** - 21.09.1959-cu ildə doğulmuşdur. 1982-ci ildə Kiyev Dövlət Universitetinin beynəlxalq əlaqələr və beynəlxalq hüquq fakültəsini bitirmişdir. 1983-1989-cu illərdə Azərbaycan Respublikası DİN-də müxtəlif vəzifələrdə çalışmışdır. 1989-1991-ci illərdə SSRİ Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasında təhsil almışdır. 1991-1997-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində II katib vəzifəsindən başlayaraq Müqavilə-hüquq idarəsinin rəisi vəzifəsinə qədər müxtəlif vəzifələrdə çalışmışdır. 1997-ci ildə Xarici İşlər Nazirinin müavini vəzifəsinə təyin edilmişdir. Birinci dərəcəli müşavir diplomatik ranqına malikdir.

**XİYABANİ HƏRƏKATI (1920)** - 1920-ci il aprelin 6-da Cənubi Azərbaycanda ingilis müstəmləkəçiliyinə qarşı xalq üsyanı qalxdı. Üsyana rəhbərlik etmək üçün Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə ictimai heyət yaradıldı. Üsyançılar Təbrizdə əsas dövlət idarələrini tutdular. Marağa, Xoy, Ərdəbil və s. Şəhərlərdə hakimiyyət üsyançıların əlinə keçdi. Cənubi Azərbaycan "Azadistan" (Azadlıq ölkəsi) adlandırıldı. İyunun 22-də Xiyabaninin rəhbərliyi ilə Milli Hökumət yaradıldı. Iqtisadiyyat, maarif, səhiyyə, qismən aqrar və s. sahələr üzrə islahatlar keçirilməyə başlandı. Təbriz üsyanının məqsədi bütün İranda konstitusiyanın həyata keçirilməsi və təkmilləşdirilməsi, ingilislərin ağalığına son qoyulması, şah hökumətinin devrilməsi, burjua-demokratik respublikanın yaradılması, Cənubi Azərbaycana İran daxilində muxtariyyət verilməsi və s. idi. Şah hökuməti ingilislərin fəal köməyi ilə sentyabrın 11-də üsyançılar üzərinə qoşun yeritdi. Üsyan yatırıldı. Üsyan rəhbərlərinin müdafiə mövqeyi tutması, üsyanın ümumiran milli azadlıq hərəkatından təcrid olması və s. Təbriz üsyanının məğlubiyyətinə səbəb oldu. Üsyançılara divan tutuldu, sentyabrın 14-də Xiyabani vəhşicəsinə öldürüldü.

**XOCALI SOYQIRIMI** - bax. Dağlıq Qarabağ münaqişəsi.

**XORVATİYA** - Balkan yarımadasında yerləşir. Ərazisinin sahəsi 56.538 kv.km, əhalisinin sayı isə 4.665.821 nəfərdir (1995). Dövlət dili xorvat dilidir.

Ölkənin tam adı Xorvatiya Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Zaqreb şəhəridir. Xorvatiya müstəqilliyini Yuqoslaviyadan 25 iyun 1991-ci ildə əldə etmişdir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (hökumətin başçısı) məxsusdur. Ali qanunverici orqan ikipalatalı (yuxarı palata və aşağı palata) parlament olan Xorvatiya Məclisidir.

**XÜSUSİ MİSSİYA** - Xüsusi missiya haqqında 1969-cu ildə Vyana konvensiyası qəbul olunmuşdur. Konvensiyaya görə xüsusi missiya dedikdə, müvəqqətilik və nümayəndəlik xarakterli olan və bir dövlət tərəfindən başqa dövlətə ikincinin razılığı ilə müəyyən bir məsələyə baxmaq üçün və yaxud müəyyən məsələlərin həlli üçün göndərilmiş missiya nəzərdə tutulur. Xüsusi missiyanın funksiyaları göndərən və qəbul edən dövlətlərin qarşılıqlı razılaşmasından asılıdır, daimi diplomatik nümayəndəliklə müqayisədə məhdud xarakterə malikdir.

Xüsusi missiyanın hüquqi statusu çox məsələlərdə diplomatik nümayəndəliyin statusu ilə üst-üstə düşür. Lakin xüsusi missiya dövlətlər arasındakı diplomatik və konsulluq münasibətlərinin olub-olmamasından asılı olmayaraq göndərilə və qəbul edilə bilər, bu münasibətlərin kəsilməsi isə xüsusi missiyanın fəaliyyətinin dayandırılmasına təsir etmir.

Xüsusi missiyanın başçısı siyasi xadim (dövlət başçısı, hökumət başçısı, nazir, parlament üzvü) və ya diplomatik post tutmayan başqa səlahiyyətli şəxs də ola bilər. Fəaliyyət göstərdiyi ölkədə və ondan kənarda akkreditə edilmiş diplomatik nümayəndə öz ölkəsinin adından fəaliyyət göstərdiyi ölkədə və başqa ölkədə xüsusi missiyanı həyata keçirə bilər.



# İ

**İCRA MÜQAVİLƏSİ** - ABŞ prezidenti tərəfindən imzalanan müqavilədir, belə ki, bu müqavilənin Senat tərəfindən təsdiq olunmasına ehtiyac yoxdur.

ABŞ konstitusiyası prezidentin yalnız Senatın razılığını aldıqdan sonra beynəlxalq müqavilələri bağlamaq hüququnu nəzərdə tutur. Lakin 1792-ci ildə Konqres ABŞ-ın Baş Poçmeystrinə Prezidentin razılığı ilə Senata təqdim etmədən xarici dövlətlərin nümayəndələrilə poçt müqavilələri bağlamaq səlahiyyəti verdi. Bununla da 1815-ci ildən başlayaraq Konqresdə qəbul edilən bir çox aktlar gömrük və ticarət müqavilələri bağlamaq sahəsində prezidentə geniş səlahiyyətlər verdi.

**İKİLİ VƏTƏNDAŞLIQ** - Şəxsin eyni zamanda iki və ya daha artıq dövlətin vətəndaşlığında olmasını nəzərdə tutan hüquqi vəziyyətinə deyilir. İkili vətəndaşlıq vətəndaşlığın əldə edilməsi və itirilməsi qaydası haqqındakı ayrı-ayrı dövlətlərin qanunvericiliyinin uyğun gəlməməsi nəticəsində baş verir. “Qan hüququ” prinsipini təsdiq edən ölkənin vətəndaşları olan valideynlərdən doğulan uşaqlar “torpaq huququ” prinsipini təsdiq edən ölkənin ərazisində ikili vətəndaşlıq əldə edir və hər iki ölkənin vətəndaşı sayılır.

**İKİPALATALI SİSTEM** (bikaliralizm) - Ümummilli nümayəndəli idarənin - parlamentin quruluşudur. Bu sistemə uyğun olaraq parlament müxtəlif yolla yaradılır və səlahiyyətinə görə bir-birindən fərqlənən iki palatadan ibarətdir. Əksər dövlətlərdə parlament iki palatadan (aşağı palata və yuxarı palata) ibarətdir. Ənənəyə görə aşağı palata parlamentin nisbətən demokratik elementi sayılır. Fransada, İtaliyada, Niderlandda, Belçikada, Norveçdə, Yaponiyada, federasiya forması olan dövlətlərdə (AFR, Rusiya, İsveçrə, Avstriya, ABŞ, Kanada, Meksika, Argentina, Braziliya, Venesuela, Avstraliya) ikipalatalı sistem mövcuddur.

İkipalatalı parlamentin aşağı palatası, əsasən, əhali tərəfindən seçilir. Yuxarı palata müxtəlif yolla yaradılır: birbaşa olmayan seçki yolu ilə (Niderlandda və Fransada senat, Avstriyada İttifaq

Şurası və s.), yaxud birbaşa seçkilərlə (ABŞ-da, İtaliyada, Avstraliyada senat, Yaponiyada müşavirələr palatası). Bəzi ölkələrdə yuxarı palatalar irsi əlamətlərə görə (məs., Böyük Britaniyada Lordlar Palatası) yaradılır, yaxud onların üzvlərini (Kanadada Senatın üzvlərini) dövlət başçısı təyin edir. Yuxarı palatalar qarışıq yolla da yaradılır: palatanın üzvlərinin bir hissəsi seçilir, digər hissəsi təyin edilir, qalanları isə irsi prinsipə əsasən (Belçikada, İtaliyada Senatın üzvləri) irəli sürülür.

Dünya ölkələrinin çoxunda yuxarı palatanın deputatları üçün aşağı palatadan fərqli olaraq, səlahiyyət müddəti müəyyən edilməmişdir, onların tərkibi hissə-hissə yeniləşdirilir (ABŞ-da, Argentinada, Fransada və s.). Bu yuxarı palataya təşkilati cəhətdən böyük üstünlük verir, qanunvericilik hakimiyyətinin fasiləsizliyi barədə təsəvvür yaradır. Hissə-hissə yeniləşdirilən yuxarı palatada deputatlığa namizədlər üçün daha ciddi tələblər (daha yüksək yaş senzi və s.) müəyyən edilir.

Müasir dünya ölkələrinin parlamentlərinin əksəriyyətində yuxarı palatanın hüquqları aşağı palataya nisbətən daha məhduddur (məs, bir sıra ölkədə maliyyə qanunu layihələri yalnız aşağı palataya təqdim edilə bilər, yuxarı palata maliyyə qanunu layihələrinin qəbul edilməsində iştirak etmir). Palataları bərabərhüquqlu olmayan parlamentlərdə aşağı palatanın bəyəndiyi layihələr barədə yuxarı palatanın etirazını aradan qaldırmaq üçün müəyyən prosedura nəzərdə tutulur.

İkipalatalı sistem yalnız federasiya dövlətində müəyyən əhəmiyyətə malikdir, çünki burada yuxarı palata federasiya subyektlərinin (üzvlərinin) mənafeyini formal olaraq təmsil edir. Unitar dövlətdə ikipalatalı sistem aşağı palatanın hüquqlarının məhdudlaşdırılmasına, qanunvericilik prosesinin ləngidilməsinə və mürəkkəbləşdirilməsinə gətirib çıxarır.

**İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. 1961-ci ildə ABŞ-ın təşəbbüsü ilə Avropa İqtisadi Əməkdaşlıq təşkilatı ilə birlikdə yaradılmışdır. Təşkilata 24 dövlət daxildir: Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Hollandiya, Yeni Zelandiya, Norveç, Portuqaliya, ABŞ, Türkiyə, AFR, Finlandiya, Fransa, İsveçrə, İsveç və Yaponiya.

İƏİT-in əsas məqsədi iqtisadi inkişafın, maliyyə sabitliyinin və genişlənmiş qarşılıqlı ticarətin əldə edilməsinə yönəlmiş razılaşdırılma siyasətinin aparılmasıdır. Lakin bir çox obyektiv səbəblərə görə təşkilatın fəaliyyəti effektiv olmadı.

İƏİT-in işində Avropa Birliyinin, Avropa Azad Ticarət Assosiasiyasının nümayəndələri iştirak edir. İƏİT bir çox təşkilatlarla əməkdaşlıq edir.

Təşkilatın ali orqanı üzv-dövlətlərin nümayəndələrindən təşkil olunmuş Şuradır. Şura ildə bir dəfə toplaşır və təşkilatın əsas siyasətini müəyyən edir.

Təşkilatın mənzil-qərargahı Parisdədir.

**İMMİQRANTLAR** - Bir dövlətin vətəndaşının həmişəlik və ya hansısa zaman müddətində, iş axtarmaq məqsədi ilə, siyasi və dini xarakterli səbəblərin nəticəsində başqa dövlətin ərazisində yerləşməsinə deyilir. Əksər dövlətlər immiqrantları əvvəlcədən verilmiş icazə ilə öz ərazilərinə buraxırlar.

**İMPİÇMENT** - İstənilən mülki vəzifəli şəxsin məsələn, icra hakimiyyətinin nümayəndəsinin, o cümlədən prezident və yaxud federal hakimin "xəyanət, rüşvətxorluq və başqa ağır cinayətlərə" görə ittihama görə cavabdehliyə cəlb edilməsi üçün ABŞ-da tətbiq edilən qaydadır. İmpiçment prosesinə ABŞ-ın nümayəndələr palatasının istintaq üzvü başlaya bilər. Və bu proses adi səs çoxluğu ilə həll olunur. İşin araşdırılması Senata aiddir. Günahkarlıq ittihamında hökm çıxarmaq üçün iştirak edən senatorların səslərinin 2/3 hissəsi lazımdır.

ABŞ tarixində 13 impiçment halı məlumdur. 1974-cü ildə impiçment prezident R.Niksonu istefaya getməyə məcbur etdi. 1999-cu ildə prezident Bill Klintonun impiçment məsələsi (xanım Levinski ilə bağlı) qoyulmuş, lakin Senatdan keçməmişdir.

**İNDONEZİYA** - Asiyanın cənub-şərqində, Malay arxipelaqında yerləşir. Ümumilikdə ölkə 13500 adadan təşkil olunmuşdur. Ərazisinin sahəsi 1.919.443 kv.km, əhalisinin sayı isə 203.583.886 (1995) nəfərdir. Dövlət dili bahas dilidir.

Ölkənin tam adı İndoneziya Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. İndoneziya müstəqilliyini 17 avqust

1945-ci ildə elan etməsinə baxmayaraq, hüquqi müstəqilliyin (Niderlanddan) 27 dekabr 1949-cu ildə əldə edə bilmişdir. 17 avqust Müstəqillik günü milli bayram kimi qeyd olunur. Ölkənin prezidenti dövlət və hökumətin başçısıdır. Qanunverici orqanın ali orqanı olan konsultativ Xalq konqresi prezidenti və vitse-prezidenti seçir. Xalq Nümayəndələri Şurası (birpalatalı parlament) cari qanunvericilik funksiyasını həyata keçirir.

**İNFORMASİYA AGENTLİYİ** - Şəxsi müxbir şəbəkəsi vasitəsilə və yaxud başqa mənbələrdən informasiya toplayan, milli kütləvi informasiya vasitələri sistemi vasitəsilə ölkə daxilində və xaricdə xəbərlər yayan dövlət və yaxud qeyri-dövlət kommersial orqandır. Dünyanın 120-dən çox ölkəsinin qeyri-dövlət informasiya agentliyi vardır.

Frans Press (Fransa), Reyter (Böyük Britaniya), Assoşieytid Press və Yunayted Press İnterneyşinal (ABŞ) agentliyi informasiyaların toplanması və yayılması sahəsində mühüm rol oynayır. Bu agentliklərin hər birinin dünyanın 100-dən çox ölkəsində şöbələri və müxbir məntəqələri vardır.

**İNKİŞAF EDƏN DÖVLƏTLƏR** - Qarşısına özünün iqtisadi inkişafını sürətləndirməyi və bunun üçün zəruri olan beynəlxalq şəraiti yaratmaq məqsədi qoyan ölkələrdir.

1988-ci ilin statistik məlumatlarına görə planetin əhalisinin 65%-i, dünya sənaye istehsalının 10%-i və dünya ticarətinin 15%-i inkişafda olan ölkələrin payına düşür. BMT-nin məlumatına görə inkişafda olan ölkələrin əhalisinin 800 milyondan çoxu acınacaqlı şəraitdə yaşayır. İnkişafda olan ölkələrin əhalisinin hər birinə düşən gəlir payı inkişaf etmiş ölkələrdəkindən 11-12 dəfə azdır, 700-800 milyon nəfər savadsızdır və 1,5 milyarddan çoxu isə zəruri tibbi yardım ala bilmir.

BMT-nin ticarət və inkişaf Konfransının (1964) I sessiyasına hazırlıq çərçivəsində inkişafda olan ölkələr "77-lər qrupu"nu yaratdılar. Nəticədə beynəlxalq iqtisadi münasibətlərin yenidənqurma proqramı önə çəkildi.

Bu proseslərin nəticəsində inkişafda olan ölkələrin iqtisadi vəziyyəti bir az yaxşılaşdı. Bu dövlətlərin əhalisi istifadə etdiyi ərzaqın həcmi 1960-cı ildə 14,5% - dən 1980-cı ildə 18.5%-ə qədər qalxdı. 50-80-ci illərdə istehsalın ümumi həcmi 4,5 dəfə qalxmışdır.



**İNSAN HÜQUQLARI** - Şəxsiyyətin dövlətdə hüquqi statusunu xarakterizə edən sosial-iqtisadi, mülki, siyasi, mədəni və başqa hüquq və azadlıqların kompleksini ifadə edən termindir. İnsanın hüquq və azadlıqları, onların xarakteri, həcmi dövlətin sosial-iqtisadi və siyasi quruluşunun təbiəti ilə, həyatın konkret şərtləri ilə və cəmiyyətin inkişafının xüsusiyyətləri ilə şərtlənir.

İnsan hüquq və azadlıqlarına hörmət prinsipi BMT-nin Nizamnaməsində, insan hüquqları haqqındakı 1948-ci il Ümumi Bəyannamədə, müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqındakı 1960-cı il bəyannaməsində, irqi diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında 1966-ci il Beynəlxalq konvensiyasında, 1966-cı il İnsan Hüquqları paktında, ATƏM-in Yekun Aktında və b. beynəlxalq sənədlərdə öz əksini tapmışdır. BMT-nin Nizamnaməsində xalqların "müharibə fəlakətindən yaxa qurtarmaq" və "yenidən insanların əsas hüquqlarına inamı təsdiq etmək" kimi qətiyyəti bildirilir, irqindən, cinsindən, dilindən və dini mənsubiyyətindən asılı olmayaraq hamı üçün insan hüquqları və azadlıqlarına hörməti inkişaf etdirməkdə beynəlxalq əməkdaşlığı həyata keçirmək məqsədi qoyulur.

İnsan hüquqlarına hörmət prinsipi beynəlxalq hüququn başqa əsas prinsiplərinə, o cümlədən dövlətlərin suveren bərabərliyi və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə qarşı qoyula bilməz.

İnsan hüquqlarının qorunması dövlətlərin daxili işidir və bu məsələyə kənardan müdaxilə edilməsi yolverilməzdir, bununla yanaşı insan hüquqlarına hörmət prinsipi insanların və xalqların hüquqlarının kobud şəkildə pozulmasına qarşı mübarizəni nəzərdə tutur.

**İNSAN HÜQUQLARI HAQQINDA BEYNƏLXALQ PAKTLAR** - BMT Baş Məclisinin 1966-cı il dekabrın 16-da təsdiq etdiyi beynəlxalq paktlar bunlardır: insanın vətəndaşlıq və siyasi hüquqları haqqında pakt və insanın iqtisadi, sosial və mədəni hüquqları haqqında pakt. Paktlar xalqların öz müqəddəratını təyin

etmək hüququnun tanınmasından çıxış edir. Paktlarda sülhün təmin edilməsinə, müstəmləkəçiliyin bütün formalarının qəti ləğvinə, insanın ən mühüm sosial-iqtisadi və siyasi hüquqlarının təsdiq edilməsinə yönəldilmiş müddəalar var.

Vətəndaşlıq və siyasi huquqlar haqqında pakt yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnu, özbaşına həbs olunmamaq hüququnu, məhkəmə qarşısında bərabərliyi, fikir, vicdan və din azadlığını, dinc yığıncaqlar, assosiasiyalar azadlığı hüququnu, müharibə təbliğatının qadağan edilməsini, seçmək və seçilmək huququnu, qanun qarşısında bərabərlik hüququnu nəzərdə tutur. Paktda əmək azadlığı probleminə xeyli yer verilir, müəyyən edilir ki, heç kəs məcburi əməyə sövq edilməməlidir.

İqtisadi, sosial və mədəni hüquqlar haqqında pakta uyğun olaraq dövlətlər əmək hüququnu, o cümlədən hər bir adama özünün əməyi ilə yaşayışını qurmaq azadlığı verilməsi hüququnu qəbul edir. Əmək hüququnun tam həyata keçirilməsinə yönəldilmiş tədbirlər bunlardır: texniki peşə təhsili və hazırlığı proqramları, iqtisadi, sosial və mədəni inkişafa, insanın əsas siyasi və iqtisadi azadlığını təmin edən şəraitdə tam məhsuldar əmək məşğulluğuna nail olmaq üçün metod və vasitələr. Dövlətlər hər bir adamın ədalətli və əlverişli əmək şəraiti hüququnu, o cümlədən ədalətli əmək haqqı hüququnu, istirahət hüququnu tanıyır. Pakta uyğun olaraq hər bir adamın sosial təminat, o cümlədən sosial sığorta hüququ da tanınır.

Hər iki pakta görə, adamların həmkarlar ittifaqları yaratmaq, öz mənafelərini müdafiə etmək üçün ora daxil olmaq hüququ var; onların milli federasiyalar, yaxud konfederasiyalar yaratmaq, beynəlxalq həmkarlar təşkilatları təşkil etmək, yaxud bu cür təşkilatlara qoşulmaq hüququ var. Hər iki pakta görə bütün formalarda ayrı-seçkilik qadağan edilir, kişi ilə qadının hüquq bərabərliyi qeyd edilir.

**İNSAN HÜQUQLARI HAQQINDA ÜMUMİ BƏYANNAMƏ** - BMT Baş Məclisi tərəfindən 1948-ci il dekabrın 10-da qəbul edilib. Bəyannamə preambuladan və 30 maddədən ibarətdir. Bəyannamə BMT Nizamnaməsinin insan hüquqlarına və irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamının əsas



azadlıqlarına hörmətin həvəsləndirilməsində və inkişaf etdirilməsində dövlətlərin əməkdaşlığı haqqında maddəsini (m.1,b.3) inkişaf etdirmiş və konkretləşdirmişdir. Bəyannamədə beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq hamı tərəfindən əməl olunmalı əsas insan hüquqları və azadlıqları müəyyən edilmişdir.

II Dünya müharibəsindən sonra təşəkkül tapmış dünya ictimai inkişafının xüsusiyyətləri insan hüquqlarının beynəlxalq müdafiəsi institutunun yaranması və inkişafını şərtləndirdi. Faşizmin misli görünməmiş cinayətləri insan hüquqlarının müdafiəsi ilə sülhün qorunması arasında dərin əlaqə olduğunu göstərdi. Sülh və insan hüquqları bir-birindən ayrılmazdır. İnsan hüquqlarına yalnız sülh və əməkdaşlıq şəraitində hörmət və əməl oluna bilər. Bütün ölkələrdə bu hüquqların tapdalanması bəşəriyyətə qarşı cinayətlərlə və sülhün pozulması ilə nəticələnə bilər. Bəyannamədə elan edilir ki, bəşər nəslinin bütün üzvlərinə mənsub olan ləyaqətin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülh üçün əsasdır.

Bəyannamədə vətəndaşların elementar şəxsiyyət, vətəndaşlıq və siyasi hüquqları, habelə sosial-iqtisadi hüquqları da hamının əməl etməli olduğu insan hüquqları sırasına aid edilir. Bəyannamədə ilk növbədə hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ şəxsiyyətin əsas hüquqlarından biri elan edilir (m.3). Bu hüquqlar bəyannamənin digər müddəalarında tamamlanır. Xüsusilə qeyd edilir ki, heç kəs kölə vəziyyətində (əsarətdə) və ya asılı vəziyyətdə saxlanmamalıdır (m.4); heç kəs işgəncəyə, qəddar, insanlıqdan kənar, yaxud insan ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamalıdır (m.5); heç kəs özbaşına həbs edilə bilməz, tutula bilməz və yaxud sürgün edilə bilməz (m.9). Şəxsi həyatın və ailə həyatının toxunulmazlığı, mənzil hüququ, yazışma sirrinin, şərəfin və adın müdafiəsi hüququ (m.12), hər bir adamın qərəzsiz məhkəmə tərəfindən müdafiə olunması hüququ (m. 8,10,11) da şəxsiyyətin əsas hüquqlarına aiddir.

Bəyannamədə şəxsiyyətin əsas hüquqları ilə yanaşı insanın siyasi, mülki hüquq və azadlıqları da geniş şərh edilir. Bunlar aşağıdakılardır: hər kəsin fikir, vicdan, din azadlığı, əqi-

təklif olunur. Hökumətin, yaxud nazirin interpelyasiyaya verdiyi cavab əlavə suallar doğura bilər və hökumətə etimad məsələsinin müzakirəsi ilə nəticələnə bilər. İnterpelyasiya bir qayda olaraq parlamentin yalnız aşağı palatasında verilir; lakin o, müxalifət tərəfindən hökumətin fəaliyyətinə nəzarətin təsirli vasitəsi ola bilər. Praktikada interpelyasiya nəticəsində parlamentin bütövlükdə hökumət, yaxud ayrı-ayrı nazirlərə etimadsızlıq votumu çıxarması halları məlumdur.

**İNTERVENSİYA** (lat. interventio - müdaxilə etmə) - Bir və ya bir neçə dövlətin silahlı qüvvələrin köməyi ilə başqa dövlətin ərazisinə təcavüz etməklə və b. formalarla onun daxili işlərinə qarışmasıdır.

İntervensiya individual və kollektiv formada olur. Həyata keçirmə formasından asılı olaraq intervensiya hərbi, iqtisadi, siyasi və b. şəkildə ola bilər. Hərbi intervensiya təcavüzkar müharibənin sinonimidir və beynəlxalq hüquqda beynəlxalq sülhə qarşı olan cinayət kimi qəbul olunur.

Dövlətlərin daxili işinə qarışmamaq prinsipi və intervensiyanın qadağan edilməsi bir çox beynəlxalq-hüquqi aktlarda, o cümlədən BMT-nin Nizamnaməsində, dövlətlərin daxili işinə qarışmağın yolverilməzliyi haqqında, dövlətin müstəqilliyinin və suverenliyinin məhdudlaşdırılması haqqında 1965-ci il bəyannaməsində, təcavüzün 1974-cü il tərifində, ATƏM-in Yekun aktında, intervensiyanın və dövlətlərin daxili işinə qarışmağın yolverilməzliyi haqqında 1981-ci il Bəyannaməsində öz əksini tapmışdır.

**İORDANİYA** - Asiyanın cənub-qərbində yerləşir. Ərazisinin sahəsi 89.206 kv.km, əhalisinin sayı isə 4.100.709 (1995) nəfərdir. Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı İordaniya Haşimilər Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Əmman şəhəridir. İordaniya müstəqilliyini Böyük Britaniyadan 25 may 1946-cı ildə almışdır (əvvəlki adı Transiordaniya). Həmin gün müstəqillik günü kimi bayram edilir. Dövlət başçısı kraldır (kral Abdulla İbn Hüseyn atası şərqin böyük siyasi xadimlərindən olan Hüseyn ibn Talal-Haşimi öldükdən sonra 1999-cu ildə hakimiyyətə gəlmişdir), icra hakimiyyəti Nazirlər Kabinetinə rəhbərlik edən baş



nazirə məxsusdur. Qanunverici hakimiyyət ikipalatalı (yuxarı palata - Senat, aşağı palata-Deputatlar palatası) parlament olan Milli Məclis tərəfindən həyata keçirilir.

**İRAQ** - Cənub-qərbi Asiyada yerləşir. Ərazisinin sahəsi 438.317 kv.km, *əhalisinin sayı isə 20.643.769 (1995) nəfərdir.* Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı İraq Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Bağdad şəhəridir. İraq 3 oktyabr 1932-ci ildə Böyük Britaniyadan müstəqilliyini əldə etmişdir. Milli bayram 17 iyul Respublika günüdür (1968). Ölkənin prezidenti (dövlət başçısı) olan Səddam Hüseyn 1979-cu ildən hakimiyyətdədir. O həmçinin İnqilab Şurasının sədri, Nazirlər Şurasına rəhbərlik edən baş nazir vəzifələrini də daşıyır.

**İRAN** - Cənub-qərbi Asiyada yerləşir. Ərazisinin sahəsi 1.648.000 kv.km, əhalisinin sayı isə 64.625.455 (1995) nəfərdir, bunların 25 faizdən çoxu azərbaycanlılardır. Dövlət dili fars dilidir, lakin azərbaycan dili də geniş yayılmışdır.

Ölkənin tam adı İran İslam Respublikasıdır (İİR). Dövlət quruluşu islam respublikasıdır. Paytaxtı Tehran şəhəridir. İranda 1906-cı ildə konstitusiyalı monarxiya, 1 aprel 1979-cu ildə isə İran İslam Respublikası elan olunmuşdur. 1 aprel Milli bayram kimi qeyd olunur. İcra hakimiyyəti Ayətullaya (dövlətin dini başçısı) və prezidentə məxsusdur. Ayətullanın nəzarəti altında olan qanunverici hakimiyyəti birpalatalı parlament olan İslam Komitəsi Məclisi həyata keçirir.

**İRAN KÖRFƏZİ ƏRƏB ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIQ ŞURASI** - 1981-ci ildə yaradılmışdır. Şuraya Səudiyyə Ərəbistanı, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Qətər və Bəhreyn dövlətləri daxildir. Şuranın Nizamnaməsi 25-26.05.1981-ci ildə Şuraya üzv olan dövlətlərin başçılarının Abu-Dabidə keçirilən I toplantısında imzalanmışdır. Şuranın rəsmi məqsədi üzv ölkələrin arasında bütün sahələr üzrə əməkdaşlığın inkişafı və sıx interqrasiyanın həyata keçirilməsidir. Şuranın əsas orqanları dövlət başçıları səviyyəsində Ali Şura, Nazirlər Şurası, Baş Katiblik, həmçinin mübahisələrin həlli üzrə Komissiyadır.

Şuranın mənzil-qərargahı ər-Riyaddadır (Səudiyyə Ərəbis-

tanı).

Xarici İşlər Nazirlərinin Şurasının iclaslarında mütəmadi olaraq Yaxın Şərq və İran körfəzindəki məsələlər müzakirə olunur və vəziyyətin yaxşılaşdırılması yolları araşdırılır. Məsələn, İran-İraq münaqişələri zaman Şura mərhələlərlə atəşin kəsilməsi, qoşunların beynəlxalq səviyyədə qəbul edilmiş sərhədlərə çəkilməsi, İranın və İraqın iqtisadiyyatlarının bərpası üçün Fondun yaradılmasını nəzərdə tutan konfliktin nizama salınması proqramı ilə çıxış etdi.

Şura əsas diqqətini hərbi sahədə və təhlükəsizlik xidmətinin fəaliyyəti sahəsindəki məsələlərə yönəldir. İran körfəzi ölkələrinin Birləşmiş hərbi qüvvələrinin yaradılması, vahid hərbi komandanlığının formalaşdırılması, şəxsi heyətin birgə hazırlanması və s. məsələlərinin yerinə yetirilməsi yolları öyrənilir. Səudiyyə Ərəbistanı 1981 və 1982-ci illərdə təhlükəsizlik sahəsində Küveytdən başqa Şuranın bütün üzvləri ilə ikitərəfli müqavilələr bağlamışdır.

**İRQÇİLİK** (rasizm) - Əsasında fiziki və psixoloji qeyri-bərabərlik haqqında və yaxud bu və ya başqa irqə malik insanların məhv edilməsi haqqında qeyri-elmi konsepsiya dayanan siyasi ideologiyadır.

İrqçiliyin istənilən forması insan hüquqlarının müdafiəsi sahəsindəki bir çox sənədlərdə, o cümlədən BMT-nin Nizamnaməsində əks olunan beynəlxalq hüququn ümumqəbulolunan norma və prinsiplərini inkar edir. Dünyanın bir çox ölkələrində irqçilik və irqi ayrı-seçkilik özünü bu və ya başqa dərəcədə göstərir. Məsələn, CAR-da irqçilik rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində irqçiliyi pisləyən və onun kökünün kəsilməsinə yönələn bir çox mühüm sənədlər, o cümlədən irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1966-cı il Beynəlxalq konvensiyası, aparteid cinayəti və bu cinayətə görə cəza haqqında 1973-cü il konvensiyası qəbul edilmişdir. BMT Baş Məclisinin 3379 saylı 10.11.1975-ci il tarixli qətnaməsində sionizm irqçiliyin və irqi ayrı-seçkiliyin bir forması kimi təsnif edilmişdir.

BMT Baş Məclisinin XXI sessiyasının qərarı ilə hər il martın 21-də Beynəlxalq irqi ayrı-seçkiliklə mübarizə günü kimi qeyd olunur.

**İRQİ DİSKRİMİNASİYANIN BÜTÜN FORMALARININ LƏĞVİ HAQQINDA BEYNƏLXALQ KONVENSİYA (1966-cı il) -** BMT-nin Baş Məclisinin 20-ci sessiyasında qəbul edilmişdir, 04.01.1969-cu ildən isə qüvvəyə minmişdir. 120-dən çox dövlət konvensiyanın üzvüdür.

BMT-nin irqi diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqındakı 1963-cü il bəyannaməsinin müddəalarını inkişaf etdirərək, konvensiya irqi diskriminasiyanı "irqinə, dərisinin rənginə, dininə, milli və etnik mənsubiyyətinə görə istənilən formada fərqləndirməni, kütləvi surətdə və yaxud bir hissəsinin ləğv edilməni, ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və başqa sahələrində insan hüquqları və azadlıqlarının qəsb edilməsi" kimi müəyyən etmişdir.

Konvensiyanın iştirakçıları irqi diskriminasiyanı pisləyir və diskriminasiyanın bütün formalarının ləğv edilməsi siyasəti aparılmasına və bu məqsədlə ayrıca şəxsə, qrup və təşkilatlara münasibətdə irqi diskriminasiya ilə bağlı hərəkətlərə yol verməməyə və aşağıdakıları təmin etməyə çağırır. Bütün dövlət orqanları aşağıda sadalananlara uyğun olaraq fəaliyyət göstərməlidir: hər hansı bir şəxsə və təşkilata qarşı irqi diskriminasiyanı həvəsləndirməmək, müdafiə etməmək və dəstək verməmək, irqi üstünlüyə və irqi nifrətə əsaslanmış hər hansı ideyaların yayılmasını cinayət kimi elan etmək, irqi diskriminasiyaya dəstək verən təşkilatları bağlamalı.

Tətbiqi irqi diskriminasiyanı ləğv edən və qadağan edən hüquq və azadlıqlar konvensiyaya daxildir. Konvensiyaya uyğun olaraq 1969-cu ildə üzv dövlətlər tərəfindən qanunvericilik, məhkəmə, inzibati və başqa sahədə qəbul olunmuş tədbirlər haqqında məlumatlara baxmaq üçün irqi diskriminasiyanın ləğvi üzrə Komitə yaradılmışdır.

**İRQİ DİSKRİMİNASİYANIN LƏĞVİ ÜZRƏ KOMİTƏ** - İrqi

diskriminasiyanın bütün formalarının ləğvi haqqında 1966-cı il Beynəlxalq konvensiyasına uyğun olaraq yaradılmışdır. Komitə üzv dövlətlərin nümayəndələrindən 4 il müddətinə seçilmiş 18 ekspertdən təşkil olunmuşdur. Komissiyanın üzvləri konvensiyanın iştirakçısı olan dövlətlərin nümayəndələrinin içərisindən seçilir.

Konvensiyanın iştirakçısı olan dövlətlər, onlar tərəfindən qəbul olunmuş qanunvericilik, məhkəmə, inzibati və başqa tədbirləri komissiyanın baxması üçün BMT-nin Baş Katibliyinə verirlər. Qeyd edək ki, bu tədbirlərin köməyi ilə konvensiyanın müddəaları həyata keçirilir.

**İRLANDİYA** - Avropanın qərbində, İrlandiya adasının böyük hissəsində yerləşir. Ərazisinin sahəsi 70.284 kv.km, əhalisinin sayı isə 3.550.448 (1995) nəfərdir. Dövlət dili irland və ingilis dilləridir.

Ölkənin tam adı İrlandiya Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Dublin şəhəridir. İrlandiya müstəqilliyini 6 dekabr 1921-ci ildə Böyük Britaniyadan almışdır. Milli bayram 17 mart Müqəddəs Patrik günüdür. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Parlament ikipalatalıdır: Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (doyl) ibarətdir.

**İSLAM KONFRANSI TƏŞKİLATI (İKT)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. Müsəlman ölkələrinin dövlət və hökumət başçılarının 1969-cu ildə Rabatda keçirilmiş birinci konfransında təşkil edilmişdir. Təşkilatın Nizamnaməsi müsəlman dövlətlərin xarici işlər nazirlərinin Ciddədə keçirilən III konfransında qəbul edilmişdir. Hal-hazırda İKT-nın 55 üzvü vardır.

İKT-nın məqsədi müsəlman həmrəyliyini möhkəmləndirmək, iqtisadi, sosial, mədəni, elmi sahələrdə əməkdaşlığı inkişaf etdirmək, irqçiliyin və müstəmləkəçiliyin bütün formalarının ləğvinə nail olmaq, beynəlxalq təşkilatlarda üzv dövlətlər arasında məsləhətləşəmələrin keçirilməsi milli müstəqillik uğrunda müsəlman xalqlarının birləşməsi öz ərazilərinin azadlığı uğrunda mübarizə aparan Fələstin xalqına kömək göstərməkdir.

İKT-nın üzvü yalnız müsəlman dövlətləri ola bilər. Lakin bu o demək deyildir ki, təşkilat dini təşkilatdır. İKT mühüm beynəlxalq məsələlərdə müsəlman ölkələrinin mövqeyinin yaxınlaşmasını təmin etmək məqsədini qarşısına qoyan beynəlxalq təşkilatdır.

Təşkilatın rəhbər orqanları 3 ildə bir dəfə çağırılan dövlət və hökumət başçılarının konfransı, xarici işlər nazirlərinin hər il çağırılan toplantısı və baş katibin rəhbərlik etdiyi katiblikdir.

Baş katibliyin mənzil-qərargahı Ciddədədir.

İKT yanında İslam İnkişaf Bankı, elm və texnika sahəsində əməkdaşlıq üzrə Daimi komitə və başqa qurumlar fəaliyyət göstərir. 1975-ci ildə İKT-yə BMT-də daimi müşahidəçi statusu verilmişdir.

Azərbaycan Respublikası 08.1.1991-ci il tarixində bu təşkilata qəbul olunmuşdur.

**İSLANDİYA** - Atlantik okeanın şimal hissəsindəki İslandiya adasında yerləşir. Ərazisinin sahəsi 102.828 kv.km, əhalisinin sayı isə 265.998 (1995) nəfərdir. Dövlət dili island dilidir.

Ölkənin tam adı İslandiya Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Reykyavik şəhəridir. İslandiya müstəqilliyini Danimarkadan 17 iyul 1994-cü ildə almışdır. Milli bayram 17 iyun Respublikanın elan olunduğu gündür. Qanunvericilik Danimarka hüququna əsaslanır. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və hökumətə rəhbərlik edən baş nazirin əlində cəmlənmişdir. Qanunverici hakimiyyət ikipalatalı (yuxarı və aşağı palatalar) parlament olan Altinq vasitəsilə həyata keçirilir. Qeyd edək ki, Altinq dünyanın ən qədim parlamentlərindən biridir.

**İSPANİYA** - Avropanın cənub-qərbində, Piriney yarımadasında yerləşir. Ərazisinin sahəsi 504.748 kv. km, əhalisinin sayı isə 39.404.348 (1995) nəfərdir. Dövlət dili ispan dilidir.

Ölkənin tam adı İspaniya Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Madrid şəhəridir. İspaniya 1492-ci ildə Mavrları qovaraq ölkənin birləşdirdikdən sonra müstəqil dövlət olmuşdur. Milli bayram olan 12 oktyabr İspan millətinin günüdür (X.Kolumbun 1492-ci ildə Amerikanı kəşf etdiyi gündür). Dövlət başçısı kraldır (kral X Xuan Karlos 22 noyabr 1975-ci

ildən ölkəni idarə edir), lakin real hakimiyyət hökumətə rəhbərlik edən baş nazirə məxsusdur. Qanunverici hakimiyyət Baş Korteslər adlanan ikipalatalı parlament (yuxarı palata - Senat, aşağı palata - Deputatlar konqresi) vasitəsilə həyata keçir.

**İSRAİL** - Cənub-qərbi Asiyada yerləşir. Ərazisinin sahəsi 20.770 kv.km, əhalisinin sayı isə 5.433.134 (1995) nəfərdir. Dövlət dili yəhudi (ivrit) dilidir.

Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Tel-Əviv şəhəridir. Müstəqil İsrail dövləti 14 may 1948-ci ildə yaradılmışdır (dövlətin indiki ərazisi vaxtilə Böyük Britaniya tərəfindən idarə olunmuşdur). 5 iyra (yəhudi təqvimi ilə) Müstəqillik günü milli bayram kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin başçılıq etdiyi hökumətə məxsusdur. Birpalatalı parlament olan Knesset qanunverici hakimiyyəti həyata keçirir.

**İSVEÇ** - Şimali Avropada yerləşir. Ərazisinin sahəsi 449.964 kv.km, əhalisinin sayı isə 8.821.759 nəfərdir. Dövlət dili isveç dilidir.

Ölkənin tam adı İsveç Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Stokholm şəhəridir. Milli bayram 6 iyun İsveç bayrağı günüdür. Dövlət başçısı monarxdır. İcra hakimiyyəti Nazirlər Kabinetinə rəhbərlik edən baş nazirə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Riksdaqdır.

**İSVEÇRƏ** - Mərkəzi Avropada yerləşir. Ərazisinin sahəsi 41.288 kv.km, əhalisinin sayı isə 7.084.984 nəfərdir (1995). Ölkənin dörd rəsmi dili vardır: alman, fransız, italyan və retorman dili.

Ölkənin tam adı İsveçrə Konfederasiyasıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Bern şəhəridir. İsveçrə konfederasiyası 1 avqust 1912-ci ildə yaradılmışdır və həmin gün Konfederasiyanın əsasının qoyulduğu gün kimi bayram edilir. Federal konstitusiya 1874-cü ildə qəbul olunmuşdur. Hər kantonun özünün konstitusiyası, parlamenti və hökuməti vardır. Dövlətin və hökumətin başçısı konfederasiyanın prezidentidir. Qanunverici orqan ikipalatalı (Kantonlar Senatı - yuxarı palata.



Milli Şura - aşağı palata) parlament olan Federal Məclisdir.

**İTALİYA** - Cənubi Avropada Appenin yarımadasında yerləşir. Ərazisinin sahəsi 301.230 kv.km, əhalisinin sayı isə 58.261.971 (1995) nəfərdir. Dövlət dili italyan dilidir.

Ölkənin tam adı İtaliya Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Roma şəhəridir. İtaliya 17 mart 1861-ci ildə müstəqilliyini əldə etmişdir. Qanunvericilik kilsə hüququ ilə birlikdə Roma hüquq sisteminə əsaslanır. Milli bayram olan Respublikanın elan edilməsi günü (1946) iyun ayının birinci bazar günü qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin başçılıq etdiyi hökumətə məxsusdur. İkipalatalı parlament Respublika Senatından (yuxarı palata) və deputatlar palatasından ibarətdir.

**İŞLƏR VƏKİLİ** - Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyasındakı təsnifata uyğun olaraq diplomatik nümayəndəliyin 3-cü dərəcəli başçısıdır. İşlər vəkili səfir və elçilərdən fərqli olaraq, dövlət başçısı tərəfindən deyil, xarici işlər idarəsinin rəhbəri tərəfindən akkreditə olunur. Qeyd edək ki, işlər vəkili diplomatik nümayəndəliyin başçısı olmadıqda onun funksiyalarını yerinə yetirən müvəqqəti işlər vəkilindən fərqlidir.

# K

**KABO-VERDE** - Atlantik okeanda, Afrikanın qərb sahillərindəki adalarda yerləşir. Ərazisinin sahəsi 4033 kv.km, əhalisinin sayı isə 365.081 (1995) nəfərdir. Dövlət dili portuqaliya dilidir.

Ölkənin tam adı Kabo-Verde Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Praya şəhəridir. Kabo-Verde Respublikası Portuqaliyadan müstəqilliyini 5 iyul 1975-ci ildə almışdır. Həmin gün ölkədə milli bayram - Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Məclis vasitəsilə həyata keçir.

**KAMBOCA** - Cənub-şərqi Asiyada yerləşir. Ərazisinin sahəsi 181.040. kv.km, əhalisinin sayı isə 10.561.373 nəfərdir (1995). Dövlət dili kxmer dilidir.

Ölkənin tam adı Kamboca Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır (Kambocada monarxiya 1993-cu ildə qəbul olunmuş konstitusiyaya uyğun olaraq bərpa edilmişdir). Ölkənin paytaxtı Pnompen şəhəridir. Kamboca müstəqilliyini Fransadan 9 noyabr 1949-cu ildə almışdır. 9 noyabr Müstəqillik günü, 7 yanvar isə Azadlıq günü kimi qeyd olunur. Dövlət başçısı kraldır (kral Norodom Sianuk 24 sentyabr 1993-cü ildən hakimiyyətdədir), icra hakimiyyəti isə hökumət başçısı olan baş nazirə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Məclisdir.

**KAMERUN** - Qərbi Afrikanın cənubunda yerləşir. Ərazisinin sahəsi 463.511 kv.km, əhalisinin sayı isə 13.521.000 nəfərdir (1995). Dövlətin iki rəsmi dili vardır: fransız və ingilis dilləri.

Ölkənin tam adı Kamerun Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Kamerun müstəqilliyini 1 yanvar 1960-cı ildə elan etmişdir (əvvəlki adı Fransa Kamerunu). Qanunvericilik Fransa mülki hüquq sisteminə əsaslanır. Milli bayram 20



may Müstəqillik günüdür (20 may 1972-ci ildə Kamerun Respublikası və Şərqi Kamerun vahid bir dövlət şəklində birləşmişdilər). Dövlət başçısı prezidentdir. O, hökuməti və baş naziri təyin edir. Qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**KANADA** - Şimali Amerikada yerləşir. Qitənin şimal hissəsini və ona yaxın adaları əhatə edir. Ərazisinin sahəsi 9.970.610 kv.km, əhalisinin sayı isə 28.434.545 nəfərdir (1995). Dövlətin iki rəsmi dili vardır: fransız və ingilis dilləri.

Dövlətin idarə forması parlamentli federasiyadır. Paytaxtı Ottava şəhəridir. Kanada müstəqilliyini 1 iyul 1867-ci ildə Böyük Britaniyadan almışdır. 1982-ci ilə qədər ölkədə Böyük Britaniyanın konstitusiyası fəaliyyət göstərmişdir. Hal-hazırda Kanada parlamenti müstəqil olaraq qanunlarda dəyişiklik etmək səlahiyyətinə malikdir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır, Kvebek əyalətində isə mülki qanunvericilik fransız qanunvericiliyinə əsaslanır. Milli bayram 1 iyul Kanada günüdür. Kanada Britaniya Birliyinin üzvü olduğundan formal hakimiyyət başqubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. Real hakimiyyət isə baş nazirin rəhbərlik etdiyi hökumətin əlindədir. Qanunverici orqan ikipalatalı parlament olub Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı palata) ibarətdir.

**KAPİTOLİ** (ing. Capitol) - Vaşinqtonda Amerika konqresinin hər iki palatasının (Senat və Nümayəndələr palatası) yerləşdiyi və fəaliyyət göstərdiyi binadır.

**KAPİTULYASİYA** - Döyüşən tərəflərdən birinin müqaviməti dayandırması və silahlı qüvvələrin təslim olmasıdır. Kapitulyasiyanın şərtləri döyüşən tərəflərin komandanlıqları arasındakı danışıqlarda razılaşdırıla bilər. Kapitulyasiya zamanı məğlub tərəfin hərbi əmlakı qalib tərəfə keçir, döyüşçüləri isə tərki-silah edilib əsir götürülür.

Kapitulyasiyanın bir forması da qeydsiz-şərtsiz kapitulyasiyadır. Bu halda Kapitulyasiya aktına məğlub tərəfin nümayəndəsi qalib tərəfin nümayəndəsinin irəli sürdüyü şərtlər daxilində imza atır.

**KART-BLANŞ** - Hər hansı bir şəxs tərəfindən imzalanmış

ağ blankdır, belə ki, bu blankda başqa bir şəxsə öz fikirlərini yazmaq hüququ, başqa sözlə, qeyri-məhdud səlahiyyət verilir.

**KENİYA** - Afrika qitəsinin şərq hissəsində yerləşir. Ərazisinin sahəsi 582.600 kv.km, əhalisinin sayı isə 28.817.227 nəfərdir (1995). Dövlətin iki rəsmi dili vardır: ingilis və suaxili dilləri.

Ölkənin tam adı Keniya Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Nayrobi şəhəridir. Keniya müstəqilliyini 12 dekabr 1963-cü ildə Böyük Britaniyadan almışdır. Həmin gün Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti prezidentin (dövlət və hökumət başçısı) əlində cəmlənmişdir. Qanunverici orqan birpalatalı parlament olan Milli Assambleyadır.

**KİPR** - Aralıq dənizinin Kipr adasında yerləşir. Ərazisinin sahəsi 9251 kv.km, əhalisinin sayı isə 736.636 nəfərdir (1995). Bunların 20 %-i türklər, 80%-ə yaxını isə yunanlardır. Dövlətin iki rəsmi dili vardır: yunan və türk dilləri.

Ölkənin tam adı Kipr Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Kipr müstəqilliyini 16 avqust 1960-cı ildə əldə etmişdir (əvvəllər Britaniya müstəmləkəsi idi). 1974-cü ildə yunan və türk icmaları arasında baş verən qanlı qarşıdurma nəticəsində ölkə iki hissəyə parçalandı. Ölkənin şimalında Şimali Kipr Türk Respublikası yarandı. Lakin bu respublika dünya ictimaiyyəti tərəfindən hələ də tanınmamışdır. Kiprin yunan hissəsi 1 oktyabr gününü, türk tərəfi isə 15 noyabr gününü Müstəqillik günü kimi qeyd edirlər. Həm yunan tərəfinin, həm də türk tərəfinin özlərinin prezidenti, Nazirlər Kabineti və baş nazirləri vardır. Yunan tərəfinin qanunverici orqanı birpalatalı parlament olan Nümayəndələr palatası, türk tərəfinin isə parlamenti Respublika Məclisidir.

**KİRİBATİ** - Sakit Okeanın qərb hissəsindəki Hilbert, Feniks, Layn və Oşen adalarında yerləşir. Ərazisinin sahəsi 717 kv.km, əhalisinin sayı isə 79.386 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Kiribati Respublikasıdır. Dövlət quruluşu respublikadır. Ölkə Britaniya Birliyinin özünüidarəetmə hüququna malik olan üzvüdür. Paytaxtı Tarava şəhəridir. Ölkə müstəqilliyini Böyük Britaniyadan 12 iyul 1979-cu ildə almışdır və bu gün ölkədə Müstəqillik günü kimi qeyd edilir. Dövlətin formal başçısı Böyük Britaniyanın kraliçasıdır, real hakimiyyət isə dövlətin və hökumətin başçısı olan prezidentə məxsusdur. Qanunverici orqan birpalatalı parlamentdir.



**KOALİSİYA** (lat. coalecker- birləşmək) - Siyasi və yaxud hərbi xarakterli birgə fəaliyyət üçün 2 və daha artıq dövlətin, xalqın, siyasi partiyaların və başqa təşkilatların bloku, ittifaqıdır.

**KOLLİZİYA NORMASI** - Beynəlxalq xarakterli mülki hüquq, ailə hüququ, əmək hüququ və digər hüquq münasibətlərində hansı dövlətin hüququnu tətbiq etməyi göstərən normadır. Hüquq münasibəti aşağıdakı hallarda beynəlxalq xarakter daşıyır: iştirakçısı xarici vətəndaş, yaxud xarici hüquqi şəxs olduqda, obyekti xaricdə yerləşən şey olduqda: hüquq münasibətinin yaranması, dəyişməsi yaxud xitamı ilə əlaqədar olan hüquqi faktlar xaricdə baş verdikdə. Bu cür hüquq münasibəti baş verdikdə məhkəmə və yaxud digər dövlət orqanı qarşısında hansı hüququ (dövlətin milli hüququnu yaxud xarici hüququ) tətbiq etmək məsələsi dura bilər. Bu məsələ daxili milli qanunvericiliklə və ya beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş kolliziya norma əsasında həll edilir. Adətən, mücərrəd qayda şəklində ifadə olunan kolliziya normasında tətbiq edilməli hüququ müəyyənləşdirən prinsip göstərilir; hüquqi şəxsin vətəndaşlığı qanunu, əqdin bağlanması yeri qanunu, şeyin (əşyanın) olduğu yer qanunu, nikahın bağlanması yeri qanunu və s.

**KOLUMBİYA** - Cənubi Amerikanın şimal-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 1.141.748 kv.km, əhalisinin sayı isə 36.200.251 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Kolumbiya Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Boqota şəhəridir. Kolumbiya müstəqilliyini İspaniyadan 20 iyul 1810-cu ildə əldə etmişdir və həmin gün Müstəqillik günü kimi bayram edilir. Ölkənin prezidenti dövlətin və hökumətin başçısıdır. Qanunverici orqan Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından ibarət olan ikipalatalı parlament - Konqresdir.

**KOMBOTANT** (fr. kombattant- döyüşçü) - Döyüşən tərəflərin silahlı qüvvələrinin tərkibinə daxil olan və döyüşlərdə iştirak etmək hüququ olan şəxs. 1899 və 1907-ci illər Haaqa konvensiyasının və 1949-cu il Cenevrə konvensiyasının müddəalarına uyğun olaraq kombotant dedikdə, döyüşən tərəflərin silahlı qüvvələrinin tərkibinə daxil olanlar, hərbi könüllülər dəstəsinə daxil olanlar, müqavimət hərəkatı təşkilatının şəxsi heyəti, əhalinin əraziyə basqın etmiş düşmənə qarşı silaha sarılan hissəsi, milli-azadlıq hərəkatının üzvləri başa düşülür. Düşmənin əlinə keçən kombotant müharibənin qayda və qanunlarına uyğun olaraq hərbi əsir statusuna malikdir.

**KOMMYUNİKE** - Beynəlxalq danışıqların gedişi və nəticəsi haqqında rəsmi məlumatdır. İkitərəfli kommyunike adətən "birgə kommyunike" və yaxud "birgə məlumat" adlanır. Kommyunike qısa da ola bilər, qəbul olunmuş qərarın konkret məsələləri üzrə tərəflərin mövqeyini müfəssəl şəkildə izah etməklə də ola bilər. Kommyunike həmçinin tərəflər arasında əldə olunmuş razılığı əks etdirə bilər və bu halda tərəflər üçün müəyyən olunmuş hüquqi nəticələrə malik ola bilər.

**KOMOR ADALARI** - Madaqaskar adası ilə Afrika qitəsi arasındakı adaları əhatə edən dövlətdir. Ərazisinin sahəsi 1862 kv.km, əhalisinin sayı isə 549.339 nəfərdir (1995). Ölkənin iki rəsmi dili var: ərəb və fransız dilləri.

Ölkəninin tam adı Komor adaları Federal İslam Respublikası adlanır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Moroni şəhəridir. Komor adaları müstəqilliyini Fransadan 6 iyul 1975-ci ildə əldə etmişdir. Həmin gün müstəqilliyin elan olunduğu gün kimi bayram edilir. İcra hakimiyyəti dövlət və hökumətin başçısı olan prezidentin əlində cəmlənmişdir.

**KONDOMİNİUM** - Həmsahiblik, 2 və daha çox dövlət tərəfindən eyni bir ərazidə ali hakimiyyətin həyata keçirilməsidir.

Kondominium eyni ərazidə iddiası olan iki və daha artıq dövlətlərin arasındakı narazılıqları aradan qaldırmaq məqsədi ilə müəyyən olunmuşdur. Beynəlxalq münasibətlər tarixində belə hallar da mövcuddur: 1889-99-cu illərdə ABŞ, Böyük Britaniya və Almaniyanın Samao adaları üzərində kondominiumu saxlanılmışdır. Sudan 1899-cu ildən müstəqillik qazanana qədər (1956) ingilis-Misir Kondominiumuna daxil olmuşdur və s.

Kondominium su ərazisinin üzərində də müəyyən oluna bilər. Məs, Fonsek körfəzi üzərində Salvador və Hondurasın Kondominiumu.

**KONFEDERASİYA** (lat. Confederatio - ittifaq) - Müəyyən bir məqsədi həyata keçirmək üçün 2 və daha artıq suveren dövlətin daimi ittifaqını özündə əks etdirən dövlət quruluşu formasıdır. Müəyyən məqsəd dedikdə, qarşılıqlı müdafiə, xarici əlaqələr və s. nəzərdə tutulur.

Konfederasiya adətən, maraqlı tərəflərin arasındakı müqavilə əsasında yaradılır. Konfederasiyanın mərkəzi orqanına bütün üzv dövlətlərin nümayəndələri daxil olur. Onların qərarları yekdilliklə və yaxud səs çoxluğu ilə qəbul olunur və adətən, üzv dövlətlərin ratifikasiyasından sonra qüvvəyə minir. Konfederasiyanın maliyyə vəsaitləri üzv dövlətlərin ödəmələri hesabına yığılır. Qaydaya görə konfederasiyanın vahid vergi sistemi və hüquq sistemi yoxdur.

Tarixdən aşağıdakı konfederasiyalar məlumdur: Reyn Konfederasiyası (1254-1350), Qanzey Liqası (1367-69), İsveçrə Konfederasiyası (1291-1748, 1815-1848), Niderland Konfederasiyası (1579-1795), ABŞ Konfederasiyası (1781-1787), Amerika Konfederasiyası Ştatları (1861-1865) və s. Həmkarlar ittifaqının və yaxud başqa ictimai təşkilatların birliyi də konfederasiya adlanır.

**KONFRONTASİYA** (lat. con-əks, front-cəbhə) - Dövlətlər arasında hərbi münaqişə törədə biləcək qarşıdurmalardır. Tarixdə konfrontasiyaların müharibəyə çevrilməsi halları çox olmuşdur. Tarixdən o da məlumdur ki, danışıqlar yolu ilə konfrontasiyanı yumşaltmaq və müharibə vəziyyətindən qaçmaq halları da olmuşdur.

Konfrontasiya dövlətlər arasındakı sülhə söykənən sosial-iqtisadi əlaqələrin inkişafına maneçilik törədən amillərdir. Əsarətdən azad olmuş, müstəqillik qazanmış ölkələrlə münasibətdə konfrontasiya siyasəti bu ölkələrin müstəqilliyinin möhkəmlənməsinə qarşı yönəlmiş aktdır.

**KONKORDT** - Katolik kilsəsinin başçısı Roma papası ilə bu və ya başqa dövlətin hökuməti arasında, həmin dövlətin ərazisindəki katolik kilsələrin mövqeyini və imtiyazlarını müəyyən edən xüsusi sazişdir. İlk belə saziş 1122-ci ildə Roma papası II Kanikstla Almaniya imperatoru V Henrix arasında bağlanmışdır.

**KONQO** - Mərkəzi Afrikanın qərbində yerləşir. Ərazisinin sahəsi 342.000 kv.km, əhalisinin sayı isə 2.505.000 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Konqo Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Brazzavil şəhəridir. Konqo Respublikası müstəqilliyini Fransadan 15 avqust 1960-cı ildə almışdır. Həmin gün müstəqillik günü kimi bayram edilir. Qanunvericilik Fransa müki hüquq sisteminə əsaslanır. İcraedici orqan prezidentə (dövlət başçısı) və baş nazirə məxsusdur. Qanunverici hakimiyyət ikipalatalı (Senat - yuxarı palata və Milli Məclis - aşağı palata) parlament tərəfindən həyata keçirilir.

**KONSENSUS** (lat. consensus - razılıq, ümumi rəy) - Beynəlxalq konfranslarda, müşavirələrdə və təşkilatlarda qərarın, yaxud müqavilənin mətninin iştirakçıların ümumi razılıqı ilə formal səsvermə keçirilmədən qəbul edilməsidir. Məs., Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirənin (1975) Yekun Aktı konsensus ilə qəbul edilmişdir. Konsensus dövlətlər arasında razılıq əldə edilməsində mühüm əhəmiyyətə malikdir.

**KONSTİTUSİYA** ( lat. cotitutio - quruluş, təsisat) - Dövlətin əsas qanunu, həmin ölkənin ictimai və iqtisadi quruluşun əsasını, idarəetmə formasını və dövlət quruluşu formasını, şəxsiyyətin hüquqi vəziyyətini, mərkəzdə və yerlərdə hakimiyyət və idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətini, ədalət mühakiməsini, seçki sisteminin təşkilini və əsas prinsiplərini təsbit edir. Konstitusiya həmin ölkənin hüquq sistemini təşkil edən digər normativ aktlara nisbətən ali hüquqi qüvvəyə malikdir. Bütün normativ aktların konstitusiyaya uyğun olmasını konstitusiya nəzarəti orqanları həyata keçirir.

Dünyanın bir çox ölkələrinin siyasi praktikasında konstitusiya layihələri müəyyən üsulla işlənib hazırlanır və qəbul edilir. İlk ABŞ Konstitusiyası təsisat məclisi tərəfindən işlənib hazırlanmış, sonra isə ştatların konstitusiya konventləri tərəfindən ratifikasiya (təsdiq) edilmişdi. Fransada qüvvədə olan konstitusiyanın (1958) layihəsi Konstitusiya komitəsi tərəfindən hazırlanmış, sonra isə referendum yolu ilə bəyənilmişdir. Bəzi konstitusiyalar (Yunanıstanın, 1975; İspaniyanın, 1978) parlament tərəfindən hazırlanmış və referenduma çıxarılmışdır.



Formasına görə iki növ konstitusiya olur: yazılmış, yəni müəyyən sxem üzər qurulmaqla vahid sənəd kimi tərtib edilmiş konstitusiya və yazılmamış, yəni bir çox parlament qanunlarından, məhkəmə proseslərindən (bax Presedent), adətlərdən ibarət. Dünyanın əksər ölkələrində (Böyük Britaniya və Yeni Zelandiya istisna olmaqla) yazılı konstitusiya mövcuddur. Dəyişikliklərin, əlavələrin və düzəlişlərin edilməsi qaydasına görə də iki növ Konstitusiya fərqləndirilir. Adi parlament qanunlarına nisbətən daha mürəkkəb qaydada dəyişdirilən Konstitusiya sabit Konstitusiya sayılır.

Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ilin noyabrın 12-də qəbul olunmuşdur.

**KONSUL** - *Bir dövlətin* başqa dövlətdə həmin dövlətin razılığı ilə qarşısına qoyulmuş məsələləri həyata keçirən vəzifəli şəxsidir.

XI əsrin sonu XII əsrin əvvəllərində Şərqdə Qərb tacirlərinin maraqlarının müdafiəçisi kimi yaranmış konsulluq institutu Avropa ölkələri arasında ticarətin inkişafı ilə əlaqədar olaraq Qərbdə yayılmışdır. Artıq XVIII-XIX əsrlərdə konsulun ştatlı və yaxud professional, ştatdan kənar və yaxud fəxri bölgüsü aparılmışdır.

Ştatda olan konsul dövlətin vətəndaşı olub, dövləti təmsil etməklə dövlətin xidmətində olan şəxsdir.

Ştatdan kənar konsul dövlətin rəsmi orqanlarının işçisi olmayıb, lakin dövlətlərin tapşırığı və ərazisində fəaliyyət göstərdiyi dövlətlərin razılığı ilə konsulluq fəaliyyətini həyata keçirən şəxsdir. Konsulun fəaliyyətini yerinə yetirdiyi üçün ştatdan kənar konsula ödəniş haqqı kimi konsulluq rüsumlarından istifadə etməyə icazə verilir.

Konsullar özlərinin xidməti funksiyalarını maneəsiz yerinə

yetirmək üçün konsulluq immunitetlərindən və imtiyazlarından istifadə edirlər.

Konsulun funksiyaları beynəlxalq müqavilələrdə (konsulluq əlaqələri haqqında 1963-cü il Vyana konvensiyası, konsulluq funksiyası haqqında 1967-ci il Avropa konvensiyası, ikitərəfli konsulluq konvensiyasında, ticarət və dənizçilik haqqında müqavilələrdə), həmçinin dövlətlərin daxili qanunvericiliyində müəyyən olunur.

**KONSUL HÜQUQU** - Beynəlxalq hüququn bir həssəsidir. Konsulların təyin edilməsi, funksiyaları, imtiyazları və immunitetləri, fəaliyyətlərinə xitam verilməsi ilə əmələ gələn münasibətləri nizamlayan normalardan ibarətdir. Konsulluq əlaqələri haqqında 1963-cü il Vyana konvensiyası və digər çoxtərəfli sazişlər, habelə ikitərəfli konsul sazişləri məsələləri ayrı-ayrı dövlətlərin milli qanunvericiliyi ilə nizamlayır.

Konsul hüququ normalarında konsul nümayəndəliklərinin başçılarının dörd dərəcəsi (sinfi) müəyyən edilmişdir: baş konsul, konsul, vitse-konsul və konsul agenti. Konsulu xarici işlər idarəsi təyin edir və ona konsul səlahiyyətini təsdiq edən vəsiqə (şəhadətnamə) verir. Konsulun olduğu dövlətdə konsula xüsusi sənəd (ekzekvatura) verilir; bu sənəddə həmin şəxsin məhz bu ölkədə konsul vəzifəsini icra etməsinə razılıq ifadə olunur. Konsul öz funksiyalarını olduğu ölkənin müəyyən rayonunda (konsul dairəsində) həyata keçirir. Konsul hüququ normalarına uyğun olaraq bu funksiyaları yerinə yetirmək üçün konsula və konsulluğa xüsusi imtiyazlar (immunitetlər) və güzəştlər verilir: konsulun şəxsi toxunulmazlığı, onun konsul funksiyalarını yerinə yetirdikdə olduğu dövlətin məhkəmə və inzibati yurisdiksiyasından azad olması və s.

İkitərəfli konsul konvensiyalarında konsullara verilən imtiyazların və immunitetlərin xeyli genişləndirilməsi, bu imtiyazların konsulun şəxsi hərəkətlərinə də aid edilməsi nəzərdə tutulur.

**KONSULLUQ KORPUSU** - Bir şəhərdə olan bütün konsulların məcmusuna konsulluq korpusu deyilir. Geniş mənada konsul korpusu dedikdə, konsullardan başqa, konsulluqların rəsmi heyəti, onların ailə üzvləri başa düşülür. Konsulluq korpusunun başçısı vəzifəsinə ekzekvaturaya görə birinci və ən yüksək rütbəli konsul seçilir və o dekan, yaxud duayen adlanır. Konsulluq korpusunun başçısı əsas etibarilə aşağıdakı mərasim funksiyalarını yerinə yetirir: konsulluq korpusunu təmsil edir, konsulluq korpusunun yeni gəlmiş nümayəndəsini ölkənin xüsusiyyətləri və adətləri ilə tanış edir, konsulluq korpusu çərçivəsində daxili məsələləri həll edir, konsulluq korpusunun üzvlərinin hüquqlarını müdafiə edir.

Diplomatik korpusdan fərqli olaraq ölkədə bir neçə konsulluq korpusu da ola bilər. Diplomatik korpus kimi konsulluq korpusu da hüquqi şəxs deyildir.

**KONSULLUQ LÖVHƏSİ** - Öz dövlətinin gerbinin əks olunduğu və konsulluq idarəsinin adının öz dövlətinin dilində və fəaliyyət göstərdiyi dövlətin dilində yazıldığı lövhədir.

Konsulluq lövhəsi konsulluq idarəsinin yerləşdiyi binaya, həmçinin konsulun iqamətgahına vurula bilər. Konsulluğun konsul lövhəsi asmaq hüququ dövlətin daxili qanunvericiliyinə və konsulluq haqqındakı beynəlxalq konvensiyala'da öz əksini tapmışdır.

**KONSUL PATENTİ** - Şəxsin konsulluq idarəsinin başçısı təyin edilməsi faktını təsdiq edən sənəddir. Bu sənəd konsulun fəaliyyət göstərəcəyi dövlətin hökumətinə diplomatik və ya başqa kanallar vasitəsilə göndərilir. Konsul patentində şəxsin adı və familiyası tam şəkildə, vətəndaşlığı, konsulluq dərəcəsi, həmçinin konsul dairəsi və konsulluğun yerləşdiyi yer göstərilir.

Konsul patenti təqdim edən dövlətin başçısı, hökumətin başçısı və yaxud xarici işlər idarəsinin başçısı tərəfindən verilir.

**KONSULLUQ DAİRƏSİ** - Konsulun konsulluq funksiyalarını həyata keçirdiyi ərazidir. Konsulluq dairəsi dövlətlər arasındakı razılıqla müəyyən olunur və konsul patentində və konsulluq idarəsinin başçısının təyin edildiyi başqa sənədlərdə göstərilir. Konsulluq ərazisinin dəyişdirilməsi yalnız konsulun fəaliyyət göstərdiyi dövlətin razılığı ilə həyata keçirilir.

Konsulluq ərazisinin sərhədləri daxilində konsul onun qarşısında qoyulmuş istənilən məsələ ilə bağlı yerli hakimiyyət orqanlarına yazılı və yaxud şifahi şəkildə müraciət edə bilər. Fəaliyyət göstərdiyi dövlətin mərkəzi orqanlarına konsul adətən, öz dövlətinin diplomatik nümayəndəliyi vasitəsilə müraciət edə

bilər.

**KONSULLUQ FUNKSİYALARI** - Konsulluq idarəsinin əsas işi fəaliyyət göstərdiyi dövlətdə öz dövlətinin, onun təşkilatlarının və vətəndaşlarının maraqlarını müdafiə etmək, dövlətlər arasında, xüsusilə də iqtisadi, ticarət, elm və texnika, mədəniyyət və s. sahələrdə dostluq münasibətlərini qurmaqdır.

Konsulluğun aşağıdakı bəzi funksiyalarını qeyd edək:

- Öz dövlətinin hakimiyyət orqanlarını fəaliyyət göstərdiyi dövlətin və konsulluq dairəsinin iqtisadi, ticarət, sosial, mədəni, elmi və texniki həyatı ilə məlumatlandırmaq;
- Konsulluq dairəsinin ərazisində olan vətəndaşlarına fəaliyyət göstərdiyi dövlətin qayda və qanunları haqqında məlumat vermək.
- Konsulluq dairəsinin ərazisində olan vətəndaşlarının siyahısını tutmaq;
- Pasport-viza işi;
- Konsulluq leqallaşdırması;
- Konsulluq dairəsinin ərazisində olan vətəndaşlarının hüquq və maraqlarını qorumaq və s.

**KONSULLUQ İDARƏSİ** - İki dövlətin arasındakı müqavilə əsasında konsulluq funksiyalarını yerinə yetirmək üçün dövlətin xarici dövlətdə yaradılmış daimi xarici əlaqələr orqanıdır. Konsulluq idarəsi və onun vəzifəli şəxsləri konsulluq immunitet və imtiyazlarından istifadə edirlər.

Müasir dövrdə dövlətlərin əksəriyyətində baş konsulluq, konsulluq, vitse-konsulluq və konsulluq agentlikləri kimi konsulluq idarələri təsis edilir. Bu idarələrə konsullar, konsul müavinləri və konsul agentləri başçılıq edir.

**KONSULLUQ İMMUNİTETLƏRİ VƏ İMTİYAZLARI** - Ərazisində konsulluq fəaliyyət göstərdiyi dövlət tərəfindən konsulluq idarəsinə, konsul vəzifəsini icra edən şəxsə, konsulluq idarəsinin əməkdaşlarına öz vəzifələrini maneəsiz həyata keçirmək məqsədilə verdiyi güzəştlər və üstünlüklərdir.

Konsulluq idarəsinin imtiyazları aşağıdakılardan ibarətdir: konsulluğun binasına konsul lövhəsini vurmaq və dövlətin bayrağını konsulluğun binasında qaldırmaq hüququ, öz ölkəsi ilə, ölkəsinin xarici ölkələrdə yerləşən diplomatik nümayəndəlikləri



və konsulluq idarələri ilə əlaqə saxlamaq hüququ, konsulluğun binasının, konsulluğun əməkdaşlarının yaşayış yerlərinin hər cür rüsumlardan, vergilərdən azad olunması, konsul rüsumlarının hər cür vergilərdən azad olunması.

Konsul idarəsinin immuniteti dedikdə, hər şeydən əvvəl konsulluğun binasının toxunulmazlığı başa düşülür. Konsulluğun binasına giriş yalnız və yalnız konsulluq idarəsinin başçısının razılığı ilə mümkündür. Konsulluq əlaqələri haqqındakı 1963-cü il Vyana konvensiyası yanğın və yaxud başqa təbii fəlakət hallarında belə bir razılığa icazə verir. Konsulluğun binalarının qarşılıqlılıq əsasında təmin olunan toxunulmazlığı onların konsulluq idarəsinin funksiyalarına aid olmayan məqsədlər üçün istifadə edilməsinə imkan vermir. Konsulluğun binası, konsulluq idarəsinin əmlakı, həmçinin onun nəqliyyat vasitələri istənilən növ müsadirə immunitetinə malikdir. Konsulluq arxivləri və sənədləri istənilən vaxt və yerindən asılı olmayaraq toxunulmazlığa malikdir.

Konsul vəzifəsi daşıyan şəxsin immuniteti ilk növbədə onun şəxsi toxunulmazlığını əhatə edir. Konsul və konsulluğun əməkdaşları özlərinin xidməti fəaliyyətlərinə görə ərazisində fəaliyyət göstərdikləri dövlətin məhkəmə aidiyyatı qarşısında cavabdehlik daşımırlar. Əgər konsul məhkəmə və inzibati işlərə görə fəaliyyət göstərdiyi ölkənin məhkəmə orqanlarına şahid kimi çağırılarsa və o bu çağırışdan imtina edərsə, dövlət ona qarşı heç bir ölçü götürə bilməz.

Ərazisində konsulluğun fəaliyyət göstərdiyi dövlət konsul vəzifəsini daşıyan şəxsə, konsulluğun əməkdaşlarına və onların ailə üzvlərinə vergidən azad olunmaq, şəxsi baqajların baxışından azad olunmaq, gömrük rüsumlarının ödənilməsindən azad olunmaq kimi güzəştlər nəzərdə tutur.

**KONSULLUQ KONVENSİYASI** - İki və daha çox dövlət arasında konsulluqların təşkil olunması və konsulların təyin olunması qaydalarını, konsulların səlahiyyət dairəsini, həmçinin konsulluq immunitetlərini və imtiyazlarını müəyyən edən sazişdir. Konsulluq qulluqçuları haqqındakı 1928-ci il Havana konvensiyası, konsulluq əlaqələri haqqındakı 1963-cü il Vyana konvensiyası və s. çoxtərəfli konsulluq konvensiyasına daxildir.

**KONSULLUQ LEQALLAŞDIRMASI** - Konsulun şəxsi imzası və konsulluq idarəsinin möhürü ilə sənədlərdəki imzaların həqiqiliyinin, sənədlərin konsulluğun fəaliyyət göstərdiyi dövlətin qanunları ilə uyğunluğunun və s. təsdiq edilməsidir. Praktikada konsulun öz dövləti tərəfindən tərtib olunmuş və konsulun fəaliyyət göstərdiyi dövlətə təqdim olunması üçün nəzərdə tutulmuş sənədlərin də konsulluq leqallaşdırması mövcuddur.

**KONSULLUQ MÜNASİBƏTLƏRİ** - Konsulluq əlaqələri haqqındakı 1963-cü il Vyana konvensiyası dövlətlər arasındakı *konsulluq münasibətlərinin bu dövlətlərin razılığı ilə həyata keçirildiyini* nəzərdə tutur. Diplomatik münasibətlərin qurulması eyni zamanda konsulluq münasibətlərinin qurulmasına razılıq əlamətidir. Konsulluq münasibətləri diplomatik münasibətlər olmadan da qurula bilər. Diplomatik münasibətlərin kəsilməsi konsulluq münasibətlərinin kəsilməsi demək deyildir.

**KONSULLUQ RANQLARI** - *Qaydaya görə, konsulların* daşıdıqları vəzifəyə uyğun xüsusi xidməti rütbələrdir. Konsulluq əlaqələri haqqındakı 1963-cü il Vyana konvensiyasına görə, konsulluq ranqları 4 qrupa bölünür: baş konsullar, konsullar, vitse-konsullar, konsul agentləri.

Qaydaya görə, tərəflərin razılığı ilə konsul idarəsinin tipi konsul idarəsinin başçısının ranqını müəyyən edir. *Qalan konsulluq* vəzifələri daşıyan şəxslərin vahid təsnifatı yoxdur. Konsulluq ranqları dövlət tərəfindən verilir və dövlətin daxili işidir.

Baş konsulluq idarəsində yalnız baş konsulluq idarəsinin başçısı və başqa konsul ranqlarına malik olan müxtəlif sayda konsul vəzifəsi olan şəxslər ola bilər.

Konsulluq idarəsinin başçısı fəaliyyət göstərdikləri dövlətin xarici işlər idarəsinə konsul vəzifəsi daşıyan şəxslərin rütbəcə böyüklüyü haqqında məlumat verir.

**KONSULLUQ RÜSUMLARI** - Konsul (konsulluq) tərəfindən aşağıdakı konsulluq fəaliyyətinə görə yığılan ödənclər konsul rüsumları adlanır: pasportların verilməsi və yaxud onların fəaliyyət müddətinin artırılması, vizaların verilməsi, vətəndaşlıqla bağlı ərizələrin qəbulu və rəsmiləşdirilməsi və s.

Konsulluq rüsumları öz dövlətinin qanunvericiliyində müəyyən edilmiş tariflərlə toplanır və dövlətin büdcəsinə köçürülür.



ştatdan-kənar konsullar tərəfindən yığılan rüsumlar, onlar tərəfindən istifadə oluna bilər.

**KONTRABANDA** (it. kontra- əks, bando- hökumət fərmanı) - Malların, qiymətli şeylərin, mədəni dəyərlərin və s. dövlət sərhəddindən qeyri-qanuni keçirilməsidir.

Azərbaycan Respublikasının Gömrük məcəlləsinə görə xüsusi halda aşağıdakılar kontrabanda hesab olunur: yüklərin Azərbaycanın dövlət sərhədlərindən qeyri-qanuni keçirilməsi, belə yüklərin Azərbaycan ərazisində saxlanması, satılması və alınması, xarici valyutaların, qiymətli metalların və onlardan düzəldilmiş qiymətli əşyaların qiymətli daşların qeyri-qanuni gətirilib-aparılması və s.

Cinayət işi nəzərdə tutulan kontrabanda haqqında materiallar gömrük idarələri tərəfindən hüquq-mühafizə orqanlarına verilir.

Beynəlxalq hüquqda hərbi kontrabanda anlayışı da vardır. Hərbi kontrabanda dedikdə, düşmən tərəfin hərbi sursatının neytral dövlətin gəmiləri ilə daşınması nəzərdə tutulur.

**KONVENSİYA** (son lat. conventio - razılaşma, saziş) - Beynəlxalq müqavilənin adlarından biridir. Bir qayda olaraq hökumətlər xüsusi əməkdaşlıq sahəsində bu cür müqavilələr bağlayırlar: poçt konvensiyası, rabitə konvesiyası, konsul konvensiyası, əmək konvensiyası və s. Konvensiya BMT-də beynəlxalq hüququn məcəlləşdirilməsi formalarından biridir (dəniz hüququna dair 1982-ci il Cenevrə konvensiyası, diplomatiya, konsul və müqavilə hüquqlarına dair 1961, 1963, 1969, 1978-ci il Vyana Konvensiyaları və s).

*Müharibə qanunları və adətləri haqqında müqavilələr də* konvensiyalar adlanır.

Həmçinin ərazi məsələlərinə dair konvensiyalar (1948-ci il Belqrad konvensiyası), boğazlara dair konvensiyalar (Qara dəniz boğazlarının rejimi haqqında 1936-cı il konvensiyaları), insan və vətəndaşlıq haqqında konvensiyalar (qadınların siyasi *hüquqları haqqında 1952-ci il konvensiyası*).

Konvensiyalar müəyyən müddət üçün, yaxud müddətsiz olaraq bağlanır. Onlar ikitərəfli və yaxud çoxtərəfli ola bilər, onlarda dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar da iştirak edə bilər.

**KOSMİK FƏZADAN DİNC MƏQSƏDLƏRLƏ İSTİFADƏ EDİLMƏSİ ÜZRƏ KOMİTƏ** - BMT-nin BM-nin köməkçi orqanıdır. 1959-cu ildə BMT BM 1472 A (XIV) saylı qərarı ilə yaradılmışdır.

Komitə kosmik fəzanın araşdırılmasının elmi-texniki və hüquqi məsələləri və kosmik fəzanın dinc məqsədlə istifadə olunması ilə məşğul olur. Komitənin tərkibinə dünyanın bütün regionlarını təmsil edən 53 dövlət daxildir.

1962-ci ildə komitənin nəzdində 2 köməkçi komitə - elmi-texniki və hüquqi komitə yaradılmışdır. Elmi-texniki komitə kosmik araşdırmalar haqqında olan informasiyaların mübadiləsi, beynəlxalq kosmik proqramın stimullaşdırılması, kadrların hazırlanması, kosmik raketlərin buraxıldığı beynəlxalq poliqonları müşahidə etmək və s. işlərlə məşğuldur. Hüquq komitəsində dövlətlərin kosmik fəzanı mənimsəməsi sahəsindəki fəaliyyətini nizamlayan bir çox universal beynəlxalq müqavilələr işlənib hazırlanmışdır.

Komitə illik sessiya keçirir və özünün fəaliyyəti haqqında BMT BM-nə hesabat verir.

**KOSMOS HÜQUQU** - Beynəlxalq hüquq normaları sistemidir; dövlətlərin və beynəlxalq hökumətlərarası təşkilatların kosmosun tədqiqi, ondan istifadə ilə əlaqədar fəaliyyətini nizamlayır. kosmik fəzanın, Ayın və digər göy cisimlərinin beynəlxalq hüquqi rejimini müəyyən edir. Kosmik tədqiqatlar üzrə milli proqramlar və onların həyata keçirilməsi hər bir dövlətin daxili səlahiyyətinə aiddir və onun milli hüququ ilə nizamlanır. Beynəlxalq hüquq sahəsi kimi kosmos hüququ XX əsrin 60-cı illərində formalaşmışdır.

Beynəlxalq müqavilə və beynəlxalq adət kosmos hüququnun mənbələridir. BMT kosmos hüququnun normalarının işlənib hazırlanmasında mühüm rol oynayır. BMT çərçivəsində bu sahədə bir sıra qərarlar və layihələr işlənib hazırlanmış və qəbul edilmişdir. 1959-cu ildə BMT-nin kosmik fəzadan dinc məqsədlərlə istifadə komitəsi yaradılmış, elmi-texniki və hüquqi yardım komitələri təşkil edilmişdir və s. 1968-82 illərdə kosmik fəzanın öyrənilməsi və ondan dinc məqsədlərlə istifadə edilməsinə dair BMT-nin Vyana konfransları keçirilmişdir.

Kosmos hüququnun normaları bir sıra beynəlxalq sənədlərə daxil edilmişdir. Onların ən mühümü dövlətlərin Ay və digər göy cisimləri daxil olmaqla kosmik fəzanın tədqiqi və ondan istifadə edilməsi üzrə fəaliyyətinin prinsipləri haqqındakı 1967-ci il müqaviləsidir. Müqavilədə beynəlxalq kosmos hüququnun aşağıdakı əsasları müəyyən edilmişdir: kosmik fəzanın və göy cisimlərinin tədqiqi və ondan istifadənin azadlığı; kosmik fəzanın qismən hərbisizləşməsi (nüvə silahı, yaxud digər kütləvi qırğın silah növləri olan obyektlərin yerləşdirilməsinin qadağan edilməsi) və göy cisimlərinin tam hərbisizləşməsi, kosmik fəzanın və göy cisimlərinin millətlər tərəfindən mənimsənilməsinin qadağan edilməsi, BMT Nizamnaməsinə daxil edilmiş beynəlxalq hüququn ümumi prisiplərinin kosmik fəzanın və göy cisimlərinin tədqiqi üzrə fəaliyyətə aid edilməsi, dövlətlərin buraxdıqları kosmik obyektlər üzərində suveren hüquqlarının saxlanılması, dövlətlərin kosmosda milli fəaliyyətə görə, o cümlədən kosmik obyektlərin vurduqları zərərə görə beynəlxalq məsuliyyəti, kosmik fəzada və göy cisimlərində eksperimentlərin potensial zərərli nəticələrinin qarşısının alınması, qəza, fəlakət, məcburi, yaxud əvvəlcədən nəzərdə tutulmayan enmə hallarında kosmik gəmilərin heyətinə yardım göstərilməsi, kosmik fəzanın və göy cisimlərinin öyrənilməsi və onlardan dinc məqsədlərlə istifadə üzrə beynəlxalq əməkdaşlığa yardım göstərilməsi. BMT Baş Məclisinin 1963-cü il dekabrın 13-də qəbul etdiyi dövlətlərin kosmik fəzanın tədqiqi və istifadəsi üzrə fəaliyyətini nizamlayan hüququ prinsipləri haqqında bəyannamə həmin il müqavilənin bağlanmasında mühüm mərhələ oldu. 1967-ci il müqaviləsindən əvvəl Vaşinqtonda 1963-cü il avqustun 5-də atmosferdə, kosmosda və su altında nüvə silahı sınağının keçirilməsinin qadağan edilməsi haqqında aşağıdakı müqavilələr imzalanmışdı: kosmonavtları xilas etmə, kosmonavtları qaytarma və kosmik fəzaya buraxılmış kosmik obyektləri qaytarma haqqında saziş (1968), kosmik fəzaya buraxılmış kosmik obyektləri qaytarma haqqında konvensiya, ətraf mühitə təsir vasitələrindən hərbi məqsədlərlə istifadənin qadağan edilməsi haqqında konvensiya. Ayda və digər göy cisimlərində dövlətlərin fəaliyyəti haqqında saziş 1984-cü ildə qüvvəyə minmişdir. Kosmosun tədqiqi və ondan istifadə, elmi-texniki əməkdaşlıq sahəsində beynəlxalq sazişlər də bağla-

mışdır.

**KOSTA-RİKA** - Mərkəzi Amerikada yerləşir. Ərazisinin sahəsi 51.100 kv.km, əhalisinin sayı isə 3.419.119 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Kosta-Rika Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı San-Xose şəhəridir. Kosta-Rika dövləti müstəqilliyini 15 sentyabr 1821-ci ildə əldə etmişdir (əvvəllər İspaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün ölkədə Müstəqillik günü kimi bayram edilir. Qanunverici ispan mülki hüququna əsaslanır. Prezident hökumətə və dövlətə başçılıq edir. Qanunverici hakimiyyət birpalatalı parlament olan Qanunvericilik Assambleyası vasitəsilə təmsil olunur.

**KOT-D' İVUAR (fil sümüyü sahilləri)** - Qərbi Afrikada yerləşir. Ərazisinin sahəsi 322.463 kv.km, əhalisinin sayı isə 14.791.257 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Kot-d' İvuar Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Yamusukro ölkənin formal inzibati mərkəzidir, faktiki mərkəz isə Abicandır. Kot-d' İvuar müstəqilliyini 7 avqust 1960-cı ildə əldə etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Qanunvericilik Fransa mülki hüququna əsaslanır. Ölkənin iki milli bayramı vardır: 7 dekabr Respublikanın elan edildiyi gün (1958) və 7 avqust Müstəqilliyin elan olunduğu gün (1960). İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Məclis vasitəsilə həyata keçirilir.

**KUBA** - Karib dənizi hövzəsində yerləşən Kuba adasında və ona yaxın adalarda yerləşir. Ərazisinin sahəsi 114.524 kv.km, əhalisinin sayı isə 10.937.000 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Kuba Respublikasıdır. Dövlət quruluşu respublikadır, faktiki ölkədə avtoritar kommunist rejimi hökm sürür. Paytaxtı Havana şəhəridir. Kuba müstəqilliyini 1898-ci ildə İspaniyadan almışdır, lakin 20 may 1902-ci ilə qədər ölkə ABŞ-ın idarəsi altında yerləşmişdir. Milli bayramlar: 26 iyul Milli Qiyam günü (1953) və 1 yanvar Azadlıq günüdür. İcra hakimiyyəti Dövlət Şurasının sədrinə (dövlət başçısı) və Nazirlər Sovetinin



sədrinə (hökumət başçısı) məxsusdur. Dövlət və hökumətin aşçısı 1959-cu ildən hakimiyyətdə olan Fidel Kastro Rusdur. Qanunverici orqan birpalatalı parlament olan Milli Assambleyadır.

**KURYER VƏRƏQİ** - Diplomatik kuryerin statusunu müəyyən edən və diplomatik kuryerə göstərilən sayda yeri olan diplomatik poçtu sərhəddən keçirmək hüququ verən xüsusi sənəddir.

**KÜVEYT** - Asiya qitəsinin cənub-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 17.818 kv.km, əhalisinin sayı isə 1.817.397 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Küveyt Dövlətidir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı əl-Küveyt şəhəridir. Küveyt müstəqilliyini Böyük Britaniyadan 19 iyun 1961-ci ildə almışdır. Milli bayram 25 fevral Milli gündür. Dövlət başçısı əmirdir (əmir Şeyx Caber əl-Əhməd əl-Caber əs-Sabah 31 dekabr 1977-ci ildən hakimiyyətdədir), hökumətin başçısı isə varis şahzadə şeyx Saad əl-Abdulla əs-Salem əs-Sabahdır. Qanunverici hakimiyyət əmir və birpalatalı parlament olan Milli Məclis tərəfindən həyata keçirilir.

**KÜTLƏVİ QIRĞIN SİLAHLARI (KQS)** - Dağıdıcı gücü adi silahların dağıdıcı gücündən qat-qat çox olan silahlardır. İkinci Dünya müharibəsinin sonuna qədər yalnız 2 KQS mövcud idi: kimyəvi və bakterioloji (bioloji) silahlar. BMT BM-in 1948-ci ildə verdiyi təyinə görə KQS kateqoriyasına daha 2 silah: nüvə və radioloji silahlar, həmçinin, dağıdıcı gücü KQS-ı ilə müqayisə olan və ya üstün olan silahlar daxil edilmişdir.

KQS-nin qadağan edilməsi ilə bağlı ilk praktik addım müharibədə boğucu, zəhərləyici və ya başqa qaz və bakterioloji vasitələrin tətbiqinin qadağan edilməsi haqqında 1925-ci il Cenevrə protokolunun yekun sənədi oldu.

# Q

**QABON** - Mərkəzi Afrikanın qərbində yerləşən dövlətdir. Ərazisinin sahəsi 267.667 kv.km, əhalisinin sayı isə 1.115.749 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Qabon Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Librevil şəhəridir. Qabon 17 avqust 1960-cı ildə özünün müstəqilliyini əldə etmişdir. Bu vaxta qədər ölkə Fransanın müstəmləkəsi olmuşdur. Qanunvericilik Fransa ümumi hüququna əsaslanır. Milli bayram 17 avqust Müstəqillik günüdür. Dövlət başçısı prezidentdir. O, baş nazirin başçılığı ilə nazirlər kabinetini təyin edir. Parlament birpalatalıdır və Milli Məclis adlanır.

**QAÇQINLAR** - Hərbi əməliyyatların və yaxud fövqəladə vəziyyətin nəticəsində yaşadığı torpaqları tərk etmək məcburiyyətində qalan insanlardır. "Qaçqınlar" anlayışı beynəlxalq hüquqda Birinci Dünya müharibəsindən sonra meydana gəlmişdir.

BMT çərçivəsində BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığı fəaliyyət göstərir. 1951-ci ildə Cenevrədə bir neçə dövlət (Belçika, Danimarka, AFR, Fransa, Böyük Britaniya və b.) tərəfindən qaçqınların statusu haqqında konvensiya imzalanmışdı. Bu konvensiyaya görə zorla yerləri dəyişdirilən insanlar da qaçqınlar kateqoriyasına daxildir.

Hal-hazırda Azərbaycan Respublikası da qaçqınlar problemindən əziyyət çəkir. 1988-ci ildə Ermənistan Respublikasının Azərbaycana elan olunmamış müharibəsi nəticəsində iki yüz mindən çox azərbaycanlı Ermənistan ərazisindən, səkkiz yüz mindən çox azərbaycanlı isə Azərbaycanın Dağlıq Qarabağ hissəsindən və ona yaxın rayonlardakı torpaqlardan - öz ata-baba yurdlarından erməni hərbi birləşmələri tərəfindən qovulub çıxarılmışdır. Bu gün Yer kürəsində elə bir ölkə yoxdur ki, Azərbaycanda olan qaçqınların sayı qədər həmin ölkədə qaçqın olsun.

**QADINLARIN STATUSU KOMİSSİYASI** - BMT-nin İqtisadi və Sosial Şurasının qərarı ilə 21.06.1946-cı ildə yaradılmışdır. Komissiyanın tərkibinə 32 üzv-dövlətin nümayəndələri coğrafi nümayəndəlik üzrə 4 il müddətinə seçilir.



Komitənin məqsədi siyasi, iqtisadi və sosial sahələrdə dünyanın bütün ölkələrinin qadınlarının bərabərhüquqluluğunu təmin etməkdir. Komissiya BMT tərəfindən qəbul olunmuş aşağıdakı sənədlərin layihələrini hazırlamışdır: qadınların siyasi hüquqları haqqında 1953-cü il konvensiyası, ərli qadınların vətəndaşlığı haqqında 1957-ci il konvensiyası, qadınlara qarşı münasibətdə diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında 1980-ci il konvensiyası və s. Komissiyanın təşəbbüsü ilə 1975-80-ci illəri əhatə edən dövr "Qadın onilliyi" adlandırılmışdır. Komitənin ən böyük nailiyyəti Beynəlxalq Demokratik Qadınların Federasiyasının yaradılması olmuşdur.

**QAMBİYA** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 11.300 kv.km, əhalisinin sayı isə 990.000 nəfərdir (1995).

Ölkənin tam adı Qambiya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Ölkənin paytaxtı Bancul şəhəridir. Qambiya müstəqilliyini Böyük Britaniyadan 18 fevral 1965-ci ildə almışdır. 12 dekabr 1981-ci ildə Qambiya və Seneqal - Seneqambiya adlı azad konfederasiya yaratdıqları haqqında müqavilə imzalamışlar, lakin 1989-cu ildə müqavilə dayandırılmışdır. Milli bayram 18 fevral Müstəqillik günüdür. Bütün icra hakimiyyəti prezidentin əlində cəmləşmişdir.

**QANA** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 238.533 kv.km, əhalisinin sayı isə 17.763.138 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Qana Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Ölkənin paytaxtı Akrra şəhəridir. Qana müstəqilliyini Böyük Britaniyadan 6 mart 1957-ci ildə almışdır (əvvəlki adı Qızıl Sahil). Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Milli bayram 6 mart Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və hökumətə məxsusdur.

**QANLI YANVAR** (20 yanvar 1990-cı il) - 1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhəd-

lərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, DQMV-nin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi. SSRİ Ali Soveti Rəyasət Heyəti 12 yanvar 1989-cu ildə verdiyi fərmanla Muxtar Vilayətdə mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə Xüsusi İdarəetmə Komitəsi yaratdı və bu da faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSRİ-nin tərkibindən çıxarılması demək idi.

Mərkəzin Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar layqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb oldu. Xalqın bütün məsuliyyəti öz üzərinə götürərək ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı. 1988-ci ilin payızından başlayaraq mitinqlər, etiraz aksiyaları bütün Azərbaycanı bürüdü.

Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəl'adə vəziyyət e'lan edilmədən yeridildi, dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı, itkin düşdü. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri isə ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin



təcili yardım işçiləri və milis nəfərləri olmuşdur.

Qoşunlar yeridilərkən insan haqlarına dair bütün beynəlxalq sənədlər, o cümlədən insan hüquqları haqqında ümumi deklorasiya, vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq pakt, iqtisadi, sosial və mədəni haqlar barəsində beynəlxalq pakt, uşaq hüquqlarına dair IV Haaqa konvensiyası, əhalinin müdafiəsi haqqında Cenevrə konvensiyası, qadın və uşaqların fövqəladə şəraitdə müdafiəsi haqqında deklorasiyası və ən əsası Azərbaycan SSR-nin Konstitusiyası kobudcasına pozulmuşdu.

Azərbaycan xalqına qarşı edilmiş bu təcavüz mərhələ-mərhələ həyata keçirilmişdi; şəhərdə qarətlər nəticəsində təxribatlar aparılmış, əhalinin tərki-silah etmək bəhanəsilə faciə ərəfəsində hətta milis işçilərindən silahlar alınmış və s.

Yanvarın 19-da hərbi əməliyyatın növbəti mərhələsi kimi Azərbaycan televiziyasının enerji bloku partladılmış, respublika televiziyası və radiosunda verilişlər tamamilə kəsilmişdir. Faciə baş verən gündən isə digər kütləvi informasiya vasitələri fəaliyyətini dayandırmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdir.

Planlaşdırılmış bu cinayət əməliyyatını həyata keçirmək üçün keçmiş SSRİ müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin və başqa rütbəli hərbçilər Bakıya gəlmişdilər.

Keçmiş SSRİ Konstitusiyasının və Azərbaycan SSR Konstitusiyasının pozulması ilə qəbul edilmiş "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı və bu fərmanın fövqəladə vəziyyət tətbiq ediləndən və yüzlərlə insanın qanı axıdıldıqdan sonra elan edilməsi həmin hərbi-siyasi aksiyanın Sov. İKP və Sovet dövlətinin rəhbərliyi, şəxsən Mixail Qorbaçov tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayət və açıq təcavüz olunduğunu təsdiq edir.

**QARS MÜQAVİLƏSİ** - Türkiyə ilə keçmiş Sovet Respublikaları (Azərbaycan, Ermənistan və Gürcüstan) arasında RSFSR-in iştirakı ilə 13 oktyabr 1921-ci ildə imzalanıb. Müqaviləyə görə tərəflər arasında sərhəd xətti müəyyənləşdirilib və digər məsələlər öz həllini tapıb.

**QARŞILIQLILIQ PRİNSİPİ** - Dövlətlərarası münasibətlərin ümumqəbulolunmuş prinsipidir. Bu prinsipə görə, dövlətlər bir-

birilə münasibətlərini qarşılıqlı faydalı, bərabərhüquqlu əsaslarla qurmalıdırlar, belə ki, o biri tərəfin qanuni maraqları, xüsusilə də beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi məsələlərində maraqları nəzərə alınmalıdır. *Qarşılıqlılıq prinsipinə görə* dövlət başqa dövlət tərəfindən ona qarşı törədilmiş hər hansı aksiyalara cavab olaraq tədbir görə bilər (Aksiyanın xarakterindən asılı olaraq). Lakin cavab tədbirləri beynəlxalq hüquq normalarının və yaxud ümumqəbulolunmuş insanlıq normalarının pozulması ilə bağlı olarsa, qarşılıqlılıq prinsipinin tətbiqi yol verilməzdir.

**QAZAXSTAN** - Orta Asiyada yerləşir. Ərazisinin sahəsi 2.717.300 kv.km, əhalisinin sayı isə 17.376.615 nəfərdir (1995). Dövlət dili qazax dilidir.

Ölkənin tam adı Qazaxstan Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Astana şəhəridir. Sovet İttifaqı dağıldıqdan sonra 16 dekabr 1991-ci ildə Qazaxstan öz müstəqilliyini elan etmişdir və həmin gün Respublika günü kimi qeyd olunur. Dövlətin başçısı prezidentdir və o hökuməti təyin edir. Qanunverici orqan birpalatalı parlament olan Ali Sovetdir.

**QEYD-ŞƏRT** (beynəlxalq müqavilələr hüququnda) - Beynəlxalq müqavilənin imzalanması, ratifikasiyası, qəbul olunması və yaxud təsdiqi prosesində müqavilənin hansısa bir müddəasının çıxarılması və ya dəyişdirilməsi haqqında dövlətlərin birtərəfli rəsmi bəyanatıdır.

Qeyd-şərt müqavilənin obyekti və məqsədləri ilə uyğunluq təşkil etməlidir. Müqavilə iştirakçılarına edilmiş qeyd-şərt haqqında məlumat vermək, qeyd-şərtin ləğv edilməsi və ya qeyd-şərtə etiraz bildirilməsi müqavilənin depozitorisinin funksiyalarına daxildir. Elə çoxtərəfli müqavilələr məlumdur ki, qeyd-şərtin edilməsi qadağan edilir (müqavilənin özündə əks-olunur).

Qeyd-şərtin praktikası beynəlxalq müqavilələr hüququ haqqındakı 1969-cu il Vyana konvensiyasında öz əksini tapmışdır. Bu konvensiyaya görə, imzalanmaya çıxarılmış müqavilədə edilən qeyd-şərt müqavilənin yekun təsdiqində və ya ratifikasiyasında rəsmi təsdiq edilməlidir. Əks halda qeyd-şərt edilməmiş hesab olunur. Ratifikasiya zamanı edilən qeyd-şərt adətən, ya təsdiqnamənin özünə, ya təsdiqnamənin saxlanmağa verilməsi və ya mübadilə edilməsi haqqında protokola, ya da hər iki sənədə daxil edilir.



**QƏBUL EDƏN DÖVLƏT** - Diplomatik praktikada və beynəlxalq hüquqda qəbul edən dövlət dedikdə ərazisində beynəlxalq konfrans, toplantı, beynəlxalq təşkilatın orqanlarının sessiyası keçirilən, beynəlxalq təşkilatların mənzil-qərargahı və ya xarici dövlətlərin nümayəndəlikləri yerləşən dövlətə deyilir. "Qəbul edən dövlətlər" termini xüsusi missiyalar haqqındakı 1969-cu il Vyana konvensiyasında əks olunmuşdur (Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana konvensiyasında, həmçinin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətdə dövlət nümayəndəliyi haqqında 1975-ci il Vyana konvensiyasında). Beynəlxalq müqavilələrdə başqa terminlərdən də istifadə olunur məsələn, beynəlxalq konfransları və yaxud başqa beynəlxalq görüşləri keçirən dövlətlər "çağıran dövlətlər" də adlanır.

Qəbul edən dövlətlərin hüquq və vəzifələri uyğun olaraq müqavilə aktı ilə müəyyən olunur: çoxtərəfli məsələn, 1961-ci il və ya 1975-ci il Vyana konvesiyaları; ikitərəfli məsələn, İsveçrə Federal Şurası ilə Beynəlxalq Elektrorabitə İttifaqı (BEİ) arasında BEİ-nin İsveçrədə hüquqi statusu haqqında 1971-ci il müqaviləsi.

**QƏRBİ AFRİKANIN İQTİSADİ BİRLİYİ (QAİB)** - 1972-ci ildə yaranıb. Təşkilata 6 ölkə daxildir: Fil Sümüyü sahilləri, Burkina Faso, Mavritaniya, Mali, Niger, Seneqal. Benin və Toqo dövlətləri müşahidəçi statusuna malikdirlər.

QAİB-in ali orqanı dövlət başçılarının konfransıdır. İcraedici orqan Nazirlər Şurasıdır, daimi inzibati orqan isə Baş Katiblikdir. Baş Katibin mənzil-qərargahı Uaqaduqu (Burkina Faso) şəhərindədir.

QAİB-in əsas məqsədi sənaye, kənd təsərüfatı, transport və maliyyə sahələrində əməkdaşlıq etməklə üzv-dövlətlərin iqtisadi inkişafını təmin etməkdir. Əməkdaşlıq çərçivəsində birgə iqtisadi layihələrin işlənilməsi, gömrük tariflərinin və ticarət ödəmələrinin unifikasiyası (vahid şəklə salması) proqramı hazırlanır. 1978-ci ildə iştirakçı dövlətlər Həmrəylik Fondu yaratmışdırlar. Fondun məqsədi inkişafdan qalmış və dənizə çıxışı olmayan döv-

lətlərə yardım etməkdir.

QAİB dövlət başçılarının 1981-ci ilin dekabrında keçirilmiş konfransında süni suvarma (irriqasiya), seleksiya işləri, milli kadrların hazırlanması və s. sahələrdə birgə layihələrin həyata keçirilməsi haqqında qərar qəbul edilmişdir.

09.06.1977-ci ildə QAİB ölkələri, Benin və Toqo ölkələri silahlı basqın etməmək və müdafiə sahəsində birgə fəaliyyət göstərmək haqqında müqavilə bağladılar. 1981-ci ildə isə bu ölkələr tərəfindən "Müqavilənin tətbiq edilməsi haqqında Protokol" imzaladılar.

**QƏRBİ AFRİKA ÖLKƏLƏRİNİN İQTİSADİ BİRLİYİ (QAÖİB)** - 1975-ci ildə yaradılmışdır. Regionun 16 dövləti bu təşkilata daxildir: Benin, Fil Sümüyü sahilləri, Qambiya, Qana, Qvineya, Qvineya-Bisau, Burkina-Faso, Liberiya, Mali, Mavritaniya, Niger, Nigeriya, Yaşıl Burun Adaları Respublikası, Seneqal, Syerra Leone və Toqo. QAÖİB-in Ali orqanı dövlət başçılarının konfransı, icra orqanı Nazirlər Şurası, daimi inzibati orqanı Baş Katiblikdir. Daimi fəaliyyət yeri Laqosdur (Nigeriya).

**QƏRBİ SAXARA** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 266.000 kv.km, əhalisinin sayı isə 217.211 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Paytaxtı əl-Ayun şəhəridir. Hal-hazırda Qərbi Saxara ərazisinin hüquqi statusu və onun suverenliyi məsələsi hələ də müəyyən olunmamışdır. 1976-cı ilin fevral ayında İspaniya özünün müstəmləkə torpağı olan Qərbi Saxaranı Mərakeş və Mavritaniyanın müvəqqəti idarə üsuluna verməsi haqqında bəyanat verdi. Polisario cəbhəsi mərakeşlilərə və mavritaniyalılara qarşı silahlı mübarizəyə qalxdı və 27 fevral 1976-cı ildə Saxara Ərəb Demokratik Respublikasının (SƏDR) yaradıldığını elan etdi. 1979-cu ildə Mavritaniya Qərbi Saxaradakı iddialarından əl çəkdi. Polisario cəbhəsinin partiya fəaliyyəti 6 sentyabr 1991-ci ilə qədər davam etmişdir. Həmin gün BMT-nin köməyi ilə atəşin dayandırılması haqqında müqavilə imzalanmışdır. İcra hakimiyyəti prezidentə (Polisario cəbhəsinin Baş katibi) və hökumətə məxsusdur. Qanunverici hakimiyyət SƏDR-in Konstitusiyasına görə Saxara Milli Şurası vasitəsilə həyata keçirilir.



**QƏRBİ SAMOA** - Sakit okeandakı Samoa arxipelaqında yerləşən dövlətdir. Ərazisinin sahəsi 2.831 kv.km, əhalisinin syaı isə 209.360 nəfərdir (1995). Rəsmi dili samon və ingilis dilləridir.

Ölkənin adı Qərbi Samoa Müstəqil Dövlətidir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Apia şəhəridir. Ölkə müstəqilliyini Yeni Zelandiyadan 1 yanvar 1962-ci ildə əldə etmişdir. Qanunvericilik ingilis ümumi hüququna və yerli adətlərə əsaslanır. Milli bayram 1 iyul Müstəqillik günüdür (1962). İcra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici Assambleya birpalatalı parlamentdir.

**QƏTNAMƏ** (lat. rezolutio) - Beynəlxalq konfransların və ya beynəlxalq hökumətlərarası qurumların qəbul etdikləri qərarın bir növüdür; qaydaya görə tövsiyyə xarakteri daşıyır.

BMT-nin Nizamnaməsinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri BMT-nin Təhlükəsizlik Şurasının qərarlarına (qətnamələrinə) tabedirlər və onları yerinə yetirməyə borcludurlar.

**QƏTƏR** - Cənub-qərbi Asiyada, Qətər yarımadasında yerləşir. Ərazisinin sahəsi 11437 kv.km, əhalisinin sayı isə 533.916 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Qətər dövlətidir. Dövlət quruluşu mütləq monarxiyadır. Paytaxtı Doxa şəhəridir. Qətər 3 sentyabr 1971-ci ildə müstəqilliyini elan etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü kimi ölkədə bayram edilir. Dövlət başçısı əmirdir (əmir Xəlifə Ben Xamad əl-Tani ölkəni 22 fevral 1972-ci ildən idarə edir, hakimiyyətin varisi isə şahzadə Xamad Ben Xəlifə əl-Tanidir).

**QIRĞIZISTAN** - Mərkəzi Asiyanın şimal-şərqində yerləşir. Ərazisinin sahəsi 198.500. kv.km, əhalisinin sayı isə 4.769.877 nəfərdir (1995). Dövlət dili qırğız dilidir.

Ölkənin tam adı Qırğızıstan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Bişkek şəhəridir. Qırğızıstan müstəqilliyini SSRİ dağıldıqdan sonra 1991-ci ildə əldə etmişdir. 31 avqust Müstəqillik günü milli bayramdır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan birpalatalı parlamentdir.

**QİBRALTAR** - Piriney yarımadasının cənub hissəsində yerləşən və Böyük Britaniyanın asılı ərazisi statusuna malik olan ərazidir. Ərazisinin sahəsi 6,5 kv.km, əhalisinin sayı isə 31.874 nəfərdir (1995). Rəsmi dil ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Qibraltar şəhəridir. Dövlət başçısı qubernatorla təmsil olunan Britaniya monarxıdır. İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur.

**QLOBAL PROBLEMLƏR** - Meydana çıxması müasir dövrdə bir çox sosial - iqtisadi və elmi-texniki faktorların bütünlükdə ictimai həyata təsiri ilə şərtlənən mühüm problemlərdir. Bu problemlərin ən mühümü aşağıdakılardır: nüvə fəlakətini və silahlanmanı aradan qaldırmaq və sülhü qorumaq, sosial ədalətsizliyin - aclıq, fəlakət və yoxsulluğun ləğvi üçün şəraitin yaradılması, demoqrafik artımla istehsal gücünün dinamik inkişafı arasındakı əlverişli münasibətin təmini, Yer kürəsinin əhalisinin enerji və ərzaqla təmini, dünya okeanının resurslarından səmərəli istifadə edilməsi və kosmik fəzanın mənimsənilməsi, ətraf mühitin mühafizəsi, insanın fiziki və psixoloji simasının, həmçinin sağlamlığının neqativ dəyişilməsinə olan təhlükənin aradan qaldırılması. Qlobal problemlərin həll edilməməsi insanlıq üçün böyük təhlükədir. Bu problemlər təkcə insan həyatını pisləşdirmir, həmçinin Yer sivilizasiyasının məhvinə aparır.

**QOŞULMAMAQ SİYASƏTİ** - İkinci Dünya müharibəsindən sonra sülh, təhlükəsizlik *və hərbi ittifaq və qruplaşmalardan* kənar beynəlxalq münasibətlərdə bərabərhüquqlu iştirak naminə dünyanın əksər dövlətlərinin seçdiyi xarici-siyasi kursdur.

C. Nehrunun irəli sürdüyü bu konsepsiyanın həyata keçməsinin əsasını müstəqil Hindistan qoydu. Azad olmuş ölkələr tərəfindən çox sürətlə qəbul olunan "qoşulmamaq siyasəti" "qoşulmamaq hərəkatını" inkişaf etdirdi. Bu hərəkatın ali forumlarının sənədlərində qoşulmamaq siyasəti dövlətlərin dinc yanaşı yaşamasının təmin edilməsinə və milli-azadlıq hərəkatlarının ardıcıl müdafiəsinə yönəlmiş müstəqil siyasət kimi müəyyən olunur. Qoşulmamaq siyasəti ölkələrin çoxtərəfli hərbi ittifaqlarda iştirak etməməsini nəzərdə tutur. Əgər dövlət hansısa bir qüdrətli



dövlətlə ikitərəfli hərbi müqaviləyə və yaxud regional müdafiə paktına malikdirsə, bu müqavilə və yaxud pakt dövlətlərin ərazisində xarici hərbi bazaların yerləşdirilməsi faktına bərabərdir.

**QRENADA** - Karib dənizi hövzəsində yerləşən dövlətdir. Dövlətin ərazisi Qrenada adalarını, bir neçə Cənubi Qrenada arxipelaqı adalarını, həmçinin Kiçik Antil adalarını əhatə edir. Ərazisinin sahəsi 344 kv.km, əhalisinin sayı isə 94.486 nəfərdir (1995). Rəsmi dil ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Qrenada Britaniya Birliyinin üzvüdür. Ölkənin paytaxtı Sent-Corces şəhəridir. Qrenada müstəqilliyini 7 fevral 1974-cü ildə Böyük Britaniyadan almışdır. Ölkənin 2 milli bayramı vardır: 7 fevral Müstəqillik günü və 13 mart İnqilab günü (1979). Dövlət başçısı general-qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır, icra hakimiyyəti isə baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunvericilik hakimiyyəti Senatdan və Nümayəndələr palatasından təşkil olunmuş ikipalatalı parlament həyata keçirir.

**QRENLANDİYA** - Qrenlandiya adasında yerləşən dövlətdir, Danimarkanın özünüidarəetmə hüququna malik olan ərazisidir. Ərazisinin sahəsi 2.175.600 kv.km, əhalisinin sayı isə 57.611 nəfərdir (1995). Qrenlandiya dünyanın ən böyük adasıdır və ərazisinin 80%-dən çoxu buzla örtülmüşdür. Dövlət dili danimarka dilidir.

Dövlət quruluşu Danimarka Krallığının tərkibində özünüidarəetmə hüququna malik ərazidir. Paytaxtı Nuuk (keçmiş Qotxob) şəhəridir. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Danimarka monarxıdır. İcra hakimiyyəti özünüidarəetmə hökumətinə məxsusdur. Qrenlandiyanın özünün Landstkinq adlanan parlamenti vardır.

**QVATEMALA** - Mərkəzi Amerika dövlətidir. Ölkənin ərazisinin sahəsi 108.889 kv.km, əhalisinin sayı isə 10.998.602 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Qvatemala Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Qvatemala şəhəridir. Qvatemala müstəqilliyini 15 sentyabr 1821-ci ildə İspaniyadan almışdır. Həmin gün milli bayram kimi qeyd olunur. Dövlət baş-

çısı prezidentdir və o, hökuməti təyin edir. Qanunverici hökumət birpalatalı parlament olan Milli Konqres vasitəsilə təmsil olunur.

**QVİNEYA** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 245.857 kv.km, əhalisinin sayı isə 6.549.336 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Qvineya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Kakri şəhəridir. Qvineya müstəqilliyini 2 oktyabr 1958-ci ildə Fransadan almışdır (əvvəlki adı Fransız Qvineyası). Ölkənin 2 milli bayramı vardır: 2 oktyabr Müstəqillik günü və 3 aprel Respublikanın elan edildiyi gün (1984). Dövlət başçısı prezidentdir.

**QVİNEYA-BİSAU** - Afrikanın şimal-qərb hissəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi 36.125 kv.km, əhalisinin sayı isə 1.124.537 nəfərdir (1995). Dövlət dili portuqaliya dilidir.

Ölkənin tam adı Qvineya-Bisau Respublikasıdır. Dövlət quruluşu - respublikadır. Paytaxtı Bisau şəhəridir. Qvineya-Bisau müstəqilliyini 24 sentyabr 1973-cü ildə Portuqaliyadan almışdır (əvvəlki adı Portuqaliya Qvineyası). Milli bayram 24 sentyabr Müstəqilliyin elan olunduğu gündür. İcra hakimiyyəti Dövlət Şurasının sədrinə, Dövlət Şurasının vitse-prezidentinə və Nazirlər Şurasına məxsusdur. Qanunverici hakimiyyəti birpalatalı parlament olan Milli Xalq Məclisi və Dövlət Şurası həyata keçirir.



# L

**LAOS** - Cənub-şərqi Asiyada yerləşir. Ərazisinin sahəsi 236.800 kv.km, əhalisinin sayı isə 4.837.237 (1995) nəfərdir. Dövlət dili laos dilidir.

Ölkənin tam adı Laos Xalq Demokratik Respublikasıdır (LXDR). Dövlət quruluşu respublikadır. Paytaxtı Vyetyan şəhəridir. Laos 1953-cü ilin oktyabr ayında müstəqilliyini əldə etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Milli bayram 2 dekabr LXDR-in elan olunduğu gündür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur.

**LATIN AMERİKASI AZAD TİCARƏT ASSOSİASİYASI (LATA)** - regional iqtisadi-ticarət təşkilatıdır. Argentina, Braziliya, Meksika, Paraqvay, Peru və Çili tərəfindən 18.02.1960-cı ildə imzalanmış və 02.06.1961-ci ildə qüvvəyə minmiş Montevideo müqaviləsinə uyğun olaraq yaradılmışdır. Müqaviləyə sonralar Kolumbiya, Ekvador, Venesuela və Boliviya qoşulmuşdur.

LATA-nın məqsədi gömrük rüsumlarının ödənilməsini tədricən ləğv etməklə və zonadaxili mal dövriyyəsini nizamlayan tədbirləri görməklə Latın Amerikasında azad ticarət zonası yaratmaqdır.

Müqavilə malların gömrük rüsumlarının və başqa vergilərin ildə 8%- ə qədər azaldılmasını və 1973-cü ilin ortalarına qədər qarşılıqlı ticarətin əsas hissəsini ödənişsiz həyata keçirməsini nəzərdə tutur.

LATA ölkələrinin sosial-iqtisadi və siyasi inkişaflarının fərqliliyi və xarici kapitalın bu ölkələrin iqtisadiyyatında oynadığı mühüm rolu LATA-nın fəaliyyətində çox ciddi çətinliklər yaratdı. Ödənişsiz malların ümumi siyahısının hazırlanması işində fikir ayrılığının olması LATA daxilində subregional qrupların formalaşmasına səbəb oldu (La-Plat qrupu, And qrupu, Amazon qrupu).

Latın Amerikasının inteqrasiya imkanlarını genişləndirməyə cəhd etmək məqsədi ilə, LATA-nın iştirakçıları 1980-ci ildə bu təşkilatın nəzdində LİA (Latın Amerikası İnteqrasiya Assosiasiyası) təsis etməyi qərara aldılar.

**LATIN AMERİKASI İNTEQRASİYA ASSOSİASİYASI (LİA)** - regional iqtisadi təşkilatdır. 12.08.80-ci ildə Argentina, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika, Paraqvay, Peru, Uruqvay, Çili və Ekvador tərəfindən imzalanmış və 18.03.81-ci ildə qüvvəyə minmiş Montevideo müqaviləsinə görə, Latın Amerikası Azad Ticarət Assosiasiyasının (LATA) bazasında yaradılmışdır. Müqaviləyə görə, LİA LATA-nın hüquqi varisidir.

LİA-nın məqsədi Latın Amerikasının ümumxalq bazarını qarşılıqlı ticarət və iqtisadi əməkdaşlığının inkişafını nizamlamaq yolu ilə tədricən formalaşdırmaqdır. Müqavilə üzv dövlətlərin içərisində aşağı səviyyəli iqtisadi inkişafa malik olan dövlətlərə köməyi nəzərdə tutur, həmçinin LİA-nın üzv dövlətlərinin başqa ölkələrlə və başqa iqtisadi inteqrasiya zonaları ilə əməkdaşlıq prinsiplərini nəzərdə tutur.

LİA-nın rəhbər orqanı Xarici İşlər Nazirləri Şurasıdır.

LİA-nın mənzil-qərargahı Montevideodadır (Uruqvay).

**LATVİYA** - Baltik dənizinin sahillərində yerləşir. Ərazisinin sahəsi 63.700 kv.km, əhalisinin sayı isə 2. 762.899 nəfərdir (1995). Dövlət dili latış dilidir.

Ölkənin tam adı Latviya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Riqa şəhəridir. Latviya müstəqilliyini 21 avqust 1991-ci ildə elan etmişdir (əvvəllər SSRİ-nin tərkibində olmuşdur). Milli bayram 18 noyabr Latviya Respublikasının elan olunduğu gündür (1918). İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Seymdir.

**LESOTTO** - Afrikanın cənubunda yerləşir. Ərazisinin sahəsi 30.355 kv.km, əhalisinin sayı isə 1.992.960 nəfərdir (1995). Dövlət dili ingilis və sesuto dilləridir.

Ölkənin tam adı Lesotto Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Maseru şəhəridir. Lesotto Krallığı müstəqilliyini 4 oktyabr 1960-cı ildə əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü ölkədə bayram kimi qeyd olunur. Dövlət başçısı kraldır (kral XX Moşeş ölkəni 1995-ci ildən idarə edir). İcra hakimiyyəti Hərbi Şuraya və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət Hərbi Şura və birpalatalı parlament olan Milli Konstitusiya Assambleyası tərəfindən həyata keçirilir.



**LİBERİYA** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 111.370. kv.km, əhalisinin sayı isə 3.073.245 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Liberiya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Monroviya şəhəridir. Liberiya müstəqilliyini 26 iyul 1847-ci ildə əldə etmişdir. 26 iyul Müstəqillik günü kimi qeyd edilir. Ölkədə ikili sistemli qanunvericilik fəaliyyət göstərir: Amerika ümumi hüququna əsaslanmış qanunvericilik və yerli qəbilələrin ümumqəbulolunmuş qanunlarına əsaslanmış qanunvericilik. Bütün icra hakimiyyəti və qanunverici hakimiyyət Dövlət Şurasına məxsusdur. Dövlət Şurasına isə Şuranın sədri rəhbərlik edir.

**LİXTEYNŞTEYN** - Mərkəzi Avropa dövlətidir. Ərazisinin sahəsi 157 kv.km, əhalisinin sayı isə 30.654 nəfərdir (1995). Dövlət dili alman dilidir.

Ölkənin tam adı Lixteynşteyn Knyazlığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Vadust şəhəridir. Lixteynşteyn 1866-cı ildə müstəqilliyini əldə etmişdir. Milli bayram 14 fevral - XX Hans Adam fon Lixteynşteynin doğulduğu gündür. Dövlət başçısı knyazdır (knyaz XX Hans Adam fon Lixteynşteyn 1990-cı ildə hakimiyyətə gəlmişdir, lakin faktiki olaraq ölkəni 1984-cü ildən idarə edir). İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət knyaz və parlament - Landtaq vasitəsilə həyata keçirilir.

**LİTVA** - Avropanın Baltik sahillərində yerləşir. Ərazisinin sahəsi 65.200 km.km, əhalisinin sayı isə 3.876.396 nəfərdir (1995). Dövlət dili litva dilidir.

Ölkənin tam adı Litva Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Vilnüs şəhəridir. Litva müstəqilliyini SSRİ dağıldıqdan sonra 6 sentyabr 1991-ci ildə əldə etmişdir. Milli bayram 16 fevral Litva dövlətinin bərpası günüdür (1918). İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan birpalatalı parlamentdir.

**LİVAN** - Cənub-qərbi Asiyada yerləşir. Ərazisinin sahəsi

10.400 kv.km, əhalisinin sayı isə 3.695.921 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Livan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Beyrut şəhəridir. Livan 22 noyabr 1943-cü ildə rəsmi olaraq müstəqilliyini elan etməsinə baxmayaraq, Fransanın qoşunları ölkənin ərazisində 1946-cı ilə qədər qalmışdır. Milli bayram 22 noyabr Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və Nazirlər Kabinetinə rəhbərlik edən baş nazirin əlində cəmlənmişdir. Ölkənin konstitusiyasına görə, prezident yalnız maronist-xristian olmalıdır, baş nazir isə sünni-müsəlman olmalıdır. Qanunverici hakimiyyət Deputatlar palatası adlanan birpalatalı parlament vasitəsilə həyata keçirilir.

**LİVİYA** - Şimali Afrikada yerləşir. Ərazisinin sahəsi 1.759.540 kv.km, əhalisinin sayı isə 5.248.401 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Liviya Sosialist Xalq Cümhuriyyətidir. Dövlət quruluşu respublikadır (xalq hakimiyyəti). Paytaxtı Tripoli şəhəridir. Liviya müstəqilliyini İtaliyadan 24 dekabr 1951-ci ildə almışdır. Qanunvericilik Italiya mülki hüququna və islam qanunlarına əsaslanır. Milli bayram 1 sentyabr İnqilab günüdür (1969). Dövlət və hökumət başçısı Liviya inqilabının lideri Müəmmar Qəddafidir (1969-cu ilin sentyabrından hakimiyyətdədir). Qanunverici orqan Ümumxalq Konqresidir.

**LÜKSEMBURQ** - Qərbi Avropa dövlətidir. Ərazisinin sahəsi 2.587 kv.km, əhalisinin sayı isə 387.000 nəfərdir (1995). Dövlət dili alman və fransız dilləridir.

Ölkənin tam adı Böyük Lüksemburq Hersoqluğudur. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Lüksemburq şəhəridir. Lüksemburq 1839-cu ildə müstəqil dövlət olmuşdur. 1867-ci ildə isə keçirilən Lüksemburq konfransı Lüksemburqu müstəqil və neytral dövlət elan etmişdir. Milli bayram 23 iyun Böyük Lüksemburq Hersoqu Janın (12 noyabr 1964-cü ildən hakimiyyətdədir) doğulduğu gündür. Dövlət başçısı Böyük Lüksemburq Hersoqudur. Qanunverici hakimiyyət Böyük Lüksemburq Hersoqu və parlament olan Deputatlar palatası vasitəsilə həyata keçirilir.



# M

**MACARISTAN** - Mərkəzi Avropa ölkəsidir. Ərazisinin sahəsi 93.030 kv.km, əhalisinin sayı isə 10.318.33 nəfərdir (1995). Dövlət dili macar dilidir.

Ölkənin adı Macarıstan Respublikasıdır. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Budapeşt şəhəridir. Macarıstan 17 noyabr 1918-ci ildə Avstriya-Macarıstan imperiyası dağıdıldıqdan sonra müstəqillik əldə etmişdir. Milli bayramlar: 20 avqust Macar dövlətinin əsasını qoymuş Müqəddəs İştvan günü, 15 mart 1848-49-cu illər inqilabının başlandığı gün, 23 oktyabr Macarıstan Respublikasını elan olunduğu gün. İcra hakimiyyəti prezidentə və baş nazirə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Dövlət Məclisidir.

**MADAQASKAR** - Hind okeanının cənub-qərbindəki Madaqaskar adasında yerləşir. Ərazisinin sahəsi 587.041 kv.km, əhalisinin sayı isə 13.862.325 nəfərdir (1995). Dövlət dilləri malaqas və fransız dilləridir.

Ölkənin tam adı Madaqaskar Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Antananarivu şəhəridir. Madaqaskar müstəqilliyini 26 iyun 1960-cı ildə elan etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Bu gün müstəqilliyin elan olunduğu gün kimi bayram edilir. Qanunvericilik fransa mülki hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (Nazirlər Şurasının sədri) məxsusdur. Qanunverici orqan Senatdan (yuxarı palata) və Milli Məclisdən (aşağı palata) ibarət olan ikipalatalı parlamentdir.

**MAHMUD ƏHMƏD OĞLU MƏMMƏDQULİYEV** - 15.02.1949-cu ildə doğulmuşdur. 1972-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1972-1992-ci illərdə hüquq-mühafizə orqanlarında müxtəlif vəzifələrdə işləmişdir. 1993-cü ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini və Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifələrinə təyin olunmuşdur. 1995-2000-ci illərdə Milli Məclisin üzvü seçilmişdir. 1996-cı

ildə isə əlavə olaraq, Azərbaycan Respublikasının Norveç, İsveç və Danimarka Krallıqlarındakı səfiri təyin edilmişdir.

Fövqəladə və Səlahiyyətli Səfir diplomatik ranqına malikdir.

**MAJORİTAR SİSTEM** (fr. Mayorie - çoxluq) - Mərkəzi yerli nümayəndəli orqanlar, prezident və başqa vəzifəli şəxslər seçildikdə səsvermənin nəticələrini müəyyənetmə sistemidir. Majoritar sistemə görə qanunla müəyyən edilmiş səs çoxluğunu qazanmış namizəd (namizədlərin siyahısı) həmin seçki dairəsindən seçilmiş hesab olunur.

Majoritar sistemin 3 növü tətbiq edilir:

1. Mütləq səs çoxluğunun majoritar sisteminə görə həmin seçki dairəsindən verilmiş və etibarlı sayılmış səslərin ümumi sayına nisbətdə mütləq (yaxud sadə) səs çoxluğunu (yəni yarıdan çox səsləri - 50%+ bir səs) qazanmış şəxs qalib gəlmiş sayılır. Bu sistemə uyğun olaraq səsvermə, bir qayda olaraq, iki mərhələdə (turda) keçirilir, həm də ikinci mərhələdə səslər başqa sistemlə hesablanır.

2. Nisbi çoxluğun majoritar sisteminə uyğun olaraq qalib gələn namizəd öz rəqiblərinin hər birinin ayrılıqda yığdığı səslərdən çox səs yığmalıdır.

3. İxtisaslı çoxluğun majoritar sisteminə uyğun olaraq namizəd əvvəlcədən müəyyən edilmiş səs çoxluğunu (səslərin yarısından çoxunu, 3/4, 2/3, 4/5 və s.) qazanmalıdır. Seçki dairəsindən seçilən deputatların sayından asılı olaraq nominal, yaxud birmandatlı (hər dairədən bir deputat) majoritar və poliminal, yaxud çoxmandatlı (hər dairədən bir neçə deputat) majoritar sistemi fərqləndirilir.

**MAKEDONİYA** - Avropanın cənub-şərqində Balkan yarımadasında yerləşir. Ərazisinin sahəsi 25.713 kv.km, əhalisinin sayı isə 2.159.503 nəfərdir (1995). Ölkənin tam adı Makedoniya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Skopye şəhəridir. Makedoniya müstəqilliyini 20 noyabr 1991-ci ildə Yuqoslaviyadan əldə etmişdir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Assambleyadır.



**MALAVİ** - Afrikanın cənub-şərqində yerləşir. Ərazisinin sahəsi 118.484 kv.km, əhalisinin sayı isə 11.100.000 nəfərdir (1995). Dövlət dilləri ingilis və çiçeva dilləridir.

Ölkənin tam adı Malavi Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Lilonqve şəhəridir. 1964-cü ilin iyununda Malavi müstəqilliyini elan etmiş (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuş və Nyasalend adlanmışdır), 1966-cı ildən isə Malavi Respublikası adlanır. 6 iyul Müstəqillik günü kimi bayram edilir. Prezident dövlətin və hökumətin başçısıdır. Qanunverici orqan birpalatalı parlament olan Milli Assambleyadır.

**MALAYZİYA** - Cənub-şərqi Asiyada, Malakka yarımadasının cənubunda və Klimantan adasının şimalında yerləşir. Ərazisinin sahəsi 332.800 kv. km, əhalisinin sayı isə 20.100.000 nəfərdir (1995). Dövlət dili malay dilidir.

Ölkənin tam adı Malayziyadır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Kuala-Lumpur şəhəridir. Malayziya müstəqilliyini 31 avqust 1957-ci ildə əldə etmişdir. 31 avqust Malayziyanın Milli günü kimi qeyd edilir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Dövlətin ali başçısı olan kral, əsas etibarilə dövlətin təmsilçilik funksiyasını yerinə yetirir. Cəfər ibn Əbdür-Rəhman 26 aprel 1994-cü ildən hakimiyyətdədir. Qanunverici orqan Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı palata) ibarət olan ikipalatalı parlamentdir.

**MALİ** - Qərbi Afrikada yerləşir. Ərazisinin sahəsi 1.240.142 kv.km, əhalisinin sayı isə 9.375.132 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Mali Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Bamako şəhəridir. Ölkə müstəqilliyini 22 sentyabr 1960-cı ildə Fransadan əldə etmişdir (əvvəlki adı Fransız Sudanı). Həmin gün Müstəqillik günü kimi qeyd edilir. Qanunvericilik Fransa mülki hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan

Milli Məclisdir.

**MALDİVLƏR** - Asiyanın cənubunda, Hind okeanının şimalındakı 2000-dən çox adanı əhatə edir. Ərazisinin sahəsi 298 kv.km, əhalisinin sayı isə 261.310 nəfərdir (1995). Dövlət dili maldiv dilidir. Ölkənin tam adı Maldiv Respublikasıdır.

Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Male şəhəridir. Maldivlər 26 iyul 1965-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi idi), 1968-ci ildə isə referendum yolu ilə Maldivlər respublika elan olunmuşdur. 26 iyul Müstəqillik günü milli bayramdır. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan birpalatalı parlament olan Məclisdir.

**MALTA** - Avropanın cənubunda Aralıq dənizinin Malta, Qotsa, Kominotto, Komino və Filfa adalarında yerləşir. Ərazisinin sahəsi 316 kv.km, əhalisinin sayı isə 400.000 nəfərdir (1995). Ölkədə iki rəsmi dil vardır: malta və ingilis dilləri.

Ölkənin tam adı Malta Respublikasıdır. Paytaxtı Valetta şəhəridir. Malta müstəqilliyini Böyük Britaniyadan 21 sentyabr 1964-cü ildə əldə etmişdir, lakin 1979-cu ilə qədər Britaniya qoşunları ölkənin ərazisində qalmışdır. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Milli bayramlar: 21 sentyabr Müstəqillik günü, 13 dekabr Respublika günü, 8 sentyabr Qələbə günü, 31 mart Azadlıq günü, 7 iyun əzabkeşlər günü. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur.

**MARŞAL ADALARI** - Sakit okeanın şimalındakı Marşal arxipelaqında yerləşir. Ərazisinin sahəsi 181,3 kv.km, əhalisinin sayı isə 53.000 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Marşal Adaları Respublikasıdır. Dövlət quruluşu prezidentli Respublikadır. Paytaxtı Macuro şəhəridir. Marşal adaları 21 oktyabr 1991-ci ildə müstəqillik əldə etmişdir. 1 may - Marşal Adaları Respublikasının elan olunduğu gün milli bayram kimi qeyd olunur. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan ikipalatalı (Niticela - yuxarı palata İroic Şurası - aşağı palata parlamentdir).

**MART QIRĞINI (1918-ci il)** - bax. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti və diplomatik əlaqələri (1918-1920).



**MAVRİKİ** - Hind okeanının qərb hissəsindəki adalarda yerləşir. Ərazisinin sahəsi 2.040. kv.km, əhalisinin sayı isə 1.127.068 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Mavriki Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Port-Lui şəhəridir. Mavriki 12 mart 1992-ci ildə Britaniya Birliyi daxilində müstəqilliyini əldə etmişdir. Dövlət başçısı 12 mart 1992-ci ilə qədər formal olaraq qubernator vasitəsilə təmsil olunan Britaniya kraliçası olmuşdur, həmin tarixdən rəsmi olaraq ölkədə respublika üsul-idarəsinin tətbiq olunması elan edilmişdir. Martın 12-də respublikada iki milli bayram qeyd edilir - Müstəqillik günü və Respublika günü. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və hökumətə rəhbərlik edən baş nazirin əlində cəmlənmişdir. Qanunverici orqan birpalatalı parlament olan Milli Məclisidir.

**MAVRİTANİYA** - Afrikanın şimal-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 1.030.700 kv.km, əhalisinin sayı isə 2.263.202 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Mavritaniya İslam Respublikasıdır. Paytaxtı Nuakşot şəhəridir. Mavritaniya tam müstəqilliyini 28 noyabr 1960-cı ildə əldə etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü kimi qeyd edilir. Qanunvericilik islam qanunlarına - şəriətə əsaslanır. Prezident dövlətin və hökumətin başçısıdır. Qanunverici orqan olan parlament Senatdan (yuxarı palata) və Milli Məclisdən (aşağı palata) ibarətdir.

**MEKSİKA** - Şimali Amerikada yerləşir. Ərazisinin sahəsi 1.958.200 kv.km, əhalisinin sayı isə 93.985.848 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Meksika Birləşmiş Ştatlarıdır (31). Paytaxtı Mexiko şəhəridir. Meksika müstəqilliyini 16 sentyabr 1810-cu ildə əldə etmişdir. Həmin gün müstəqilliyin elan olunması günü kimi qeyd olunur. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Deputatlar palatası - aşağı palata) parlament olan Milli Konqresdir.

**MEMORANDUM** - Diplomatik sənəd növüdür. Memoran-

dumun fərqləndirici cəhəti hansısa məsələnin faktiki və yaxud hüquqi tərəfinin müfəssəl verilməsidir.

Memorandum diplomatik notaya əlavə oluna da bilər. Memorandum ayrıca bir sənəd kimi xarici işlər idarəsinin və yaxud xarici təşkilatın nota blankına yazılır, müraciət və komplimentə malik olur, mətnin altında göndərilən yer və tarix qoyulur, möhür vurulur. Nota ilə birlikdə göndərilən memorandum nota kağızında (blankında yox) çap olunur. Bu halda yer və tarix yazılır, möhür vurulur.

**MƏĞRİB BİRLİYİ** - Məğrib Şimali Afrikanın Liviya, Tunis, Əlcəzair, Mərakeş və Mavritaniya ölkələrinin ərazilərini birləşdirən hissənin adıdır. Coğrafi vəziyyətin, dilin, dinin, tarixin və mədəniyyətin birliyi bu ölkələrin əhalisinin milli azadlıq mübarizəsi məqsədi ilə birgə çıxış etməyə istiqamətləndirmişdir. 1958-ci ildə İstiqlal (Mərakeş), Milli Azadlıq Cəbhəsi (Əlcəzair) və Yeni Dustur (Tunis) partiyalarının konfransında Əlcəzair, Mərakeş və Tunisin "Vahid Məğrib" adı altında birliyinə nail olmaq haqqında qərar qəbul olundu. 1964-cü ildə Əlcəzair, Liviya, Mərakeş və Tunisin sənayesinin inkişafı üzrə koordinasiya bürosu, ticarət və sənayenin bir çox sahələri üzrə bir çox ümumməğrib komissiyaları yaradıldı, Məğrib ölkələrinin iqtisadiyyat nazirliklərinin 1-ci konfransında iqtisadi koordinasiya proqramı işlənib hazırlanmışdır.

70-ci illərin əvvəllərində Şimali Afrikanın bəzi ölkələri arasındakı mübahisəli məsələlərin həlli haqqında bir çox ikitərəfli müqavilələr imzalandıqdan sonra Məğrib birliyi uğrunda hərəkat aktivləşdi, lakin bu ölkələrin siyasi, iqtisadi, sosial sistemlərinin müxtəlifliyi ucbatından onların siyasi birliyi baş tutmadı. Əldə olunan birlik Qərbi Saxara məsələsinin nizama salınmasına və Məğrib ölkələrinin ayrılıqda qalmasında maraqlı olan Qərbin böyük dövlətlərinin apardığı siyasətə mane olurdu.

1983-cü ildə Əlcəzairin rəhbərliyi Şimali Afrika ölkələri arasındakı münasibətlərin inkişafı və normallaşdırılması və regionda münaqişəli vəziyyətlərin nizama salınması haqqında yeni təkliflə çıxış etmişdir. Həmin il Əlcəzair, Tunis, Mərakeş və Mavritaniyanın dövlət rəhbərlərinin bir sıra görüşləri keçirilmişdi.



1983-cü ilin mart ayında Dostluq haqqında Əlcəzair-Tunis müqaviləsi imzalandı və regionun başqa dövlətlərinin də bu müqaviləyə qoşulması üçün müqavilə açıq qaldı. Dekabr ayında isə Mavritaniya bu müqaviləyə qoşuldu. 1984-cü ildə isə Mərakeşlə Liviya arasında dövlət ittifaqı haqqında müqavilə imzalanmışdır.

**MƏRAKEŞ** - Afrikanın şimal-qərbində yerləşir. Ərazisinin sahəsi 446.550 kv.km, əhalisinin sayı isə 29.168.848 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Mərakeş Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Rabat şəhəridir. Mərakeş 2 mart 1956-cı ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Qanunvericilik islam hüququna, fransız və ispan mülki hüququna əsaslanır. Dövlət başçısı kraldır. 3 mart Tac günü milli bayram kimi qeyd olunur. Qanunverici orqan birpalatalı parlament olan Nümayəndələr palatasıdır.

**MƏRKƏZİ AFRİKA RESPUBLİKASI** - Afrikanın mərkəzində yerləşir. Ərazisinin sahəsi 622.436 kv.km, əhalisinin sayı isə 3.209.700 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Banqi şəhəridir. Ölkə müstəqilliyini Fransadan 13 avqust 1960-cı ildə əldə etmişdir. Qanunvericilik fransız hüququna əsaslanır. Dövlət başçısı prezidentdir və o baş naziri təyin edir. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**MƏRKƏZİ AMERİKA DÖVLƏTLƏRİ TƏŞKİLATI (MADT)** - ABŞ-ın təşəbbüsü ilə 1951-ci ildə yaradılmış regional hərbi-siyasi blokdur. Bloka Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua və Salvador kimi dövlətlər daxil olub.

1960-70-ci illərdə bloka daxil olan dövlətlər arasındakı dərin fikir ayrılıqları MADT-da böhran vəziyyətinin yaranmasına səbəb olmuşdur. 1967-ci ildə Kosta-Rika, 1971-ci ildə Honduras blokun tərkibindən çıxmışdır. 70-ci illərin ortalarında blokun fəaliyyəti praktik olaraq dayanmışdır. 1983-cü ildə ABŞ-ın Cənub hərbi dairəsinin komandanlığının iştirakı ilə Salvador, Honduras, Qvatemala və Panama dövlətlərinin müdafiə nazirlərinin Qvatemalada görüşü keçirilmiş və MADT-ın yenidən fəaliyyət gös-

tərilməsinə cəhd edilmişdi. Lakin bu cəhd heç bir nəticə verməmişdir.

**MƏTBUAT KONFRANSI** - Rəsmi şəxslərin, siyasi və ictimai xadimlərin, elm və mədəniyyət nümayəndələrinin həm milli, həm də xarici ölkələrin kütləvi informasiya vasitələrinin müxbirləri ilə, dəvət olunmuş jurnalistlərlə ictimaiyyətin marağına səbəb olmuş mövzu ətrafında apardıqları söhbət, tematik görüşdür.

**MİKRONEZİYA** - Sakit okeanın qərb hissəsində yerləşən Karolin adalarını əhatə edir. Ərazisinin sahəsi 702 kv.km, əhalisinin sayı isə 122.950 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Mikroneziya Federativ Ştatlarıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Palikir şəhəridir. Mikroneziya 17 sentyabr 1991-ci ildə müstəqil olmuşdur. Prezident dövlətin və hökumətin başçısıdır. Qanunverici hakimiyyət birpalatalı federal parlament olan Milli Konqres vasitəsilə təmsil olunur.

**MİLLƏTLƏR LİQASI** - Birinci və Ikinci Dünya müharibələrinin arasındakı dövrdə fəaliyyət göstərən beynəlxalq hökumətlərarası təşkilatdır. Millətlər Liqasının Nizamnaməsinə görə təşkilatın yaradıcıları Almaniyaya qarşı müharibədə iştirak etmiş dövlətlərdir. Başlanğıc olaraq Millətlər Liqasının statutunu 1919-cu il Versal sülh müqaviləsinin tərkib hissəsi kimi 44 ölkə (onlardan 31-i Antanta bloku tərəfindən çıxış etmiş, 13-ü isə müharibədə iştirak etməyən dövlətlər) imzalamışdır. ABŞ müqaviləni ratifikasiya etməmiş, Millətlər Liqasının üzvləri sırasına daxil olmamışdır.

Millətlər Liqasının əsas orqanları təşkilatın bütün üzvlərinin iştirak etdiyi Məclis, 4 daimi üzvdən (Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya) və 4 daimi olmayan üzvdən ibarət olan Millətlər Liqasının Şurası və həmçinin baş katibin başçılıq etdiyi daimi Katiblikdir. Millətlər Liqasının əsas toplanma yeri Cenevrə olmuşdur. Məclisin və Şuranın prosedur məsələlərdən başqa qərarları yekdilliklə qəbul olunmuşdur.

Qərbin böyük dövlətlərinin cidd-cəhdlə təcavüzkarların "sakitləşdirilməsi" siyasətini aparmaları Millətlər Liqasının tamamilə gücsüzlüyünü müəyyən etdi. Millətlər Liqasının 1934-39-cu illərdə İtaliyanın Efiopiyaya qarşı 1935-ci il təcavüzü məsələsini, Almaniyanın Versal sülh müqaviləsinin şərtlərini pozması məsələsini, İspaniyaya qarşı İtaliya-Almaniya müdaxiləsi məsələsini müzakirə edərkən, heç bir effektli qərar qəbul edə bilməmişdir. 1939-cu ildə Hitler Almaniyası müharibəyə başladıqdan sonra Millətlər Liqasının fəaliyyəti demək olar ki, dayandı. Təşkilat formal olaraq 1946-cı ilin aprelində ləğv olundu.

**MİLLİ REJİM** - Beynəlxalq müqavilələrdə tətbiq edilən prinsipdir. Bu prinsipə uyğun olaraq müqavilə bağlayan dövlət öz ərazisində müqavilə iştirakçısı olan digər dövlətin hüquqi və fiziki şəxslərinə (vətəndaşlarına) özünün hüquqi və fiziki şəxsləri ilə eyni hüquqlar, güzəştlər və imtiyazlar verir. Milli rejim ayrı-ayrı dövlətlərin qanunvericiliyində müəyyən edilə bilər.

Milli rejimlər həm birtərəfli əsasda, həm də qarşılıqlılıq əsasında tətbiq oluna bilər. Milli rejim birtərəfli qaydada tətbiq olunarsa, qanunvericilikdə vətəndaşların hüquqlarını məhdudlaşdıran dövlətin vətəndaşlarına münasibətdə cavab tədbirləri olaraq hüquqların məhdudlaşdırılmasının daxil edilməsi nəzərdə tutula bilər.

Milli rejimlər məhdud və qeyri-məhdud ola bilər. Xarici fiziki və hüquqi şəxslərə qeyri-məhdud milli rejimin verilməsi halları nadir hallarda olur; qaydaya görə, onlara ölkənin vətəndaşlarına məxsus olması ilə bağlı hüquqlar verilmir.

Ayrı-ayrı sahələrdə milli rejimləri nəzərdə tutan beynəlxalq müqavilələrin məsələn, hüquqi yardım haqqında müqavilə, sosial təminat haqqında müqavilə, vergi məsələləri üzrə razılaşma, ticarət və gəmiçilik haqqında müqavilələrin bağlanması praktikası vardır.

**MİNSK QRUPU** - ATƏT-in Nazirlər Şurasının 1992-ci ilin 24 martında Helsinkidə keçirilmiş görüşündə yaradılmışdır. Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün yaradılmış forumudur. Minsk Qrupunun üzvləri isə bunlardır: Azərbaycan, Ermənistan, Rusiya Federasiyası, ABŞ, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç. 1994-cü ildə ATƏT-in

Budapeşt Sammitinə əsasən Minsk Qrupu həmsədrlərinin institutu yaradılmışdır. Həmsədrlik 1994-cü ilin dekabrından Rusiya və Finlandiyanın, 1997-ci ildən isə ABŞ, Rusiya və Fransanın nümayəndələri tərəfindən həyata keçirilir.

**MİSİR** - Afrika və Asiya qitəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi 1.001.450 kv.km, əhalisinin sayı isə 62.359.623 (1995) nəfərdir. Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Misir Ərəb Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Qahirə şəhəridir. Misir Böyük Britaniyadan müstəqilliyini 28 fevral 1922-ci ildə almışdır (əvvəlki adı Birləşmiş Ərəb Respublikası). Milli bayram 23 iyul İnqilab günüdür (1952). İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (Nazirlər Şurasının başçısı) məxsusdur.

**MİSSİYA (diplomatik)** - Elçinin və ya işlər vəkilinin rəhbərlik etdiyi diplomatik nümayəndəlikdir. Diplomatik əlaqələr haqqındakı 1961-ci il Vyana konvensiyası diplomatik immunitet və imtiyazlar məsələsində diplomatik missiya ilə səfirlik arasında fərq qoymur.

"Diplomatik missiya" termini hökumətin tapşırığı ilə xüsusi diplomatik tapşırığı yerinə yetirmək üçün göndərilən nümayəndə hey'əti ilə bağlı da işlənir.

**MODUS PROSEDENDİ** - Beynəlxalq müqavilə üzrə hər hansı vəzifənin və ya fəaliyyətin hansı şəkildə və hansı qaydada yerinə yetirmək olduğunu göstərən termindir.

**MODUS VİVENDİ** - Daimi uzunmüddətli müqavilənin bağlanması üçün lazım olan şəraitin olmadığı halda bağlanan müvəqqəti, qısa müddətli müqaviləni göstərən termindir.

Modus vivendini göstərən sənəd tərəflər tərəfindən imzalanan müqavilə (saziş, konvensiya) də ola bilər; çox halda modus vivendi notaların mübadiləsi şəklində müəyyən olunur.

Modus vivendi həmçinin tərəflər arasında müqavilə olmadan beynəlxalq münasibətlərin hansısa sahəsində baş verən vəziyyəti müəyyən edir.

**MOLDOVA** - Şərqi Avropanın cənub-qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 33.700 kv.km, əhalisinin sayı 4.489.657 nəfərdir (1995). Dövlət dili moldav dilidir.

Paytaxtı Kişinyov şəhəridir. 1990-cı ildə Moldova Respublikasının tərkibinə daxil olan iki rayon - Qaqauz Respublikası və Dnestryanı Moldova Respublikası özlərini müstəqil elan etmələrinə baxmayaraq, dünya birliyi tərəfindən tanınmamışdılar. Moldova müstəqilliyini 27 avqust 1991-ci ildə əldə etmişdir (əvvəl SSRİ-nin tərkibində olmuşdur). Həmin gün müstəqillik günü kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlamentdir (Ali Sovet).

**MONAKO** - Avropanın cənubunda Aralıq dənizinin sahillərində yerləşir. Ərazisinin sahəsi 1,9 kv.km, əhalisinin sayı isə 31.515 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Monako Knyazlığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkənin paytaxtı Monako şəhəridir. Monako 1419-cu ildən müstəqil dövlətdir. Qanunvericilik Fransa qanunlarına əsaslanır. Milli bayram 19 noyabr Millət günüdür. Dövlət başçısı knyazdır (knyaz Renye Qrimaldi ölkəni 1949-cu ildən idarə edir), hakimiyyətin varisi isə knyaz Albert Aleksandr Lui Pyerdir (14 mart 1958-ci ildə doğulub). İcra hakimiyyəti Hökumət Şurasına rəhbərlik edən dövlət nazirinə məxsusdur. Qanunverici orqan Milli Şuradır.

**MONARXİYA** (yun. monarchiya - təkhakimiyyətlilik) - dövlətin idarəetmə formasıdır, burada ali dövlət hakimiyyəti formal olaraq (tam və ya qismən) tək dövlət başçısının - monarxın əlində cəmlənir. Monarxın hakimiyyəti, bir qayda olaraq, irsən keçir.

Müasir dövrdə bəzi dövlətlərdə konstitusiyalı monarxiya mövcuddur. Tarixən konstitusiyalı monarxiyadan əvvəl son feodalizm dövrünün mütləq monarxiyası mövcud olmuşdur. Mütləq monarxiya xalqın tam hüquqsuzluğu, nümayəndəli idarələrdən imtina etməsi və dövlət hakimiyyətinin bütünlüklə monarxın əlində cəmləşməsi ilə xarakterizə edilirdi. Şərq dövlətlərində monarxiya əsasən, despotik, teokratiya formalarında mövcud olmuşdur.

Konstitusiyalı monarxiyanın iki əsas növü mövcuddur və onlar bir-birindən monarxa verilən hakimiyyətin məhdudlaşdırılması dərəcəsi ilə fərqlənir. Dualist monarxiyada icra hakimiyyəti monarxın əlində cəmlənir, qanunverici hakimiyyət isə hüquqi

cəhətdən parlamentə (parlament monarxa tabedir) məxsusdur. Bu dualizm əslində monarxın tam hakimiyyəti deməkdir. Bəzi dövlətlərdə (məs. Küveytdə, Bəhreyndə və digər ölkələrdə) hazırda dualist monarxiya mövcuddur. İnkişaf etmiş ölkələrin bəzilərində (Böyük Britaniya, Belçika, Danimarka, İsveç, Norveç, Yaponiya və s.) parlamentli monarxiya mövcuddur. Parlamentli monarxiyada dövlət hakimiyyətinin bütün sahələrində monarxın hakimiyyəti məhduddur. O özünün formal səlahiyyətini müstəqil olaraq həyata keçirmək hüququndan məhrumdur, monarxın aktları nazirlər tərəfindən bəyənilməlidir (buna kontrasiqnatura deyilir). İcra hakimiyyətini hökumət həyata keçirir; hökumət parlament qarşısında məsuldur. Seçkilərdə qalib gəlmiş partiyanın lideri hökuməti təşkil edir. Seçkili monarxiyada monarxiya və respublika ünsürləri əlaqələndirilir. Bu forma Malayziyada da mövcuddur; burada monarxı ştatların başçılarından ibarət xüsusi şura 5 il müddətinə seçir.

**MONQOLUSTAN** - Mərkəzi Asiya dövlətidir. Ərazisinin sahəsi 1.566.000 kv.km, əhalisinin sayı isə 2.493.615 nəfərdir (1995). Dövlət dili monqol dilidir.

Ölkənin tam adı Monqolustan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Ulan-Bator şəhəridir. Monqolustan 1924-cü ilin noyabrında müstəqilliyini əldə etmişdir (əvvəllər Çinin tərkibində əyalət olmuşdur). Milli bayram 11 iyul Xalq İnqilabı günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Böyük Xuraldır.

**MORATORİUM** (lat. Moratorius - təxirəsalıcı) - Hansısa bir fəaliyyətin müəyyən və ya qeyri-müəyyən müddətə dayandırılması haqqında beynəlxalq hüququn subyektləri arasındakı razılaşmadır. Moratorium hansısa xüsusi məsələ ilə bağlı beynəlxalq müqavilənin bağlanması haqqında aparılan danışıqlar dövründə də müəyyən edilə bilər.

Hansısa bir fəaliyyətə moratorium qoymaq dövlət tərəfindən birtərəfli qaydada, o biri tərəfin də eyni addım atacağı ümidi ilə e'lan olunur.

**MOZAMBİK** - Afrikanın cənub-şərq hissəsində yerləşir. Ərazisinin sahəsi 802.000 kv.km, əhalisinin sayı isə 18.115.250



nəfərdir (1995). Dövlət dili portuqaliya dilidir.

Ölkənin tam adı Mozambik Xalq Respublikasıdır. Dövlət quruluşu Respublikadır. Paytaxtı Maputu şəhəridir. Mozambik Portuqaliyadan müstəqilliyini 25 iyun 1975-ci ildə əldə etmişdir. Həmin gün ölkədə Müstəqillik günü kimi qeyd olunur. Qanunvericilik portuqaliya mülki hüququna əsaslanır. Dövlət və hökumətin başçısı prezidentdir, baş nazir isə Nazirlər Şurasını idarə etməkdə prezidentə kömək edir. Qanunverici orqan birpalatalı parlament olan Respublika Assambleyasıdır.

**MUZDLULAR** - Terrorist dövlətlərin suveren dövlətlərə qarşı və milli-azadlıq hərəkatına qarşı apardığı siyasətin əsas cəhətlərindən biri də muzdlulardan istifadə etməkdir.

Muzdlular dəfələrlə müstəmləkədən azad olmuş ölkələrə qarşı iştirak etmişdilər (Əfqanıstanda, Anqolada, Nikaraquada, Mozambikdə və s.). Namibiya xalqının milli-azadlıq hərəkatı ilə mübarizədə, qanuni hakimiyyətin devrilməsi və ölkənin daxilində gərginlik yaratmağa yönəlmiş əməliyyatlarda muzdlular aktiv istifadə olunmuşdular. Muzdlulardan istifadə olunmasının cinayətkar praktikası bir çox beynəlxalq konfrans və forumlarda dəfələrlə müzakirə obyektinə çevrilib. 1977-ci ildə qəbul olunmuş, beynəlxalq hərbi konfliktlərin qurbanlarının müdafiəsinə həsr olunmuş I Əlavə Protokolda muzdlulara aid xüsusi müddəa vardır. Protokol muzdluların hərbi əsirlər kimi status hüququna malik olmadıqlarını nəzərdə tutur, burada həmçinin muzdlular anlayışının tərifi verilir.

Muzdlular haqqında məsələ BMT-də dəfələrlə müzakirə olunmuşdur. BMT-nin BM-nin 20.12.1969-cu il tarixli 2465 (XXIII) saylı və 12.12.1973-cü il tarixli 3013 (XXVIII) saylı qətnamələrində qeyd edilir ki, öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan milli-azadlıq hərəkatına qarşı müstəmləkəçi və rasist rejimlərin muzdlulardan istifadə etməsi cinayət fəaliyyəti hesab olunur, muzdluların özləri isə cinayətkar kimi cəzalandırılmalıdır. Beynəlxalq Təhlükəsizliyin möhkəmlənməsi haqqında 1970-ci il bəyannaməsində, dövlətlər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə toxunan beynəlxalq hüquq prinsipləri haqqındakı 1970-ci il bəyannaməsində və başqa sənədlərdə muzdlulardan istifadə olunmasının hüquqa zidd olması əks

olunmuşdur.

BMT BM-nin 14.12.1979-cu il tarixli 34/140 saylı qətnaməsində deyilir ki, muzdluluq beynəlxalq sülh və təhlükəsizlik üçün qətl və soyqırım qədər təhlükəlidir, bütünlükdə insanlığa qarşı cinayətdir. BMT-nin qətnamələrində qeyd edilir ki, muzdlulardan istifadə etmək beynəlxalq hüququn əsas prinsiplərinə ziddir.

**MÜDAXİLƏ ETMƏMƏK PRİNSİPİ** - Beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Bu prinsipə görə, heç bir dövlət və ya dövlətlər qrupu birbaşa və ya dolayısı ilə başqa dövlətlərin daxili və xarici işlərinə qarışa bilməz. Müdaxilə etməmək prinsipi BMT-nin Nizamnaməsi, dövlətlərin daxili işlərinə qarışmağın, onların müstəqilliyinin və suverenliyinin məhdudlaşdırılmasının yolverilməzliyi haqqında 1965-ci il bəyannaməsi, dövlətlər arasındakı dostluq və əməkdaşlıq prinsiplərinə toxunan beynəlxalq hüquqi prinsiplər haqqındakı 1970-ci il bəyannaməsi, Avropada təhlükəsizlik və əməkdaşlıq müqaviləsinin Yekun Aktı və s. bu kimi mühüm beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Dövlətlərin hüquqi subyektliyinin və yaxud siyasi, iqtisadi və mədəni əsaslarının əleyhinə yönəlmiş hərbi intervensiya və müdaxilənin başqa formalarının qadağan edilməsi, təşkilatlara zor yolu ilə dövlət hakimiyyətinin dəyişdirilməsinə yönəlmiş fəaliyyətlə məşğul olmağın qadağan edilməsi, dövlətlərin özünün siyasi, iqtisadi, sosial sistemini başqa dövlətin müdaxiləsi olmadan seçmək hüququ kimi prinsiplərin müdaxilə etməmək prinsipinə daxil olması Beynəlxalq hüququn prinsipləri haqqındakı 1970-ci il Bəyannaməsində öz əksini tapmışdır.

**MÜƏLLİF HÜQUQLARI HAQQINDA ÜMUMDÜNYA KONVENSİYASI** - 1952-ci ildə UNESCO-nun himayəsi altında işlənmiş və 06.09.1952-ci ildə Cenevrə konfransında imzalanmışdır, 1971-ci ildə Paris konfransında əlavələr edilmişdir.

Ümumdünya konvensiyasına görə, bütün iştirakçı ölkələr bu ölkələrin hər hansı birinin vətəndaşı olan müəllifin, həmçinin vətəndaşlıqlarından asılı olmayaraq əsəri bu iştirakçı ölkələrin hər hansı birinin ərazisində ilk dəfə nəşr olunan müəllifin müəlliflik hüququnu müdafiə edirlər. Ümumdünya konvensiyası bütün ədəbi, elmi və bədii yaradıcılığa, o cümlədən musiqili, dramatik



və kinematoqrafiya, rəssamlıq, qrafika və heykəltaraşlıq sahələrinə tətbiq edilir.

Ədəbiyyat və incəsənət əsərlərinin mühafizəsi haqqında 1886-cı il Bern konvensiyasından fərqli olaraq Ümumdünya konvensiyası müəllifin son dərəcə mühüm olan bir hüququnu - əsərin xarici dilə tərcümə edilməsi hüququnu aydınlaşdırır.

Ümumdünya konvensiyası tərcümə huququnu məhdudlaşdırır. Əgər müəllif əsərini işıq üzü görən gündən keçən 7 il ərzində dövlətlərin birinin dilinə tərcümə etməmişsə və tərcümə edilməsinə icazə verməmişsə, onda bu dövlətlərin səlahiyyətli orqanları müəyyən şərtlər daxilində əsərin uyğun dillərə tərcüməsi üçün lisenziya verə bilərlər.

Ümumdünya konvensiyası əsərin ilk dəfə nəşr olduğu vaxtdan ən azı 25 il müddətə və yaxud müəllifin ölüm gününə qədər müəlliflik hüququnun müdafiə müddətini müəyyən edir.

**MÜHARİBƏ** - Dövlətlərin, xalqların, milli-azadlıq mübarizəsini aparanların, həmçinin daxili hərbi münaqişənin tərəflərinin iştirak etdiyi mütəşəkkil hərbi mübarizədir.

Müharibənin iki forması var:

1. Ədalətli müharibələr - məs., BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, təcavüzə qarşı individual və ya kollekktiv özünümüdafiə, müstəmləkəçilərə qarşı milli-azadlıq müharibələri;

2. Ədalətsiz müharibələr - məs., təcavüz, müstəmləkə müharibələri.

Müharibə vəziyyəti bir çox hüquqi nəticələrə səbəb olur: vuruşan dövlətlər arasındakı diplomatik və başqa münasibətlərin kəsilməsinə, beynəlxalq müqavilələrin dayandırılmasına və s. səbəb olur. (bax. Vuruşan tərəf. Müharibənin qanun və qaydaları)

**MÜHARİBƏNİN QANUN VƏ QAYDALARI** - Döyüşən tərəflərin və hərbi konfliktdə neytral mövqedə dayanan üçüncü tərəfin hüquq və vəzifələrini müəyyən edən beynəlxalq hüququn norma və prinsiplərinin toplusudur.

Müharibənin qanun və qaydaları müharibənin qəddarlıqla aparılmasının üsulları və vasitələrinin aradan qaldırılmasını və mülki əhalinin müdafiəsini təmin etməyi nəzərdə tutur. Bu qa-

nunlar hərbi əməliyyatların başlanması, davam etməsi və dayandırılması qaydalarını, mülki əhalinin, yaralıların, xəstələrin, hərbi əsirlərin, tibbi və b. heyətin hüquqi vəziyyətini müəyyən edir, həmçinin müharibənin qayda və qanunlarının pozulmasına görə cavabdehlik müəyyən edir.

Müharibənin qanun və qaydaları bir çox beynəlxalq sənədlərdə məsələn, dəniz müharibəsi hüququ haqqında 1909-cu il London bəyannaməsi, müharibədə boğucu və zəhərləyici qazların və başqa bakterioloji vasitələrin istifadə edilməsini qadağan edən 1925-ci il Cenevrə protokolu, müharibə vaxtı sualtı qayıqların ticarət gəmilərinə qarşı fəaliyyəti haqqında 1936-cı il London protokoluna əlavə olunan qaydalar, hərbi konfliktlər zamanı mədəni dəyərlərin qorunması haqqında 1954-cü il Haaqa konvensiyası və s. kimi sənədlərdə öz əksini tapmışdır.

İkinci Dünya müharibəsindən sonra müharibənin qanun və qaydalarının pozulması (hərbi cinayət) daha ağır beynəlxalq cinayətlərin biri kimi qəbul olunmuşdur və bu cinayətə görə xüsusi cəza tədbirləri müəyyənləşdirilmişdir.

**MÜLKİ TƏYYARƏLƏRİN QEYRİ-QANUNİ ZƏBT EDİLMƏSİ** - Mülki təyyarələrin tutulması və qaçırılması, həmçinin mülki aviasiyanın işlərinə qeyri-qanuni müdaxilə aktları aviasiya nəqliyyatının normal işinə olduqca böyük xətər yetirir, sərnişinlərin və heyətin həyatı üçün ciddi təhlükə yaradır. Bununla bağlı beynəlxalq hüquqi-mübarizəni gücləndirmək məqsədi ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən hava hüququ üzrə Haaqa konfransında "hava gəmilərinin qeyri-qanuni tutulması ilə mübarizə" haqqında konvensiya qəbul olunmuşdur. (16.12. 1970). Monrealda 23.09.1971-ci ildə beynəlxalq hava hüququ konfransında "Mülki aviasiyanın təhlükəsizliyinin əleyhinə yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında" konvensiya qəbul olunmuşdur.

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ (MDB)** - Keçmiş SSRİ-nin 12 dövlətinin daxil olduğu regional təşkilatdır. Təşkilatın təsis sənədləri aşağıdakılardır: 8 dekabr 1991-ci ildə Minskdə Rusiya, Belarus və Ukrayna tərəfindən imzalanmış Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında saziş, 21 dekabr 1991-ci ildə Alma-Atada 11 dövlət tərəfindən (Pribaltika dövlətləri və Gürcüstandan başqa keçmiş SSRİ-yə daxil olan respublikalar) imzalanmış protokol, 21 dekabr 1991-ci il Alma-Ata bəyannaməsi, 22 yanvar 1993-cü ildə MDB dövlət başçılarının Minskdə toplantısında Rusiya, Belarus, Qazaxstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Ermənistan tərəfindən Birliyin Nizamnaməsi qəbul olunmuşdur.

MDB-nin məqsədi aşağıdakılardır: siyasi, iqtisadi, ekoloji, humanitar, mədəni və başqa sahələrdə əməkdaşlığı həyata keçirmək, ümumi iqtisadi məkan yaratmaq, beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərinə və ATƏT-in sənədlərinə uyğun olaraq insanların hüquq və azadlıqlarını təmin etmək, beynəlxalq sülhün və təhlükəsizliyin təsis edilməsində üzv dövlətlər arasında əməkdaşlıq etmək, üzv dövlətlərin vətəndaşlarına birlik daxilində əlaqələr qurmalarına və sərbəst gediş-gəlişlərinə kömək etmək, qarşılıqlı hüquqi yardım və hüquqi münasibətlərin qalan sahələrində əməkdaşlıq etmək, birlik dövlətləri arasındakı mübahisələri və münaqişələri sülh yolu ilə həll etmək (MDB-nin Nizamnaməsinin 2-ci maddəsi).

MDB-nin ali orqanı dövlət başçılarının Şurasıdır. Şuraya MDB-nin ümumi maraqları sferasında fəaliyyəti ilə bağlı prinsipial məsələlərin müzakirə və həll edilməsi səlahiyyəti verilmişdir. Şuranın toplantıları ildə iki dəfə keçirilir, əgər zərurət yaranarsa, üzv dövlətlərin birinin təşəbbüsü ilə növbədənkənar toplantı da keçirilə bilər.

Hökumət başçılarının şurası MDB-nin üzv dövlətlərinin icra hakimiyyəti orqanlarının iqtisadiyyat, sosial və başqa sahələrdəki fəaliyyətinin nizamlayır. Şura ildə dörd dəfə toplanır, əgər zərurət yaranarsa, üzv dövlətlərdən birinin hökumətinin təşəbbüsü ilə növbədənkənar toplana bilər.

Hər iki şuranın qərarları konsensus yolu ilə qəbul olunur. Hər bir dövlətin ixtiyarı var ki, müzakirə olunan bu və ya başqa məsələdə marağının olmadığını və qəbul olunacaq qərara mane olmayacağını bildirsin.

MDB-nin strukturunda üçüncü orqan Xarici İşlər Nazirləri Şurasıdır (XİNŞ), belə ki, bu şura əvvəlki iki şuranın qərarı ilə

fəaliyyət göstərir. XİNŞ beynəlxalq təşkilatlardakı fəaliyyət də daxil olmaqla üzv dövlətlərin xarici siyasi fəaliyyətinin koordinasiyasını həyata keçirir, dünya siyasətinin qarşılıqlı maraq doğuran müxtəlif məsələləri haqqında məsləhətləşmələr aparır.

Bunlardan başqa əməkdaşlığın müxtəlif sahələri üzrə qurumlar yaradılmışdır. Məsələn, Dövlətlərarası Ekologiya Şurası, Xarici İqtisadi Qurumların Rəhbərlərinin Şurası və s. Dövlət Başçılarının Şurası strukturuna daxil olan Müdafiə Nazirləri Şurası fəaliyyət göstərir. Bu qurumun fəaliyyəti üzv dövlətlərin hərbi-siyasi və hərbi quruculuq məsələləri üzrə əməkdaşlığının həyata keçirilməsi ilə bağlıdır.

Parlamentlərarası Assambleya üzv dövlətlərin parlament rəhbərlərinin imzaladıqları 27 mart 1992-ci il tarixli Sazişə əsasən yaradılmışdır. MDB-nin üzv dövlətləri Parlamentlərarası Assambleya haqqında qəbul olunmuş 26 may 1995-ci il konvensiyasına görə, Assambleya Birliyin dövlətlərarası orqanı kimi müəyyən olunmuşdur.

Bu vaxta qədər MDB çərçivəsində 200-dən artıq sənəd imzalanmasına baxmayaraq, təşkilatın fəaliyyəti qənaətbəxş deyildir.

**MÜŞAHİDƏÇİLƏR** - Dövlətlərin, beynəlxalq təşkilatların, milli-azadlıq hərəkatlarının beynəlxalq hökumətlərarası təşkilatların, beynəlxalq konfransların və b. forumların işində məhdud iştirak etmək üçün göndərdikləri nümayəndə heyətidir. Tamhüquqlu iştirakçılardan fərqli olaraq müşahidəçilər qərarların qəbulunda, işçi qruplarının təşkil edilməsi və fəaliyyətində və s. iştirak etmirlər, lakin onlara müzakirə olunan məsələ ilə bağlı çıxış etməyə və təkliflər verməyə imkan verilir. Müşahidəçilər adətən, o halda göndərilir ki, uyğun təşkilatın işinə göndərən tərəfin marağı olsun.

Hansısa bir təşkilatın üzvü olmayıb, lakin təşkilatın fəaliyyətini izləmək arzusunda olan dövlətlərin praktik tələbinə görə beynəlxalq təşkilatların yanında, o cümlədən BMT-də daimi müşahidəçilər institutu təsis edilmişdir.

BMT-nin praktikasına uyğun olaraq daimi müşahidəçilər və onların missiyasının əməkdaşları Təhlükəsizlik Şurasının, Baş



Məclisin, BMT-nin əsas komitələrinin və başqa orqanlarının iclaslarında iştirak edə bilərlər, öz hökumətlərinin sənədlərini və materiallarını bu iclaslarda yaya bilərlər, BMT-nin orqanlarının sənədlərini ala bilərlər, başqa hüquq və imtiyazlardan istifadə edə bilərlər. BMT-də daimi müşahidəçilər missiyasına İsveçrə, Monako, Vatikan və b. dövlətlər malikdir.

BMT orqanlarının işində müşahidəçilər kimi aşağıdakı təşkilatların nümayəndələri iştirak edirlər: Avropa İqtisadi Birliyi, Afrika Birliyi Təşkilatı, Amerika Dövlətləri Təşkilatı, Ərəb Dövlətləri Liqası, İslam Konfransı Təşkilatı, Latın Amerikası İqtisadi Sistemi, Afrika, Karib dənizi və Sakit Okean Dövlətlər Qrupu Birliyi, Afrika-Asiya Hüquq Məsləhət Komitəsi, Mədəni və Texniki Əməkdaşlıq Agentliyi.

1974-cü ildə BMT-nin Baş Məclisi XXIX sessiyasında Fələstin Azadlıq Təşkilatını BMT-nin BM-nin və BMT-nin başçılığı ilə çağırılmış konfransların işində müşahidəçi sifəti ilə iştirak etməsi haqda qərar qəbul etdi. 1981-ci ildə BMT-nin BM-nin XXX sessiyasında eyni status Cənub-Şərqi Afrika Xalq Təşkilatına verildi. Dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərində təmsilçiliyi haqqında qəbul olunmuş 1975-ci il Vyana konvensiyası beynəlxalq təşkilatların yanında və beynəlxalq konfranslarda daimi müşahidəçilərin hüquqi statusunu müəyyən etmişdir.

**MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ** - Diplomatik nümayəndəliyə onun başçısı olmadıqda rəhbərlik edən şəxsdir. Adətən, diplomatik nümayəndə nümayəndəliyi tərk edəcək ərəfədə fəaliyyət göstərdiyi dövlətin xarici işlər nazirliyinə məktub vasitəsilə müvəqqəti işlər vəkilinin təyin edilməsi haqqında məlumat verir. Əgər təyin olunmuş müvvəqqəti işlər vəkili də fəaliyyət göstərdiyi ölkəni tərk edərsə, onda nümayəndəliyin fəaliyyət göstərdiyi ölkənin xarici işlər nazirinə müvəqqəti işlər vəkilini göndərən ölkənin xarici işlər naziri məktub (teleqram) vasitəsilə yeni müvəqqəti işlər vəkilinin təyin edilməsi barədə xəbər verir. Müvəqqəti işlər vəkili bəzi protokol vəzifələrini çıxmaq şərtilə diplomatik nümayəndənin istifadə etdiyi bütün hüquq və imtiyazlardan istifadə edə bilər.

**MUXTARİYYƏT** - Siyasi-hüquqi mənada unitar, bəzən isə federativ dövlətin ərazisinin bir hissəsində özünüidarə formasıdır. Adətən, muxtar ərazi vahidi yerli əhəmiyyətli məsələləri müstəqil həll edir (mərkəzi hakimiyyətin müəyyən etdiyi hüdudlarda). Bu hüdudlarda muxtar vahidinin əhalisi inzibati-ərazi vahidin əhalisinə nisbətən daha geniş hüquqlardan istifadə edir, muxtar vahidin seçkili orqanı əhalisinin spesifik mənafeyini ifadə edir.

**MYANMA (Birma)** - Asiyanın cənub-şərqində yerləşir. Ərazisinin sahəsi 678.000 kv.km, əhalisinin sayı isə 46.500 nəfərdir (1995). Dövlət dili birma dilidir.

Ölkənin tam adı Myanma İttifaqıdır. Dövlət quruluşu hərbi rejimdir. Paytaxtı Yanqon şəhəridir. Myanma Böyük Britaniyadan müstəqilliyini 4 yanvar 1948-ci ildə əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi bayram edilir. Dövlət və hökumətin başçısı - qanunun və nizam-intizamın bərpası üzrə Dövlət Şurasının sədri və baş nazir olan general Tan Şvedir. Bütün icra və qanunverici hakimiyyət Dövlət Şurasına məxsusdur.



# N

**NAMİBİYA** - Afrikanın cənub-şərqində yerləşir. Ərazisinin sahəsi 824.269 kv.km, əhalisinin sayı isə 1.651.545 nəfərdir (1995). Ölkənin üç rəsmi dili vardır: ingilis, alman və afrikans.

Ölkənin tam adı Namibiya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Vindxuk şəhəridir. Namibiya müstəqilliyini 21 mart 1990-cı ildə əldə etmişdir (əvvəllər ölkə Cənubi Afrika Respublikasının idarəçiliyi altında olmuşdur). Həmin gün Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan Milli Assambleya və Milli toplantıdan ibarət olan ikipalatalı parlamentdir.

**NAMİBİYA PROBLEMİ** - Cənubi Afrika Respublikasının (1910-61-ci illərdə Cənubi Afrika İttifaqı - CAİ) Namibiyaya qarşı apardığı siyasət nəticəsində meydana gələn problemdir.

1884-cü ildə Namibiya ərazisinin Almaniya tərəfindən işğalından sonra bu ərazi Cənub-Qərbi Afrika (CQA) adı ilə Almaniyanın protektoratlığı elan edildi. I Dünya müharibəsinin (1914-18-ci illər) qurtarması ilə əlaqədar olaraq Cənub-Qərbi Afrika (1968-ci ildən BMT Baş Məclisinin qərarı ilə rəsmi olaraq Namibiya adlanır) Millətlər Liqasının mandat sisteminə daxil edilmiş və 1920-ci ildə CAİ-nin idarəsi altına verilmişdir. 1949-cu ildə CAİ hökuməti Birləşmiş Millətlər Təşkilatının qərarına məhəl qoymayaraq, CQA-nın beynəlxalq himayədarlıq sisteminə daxil edilməsindən imtina etdi və faktiki olaraq onu ilhaq etdi.

BMT Baş Məclisinin XXI sessiyası (1966) CAR-ın CQA üzərindəki idarəetmə fəaliyyətini dayandırdı və bu əraziyə görə birbaşa cavabdehliyi BMT-yə tapşırdı. 1967-ci ildə BMT Baş Məclisi müstəqillik əldə edənə qədər Namibiyanı idarə etmək üçün və Namibiya xalqının hüquq və maraqlarını müdafiə etmək üçün 31 dövlətdən ibarət Namibiya üzrə BMT Şurası yaratdı.

BMT BM-in Namibiya problemi ilə bağlı müzakirələrində dəfələrlə CAR rasist rejimindən Namibiyanın zəbt edilməsini dayandırmasını tələb etmiş, Namibiya xalqının azadlıq mübarizəsinin qanuniliyini təsdiq etmiş və bu mübarizədə yardımçı ol-

muşdur. 1973-cü ildə BMT CQA Xalq Təşkilatını (CQAXT) Namibiya xalqının yeganə, əsl nümayəndəsi kimi qəbul etmişdir.

1976-cı ildə BMT-nin Təhlükəsizlik Şurası özünün 385 saylı qətnaməsində CAR-dan Namibiya ərazisindən öz qoşunlarını çıxartmağı, namibiyalı bütün siyasi dustaqları azad etməyi, hakimiyyəti Namibiya xalqına verməyi, Namibiyada BMT-nin nəzarəti altında azad, ədalətli seçkilər keçirməyi tələb etdi.

1977-ci ildə ABŞ, Kanada, Böyük Britaniya Fransa və AFR Namibiya problemi ilə bağlı "əlaqə qrupu" yaratdılar və bu problemin nizama salınması planını işlədilər. Plan aşağıdakıları nəzərdə tuturdu: barışıq haqqında müqavilənin əldə edilməsi, 3 ay ərzində CAR-ın hərbi hissələrinin tədricən çıxarılması, Namibiyaya BMT-nin hərbi qüvvələrinin, polisinin və mülki heyətinin keçid dövrünə kömək etmək və azad seçkilər keçirmək üçün daxil edilməsi, Konstitusiyanın işlənməsi və qəbul edilməsi və s.

1978-ci ildə Təhlükəsizlik Şurası (435 saylı qətnamə) 5 Qərb dövlətinin təklifi əsasında "BMT planı" adlanan Namibiya probleminin nizama salınması planını təsdiq etdi. BMT-nin Namibiya planının həyata keçməsinə maneçilik yaratmaq məqsədilə CAR Afrika Xalq Təşkilatının iştirakı olmadan Namibiyada marionet (alaltı) rejim yaratmaqla problemi həll etməyə cəhd göstərdi. 1978-ci ilin dekabrında CAR seçki yığıncağında "Trunxalle Demokratik Alyansı" marionet qrupunu hakimiyyətə gətirmək məqsədilə seçkilər təşkil etdi (CQAXT bu seçkiləri baykot etdi). Təhlükəsizlik Şurası özünün 439 saylı qətnaməsində bu seçkiləri qeyri-qanuni elan etdi.

1979-cu ildə Anqolanın prezidenti A.Neto "BMT planı"nı həyata keçirməyi asanlaşdırmaq məqsədi ilə belə bir təkliflə çıxış etdi: Namibiyanın Anqola və Zambiya ilə sərhədləri boyunca 50 km enində silahsızlaşdırılmış sahəsi yaradılsın və hər tərəf CAR və BMT-nin polis qüvvələri nəzarəti altında olsun. CQAXT bu ideya ilə razılaşdı.

1981-ci ildə Cenevrədə BMT-nin himayəsi altında CQAXT ilə CAR-ın nümayəndələri arasında "BMT planı"nı həyata keçirmək məqsədilə birbaşa danışıqlar oldu. CAR danışıqları pozdu. Bunun ardınca isə CAR Namibiyanın müstəqilliyi əvəzində Kuba qoşunlarının Anqoladan çıxarılması şərtini irəli sürdü.

Bu qeyri-qanuni tələb dərhal Anqola, başqa Afrika dövlətləri və Təhlükəsizlik Şurası tərəfindən rədd edildi. 28.10.1983-cü il tarixli 539 saylı qətnaməsində Təhlükəsizlik Şurası Namibiyanın tezliklə müstəqilliyinin təmin edilməsi üçün cavabdehliyini təsdiq etdi və CAR-ı Təhlükəsizlik Şurasının 435 saylı qətnaməsini heç bir şərt irəli sürmədən həyata keçirmək üçün yubanmadan BMT-nin Baş Katibi ilə əməkdaşlığa çağırdı.

Namibiya xalqına həqiqi müstəqilliyi əldə etməkdə maneçilik törətməyi davam etdirərək CAR rejimi traybalistik qrupların iştirakı ilə "çoxpartiyalı konfrans" yaratmaqla öz məqsədinə çatmağa cəhd etdi, 1985-ci ilin iyununda isə onlardan "müvəqqəti hökumət" təşkil etdiyini elan etdi. BMT isə bu hökuməti tanımayacağını bəyan etdi.

1977-ci ildə Təhlükəsizlik Şurası 418 saylı qətnaməsində CAR-a silah satışına qadağa qoydu.

1988-ci ildə CAR BMT-nin Baş Katibi ilə əməkdaşlığa razılıq verərək, Namibiyanın müstəqilliyini tanıdı.

**NATURALİZASİYA** (vətəndaşlığı qəbul etmə) - Xaricilərə və yaxud vətəndaşlığı olmayan şəxslərə dövlətin vətəndaşlıq verməsidir (bax. vətəndaşlıq).

**NAURU** - Sakit okeanın cənub-qərbindəki Nauru adasında yerləşir. Ərazisinin sahəsi 21 kv.km, əhalisinin sayı isə 10.149 nəfərdir (1995). Dövlət dili nauru dilidir.

Ölkənin tam adı Nauru Respublikasıdır. Dövlət quruluşu respublikadır və Britaniya Birliyinə daxildir (Birlik dövlətlərinin dövlət və hökumət başçıları səviyyəsində keçirilən konfranslarda iştirak etmək hüququ yoxdur). Ölkənin paytaxtı Yaren şəhəridir. Nauru müstəqilliyini 31 yanvar 1968-ci ildə əldə etmişdir. Dövlət və hökumətin başçısı prezidentdir.

**NEFT İXRAC EDƏN ƏRƏB ÖLKƏLƏRİ TƏŞKİLATI (OAPEC)** - Beynəlxalq hökumətlərarası təşkilatdır. 1968-ci ildə Səudiyyə Ərəbistanı, Küveyt və Liviya tərəfindən əsası qoyulmuşdur. Sonralar bu təşkilata Əlcəzair, Bəhreyn, İraq, Qətər, Tunis, Suriya və Misir qoşulmuşdur. 1982-ci ildə çıxarılan neftin 30% -dən çoxu, xaricə satılan neftin 50%-dən çoxu, neft ehtiyat-

larının 60%-ə qədəri OAPEC ölkələrinin payına düşürdü.

Nizamnaməyə görə, *təşkilatın məqsədi neft sənayesinin inkişafı*, neftin çıxarılması və satışı sahəsində üzv dövlətlərin maraqlarının və əməkdaşlıqlarının təmin edilməsidir. OPEC-dən fərqli olaraq, OAPEC satılan neftin həcmi və qiymətini müəyyən etmir.

OAPEC-in rəhbər orqanı ildə 2 dəfə toplanan neft sənayesi nazirlərinin şurasıdır.

Təşkilatın mənzil-qərargahı əl-Küveytdədir.

**NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATI (OPEC)** - 1960-cı ildə təşkil olunmuş beynəlxalq hökumətlərarası siyasi təşkilatdır. Əlcəzair, Venesuela, Qabon, İndoneziya, İrak, İran, Qətər, Küveyt, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı, Ekvador və başqa dövlətlər bu təşkilata daxildirlər. 1982-ci ilin statistik məlumatına görə, çıxarılan neftin 48 faizi, ixrac olunan neftin 72 faizi və ehtiyatda olan neftin 67 faizi OPEC-in üzv dövlətlərinin payına düşür.

OPEC-in 1968-ci ildə qəbul olunmuş proqramında aşağıdakılar nəzərdə tutulmuşdu: üzv-dövlətlərin neft siyasətinin əlaqələndirilməsini təşkil etməli, özlərinin neft ehtiyatlarını özləri müstəqil olaraq mənimsəməli, konsessiya haqqında müqavilələrə yenidən baxılmalı, neftin qiymətinə nəzarət.

60-cı illərin sonunda OPEC konsessiya müqavilələrindəki bərabərhüquqlu olmayan maddələrin yenidən baxılmasına və neftin qiymətinin öz xeyrinə dəyişdirilməsinə nail oldu. 70-ci illərdə OPEC neftin qiymətini dəfələrlə qaldırdı və neftin satışının vahid qiymətini təyin edə bildi. Bunun nəticəsində üzv ölkələr öz ərazilərindən çıxan neftdən gələn gəlirin 90 faizini əldə edə bildilər.

1967-ci ildə ərəb-İsrail müharibəsi ilə əlaqədar olaraq OPEC -in üzvü olan ərəb ölkələri neftdən siyasi təzyiq vasitəsi kimi istifadə edərək İsrailə kömək edən ölkələrə neft satışına embarqo qoydular.

OPEC üzvü olan dövlətlər arasında sosial-iqtisadi inkişaf və neft çıxarılma miqyası ilə bağlı fikir ayrılıqları mövcuddur. Bu fikir ayrılıqları xüsusi halda neftin qiymətinin razılaşdırılmasında və çıxarılan neftin həcmində meydana çıxır. Belə narazılıqlardan biri 1991-ci ildə İraqın Küveyti işğal etməsi və BMT tərəfindən



İraqa sanksiyalar tətbiq edilməsi ilə nəticələndi.

OPEC -ə 1961-ci ildə qəbul olunmuş Nizamnamə ilə rəhbərlik edilir. Onun ali orqanı neft nazirlərinin nəzarətindədir. OPEC -in mənzil-qərargahı Vyanadadır.

**NEPAL** - Asiyanın cənub hissəsində yerləşir. Ərazisinin sahəsi 147.181 kv.km, əhalisinin sayı isə 21.560.869 nəfərdir (1995). Dövlət dili nepal dilidir.

Ölkənin tam adı Nepal Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Katmandu şəhəridir. Nepal müstəqilliyini 1768-ci ildə əldə etmişdir. Qanunverici orqan induist qanunlarına və ingilis ümumi hüququna əsaslanmışdır. Milli bayram 28 dekabr, kralın doğulduğu gündür. Dövlət başçısı monarxdır (kral Birendra Bir Bikram Şah Dev 24 fevral 1985-ci ildə hakimiyyətə gəlmişdir). Qanunverici hakimiyyət kral və ikipalatalı parlament (Milli Şura - yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) tərəfindən həyata keçirilir.

**NE VARIETUR** (lat. dəyişməməlidir) - Diplomatik praktikada istifadə olunan termindir. Mənası odur ki, müqavilənin mətni oxunmur və dəyişikliklər edilmir.

**NEYTRALLIQ** (lat. neuter - nə o, nə də başqası) - Dövlətlərin xüsusi beynəlxalq-hüquqi statusudur. Beynəlxalq hüquqda daxili neytrallığı və müharibə zamanı neytrallığı - eventual neytrallığı fərqləndirirlər.

Eventual neytrallıq dedikdə, müəyyən bir dövlətin müharibə zamanı döyüşən tərəflərin heç biri tərəfindən və yaxud müstəqil olaraq iştirak etməməsi haqqında bəyanat verməsi başa düşülür. Eventual neytrallığa konkret olaraq, hansısa bir müharibədə riayət olunur. Başqa vaxt neytrallıq fikri rədd oluna da bilər. Müharibə zamanı neytrallığa toxunan beynəlxalq-hüquqi normalar 5-ci və 13-cü Haaqa konvensiyasında (1907), dəniz müharibəsi hüququ haqqındakı 1909-cu il London bəyannaməsi və başqa aktlarda öz əksini tapmışdır. Bu sənədlərə görə, neytral dövlətlərin ərazisi toxunulmazdır və hərbi əməliyyatların meydanına çevrilə bilməz, bu ərazilərdən hərbi hissələrin, silah və başqa hərbi materiallar yüklənmiş nəqliyyat vasitələrinin keçirilməsi döyüşən tərəflərə qadağan edilir.

Neytral dövlətlərin ərazisində döyüşən tərəflərə kömək məqsədi ilə hərbi birləşmələr yaratmaq qadağan edilir. Neytral dövlətlər özlərinin neytrallığına qəsd edildikdə, hərbi qüvvələrdən istifadə etməklə bu qəsdi dəf etmək hüququna malikdir.

Daimi neytrallıq dedikdə, dövlətlərin elə beynəlxalq-hüquqi statusu nəzərdə tutulur ki, bu statusa görə dövlət başqa dövlətlər arasında baş verən hərbi münaqişələrdə iştirak etmir, hərbi bloklara və ittifaqlara girmir, öz ərazisini xarici hərbi hissələrin və hərbi bazaların istifadəsinə vermir. Hal-hazırda daimi neytrallıq statusuna İsveçrə (1814-15-ci il Vyana konqresinin qərarına görə və İsveçrənin daimi neytrallığının qəbul edilməsi və buna təminat verilməsi və onun ərazisinin toxunulmazlığı haqqında 1815-ci il Paris aktına görə), Avstriya (müstəqil və demokratik Avstriyanın bərpası haqqında 1955 -ci il Dövlət müqaviləsinə və Avstriyanın neytrallığı haqqındakı 26.10.1955-ci il Federal Konstitusiya qanununa görə) və Malta (Maltanın neytrallığına aid Malta Respublikası hökumətinin 14.05.1981-ci il bəyannaməsinə görə) dövlətləri malikdirlər.

Bu gün İsveç dövləti də neytrallıq siyasəti aparır. Lakin onun neytrallıq vəziyyəti nə ölkənin konstitusiya aktında, nə də ki, beynəlxalq müqavilələrdə qeyd olunmamışdır. Ona görə də İsveçin ənənəvi neytrallaşmasından danışmaq olar.

Neytral dövlətlərin suveren sərbəstliyinə başqa dövlətlər hörmətlə yanaşmalıdırlar. Lakin bəzən bu hal pozulur. Belə ki, I Dünya müharibəsi zamanı Almaniya Belçikanın və Lüksemburqun (1914), II Dünya müharibəsi zamanı isə Belçikanın, Hollandiyanın və Lüksemburqun (1940) neytrallığını pozmuşdur.

Beynəlxalq hüquqda vuruşmayan dövlətlər termini də vardır. İkinci Dünya müharibəsi zamanı bir çox dövlətlər elan etdilər ki, neytrallıq qaydalarına riayət etməyəcək, həmçinin hərbi əməliyyatlarda da iştirak etməyəcəklər.

**NEYTRAL YÜK** - Neytral gəmilərdə və ya vuruşan tərəflərin gəmilərində daşınan, neytral ölkəyə və yaxud bu ölkənin vətəndaşına məxsus olan yükdür (hərbi kontrabandadan başqa). Bu yüklər döyüşən tərəflərin birinin gəmisində olsa belə, o birisinin tərəfindən zəbt olunmur.



**NİDERLAND** - Avropanın şimal-qərbində yerləşir. Ərazisinin sahəsi 41.548 kv.km, əhalisinin sayı isə 15.452.903 nəfərdir (1995). Dövlət dili holland dilidir.

Ölkənin tam adı Niderland Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Amsterdam şəhəri olmasına baxmayaraq, hökumət Haaqada yerləşir. Hollandiya müstəqilliyini 1579-cu ildə İspaniyadan almışdır. Milli bayram 30 aprel Kraliça günüdür. Dövlət başçısı monarxdır (kraliça Beatriks Vilhelmina Armqrad 30 aprel 1980-ci ildən hakimiyyətdədir). İcra hakimiyyəti Nazirlər Kabinetinə rəhbərlik edən baş nazirə məxsusdur. Qanunverici hakimiyyət monarx və ikipalatalı parlament (birinci və ikinci palata) vasitəsilə həyata keçirilir.

**NİGER** - Qərbi Afrika dövlətidir. Ərazisinin sahəsi 1.267.000 kv.km, əhalisinin sayı isə 9.280.208 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Niger Respublikasıdır. Dövlət quruluşu respublikadır. Ölkənin paytaxtı Niamey şəhəridir. Niger müstəqilliyini 3 avqust 1960-cı ildə əldə etmişdir (əvvəllər Fransanın müstəmləkəsi olmuşdur). Qanunvericilik Fransa mülki hüququna əsaslanır. Ölkədə milli bayram - Respublikanın elan olunması günü 18 dekabrda qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan Milli Məclisdir.

**NİGERİYA** - Afrikanın qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 923.768 kv.km, əhalisinin sayı isə 101.232.251 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Nigeriya Federativ Respublikasıdır. Dövlət quruluşu hərbi rejimdir. Paytaxtı Abuca şəhəridir. Nigeriya Böyük Britaniyadan müstəqilliyini 1 oktyabr 1960-cı ildə almışdır. Həmin gün milli bayram - Müstəqillik günü kimi qeyd edilir. Bütün hakimiyyət İdarə Şurasına rəhbərlik edən prezidentin əlində cəmlənmişdir.

**NİKARAQUA** - Mərkəzi Amerika dövlətidir. Ərazisinin sahəsi 129.494 kv.km, əhalisinin sayı isə 4.256.353 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Nikaraqua Respublikasıdır. Dövlət qurulu-

şu respublikadır. Paytaxtı Manaqua şəhəridir. Nikaraqua 15 sentyabr 1821-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər İspaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü kimi bayram edilir. Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan Milli Assambleyadır.

**NOBEL MÜKAFATI** - İsveç kimyaçı-mühəndisi, ixtiraçı və sənayeçisi A.B.Nobelin şərəfinə təsis edilmiş beynəlxalq mükafatdır. 1901-ci ildən başlayaraq hər il fizika və kimya sahəsində (Stokholmda, Kral Elmlər Akademiyası tərəfindən), tibb və fiziologiya sahəsində (Stokholmda Karolin Krel tibbi-cərrahiyyə institutu tərəfindən), ədəbiyyat sahəsində (Stokholmda İsveç Akademiyası tərəfindən) ən böyük kəşfə görə, sülhün möhkəmlənməsindəki fəaliyyətə görə (İsveç parlamenti Nobel Komitəsi tərəfindən) verilir.

**NORVEÇ** - Avropanın şimalında, Skandinaviya yarımadasının şimal və qərb hissələrində və Şpitsbergen arxipelaqında yerləşir. Ərazisinin sahəsi 387.000 kv.km, əhalisinin sayı isə 4.330.951 nəfərdir (1995). Dövlət dili norveç dilidir.

Ölkənin tam adı Norveç Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Oslo şəhəridir. Norveç müstəqilliyini 26 oktyabr 1905-ci ildə İsveçdən almışdır. Milli bayram 17 may Konstitusiya günüdür (1814). Dövlət başçısı monarxdır (kral X Harod 17 yanvar 1991-ci ildən hakimiyyətdədir, hakimiyyətin varisi isə Haakon Maqnus 20 iyul 1973-cü ildə doğulmuşdur). İcra hakimiyyəti Dövlət Şurasına rəhbərlik edən baş nazirin əlində cəmlənmişdir. Ali qanunverici orqan ikipalatalı parlament olan Stortinqdir.

**NOTA MÜBADİLƏSİ** - Beynəlxalq müqavilələrin bağlanması formalarından biridir. Adətən, diplomatik münasibətlərin qurulması, diplomatik missiyanın səfirliyə çevrilməsi, hansısa müqavilədə ayrı-ayrı müddəaların dəqiqləşdirilməsi, müqavilələrin fəaliyyətinin dayandırılması və başqa bu kimi məsələlər üzrə dövlətlər arasında müqavilələrin bağlanmasında istifadə olunur.

Müqaviləni təşkil edən identik mətn (nota) tərəflərlə şifahi və ya diplomatik yazışma yolu ilə razılaşdırılır. Əgər notalarda



başqa cür nəzərdə tutulmamışsa, oxşar notalarda notanın qüvvəyə mindiyi tarixin qoyulması qəbul olunmuşdur. Əgər notalar müxtəlif tarixlə yazılmışsa və müqavilənin qüvvəyə minəcəyi tarix göstərilməmişsə, onda əsas nota axırıncı alınan notaya qədər fəaliyyətdə olan nota hesab olunur. Belə notalarda, qaydaya görə göstərilir ki, onlar tərəflər arasında razılıq kimi qəbul olunur.

**NOTİFİKASİYA** (lat. notificare - xəbərdar edilmək, bildirmək) - *Diplomatik və müqavilə praktikasında yazılı şəkildə rəsmi* bildirişdir.

Xarici işlər idarəsinə, diplomatik nümayəndəliyə və yaxud konsulluğa dövlətlərin hansısa beynəlxalq məsələ ilə bağlı mövqeyini ifadə edən, hansısa hadisə və faktla bağlı baxışları əks etdirən, beynəlxalq müqavilələrin imzalanması, ratifikasiyası, müqavilələrə qoşulma və yaxud denonsasiya haqqında məlumat bildirən diplomatik nota və yaxud başqa sənədlərin təqdim edilməsi ilə həyata keçirilir.

**NUNSİ** (it. pinzo, lat. nintiui - elçi) - Roma papasının diplomatik nümayəndəsidir. Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasına görə, nunsi səfir kimi, protokol məsələlərində ən yüksək diplomatik nümayəndəlik başçıları sırasına daxil edilir.

Bir çox katolik ölkələrdə etimadnaməsinin verilmə tarixindən asılı olmayaraq nunsi diplomatik korpusun duayeni olur.

**NÜRNBERQ MƏHKƏMƏSİ** - Nasist hərbi cinayətkarların üzərində aparılmış məhkəmə prosesidir, 20.09.1945-01.10.1946-cı illər ərzində Nürnberqdə keçirilmişdir. Beynəlxalq hərbi tribunalın qarşısında faşistlərin 24 dövlət nümayəndəsi dayanmışdır.

Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinə (Nürnberq tribunalının prinsipləri kimi tanınan) görə, müttəhimlərə aşağıdakı fəaliyyətlərinə görə ittiham irəli sürülmüşdür: Almaniya dövlətinin dünyada hakimliyini həyata keçirmək məqsədi ilə təcavüzkar müharibənin hazırlanmasında və həyata keçirilməsindəki fəaliyyətinə görə, hərbi əsirlərə və işğal olunmuş ölkələrin dinc əhalisinə işgəncə verilməsi və öldürülməsi, mülki əhalinin Almaniya-

ya məcburi işlər üçün aparılması, girovların öldürülməsi, ictimai və şəxsi mülkiyyətin talan edilməsi, şəhərlərin və kəndlərin məqsədsiz dağıdılmasına görə, siyasi, irqi və dini motivlərə görə mülki əhaliyə qarşı məhv etmə, sürgün etmə və başqa qəddarlıq əməllərinin törədilməsinə görə.

Müttəhimlər özlərinin seçimi ilə və yaxud tribunalın təyin etməsi ilə alman vəkillərinə malik idilər. Təşkilatın müdafiəsində ayrılıqda 8 alman vəkili çıxış etmişdi.

Proses zamanı 403 açıq məhkəmə iclası keçirilmiş, 116 nəfər şahid dindirilmiş, on minlərlə şahidlərin yazılı ifadələrinə və 4 mindən çox sənədli sübutlara baxılmışdır.

30.07.1946-cı ildə əsas günahkarların çıxışları qurtarmış, 01.10.1946-cı ildə isə hökm oxunmuşdur. Tribunal mütəhhimləri təcavüzkar müharibəni həyata keçirməsində, Avstriyaya, Çexoslovakiyaya, Polşaya, Danimarkaya, Norveçə, Belçikaya, Yuqoslaviyaya, Yunanıstana, Fransaya, SSRİ-yə və başqa ölkələrə qarşı cinayətkar təcavüzdə, saysız-hesabsız hərbi cinayətlərdə və insanlığa qarşı vəhşilikdə günahkar bildi.

Tribunal H.Qerinqi, Ç.Ribbentropu, V.Keyteli, E.Kaltenbrunneri, A.Rozenberqi, H.Franki, V.Friki, Y.Ştreyxeri, F.Zaukeli, A.Yodlı, A.Zeys-İnkvarti və M.Bormanı (qiyabi) asılmaqla ölüm hökmünə, R.Qessi, V. Funnu və E.Rederi ömürlük həbs cəzasına, B.Şiraxi və A.Şteri 20 illik həbs cəzasına, K.Dyoniçi isə 10 illik həbs cəzasına məhkum etdi. İflic olmuş Q.Krunun işi dayandırıldı, R.Ley isə Nürnberq həbsxanasında özünə qəsd edərək öldü. Q.Friçe, F.Panen və H.Şaxt isə bəraət aldılar.

Müttəhimlər əfv haqqında xahişlə müraciət etdilər. Müraciət Nəzarət Şurası tərəfindən rədd edildikdən sonra Qerinqdən başqa (Qerinq özünə qəsd etdi) məhkum olunmuş müttəhimlər 16.10.1946-cı ildə Nürnberq həbsxanasında asıldılar.

Nürnberq prosesi aşağıdakı tarixi qiymətə malikdir: alman faşizminin yırtıcı cinayəti bütün dünya qarşısında ifşa olundu və onun istənilən formada meydana gəlməsinin təhlükəli olması göstərildi, tarixdə ilk dəfə olaraq təcavüzün beynəlxalq cinayət olması qəbul edildi. Nürnberq tribunalı prinsiplərinə uyğun olaraq, ilk dəfə olaraq təcavüzün əsas günahkarları cinayət məsuliyyətinə cəlb olundu, Nürnberq prosesində ilk dəfə olaraq "müttəhimin cinayəti hökumətin göstərişi ilə və yaxud cinayətkar əmri ilə yerinə yetirməsi onun cavabdehlikdən azad edilməsinə əsas verməməsi" prinsipi həyata keçdi.

Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsində qəbul olunmuş və verilən hökmdə öz əksini tapan prinsiplər beynəlxalq hüququn ümumqəbulolunmuş prinsipləri kimi BMT-nin Baş Məclisinin 11.12.1946 və 27.11.1947-ci il tarixli qətnamələrində də təsdiq edildi. Onların əsasında hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə vaxtın bitməsi prinsipinin tətbiq edilməməsi haqqında 1968-ci il Konvensiyası işləndi.

**NÜVƏSİZ ZONALAR** - Nüvə silahının yayılmadığı zonalardır. Nüvəsiz zonaların yaradılması nüvə münaqişəsinin meydana gəlməsini azaldır, bu zonaya daxil olan ölkələrin təhlükəsizliyini möhkəmləndirir, və nəhayət, nüvə silahının yayılmaması haqqında 1968-ci il müqaviləsinin məqsədlərinin həyata keçməsinə kömək edir. Nüvəsiz zona yaratmaqla nüvə silahı olan dövlətlər öz üzərinə bu zonanın iştirakçılarına nüvə silahı verməmək, bu dövlətlərin nüvə silahı yaratmasına kömək etməmək və bu dövlətlərə qarşı nüvə silahını tətbiq etməklə hədə-qorxu gəlməmək kimi məsuliyyətli cavabdehliyi götürürlər.

Nüvəsiz zona yaratmaq haqqında istənilən müqavilə hökmən:

1. Nüvə silahının zonanın ərazisində tam və şərtsiz olaraq qadağan olunmasını təmin etməlidir;
2. Bu hüququn ümumqəbulolunmuş normalarına uyğun olaraq nüvəsiz zonanın sərhədlərini müəyyən etməlidir.

1959-cu ildə Antarktida rayonu nüvəsiz ərazi elan olunmuşdur. Latın Amerikasında nüvə silahının qadağan olunması haqqında müqavilələrə uyğun olaraq Latın Amerikası da 1967-ci ildə nüvəsiz zona elan olunmuşdur.

**NÜVƏ SİLAHININ YAYILMAMASI HAQQINDA 1966-cı il MÜQAVİLƏSİ** - Tərki-silah Komitəsi çərçivəsində hazırlanmış, 12.06.1968-ci ildə BMT-nin Baş Məclisi tərəfindən bəyənilmişdir. 05.03.1970-ci ildə qüvvəyə minmişdir. Müqavilənin iştirakçılarının sayı 130-dan çoxdur.

Müqavilənin məqsədi nüvə silahının yayılmasının qarşısını almaq, müzakirədə iştirak edən dövlətləri öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmək üçün zəruri olan beynəlxalq nəzarətlə təmin etmək, atom enerjisindən sülh və quruculuq naminə istifadə etmək üçün geniş imkanlar yaratmaqdır.

Müqavilənin iştirakçısı olub, nüvə silahına malik olan hər bir dövlət başqa dövlətə nüvə silahını və yaxud başqa nüvə partlayıcı qurğularını verməməlidir, nüvə silahına malik olmayan dövlətə nüvə silahı və ya nüvə partlayıcı qurğularının istehsalında kömək etməməli, həvəsləndirməməli və təhrik etməməlidir.

Müqavilənin iştirakçısı olan, nüvə silahına malik olmayan hər bir dövlət nüvə silahı olan dövlətlərdən nüvə partlayıcı qurğuları almamalıdır, onların istehsalında heç bir dövlətdən kömək qəbul etməməlidir.

Müqavilə sülh məqsədi ilə nüvə enerjisinin tədqiq edilməsinə, istehsalı və istifadə edilməsinə hər bir iştirakçı dövlətin ayrılmaz huququnu təsbit edir.



# O

**OMAN** - Asiyanın cənub-şərqində Ərəbistan yarımadasında yerləşir. Ərazisinin sahəsi 306.000 kv.km, əhalisinin sayı isə 2.125.089 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Oman Sultanlığıdır. Dövlət quruluşu mütləq monarxiyadır. Paytaxtı Maskad şəhəridir. Oman müstəqilliyini 1650-ci ildə əldə etmişdir (əvvəllər Portuqaliyanın müstəmləkəsi olmuşdur). Milli bayram 18 noyabr hakimiyyətdə olan sultanın doğum günüdür. Qanunvericilik ingilis ümumi hüququna və islam qanunlarına əsaslanır, ali məhkəmə instansiyası sultandır. Sultan dövlətin və hökumətin başçısıdır (sultan Kabus ibn Sid ibn Teymur ölkəni 23 iyul 1970-ci ildən idarə edir). Qanunverici orqan Milli Məclisdir.

**ONLAR QRUPU** ("Paris klubu" adı ilə də tanınır) - Kredit verən ölkələrin hökumətlərarası təşkilatıdır. Beynəlxalq Valyuta Fondunun İdarə Heyətinin qərarı ilə 1961-ci ildə Parisdə təsis edilib. "Onlar qrupu"nun təsisi haqqında saziş 24.17.1962-ci ildə ABŞ, İngiltərə, Fransa, Yaponiya, AFR, İtaliya, Belçika, Hollandiya və İsveçrənin nümayəndələrinin BVF-da kreditlərin verilməsi Baş Müqaviləsinə imza atdıqdan sonra qüvvəyə minmişdir.

"Onlar qrupu"nun məqsədi aşağıdakılardır: dünya dövlətlərinin maliyyə vəziyyəti ilə bağlı məsələlərinin müzakirəsi, BVF-nin valyuta-kredit ehtiyatlarının artırılması, ayrı-ayrı ölkələrə veriləcək kreditlərin həcmi haqqında qərar qəbul etmək və s. BVF-nin qərarlarının əksəriyyəti "Onlar qrupu"nun razılığından sonra həyata keçir.

"Onlar qrupu"nun idarəedici orqanı və mənzil-qərargahı yoxdur. Bu qrup toplantılarını tamamilə məxfi şəkildə üzv dövlətlərin maliyyə nazirləri, nazir müavinləri, mərkəzi bankların idarə heyətinin sədrləri, BVF-nin direktoru, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) baş katibi, Avropa İqtisadi Cəmiyyətinin (AİQ) nümayəndəsinin iştirakı ilə keçirir.

**OPSİON** (lat. optio - seçmə, arzu müiahizə) - Beynəlxalq hüquqda şəxsin özünə vətəndaşlıq seçməsi, beynəlxalq müqa-

vilələrdə müəyyən olunmaqla ərazi dəyişikliyi edildikdə, yeni dövlət yarandıqda, ikili vətəndaşlığı aradan götürmək üçün edilir. Bu halda "optasiya" terminindən daha çox istifadə olunur.

**OPTASİYA** (lat. optatio - arzu, seçimlə yerini dəyişən) - İki vətəndaşlıqdan birinin könüllülük əsasında seçilməsidir. Optasiya müqaviləsi əsasında bir dövlətin başqa dövlətə keçən ərazisinin əhalisinin vətəndaşlıq seçmək hüququnu (başqa sözlə, özündən əvvəlki vətəndaşlığı saxlamaq və ya fərdi şəkildə ərizə verməklə başqa dövlətlərin vətəndaşlığına keçmək hüququnu) özündə əks etdirir. Əgər hər hansı şəxs yaşadığı dövlətin vətəndaşlığını seçmirsə, onda bu halda bu şəxsin müəyyən olunmuş zaman müddətində vətəndaşlığını seçdiyi dövlətdə yerləşdirilməsi nəzərdə tutulur; bu halda optantlar özünün əmlak hüququnu saxlayırlar.

Optasiya hüququ müəyyən bir millətdən olan şəxsin yerləşdirilməsi haqqında və ikili vətəndaşlığı olan şəxslər haqqında məsələlərin tənzimlənməsi halında dövlətlərarası müqavilədə nəzərdə tutula bilər və yaxud birtərəfli qaydada verilə bilər.

Optasiya anlayışı geniş mənada istənilən səbəbə görə vətəndaşlığın seçilməsi haqqında danışıqlarda istifadə olunur.



# Ö

**ÖZBƏKİSTAN** - Orta Asiyada yerləşir. Ərazisinin sahəsi 447.400 kv.km, əhalisinin sayı isə 22.565.440 nəfərdir (1995). Dövlət dili özbək dilidir.

Ölkənin tam adı Özbəkistan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Daşkənd şəhəridir. Özbəkistan müstəqilliyini SSRİ dağıldıqdan sonra 31 avqust 1991-ci ildə əldə etmişdir. Milli bayram 1 sentyabr Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (Nazirlər Kabinetinin sədri) məxsusdur. Ali Qanunverici orqan birpalatalı parlament olan Ali Məclisdir.

**ÖZ-ÖZÜNÜ İDARƏ EDƏ BİLMƏYƏN ƏRAZİLƏR** - Xalqları hələ də tam özünüidarəyə çatmamış müstəmləkə və asılı əraziləri göstərmək üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş termindir.

BMT-nin Nizamnaməsi nəzərdə tutur ki, BMT-nin üzvü olub, öz-özünü idarə edə bilməyən ölkənin idarə olunmasına görə cavabdehlik daşıyan ölkə aşağıdakı prinsipləri qəbul etməlidir: öz-özünü idarə edə bilməyən ərazilərin əhalisinin maraqları birinci dərəcəli olmalıdır; öz-özünü idarə edə bilməyən ölkənin əhalisinin əmin-amanlığının yüksəldilməsi ilə bağlı, bu məqsədlə onların siyasi, iqtisadi və sosial inkişafını təmin etmək, beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, BMT-nin Baş Katibinə mütəmadi olaraq uyğun informasiyaları verməklə bağlı öhdəlik götürməlidir.

Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqındakı 1960-cı il bəyannaməsində göstərilir ki, öz-özünü idarə edə bilməyən ərazidə bütün hakimiyyətin bu ərazinin xalqlarına verilməsi üçün təcili olaraq qərarlar qəbul edilməlidir.

**ÖZÜNÜMÜDAFİƏ** - Beynəlxalq münasibətlərdə qanunauyğun şəkildə güc tətbiq edilməsinin formalarından biridir. İki formada təzahür edir:

1.Təkbaşına özünümüdafiə dövlətin ərazisinin, sərhəddinin toxunulmazlığının qorunması məqsədilə silahlı qarşıdurma şəklində həyata keçirilir. Özünümüdafiə hücum xarakterli də ola

bilər. Bu zaman təcavüzə məruz qalmış dövlət öz ərazi bütövlüyünü təmin etmək məqsədilə güc işlətməli olur.

2. Birgə özünümüdafiə bir və ya bir neçə dövlətin təcavüzə məruz qalmış dövlətə yardımını nəzərdə tutur. Bu dövlətlər arasında ikitərəfli və çoxtərəfli sazişlərlə həyata keçirilir. Birgə özünümüdafiə hərbi sursat yardımı, maddi dəstəkləmə və yaxud birbaşa hərbi əməliyyatlarda iştirakçı olmağı nəzərdə tutur.

**ÖZÜNÜTƏYİNETMƏ HÜQUQU -** Hər bir xalqın müstəqil olaraq öz dövlətinin mövcudluq formasını həll etməsi, azad şəkildə özünün siyasi statusunu müəyyən etməsi və özünün iqtisadi və mədəni inkişafını həyata keçirməsi hüququdur.

Özünütəyinetmə hüququ BMT-nin xalqlar arasında dostluq münasibətlərinin inkişafını xalqların bərabərhüquqluluğu və özünümüəyyənetmə prinsiplərinə hörməti əsasında nəzərdə tutan Nizamnaməsində, həmçinin BMT-nin Baş Məclisinin qəbul etdiyi müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında 1960-cı il bəyannaməsində əks olunmuşdur. Özünütəyinetmə hüququ BMT-nin BM-in çoxlu qətnamələrində, beynəlxalq konfrans və forumlarının qərarlarında təsdiq edilmişdir. Dövlətlər arasındakı əməkdaşlıq və dostluq münasibətlərinə aid olan beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il bəyannaməsində qeyd edilir ki, hər bir dövlət birgə və induvidual fəaliyyətin köməyi ilə bərabərhüquqluluq və özünütəyinetmə prinsiplərinin həyata keçməsinə yardım etməyə və bu prinsiplərin Birləşmiş Millətlər Təşkilatı tərəfindən həyata keçməsinə yardım etməyə borcludur.



# P

**PAKİSTAN -** Cənubi Asiyada yerləşir. Ərazisinin sahəsi 796.095 kv.km, əhalisinin sayı isə 131.541.920 nəfərdir (1995). Ölkənin iki rəsmi dili vardır: urdu və ingilis dilləri.

Ölkənin tam adı Pakistan İslam Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı İslamabad şəhəridir. Pakistan 14 avqust 1947-ci ildə müstəqilliyini əldə etmişdir (Qərbi Pakistan əvvəllər Britaniyanın müstəmləkəsi olmuşdur). Milli bayramları: 14 avqust müstəqillik günü və 23 mart Pakistan günü. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət prezident və ikipalatalı parlament (Senat və Milli Assambleya) vasitəsilə həyata keçir.

**PAKT** (lat. pactum - saziş) - Qarşılıqlı və kollektiv təhlükəsizliyin, qarşılıqlı köməyin və s. təmin edilməsi və yaxud dövlətlərin əməkdaşlığının konkret sahələri üçün mühüm əhəmiyyət kəsb edən norma və prinsiplərin müəyyən edilməsi kimi məsələləri nizamlayan beynəlxalq ikitərəfli və çoxtərəfli müqavilənin adıdır.

**PAKTA SUNT SERVANDA** (lat. pacta sunt servando - müqaviləyə hökmən əməl etməli) - tərəflərin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə ciddi və vicdanla riayət etməsinin zəruriliyini bildirən beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Pakta sunt servanda prinsipinə riayət etmədən beynəlxalq münasibətlərdə stabillik saxlanıla bilməz və onların hüquqi təminatı qoruna bilməz. Prinsipin pozulmasına görə beynəlxalq hüquqi cavabdehlik mövcuddur.

Pakta sunt servanda prinsipi tamamilə beynəlxalq hüquqa uyğun qəbul olunmuş beynəlxalq öhdəliklərə aid edilir, onun fəaliyyəti bərabərhüquqlu olmayan müqavilələrə şamil edilmir. Bu prinsip BMT-nin Nizamnaməsində, beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında, ATƏT-in Yekun Aktında və başqa sənədlərdə əks olunmuşdur.

**PALAU -** Sakit okeanın Palau arxipelaqında yerləşir və 200-dən çox adanı əhatə edir. Ərazisinin sahəsi 458 kv.km, əhalisinin sayı isə 16.661 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Palau Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Koror şəhəridir. Ölkə müstəqilliyini 1 oktyabr 1994-cü ildə əldə etmişdir. Milli bayram 9 oktyabr Konstitusiya günüdür. Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan ikipalatalı parlament olan (Senat - yuxarı palata, Deputatlar palatası - aşağı palata) Milli konqresdir.

**PANAMA** - Mərkəzi Amerika dövlətidir. Ərazisinin sahəsi 77.082 kv.km, əhalisinin sayı isə 2.680.903 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Panama Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Panama şəhəridir. Panama müstəqilliyini 3 noyabr 1903-cü ildə əldə etmişdir (əvvəllər Kolumbiyanın tərkibində olmuşdur). Həmin gün müstəqillik günü kimi bayram edilir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan birpalatalı parlament olan Qanunverici Assambleyadır.

**PAPUA-YENİ QVİNEYA** - Sakit okeanın cənub-qərbindəki Yeni Qvineya adasının cənubunda Buqenvil, Buka, Luizada və Bismark adalarında yerləşir. Ərazisinin sahəsi 462.840 kv.km, əhalisinin sayı isə 4.294.750 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Papua-Yeni Qvineya Dövlətidir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkə Britaniya Birliyinin üzvüdür. Paytaxtı Port-Morsbi şəhəridir. Papua-Yeni Qvineya 16 sentyabr 1975-ci ildə Avstraliyadan müstəqilliyini əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi bayram edilir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. İcra hakimiyyəti hökumətə başçılıq edən baş nazirə məxsusdur. Ali qanunverici orqan Milli parlamentdir.

**PARAFLAMA** (fr. parafe - qısa imza) - Müqavilənin mətninə razılıq əlaməti olaraq, müqaviləni imzalayacaq tərəflərin səlahiyyətli nümayəndələrinin adının və atasının adının baş hərflərini göstərməklə beynəxalq müqavilənin ilkin imzalanmasıdır. Paraflama dedikdə, müqavilənin autenik mətninin müəyyən edilməsinin üsullarından biri başa düşülür.



Paraflama müqavilənin bağlanmasının məcburi mərhələsi deyildir. Paraflama sadəcə olaraq, sonradan müqavilənin mətni ilə bağlı meydana çıxa biləcək mübahisələrdən sığorta olunmaq üçündür. Adətən, paraflamadan sonra paraflama mətni imzalanır.

**PARAQVAY** - Cənubi Amerikanın mərkəzində yerləşir. Ərazisinin sahəsi 406.752. kv.km, əhalisinin sayı 5.358.198 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Paraqvay Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Asunsion şəhəridir. Paraqvay İspaniyadan müstəqilliyini 14 may 1811-ci ildə əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi bayram edilir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan Senatdan (yuxarı palata) və Deputatlar palatasından (aşağı palata) təşkil olunmuş ikipalatalı parlament olan Baş Assambleyadır.

**PARLAMENT** (ing. Parlament, fr. Parlement, parler- danışmaq sözündən) - Dövlətin qanunvericilik funksiyalarını icra edən ümummilli nümayəndəli orqandır. İlk dəfə İngiltərədə (XIII əsrdə) silki nümayəndəlik orqanı kimi yaradılmışdır. Dövlətlərin əksəriyyətində parlament XVI-XVIII əsrlərdən sonra formalaşmışdır. Parlament birpalatalı, yaxud ikipalatalı sistemdə qurulur. Həm birpalatalı parlament, həm də ikipalatalı parlamentin aşağı palatası, bir qayda olaraq, əhali tərəfindən birbaşa seçki yolu ilə seçilir, yuxarı palatalar isə müxtəlif yolla (seçkilərdə, təyin etməklə, irsən) yaradılır. Bir qayda olaraq onların aşağı palatalara nisbətən hüquqları azdır (bax. İkipalatalı sistem).

Parlamentə formal olaraq yüksək mövqe, ilk növbədə müstəsna qanunvericilik hüququ (lakin bu hüquq dövlət başçısının veto hüququ ilə məhdudlaşır) verilir. Parlamentin səlahiyyətinə büdcəni və digər maliyyə qanunlarını qəbul etmək, hökuməti təşkil etmək, beynəlxalq müqavilələri təsdiq etmək və s. aiddir. Bəzi parlamentlər müəyyən məhkəmə funksiyalarını da həyata keçirir.

Parlamentlərin reqlamentlərində komitə, komissiya, fraksiya, köməkçi orqanların yaradılması nəzərdə tutulur. Parlamentlərin qanunvericilik proseduraşı konstitusiyalarla, reqlamentlərlə, qanunlarla, parlament adətləri ilə nizamlanır. Hər bir

parlamentdə bu proseduranın öz xüsusiyyətləri olsa da o əsasən aşağıdakı mərhələlərdən ibarətdir: qanun layihəsinin irəli sürülməsi, onun müzakirəsi və bəyənilməsi, ikipalatalı parlamentlərdə bəyənilmiş qanun layihəsi yuxarı palataya verilir ki orada da eyni mərhələrdən keçir (palatalar arasındakı ziddiyyətlərin aradan qaldırılması, qanun layihəsinin sanksiya almaq üçün dövlət başçısına verilməsi, layihə rədd edildikdə (veto) isə vetonun aradan qaldırılması). Prezidentin, yaxud monarxın sanksiyası alındıqdan sonra qanun rəsmi orqanda dərc olunur (promulqasiya), bu da onun qüvvəyə minməsi deməkdir.

**PARLAMENTARİZM** - Ali dövlət hakimiyyətinin təşkili və fəaliyyəti sistemi; parlamentə üstünlük verməklə qanunverici və icra funksiyalarının bölüşdürülməsi ilə səciyyələnir. Parlamentarizm zamanı hökumət parlamentdə çoxluq qazanmış partiyaların üzvlərindən təşkil edilir və onun qarşısında məsuldur. Beləliklə, dövlət hakimiyyəti və idarəetməsi mexanizmində parlamentarizm seçkili orqanın formal cəhətdən aparıcı rolunu bildirir. Parlamentli və prezidentli idarəetmə forması olan dövlətlərdə hökumət parlamentin fəaliyyətinə nəzarəti müxtəlif yolla həyata keçirir. Parlamentarizm və parlament üzvi surətdə bağlı qarşılıqlı anlayışlardır.

**PARLAMENTLƏRARASI İTTİFAQ** - Beynəlxalq qeyri-hökumət təşkilatıdır. Müxtəlif ölkələrin parlamentləri arasındakı şəxsi əlaqələri inkişaf etdirmək və demokratiyanın inkişafı naminə onların qüvvələrini birləşdirmək məqsədilə 1889-cu ildə Parisdə yaradılmışdır. Parlamentlərarası İttifaqa 110-dan çox dövlətin milli parlament qrupu daxildir.

*Son illər* Parlamentlərarası İttifaq tərki-silah, Yaxın Şərq probleminin nizama salınması və s. məsələlərlə bağlı müsbət qərarlar qəbul etmişdir.

Parlamentlərarası İttifaq nəzdində aşağıdakı daimi araşdırmalar komissiyaları fəaliyyət göstərir: siyasi məsələlərlə, beynəlxalq təhlükəsizlik və tərki-silah məsələləri ilə bağlı, hüquqi məsələlərlə bağlı, təhsil, elm, mədəniyyət və ətraf mühitin problemləri ilə bağlı və s.

Parlamentlərarası ittifaq BMT yanında məşvərətçi statusa



malikdir. BMT katibliyi, BMT-nin ixtisaslaşdırılmış qurumları ilə əlaqə saxlayır.

Parlamentlərarası İttifaqın ali orqanı hər il dövlətlərin birinin paytaxtında çağırılan Parlamentlərarası konfransdır. Konfranslararası dövrdə rəhbərliyi Şura (hər milli parlament qrupundan 2 nümayəndə) həyata keçirir. Şuranın inzibati orqanı - İcraiyyə komitəsi 11 üzvdən ibarətdir.

Parlamentlərarası İttifaqın Katibliyi Cenevrədə yerləşir.

**PARLAMENTYOR** (fr. parlamentaire - elçi) - Döyüşən tərəflərdən birinin döyüş zonasında düşmənlə danışıq aparmaq üçün xüsusi səlahiyyət verilərək göndərilmiş rəsmi nümayəndəsidir. Parlamentyorun və onu qarşılayan tərəfin hüquq və vəzifələri 1907-ci il 4-cü Haaqa konvensiyasına əlavə olunan quru müharibənin qanun və qaydaları haqqında müddəalarla, dəniz müharibəsində göstərilən müddəalarda əks olunan qaydalar və normalarla nizamlanır.

Parlamentyorun toxunulmazlığı çox qədim və ən çox hörmət olunan beynəlxalq qaydadır. Parlamentyorla birlikdə onu müşayiət edən şəxslərin hamısı toxunulmazlığa malikdirlər. Parlamentyorun fərqləndirici əlamətləri "ağ bayraqdır". Parlamentyor öz hissəsinə qayıdarkən təhlükəsizliklə təmin olunmalıdır.

Parlamentyor öz statusundan başqa məqsədlər üçün istifadə etməməlidir. Əgər parlamentyor öz statusundan casusluq məqsədi üçün və s. istifadə edərsə, onda o toxunulmazlıqdan məhrum edilə bilər.

**PARTİZAN** - Düşmən tərəfindən işğal olunmuş torpaqlarda öz vətəninin müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan mütəşəkkil hərbi birliyin tərkibində vuruşan şəxsdir.

Partizan müharibəsinin qaydaları bir çox ümumqəbulolunmuş beynəlxalq sənədlərdə, xüsusilə 1907-ci il 4-cü Haaqa Konvensiyası və ona əlavələrdə, həmçinin müharibə qurbanları haqqında 1949-cu il Cenevrə konvensiyası və ona 1977-ci il əlavə protokollarda öz əksini tapmışdır.

1949-cu il Cenevrə konvensiyasının 1-ci əlavə protokolunda partizanların funksiyalarının bəziləri konkretləşdirilir: mülki

şəxslərin müdafiəsini gücləndirmək məqsədi ilə partizanlar hər hərbi toqquşma zamanı açıq şəkildə silah gəzdirməlidirlər, xarici görkəmlə fərqləndirici əlamətə malik olmalıdırlar, müharibənin qayda və qanunlarına hörmət etməlidirlər.

Partizan hərəkatının qanuniliyi silahlı münaqişələrin mövcudluğu və xarakteri ilə sıx şəkildə bağlıdır. Partizan müharibələri təcavüzkarlara qarşı yönəlmişdir.

**PERSONA QRATA** (lat. persona qrata - arzu olunan şəxs) - Diplomatik nümayəndəliyin başçısı təyin olunmasına qəbul edən ölkənin hökumət başçısı tərəfindən razılıq verilən diplomatik nümayəndədir.

Fəaliyyət göstərəcəyi ölkəyə getməyə icazə (viza) almış istənilən başqa diplomatik əməkdaş persona qrata kimi qəbul edilir.

**PERSONA NON QRATA** (lat. persona non qrata - arzu olunmayan şəxs) - Diplomatik nümayəndəliyin fəaliyyət göstərdiyi ölkənin hökuməti tərəfindən arzu olunmayan şəxs kimi qəbul olunan diplomatik heyətinin üzvüdür.

Şəxsin persona non qrata elan edilməsi motivləri aşağıdakılar ola bilər: həmin şəxsin fəaliyyət göstərdiyi ölkənin hökumətini və ya başqa dövlət orqanlarını tənqid etməsi, dövlətin daxili işinə qarışması, dövlətin qanun və qaydalarına riayət etməməsi, diplomatik immunitetlərdən və imtiyazlardan sui-istifadə etməsi, diplomatın özünü aparması üçün ümumqəbulolunmuş beynəlxalq normaları pozması və s. Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyasına uyğun olaraq dövlət akkreditə olunan dövlətə diplomatik nümayəndənin persona non qrata elan olunması haqqında xəbər verir, lakin bunun motivlərini açmaya da bilər.

Diplomata persona non qrata elan edildikdən sonra akkreditə olunan dövlət həmin şəxsi geri çağırmalıdır, ya da nümayəndəliyin fəaliyyəti dayandırılmalıdır. Diplomatik praktikada belə hallar da olmuşdur ki, diplomata persona non qrata elan edilir, lakin o ölkədən çıxmayaraq, qeyri-rəsmi şəxs kimi ölkədə qalır.

Vyana konvensiyasının 9-cu maddəsində deyilir: "Bu və ya başqa şəxs fəaliyyət göstərdiyi ölkəninin ərazisinə gələnə qədər persona non qrata elan oluna bilər".



**PERU** - Cənubi Amerikanın qərb hissəsində yerləşir. Ərazisinin sahəsi 1.285.215 kv.km, əhalisinin sayı isə 24.087.372 nəfərdir (1995). İki rəsmi dili vardır: ispan və keçua dilləri.

Ölkənin tam adı Peru Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Lima şəhəridir. Peru İspaniyadan müstəqilliyini 5 aprel 1821-ci ildə əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına rəhbərlik edən baş nazirə məxsusdur. Ali qanunverici hakimiyyət olan Konqres (ikipalatalı parlament) 5 aprel 1992-ci ildə buraxılmışdır.

**PİŞƏVƏRİ HƏRƏKATI** - Sovet-İran müqaviləsinə (1921) əsasən 1941-ci il avqustun 15-də sovet qoşunları İrana daxil oldu. Təbrizdə antifaşist və demokratik hərəkat gücləndi. Ana dilində bir neçə qəzet və jurnal nəşr olundu. 1942-ci ildə Təbrizdə İran Xalq Partiyasının komitələri yaradıldı. 1944-cü ildə Təbrizdə mərkəzi hökumətə qarşı kütləvi nümayişlər keçirildi. 1945-ci ildə Təbrizdə Azərbaycan Demokratik Firqəsi (ADF) yaradıldı. Noyabrın 20-21-də Təbrizdə Azərbaycan Xalq Konqresi çağırıldı, Azərbaycan Milli Komitəsi yaradıldı. Dekabrın 12-də (12 azər) Təbrizdə Azərbaycan Milli Məclisi işə başladı və Seyid Cəfər Pişəvəri başda olmaqla Azərbaycan Milli hökumətinin tərkibini təsdiq etdi. Milli hökumət Təbrizdə bir çox mədəni, ictimai-siyasi tədbirlər həyata keçirtdi. 1946-cı il iyunun 13-də Təbrizdə İran hökuməti ilə Azərbaycan Milli hökuməti arasında bağlanan sazişə görə, Azərbaycan Milli hökuməti ləğv edildi və vilayət əncüməninə çevrildi. 1946-cı il dekabrın əvvəllərində İran qoşunları Təbrizə hücuma başladı. Təbrizdə Milli hökumətin tədbirləri ləğv edildi, demokratik hərəkatın iştirakçılarına divan tutuldu. Seyid Cəfər Pişəvəri isə 1947-ci ilin iyununda Azərbaycan SSR-də avtomobil qəzası nəticəsində faciəli surətdə həlak oldu.

**PLEBİSİT** (lat. plebscitum, plebs - sadə xalq və scitum - qərar) - Səsvermə yolu ilə bu və ya başqa məsələlərə əhalinin

münasibətini bildirmə formasıdır. Plebisit hansısa ərazinin və ya onun bir hissəsinin dövlətə məxsus olduğunu müəyyən etmək üçün, həmçinin iki və ya daha çox dövlətlərin konfederasiya və ya federasiya yaratmaq məqsədi ilə birləşməsi məsələsinin həlli üçün istifadə oluna bilər. Plebisit həm dövlətdaxili aktların əsasında, həm də beynəlxalq müqavilələrin müddəalarına uyğun olaraq keçirilə bilər.

Müasir beynəlxalq hüquq plebisitin ərazi dəyişdirilməsinə tətbiqini o halda mümkün hesab edir ki, plebisitin tətbiqi əhalinin tam sərbəst şəkildə iradəsini ifadə etməsinə təminat verən bir sıra şərtlərə riayət edilməsi ilə keçirilsin. Xüsusi halda bu şərtlərə aşağıdakılar daxildir: hər hansı xarici təzyiqin olmaması, plebisitin keçirilməsi üçün yerli əhalinin nümayəndələrindən müvəqqəti hökumət orqanlarının yaradılması, bütün demokratik partiyaların sərbəst fəaliyyəti, plebisitin ümumi, bərabər və gizli səsvermə ilə keçirilməsi.

Beynəlxalq hüquq plebisitin hər hansı beynəlxalq təşkilatın nəzarəti altında keçirilməsini istisna etmir.

**POLŞA** - Mərkəzi Avropa ölkəsidir. Ərazisinin sahəsi 312.683 kv.km, əhalisinin sayı isə 38.620.000 nəfərdir (1995). Dövlət dili polyak dilidir.

Ölkənin tam adı Polşa Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Varşava şəhəridir. Polşa müstəqilliyini 11 noyabr 1918-ci ildə əldə etmişdir. Milli bayram 3 may Konstitusiya günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına rəhbərlik edən baş nazirə məxsusdur. Ali qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata. Seym - aşağı palata) parlament olan Milli Məclisdir.

**PORTUQALİYA** - Cənub-qərbi Avropada Piriney yarımadasında yerləşir. Ərazisinin sahəsi 91.985 kv.km, əhalisinin sayı isə 10.562.388 nəfərdir (1995). Dövlət dili portuqaliya dilidir.

Ölkənin tam adı Portuqaliya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Lissabon şəhəridir. Portuqaliya müstəqilliyini 1143-cü ildə əldə etmişdir, 5 oktyabr 1910-cu ildə isə özünü respublika elan etmişdir. Milli bayram 10 may Portuqaliya günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Respublika Məclisidir.



**PREAMBULA** (fr. Preambula - müqəddimə) - Beynəlxalq müqavilələrin giriş hissəsidir. Preambulada, qaydaya görə, müqavilə bağlayan tərəflər sadalanır, müqavilənin bağlanma motivləri, onun məqsəd və prinsipləri, başqa müqavilələrlə qarşılıqlı əlaqəsi, beynəlxalq hüququn norma və prinsipləri izah edilir. Preambula müqavilənin ayrılmaz tərkib hissəsidir və müqavilənin təfsiri verildikdə başqa hissələrlə yanaşı preambuladan da istifadə olunur.

Preambula beynəlxalq hökumətlərarası və başqa təşkilat və konfransların qərarlarında (qətnamələrində) ola bilər.

**PREROQATİV** (lat. praeraqotivus - ilk səs verən) - Hansısa dövlət qurumuna və ya vəzifəli şəxsə məxsus olan müstəsna hüquqdur.

**PRESEDENT** (lat. praecedentis - əvvəlki) - Beynəlxalq hüquqda beynəlxalq münasibətlərin hansısa məsələsinin həlli üsuludur, belə ki, bu üsul başqa analoji hallarda (bu hallar beynəlxalq hüququn ümumqəbulolunmuş norma və prinsiplərinə uyğun olmalıdır) nümunə kimi istifadə oluna bilər.

Beynəlxalq-hüquqi presedent təkcə məhkəmə orqanlarının qərarlarına aid edilir. O, beynəlxalq hüququn mənbəsi hesab olunur. Bununla yanaşı, Beynəlxalq məhkəmə presedenti köməkçi vasitə kimi tətbiq edilə bilər.

Presedent yeni müqavilə normalarının və beynəlxalq adətlərin formalaşmasına müəyyən təsir göstərir.

**PROMULQASİYA** (lat. promulqatio - elan etmə, xalqa bildirmə) - Parlamentin qəbul etdiyi qanunun rəsmən elan edilməsidir. Qanun layihəsinin dövlət başçısı tərəfindən konstitusiyada müəyyən edilmiş müddətdə (adi, yaxud qısaldılmış müddətdə) sanksiyalaşdırılması, habelə qanunun rəsmi nəşrdə dərc edilməsidir. Bir qayda olaraq, qanun yalnız Promulqasiyadan sonra məcburi qüvvə alır. Əksər dövlətlərdə bütün aktların Promulqasiyasını dövlət başçısı həyata keçirir.

**PROLONQASİYA** (lat. prolonqare - uzatmaq) - Beynəlxalq müqavilənin fəaliyyət müddətinin uzadılmasıdır. Prolonqasiya müəyyən və ya qeyri-müəyyən zaman müddətli müqavilənin iştirakçılarının xüsusi razılığı ilə protokol rəsmiləşdirilməsi ilə, notaların mübadiləsi ilə və ya başqa yollarla və yaxud müqavilənin iştirakçısı olan dövlətlərin heç biri müqavilədə

nəzərdə tutulmuş müddətə etiraz bildirməzsə, müqavilənin müddəaları ilə yanaşı müqavilədə müddətin artırılması ilə bağlı müddəanın nəzərdə tutulması ilə həyata keçirilir (avtomatik protokol).

**PROPORSİONAL SEÇKİ SİSTEMİ** - Dövlət hüququnda seçki sistemidir. Bu sistem seçicilərin partiyaya verdiyi səslər və partiyanın qazandığı mandatlar arasında mütənasiblik prinsipinə əsaslanır. Proporsional nümayəndəlik sistemində iri seçki dairələri təşkil edilir ki, onların hər birindən bir neçə deputat seçilir. Dairələr nə qədər iri olarsa, proporsional nümayəndəlik sisteminin majoritar sistemə nisbətən üstünlüyü o qədər aydın görünür. Proporsional nümayəndəlik sistemi qaydasında nümayəndəli orqanlara keçirilən seçkilərdə namizədləri ancaq siyasi partiyalar irəli sürür (hər partiya öz namizədlərinin siyahısını təqdim edir), seçici isə müvafiq partiyanın bütöv siyahısına səs verir. Bəzən seçiciyə sərbəst siyahı vasitəsilə (yəni seçicilərin partiya siyahısında namizədlərin familiyaları qarşısında qeyd etməklə) namizədlərə öz münasibətini bildirmək imkanı verilir.

Partiyaların mandatlarının sayını müəyyən etmək üçün seçki metri (kvota) - bir deputatın seçilməsi üçün zəruri olan səslərin ən az sayı- müəyyən edilir. Ayrılıqda hər bir seçki dairəsi üçün və yaxud bütövlükdə ölkə üçün kvota müəyyən edilə bilər. Partiyanın qazandığı yerlər sərbəst siyahı və yaxud qarşılıqlı siyahı (bu halda yerlər namizədlərin partiya siyahısında yerləşməsinə uyğun bölünür) qaydasında bölüşdürülür. Mahiyyət etibarı ilə proporsional nümayəndəlik sistemi ancaq çoxadlı (poliminal) ola bilər, çünki bir mandatı bir neçə partiya arasında bölmək mümkün deyil.

Proporsional nümayəndəlik sistemi geniş yayılmış sistemdir. Bu sistem Finlandiya, İsveçrə, İsveç, Norveç, AFR, Belçika, İsrail, Türkiyə, Avstraliya və Latın Amerikası ölkələrinin əksəriyyətində tətbiq olunur. Bəzi ölkələrdə proporsional nümayəndəlik sistemi majoritar seçki sisteminin bəzi növlərilə yanaşı tətbiq edilir.

**PROSEDURA QAYDALARI** - Təşkilatların işlərini nizamlayan qaydaların, beynəlxalq konfransların və beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının orqanlarının sessiyalarının çağırılması və keçirilməsi qaydalarının, əsas orqanlarının seçilməsi üsullarının, konfransın gündəliyində duran məsələlərin müzakirəsi metodlarının və s. normaların küllüsüdür.



Prosedura qaydalarının işlənməsi, adətən, konfransların təşkilat komitəsi tərəfindən yerinə yetirilir, onların təsdiqi isə konfransların plenar iclaslarında keçirilir. Beynəlxalq təşkilatların mühüm prosedura məsələləri (səsvermənin qaydaları, yeni üzvlərinin seçilməsi qaydaları və s.) onların nizamnaməsində həll edilir, prosedura qaydaları isə uyğun nizamnamə müddəasını konkretləşdirir.

Konfransın çağırılması və keçirilməsi yeri haqqında, iştirakçı dövlətlər haqqında, müşahidəçilərin hüquqları haqqında, foruma dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələri haqqında, vəzifəli şəxslərin seçilməsi və funksiyaları haqqında, katibliyin fəaliyyəti, köməkçi orqanların təsisi, rəsmi və işçi dil, konfransın sənədləşdirilməsi, maliyyə məsələləri, cari məsələnin təsdiqi, iclasların keçirilməsi və s. haqqında prosedura qaydalarında müddəalar əks olunur.

İştirakçıların sayı çox olan konfranslarda qərar iştirakçı nümayəndələrin 2/3 və ya 3/4 səs çoxluğu ilə qəbul olunur. Bir çox konfranslar və ya orqanlar qərarı konsensus əsasında qəbul edir. Hərdən eyni bir konfransda qəbul edilən qərarın xarakterindən asılı olaraq müxtəlif qaydalar tətbiq olunur. Bir çox beynəlxalq təşkilatlarda "ölçülüb-biçilmiş" səsvermə adlanan metoddan istifadə olunur (hər bir iştirakçı təşkilata qoyduğu maliyyə vəsaitinə uyğun olaraq mütənasib səsə malik olur). Prosedur məsələlər üzrə qərarın qəbul edilməsi üçün adətən, adi səs çoxluğu kifayət edir (50% +1). BMT-nin Təhlükəsizlik Şurası prosedura məsələlərindən başqa bütün məsələlər üzrə qərarı 9 səslə, o cümlədən Şuranın bütün daimi üzvlərinin səsləri üst-üstə düşdükdə qəbul edir (bax. Yekdillik prinsipi).

Prosedura qaydalarına riayət olunmasına konfransın sədri nəzarət edir. Prosedura qaydalarının bu və ya başqa müddəalarının tətbiqi ilə bağlı fikir ayrılığı ortaya çıxarsa, mübahisəli məsələ konfransın iştirakçıları tərəfindən həll edilir.

**PROTEKTORAT** (lat. protector - müdafiəçi, himayədar) - Müstəmləkə asılılığının bir formasıdır. Belə ki, bir dövlət özünün xarici siyasətinin aparılmasını və ərazisinin müdafiəsini başqa dövlətə həvalə edir. Beynəlxalq münasibətlər tarixində protektorat çox vaxt birtərəfli aktla müəyyən olunur, belə ki, 1914-cü

ildə Böyük Britaniya birtərəfli bəyannamə ilə Misir üzərindəki protektoratlığını, 1939-cu ildə isə Hitler Almaniyası Çexoslovakiyanın üzərində protektoratlığını müəyyən etmişdir.

**PROTOKOL** - Beynəlxalq müqavilələrin adlarından biridir. Mühüm çoxtərəfli və ya ikitərəfli müqavilələr protokol şəklində verilə bilər, məsələn, müharibədə boğucu, zəhərləyici və başqa tip qazların və bakterioloji vasitələrin tətbiqinin qadağan edilməsi haqqında 1925-ci il Cenevrə protokolu.

Diplomatik praktikada tez-tez əsas müqavilələrin davamı olan, onu tamamlayan, onun fəaliyyətini dəyişən və ya məhdudlaşdıran protokollara rast gəlinir (yekun protokolu, tamamlayan protokol, imza protokolu, müqavilədə düzəlişlər aparılması haqqında, müqavilələrin vaxtının uzadılması və s. haqqında protokol).



# R

**RADİOLOJİ SİLAHLAR** - Kütləvi qırğın silahlarının növlərindən biridir. Bu silahların təsiri ionlaşdırılmış şüalarla insanları məhv etmək, ətraf mühiti və müxtəlif obyektləri yoluxdurmaq məqsədi ilə radioaktiv maddələrdən istifadə olunmasına əsaslanır.

**RATİFİKASİYA** (lat. ratus - həll edilmiş, facere - etmək) - Dövlət və ya hökumət adından onun səlahiyyətli nümayəndəsinin imzaladığı beynəlxalq müqavilənin dövlət hakimiyyətinin ali orqanı tərəfindən təsdiqidir. Ratifikasiya müqavilə öhdəliyinə dövlətin razılığını ifadə edən formalardan biridir.

Ratifikasiya müvafiq aktın, həmçinin ratifikasiya haqqında və dövlətin müqaviləyə riayət edəcəyi haqqında bildirilən xüsusi sənədin - ratifikasiya fərmanının nəşri ilə rəsmiləşdirilir. Ratifikasiya fərmanı dövlət başçısı və ya hökumət başçısı tərəfindən imzalanır və xarici işlər naziri tərəfindən təsdiq edilir, fərmana dövlətin möhürü vurulur.

Çoxtərəfli müqavilənin ratifikasiyası halında ratifikasiya fərmanı müqavilədə müəyyən olunan depozitora saxlanması üçün verilir. İkitərəfli müqavilənin ratifikasiya halında isə müqavilənin iştirakçıları arasında ratifikasiya fərmanının mübadiləsi olur. Əgər ikitərəfli müqavilə müqavilə iştirakçısı olan dövlətlərin birinin paytaxtında imzalanarsa, onda ratifikasiya fərmanının mübadiləsi o biri dövlətin paytaxtında olacaqdır.

Çoxtərəfli müqaviləni ratifikasiya etdikdə dövlət düzəlişlər etmək və bəyanat vermək hüququna malikdir və bunlar ratifikasiya fərmanında qeyd olunur.

**REFERENDUM** (lat. referendum - xəbər verilməli şey ) - Dövlət hüququnda konstitusiya, qanunvericilik, yaxud daxili və xarici siyasət məsələlərinə dair qəti qərar qəbul edilməsi üçün seçki korpusuna müraciətdir. Referendumun keçirilməsi şərtləri və onun üsulu (proseduras) müvafiq ölkələrin və ya federasiya subyektlərinin konstitusiyaları və qanunvericiliyi ilə nizamlanır. Predmetindən asılı olaraq aşağıdakı referendumlar fərqləndirilir: konstitusion referendum (konstitusiya layihəsi və yaxud konsti-

tusiyada edilməli düzəlişlər ümumxalq müzakirəsinə çıxarılır - Fransada, İsveçrədə, İspaniyada), qanunvericilik referendumu (qanun layihəsi ümumxalq müzakirəsinə çıxarılır - İtaliyada), məşvərətçi referendum (hər hansı mühüm prinsip referendumun predmeti ola bilər və hökumətin siyasəti bu prinsipin bəyənilməsindən və ya rədd edilməsindən asılıdır, məs., 1975-ci ildə Böyük Britaniyada onun Avropa İqtisadi Birliyinə üzv olması məsələsinə dair referendum keçirilmişdir).

Keçirilməsi üsuluna görə məcburi referendum (müvafiq qərar layihəsini hökmən seçki korpusu təsdiq (ratifikasiya) etməlidir, məs., İspaniyanın 1978-ci il Konstitusiyasına konstitusiya düzəlişinin layihəsi, ABŞ-ın bütün ştatlarında konstitusiya düzəlişlərinin layihəsi) və fakultativ referendum (konstitusion referendum və ya qanunvericilik referendumu keçirmək təşəbbüsünü seçki korpusu (İtaliyada, ABŞ-ın 22 ştatında), federasiya subyekti (İsveçrədə) və yaxud mərkəzi hakimiyyət (Fransada) irəli sürə bilər) olur. Tətbiqi dairəsinə görə ümummilli (bütün millət və yaxud dövlət miqyasında keçirildikdə), yerli referendum (federasiyanın ayrı-ayrı subyektlərində və ya inzibati-ərazi vahidlərində) keçirilir.

**REGİONAL MÜQAVİLƏLƏR** - Hansısa coğrafi regionun dövlətlərinin iştirak etdiyi çoxtərəfli beynəlxalq müqavilələrdir. Regional müqavilənin əsas məqsədi bu coğrafi regionun bu və ya digər sahələrində razılaşan tərəflər arasında əməkdaşlığı təmin etməkdir.

BMT-nin Nizamnaməsinə uyğun olaraq, regional müqavilə Birləşmiş Millətlər Təşkilatının məqsəd və prisipləri ilə eynilik təşkil etməlidir. Regional səviyyədə beynəlxalq sülhün və təhlükəsizliyin müdafiə edilməsi məqsədi ilə bağlanmış regional müqavilənin iştirakçıları yerli mübahisənin dinc vasitələrlə regional müqavilənin köməyi ilə həll edilməsi üçün bütün səylərini sərf etməlidirlər. Əgər mübahisələr regional müqavilələrlə həll edilməzsə, onda məsələ BMT-nin Təhlükəsizlik Şurasına verilir.

**REPATRİASİYA** (lat. repatriatio ) - Müxtəlif səbəblər ucbatından başqa dövlətin ərazisində yaşamağa məcbur olmuş insanların ölkəyə daimi yaşamağa qayıtmasıdır.



Repatriasiya adətən, beynəlxalq müqavilələr əsasında həyata keçir. Repatriasiya beynəlxalq müqavilələrdən kənar şəkildə də həyata keçirilə bilər, bir şərt daxilində ki, maraqlı olan dövlətin və ya dövlətlərin qanunvericiliyində uyğun qanunlar olsun. Repatriasiya tez-tez vətəndaşlığın dəyişilməsi (qəbul edilməsi ) ilə olur. Hərbi əsirlərin repatriasiya məcburiliyi müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyasında nəzərdə tutulub.

**REPARASİYA** (lat. reparatio - bərpa) - Beynəlxalq hüququn bir subyektinin beynəlxalq hüququn başqa subyektinin hüquqlarını pozması ilə ona vurulan ziyana görə maddi məsuliyyət daşımasıdır. Reparasiyanın ödənişi restitusiya (əvvəlki vəziyyətə qaytarma), pul şəklində və yaxud başqa maddi kompensasiya ilə ola bilər.

Müasir beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, təcavüzkar müharibəni törədən dövlətlər maddi cavabdehliyə, yəni hərbi reparasiyaya malikdir. Belə ki, 1945-ci il Krım (Yalta) konfransının və 1945-ci il Berlin (Potsdam) konfransın qərarlarında Almaniyanın reparasiya ödənişi məsələsi nəzərdə tutulmuşdu.

**REPRESALLİ** (lat. repressaliae - dayandırmaq) - Beynəlxalq hüquq normalarını pozaraq dövlətə başqa dövlətin vurduğu maddi və mənəvi ziyana görə, ziyan çəkən dövlətin cavab tədbirləri görmək üçün məcburi hüquqi fəaliyyətidir. Represallinin məqsədi qanunu pozan dövləti özünün qeyri-qanuni fəaliyyətini dayandırmağa, ziyanı ödəməyə məcbur etmək və gələcəkdə bu şəkildə aktların təkrar olunmasının qarşısını almaqdır.

Hərbi qüvvənin tətbiqi ilə bağlı olan represalli müasir beynəlxalq hüquqda qadağan edilir və təcavüz kimi qiymətləndirilir.

**RESPUBLİKA** (lat. respublica, res - iş və publicus- ictimai, ümumxalq) Dövlət idarəetmə formasıdır; bu zaman bütün ali dövlət hakimiyyəti orqanları ya seçilir, ya da ümummilli nümayəndəli idarələr tərəfindən təşkil edilir. Tarixən Respublika antik dövrdə Avropada monarxiyanın antipodu kimi meydana gəlmişdir.

Respublikanın iki əsas növü fərqləndirilir: prezidentli respublika və parlamentli respublika. Dövlət başçısının və hökumət

başçısının səlahiyyətinin prezidentin əlində cəmləşməsi prezidentli respublikanın başlıca fərqləndirici xüsusiyyətidir (ABŞ, Argentina, Braziliya, Meksika və s.). Ali dövlət hakimiyyət orqanlarının arasında səlahiyyətlərin ciddi surətdə ayrılması və onların təşkilati cəhətdən xüsusiləşməsi prezidentli respublikanın digər cəhətlərini də şərtləndirmişdir: prezidentin qeyri-parlament metodu ilə seçilməsi (birbaşa, yaxud dolayı seçkilər vasitəsilə) və hökumətin qeyri-parlament üsulu ilə təşkil edilməsi, hökumətin parlament qarşısında məsuliyyəti institutunun olmaması və prezidentə parlamenti vaxtından əvvəl buraxmaq hüququ verilməməsi. Prezidentli respublikada hökumət daha sabitdir, parlament isə icra hakimiyyətindən nisbətən az asılıdır.

Parlamentli respublikanın ali dövlət hakimiyyət orqanları sisteminin əsasını formal olaraq parlamentin hökmranlığı (üstünlüyü) prinsipi təşkil edir, hökumət siyasi fəaliyyətinə görə həmin parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Prezidentli respublikadan fərqli olaraq, hökumət yalnız parlament çoxluğuna malik olduqda (iki palatalı parlamentdə aşağı palatanın çoxluğuna) hakimiyyətdə qalır. Çoxluğu itirdiyi halda isə hökumət ya istefa verməli olur (bu hökumət böhranı deməkdir), ya da parlamenti buraxır və növbədənkənar parlament seçkiləri təyin edir. Parlamentli Respublikada hökumət yalnız parlament yolu ilə hakim partiyaya, yaxud partiyalar koalisiyasına mənsub olan deputatlardan təşkil olunur. Prezidentli respublikada hökumət üzvləri deputat ola bilməz (deputat mandatının və nazir çantasının bir araya sığışmaması institutu). Parlamentli Respublikanın (İtaliya, AFR, Portuqaliya, Yunanıstan, İrlandiya, İslandiya, Hindistan) formal əlaməti eyni zamanda hökumət başçısı və hakim partiyanın, yaxud müxalifətçi partiyalar koalisiyasının lideri olan baş nazir vəzifəsinin mövcud olmasıdır.

Əgər prezidentli respublikada icra hakimiyyətinə başçılıq edən prezident öz əlində geniş səlahiyyəti cəmləşdirirsə, parlamentli respublikanın prezidenti sırf nominal funksiyaları həyata keçirir. Prezidentli respublikalardan fərqli olaraq, parlamentli respublikalarda hökumət parlamentə daha ciddi nəzarət edir.

Müasir ölkələrin bəzilərində parlamentli və prezidentli respublikaların əlamətlərini əlaqələndirən idarəetmə formaları mövcuddur (məs., Fransada - 1958-ci il konstitusiyasına görə Beşinci Respublika).

**RESTİTUSİYA** (lat. restitutio - əvvəlki vəziyyətin bərpası). Beynəlxalq hüquqi subyektin maddi məsuliyyətinin formalarından biridir. Qeyri- hüquqi akt (məs. təcavüz) nəticəsində dəymiş ziyanı əvvəlki vəziyyətə qaytarmaqla ödəmə şəklində ifadə olunur. Dövlətin başqa dövlətin ərazisindən qeyri-qanuni yolla müsadirə etdiyi əmlakın natura şəklində qaytarılması da restitusiyanın formalarından biridir.

Qeyri-qanuni yolla müsadirə olunmuş əmlakın istənilən formada verilməsi, yaxud onun istənilən formada satışı etibarsız sayılır. 3-cü dövlətin nəzarətində olan və ya sahibliyində olan əmlakın qeyri-qanuni müdafiəsi restitusiyaya malikdir.

**RETORSİYA** - Bir dövlətin digər dövlətin ədalətsiz mövqeyinə etirazını bildirməsidir. Bu həm də dövlətin beynəlxalq hüquq subyekti kimi öz hüquqlarını müdafiə etmək səlahiyyətidir.

**RƏSMİ DİL** - Dövlətin qanunvericilikdə, rəsmi kargüzarlıqda, mühakimə icrasında, təhsildə və sairədə istifadə etdiyi əsas dildir. Çoxmillətli ölkələrdə (məs., Hindistan, İsveçrə, İspaniya, Kanada) rəsmi dil (dillər) konstitusiyada müəyyən edilir. Başqa ölkələrin konstitusiyalarında rəsmi dil haqqında xüsusi müddəalar yoxdur və ölkənin əhalisinin vahid əsas dili rəsmi dil sayılır. Rəsmi dilin müəyyən edilməsi həm məişətdə, həm də müvafiq dövlətin ayrı-ayrı ərazilərində rəsmi olaraq başqa dillərdən istifadə olunmasını istisna etmir. İnkişafda olan bəzi ölkələrdə yerli milli dillə yanaşı bəzi (müvəqqəti olaraq) keçmiş metropolitiyanın dili (fransız, ingilis dili, yaxud başqa) rəsmi dil sayılır.

**RUANDA** - Mərkəzi Afrikada yerləşir. Ərazisinin sahəsi 26.340 kv.km, əhalisinin sayı isə 8.605.307 nəfərdir (1995). Dövlət dili fransız və kinyaruanda dilləridir.

Ölkənin tam adı Ruanda Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Kiqali şəhəridir. Ruanda müstəqilliyini 1 iyul 1962-ci ildə əldə etmişdir (əvvəllər Belçikanın müstəmləkəsi olub) və həmin gün ölkədə milli bayram kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə məxsus-

dur. Ali qanunverici orqan ikipalatalı parlament olan Milli Məclisdir.

**RUMINIYA** - Avropanın cənub-şərqində yerləşir. Ərazisinin sahəsi 237.500 kv.km, əhalisinin sayı isə 23.400.000 nəfərdir (1995). Dövlət dili rumın dilidir.

Dövlət quruluşu respublikadır. Paytaxtı Buxarest şəhəridir. Rumıniya Osmanlı imperiyasından müstəqilliyini 1878-ci ildə almışdır. Milli bayram 1 dekabr bütün rumın torpaqlarının vahid dövlət halında birləşdiyi gündür (1918). İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və baş nazirin əlində cəmlənmişdir. Qanunverici orqan Senatdan (yuxarı palata) və Deputatlar palatasından (aşağı palata) ibarət olan parlamentdir.

**RUSİYA** - Avropa və Asiya qitələrində yerləşir. Ərazisinin sahəsi 17.075.200 kv.km, əhalisinin sayı isə 149.909.089 nəfərdir (1995). Dövlət dili rus dilidir.

Ölkənin tam adı Rusiya Federasiyasıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Moskva şəhəridir. Rusiya Federasiyası müstəqilliyini SSRİ dağıldıqdan sonra 24 avqust 1991-ci ildə elan etmişdir. Milli bayramları: 12 iyun Dövlət müstəqilliyi haqqında bəyannamənin qəbul olunduğu gün və 12 dekabr Konstitusiya günüdür. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti isə baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan Federasiya Şurasından (yuxarı palata) və Dövlət Dumasından (aşağı palata) ibarət olan Federal Məclisdir.



# S

**SALVADOR** - Mərkəzi Amerika dövlətidir. Ərazisinin sahəsi 21.041 kv.km, əhalisinin sayı isə 5.870.481 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı əl-Salvador Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı San-Salvador şəhəridir. Salvador İspaniyadan müstəqilliyini 15 sentyabr 1821-ci ildə almasına baxmayaraq, 1841-ci ildə tam müstəqillik əldə etmişdir. Milli bayram 15 sentyabr Müstəqillik günüdür. Dövlətin və hökumətin başçısı prezidentdir, ali qanunverici orqan birpalatalı Qanunvericilik Assambleyasıdır.

**SANKSİYA** (lat. sanctio - ən ciddi qərar) - Aşağıdakıları göstərmək üçün istifadə olunan termindir: 1) beynəlxalq hüquq normalarının struktur elementlərindən birini; 2) BMT-nin Nizamnaməsinə uyğun olaraq məcburi tədbir; 3) beynəlxalq hüquqi cavabdehliyin forması; 4) retorsiya və repressali.

**SAN-MARİNO** - Cənubi Avropada Appenin yarımadasının şimalında yerləşir. Ölkə tamamilə İtaliya dövləti ilə əhatə olunmuşdur. Ərazisinin sahəsi 61 kv.km, əhalisinin sayı isə 23.313 nəfərdir (1995). Dövlət dili italyan dilidir.

Ölkənin tam adı San-Marinodur. Dövlət quruluşu respublikadır. Paytaxtı San-Marino şəhəridir. San-Marino dövlətinin əsası bizim eranın 301-ci ilində qoyulmuşdur. Milli bayram 3 sentyabr Respublikanın yarandığı gündür (301-ci il). İcra hakimiyyəti iki bərabər hüquqlu kapitan-regentə (dövlət başçısı) və Dövlət Konqresinə (Nazirlər Kabineti) məxsusdur. Ali qanunvericilik orqanı Böyük Ali Şuradır (birpalatalı parlament).

**SAN-TOME VƏ PRİNSİPLƏR** - Ölkə Qvineya körfəzinin Afrika sahillərinə yaxın hissəsindəki San-Tome, Prinsiplər və bir sıra xırda adalarda yerləşir. Ərazisinin sahəsi 1001 kv.km, əhalisinin sayı isə 140.423 nəfərdir (1995). Dövlət dili portuqaliya dilidir.

Ölkənin tam adı San-Tome və Prinsiplər Demokratik Respublikasıdır. Paytaxtı San-Tome şəhəridir. Ölkə müstəqilliyini 12 iyul 1975-ci ildə əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi

bayram edilir. Qanunvericilik Portuqaliya ümumi hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Milli Assambleyadır.

**SENEQAL** - Afrikanın qərbində yerləşir. Ərazisinin sahəsi 196.200 kv.km, əhalisinin sayı isə 8.300.000 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Seneqal Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Dakar şəhəridir. Seneqal müstəqilliyini 1960-cı ildə Fransadan almışdır. Milli bayram 4 aprel Müstəqillik günüdür (1960). Qanunvericilik fransız mülki hüquq sisteminə əsaslanır. İcra hakimiyyəti prezidentin (dövlətin başçısı) və baş nazirin əlində cəmlənmişdir. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Məclis vasitəsilə həyata keçir.

**SENEQAMBİYA** - Seneqal və Qambiya dövlətlərinin 17.12.1981-ci il tarixli imzaladığı pakta uyğun olaraq yaradılan konfederasiyadır. Pakta görə, konfederasiyanın üzvləri müstəqillik və suverenliklərini saxlayırlar, lakin konfederasiyadan çıxmaq hüququ qeyd olunmamışdır. Konfederasiyanın fəaliyyəti 12 protokolla tənzimlənir (silahlı qüvvələrin, təhlükəsizlik qüvvələrinin birləşməsi haqqında, xarici siyasət haqqında və s.).

Seneqambiyanın prezidenti Seneqalın prezidentidir.O hərbi qüvvələrin və təhlükəsizlik qüvvələrinin rəhbəridir, vitse-prezidenti isə Qambiyanın prezidentidir. Onlar Seneqambiyanın icra orqanına 5 seneqallı və 4 qambiyalı naziri özündə birləşdirən Nazirlər Şurasına rəhbərlik edirlər. Konfederasiya nazirlərini vitse-prezidentin razılığı ilə Seneqambiya prezidenti təyin edir.

Konfederasiyanın parlamenti 60 deputatdan ibarətdir, onların 1/3-i Qambiyalı nümayəndələr palatasından seçilir, 2/3-i isə Seneqalın Milli Toplantısından seçilir.

Konfederasiya 1989-cu ildə fəaliyyətini dayandırmışdır.

**SENT-KİTS VƏ NEVİS** - Karib hövzəsindəki Sent-Kits və Nevis adalarında yerləşir. Ərazisinin sahəsi 261,6 kv.km, əhalisinin sayı isə 40.992 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Sent-Kits və Nevis Federasiyasıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır və ölkə Britaniya Birliyinə daxildir. Paytaxtı Baster şəhəridir. Ölkə Böyük Britaniyadan müstəqilliyini 19 sentyabr 1983-cü ildə əldə etmişdir. Həmin gün Müstəqillik günü kimi bayram edilir. Qanunvericilik ingilis hüququna əsaslanır. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**SENT-LYUSİYA** - Karib dənizinin cənub-şərq hissəsindəki Sent-Lyusiya adasında yerləşir. Ərazisinin sahəsi 617 kv.km, əhalisinin sayı isə 156.050 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır və ölkə Britaniya Birliyinin üzvüdür. Paytaxtı Kastri şəhəridir. Ölkə müstəqilliyini 22 fevral 1979-cu ildə Böyük Britaniyadan əldə etmişdir. Milli bayram 13 dekabr Millət günüdür. Qanunvericilik ingilis hüququna əsaslanır. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan ikipalatalı parlamentdir.

**SENT-VİNSENT VƏ QRENADİNLƏR** - Karib dənizinin cənub-şərq hissəsindəki Sent-Vinsent və Qrenadin adalarında yerləşir. Ərazisinin sahəsi 388 kv.km, əhalisinin sayı isə 117.344 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Britaniya Birliyinin üzvüdür. Paytaxtı Kinqstaun şəhəridir. Ölkə 27 oktyabr 1979-cu ildə müstəqillik əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olub). Milli bayramları 22 yanvar Sent Vinsent və Qrenadinlər günü, 27 oktyabr Millət günüdür. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Dövlətin başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetinə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**SEPARAT SÜLH** (lat. Separatus - ayrıca) - Koalisiyanın və ya ittifaqın üzvlərindən biri və ya bir neçəsi tərəfindən qalan üzvlərdən gizlin, onların iştirakı olmadan və yaxud onların razılığı olmadan düşmən dövlətlə bağlanan sülh müqaviləsi və ya

barışıq müqaviləsidir.

Ümumi düşmənə qarşı mübarizə aparan koalisiya iştirakçısı olan dövlətlər separat sülh bağlamayacaqları haqqında qabaqcadan öhdəlik götürürlər.

**SEYŞEL ADASI** - Hind okeanında Madaqaskar adasının şimal-şərq hissəsindəki Seyşel və Amrant adalarında yerləşir. Ərazisinin sahəsi 405 kv.km, əhalisinin sayı isə 72.709 nəfərdir (1995). Rəsmi dilləri ingilis və fransız dilləridir.

Ölkənin tam adı Seyşel Adası Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Viktoriya şəhəridir. Seyşel adası Böyük Britaniyadan müstəqilliyini 29 iyun 1976-cı ildə əldə etmişdir. Milli bayram 18 iyun Millət günüdür (1993-cü ildə yeni konstitusiyanın qəbul olunduğu gün). Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Məclisdir.

**SƏFİR** - 1. Müasir beynəlxalq hüquqda qəbul olunmuş, diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana konvensiyasında əks olunmuş təsnifatlara görə, səfir 1-ci dərəcəli diplomatik nümayəndəliyin başçısıdır və dövlət başçısı tərəfindən akkreditə olunur. Tam rəsmi adlanması Fövqəladə və Səlahiyyətli Səfir (ing. Ambassador Extraordinari and Plentipotentary) şəklindədir.

1815-ci Vyana reqlamenti başqa dərəcəli diplomatik nümayəndəlikdən fərqli olaraq səfiri əsl nümayəndə kimi tanımışdır. Hesab edilmişdir ki, təkcə səfir onu təyin edən monarxın adından çıxış edə bilər və fəaliyyət göstərdiyi ölkənin monarxından xüsusi audensiya tələb edə bilər. Uzun illər Rusiya, Avstriya, Böyük Britaniya, Prusiya və Fransa kimi ölkələr səfir təyin etmək hüququna malik olublar.

Müasir beynəlxalq hüquq diplomatik nümayəndəliyin başçısı olan Səfirlə diplomatik nümayəndəliyin başqa dərəcəli başçıları arasındakı hüquqi fərqləri qəbul etmir. 1961-ci il Vyana konvensiyası müəyyən etmişdir ki, "nümayəndəliyin başçısının hansı dərəcəsindən asılı olmayaraq, onlar arasında fərq qoyulmur".

2. Xarici işlər idarəsinin diplomatik heyətinə verilmiş ən yüksək diplomatik ranqdır. Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfir ranqı Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilir.



**SƏFİRLİK** - bax. Diplomatik nümayəndəlik.

**SƏLAHİYYƏT** (beynəlxalq hüquqda) - Hər hansı şəxsə və ya şəxslərə danışıqlar aparmaq, beynəlxalq müqavilələri imzalamaq, konfranslarda iştirak etmək, dövləti beynəlxalq hökumətlərarası təşkilatlarda təmsil etmək və s. hüquqlar verən sənəddir. Səlahiyyətin mətnində konkret olaraq səlahiyyət verilən şəxs, onun adı, familiyası, atasının adı, rütbəsi və ya vəzifəsi, müqavilənin adı və ya danışıqların məqsəd və məzmunu və s. göstərilir. İkitərəfli müqavilələrin imzalanmasında tərəflər öz səlahiyyətini elan edir, çoxtərəfli müqavilələrin imzalanmasında isə səlahiyyət haqqında məlumat depozitora verilir. Çoxtərəfli beynəlxalq konfranslarda səlahiyyətlərin yoxlanması üzrə xüsusi komitə yaradılır, beynəlxalq təşkilatdakı dövlət nümayəndələri səlahiyyəti təşkilatın baş inzibati şəxsinə (BMT-nin Baş katibi, UNESCO -nun baş direktoru və s.) verirlər.

Ümumqəbulolunmuş praktikaya uyğun olaraq dövlət başçısı, hökumət başçısı, xarici işlər idarəsinin rəhbəri, həmçinin öz səlahiyyət çərçivəsi daxilində diplomatik nümayəndəliyin başçısı xüsusi səlahiyyət olmadan danışıqlar apara bilər və bəzi müqavilələri imzalaya bilər.

**SƏRHƏD MÜQAVİLƏLƏRİ** - Dövlət sərhədlərinin, sərhəd rejimlərinin müəyyən edilməsi haqqında, sərhədlərlə bağlı münaqişələrin nizama salınması, sərhəd məsələləri ilə bağlı əməkdaşlıq və qarşılıqlı yardım, həmçinin sərhədyanı zonalarda təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər haqqında həmsərhəd dövlətlər arasında bağlanan müqavilədir. Sərhəd müqavilələrində və ona əlavə olunan protokollarda bütünlükdə sərhəd xətlərinin və ya hansısa bir hissəsinin təsviri verilir, sərhəd xətlərini müəyyən edən xəritə əlavə olunur (bax. sərhədlərin demilitasiyası). Sərhəd müqavilələri əsasında yerlərdən keçən sərhəd xətləri müəyyən olunur (bax. sərhədlərini demilitasiyası), əvvəl demorkasiya olunmuş sərhədlər yoxlanılır və bərpa edilir. (bax. sərhədlərin redemarkasiyası).

**SƏRHƏDLƏRİN DELİMİTASİYASI** (lat. delimitalio - müəy-

yən edilməsi) - Dövlət sərhədlərinin ümumi vəziyyətinin və istiqamətlərinin müqavilə əsasında müəyyənləşdirilməsinə delimitasiya deyilir. Delimitasiya haqqında qərar, adətən, sülh müqavilələrinin və yaxud dövlət sərhədlərinin müəyyən edilməsi və ya dəyişdirilməsi *haqqında xüsusi* sazişin əsas hissəsi *olur*.

Müqavilə bağlanarkən delimitasiya müəyyən topoqrafik xəritələr və başqa materiallar əsasında aparılır ki, bunun da nəticəsində dövlətlərin sərhəd xətləri çəkilir və xəritəyə köçürülür.

**SƏRHƏDLƏRİN DEMARKASİYASI** (demarcatio - dəqiq müəyyən edilmə) - Dövlət sərhədinin ərazi üzərində xüsusi sərhəd işarələri ilə çəkilməsinə deyilir. Bu işi görmək üçün danışıqda iştirak edən dövlətlər paritet əsaslarla birgə komissiya yaradırlar. Komissiya da delimitasiya haqqında müqavilənı əsas tutaraq sərhədləri ərazi üzərində xüsusi sərhəd nişanları (sərhəd dirəkləri, piramidalar və s.) vasitəsilə göstərir və xüsusi sənədlər (protokol, xəritə, sərhəd əlamətlərinin şəkil-sxem təsviri və s.) tərtib edir.

Demorkasiya sənədləri razılaşan tərəflərin qanunvericiliyində təsdiqindən sonra qüvvəyə minir.

**SƏRHƏDLƏRİN REDEMARKASİYASI** - Dövlətlər arasındakı müqaviləyə əsasən sərhədlərin birgə yoxlanması, zərurət olarsa, dövlət sərhədlərinin yerlərdə demarkasiya xətlərinin bərpa edilməsi, pozulmuş sərhəd işarələrinin bərpası və ya yenisi ilə əvəz edilməsidir.

Redemarkasiya haqqında xüsusi sazişlərdə və ya sərhəd rejimi haqqında müqavilələrdə xüsusi maddələr vardır ki, bu maddələrə görə sərhədyanı dövlətlər redemarkasiya keçirməyə və yaxud müəyyən zaman müddətindən sonra sərhəd xətlərini yoxlamağa borcludurlar. Sərhədlərin redemarkasiyası bu məqsədlə yaradılmış xüsusi qarışıq komissiya ilə müşayiət olunur. Komissiya tərəfindən sərhəddin hansısa bir hissəsinin redemarkasiyası haqqında sənədlər hazırlanır. Bu sənədlər qaydaya görə hər iki tərəfin qanunvericiliyində təsdiq olunur və təsdiq sənədlərin mübadiləsindən sonra qüvvəyə minir.

**SƏTTƏRXAN HƏRƏKATI (1905-1911)** - XX əsrin əvvəlindən başlayaraq Təbriz İranda inqilabi-azadlıq mübarizəsinin



əsas mərkəzinə çevrildi. 1905-ci ilin dekabrında Təbrizdə kütləvi nümayişlər və tətillər keçirildi. Təbrizdə əncümənlər (yerli idarəetmə orqanları) təşkil olundu, "mücahidlər"in Təbriz təşkilatı yaradıldı. 1907-ci ilin yanvarında Təbrizdə irticanın tədbirlərinə qarşı üsyan oldu. Xalq hərəkatının təzyiqi ilə Müzəffərəddin şah məclisə seçkilər keçirilməsi haqqında fərman verdi. Tehranda məclis dağıldıqdan sonra 1908-ci il iyunun 28-də Təbrizdə üsyan qalxdı.

İran inqilabının (1905-1911) ən yüksək mərhələsi olan Təbriz üsyanına Səttərxan, Bağırxan, Əli Müsyö və b. rəhbərlik edirdilər. Oktyabr ayında şah qoşunları və irticaçılar Təbrizdən qovuldular. Təbriz üsyanı zamanı inqilabi hökumət - Hərbi Şura yaradıldı. Təbriz əncüməni əslində bütün Azərbaycanda şah hökumətinin fəaliyyətinə nəzarət edirdi. Əncümən bir sıra demokratik tədbirlər (varlıların pul və ərzaqı, mülkləri müsadirə edildi və s.) həyata keçirtdi. İnqilabın müdafiəsi, konstitusiya qaydalarının bərpası, ana dilində maarif və mədəniyyətin inkişafı sahəsində bir sıra tədbirlər görüldü.

1909-cu ilin yanvarında *irtica qüvvələri Təbrizi mühasirəyə* aldı. Aprelin 29-da çar Rusiyasının silahlı müdaxiləsi nəticəsində Təbriz üsyanı yatırıldı. İyulda Tehranda mülkədar-burjua dairələri öz hökumətlərini yaratdılar. 1910-cu ilin aprelində yeni liberal mülkədar-burjua hökumətinin dəvəti ilə başda Səttərxan və Bağırxan olmaqla 100 nəfərlik fədai dəstəsi Tehrana getdi. Lakin irtica qüvvələri Təbriz üsyanının qəhrəmanlarına qəsd hazırlamışdı. 1910-cu ilin avqustun 7-də yeni hökumətin qoşunları və Tehran polisi qəfil hücumla Səttərxanın fədai dəstəsini tərki-silah etdilər. Səttərxan yaralandı və uzun sürən xəstəlikdən sonra 1914-cü ildə vəfat etdi.

**SƏUDİYYƏ ƏRƏBİSTANI** - Asiyanın cənub-qərbində, Ərəbistan yarımadasında yerləşir. Ərazisinin sahəsi 1.750.000 kv.km, əhalisinin sayı isə 18.729.576 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Səudiyyə Ərəbistanı Krallığıdır. Dövlət quruluşu mütləq teokratik monarxiyadır. Paytaxtı ər-Riyad şəhəridir. Səudiyyə Ərəbistanı 23 sentyabr 1932-ci ildə müstəqil dövlət

olmuşdur. Milli bayram krallığın elan olunduğu gündür. Qanunvericilik islam qanunlarına əsaslanır. Dövlətin və hökumətin başçısı monarxdır (kral Fəhd bin Əbdül-Əziz əl-Səud ölkəni 1982-ci ilin iyunundan idarə edir).

**SIĞINACAQ HÜQUQU** - Dövlətin siyasi, yaxud elmi fəaliyyətlərinə görə təqib edilən xarici vətəndaşlara öz ərazisinə gəlməsinə və orada qalmasına icazə vermək hüququdur. Dövlət öz suverenliyinə əsaslanaraq, beynəlxalq hüquqa və daxili (milli) hüquqa uyğun olaraq şəxsin sığınacaq əldə etmək haqqında xahişini təmin, yaxud rədd edir.

Dövlətin ərazisinə gəlməyə və orada yaşamağa icazə verməkdən ibarət sığınacaq hüququ ərazi sığınacaq hüququ adlanır. Sığınacağın ən qədim dövrlərdə yaranmış bu forması bizim günlərdə də əsas forma olaraq qalır. Beynəlxalq hüquqda yalnız siyasi xadimlərə sığınacaq hüququ verilməsi ümum tanınmış haldır. İnsan hüquqları haqqında Ümumi bəyannaməyə (1948) uyğun olaraq (m.14), hər bir adam başqa ölkələrdə təqibdən sığınacaq istəyə bilər və sığınacaq hüququdan istifadə edə bilər. Lakin qeyri-siyasi cinayətlərə görə, yaxud BMT məqsədlərinə və prinsiplərinə zidd olan əməllərə görə təqib olunan şəxslər bu hüquqdan istifadə edə bilməz. BMT Baş Məclisinin 1967-ci ildə qəbul etdiyi sığınacaq hüququ haqqında xüsusi Bəyannaməyə uyğun olaraq sığınacaq vermək məsələsini dövlət özü həll edir. İnsan hüquqları haqqında ümumi bəyannaməyə (m.14) uyğun olaraq bütün dövlətlər sığınacaq almış şəxslərin sığınacaq hüququnu tanımalıdır. Sığınacaq vermiş dövlət bu hüquqdan istifadə edən şəxsə BMT Nizamnaməsinin məqsədlərinə və prinsiplərinə aid olan fəaliyyətlə məşğul olmağa icazə verməlidir. Sülhə, bəşəriyyətə qarşı cinayətlər, hərbi cinayətlər etmiş şəxslərə sığınacaq hüququ verilməməlidir.

Ərazi sığınacağı ilə yanaşı diplomatik sığınacaq da mövcuddur. Bu, şəxsə xarici dövlətin diplomatik, yaxud konsulluq nümayəndəliyində sığınacaq verilməsidir. Bu formadan əsasən Latın Amerikası dövlətlərində istifadə edilir.

Beynəlxalq aləmdə dini sığınacağa da yol verilir. Bu, dini müəssisələrdə (məscidlərdə, kilsə və monastırlarda və s.) sığınacaq hüququnun verilməsidir.



Sığınacaq hüququ almış şəxslər əsasən xarici şəxslərin hüquqlarından istifadə edir, onları qaytarmaq (bax. Cinayətkarları qaytarma), yaxud təqibə məruz qalacağı ölkəyə sürgün etmək olmaz.

**SİNQAPUR** - Cənub-şərqi Asiyada Sinqapur adasında və 50-dən çox kiçik adalarda yerləşir. Ərazisinin sahəsi 632 kv.km, əhalisinin sayı isə 2.890.468 nəfərdir (1995). Dövlət dili çin dilidir.

Ölkənin tam adı Sinqapur Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Sinqapur şəhəridir. Sinqapur Malayziyadan müstəqilliyini 9 avqust 1965-ci ildə əldə etmişdir. Milli bayramı 9 avqust Respublika günüdür. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (hökumətin başçısı) məxsusdur. Qanunverici orqan birpalatalı parlamentdir.

**SLOVAKİYA** - Mərkəzi Avropada yerləşir. Ərazisinin sahəsi 48.800. kv.km, əhalisinin sayı isə 5.432.383 nəfərdir (1995). Dövlət dili slovak dilidir.

Ölkənin tam adı Slovakiya Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Bratislav şəhəridir. Slovakiya Çexoslovakiya dağıldıqdan sonra 1 yanvar 1993-cü ildə öz müstəqilliyini elan etmişdir. Milli bayramlar: 5 iyun slavyan vaizləri Kiril və Mefodiya günü və 29 avqust Slovakiya Xalq dirçəlişi (1944) günüdür. Dövlət başçısı prezidentdir və o, hökumətin başçısını təyin edir. Ali qanunverici orqan birpalatalı parlament olan Milli Şuradır.

**SLOVENİYA** - Balkan yarımadasının şimal hissəsində yerləşir. Ərazisinin sahəsi 20.251 kv.km, əhalisinin sayı isə 2.051.522 nəfərdir (1995). Dövlət dili sloven dilidir. Ölkənin tam adı Sloveniya Respublikasıdır. Paytaxtı Lyublyana şəhəridir. Sloveniya müstəqilliyini 25 iyun 1991-ci ildə əldə etmişdir (əvvəllər Yuqoslaviyanın tərkibində olmuşdur). Dövlət başçısı prezidentdir. Qanunverici orqan Dövlət Şurası (yuxarı palata) və Dövlət Məclisindən (aşağı palata) ibarət olan ikipalatalı parlamentdir.

**SOLOMON ADALARI** - Sakit okeanın cənub hissəsindəki

Solomon adalarında yerləşir. Ərazisinin sahəsi 28.370 kv.km, əhalisinin sayı isə 399.206 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Xoniara şəhəridir. Solomon adaları 7 iyul 1978-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Böyük Britaniyanın protektoratı olmuşdur). Həmin gün ölkədə milli bayram kimi qeyd olunur. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır, icra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici orqan birpalatalı Milli parlamentdir.

**SOMALİ** - Afrikanın şərq hissəsindəki Somali yarımadasında yerləşir. Ərazisinin sahəsi 637.657 kv.km, əhalisinin sayı isə 9.300.000 nəfərdir (1995). Dövlət dili somali və ərəb dilidir.

Ölkənin tam adı Somali Demokratik Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Moqadişo şəhəridir. Somali 1 iyul 1960-cı ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti prezidentə və Nazirlər Şurasının sədri olan baş nazirə məxsusdur.

**SOYQIRIM** (genosid - yunan sözüdür) - Hər hansı bir millətin, etnik, irqi və ya dini qrupun tamamilə və ya bir hissəsinin məhvinə məqsədli şəkildə yönəldilmiş fəaliyyətdir. Soyqırım cinayəti və bu cinayətə görə cəza haqqında 1948-ci il konvensiyasında göstərilir ki, aşağıdakı sadalanan fəaliyyətlər soyqırım cinayətinə daxildir: yuxarıda sadalanan qrupların üzvlərinin öldürülməsi, bunlara ciddi bədən və əqli xəsarət yetirilməsi hansısa qrupa onların tam fiziki məhvi üçün nəzərdə tutulmuş həyat şəraitinin yaradılması, belə qruplar arasında uşaq doğumunun qarşısının alınmasına yönəlmiş tədbirlər, bir insan qrupundan uşaqların zorakılıqla alınıb başqa qrupa verilməsi və s. Soyqırım beynəlxalq cinayətdir. 1948-ci il konvensiyasının iştirakçısı olan dövlətlər Konvensiyanın müddəalarını, xüsusi soyqırımı törədən və törədilməsində iştirakçı olan şəxslərə qarşı effektiv tədbirlərin həyata keçirilməsi üçün zəruri qanunverici aktlar qəbul etməyə borcludurlar.

**STATUS** (lat. status - işin vəziyyəti) - Beynəlxalq hüquqda fiziki və ya hüquqi şəxsin hüquqi vəziyyətidir. Hərdən status termini hər hansı bir ərazinin və ya müəyyən bir sahənin hüquqi vəziyyətini və ya rejimini göstərmək üçün tətbiq olunur.

**STATUS-KVO** (lat. status quo ) - Müəyyən anda mövcud olmuş və ya hal-hazırda mövcud olan faktiki və ya hüquqi vəziyyətdir. Status-kvonun bərpası dəyişikliyə qədər mövcud olmuş vəziyyətə qayıtmaq deməkdir. Status quo ante bellum (lat.) müharibəyə qədər mövcud olan vəziyyət deməkdir. Status quo post bellum müharibədən sonrakı yaranmış vəziyyət deməkdir.

**STATUT** (lat. statutum - qərara alaraq) - Dövlətdaxili və ya beynəlxalq təşkilatların təşkili və fəaliyyəti qaydasını müəyyən edən əsasnamə, nizamnamədir, məs., BMT Beynəlxalq Məhkəməsinin Statutu.

**SUDAN** - Afrikanın şimal-şərqində yerləşir. Ərazisinin sahəsi 2.505.813 kv.km, əhalisinin sayı isə 30.120.420 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Sudan Respublikasıdır. Dövlət quruluşu hərbi rejimdir. Paytaxtı Xartum şəhəridir. Sudan Misir və Böyük Britaniyadan müstəqilliyini 1 yanvar 1956-cı ildə almışdır. Həmin gün Müstəqillik günü kimi qeyd olunur. Qanunvericilik ingilis ümumi hüququna və islam qanunlarına əsaslanır. İcra və qanunverici hakimiyyət prezidentin (dövlət və hökumət başçısı) və Milli Keçid Assambleyasının əlində cəmlənmişdir.

**SURİNAM** - Cənubi Amerikanın şimal-şərqində yerləşir. Ərazisinin sahəsi 163.270 kv.km, əhalisinin sayı isə 400.000 nəfərdir (1995). Dövlət dili holland dilidir.

Ölkənin tam adı Surinam Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Paramaribo şəhəridir. Surinam Niderlanddan müstəqilliyini 25 noyabr 1975-ci ildə əldə etmişdir (əvvəllər Niderland Qvianası). Milli bayramlar: 25 fevral Azadlıq günü (1980) və 25 noyabr Müstəqilliyin elan edilməsi günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və vitse-prezidentə (həm də baş nazirdir) məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Milli Assambleyadır.

**SURİYA** - Cənub-qərbi Asiyada yerləşir. Ərazisinin sahəsi 186.180 kv.km, əhalisinin sayı isə 15.451.917 nəfərdir

(1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Suriya Ərəb Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Dəməşq şəhəridir. Suriya müstəqilliyini 17 aprel 1946-cı ildə əldə etmişdir (əvvəllər Fransanın idarə etdiyi ərazi olub) və həmin gün Evakuasiya günü adı ilə bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (Nazirlər Şurasının sədri) məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Xalq Şurasıdır.

**SÜLH ZONASI** - Möhkəm sülhün, təhlükəsizliyin və dövlətlər arasındakı çoxtərəfli əməkdaşlığın təmin edilməsinə yönəlmiş geniş ölçülü tədbirlərin həyata keçirildiyi ərazidir. Nüvəsiz zona anlayışından fərqli olaraq sülh zonası daha geniş anlayışdır. Belə ki, sülh zonasında nəinki nüvə silahı qadağan edilir, həm də bu zonaya daxil olan hərbi qüvvələr azaldılır, xarici dövlətlərin hərbi bazası ləğv edilir və dövlətlərin təhlükəsizliyinin siyasi təminat təmin olunur.

**SVAZİLEND** - Afrikanın cənub-şərq hissəsində yerləşir. Ərazisinin sahəsi 17.363 kv.km, əhalisinin sayı isə 966.977 nəfərdir (1995). Ölkənin iki rəsmi dili vardır: ingilis və svazi dilləri vardır.

Ölkənin tam adı Svazilend Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Mbabane şəhəridir. Krallığın iqamətgahı isə Lobamba şəhərindədir. Svazilend 6 sentyabr 1968-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuşdur). Həmin gün Müstəqillik günü kimi bayram edilir. Dövlət başçısı monarxdır (kral III Msvati ölkəni 25 aprel 1986-cı ildən idarə edir), icra hakimiyyəti isə baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyət monarx və ikipalatalı parlament vasitəsilə həyata keçirilir.

**SYERRA-LEONE** - Afrikanın qərb hissəsindədir. Ərazisinin sahəsi 72.300. kv.km, əhalisinin sayı isə 4.753.120 nəfərd (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Syerra-Leone Respublikasıdır. Dövlət quruluşu hərbi rejimdir. Paytaxtı Fritaun şəhəridir. Syerra-Leone müstəqilliyini 27 aprel 1961-ci ildə əldə etmişdir (əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olub). Həmin gün ölkədə Respublika



günü kimi bayram edilir. Qanunvericilik ingilis ümumi hüququna və yerli qəbilə qanunlarına əsaslanır. Bütün hakimiyyət Müvəqqəti Milli İdarə Şurasına məxsusdur. Ölkə parlamenti (Deputatlar Palatası) 9 aprel 1992-ci il çevrilişindən sonra buraxılmışdır.

# Ş

**ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ** - 04.04.1949-cu ildə ABŞ-ın təşəbbüsü ilə Şimali Atlantika İttifaqı Müqaviləsinin (NATO) ilk iştirakçısı olan 12 dövlətin nümayəndələri tərəfindən Vaşinqtonda imzalanmışdır və 24.08.1952-ci ildə qüvvəyə minmişdir. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə Fransa, 1982-ci ildə isə İspaniya müqaviləyə imza atmışlar.

Müqaviləyə görə, 25.08.1969-cu ildən etibarən NATO-nun üzvü olan hər bir dövlət müqavilənin denonsasiyası haqqında bəyanat verdikdən bir il sonra təşkilatı tərk etmək hüququna malikdir.

Müqaviləyə görə, iştirakçı dövlətlərdən birinə və ya bir neçəsinə edilən silahlı basqın, iştirakçı dövlətlərin hamısına edilmiş basqın kimi qəbul edilir. Basqına məruz qalmış dövlətə müqavilənin iştirakçısı olan hər bir dövlət fərdi və ya başqaları ilə razılaşdırılmış şəkildə yardım göstərməyə borcludurlar. Bu yardım "Şimali Atlantika rayonundakı təhlükəsizliyin müdafiəsi və bərpası" məqsədi ilə lazım olarsa silahlı qüvvələrin tətbiqi ilə də ola bilər.

Müqaviləyə görə, silahlı basqın dedikdə, Avropadan və ya Şimali Amerikadan olan iştirakçı dövlətlərin ərazisinə, Türkiyənin ərazisinə və iştirakçı dövlətlərin Şimali Atlantika rayonundakı təbəəliyində olan adalara, həmçinin şimal dövlətlərin hərbi hissələrinə, gəmilərinə və ya uçan aparatlarına olan basqınlar nəzərdə tutulur.

**ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI (NATO)** - Avropanın və Şimali Amerika dövlətlərinin təşkil etdiyi hərbi-siyasi blokdur. 1949-cu ildə ABŞ-ın təşəbbüsü ilə yaradılmışdır. NATO-nun üzvləri aşağıdakı dövlətlərdir: Belçika, Böyük Britaniya, Danimarka, İslandiya, İtaliya, Kanada, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, ABŞ, Fransa yarandığı andan, Türkiyə və Yunanıstan 1952-ci il fevral ayından, AFR 1955-ci ilin may ayından, İspaniya 1982-ci ilin may ayından.

NATO-nun rəhbər orqanları Şimali Atlantika Şurası və



Hərbi Planlaşdırma Komitəsidir. Şuranın və Komitənin qərarları üzv dövlətlərin parlamentlərinin razılığından asılı deyil və üzv dövlətlər üçün öhdəlik xarakteri daşıyır.

Rəhbər orqanların mənzil-qərargahı Brüsseldədir.

Nüvə silahı ilə əlaqədar məsələlər üzrə üzv dövlətlərin mövqelərinin razılaşdırılması ilə məşğul olan NATO-nun Nüvə Planlaşdırma Qrupu rəhbər orqanların sırasındadır. Qrupun əsas qərarları NATO Şurası tərəfindən təsdiq edilir. Qrup ildə iki dəfə müdafiə nazirlərinin səviyyəsində toplanır.

Blokun rəhbər orqanlarının işinin təşkili və ardıcıl məsləhətləşmələri Beynəlxalq Katibliyə rəhbərlik edən NATO-nun baş katibi həyata keçirir.

Blokun üzvü olan Avropa dövlətlərinin hərbi əməkdaşlığını aktivləşdirmək üçün 60-cı illərin sonunda NATO-nun Avropa Qrupu yaradılmışdır.

Blokun hərbi təşkilatına ümumi rəhbərliyi Hərbi Komitə həyata keçirir. Hər il üzv dövlətlərin baş ştablarının rəisləri səviyyəsində Komitə ən azı iki iclasını keçirir. İclaslar arasındakı zaman müddətində daimi hərbi nümayəndələr səviyyəsində daimi hərbi komitə fəaliyyət göstərir. 1967-ci ildə Hərbi Komitəyə yardımçı orqan olan Beynəlxalq hərbi ştab yaradılmışdır.

Üzv dövlətlərin silahlı qüvvələrinə konkret olaraq rəhbərliyi NATO-nun birləşmiş hərbi qüvvələrinin ali komandanlığı həyata keçirir. 1966-cı ildə Fransa NATO-nun ümumi hərbi təşkilatından çıxdı və bundan sonra NATO-nun hərbi qurumları ilə hərbi əlaqə missiyası vasitəsilə əlaqə saxlayır. 1974-1980-ci illərdə Yunanıstan NATO-nun hərbi qurumlarında iştirakını dayandırdı.

Konkret məsələlərə baxılması üçün NATO-da 2000-dən çox işçi qurumları (komitələr, komissiyalar, ekspertlər qrupu və s.) yaradılmışdır. NATO-ya qoşulan qeyri-hökumət təşkilatları aşağıdakılardır: Şimali Atlantika Müqaviləsi Assosiasiyası (NATO-nun təbliğ edilməsi ilə məşğul olan milli təşkilatlar birliyidir), Şimali Atlantika Assambleyası (NATO ölkələrinin parlament nümayəndələrinin illik toplantısıdır).

1984-cü ilin məlumatına görə NATO-nun silahlı qüvvələ-

rinin sayı 6 mln. nəfər, ehtiyatda olanlarla birlikdə isə 9,5 mln. nəfərdir. NATO-nun Avropada olan quru qoşunlarının üzvlərinin sayı 3 milyondan çoxdur. NATO-nun yarandığı gündən bu vaxta qədər onun hərbi xərclərinin 4 trld. dollardan çoxdur. Əgər 1949-cu ildə bu xərc 18,7 mlrd. dollar təşkil edirdisə, 1984-cü ildə isə 350 mlrd. dollar olmuşdur.

Azərbaycan Respublikası 1994-cü ilin mayın 4-də NATO-nun sülh naminə tərəfdaşlıq proqramına qoşulub.

**ŞİMALİ ATLANTİKA ŞURASI** - Şimali Atlantika müqaviləsi Təşkilatının ali siyasi orqanıdır. Şimali Atlantika müqaviləsinə uyğun olaraq 1949-cu ildə yaradılmışdır və şuranın tərkibi müqavilənin iştirakçıları olan dövlətlərin nümayəndələrindən ibarətdir. Şuranın ilk iclası 17.09.1949-cu il tarixdə keçirilmişdir.

Şura NATO-nun fəaliyyətinin əsas məsələləri ilə bağlı siyasi müzakirələr keçirir və informasiya mübadiləsi aparır, müzakirələr nəticəsində qərarlar qəbul edir, blokun iştirakçısı olan ölkələrin fəaliyyətini nizamlayır, onların maliyyə yardımlarının həcmini müəyyən edir, NATO-nun orqanlarının büdcəsini təsdiq edir. Şuranın sessiyaları, adətən, ildə 2 dəfə yüksək səviyyədə - xarici işlər nazirləri səviyyəsində, baxılan məsələnin mahiyyətindən asılı olaraq müdafiə, iqtisadiyyat, maliyyə nazirlərinin iştirakı ilə həftədə bir dəfədən çox olmayaraq NATO-nun mənzil - qərargahında NATO ölkələrinin səfir rütbəli daimi nümayəndələri tərkibində keçirilir. Bu iclaslarda blokun fəaliyyətinin gündəlik məsələlərinə baxılır.

**ŞİMALİ KOREYA** - Şərqi Asiyada Koreya yarımadasında yerləşir. Ərazisinin sahəsi 121.200 kv.km, əhalisinin sayı isə 23.486.550 nəfərdir. Dövlət dili koreya dilidir.

Ölkənin tam adı Koreya Xalq Demokratik Respublikasıdır (KXDR). Dövlət quruluşu konstitusiyaya görə suveren sosialist dövlətidir, ölkədə faktiki olaraq kommunist rejimi hakimiyyətdədir. Paytaxtı Pxenyan şəhəridir. KXDR 9 sentyabr 1948-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Yaponiya imperiyasına daxil olmuşdur). Həmin gün ölkədə Müstəqillik günü kimi qeyd olunur. Dövlət başçısı qeyri-məhdud hakimiyyətə malik olan prezidentdir. Ali qanunverici orqan Ali Xalq Məclisidir.



**ŞRİ-LANKA** - Hind okeanında, Hindistanın yaxınlığında yerləşir. Ərazisinin sahəsi 65.610 kv.km, əhalisinin sayı isə 17.860.000 nəfərdir (1995). Dövlət dili sinqal və tmil dilləridir.

Ölkənin tam adı Şri-Lanka Sosialist Demokratik Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Kolombo şəhəridir. Şri-Lanka 4 fevral 1948-ci ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Böyük Britaniyanın idarə etdiyi Seylon) və həmin gün Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti prezidentin (dövlət başçısı) və baş nazirin əlində cəmlənmişdir. Qanunverici orqan birpalatalı parlamentdir.

# T

**TACİKISTAN** - Orta Asiyada yerləşir. Ərazisinin sahəsi 143.100 kv.km, əhalisinin sayı isə 6.155.474 nəfərdir (1995). Dövlət dili tacik dilidir.

Ölkənin tam adı Tacikistan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Düşənbə şəhəridir. Ölkə müstəqilliyini SSRİ dağıldıqdan sonra 9 sentyabr 1991-ci ildə elan etmişdir. Həmin gün ölkədə Müstəqillik günü kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (Ali Sovetin sədri) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunverici orqan Ali Sovetdir.

**TAİLAND** - Cənub-şərqi Asiyada yerləşir. Ərazisinin sahəsi 513.511 kv.km, əhalisinin sayı isə 60.271.300 nəfərdir (1995). Dövlət dili tay dilidir.

Ölkənin tam adı Tailand Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Banqkok şəhəridir. Müstəqil Tailand dövləti 1238-ci ildə yaradılmışdır. Milli bayram 5 dekabr kralın doğulduğu gündür. Dövlət başçısı monarxdır (kral Pumpion Adulyadet IX Rama ölkəni 9 iyun 1946-cı ildən idarə edir). İcra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan Senat (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı palata) ibarət olan ikipalatalı parlament - Milli Assambleyadır.

**TANZANİYA** - Afrikanın cənub-şərq hissəsində yerləşir. Ərazisinin sahəsi 945.050 kv.km, əhalisinin sayı isə 29.700.000 nəfərdir (1995). Ölkənin iki rəsmi dili vardır: suaxili və ingilis dilləri.

Ölkənin tam adı Tanzaniya Birləşmiş Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Dodoma şəhəridir. Tanqaniki və Zanzibara respublikaları 29 oktyabr 1964-cü ildə birləşərək Tanzaniya Birləşmiş Respublikasını yaratmışlar. Milli bayramlar: 9 dekabr müstəqilliyin elan olunduğu günüdür (1961) və 26 aprel İttifaq günüdür (1964). Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə məxsusdur. Qanunverici hakimiyyət prezidentə və Milli Assambleyaya (parlament) məxsusdur.



**TAYVAN** - Şimali Asiyada Tayvan adasında yerləşir. Ərazisinin sahəsi 36.180 kv.km, əhalisinin sayı isə 21.500.583 nəfərdir (1995). Dövlət dili çin dilidir.

Dövlət quruluşu respublikadır. Paytaxtı Taybey şəhəridir. Tayvanın müstəqilliyi dünya ictimaiyyəti tərəfindən tanınmamışdır. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və İcra yuanına (palataya) rəhbərlik edən baş nazirə məxsusdur. Qanunverici orqan Milli Məclisdir (Qanunverici yuan).

**TƏCAVÜZ** - bir dövlətin (təcavüzkarın) başqa bir dövlətin suverenliyi, ərazi toxunulmazlığı, yaxud siyasi müstəqilliyi əleyhinə silahlı qüvvə tətbiq etməsidir.

Qəbul edilmiş anlayışa görə, bir dövlətin başqa dövlətə qarşı BMT Nizamnaməsini pozmaqla birinci olaraq silahlı qüvvədən istifadə etməsi təcavüzə ilk sübutdur.

Tərifdə göstərilmiş təcavüz aktlarını nəzərə almaqla aşağıdakı təcavüz növləri fərqləndirilir: birbaşa təcavüz, dolayı təcavüz, təcavüzdə iştirakçılıq. Birbaşa təcavüz aktları bunlardır: bir dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisinə hücum etməsi, bu cür basqının, yaxud hücumun nəticəsi olan hər hansı hərbi işğal, o cümlədən müvəqqəti işğal, digər dövlətin ərazisinin hər hansı şəkildə ilhaqı. Aşağıdakılar da birbaşa təcavüzə aiddir: bir dövlətin limanlarının, yaxud sahillərinin başqa dövlətin silahlı qüvvələri tərəfindən blokadası, dövlətin silahlı qüvvələrinin digər dövlətin quru, dəniz, yaxud hava qüvvələrinə (donanmalarına) hücumu, başqa dövlətin ərazisində hərbi iştirakın beynəlxalq sazişlərlə müəyyən edilmiş qaydalarını pozma.

Dolayı təcavüz zamanı təcavüzkar silahlı qüvvələri gizli olaraq tətbiq edir (məs. silahlı bandalardan, muzdlu əsgərlərdən, qeyri-nizami birləşmələrdən istifadə etməklə). Qeyri-nizami hərbi birləşmələrin, yaxud könüllü dəstələrin milli-azadlıq hərəkatına kömək göstərməsi beynəlxalq hüquq baxımından təcavüz deyildir, çünki beynəlxalq hüquqda millətlərin öz müqəddəratını təyin etmək hüququ qəbul edilmişdir.

Dövlət ərazisindən başqa dövlətə qarşı təcavüz üçün istifadə edilməsinə icazə verilməsi də təcavüzdə iştirakçılıqdır.

Tərifdə göstərilmiş təcavüz aktlarının siyahısı tam deyildir. BMT Təhlükəsizlik Şurasının, BMT Nizamnaməsinin müddəalarını əsas tutaraq digər hərəkətlər də təcavüz kimi qiymətləndirilə bilər.

Təcavüzün tərifində qeyd edilir ki, təcavüzkar müharibə beynəlxalq sülhə qarşı cinayətdir və təcavüz beynəlxalq məsuliyyətə səbəb olur. Təcavüz nəticəsində əldə edilmiş ərazi üstünlüyü, yaxud xüsusi fayda qanuni deyildir və qanuni hesab edilə bilməz. Eyni zamanda hər hansı bir təcavüzə məruz qalmış dövlət fərdi və ya kollektiv özünümüdafiə hüququna malikdir (BMT Nizamnaməsi, m.51); özünümüdafiə tədbirlərinin görülməsi haqqında dərhal BMT Təhlükəsizlik Şurasına xəbər verilməlidir.

Təcavüz aktını müəyyən etdikdə, BMT Təhlükəsizlik Şurası təcavüzkara qarşı qeyri-hərbi xarakterli tədbirlər görülməsi haqqında qərar qəbul edə bilər: bütünlüklə, yaxud qismən iqtisadi münasibətlərin, dəmir yolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin dayandırılması, diplomatik münasibətlərin pozulması. Bu kifayət etməzsə, Təhlükəsizlik Şurası təcavüzkara qarşı hava, dəniz və ya quru qüvvələrilə hərbi xarakterli tədbirlər (nümayiş, mühasirə və s. əməliyyatlar daxil olmaqla) görülməsi məsələsini həll edə bilər.

Təcavüzkar barəsində hərbi sanksiyalar tətbiq edildikdə BMT üzvü olan dövlətlər Təhlükəsizlik Şurasının sərəcamına hərbi qüvvələr verməlidirlər.

**TƏHLÜKƏSİZLİK ZONASI** - Təhlükəsizlik zonası haqqındakı 1958-ci il Cenevrə konvensiyası və 1982-ci il konvensiyasında nəzərdə tutulur ki, sahilyanı dövlətlər adalar ətrafında, dəniz qurğuları və başqa tikililər ətrafında onların təhlükəsizliyini və gəmiçiliyin təhlükəsizliyini təmin etmək məqsədi ilə təhlükəsizlik zonası müəyyən edə bilər.

**TOKİO MƏHKƏMƏSİ** - Yaponiyanın hərbi cinayətkarları üzərində qurulmuş məhkəmədir. 03.05.1946-12.11.1948-ci illərdə Tokioda keçirilmişdir. Məhkəməni 19.01.1946-cı ildə yaradılmış Uzaq Şərq hərbi tribunalı aparmışdır. Hərbi tribunal ABŞ, SSRİ, Böyük Britaniya, Fransa, Çin, Avstraliya, Kanada, Niderland, Yeni Zelandiya, Hindistan və Filippin hökumətlərinin razılığı ilə yaradılmış və bu ölkələrin nümayəndələrindən təşkil olunmuşdur.



Yapon hərbi cinayətkarları üzərində məhkəmənin qurulması tələbi Berlin konfransının (1945-ci il) və Moskva müşavirəsinin (1945-ci il) qərarlarında öz əksini tapmışdır.

Məhkəməyə 28 nəfər verilmişdir. Bunlardan 25-nə - Yaponiyanın 4 keçmiş baş nazirinə (X.Todzio, K.Xiranuma, K.Xirota, K.Koyso), 11 keçmiş nazirinə (S.Araki, S. Xata, N.Xosino, S. İtaqako, O.Kayya, K.Kido, S.Simada, T.Sudzuki. S.Toqo, M.Siqemitsu, D.Minami), 2 səfirinə (X.Osima, T.Siratori), ali generallığın 8 nümayəndəsinə (K.Doixara, X.Kimura, A.Muto, T.Oka, K.Sato, İ.Umedzu, İ.Matsui, K. Xasimoto) hökm oxunmuşdur. Məhkəmə zamanı keçmiş xarici işlər naziri İ.Matsuoka və admiral O.Naqani öldüklərindən onların işi xətm edilmiş, Yapon militarizminin ideoloqu S.Okava iflic olduğundan onun işi dayandırılmışdır.

Müttəhimlərə özlərinin müdafiəsi üçün geniş imkanlar verilmişdir. Hər müttəhimin 3-4 vəkili olmuşdur. Məhkəmə prosesində 818 açıq və 131 qapalı iclas keçirilmişdir. Məhkəmə 4356 sənədli sübuta, 1194 şahid ifadəsinə baxdıqdan, 419 şahidi və ittihamçıların və müdafiəçilərin nümayəndələrini dinlədikdən sonra 16.04.1948-ci ildə hökmün çıxarılması üçün fasilə elan etdi, 04.11.1948-ci ildə isə 1214 səhifədən ibarət hökmün oxunuşuna başladı.

Hökmdə qeyd olunurdu ki, məhkəmənin nəzərdən keçirdiyi illər ərzində Yaponiyanın daxili və xarici siyasəti təcavüzkar müharibənin hazırlanması və həyata keçirilməsinə yönəlmişdir. Yapon militaristləri Hitler Almaniyası və faşist İtaliyası ilə birlikdə ABŞ, SSRİ, Böyük Britaniya, Çin və başqa dövlətlərin xalqlarını məhv etməklə dünyada hökmranlığa can atmışlar.

Tribunal Todzioya, İtaqakiyə, Xirotaya, Matsuiyə, Doixaraya, Kimuraya və Mutoya asılmaqla ölüm hökmü çıxarmış, 16 nəfəri ömürlük həbs cəzasına, Toqonu 20 il, Siqemitsanı isə 7 il həbs cəzasına məhkum etmişdir. 1948-ci ilin dekabr ayının 22-dən 23-nə keçən gecə Tokioda Suqamo həbsxanasının həyətində 7 nəfərin ölüm hökmü icra olunmuşdur.

**TOQO** - Afrikanın qərbində yerləşir. Ərazisinin sahəsi 56.785, əhalisinin sayı isə 4.410.370 nəfərdir (1995). Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Toqolez Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Lome şəhəridir. Toqo 27 aprel 1960-cı ildə müstəqilliyini əldə etmişdir (əvvəllər Fransanın idarə etdiyi ərazi olmuşdur). Həmin gün ölkədə Müstəqillik günü kimi bayram edilir. Qanunvericilik fransız hüququna əsaslanır. İcra hakimiyyəti prezidentə və baş nazirə məxsusdur.

**TONQO** - Sakit okeanın cənub-qərb hissəsindəki 150-dən çox adanı əhatə edir. Ərazisinin sahəsi 748 kv.km, əhalisinin sayı isə 100.000 nəfərdir (1995). Dövlət dilləri tonqon və ingilis dilləridir.

Ölkənin tam adı Tonqo Krallığıdır. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Nukualofa şəhəridir. Tonqo Böyük Britaniyadan müstəqilliyini 4 iyun 1970-ci ildə əldə etmişdir. Milli bayram 4 iyun müstəqilliyin elan olunduğu gündür. Qanunvericilik ingilis hüququna əsaslanır. Dövlət başçısı monarxdır. İcra hakimiyyəti Nazirlər Kabinetinə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Qanunverici Assambleyadır.

**TRİNİDAD VƏ TOBAQO** - Karib hövzəsindəki *Trinidad.* Tobaqo və bir sıra adalarda yerləşir. Ərazisinin sahəsi 5.130.kv.km, əhalisinin sayı isə 1.271.159 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Trinidad və Tobaqo Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Port-of-Speyn şəhəridir. Ölkə Böyük Britaniyadan müstəqilliyini 31 avqust 1961-ci ildə almışdır. Həmin gün Müstəqillik günü kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) parlamentdir.

**TUNİS** - Şimali Afrikada yerləşir. Ərazisinin sahəsi 163.610 kv.km, əhalisinin sayı isə 8.879.845 nəfərdir (1995). Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Tunis Respublikasıdır. Dövlət quruluşu



prezidentli respublikadır. Paytaxtı Tunis şəhəridir. Tunis Fransadan müstəqilliyini 20 mart 1956-cı ildə əldə etmişdir və həmin gün Müstəqillik günü kimi qeyd olunur. Qanunvericilik Fransa mülki hüququna və islam qanunlarına əsaslanır. Dövlət başçısı prezidentdir. Prezident hökuməti və baş naziri təyin edir. Qanunverici orqan birpalatalı parlament olan Deputatlar palatasıdır.

**TUVALU** - Sakit okeanın cənub-qərbində yerləşir. Ərazisinin sahəsi 25,9 kv.km, əhalisinin sayı isə 10.000 nəfərdir (1995). Dövlət dili tuvalu və ingilis dilləridir.

Dövlət quruluşu *konstitusiyalı monarxiyadır. Britaniya Birliyi* daxilində müstəqilliyə malikdir. Paytaxtı Funafuti şəhəridir. Tuvalu Böyük Britaniyadan müstəqilliyini 1 oktyabr 1978-ci ildə əldə etmişdir (əvvəllər Ellis adaları) və həmin gün Müstəqillik günü kimi bayram edilir. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır. İcra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici orqan birpalatalı parlamentdir.

**TÜRKİYƏ** - Cənub-qərbi Asiya və cənub-şərqi Avropada yerləşir. Ərazisinin sahəsi 779.452 kv.km, əhalisinin sayı isə 63.405.526 (1995) nəfərdir. Dövlət dili türk dilidir.

Ölkənin tam adı Türkiyə Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Ankara şəhəridir. Türkiyə müstəqilliyini 29 oktyabr 1923-cü ildə elan etmişdir. Həmin gün Respublikanın elan olunduğu gün kimi bayram edilir. İcra hakimiyyəti prezidentə (dövlət başçısı), Prezident Şurasına və baş nazirə məxsusdur. Qanunverici orqan birpalatalı parlament olan Böyük Millət Məclisidir.

**TÜRKMƏNÇAY MÜQAVİLƏSİ** - 1826-cı ildə başlanan ikinci Rusiya-İran müharibəsi İranın məğlubiyyəti ilə nəticələndi. 1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə müqavilə imzalandı. Müqaviləyə görə, çar Rusiyasının qoşunları cənub torpaqlardan çıxarıldı, yenicə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibinə qatıldı. Şah isə *bu müqavilə ilə şimal xanlıqlarının* Rusiyanın tərkibinə qatılmasını təsdiq edirdi. Müqavilədə həmçinin Gülüstan müqaviləsi ilə rus tacirlərinə verilmiş imtiyazlar və Xəzər dənizində yalnız Rus hərbi donanmasının saxlanması hü-

ququ da təsdiqlənirdi. Bunlar az imiş kimi İran Rusiyaya 20 milyon manat təzminat verməli və təzminat ödənib qurtarana qədər zəbt edilmiş Azərbaycanın cənub vilayətləri Rusiyanın himayəsində qalmalı idi. Müqavilədə əhalinin İrandan Qafqaza və Qafqazdan İrana sərbəst keçməsinə icazə verilirdi.

**TÜRKMƏNİSTAN** - Orta Asiyada yerləşir. Ərazisinin sahəsi 488.100 kv.km, əhalisinin sayı isə 4.075.316 nəfərdir (1995). Dövlət dili türkmən dilidir.

Ölkənin tam adı Türkmənistan Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Aşqabad şəhəridir. Türkmənistan müstəqilliyini SSRİ dağıldıqdan sonra 27 oktyabr 1991-ci ildə əldə etmişdir. Həmin gün Türkmənistanın müstəqilliyi günü kimi bayram edilir. Dövlət başçısı prezidentdir və o baş naziri təyin edir. Ali qanunverici orqan birpalatalı parlament olan Məclisdir.



# U

**UKRAYNA** - Şərqi Avropa dövlətidir. Ərazisinin sahəsi 603.700 kv.km, əhalisinin sayı isə 51.867.828 nəfərdir (1995). Dövlət dili Ukrayna dilidir.

Dövlət quruluşu respublikadır. Paytaxtı Kiyev şəhəridir. Ukrayna müstəqilliyini SSRİ dağıldıqdan sonra 24 avqust 1991-ci ildə əldə etmişdir. Milli bayram 24 avqust Müstəqillik günüdür. İcra hakimiyyəti prezidentə (dövlət başçısı) və baş nazirə (hökumət başçısı) məxsusdur. Ali qanuverici orqan birpalatalı parlament olan Ali Sovetdir (Rada).

**UQANDA** - Afrikanın şərqində yerləşir. Ərazisi 236.860 kv.km, əhalisinin sayı isə 19.573.262 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Uqanda Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Kampala şəhəridir. Uqanda müstəqilliyini 9 oktyabr 1962-ci ildə elan etmişdir (əvvəllər Böyük Britaniyanın protektoratı olub). Həmin gün ölkədə Müstəqillik günü kimi bayram edilir. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Müqavimət Şurasıdır.

**ULTİMATUM** - Bir dövlətin hökumətinin digər dövlətin hökumətinə göstərilən vaxt müddətində hər hansı tələbin icra olunması ilə bağlı verdiyi xəbərdarlıqdır. Tələbin icrası yubadıldığı halda güc tətbiq olunması və digər tədbirlərə əl atılması istisna olunmur. Ultimatum yazılı və şifahi formada ola bilər.

**UNİTAR DÖVLƏT** ( fr. unitaire lat, unitas - birlik) - Dövlət quruluşu və yaxud milli-dövlət quruluşu formasıdır. Burada dövlətin ərazisi inzibati-ərazi vahidlərinə (vilayətlərə, mahallara, rayonlara, departamentlərə və s.) bölünür. Federasiyadan fərqli olaraq, unitar dövlətdə də əksər hallarda bir konstitusiya, dövlət hakimiyyətinin bir ali nümayəndəli orqanı, bir hökuməti olur və bu, ölkənin bütün ərazisində mərkəzi hakimiyyətin nüfuzunun yüksək olmasına imkan verir. Bəzi halda unitar dövlətin tərkibinə muxtariyyət statusundan istifadə edən ərazi vahidləri də daxil ola bilər (əgər çoxmillətli dövlətdə konkret tarixi şəraitdə federativ

dövlət yaratmağa lüzum yoxdursa).

Dünya dövlətlərinin əksəriyyəti (Böyük Britaniya, İtaliya, İspaniya, Yaponiya və b), habelə müstəmləkə asılılığından azad olmuş dövlətlərin çoxu mərkəzləşdirilmiş unitar dövlət formasındadır. Bununla belə həmin ölkələrdə müxtəlif ərazi muxtariyyəti formalarından istifadə edilir.

**URUQVAY** - Cənubi Amerikanın cənub-şərq hissəsində yerləşir. Ərazisinin sahəsi 178.000 kv.km, əhalisinin sayı isə 3.222.716 nəfərdir (1995). Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Şərqi Uruqvay Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Montevideo şəhəridir. Uruqvay Braziliyadan müstəqilliyini 25 avqust 1828-ci ildə əldə etmişdir. Milli bayram 25 avqust Müstəqillik günüdür. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) parlament olan Baş Assambleyadır.



# Ü

**ÜMUMDÜNYA DEMOKRAT GƏNCLƏR FEDERASİYASI (ÜDGF)** - Beynəlxalq qeyri-hökumət təşkilatıdır, 1945-ci ildə gənclərin Londonda keçirilən beynəlxalq konfransında təsis edilmişdir. ÜDGF-nin məqsədi müxtəlif gənclər təşkilatını sülh, demokratiya və milli müstəqillik uğrunda mübarizədə gənclərin sosial, siyasi və iqtisadi maraq və hüquqlarının müdafiəsi naminə birləşdirməkdir. ÜDGF dünyanın 250-dən çox gənclər təşkilatının 100 mln-dan çox gənc oğlan və qızlarını birləşdirir.

ÜDGF-nin ali rəhbər orqanı üzv təşkilatların Baş Məclisidir. Avropada, Asiyada, Afrikada, Yaxın Şərqdə və Latın Amerikasında ÜDGF-nin ərazi komissiyaları fəaliyyət göstərir.

ÜDGF-nin mənzil - qərargahı Budapeştdədir.

**ÜMUMDÜNYA ƏRZAQ ŞURASI** (Word Food Counsil) - 1972-ci ildə keçirilmiş Ümumdünya ərzaq konfransının təklifi ilə 17.12.1974-cü ildə BMT-nin BM-nin XXIX sessiyasının 3348 saylı qətnaməsi ilə yaradılmışdır. ÜƏŞ-iyə dünyanın 36 dövləti daxildir.

ÜƏŞ BMT-nin qarşısında EKOSOS vasitəsilə hesab verən bir orqan kimi yaradılmışdır. ÜƏŞ-nin funksiyası ərzaqın istehsalı, təhlükəsizliyi, ərzaq ticarəti, ərzaq yardımı məsələlərində koordinator kimi fəaliyyət göstərmək və bu məsələlərin həyata keçirilməsində BMT-nin başqa orqanlarını da cəlb etməkdən ibarətdir.

ÜƏŞ-nin mənzil - qərargahı Romadadır.

**ÜMUMDÜNYA HƏMKARLAR İTTİFAQI FEDERASİYASI (ÜHİF)** (World Federation of Trade Unions - WFTU) - Zəhmətkeşlərin beynəlxalq demokratik təşkilatıdır. 1945-ci ildə Parisdə Həmkarlar İttifaqının I Ümumdünya konqresində yaradılmışdır.

ÜHİF irqi mənsubiyyətindən, milli, dini və siyasi baxışlarından asılı olmayaraq zəhmətkeşlərin sosial-iqtisadi maraqlarını və onların demokratik hüquqlarını müdafiə etmək məqsədilə, müharibə və təcavüzün əleyhinə, uzunmüddətli və möhkəm sülh üçün dünyanın bütün Həmkarlar İttifaqlarının birliyi adından

çıxış edir.

ÜHİF-nin ali idarə orqanı Həmkarlar İttifaqının Ümumdünya Konqresidir. Bundan başqa, ÜHİF-nin Baş Məclisi, Bürosu və Katibliyi fəaliyyət göstərir.

ÜHİF-nin mənzil - qərargahı Praqadadır.

**ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI (ÜST)** (World Helth Orqanization - WHO) - BMT-nin xüsusi təsis edilmiş beynəlxalq hökumətlərarası təşkilatıdır. 1948-ci ildən fəaliyət göstərir.

ÜST-nin büdcəsi üzv dövlətlərin köçürtdükləri üzvlük haqları, həmçinin başqa mənbələrdən alınan vəsaitlərdən toplanır. ÜST- nin mənzil - qərargahı Cenevrədədir.

Nizamnaməyə görə, ÜST-nin məqsədi dünyanın bütün xalqlarının səhiyyəsini yüksək səviyyəyə çatdırmaqdır. "Bütün xalqların sağlamlığı sülhün və təhlükəsizliyin əldə edilməsində əsas faktlardan biridir və bu dövlətlərin ayrı-ayrı şəxslərinin əməkdaşlıqlarından asılıdır" prinsipi Nizamnamədə qeyd olunan əsas prinsiplərdən biridir.

Təşkilat doğum, xəstəliklər, epidemiya, ölümün səbəbləri və başqa məlumatların toplanması və ümumiləşdirilməsi ilə bağlı böyük işlər görür. ÜST "ÜST-nin xronikası", "ÜST-nin bülleteni", "Dünyanın sağlamlığı" kimi jurnallar nəşr edir, çıxışlar, monoqrafiyalar çap edir.

ÜST-nin əsas orqanları aşağıdakılardır: hər il toplanan Ümumdünya Səhiyyə Assambleyası və ildə 2 dəfə toplanan İcraedici Komitə. ÜST-nin nəzdində 6 ərazi təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlardan Avropa təşkilatı Kopenhagendə, Amerika təşkilatı Vaşinqtonda, Cənubi-Şərqi Asiya təşkilatı Dehlidə, Şərqi Aralıq dənizi təşkilatı İsgəndəriyyədə, Qərbi Sakit okean təşkilatı Manilada, Afrika təşkilatı Brazzavilada yerləşir.

**ÜMUMDÜNYA SÜLH ŞURASI (ÜSŞ)** (Word Peace Counsil) - Sülh tərəfdarları hərəkatına rəhbərlik edən ali orqandır. Sülh tərəfdarlarının 1950-ci il Varşavada keçirilən II Ümumdünya konqresində yaradılmışdır. ÜSŞ dünyanın 150-dən çox ölkəsinin siyasi partiyalarının, təşkilatlarının və milli komitələrinin nümayəndələrini özündə birləşdirir. ÜSŞ-nin ali orqanı Ümumdünya konqresidir. Rəhbər orqanlar sessiya və rəyasət heyətidir.



ÜSŞ-nin Rəyasət heyətinin daimi fəaliyyət göstərən icraedici orqanı katiblikdir.

Katibliyin mənzil - qəraragahı Helsinkidədir.

ÜSŞ hər cür təcavüzə və dünyanın kütləvi qırğın silahı ilə təhdid edilməsinə qarşı çıxış edir, dünyanın bütün xalqlarının həyat maraqlarına cavab verən möhkəm, ədalətli və demokratik sülhü alqışlayır, hamını tərki-silaha çağırır və kütləvi qırğın silahlarının ləğv edilməsini tələb edir.

# V

**VALİZA** - bax. Diplomatik poçt.

**VALYUTA DÜZƏLİŞİ** - Xarici ticarət dövriyyəsi sahəsində valyuta risklərinin məhdudlaşdırılması və xəbərdarlıq formasıdır. Beynəlxalq kredit, ödəmə və başqa sazişlərdə, həmçinin uzun müddətə bağlanmış xarici ticarət müqavilələrində bəzi ölkələrin valyutasının sabit olmaması və qiymətdən düşməsi ilə əlaqədar olaraq tətbiq edilir.

**VANUATU** - Sakit okeanın Yeni Qebridlər adalarında yerləşir. Ərazisinin sahəsi 14.763 kv.km, əhalisinin sayı isə 173. 648 nəfərdir (1995). Dövlət dili ingilis və fransız dilləridir.

Ölkənin adı Vanuatu Respublikasıdır. Dövlət quruluşlu Britaniya Birliyi daxilində respublikadır. Paytaxtı Vila şəhəridir. Vanuatu Fransa və Böyük Britaniyadan 30 iyul 1980-ci ildə müstəqilliyini əldə etmişdir. Həmin gün ölkədə milli bayram kimi qeyd olunur. Dövlət başçısı prezidentdir, icra hakimiyyəti baş nazirə məxsusdur. Qanunverici hakimiyyət birpalatalı parlament olan Milli Assambleyadır.

**VASİTƏÇİLİK** - Beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi vasitələrindən biridir. Mübahisədə iştirak etməyən hansısa bir 3-cü tərəf beynəlxalq hüquqa uyğun olaraq öz təşəbbüsü ilə və ya mübahisə edən tərəflərin xahişi ilə mübahisənisülh yolu ilə həll etmək məqsədi ilə tərəflər arasında danışıqları təşkil edir və özü də bu danışıqlarda iştirak edir.

Üçüncü tərəfin vasitəçilik təklifi mübahisəyə müdaxilə kimi başa düşülməməlidir; vasitəçiliyin praktik olaraq həyata keçməsi mübahisə edən tərəflərin razılığı ilə baş verir.

Vasitəçilik beynəlxalq hüquq tərəfindən qəbul olunur. Onun müddəaları beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi haqqındakı 1907-ci il Haaqa konvensiyasında öz əksini tapmışdır. Vasitəçilik BMT-nin Nizamnaməsinin 33-cü maddəsində verilən "mübahisələrin həllinin dinc yolları" siyahısına daxildir. Nizamnamədə həmçinin BMT-nin Baş Məclisi tərəfindən qəbul olunmuş beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi haqqında 1982-ci il Manila bəyannaməsi də xatırlanır.



**VATİKAN** - Roma ərazisində "şəhər-dövlət", roma katolik kilsəsinin mərkəzi və Roma papasının iqamətgahı (1370-ci ildən). Vatikan dövlətinin ərazisi 0,44 kv.km, əhalisi isə 1000 nəfərə yaxındır. Vatikanla İtaliya hökumətinin münasibətləri 1929-cu ildə bağlanmış Lateran müqaviləsi ilə nizamlanır. Vatikan beynəlxalq hüququn subyektinin bir çox hüquqlarından, məsələn, beynəlxalq müqavilələr bağlamaq və s. hüquqlarından istifadə edir. Dünyanın 110-dan çox ölkəsi ilə Vatikanın diplomatik əlaqəsi vardır. Belə ki, bu əlaqələr nunslar, pronunslar, internunslar və leqatlar vasitəsilə həyata keçirilir. Vatikan bəzi ölkələrlə xüsusi saziş olan konkordatlarla bağlıdır. Vatikanın xarici siyasətini başda katib olmaqla kilsənin Dövlət İşləri Şurası aparır. Vatikan BMT-nin müşahidəçi sifəti ilə üzvüdür və onun bir çox təşkilatlarının iştirakçısıdır. Vatikan dünyanın böyük kapitala, aksiyalara malik dövlətlərindən biridir və Qərbin tanınmış bankları ilə geniş əlaqələri vardır.

**VENESUELA** - Cənubi Amerika dövlətidir. Ərazisinin sahəsi 912.050 kv.km, əhalisinin sayı isə 21.004.773 nəfərdir. Dövlət dili ispan dilidir.

Ölkənin tam adı Venesuela Respublikasıdır. Dövlət quruluşu federativ respublikadır. Paytaxtı Karakas şəhəridir. Ölkə İspaniyadan müstəqilliyini 5 iyul 1821-ci ildə əldə etmişdir. Bu gün müstəqilliyin elan olunduğu gün kimi qeyd edilir. Qanunvericilik Napaleon məcəlləsinə əsaslanır. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına məxsusdur. Qanunverici hakimiyyət Konqres (ikipalatalı parlament) vasitəsilə həyata keçirilir. Konqres Senatdan (yuxarı palata) və Deputatlar palatasından (aşağı palata) ibarətdir.

**VETO** - bax. Yekdillik prinsipi.

**VƏTƏNDAŞLIQ** - Fiziki şəxsin dövlətlə sabit hüquqi əlaqəsidir ki, bu da onun həmin dövlətin suveren hakimiyyətinə tabe olmaqla orada müəyyən hüquqlara və vəzifələrə malik olmasında ifadə olunur. Vətəndaşlıq məsələsi hər bir dövlətin qanunverciliyi ilə nizama salınır, bir şərtlə ki, bu beynəlxalq hüquq normalarına zidd olmasın. Vətəndaşlığa aid beynəlxalq hüquq normaları

BMT-nin Nizamnaməsində, ərli qadınların vətəndaşlığı haqqındakı 1957-ci il konvensiyasında, insan hüquqları haqqında 1957-ci il paktında və dövlətlər arasından bağlanmış başqa çoxsaylı regional və ikitərəfli aktlarda öz əksini tapmışdır. Vətəndaşlığın əldə edilməsinin iki yolu vardır: 1) törəmə yolu ilə 2) naturalizasiya (vətəndaşlığı qəbul etmə) yolu ilə.

Törəmə yolu ilə vətəndaşlığın əldə edilməsinin iki prinsipi vardır:

a) *Torpaq hüququ prinsipi.* Bu prinsipdə vətəndaşlıq valideynlərin vətəndaşlığından asılı olmayaraq, uşaqların doğulduğu yerin qanunu üzrə müəyyən edilir, məsələn, ABŞ, Argentina, Braziliya və s. ölkələrdə bu prinsip hakimdir.

b) *Qan hüququ prinsipi.* Bu prinsipdə vətəndaşlıq uşaqların doğulduğu yerdən asılı olmayaraq valideynlərin vətəndaşlığı ilə təyin edilir, məsələn, Danimarka, Əfqanıstan və başqa ölkələrdə.

Bəzi hallarda hər iki prinsip biri digəri ilə əlaqədar, qarışıq prinsip əsasında tətbiq edilir.

Vətəndaşlığı qəbuletmə yolu ilə vətəndaşlığın əldə edilməsi ya ailəvi qaydada, ya da qeyri-ailəvi qaydada ola bilər. Ailəvi qayda üzrə yeni vətəndaşlığın qəbul edilməsi bir dövlətin vətəndaşının başqa bir dövlətin vətəndaşı ilə nikah bağlaması, ya da övladlığa qəbuletmə yolu ilə mümkündür. Qeyri-ailəvi qaydada vətəndaşlıq isə ya vətəndaşlığı olmayan şəxsin xahişi ilə onun vətəndaşlığa qəbul edilməsi, ya da şəxsin öz vətəndaşlığını dəyişdirib yeni vətəndaşlığı seçməsi (optasiya), vətəndaşlığın bəxş edilməsi, əhali mübadiləsi və köçürülməsi yolu ilə əldə edilir.

**VƏTƏNDAŞSIZLIQ** - Heç bir dövlətə mənsub olmayan şəxslərə vətəndaşılığı olmayan şəxslər deyilir. Vətəndaşlığa malik olmamaq vəziyyəti müxtəlif səbəblərlə əlaqədar olaraq ortaya çıxır. Məsələn, qadın ərə gedərkən vətəndaşlıq qanunvericiliyi "qadın kişinin vətəndaşlığına keçir" prinsipinə əsasən onu vətəndaşlıqdan kənar edirsə, ərin mənsub olduğu dövlətin qanunvericiliyi qadını vətəndaşlığa qəbul etmirsə, uşaq vətəndaşlığı olmayan valideyndən doğulursa, ya da şəxs bu və ya digər səbəbdən özünün vətəndaşlığını itirib yeni vətəndaşlıq əldə etmirsə, belə vəziyyət yaranır.



Vətəndaşsızlıq məsələsi ilə bağlı iki Beynəlxalq konvensiya mövcuddur: vətəndaşsızlıq haqqında 28.09.1954-cü il konvensiyası və vətəndaşsızlıq hallarının azaldılması haqqında 30.07.1961-ci il konvensiyası.

**VİLAYƏT MUXTAR OĞLU QULİYEV** - 25.11.1952-ci ildə doğulmuşdur. 1975-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1978-81-ci illərdə Azərbaycan Elmlər Akademiyasının aspirantı olmuşdur. 1981-1992-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçidən direktor müavini vəzifəsinə kimi müxtəlif vəzifələrdə çalışmışdır, filologiya elmləri doktoru, professordur. Ondan çox kitabın, çoxsaylı elmi məqalələrin müəllifidir. 1992-1993-cü illərdə Türkiyə Respublikasının Atatürk Universitetində professor vəzifəsində işləmişdir. 1996-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü (millət vəkili) seçilmiş, parlamentin hüquq siyasəti və dövlət quruculuğu komissiyasında çalışmışdır. 26.10.1999-cu ildə isə Azərbaycan Respublikası Xarici İşlər Naziri vəzifəsinə təyin olunmuşdur.

Fövqəladə və Səlahiyyətli Səfir diplomatik ranqına malikdir.

**VİZA** (lat. visus - baxılmış, gözdən keçirilmiş) - Şəxsin dövlət ərazisindən çıxıb getməsinə, əraziyə gəlməsinə və yaxud ərazidən keçib getməyinə verilən icazə haqqında həmən şəxsin pasportunda və yaxud pasportu əvəz edən sənəddə edilən qeyddir. Gediş-gəliş və tranzit vizaları müəyyən müddətə verilir. Vizasız gəliş (gediş) ölkələr arasındakı xüsusi sazişlə müəyyən olunur.

**VİZİT VƏRƏQƏSİ** - Diplomatik protokol praktikasında geniş istifadə olunur. Vizit vərəqəsində ad və familiya, onların altında isə vəzifə yazılır. Vizit vərəqəsinin şəxsən verilməsi, göndərilməsi və saxlanılması qaydaları qəbul olunub. Konkret vəziyyətdən asılı olaraq vizit vərəqəsinin aşağı sol küncündə qələmlə latın əlifbasını aşağıdakı hərfləri yazılır: p.f. - təbrik məqsədilə, p.r. - minnətdarlıq məqsədilə, p.c. - başsağlığı vermək məqsədilə, p.p. - yeni gəlmiş diplomatik əməkdaşın qiyabi təqdim edilməsi məqsədilə p.p.s. - fəaliyyət göstərdiyi ölkəni sonuncu dəfədə tərk

edəndə, p.f.N.a. - yeni il bayramını təbrik edəndə.

Vizit vərəqəsi qadınlara göndəriləndə vəzifə göstərilmir. Vizit vərəqəsinin ölçüsü və şrifti yerli praktikadan asılıdır.

**VYANA KONVENSİYASI (Beynəlxalq müqavilələr hüququ haqqında)** - 23.05.1960-cı ildə BMT-nin Beynəlxalq müqavilələr hüququ haqqında konfransında qəbul olunmuş, 27.01.1980-ci ildə qüvvəyə minmişdir. Vyana konvensiyası müqavilələr hüququna aid adi beynəlxalq hüquqi normaları ümumiləşdirir, həmçinin müasir beynəlxalq həyatda mövcud olan yeni normaları özündə cəmləşdirir. Vyana konvensiyası müqavilə hüququnun müxtəlif məsələlərini əhatə edir: beynəlxalq müqavilənin 3-cü dövlət üçün əhəmiyyəti, ümumi beynəlxalq hüququn imperativ (qeyd - şərtsiz qəbul olunmuş) normalarını inkar edən müqavilələrin saxta olması məsələsi, müqavilə bağlama anında mövcud olan köklü keyfiyyət dəyişikliklərinin müqavilənin həqiqiliyinə təsiri; çoxtərəfli müqavilələrə düzəliş hüququ, müqavilənin etibarsız hesab olunması şərtləri, tərəflərdən birinin müqavilənі pozması ilə bağlı olaraq yaranan mübahisənin həll edilməsi qaydası, çoxtərəfli müqavilənin depozitor funksiyası və s.

**VYANA KONVENSİYASI (Diplomatik əlaqələr haqqında)** 1961-ci il - Diplomatik nümayəndəliyin dövlət başçısı yanında status və funksiyalarını müəyyən edən əsas beynəlxalq hüquqi sənəddir. 18.04.1961-ci ildə Vyanada BMT-nin diplomatik əlaqələr üzrə konfransında qəbul edilmişdir.

Vyana konvensiyası diplomatik münasibətlərin qurulması dərəcisini, diplomatik nümayəndəliyin başçısının akkreditə olunmasını və funksiyalarını dayandırmasını, nümayəndəliyin əməkdaşlarının və onların ailələrinin ölkəyə gəlməsi və getməsi haqqında ölkənin XİN-nə xəbərdarlıq edilməsini, nümayəndəliyin başçısının diplomatik dərəcəsini müəyyən edir. Vyana konvensiyası nümayəndəliyin başçısının və ya nümayəndəliyin diplomatik heyətindən kiminsə persona non qrata elan edilməsi ilə bağlı normaları özündə saxlayır.

Vyana konvensiyası diplomatik dərəcəyə uyğun nümayəndəlik rəhbərinin və nümayəndəliyin diplomatik heyətinin üzvlərinin böyüklük məsələsini nizamlayır, həmçinin nümayəndəliyin başçısının səlahiyyətlərini müvəqqəti icra edəcək şəxsin təyin edilməsi qaydasını nəzərdə tutur. Vyana konvensiyasının böyük bir hissəsi diplomatik imtiyazlar və immunitetlərə həsr olunmuşdur. Sənədin preambulasında (müqəddiməsində) göstərilir ki, Vyana konvensiyasında baxılmayan məsələlər əvvəlki kimi beynəlxalq hüquq normaları ilə nizamlanacaq.

Vyana konvensiyasına 2 fakültativ protokol əlavə olunur: Beynəlxalq Məhkəmənin hüquqi məcburiliyi haqqında və dövlətin vətəndaşlıq haqqında qanunlarının həmin dövlətə işləməyə gələn diplomatik nümayəndəliyini əməkdaşlarına tətbiq edilməməsi haqqında.

**VYANA KONVENSİYASI (Dövlət mülkiyyəti, dövlət arxivləri və dövlət borclarına münasibətdə dövlətin varislik hüququ haqqında)** - 07.04.1983-cü ildə Vyanada diplomatik konfransda qəbul edilmişdir. Vyana konvensiyası dövlətin müqavilələrə münasibətdə hüquqi varisliyi haqqında 1978-ci il Vyana konvensiyasını tamamlayır, yeni dövlət yarandıqda (dövlətlər birləşəndə və yaxud parçalananda, keçmiş dövlətin ərazisində yeni müstəqil dövlətlər yarananda, həmçinin dövlətin ərazisinin bir hissəsi başqa dövlətə verildikdə) dövlət mülkiyyəti, dövlət arxivi və dövlət borclarına münasibətdə dövlətin varislik hüququ ilə bağlı olan məsələlərin nizama salınmasını tələb edir.

**VYANA KONVENSİYASI (Dövlət nümayəndəliyinin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətləri haqqında)** - 1975-ci ildə Vyanada diplomatik konfransda qəbul olunmuşdur. Konfrans Ərəb Dövlətləri Liqası və Ərəb Birliyi Təşkilatı kimi hərəkatların müşahidəçi statusuna aid qətnamə və Vyana konvensiyanın beynəlxalq təşkilatların gələcək fəaliyyətinin tətbiqinə aid qətnamə qəbul etmişdir. Vyana konvensiyası beynəlxalq təşkilatlar yanında (BMT, onun ixtisaslaşdırılmış qurumları və s.) dövlətlərin daimi nümayəndəliklərinin, beynəlxalq təşkilatlar tərəfindən çağırılmış konfranslarda iştirak edən nümayəndə və müşahidəçilərin beynəlxalq hüquqi statusunu müəyyən edir. Nümayəndələrin immunitet və imtiyazları diplomatik agentlər üçün 1961-ci il Vyana konvensiyasında nəzərdə tutulan imtiyazlar və immunitetlərə yaxındır. Vyana konvensiyası dövlət tərəfin-

dən beynəlxalq təşkilatların orqanlarına və onların keçirdiyi konfranslara göndərilən nümayəndə heyətinin üzvlərinin və nümayəndə heyətinin başçısının toxunulmazlığını, onların yerləşdiyi mənzillərin toxunulmazlığını, onların vergidən və rüsumdan azad edilməsini nəzərdə tutur.

**VYANA KONVENSİYASI (Konsulluq əlaqələri haqqında)** - 24.04.1963-cü ildə BMT-nin Vyanada keçirilən konfransında qəbul edilmişdir, 19.03.1967-ci ildə qüvvəyə minmişdir.

**VYANA KONVENSİYASI (Müqavilələrə münasibətdə dövlətin varislik hüququ haqqında)** - 23.08.1978-ci ildə Vyanada diplomatik konfransda qəbul olunmuş çoxtərəfli sazişdir. Vyana konvensiyası beynəlxalq müqavilələrə münasibətdə varislik hüququnu nizamlamağa, dövlətlərarası müqavilələr əlaqəsinin sabitliyinin təmin olunmasına şərait yaratmağa çağırır. Konvensiya beynəlxalq hüququn bir çox mühüm prinsiplərini möhkəmləndirir və inkişaf etdirir. Məsələn, dövlətlərin birləşməsi, parçalanması, bir dövlətin ərazisinin bir hissəsinin başqa dövlətə verilməsi halları üçün əvvəllər mövcud olan dövlət tərəfindən müqavilə öhdəliklərinin saxlanma prinsipini nəzərdə tutur. Vyana konvensiyası xalqların öz sərvətlərinə və təbii ehtiyatlarına ayrılmaz suveren hüququ prinsipini, həmçinin özgə ərazilərdə hərbi bazaların yerləşdirilməsinin yolverilməzliyi haqqında və mövcud sərhədlərin möhkəmliyi haqqında müddəaları təsdiq edir.

**VYANA REQLAMENTİ** - "Diplomatik müvəkkillər haqqında müddəalar" adı ilə tanınır. 1814-1815-ci il Vyana konqresinin Yekun Aktına əlavə olaraq 19.03.1815-ci ildə qəbul olunmuşdur. Vyana reqlamenti diplomatik müvəkkillərin üç dərəcəsini müəyyən etmişdir: səfirlər, papa leqatları və ya nunsiləri, elçilər, nazirlər və "dövlət başçısı tərəfindən səlahiyyət verilmiş" şəxslər, xarici işlər nazir tərəfindən səlahiyyət verilmiş işlər vəkili. Bütün dövlətlər üçün hər bir dərəcəyə uyğun diplomatik nümayəndənin vahid qəbulolunma qaydalarının müəyyən olunması nəzərdən keçirilmişdir.

Vyana reqlamentinin müddəaları uzun illər diplomatik praktikaya beynəlxalq hüququn normaları kimi daxil olmuş və bu normalar Vyana reqlamentinə qoşulmamış dövlətlər tərəfindən də



qəbul edilmişdir.

**VYETNAM** - Cənub-şərqi Asiya dövlətidir. Ərazisinin sahəsi 329.566 kv.km, əhalisinin sayı isə 74.393.324 nəfərdir (1995). Dövlət dili Vyetnam dilidir.

Ölkənin tam adı Vyetnam Sosialist Respublikasıdır. Paytaxtı Hanoy şəhəridir. Ölkə Fransadan müstəqilliyini 2 sentyabr 1945-ci ildə əldə etmiş və bu gün milli bayram kimi qeyd olunur. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və baş nazirə (Nazirlər Şurasının sədri) məxsusdur. Qanunverici hakimiyyət Milli Məclis adlanan birpalatalı parlamentlə həyata keçirilir.

# Y

**YADDAŞ QEYDLƏRİ** - Diplomatik yazışma sənədlərinin növlərindən biridir. Söhbət zamanı şifahi bəyanatı təsdiq etmək üçün verilir. Yaddaş qeydlərinin məqsədi verilən bəyanatın təsir gücünü artırmaq və yaxud düzgün başa düşülməmək haqqında xəbərdarlıq etməkdir.

Qaydaya görə, yaddaş qeydləri, şəxssiz formada hazırlanır, müraciət və kompliment ifadə olunmur. Gerbsiz kağızda çap olunur, mətnin altında təqdimatın yeri və tarixi göstərilir, çıxış nömrəsi və möhür vurulmur, ünvan göstərilmir. Mətnin altında sadəcə olaraq "yaddaş qeydi" yazılır.

Əgər yaddaş qeydi şifahi bəyanatın xülasəsini və yaxud özünü tamamilə özündə əks etdirirsə, onda sonunda təqdimatın yeri və tarixi göstərilmir.

Əgər yaddaş qeydinin təqdim edilməsi nəzərdə tutulmursa, lakin həmsöhbət şəxs bunu xahiş edirsə, onda yaddaş qeydləri ya şəxsi və ya verbal nota vasitəsilə, ya da vizit vərəqəsi ilə birlikdə göndərilir.

**YAXIN ŞƏRQ PROBLEMİNİN NİZAMA SALINMASI** - Mühüm beynəlxalq problemlərdən biridir. Bu problemin ədalətli həlli Yaxın Şərqin bütün xalqlarının təhlükəsizliyini, uzunömürlü sülhün bərqərar olmasını və dünyada gərginliyin azalmasını təmin edə bilərdi.

1967-ci ildən başlayaraq İsrailin ərəb ölkələrinə qarşı apardığı müharibələr, İsrailin hakim dairələrinin işğal etdikləri ərəb torpaqlarından qoşunlarını çıxarmasından imtina etməsi. Fələstin probleminin ədalətli həlli və müstəqil Fələstin dövlətinin yaradılmasına qarşı göstərdiyi fəaliyyət Yaxın Şərqdə uzunmüddətli gərginliyə səbəb olmuşdur. Yaxın Şərqdə vəziyyət və Fələstin məsələsi haqqında BMT-nin Təhlükəsizlik Şurasının və Baş Məclisinin qətnamələrində öz əksini tapan Yaxın Şərq münasibətlərinin nizama salınması prinsipləri bu konfliktə qoşulmuş bütün tərəflərin qanuni hüquqlarını və maraqlarını nəzərə almaqla problemin kompleks həllini nəzərdə tutur. Bu məsələ ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının 22.11.1967-ci il 242 saylı qətnaməsinin mühüm rolu vardır. Bu sənəddə işğal olunmuş ərazilərdən İsrail qoşunlarının çıxarılması, müharibə vəziyyətinin dayandırılması və münaqişədəki tərəflərin arasında sülhün bərqərar edilməsi, Yaxın Şərqin bütün dövlətlərinin dinc və təhlükəsiz yaşamaları və Fələstin qaçqınlarının probleminin həlli öz əksini tapmışdır.

Yaxın Şərq probleminin nizama salınmasında heç bir irəliləyişin əldə edilməməsi 1973-cü ildə yenidən ərəb-İsrail müharibəsinə gətirib çıxartdı. BMT-nin Təhlükəsizlik Şurası 22.10.1973-cü ildə 228 saylı qətnamə qəbul etdi. Bu qətnamədə təcili olaraq 242 saylı qətnamədən irəli gələn məsələlərin həllinə başlamaq və bu məqsədlə maraqlı tərəflər arasında danışıqların başlanması göstərilmişdir.

SSRİ və ABŞ-ın həmsədrliyi ilə Yaxın Şərq üzrə Cenevrə sülh konfransı yaradıldı.

Fələstin Azadlıq Təşkilatının ardıcıl mübarizəsi nəticəsində BMT-də və başqa beynəlxalq təşkilatlarda Yaxın Şərq problemi ilə bağlı bir çox mühüm sənədlər qəbul edilmişdir. Məsələn, BMT-nin Baş Məclisinin 1974-cü ildə 3236 və 3237 saylı qətnamələrində Fələstin ərəblərinin özünütəyinetmə, milli müstəqillik və suverenlik kimi qanuni hüquqlara malik olmaları təsdiq edildi. BMT BM-nin VII fövqəladə sessiyası (iyul, 1980) Fələstin xalqının özünün müstəqil dövlətini qurmaq hüququnu müdafiə etdi.

17 sentyabr 1978-ci ildə Kemp-Deviddə İsrailin baş naziri M.Beqin, Misir Ərəb Respublikasının prezidenti Ə.Sədat və ABŞ-ın prezidenti C.Karter (şahid qismində) "Yaxın Şərqdə sülh üçün çərçivə" və "Misir və İsrail arasında sülh müqaviləsinin bağlanması üçün çərçivə" adlanan sənədləri imzaladılar. Bu sənədlərə görə, Fələstinlilərə İordan çayının qərb sahillərində və Qəzza bölgəsində məhdud özünüidarə hüququ verildi. Belə ki, bu ərazi faktiki olaraq İsrailin nəzarəti altında saxlanılırdı. 1979-cu ildə isə İsrail ilə Misir arasında sülh müqavilələri bağlandı.

Kemp-Devid müqaviləsindən sonra İsrail Suriya ərazisinə, 1982-ci ildə isə Livan ərazisinə genişmiqyaslı hərbi təcavüzə başladı.

1982-ci ilin sentyabr ayında ərəb dövlət və hökumət başçılarının Mərakeş toplantısında ilk dəfə olaraq Fələstin probleminin həllinin və Yaxın Şərqin nizama salınmasının ümumərəb prinsipləri təsdiq edildi.

BMT-nin bütün səylərinə baxmayaraq, Yaxın Şərq problemi bu gün də həll olunmamış qalır.

**YAMAYKA** - Karib dənizindəki Yamayka adasında yerləşir. Ərazisinin sahəsi 11.500 kv.km, əhalisinin sayı isə 2.574.291 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır, Britaniya Birliyinin üzvüdür. Paytaxtı Kinqston şəhəridir. Yamayka Böyük Britaniyadan müstəqilliyini 6 avqust 1962-ci ildə əldə etmişdir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Dövlət başçısı qubernator vasitəsilə təmsil olunan Britaniya monarxıdır, icra hakimiyyəti isə baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan ikipalatalı (Senat - yuxarı palata, Nümayəndələr palatası - aşağı palata) parlamentdir.

**YAPONİYA** - Sakit okeanın qərb hissəsindəki Hokkaydo, Xonsyu, Sikako və Küsü adalarında yerləşir. Ərazisinin sahəsi 377.765 kv.km, əhalisinin sayı isə 125.600.000 nəfərdir (1995).

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. Milli bayram 23 dekabr İmperatorun doğulduğu gündür (1933). Dövlət başçısı imperatordur (imperator Akixito ölkəni 7 yanvar 1989-cu ildən idarə edir). Real icra hakimiyyəti Nazirlər Kabinetinə başçılıq edən baş nazirin əlindədir. Qanunverici orqan Müşavirlər Palatasından və Nümayəndələr Palatasından ibarət olan ikipalatalı parlamentdir.

**YEKDİLLİK PRİNSİPİ** (BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərinin) - BMT-nin Nizamnaməsində öz əksini tapmışdır.

Yekdillik prinsipinə görə, prosedur məsələlərdən başqa bütün məsələlərdə, həmçinin Beynəlxalq Məhkəmənin üzvlərinin seçilməsində Təhlükəsizlik Şurasının qərarı aşağıdakı şərt daxilində qəbul olunur: Təhlükəsizlik Şurasının ən azı 9 üzvü məsələnin lehinə səs verməlidir və daimi üzvlərin - Rusiya, ABŞ, Çin, Böyük Britaniya və Fransanın səsləri üst-üstə düşməlidir.



Əgər Şuranın daimi üzvlərindən heç olmasa biri "veto hüququ"ndan (veto - qadağan edirəm) istifadə edib, məsələnin əleyhinə səs verərsə, Təhlükəsizlik Şurası heç bir məsələ üzrə qərar qəbul edə bilməz.

Yekdillik prinsipi BMT-nin Nizamnaməsinin 108 və 109-cu maddələrində öz əksini tapmışdır. Orada göstərilir ki, əgər Təhlükəsizlik Şurasının daimi üzvləri ratifikasiya etməsə, Nizamnaməyə olan düzəlişlər heç bir hüquqi qüvvəyə malik deyil.

Təhlükəsizlik Şurasına Beynəlxalq sülhü və təhlükəsizliyi dəstəkləmək üçün geniş səlahiyyətlər verilmişdir. Yekdillik prinsipi bu orqandan bir və ya bir neçə dövlətlərin öz məqsədləri üçün istifadə etməyə imkan verməməyinin zəruri təminatıdır.

**YEKUN AKTI** - Beynəlxalq konfransa (konqresə, toplantıya) yekun vuran sənədin adıdır. Yekun Aktının məzmunu, quruluşu və hüquqi qiyməti müxtəlifdir. Onlar konfransın və yaxud ikitərəfli danışıqların xarakteri, məqsədi və işin gedişi ilə müəyyən olunur. Adətən, yekun aktının adı beynəlxalq müqavilənin adı ilə eyni olur.

**YEKUN PROTOKOLU** - Müqavilə iştirakçılar tərəfindən imzalandıqdan sonra müqavilədə qeydlərin, bəzi dəqiqləşdirmələrin aparılması üçün zərurət yaranarsa, bunun üçün xüsusi akt tərtib olunur və bu akt müqavilə iştirakçıları tərəfindən imzalanır. Həmin akt yekun protokolu adlanır. Yekun protokolunda iştirakçıların bu və ya digər düzəlişləri öz əksini tapa bilər. Müqavilə praktikasında yekun protokolu həm ikitərəfli, həm də çoxtərəfli müqavilələrin əlavəsi (icması) kimi verilir.

**YENİ ZELANDİYA** - Sakit okeanın cənub hissəsindəki iki böyük adada (bir-birindən Kuk boğazı ilə ayrılmış Şimal və Cənub adaları) və bir çox kiçik adalarda yerləşir. Ərazisinin sahəsi 270.500. kv.km, əhalisinin sayı isə 3.600.00 nəfərdir (1995). Dövlət dili ingilis dilidir.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkə Britaniya Birliyinə daxildir. Paytaxtı Vellinqton şəhəridir. Ölkə Böyük Britaniyadan müstəqilliyini 26 sentyabr 1907-ci ildə əldə etmişdir. Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Milli bayram 6 fevral Vaytinq günüdür. Dövlət başçısı formal olaraq qubernator

vasitəsilə təmsil olunan Britaniya monarxıdır. Faktiki olaraq icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan birpalatalı parlament olan Nümayəndələr palatasıdır.

**YERUSƏLİM ŞƏHƏRİNİN STATUSU** - BMT-nin Fələstin bölgələri haqqında 29.11.1947-ci il tarixli 181 (II) nömrəli qətnaməsi Yerusəlimin xüsusi beynəlxalq rejimli ayrıca vahidə bölünməsini nəzərdə tutur. (Qəyyumluq Şurasının idarəçiliyi altında)

1948-49-cu illər Fələstin müharibəsi nəticəsində İsraillə İordaniya arasındakı ümumi razılığa görə Yerusəlimin qərb hissəsi İsrailin, şərq hissəsi ilə İordaniyanın nəzarəti altında qaldı.

1950-ci illər arasında Qəyyumluq Şurası şəhərin statusunu işləyib hazırladı. Belə ki, Yerusəlimdə inzibati hakimiyyəti BMT-nin adından həyata keçirən qubernatorun təyin edilməsi nəzərdə tutulurdu. İsrail hökuməti 23.01.1950-ci ildə Yerusəlimin qərb hissəsini İsrailin paytaxtı elan etdilər.

1967-ci ildə ərəb-İsrail müharibəsi nəticəsində İsrail İordan çayının qərb hissəsini və Yerusəlimin şərq hissəsini tutdu. İsrail hökuməti Yerusəlimin tutulmuş torpaqlarını İsrailin təsir dairəsində olması haqqında qanun qəbul etdi və Yerusəlimin ərəblərdən ibarət şəhər sovetini buraxdı. İsrail hökumətinin zorakılıqla apardığı coğrafi, demoqrafik və tarixi xarakterli dəyişikliyinin və Yerusəlimin statusunun dəyişdirilməsinin qeyri-qanun olduğunu BMT dəfələrlə bəyan etmişdir.

**YƏMƏN** - Cənub-qərbi Asiyada, Ərəbistan yarımadasında yerləşir. Ərazisinin sahəsi 527.970 kv.km, əhalisinin sayı isə 14.728.474 (1995) nəfərdir. Dövlət dili ərəb dilidir.

Ölkənin tam adı Yəmən Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Səna şəhəridir. Yəmən Respublikası 22 may 1990-cı ildə Yəmən Ərəb Respublikası və Yəmən Xalq Respublikasının birləşməsindən yaranmışdır. Həmin gün Yəmən birliyi günü kimi qeyd olunur. Bundan başqa 26 sentyabr İnqilab günü və 30 noyabr Müstəqillik günü kimi qeyd olunur. İcra hakimiyyəti Prezident Şurasına (Prezident Şurasının sədrinə geniş səlahiyyətlər verilir) və baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunverici hakimiyyət Deputatlar palatası



adlanan birpalatalı parlament vasitəsilə həyata keçirilir.

**YUQOSLAVİYA** - Baltik yarımadasında yerləşir. Ərazisinin sahəsi 102.173 kv.km, əhalisinin sayı isə 11.101.833 nəfərdir (1995). Dövlət dili serb dilidir.

Ölkənin tam adı Yuqoslaviya Federativ Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Belqrad şəhəridir. Yuqoslaviya Federativ Respublikası müstəqilliyini 1992-ci ilin aprel ayında əldə etmişdir. Dövlət başçısı prezidentdir, lakin dövlətə daxil olan hər iki respublikanın (Serbiya və Çernoqoriya) özünün prezidenti (dövlət başçısı) və hökuməti vardır. Qanunverici orqan parlamentdir.

**YUNANISTAN** - Cənub-şərqi Avropa dövlətidir. Ərazisinin sahəsi 131.957 kv.km, əhalisinin sayı isə 10.647.511 nəfərdir (1995). Dövlət dili yunan dilidir.

Ölkənin tam adı Yunanıstan Respublikasıdır. Dövlət quruluşu respublikadır. Paytaxtı Afina şəhəridir. Yunanıstan müstəqilliyini 1830-cu ildə Osmanlı imperiyasından almışdır. Milli bayram 25 mart Müstəqillik günüdür (Yunanıstanın müstəqilliyi uğrunda 1821-ci il müharibəsinin başlandığı gün). Qanunvericilik Roma mülki huququna əsaslanır. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici hakimiyyəti birpalatalı parlament həyata keçirir.

# Z

**ZAİR** - Mərkəzi Afrika dövlətidir. Ərazisinin sahəsi 2.345.410 kv.km, əhalisinin sayı isə 44.060.636 nəfərdir. Dövlət dili fransız dilidir.

Ölkənin tam adı Zair Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Kinşasa şəhəridir. Zair Belçikadan müstəqilliyini 3 iyun 1960-cı ildə almışdır (əvvəlki adı Belçika Konqosu). Həmin gün ölkədə milli bayram kimi qeyd olunur. Dövlət başçısı prezidentdir, o baş naziri təyin edir. Qanunverici hakimiyyət birpalatalı parlament olan Qanunverici Şura vasitəsilə həyata keçirilir.

**ZAMBİYA** - Afrikanın cənub hissəsində yerləşir. Ərazisinin sahəsi 752.614 kv.km, əhalinin sayı isə 9.445.723 nəfərdir. Dövlət dili ingilis dilidir.

Ölkənin tam adı Zambiya Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Lusaka şəhəridir. Zambiya Böyük Britaniyadan müstəqilliyini 24 oktyabr 1964-cü ildə almışdır və həmin gün milli bayram kimi qeyd olunur. Dövlət başçısı prezidentdir və o hökuməti təyin edir. Qanunverici hakimiyyət prezident və ikipalatalı parlament (yuxarı palata - Milli Assambleya, aşağı palata - Nümayəndələr palatası) tərəfindən həyata keçirilir.

**ZİMBABVE** - Afrika qitəsinin cənub hissəsində yerləşən dövlətdir. Ərazisinin sahəsi 390.759 kv.km, əhalisinin sayı isə 11.139.961 nəfərdir.

Ölkənin tam adı Zimbabve Respublikasıdır. Dövlət quruluşu prezidentli respublikadır. Paytaxtı Xarare şəhəridir. Zimbabve müstəqilliyini 18 aprel 1980-ci ildə Böyük Britaniyadan almışdır (keçmiş adı Cənubi Rozeya) və həmin gün milli bayram kimi qeyd olunur. Dövlət başçısı prezidentdir və o hökuməti təyin edir. Qanunverici hakimiyyət birpalatalı parlamentlə təmsil olunur.



## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏR QURDUĞU ÖLKƏLƏR

| | |
|---|---|
| Avstraliya | 19.06.92 |
| Avstriya | 20.02.92 |
| Albaniya | 23.09.93 |
| Əlcəzair | 22.04.94 |
| Anqola | 01.12.94 |
| Andorra | 30.04.96 |
| Antiquavə Barbuda | 05.07.95 |
| Argentina | 08.11.93 |
| Əfqanıstan | 16.11.94 |
| Bəhreyn | 06.11.96 |
| Banqladeş | 26.02.92 |
| Belorusiya | 11.06.93 |
| belçika | 17.06.92 |
| Benin | 14.10.99 |
| Bolqarıstan | 05.06.92 |
| Boliviya | 08.07.96 |
| Bosniya və Hersoqovina | 09.02.95 |
| Braziliya | 21.10.93 |
| Bruney | 24.11.95 |
| Burundi | 02.03.95 |
| Böyük Britaniya | 11.03.92 |
| Macarıstan | 27.11.92 |
| Venesuela | 12.05.95 |
| Vyetnam | 23.09.92 |
| Vatikan | 09.01.94 |
| Qambiya | 11.11.94 |
| Qana | 11.09.92 |
| Hayana | 09.01.95 |
| Qvatemala | 01.11.94 |
| Qvineya | 11.03.92 |
| Qvineya Bisau | 27.08.92 |
| Honduras | 22.12.94 |

| | |
|---|---|
| Yunanıstan | 02.04.92 |
| Gürcüstan | 18.11.92 |
| Qabon | 01.10.96 |
| Danimarka | 02.04.92 |
| Cibuti | 22.10.96 |
| Misir | 27.03.92 |
| İsrail | 07.04.92 |
| Hindistan | 28.02.92 |
| İndoneziya | 24.09.92 |
| İordiniya | 13.02.92 |
| İraq | 30.03.92 |
| İran | 12.03.92 |
| İrlandiya | 01.07.96 |
| İspaniya | 11.02.92 |
| İtaliya | 08.05.92 |
| İslandiya | 27.02.98 |
| Yəmən | 25.02.92 |
| Zambiya | 18.11.93 |
| Qazaxıstan | 30.08.92 |
| Kamboca | 28.12.94 |
| Kamerun | 24.02.95 |
| Kanada | 10.08.92 |
| Qətər | 14.09.94 |
| Çin | 02.03.92 |
| Şimali Koreya | 30.01.92 |
| Kolumbiya | 13.12.94 |
| Komor adaları | 06.09.94 |
| Cənubi Koreya | 23.03.92 |
| Kosta-Rika | 15.01.97 |
| Kot-d' İvuar | 19.11.96 |
| Kuba | 27.03.92 |
| Küveyt | 07.10.94 |
| Qırğızıstan | 19.01.93 |
| Laos | 22.05.95 |
| Latviya | 11.01.94 |
| Liberiya | 22.05.96 |
| Livan | 18.09.92 |



| | |
|---|---|
| Liviya | 16.03.92 |
| Litva | 20.11.95 |
| Lixteynşteyn | 21.01.92 |
| Lüksemburq | 01.06.92 |
| Mavrikiya | 19.07.96 |
| Mavritaniya | 29.10.94 |
| Madaqaskar | 26.05.93 |
| Makedoniya | 28.06.95 |
| Malayziya | 05.04.93 |
| Mali | 26.11.96 |
| Maldivlər | 20.12.94 |
| Malta | 09.01.95 |
| Mərakeş | 25.08.92 |
| Meksika | 10.02.92 |
| Mozambik | 20.06.95 |
| Moldova | 18.05.92 |
| Monqolustan | 16.04.92 |
| Nepal | 28.02.95 |
| Niger | 10.11.95 |
| Niderland | 01.04.92 |
| Nikaraqua | 23.11.94 |
| Yeni Zelandiya | 10.09.92 |
| Norveç | 05.06.92 |
| BƏƏ | 01.09.92 |
| Oman | 13.07.92 |
| Fələstin | 15.04.92 |
| Pakistan | 09.06.92 |
| Panama | 06.04.95 |
| Peru | 25.06.96 |
| Polşa | 21.02.92 |
| Portuqaliya | 04.08.92 |
| Rusiya | 04.04.92 |
| Rumınya | 21.06.92 |
| Səudiyyə Ərəbistanı | 24.02.92 |
| Seyşel adaları | 02.11.94 |
| Seneqal | 14.03.96 |
| Sent-Kits və Nevis | 22.03.95 |

| | |
|---|---|
| Sinqapur | 15.08.94 |
| Suriya | 28.03.92 |
| Slovakiya | 23.11.93 |
| Sloveniya | 20.02.96 |
| Sudan | 25.07.92 |
| Surinam | 11.02.00 |
| ABŞ | 28.02.92 |
| Serra-Leone | 13.03.95 |
| Tacikistan | 29.05.92 |
| Tailand | 07.05.92 |
| Tunis | 01.07.98 |
| Türkmənistan | 09.06.92 |
| Türkiyə | 14.01.92 |
| Uqanda | 19.08.95 |
| Özbəkistan | 02.10.95 |
| Ukrayna | 06.02.92 |
| Uruqvay | 12.01.95 |
| Filippin | 27.03.92 |
| Finlandiya | 24.03.92 |
| Fransa | 21.02.92 |
| AFR | 20.02.92 |
| Xorvatiya | 26.01.95 |
| Çexiya | 29.01.93 |
| Çili | 03.11.94 |
| İsveçrə | 21.01.92 |
| İsveç | 08.05.92 |
| Şri-Lanka | 04.08.94 |
| Salvador | 23.03.99 |
| Estoniya | 20.04.92 |
| Həbəşistan | 02.11.92 |
| CAR | 29.04.92 |
| Yuqoslaviya | 21.08.97 |
| Yamayka | 22.11.95 |
| Yaponiya | 07.09.92 |



## AZƏRBAYCAN RESPUBLİKASINDA AKKREDİTƏ OLUNMUŞ XARİCİ ÖLKƏLƏRİN DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİ

1. **Almaniya Federativ Respublikasının Səfirliyi (Bakı-22.04.1992)**
   Səfir - Kristian Zibek (26.02.97)

2. **Amerika Birləşmiş Ştatlarının Səfirliyi (Bakı-7.03.1992)**
   Səfir - Ross Vilson (11.10.2000)

3. **Argentina Respublikasının Səfirliyi (Moskva)**

4. **Avstraliya Birliyinin Səfirliyi**
   Səfir -x-m Ruf Loreyn Piarsin

5. **Avstriya Səfirliyi (Vyana, XİN)**
   Səfir - x-m Heydemariya Qurer (10.02.2000)

6. **Banqladeş Xalq Respublikasının Səfirliyi (Ankara)**
   Səfir - Nəzimullah Çouduri (12.05.2000)

7. **Belçika Krallığının Səfirliyi (Brüssel)**
   Səfir - Mark Frank (28.11.96)

8. **Birləşmiş Ərəb Əmirliklərinin Səfirliyi (Ankara)**
   Səfir - Dr.Salem Rəşid Salem Əl-Əqrobi (19.02.1999)

9. **Bolqarıstan Respublikasının Səfirliyi (Bakı - 17.12.1999)**
   Müvəqqəti İşlər vəkili - Yüksel Əhməd

10. **Böyük Britaniya və Şimali İrlandiya Krallığının Səfirliyi (Bakı - 01.09.1992)**
    Səfir - Endryü Taker (06.12.2000)